ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

cild 92, №1, 2025 ISSN 2409-8817

ELMİ əsərlər

НАУЧНЫЕ ТРУДЫ

SCIENTIFIC WORKS

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2025.92.1
https://archive.org/details/scientific-works-volume-91-no-6-2024 – Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-91-6-2024-pdf/274660470 – SlideShare
https://www.calameo.com/read/007335995f0b1c4ddcc4a – Calameo
https://isindexing.com/isi/viewjournal.php – International Scientific Indexing
http://olddrji.lbp.world/Search.aspx?J=Scientific%20Works&S=0 – Directory of Research Journals Indexing

ISSN 2409-8817
E-ISSN 3078-2813

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 92, № 1, 2025

НАУЧНЫЕ ТРУДЫ

том 92, № 1, 2025

SCIENTIFIC WORKS

volume 92, № 1, 2025

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə
tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2025

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2025

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc. –prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2025

ÜZEYİR HACIBƏYLİNİN 140 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

РАСПОРЯЖЕНИЕ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О ПРАЗДНОВАНИИ 140-ЛЕТИЯ УЗЕИРА ГАДЖИБЕЙЛИ

ORDER OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ON CELEBRATION OF UZEYIR HAJIBAYLI'S 140th ANNIVERSARY

2025-ci ilin sentyabr ayında dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 ili tamam olur.

Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş qüdrətli sənətkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünün layiqincə keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 3 fevral 2025-ci il

BAŞ REDAKTORDAN
ОТ ГЛАВНОГО РЕДАКТОРА
FROM THE EDITOR-IN-CHIEF

ÜZEYİR HACIBƏYLİ – 140
УЗЕИР ГАДЖИБЕКЛИ – 140
UZEYIR HAJIBEYLI – 140

UOT 37.1

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
E-mail: a.abbasov@arti.edu.az
https://orcid.org/ 0000-0002-9210-7141
https://doi.org/10.69682/arti.2025.92(1).7-10

ÜZEYİR HACIBƏYLİ YARADICILIĞI MÜSBƏT MƏNƏVİ KEYFİYYƏTLƏRİ İNKİŞAF ETDİRMƏYİN VASİTƏSİ KİMİ

Акиф Нурага оглы Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор наук по педагогике, профессор, заслуженный учитель

ТВОРЧЕСТВО УЗЕИРА ГАДЖИБЕЙЛИ КАК СРЕДСТВО РАЗВИТИЯ ПОЛОЖИТЕЛЬНЫХ НРАВСТВЕННЫХ КАЧЕСТВ

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of sciences in pedagogy, professor, Honored teacher

UZEYİR HAJİBƏYLY'S CREATIVITY AS A MEANS OF DEVELOPING POSITIV MORAL QUALITIES

Xülasə. Üzeyir Hacıbəyli yaradıcılığı son dərəcə zəngindir. Çox müxtəlif elm sahələri (psixologiya, pedaqogika, fəlsəfə, filologiya və s.) üzrə onun yaradıcılığına müraciət etmək olar. Bu məqalədə bəstəkarın yaradıcılığını təhsilalanlarda müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin baxımdan nəzərən keçirməyi qarşımıza məqsəd qoymuşuq.

Açar sözlər: *dahi bəstəkar, Üzeyir Hacıbəyli yaradıcılığı, mənəvi keyfiyyətlər, müsbət mənəvi keyfiyyətlər, mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi*

Аннотация. Творчество Узеира Гаджибейли необычайно богато. Его работы могут быть применены в самых разных областях науки (психологии, педагогике, философии, филологии и т. Д.). В данной статье мы ставим своей целью рассмотреть творчество композитора с точки зрения формирования положительных нравственных качеств у учащихся и студентов.

Ключевые слова*: великий композитор, творчество Узеира Гаджибейли, духовные качества, положительные духовные качества, развитие духовных качеств*

Abstract. The 8nika of Uzeyir Hajibeyli are unusually rich. His 8nika can be applied in various fields of science (psychology, pedagogy, philosophy, philology, etc.). In this article, we aim to examine the composer's work from the point of view of the formation of positive moral qualities in pupils and students.

Key words*: great composer, creativity of Uzeyir Hajibeyli, spiritual qualities, positive spiritual qualities, development of spiritual qualities*

Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyli Allah-taalanın nəinki Azərbaycan, həmçinin dünya mədəniyyət tarixinə bəxş etdiyi böyük və qiymətli, son dərəcə dəyərli töhfədir. Bu dahi sənətkar Şərqdə, ümumilikdə isə, İslam dünyasında ilk operanın müəllifiydi. Özü də bu operanı 23 yaşında yaratmışdı. Üzeyir Hacıbəyli bəstəkar olmaqdan qabaq təcrübəli, qabaqcıl müəllim idi. 1904-cü ildə Cəbrayıl qəzasında müəllim işləmişdi (1904). Müəllimlik fəaliyyətinə başlayarkən Qori Müəllimlər Seminariyasında təhsil alaraq (1890-1904) müəllimlik peşəsinə yiyələnmişdi. O zamanlar Müslüm Maqomayev də burada təhsil alırdı. Gələcəyin dahi bəstəkarları seminariyada tanış olmuşdular. İlk təhsil illəri isə, Şuşanın ikiillik rus-türk məktəbində keçmişdir.

Üzeyir Hacıbəyli indi ən mötəbər və möhtəşəm məclislərdə əzəmətlə səslənən Azərbaycan Respublikasının dövlət himnini bəstələmişdir. Həmin himn 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə meydana gəlmişdi.

Azərbaycanın görkəmli bəstəkarları Asəf Zeynallı, Səid Rüstəmov, Fikrət Əmirov, Əfrasiyab Bədəlbəyli, Niyazi, Cövdət Hacıyev, Şəfiqə Axundova, Cahangir Cahangirov və b. Üzeyir bəyin tələbələri olmuşlar.

Üzeyir Hacıbəyli Ağcabədidə doğulsa da sonralar Şuşada yaşamış, 1905-ci ildən Bakıda əmək fəaliyyətini davam etdirmişdir.

Bəstəkarın fəaliyyəti çoxcəhətlidir. Biz onu müəllim, yazıçı, dramaturq, drijor, jurnalist, fövqəladə istedada malik musiqişünas, publisist, ictimai xadim, alim, dərsliklər müəllifi kimi tanıyırıq. Professor, akademik idi, Azərbaycan Dövlət Konservatoriyasının (hazırda Bakı Musiqi Akademiyası), respublika Bəstəkarlar İttifaqının sədri, deputat olmuşdu.

Üzeyir Hacıbəyli "Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşid banu", "Harun və Leyla" operalarının; "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" musiqili komediyaların; çoxsaylı felyetonların və hekayələrin müəllifidir.

"Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm" operaları, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları bir əsrdən artıqdır ki, dəfələrlə səhnə həyatı yaşamışdır. "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının motivləri əsasında bədii filmlər çəkilmişdir.

Musiqili komediyaları ilə yanaşı satirik hekayələri də (Bazar söhbəti", Təhsil", Söhbət", "Keçmişdə və indi", "Müəllimə", Dinmə, ver pulu" və s.) maraqla oxunur.

Ədibin çoxsaylı səhnəcikləri də vardır. Onlardan bəzilərini diqqət mərkəzinə gətirək: "Ordan-burdan", "Qalmaqal", "Ata və oğul", "Yuxuda", "Dumanın halı", Kələkbazlar", İran işləri" və s.

Üzeyir Hacıbəyli yaradıcılığı son dərəcə zəngindir. Çox müxtəlif elm sahələri (psixologiya, pedaqogika, fəlsəfə, filologiya və s.) üzrə onun yaradıcılığına müraciət etmək olar.

Bu məqalədə bəstəkarın yaradıcılığını təhsilalanlarda müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin baxımdan nəzərən keçirməyi qarşımıza məqsəd qoymuşuq.

Dahi Üzeyir hər bir insanın şəxsiyyət statusu almasından ötrü onun davranışı və rəftarına bir çox mühüm tələblər verirdi. Bütün bunları onun əsərlərindən görmək mümkündür. Üzeyir

bəy yaradıcı insan olmaqla yanaşı bir şəxsiyyət kimi kamil idi. Ən yaxşı mənəvi keyfiyyətləri özündə cəmləşdirmişdi. Məhz nəcib sifətlərə, müsbət mənəvi keyfiyyətlərə, nümunəvi davranış və rəftara yiyələnmiş, şəxsiyyətlərarası münasibətləri düzgün quran insanların başqalarına öyüd-nəsihət verməyə ixtiyarı var. Bu baxımdan Üzeyir bəy nümunə idi. Bir insan, bir tərbiyəçi, bir yaradıcı şəxs kimi.

Üzeyir bəyin əsərlərindən görünür ki, o, vəzifə sahiblərinin, o cümlədən çiynində rütbə gəzdirən şəxslərin insanları incitməsini, onların rüşvətxorluğun pisləyirdi. "Pristav ağa" hekayəsində İran sərbazına simsarlıq edən bir strajnikin özbaşınalığı, rəhmsizliyi tənqid edilir. Hekayədə bu strajnik M... kəndinə gələrək köməksiz bəzi kənd camaatını, ağsaqqalı, qarasaqqal, təqsiri, günahı olmadan, çallağa tutması təsvir olunur. Bu strajnuk əxlaqca, mənəviyyatca nə qədər yoxsul, kasıbdır ki, döyüb təhqir etdiyi həmin ağsaqqalın evində, qonaq üçün hazırladığı yatağında gecələyir, axşam da ailənin xanımının bişirdiyi yeməkdən yeyir. Buna yemək yox, zəhərlənmək deyərlər.

Üzeyir bəy pristavın gəlişini xəbər vermək üçün "cibində siçanlar oynayan" strajnukin kənddən cibi dolu qayıtdığını, kənd əhlini çalıb-çapıb getdiyini aşağıdakı sözlərlə bildirir: "Strajnik kəndə gələndə cibində beş-altı qəpik pulu var idi. Lakin gedəndə bu beş-altı qəpik bir gecənin içində beş-altı manata "istihalə" etmişdi. Bu "möcüzənin" sirri ev sahibi ilə cib sahibinə məlum idi" (1, s. 329).

Pristav nə zaman gələcək, nə üçün gələcək? – sualı kəndliləri çox düşündürür. Lakin bu sula cavab tapa bilmirlər. Fərziyələr irəli sürülür. Cənnətquluya görə, "pristav Əliqulunun oğurluğunu eşidib gəlir"; Əliqulunun fikrincə, "pristav ağa Cənnətqulunun Məmmədcəfərlə savaşdığını eşidib gəlir" (1, s. 329). Çoxunun qənaətincə, "Pristav ağanın işi kəndləri gəzib adam döydürməkdir!" (1, s. 329).

Nəhayət, pristav başının dəstəsi ilə at belində özünü kəndə çatdırır. Məlum olur ki, onun məqsədi camaatın dolanışığı, vəziyyəti ilə maraqlanıb onlara nə isə bir kömək göstərmək, onların dərdinə əlac qılmaq, oğurluq-doğurluq, dava-dalaş səbəbin araşdırmaq deyil. Həmişə olduğu kimi, yuxarıda diqqət mərkəzinə gətirdiyimiz sonuncu variantı ("Pristav ağanın işi kəndləri gəzib adam döydürməkdir!") reallaşdırıb, özünün hökmündən, səlahiyyətlərindən həzz almaqdır. Strajnikin özbaşınalığı bunun yanında heç nə imiş.

Üzeyir bəy bu xüsusda yazır: "Həyətdə sayanı-tamaşa bir drama vaqe olurdu. Pristav başıaçıq və əlləri ciblərində "özünü dartmış turac kimi" qapının ağzında durub, keçmiş padşahlara mənsub bir hökumət ilə cərgə ilə düzülmüş kəndliləri bir-bir və hərəsini bir növ döydürürdü. Birisini libasdan xali edib, lüt əndamına qançı vurdururdu, digərini saqqalından tutdurub, üzünə, başına şillələr çəkdirirdi, bir qeyrisini əlibağlı ora-bura çapdırırdı. Bəzisini yerə yıxıb, təpik altına saldırdı və saitə..." (1, s. 330).

Sual olunur? Bu yazıqların, bu binəvaların günahı nə idi? Şiddətə, təhqirə məruz qalırdı? Səbəb yox idi. Pristav onların gözünü qorxudurdu. İkincisi, bu cəza növləri, günahsız insanların əzab çəkmələri, qışqırıqları onu əyləndirirdi. O, bu zülmə əl atmaqla istirahət edirdi.

Bu hekayə, təbii ki, Azərbaycanda Xalq Cümhuriyyətindən əvvəlki dövrün hadisələrini təsvir edir. Çarizmin hökm sürdüyü illərdə insanların ağır həyatını, məhrumiyyətlərini, çəkdikləri əzab-əziyyəti, bir əlcə çörəyə möhtac olduqları zamanı özündə ehtiva edir.

Üzeyir Hacıbəylinin şah əsəri olan "Koroğlu" operasının librettosu ilə tanış olduq. Librettoda Alı kişi xana sədaqətlə xidmət edən, öz işinin ustası olan, yalan-palan bilməyən bir şəxsdir. Həsən xanın buyruğu ilə ilxıdan İbrahim xan üçün layiqli bir at (Qıratı) seçir. Atın görkəmi İbrahim xana və Həsən xana xoş gəlmir. Alı kişinin:

Mən xana bir xidmət etmək istədim,
Nə qədər cins at var seçdim, saxladım,

– sözlərinə məhəl qoymurlar.

Alı çisinin qonaq üçün seçdiyi bir cüt ad həqiqətən tərifə və mükəmməlliyə malik atlar idi. Sonralar onlara Qırat və Dürat adları verilir. Onlar Koroğlunun sevimli atları idilər, onu müharibələrdə qələbə qazandırardılar. Çevikliklərı, dərrakələri, sürətləri, sədaqətləri ilə.

Həsən xan isə, atları bəyənmədiyindən Alı kişini cəzalandırıb onun gözlərini çıxartdırır. O vaxtdan Ali kişinin oğlu Rövşəni kor kişinin oğlu – Koroğlu çağırırlar.

Liberettoda Alı kişi, Nigar, Koroğlu müsbət obrazlar kimi diqqət mərkəsindədirlər. Hə-

sən xan mənfi obrazdır. Xan bir əyalətin hökmdarıdır. Xalqın, camaatın günü-güzəranı ilə maraqlanmalıdır. Öz əyalətində sülhü, xoşbəxtliyi təmin etməlidir. Həsən xan isə, Bəd əməlləri, 10nikas1010n10i, qəddarlığı ilə seçilir. Öz rəiyyət barədə görün nə fikirləşir:

Qamçıdır saxlayan bu rəiyyəti,
Qamçısız yaşamaz xanın dövləti (1, s. 178)

Onun yanını kəsdirən Həmzə bəy də xanla eyni fikirdədir:

Döyməsən, söyməsən, malın almasan,
Dara çəkdirməsən, dama salmasan
Rəiyyət bir daha xanı dinləməz (1, s. 178).

Nigar gözüaçıq, öz məhəbbətində dönməz, xeyirxah, səmimi, əxlaqi saflığa yiyələnmiş bir xanımdır. Diqqət yetirək:

Şərir Həsən xan, zalım Həsən xan
Cəllada verdi fərman:
Fağır, günahsız, dilsiz, ağızsız Alını etsin qurban.
Kor etdilər yazıq Alını.
Dağıtdılar bütün malını (1, s. 181).

Bu hadisədən necə təsirləndiyini Nigar aşağıdakı sözlərlə bildirir:

Qəlbim yanır, odlanır,
Mənim bu ahü nalədən (1, s. 181).

Rövşənlə bir-birini sevirlər. Həsən xanın qızı olsa da, Alı kişinin, Rövşənin (Koroğlunun) yanında olur, onların mənafeyini müdafiə edir.

Gözümdə Rövşən, sözümdə Rövşən.
Rövşəndir dünyada məni yaşadan.
Sevmirəm, sevmirəm varı, dövləti,
Ölsəm də də saxlaram məhəbbəti (1, s. 181.

Həsən xan zülmkarlara qarşı mübarizəyə başlayan Koroğlunu aradan götürmək üçün tədbirlər tökür:

Tezliklə biz gərək çarə eyləyək,
Koroğlunu öldürmək, məhv etdirmək!.. (1, s. 191).

Fəqət Həsən xan istəyinə çata bilmir, Koroğlu zəfər qazanır, zülmün, məhrumiyyətin belini qırır. Bu zaman xalqa arxalanır.

Məni yaşatdı, məni böyütdü
Bu qəhrəman xalqım mənim! Yaşa!..
(1, s. 220).

Deyilənlərdən görünür ki, şəxsiyyət, təhsilalanlar mənfi keyfiyyətlərdən uzaq olmalı, müsbət keyfiyyətlərə yiyələnməlidirlər.

Problemin aktuallığı. Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi ərəfəsində onun müsbət mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi ilə bağlı fikirlərinin diqqət mərkəzinə gətirilməsi aktuallıq daşıyır.

Problemin yeniliyi. Üzeyir Hacıbəyli yaradıcılığı müsbət mənəvi keyfiyyətlərin inkişaf edirilməsinin vasitəsi kimi nəzərdən keçirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

Ədəbiyyat:

Ü.Hacıbəyli. Seçilmiş əsərlər. 2 cilddə. 1-ci cild. Bakı: Şərq-Qərb, 2005. 408 s.

Redaksiyaya daxil olub: 03.02.2025

UOT 37.1

Aygün Rəhim qızı Qafarova
fəlsəfə doktoru proqramı üzrə doktorant
Xəzər Universiteti
https://orcid.org/0009-0004-1260-129X
E-mail: quliyevkamal 1@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).11-13

ÜZEYİR HACIBƏYLİ ŞƏXSİYYƏTİN MÜSTƏQİL AİLƏ HƏYATINA VƏ ÖVLAD TƏRBİYƏSİNƏ HAZIRLANMASI HAQQINDA

Айгюн Рагим кызы Гафарова
докторант по программе доктора философии
Университет Хазар

УЗЕИР ГАДЖИБЕЙЛИ О ПОДГОТОВКЕ ЛИЧНОСТИ К САМОСТОЯТЕЛЬНОЙ СЕМЕЙНОЙ ЖИЗНИ И ВОСПИТАНИЮ ДЕТЕЙ

Aygun Rahim Gafarova
doctorial student in the program of doctor philosophy
Khazar University

UZEYİR HACIBAYLY ON PREPARİNG PERSONALİTY FOR İNDEPENDENT FAMİLY LİFE AND UPBRİNGİNG CHİLDREN

Xülasə. Məqalədə Üzeyir Hacıbəylinin şəxsiyyətin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması ilə bağlı fikirlərindən söz açılır. Əsasən "O olmasın, bu olsun" musiqi komediyasından ailə problemləri ilə bağlı bəzi məqamların üzərində dayanılır. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.
Açar sözlər. *Üzeyir Hacıbəylinin komediyaları, şəxsiyyət, ailə həyatı, müstəqil ailə həyatı, övlad tərbiyəsi, ailə həyatına hazırlıq*

Аннотация. В статье рассматриваются идеи Узеира Гаджибейли о подготовке человека к самостоятельной семейной жизни и воспитанию детей. Основное внимание уделяется некоторым моментам, связанным с семейными проблемами, из музыкальной комедии «Если не то, так это». Статья будет полезна молодым исследователям.
Ключевые слова. *Комедии Узеира Гаджибейли, личность, семейная жизнь, независимая семейная жизнь, воспитание детей, подготовка к семейной жизни*

Abstract. The article discusses Uzeyir Hajibeyli's ideas on preparing a person for independent family life and raising children. The main focus is on some moments related to family problems from the musical comedy "If Not That, Then This". The article will be useful for young researchers.
Key words: *comedies of Uzeyir Hajibeyli, personality, family life, independent family life, raising children, preparing for family life*

Şəxsiyyətin təşəkkül tapıb formalaşdırılmasında müxtəlif vasitələrdə istifadə olunur. Həmin vasitələr arasında təhsil və tərbiyəyə dair Azərbaycan dövlətinin və hökumətinin sərəncam, fərman və qərarları, dövlətin təhsil siyasəti, respublika Elm və Təhsil Nazirliyi kollegiyasının qərarları, Azərbaycan mütəfəkkirlərinin, yazıçı və şairlərin, bəstəkarların, pedaqoq və psixoloqların fikirləri önəmli rol oynayır.

Təhsil müəssisələrində şagirdlərin və tələbələrin müsbət mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi müxtəlif yollarla həyata keçirilir: 1) təlim prosesində ayrı-ayrı fənlər üzrə müvafiq mövzuların təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarını nəzərə almaqla; 2)

ümumtəhsil məktəbində sinifdənxaric və ali təhsil müəssisələrində auditoriyadankənar tədbirlərin roluna dəyər verməklə.

Qeyd etdiyimiz kimi, təhsilalanların, o cümlədən tələbələrdə mənəvi keyfiyyətlərinin daha da təkmilləşdirilməsi, inkişaf etdirilməsi sahəsində bəstəkarların əsərlərinin imkanları da genişdir. Bu mənada bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə anadan olmasının 140 illiyi qeyd olunacaq Üzeyir Hacıbəylinin musiqili komediyalarının, felyetonlarının, opera liberettolarının, satirik hekayələrinin və s. Təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlarından faydalanmaq son dərəcə yaxşı nəticələr verir.

Bu məqalədə dahi bəstəkarın şəxsiyyətin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması ilə bağlı qənaətləri, fikirləri diqqət mərkəzinə gətiriləcəkdir.

İlk növbədə Üzeyir Hacıbəylinin öz həyat yoldaşı barədə. Üzeyir bəy 20 dekabr 1909-cu ildə Məleykə Həsənağa qızı Terequlova ilə ailə qurmuşdur. Məleykə xanım şanlı-şöhrətli Terequlovlar nəslindən idi. Terequlovlar müsəlman idilər. Onun digər bacısı ilə dahi bəstəkar Müslüm Maqomayev evlənmişdi. Üzeyir bəy və Müslüm bəy görkəmli bəstəkar olmaqla yanaşı, yaxın dost, bacanaq idilər.

Məleykə xamım Üzeyir bəydən iki yaş kiçik idi. Məleykə xanım təhsilini evdə almışdı, eyni zamanda Tiflisdəki Knyagina Olqa Fyodorovna adına Birinci Qadın Gimnaziyasında oxumuş, gimnaziyanın 4 sinfini başa vurmuşdu. Bakıda Şərqin ilk konservatoriyası yaradılanda həmin konservatoriyaya qəbul edilmişdi.

Məleykə xanım Hacıbəyli müəllim kimi fəaliyyət göstərirdi. Bəzi rus-tatar məktəblərində müsəlman qız uşaqlarına dərs deyirdi.

Məleykə xanım 1966-ci ildə Bakıda dünya-12nik dəyişmişdi.

Məleykə xanımı təsadüfi olaraq diqqət mərkəzinə gətirmədik. Üzeyir bəy və o, çox gözəl cütlük idilər. Uğurlu nikah, xoşbəxt ailə şəraitində yaşamış, necə deyərlər: bir0birinə can demişdilər. Bu ailədə normal, yüksək səviyyəli mənəvi və psixoloji atmosfer mövcud idi. Ailədə qarşılıqlı anlama hökm sürürdü.

Ona görə də Üzeyir bəy bütün azərbaycanlı ailələrin mehriban şəraitdə yaşamalarını, həyatdan zövq almalarını, uşaqların düzgün tərbiyə olunması qayğısına qalmasını məsləhət görürdü. O, qarşılıqlı güzəştə getməni ailə münasibətlərinin yaxşı olmasından ötrü mühüm vasitə kimi görürdü. Sevənlərin nikaha, ailəyə ciddi yanaşmalarını, baş qaldıran problemlərin tez bir zamanda birgə rəyə gəlməklə aradan qaldırılmasını vacib sayırdı. Öz əsərlərində eyni zamanda ailə münasibətlərində özünü göstərən zorakılıq hallarını, qadınların hüquqlarının tapdalanması, qadına yuxarıdan aşağıya baxılması, yetkinlik yaşına çatmamış qızların ərə verilməsini, bəzən də özündən çox yaşlı kişi ilə evləndirilməsini pisləyirdi. Musiqili komediyalarında qızların istəmədikləri şəxslərə ərə verilməsi tənqid olunur.

Diqqət edək:

“***Gülnaz***. Bu gün səni çox kefsiz görürəm, nə olub?

Sərvər. Atan səni bir özgəsinə ərə vermək istəyir.

Gülnaz. Bəs atam mənə heç zad deməyiblər.

Sərvər. Bu gün deyər və bir də sənə nə deyəcəkdir, sənin borcun onun sözünə qulaq asmaqdır.

Gülnaz. Yox, yox, mən səndən başqa özgəsinə ərə getməyəcəyəm, qoy məni öldürsün, mən səni sevirəm, sənə də gedəcəyəm

Sərvər. Axı o ər məndən dövlətlidir

Gülnaz. Cəhənnəmə olsun!

Sərvər. Məndən gözəldir.

Gülnaz. Çox mənə lazımdır!

Sərvər. Məndən cavandır.

Gülnaz. Lazım deyil.

Sərvər. Yalan deyirəm. O kişi, doğrudur məndən min kərrə dövlətlidir, amma özü qocadır, azından əlli yaşı vardır. Görsən qorxarsan.

Gülnaz. Mən daha səbir edə bilmirəm: günü bu gün atama deyəcəyəm ki, mən səni sevirəm və səndən başqasına ərə getməyəcəyəm” (2, s. 249).

Göründüyü kimi, “O olmasın, bu olsun” musiqili komediyasında uğurlu nikahın, xoşbəxt ailənin yaranmasına maneçilik törədəcək hallar özünü göstərir. “Ata qızının rəyini öyrənmədən, ona bir söz demədən, artıq onuncun nişanlı seçib. Özü də qızından yaşca ən azı iki dəfə böyük ər tapıb. Qızının xoşbəxtliyi barədə fikirləşmir. Məşədi İbad tacirdir, varlı-dövlət sahibidir. Gülnazın atası Rüstəm bəy borcun içindədir. Ona borc verənlər pullarını geri almaq üçün Rüstəm bəyi sıxışdırırlar. O, bir növ qızını Məşədi İbada satır. Onu Çimnazın gələcək həyatı,

xoşbəxtliyi deyil, borcunu vermək daha çox düşündürür. Diqqət yetirək:

Məşədi İbad. Axır sözünü de, qızı mənə verirsənmi? Yoxsa vermirsən, gedib ayrı qız alaram, deyərəm ki o olmasın, bu olsun.

Rüstəm bəy. Mən öz sözümün üstündə duran adamam. Ancaq sən də gərək qabaqca bir balaca tədarük görəsən.

Məşədi İbad. Min manat sənə bəsdirmi?

Rüstəm bəy. Min də üstə artır.

Məşədi İbad. A kişi, axı bunun bir anbar da toy xərci var.

Rüstəm bəy. Hərgah bur qədər cavan olsa idin, bu iş sənin üçün ucuz tamam olardı, amma heyf ki, qocasan, taxsır özündədir.

Məşədi İbad. A kişi, mən nə qədər qoca olsam da, min buğu burma cavana dəyərəm. Ala, min beş yüz manat, qalanını da sonra verərəm" (2, s. 254-255).

Təsəvvür edək. Məşədi İbad Gülnazı heç görməyib. Rüstəm bəyə deyir:

Məşədi İbad. İndi mən istəyirəm ki, bir qızı görüm, danışdırım, nə deyimsən?

Rüstəm bəy. Əyləş, bu saat qızı göndərərəm (*gedir*)

Məşədi İbad. Zarafat deyildir, bir ətək pul verirəm, bir baxım, görüm mal nə cür maldır, verdiyim pula dəyərmi? (2, s. 255).

Göründüyü kimi, Məşədi İbad evlənmək istədiyi xanıma, övladı yerində olan cavab qıza özünün ticarət obyektində alışı-verişi ilə məşğul olduğu ***mal, əşya kimi*** yanaşır.

Məşədi İbad Gülnazla və qulluqçu Sənəmlə görüşəndən sonra Rüstəm bəy içəri girərək soruşur:

Rüstəm bəy. Necədir, qızı bəyəndin?

Məşədi İbad. Qızı da bəyəndim, hələ desən qulluqçunu da!

Rüstəm bəy. Bir beş-altı yüzdən keç, onu da sənə peşkəş eyləyim.

Məşədi İbad. Yox, o hələ sonranın işidir (2, s. 258).

Bu dialoq həm Rüstəm bəyin, həm də Məşədi İbadın ailəyə, ailə münasibətlərinə necə yüngül yanaşıldığının göstərir. Rüstəm bəy beş-altı yüz manata Sənəmi də Məşədi İbada satmaq istəyir. Məşədi İbad xəsislik edir. Əslində Gülnazla birgə Sənəmi də özünə arvad etmək ürəyindən keçir. Təbii ki, bu minvalla qurulan ailə uzun ömürlü ola bilməz.

Məşədi İbad ömür-gün yoldaşına münasibəti də çox pisdir. Diqqət yetirək:

Məşədi İbad. Qız nə qədər gözəl olsa da, bir o qədər mənə baha oturdu. Qız gəlsin, amma bu evdə oturmağa hövsələsi gəlməsin, çünki o cürə evdə böyümüş qız bir az kəmhövsələ olar (acıqlı). Ağzı nədir! Vallahi, bax bu gündən bir yekə qıfıl alacağam. Səhər durub dükana gedəndə qapını qıfıldayıb, açarını aparacağam ta axşam qaydana qədər, qoy qalsın evdə, evə öyrəşsin; pəncərələri də daldan taxta ilə vurduracağam. Çox da oyan-bu yan eyləsə, döyəcəyəm, çünki arvad ki, döyülmədi, xarab olar; arvad ərindən nə qədər kötək yesə, bir o qədər ərin çox istəyər (2, s. 284).

Göründüyü kimi, Məşədi İbadın qənaətincə, "qadınlar nə qədər döyülsə, ərini bir o qədər çox sevər", "qadını qapalı yerdə saxlasan, bir otağa salıb qapını qıfıllayıb açarını götürsən, ərinə hörmət edər, onunla dilləşməz!"

Son dərəcə meşşancasına təsəvvürlərdir. Belə ailələrin, belə ər-arvadlığın ömrü qısa olar.

Bu əsər ötən əsrin əvvəllərində qələmə alın13nikas. O zamanlar ər-arvad münasibətləri, valideyn-övlad münasibətləri müasir günümüzlə müqayisədə fərqli idi. Lakin, təəssüf ki, hazırda da qızların erkən ərə verilməsi, valideynin təşəbbüsü ilə sevmədiyi ilə nikah bağlamağa məcbur edilməsi, mənafe güdərək evlənmə hallarına rast gəlinir. Ciddi səbəb olmadan ailədə ixtilafların baş alıb getməsi, boşanma hallarının art13nik müşahidə olunur.

Problemin aktuallığı. Dahi bəstəkarın 140 illik yubileyinə yaxşı töhfə olduğu üçün aktuallıq kəsb edir.

Problemin yeniliyi. Tələbələrin və şagirdlərin müstəqil ailə həyatına və övlad tərbiyəsinə hazırlanması probleminə həsr olunub.

Problemin praktik əhəmiyyəti. Doktorant və dissertantlarda, magistrant və magistrdə maraq doğuracaqdır.

Ədəbiyyat:

1. Səfərov, R. Pedaqoq, maarifçi, musiqişünas: Dahi bəstəkarın həyat yoldaşı Məleykə xanım Hacıbəyovanın bioqrafiyasından bəzi qeydlər. https://www.anl.az/down/meqale/azerbaycan /2020/mart/706334.htm Azərbaycan. – 2020. 7 mart. – s.4
2. Hacıbəyli, Ü. Seçilmiş əsərləri. 2 cilddə, 1-ci c. -Bakı: Şərq-Qərb, 2005. -408 s.

Redaksiyaya daxil olub: 03.02.2025

UOT 37.0

Pərişan Məhərrəm qızı Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5840-5084
E-mail: perisanhesenova@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).14-21

MULTİKULTURAL DƏYƏRLƏR VƏ ONUN PEDAQOJİ PROSESDƏ NƏZƏRƏ ALINMASI

Паришан Магеррам гызы Гасанова
доцент кафедры Педагогики дошкольного образования
Азербайджанского Государственного Педагогического Университета
доктор философии по педагогике

МУЛЬТИКУЛЬТУРНЫЕ ЦЕННОСТИ И ИХ УЧЕТ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

Parishan Moharram Hasanova
associate professor of the 14nikas1414n14i of Pedagogy of preschool education,
Azerbaijan State Pedagogical University

MULTICULTURAL VALUES AND ITS CONSIDERATION IN THE PEDAGOGICAL PROCESS

Xülasə. Məqalədə mültukultuaral dəyərlər bəşəri dəyərlərdən biri kimi araşdırılmış, göstərilmişdir ki, dünyaya inteqrasiya edən müasir Azərbaycanın yeni nəsli multukultural dəyərlərə sahib olmalı və bu ideya təhsil sistemində nəzərə alınmalıdır. Çünki gələcəyin fəal qurucusu olan gənclər təhsildə yetişir. Müasir gəncliyi multukultural dəyərlərə sahib olması üçün onların pedaqoji maarifləndirilməsi mühüm şərtdir. Həmçinin məqalədə təhsildə multukultural dəyərlərin formalaşdırılması üçün Heydər Əliyev irsi və onun azərbaycançılıq ideyalarından bəhrələnməyin vacibliyi əsaslandırılmışıdr.
Açar sözlər: *multukultural dəyərlər, tolerantlıq, pedaqoji proses, təhsildə millilik, bəşəri ideyalar, elmi-texniki tərəqqi.*

Аннотация. В статье рассматриваются общечеловеческие ценности как одна из мультикультурных ценностей. Показано, что новое поколение современного Азербайджана, интегрирующееся в мир, должно обладать мультикультурными ценностями и эту идею следует учесть в системе образования, так как молодежь будучи, активными строителями будущего, формируются в процессе образования. Педагогическое образование является важным условием обладания современной молодежью поликультурными ценностями. В статье обосновывается важность использования наследия Гейдара Алиева и его идей азербайджанства для формирования мультикультурных ценностей в образовании.
Ключевые слова: *мультикультурные ценности, толерантность, педагогический процесс, национальность в образовании, общечеловеческие идеи, научно-технический прогресс*

Abstract. The article examines human values as one of the multicultural values and it is emphasized that the new generation of modern Azerbaijan which is integrating into the world should possess

multicultural values and this idea should be taken into account in the education system. Because the youth who are the active builders of the future are raised through education. It is an important condition for the modern youth to be pedagogically enlightened in order to possess multicultural values. The article also justifies the importance of benefiting from Heydar Aliyev's legacy and his ideas of azerbaijanism in order to foster multicultural values in education.

Key words: *multicultural values, tolerance, pedagogical process, nationalism in education, humanistic ideas, scientific and technological progress*

Müasir qloballaşma bir tərəfdən elmi-texniki tərəqqini dəstələyərək sürətli inkişafı real həyata daxil etməklə müasir insanın şüurunda dərin inqilablar yaradır. Digər tərəfdən də bu mütərəqqi dəyişikliklər, dövlətlərarası əlaqələrin genişlənməsi, şüurda baş verən müxtəliflik milli-əxlaqi dəyərlərə müəyyən təhlükələr gətirir. Elə bir dövrdə yaşayırıq ki, artıq cəmiyyət vətəndaşını təkcə öz ölkəsi üçün böyütmür. Bu gün ölkəmizdə böyüyən hər bir yeniyetmə sabah dünyanın istənilən ölkəsində yaşaya bilər. Dünyaya inteqrasiya etdiyimiz bir vaxtda gənc nəsil həyata, real aləmə öz baxış və ideallarında, dünyagörüşündə tamam fərqli – açıq, sərbəst və tənqidi mövqedədirlər. Bu xüsusiyyətlərin mütərəqqi cəhətləri ilə yanaşı, bizim üçün diqqət çəkən (demək olar ki, qorxulu) tərəfləri də vardır. Yaşlı nəsil həyat tərzində, münasibətlərində, düşüncələrində nə qədər təmiz, nə qədər məsuliyyətli, nə qədər diqqətli olmalıdır və gənc nəslə hər şeyi olduğu kimi çatdırmalıdır ki, gənc nəsil də yaşlı nəsildən öyrənsin, ona etibar etsin və keçmişi ilə fəxr etsin. Bunun bir yolu var: tariximizi öyrənməli, öyrənməli və düzgün nəticə çıxarmalıyıq. Elə bir vətəndaş yetişdirmək lazımdır ki, dünyanın hansı məkanında yaşamasından asılı olmayaraq o, vətənini təmsil etməyi bacarsın, özünü vətəninin bir hissəsi hesab edərək tələbat və maraqları, dünyagörüşü və siyasi baxışları ilə bu istiqamətə köklənmiş olsun.

Hər bir gəncin Azərbaycan dövlətinin mənafeyi mövqeyindən çıxış etməsi zəmanəmizin tələbidir. Eyni zamanda hər bir gənc müxtəlif mədəniyyətlərin, sivilizasiyaların xüsusiyyətlərini, tarixini, sosial-mədəni inkişaf yolunu bilmədən birgə yaşaya bilməz. Ölkəmizdə hər kəsin milli kimliyi onun özünü azərbaycanlı kimi hiss etməsinə heç bir əngəl yaratmır. Hər kəs öz dilində danışa və yaza bilər. Azərbaycan Respublikasının Konstitusiyasının 45-ci maddəsində göstərilir ki, "... hər kəsin ana dilindən istifadə etmək hüququ, hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz". Bu gün ölkəmizdə dinlərarası dözümlülük, qarşılıqlı hörmət və əməkdaşlıq vacib şərtlərdəndir, bunların yoxluğu isə dini münaqişələrə, millətlərarası qarşıdurmalara gətirib çıxara bilər.

Hazırda müstəqil Azərbaycan gənc dövlət olsa da, onu özünün tarixən formalaşmış multikultural dəyərlərə sahib, sabit yaşamaq təcrübəsi olan bir cəmiyyət hesab etmək olar. Azərbaycanın mənəvi inkişaf imkanına, müstəqillik təcrübəsinə malik tarixi keçmişi vardır. Bu gün qloballaşan dünyada milli-mənəvi dəyərləri qorumaqla qlobal dünya dövlətləri ilə münasibətlər qurmaq heç də asan deyil. Belə bir dövrdə yeni insan tərbiyəsi mütləqdir. Elə bir insan ki, həm tarixi köklərinə bağlı olsun, həm də bəşəri dəyərləri mənimsəmiş olsun. Fəal, təşəbbüskar, dünyada gedən proseslərə həssas, eyni zamanda mədəni və tolerant, multikultural dəyərlərə sahib şəxsiyyətlərin formalaş15nik müasir təhsilin qarşısında duran ən mühüm vəzifələrdəndir. Çünki gələcəyin fəal qu15nikas təhsil sistemində yetişir. Qlobal aləmdə rəqabətədavamlı dövlətin mövcudluğu bu cür vətəndaşdan, onun multikultural dünyagörüşündən başlanır. Sürətli qloballaşma, inteqrasiya, beynəlxalq miqrasiya prosesləri insandan multikultural dəyərlərə sahib olmağı tələb edir.

Multikulturalizm nədir? Latıncadan tərcümədə "çoxmədəniyyətli" mənasını ifadə edən multikulturalizm sözü müxtəlif millətlərə, dinlərə, mədəniyyətlərə mənsub olan xalqların birgə yaşayışı, sivilizasiyalararası dialoq, zənginləşmə, dostluq, müxtəlif dinlərə hörmət və qarşılıqlı anlaşma, müxtəlif millətlərə, dinlərə qarşı mədəni müxtəlifliklərin qorunması, inteqrasiyası və tolerantlıq yönündə gedən prosesləri özündə ehtiva edir.

Multikulturalizm (ingilis dilindən tərcümədə "çoxlu mədəniyyətlər" deməkdir) sosial-mədəni davranışın və müvafiq siyasi strategiyanın modeli kimi də nəzərdən keçirilir. Azərbaycanın tarixən əlverişli coğrafi mühiti, insanlar arasında xoş ünsiyyət, mehribanlığın olması

bəzi etnik qrupların ölkəmizdə yaşamasına gətirib çıxarmışdır. Bu gün Azərbaycan əhalisinin çox hissəsini azərbaycanlılar təşkil etsə də, əhalinin ümumi sayında müxtəlif millətlərin, azsaylı etnik və dini qrupların nümayəndələrinin də payı vardır. Azərbaycan müxtəlif millətlərin, etnik qrupların məskunlaşdığı bir məkandır. Lakin bu, onların birgə yaşamasına, mehriban qonşuluq əlaqələrinə, bir-birinin dillərinə qarşılıqlı hörmət etmələrinə heç bir əngəl yaratmır. Azərbaycanda multikulturalizmin banisi Ulu Öndər Heydər Əliyev demişdir ki, Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, baş16nik da – bütünlükdə hamısı azərbaycanlıdır.

Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində və dünya siyasətində böyük əhəmiyyət kəsb edən bir şəxsiyyətdir. Onun irsi, xüsusən də multikulturalizmi dəstəkləməsi və bu prosesə pedaqoji yanaşmaları bu gün də Azərbaycan cəmiyyətinin inkişafına mühüm təsir göstərir. Doğrudan da, dərindən analiz etdikdə Ulu Öndərin multukultural siyasətində bir pedaqoji yanaşma vardır. Bu özünü nədə göstərir?

– Multikulturalizm – insanların, millətlərin, xalqların bir-birinə yaxınlaşmasıdır- insan kiməsə yaxınlaşanda birinci özünə diqqət göstərir, özünə tənqidi yanaşır, öz üzərində işləyir. Bir sözlə, özünə nəzarət etmək vərdişlərinə yiyələnir, bir növ özünü tərbiyə edir. Belə bir tərbiyə milli və bəşəri dəyərlərə söykənən və müasir texnologiyalara əsaslanan təhsil prosesində həyata keçə bilər.

– Multikulturalizm – birgəyaşam tərzidir. İnsan həmişə münasibətdə olduğu tərəfin bütün cəhətlərini öyrənməyə çalışır – onun ənənəsini, adətini, xarakterini və s. Bu zaman o, əhatəsi haqqında dəqiq təsəvvürlərə malik olur, həmçinin də öz "Mən"ini "Qeyri-Mən"ə qarşı qoya bilir, müqayisəli təhlil apararaq özünə tənqidi yanaşır və özünü inkişaf etdirir, qarşılıqlı anlaşma yollarını tapır və ya əksinə. Bütün bunlar onu deməyə əsas verir ki, nə qədər ki, elm inkişaf etməmişdi insanlararası münasibətlər də bəsit idi. Elmi nailiyyətlər artdıqca o, insanlararası münasibətləri daha da mürəkkəbləşdirərək münasibətlərə yeni forma verdi. Başqa xalqlara və millətlərə qiymət vermək üçün birinci növbədə insan öz milli-mənəvi dəyərlərini tanımalı, onu qiymətləndirməyi bacarmalıdır. Bəşəri dəyərlərə sahib olmaq üçün birinci azərbaycançılıq ruhunda tərbiyə mühüm şərtdir. Belə bir vətəndaşın yetişməsi ailədən başlasa da bu proses təhsildə sistemli şəkildə davam etdirilir. Təhsilin ən mühüm vəzifəsi insan yetişdirməkdir. Ulu Öndər dönə-dönə bildirirdi ki, gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidir, tariximizi, dilimizi, milli ənənələrimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz... Bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır [1, 357-358].

Hazırda Azərbaycan bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də nailiyyətlər qazanır. Bu proses həm də Azərbaycan mənəviyyatını zənginləşdirməklə yanaşı milli-mənəvi dəyərlərimizə daha çox bağlı olmağı tələb edir. Heydər Əliyevin irsində təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçiliyi prinsipləri əsasında qurulması ideyasının ön planda durmasını görə bilərik.

Düzdür, Heydər Əliyev xalqımızın mənəviyyatının zənginləşdirilməsinin bir yolu kimi ümumbəşəri və dünyəvi dəyərlərdən səmərəli istifadə etməklə, onları öz mənəvi dəyərlərimizə sintez etməkdə görürdü və bunu gələcək üçün strateji yol hesab edirdi. Lakin Ulu Öndər təhsilin məzmunca milli ideologiyaya uyğun, müstəqillik prinsiplərinə müvafiq qurul16nikas dönə-dönə bildirirdi. O, təhsilin məzmununun müstəqil Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulması ideyasından çıxış edərək deyirdi: "Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq... Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar" [1]. Ulu Öndər çıxış yollarından biri kimi dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması, təhsilin məzmunca milli müstəqilliyimizin prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlər, xüsusən, tarix, dil və ədəbiyyatın tədrisinin ilk növbədə məzmunca yeniləşdirilməsində görürdü. O, deyirdi: " Milli ideologiyamızı hər yerdə

tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır" [2].

Dövlətçilik, milli müstəqillik, ana dilinin mövqelərinin möhkəmləndirilməsi, dini və milli dəyərlərə hörmət, milli sərvətləri qorumaq kimi məsələlər Heydər Əliyev irsində azərbaycançılıq prinsiplərinin əsasını təşkil edir. O, bildirirdi: "Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycanın dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycançılıq hissləri yaşamalıdır" [1, s. 360].

Doğrudan da, dilin ümumiliyi fikirlərin, siyasi təfəkkürün, həmin dildə yaşadılmış mədəni sərvətlərin də ümumiliyinə, bədii-estetik düşüncənin də birliyinə gətirib çıxarır.

Xüsusilə millətlərin bir-birinə inteqrasiyasının gücləndiyi indiki dövrdə milli mənəviyyatımızın daha da zənginləşməsi və təbliği yolunda dünyada yaşayan azərbaycanlıların qüvvəsindən istifadə etməyin gərəkli olduğunu hiss edən Ulu Öndər 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsini təşkil etdi. Bununla kifayətlənməyən dahi qurucu 2002-ci ildə "Xaricdə yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət komitəsinin yaradılması barədə" fərman imzaladı ki, bu da tək xaricdə yaşayan azərbaycanlıların bir-birilə əlaqəsini deyil, həm də xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən əlaqələndirilməsinə, həm də onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar açdı.

Heydər Əliyev irsində maraq doğuran cəhətlərdən biri də milli mənəviyyatımızın zənginləşməsində ümumbəşəri dəyərlərə inteqrasiyanı əsas cəhət kimi götürməsi idi. Ulu Öndər qarşıya belə bir vəzifə qoyurdu ki, öz milli və mənəvi kökünə sadiq olan hər bir gənc, həm də ümumbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etməyi, onları öz mənəvi dəyərlərimizə birləşdirərək xalqımızın mənəviyyatını daha da zənginləşdirməyi bacarmalıdır. O, məsələnin ikinci tərəfini də açaraq qeyd edirdi ki, milli-mənəvi dəyərlərimizin dünyaya inteqra17nikas həm də ümumbəşəri dəyərlərə öz töhfəsini verə bilər.

26 avqust 1994-cü ildə Mövlud bayramı münasibətilə Bakıda Təzəpir məscidində təntənəli mərasimdəki çıxışında Ulu Öndər demişdir: "Son illər dinimizə qayıtmağımız, müstəqil Azərbaycan Respublikasında İslam dininin öz yerini tutması tarixi hadisədir. Əsrlər boyu xalqımız bu dinə bağlı olaraq, ondan bəhrələnərək yaşayıb-yaratmışdır... Güman edirəm ki, biz azərbaycanlılara – bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq" [1, s. 144].

Ulu Öndərin uzaqgörən siyasəti bu gün öz nəticələrini verdi. Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq 44 günlük Vətən müharibəsinin şanlı qələbəsini bu uğurlu siyasətin nəticəsi hesab etmək olar. Heydər Əliyev irsinin layiqli davamçısı olan Hörmətli Prezident İlham Əliyev öz çıxışlarında müəllimlərə tövsiyə edir ki, dərslərinizin 10-15 dəqiqəsini milli mənəviyyata həsr edin. Çünki bizi möhtəşəm qələbəyə milli mənəviyyata sahib oğullarımız çatdırdı.

Təhsilin milli zəmində inkişaf etməsini, milli kadr potensialımızın günü-gündən artmasını tövsiyə edən Ulu Öndər məhz müstəqil dövlətimizin idarə olunmasını və inkişafını yüksək savada, biliyə, ixtisasa, elmə malik insanların olmasında, özü də onların cəmiyyətdə çoxluq təşkil etməsində görürdü. Çünki özünü tanımayan, özünə hörmət qoymayan başqasına hörmətlə yanaşarmı? Yalnız yüksək insani münasibətlərə malik, milli-mənəvi dəyərlərinə sahib, tarixi keçmişini unutmayan, gələcəyini bu əsasda quran insan başqa millətlərə hörmətlə ya17nik bilər.

Belə qənaətə gəlmək olar ki, ölkəmizin təhsil siyasətində multikultural dəyərlər nəzərə alınmalıdır. Müasir təhsilin konseptual problemlərindən biri təhsilin inkişafetdirici və tərbiyəedici mahiyyətini dəyərləndirməkdir. Belə ki, müasir təhsil konsepsiyasında sərbəst düşüncə tərzinə malik, müstəqil, azad, demokratik baxışlı Azərbaycan vətəndaşlarının milli ruhda tərbiyəsi mühüm məna kəsb edir. Düzdür, gənc dövlətimizdə hələ də milli tərbiyə konsepsiyası tam mənasında işlənməmişdir. Lakin qədim tarixi, zəngin milli-mənəvi dəyərləri olan xalqımızın deyimləri, duyumları, milli mədəniyyət abidələri, incəsənəti ilə yanaşı milli ruhu özündə yaşadan bir çox mənbələr vardır. Doğrudan da

Heydər Əliyev irsi ilə tanış olan hər kəs burada müstəqil Azərbaycanın inkişaf edib dünyada tanınması yollarını görə bilər. Ulu Öndər cəmiyyətin gələcək tərəqqisini gənclərimizin mükəmməl təhsil almasında görürdü. O, deyirdi: "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır. Əlbəttə, bu da təhsil sistemimizin qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyası, təhsilin modernləşdirilməsi yolu ilə həyata keçə bilər. Müstəqil dövlətimizi möhkəmləndirmək üçün müasir gəncliyə elmi- texniki biliklər vermək, praktik vərdişlər mənimsətmək ba18nikas1818n ilə yanaşı milli-mənəvi dəyərlərə malik olmaq, milli xüsusiyyətlərinə hörmətlə yanaşmaqla bərabər multukultural dəyərləri də aşılamaq lazımdır.

Heydər Əliyev multikulturalizmi yalnız bir ideologiya kimi deyil, həm də bir həyat tərzi və dövlət siyasətinin əsas prinsipi olaraq qəbul edirdi. Heydər Əliyev Azərbaycanın müxtəlif etnik qruplarının birgə yaşaması və mədəni müxtəlifliyin qorunması məsələsini daim önə çəkmişdir. O, Azərbaycanın zəngin multikultural ənənələrini inkişaf etdirərək, bütün xalqların bərabər hüquqlara malik olması prinsipini irəli sürmüşdür. Bu yanaşma, həmçinin, Azərbaycanın sosial və mədəni inkişafına böyük təsir etmişdir. Heydər Əliyevin multikulturalizmi müdafiə etməsinin əsas prinsiplərini belə qruplaşdırmaq olar:

1. Dini və milli tolerantlıq: Ulu Öndər dövlətçilik sahəsindəki siyasəti dövründə Azərbaycanda bütün dini və milli azlıqların birgə yaşama hüquqlarını dəstəkləmişdir. Bu, cəmiyyətin müxtəlif qruplarının qarşılıqlı hörmət və anlaşma üzərində qurulmuş birgə həyatda yaşamasına imkan yaratdı.

2. Bərabərlik və ədalət: o, bütün etnik və dini qruplara bərabər hüquqların tanınması, bu baxımdan ayrı-seçkiliyin aradan qaldırılması və mütləq ədalət prinsiplərinin təmin edilməsi üçün müvafiq siyasətlər yürütmüşdür.

3. Mədəni müxtəlifliyin dəstəklənməsi: Heydər Əliyev Azərbaycanın mədəni müxtəlifliyinin zənginliyini hər zaman vurğulayıb və bu zənginliyi qorumaq məqsədilə bir sıra addımlar atmışdır. Azərbaycan dilinin, ədəbiyyatının, musiqisinin və adət-ənənələrinin qorunması üçün ciddi siyasətlər həyata keçirmişdir.

4. Dünya ilə inteqrasiya: Ulu Öndər həmçinin Azərbaycanın beynəlxalq aləmdə tanınmasını təmin etmək və multikulturalizm ideyasını digər ölkələrə də təbliğ etmək üçün böyük işlər görmüşdür. Heydər Əliyev yalnız daxili siyasətdə deyil, beynəlxalq arenada da Azərbaycanın multikulturalizm modelini təbliğ etmişdir. O, Azərbaycanın Avropa və Asiya arasında bir körpü olaraq rolunu gücləndirmək və dünya birliyindəki yerini möhkəmləndirmək üçün müxtəlif ölkələrlə əlaqələrini inkişaf etdirmişdir. Bu baxımdan, Heydər Əliyevin multikulturalizm yanaşması yalnız dövlət daxilində deyil, bütün dünyada qəbul edilən bir siyasət halına gəlmişdir.

Heydər Əliyevin multikulturalizm prinsipləri, təkcə dövlət siyasəti ilə məhdudlaşmayıb, həm də təhsil sahəsində geniş şəkildə tətbiq olunur. Bu prinsiplər, xüsusən də ümumtəhsil məktəblərində və universitetlərdə yeniyetmələr və gənclər arasında müxtəlif mədəniyyətlərə və dəyərlərə hörmətin aşılanmasına yönəlmişdir. Bunları araşdıraq:

5. Təhsildə multikultural yanaşma: Heydər Əliyev, Azərbaycan məktəblərində və universitetlərində fərqli etnik və dini qruplara aid uşaqların birgə təhsil almalarını təqdir etmişdir. Bu yanaşma, gənclər arasında qarşılıqlı hörmət və anlaşmanın inkişafına şərait yaratmışdır. Hələ Soverlər dönəmində Ulu Öndər tərəfindən yüzlərlə xarici tələbələrin Azərbaycanda təhsil almaları təşkil edilmiş, eyni zamanda neçə-neçə azərbaycanlı gənclərin xaricdə təhsil almalarına şərait yaradılmışdır. Uzaqgörən siyasətçi Ulu Öndərin təhsildə multikultural siyasəti ölkəmizdə gələcəkdə quracağı müstəqil dövlətimizin milli kadr potensialının bazasını hazırlamış oldu.

6. Müxtəlif millətlərdən olan gənclərin təhsilə cəlb olunması ilə ölkələrarası dil və mədəniyyətin qorunması prosesi də baş verdi: Heydər Əliyev Azərbaycan dilinin qorunması ilə yanaşı, digər dillərin və mədəniyyətlərin də təhsil sistemində yer almasını dəstəkləmişdir. Bu, müxtəlif etnik və dini qrupların öz mədəniyyətlərini və dillərini ana dilində tədris etmələri üçün imkan yaratmışdır. Hazırda Heydər Əliyevin bu siyasəti bu gün də davam etdirilir. Ölkəmiz üçün pedaqoji kadrlar hazırlayan iri universitetlərindən olan ADPU-da azərbaycanlılarla yanaşı başqa millətlərdən olan tələbələr də

təhsil alır və onların müxtəlif dillərdə təhsil almaları üçün şərait yaradılmışdır.

7. İnteqrasiya və sosiallaşma: pedaqoji prosesdə multikultural yanaşmanın tətbiqi, gənclərin müxtəlif mədəniyyətlər və həyat tərzləri ilə tanış olmasını və bununla da daha tolerant və humanist bir cəmiyyətin formalaşma-19nik təmin etmişdir. Bu yanaşma, təhsil müəssisələrində qarşılıqlı anlaşma və əməkdaşlıq ruhunun yaradılmasına yönəlmişdir. Məhz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş inteqrasiya və sosiallaşma 30 illik işğalın Böyük Zəfərlə sona çatmasına vəsilə oldu. Belə ki, torpaqlarımızı ilhaq etmiş, "böyük ermənistan" iddiaları ilə yaşayan qonşularımız ölkələrarası dinc yanaş yaşamaq prinsiplərini pozmaqla bərabər, qonşu xalqlarla sosiallaşmaqdan imtina etmiş, ölkəsində bir milləti belə saxlamamaış, ali irqə mənsub olduqlarını irəli sürərək çürük iddiaları ilə özünü əhatəsindən təcrid etmişdir. Belə bir siyasət Ermənistanın məğlubiyyəti ilə nəticələndi. Ermənistan üzərində tarixi qələbənin ən böyük əhəmiyyəti təkcə siyasi mahiyyət daşımır. Həm də bu dövlətin başqa xalqlara və dinlərə in19nikas1919n kənar, vandal münasibəti də üzə çıxdı. İşğal olunmuş, 30 ildən çox əsarətdə saxlanılmış ərazilərimizdə tarixən mövcud olmuş dini-mənəvi dəyərlərimiz olan məscidlər, pirlər dağıdılmış, məhv edilmiş, təhqir edilmiş, Azərbaycanın dünya şöhrətli tarixi şəxsiyyətlərinin cansız büstləri, heykəlləri belə güllələnmiş, adi insanların qəbirdaşları yerlə yeksan edilmiş, təhqir olunmuşdur. Erməni dövlətinin belə vandal siyasəti onun bir dövlət kimi gələcəyini şübhə altına qoyur. Multukultural dəyərlərə söykənən Azərbaycan dövləti Ermənistandan fərqli olaraq öz ərazisində olan heç bir kilsəni, sneqoqu, bütü dağıtmamış, əksinə, onların təmir olunmasına şərait yaratmış, ən kiçik etnik qrupun dini-mənəvi dəyərlərinə hörmətlə yanaşmışdır.

1. Fərqliliyin qəbul edilməsi və dəstəklənməsi: pedaqoji prosesdə Heydər Əliyevin multikulturalizmi nəzərə alaraq, müəllimlərə və şagirdlərə fərqli mədəniyyətlərə, dillərə və ənənələrə qarşı daha açıq fikirli olmaq öyrədilməlidir. Bu, həmçinin, gənclərin daha geniş dünyagörüşə sahib olmalarına kömək edə bilər.

Heydər Əliyevin multikultural dəyərlərə dərin və elmi yanaşmaları Azərbaycanın pedaqoji prosesinə müsbət təsir göstərmiş, ölkə daxilində və eləcə də xarici siyasət sahəsində sülhün və qarşılıqlı hörmətin təməlini qoymuşdur. Bu ideyaların təhsil sisteminə daxil edilməsi, gənc nəsilin daha tolerant, fərqli mədəniyyətləri qəbul edən və anlayan bir şəxsiyyət kimi yetişməsinə zəmin yaratmışdır. Bu, həmçinin Azərbaycanın dünyada müsbət imicini möhkəmləndirərək, multikulturalizm ideyalarının qlobal səviyyədə yayılmasına xidmət etmişdir.

Heydər Əliyev Azərbaycanın çoxsaylı mədəniyyətlərin bir arada və qarşılıqlı hörmət içində yaşamasını təqdir və təbliğ edirdi. Onun zamanında Azərbaycan mədəniyyətinin zənginliyi yalnız milli dəyərlərlə deyil, həm də digər xalqların mədəni irsi ilə də əhatə olunmuşdur. Azərbaycanın müxtəlif bölgələrində yaşayan etnik qrupların öz mədəniyyətlərini yaşaması və inkişaf etdirməsi üçün dövlət tərəfindən bir çox layihələr həyata keçirilmişdir. Onun rəhbərliyi altında Azərbaycanın milli kimliyinin qorunması, müxtəlif etnik və dini qrupların birgə yaşamasının təmin edilməsi və multikulturalizmin dəstəklənməsi əsas prioritetlərdən biri olub. Heydər Əliyevin ideyaları yalnız dövrünün ehtiyaclarına cavab verməк məqsədini daşımayıb, eyni zamanda, Azərbaycanın gələcək inkişafını da formalaşdırmışdır. Bu baxımdan, onun irsindəki multikulturalizm və təhsildəki yanaşmaları böyük əhəmiyyət kəsb edir.

Belə bir uğurlu siyasət bu gün də inamla davam etdirilir. Bunun nəticəsidir ki, dövlətimiz 30 il müharibə şəraitində yaşasa belə, heç bir beynəlxalq səviyyəli tədbirlərdən kənarlaşdırılmayıb, əksinə, ölkəmiz ən nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bu yaxınlarda 11-22 noyabr 2024-cü il tarixlərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı və ya COP-29 tədbirinin məhz ölkəmizdə keçirilməsi Azərbaycanın tolerant bir dövlət olmasının və bunun dünyanın da təsdiq etməsinin bir sübutudur. Bu böyük tədbirin özü Ulu Öndərin vaxtilə irəli sürdüyü multukulturalizm siyasətinin, hörmətli prezident İlham Əliyevin "..multukulturalizmin alternativi yoxdur, onun alternativi müharibələrdir" – ideyasının təntənəsidir. Multukultural ideyalardan imtina etmək istəyən Avropa dünyanı qlobal istiləşmədən və müxtəlif fəlakətlərdən xilas etmək üçün niyə irqindən, dinindən, milliyətindən asılı olmayaraq hamının bir olmasını təbliğ edir? Hər bir dövlət ayrı-ayrılıqda bu fəlakətlərin qarşısını

ala bilməzmi? Əlbəttə, yox. Dünya bizim evimizdir. Bir halda ki, bu ev hamımızındır, deməli, hamı bu evin bərabərhüquqlu sahibi kimi qarşılıqlı hörmətə əsaslanaraq dinc yanaşı yaşaya bilər. Hörmətli Prezidentimiz İlham Əliyevin dediyi kimi, ...dinc yanaşı yaşamaq isə regionda sabitlik, bəşəriyyəti qorumaq, ona töhfə vermək deməkdir.

Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində və beynəlxalq münasibətlərdə əvəzsiz bir şəxsiyyətdir. Deməli, xalqımızın böyük oğlu, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı üçün qoyub getdiyi bu qiymətli irs mənəvi tərbiyəni, eləcə də milli mənəviyyatımızı zənginləşdirə biləcək dəyərli mənbədir. Prof. Ə.Ə.Ağayev haqlı olaraq qeyd edirdi: "Heydər Əliyev cənablarının çıxışları, nitqləri və məruzələrində irəli sürülən tərbiyəvi baxımdan qiymətli fikirlər tərbiyə işinin həm məzmununu, həm də həyata keçirilmə yollarını müəyyənləşdirir, milli tərbiyə konsepsiyasının müddəalarını ortaya qoyur" [4, s. 205].

Müasir dövrdə bu siyasəti Ulu Öndərin davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük uğurla davam etdirir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Respublikasının 2009-cu il 26 noyabr tarixli Qanunu ilə Azərbaycan Respublikasının "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair "UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin növbəti əhəmiyyətli addımı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasına dair 15 may 2014-cü il tarixində imzaladığı Fərman oldu. Bu mərkəzin yaradılmasının əsas məqsədi ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlığın, etnik-mədəni, dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modellərini tədqiq və təşviq etməkdir [5] .

Cənab İlham Əliyev 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etdi. Azərbaycanda multikulturalizmin ən yüksək inkişaf səviyyəsinə çatması fonunda, multikultural dəyərlərin formalaşması sayəsində yürütdüyü siyasət ölkədə hüquqi, sivil, dünyəvi dövlət quruculuğunu davam etdirilir, demokratikləşmə siyasəti dərinləşir. Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modeli ilə bağlı qeyd edərək göstərmişdir ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... hərçənd Avropa bu ideyadan əl çəkmək istəyir, ancaq biz əl çəkə bilmərik. Azərbaycan çoxmillətli ölkədir, bu ideyadan imtina müharibələr deməkdir.

Multikulturalizm modeli dedikdə, bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub saxlamaq hüququna malik olması nəzərdə tutulur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Bütün insanlar qədimdən ortaq cəhətlərə malikdir. Bu ortaq cəhətlər insan toplusu yaranan gündən bu günümüzə qədər davam edir, bundan sonra da davam edəcəkdir. Deməli, multikulturalizm Prezidentimizin dediyi kimi, həyat tərzidir. Bəzən multukulturalizm dövlət 20nikas2020n20iya20n tərkib hissəsi kimi qəbul edilmədikdə, o, ictimai şüurda möhkəmlənmədikdə, cəmiyyətin həyat tərzinə çevrilmədikdə ölkədə olan etnik, irqi, dini və mədəni müxtəliflikl̈ər ciddi problemlərlə üzləşə bilir. Bu zaman milli azlıqların mədəni-etik dəyərlərini qoruması çox çətindir. Zaman-zaman ölkəmiz fars, ərəb, rus istilasına məruz qalmış, lakin milli kimliyini qorumuşlar. Hazırda müxtəlif fərqli etnosların eyni cəmiyyətdə etnik-mədəni dəyərlərinin bir-birinə inteqra-20nikas baş verir. Ölkəmizdə bu inteqrasiya bərabərliyə, humanizmə və qarşılıqlı hörmətə əsaslanır.

Multikultural dəyərlərin təhsildə nəzərə alın20nik, yalnız bir cəmiyyətin inkişafı üçün deyil, həm də dünya səviyyəsində sülhün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın qurulması üçün əsas təməl prinsiplərdən biridir. Təhsilin multikulturalizmə yönəlməsi, fərqlilikləri qəbul etmək, onları anlamaq və birgə inkişaf etmək üçün ən vacib vasitədir. Təhsil gənc nəslə mədəniyyətlərarası əlaqələri öyrətməklə, onları tolerant, açıq fikirli və qlobal dünyada uğurla fəaliyyət göstərə bilən insanlar kimi yetişdirir.

Nəticə olaraq qeyd etmək olar ki, tarixi keçmişə söykənən milli-mənəvi dəyərləri yaşadan xalq olsa da onu qoruyub gələcəyə aparan gənclərdir. Dünyaya inteqrasiya etdiyimiz indiki dövrdə gənclərimizin milli-mənəvi dəyərlərinə sahib vətəndaş kimi tərbiyə olunmasında müasir texnologiyalara əsaslanan təhsilin imkanları

genişdir. Müasir insan pedaqoji prosesdə yetişir. Pedaqoji fəaliyyətin düzgün təşkili, bu sahədə mili-mənəvi və bəşəri dəyərlərə söykənən dərsliklərin, dərs vəsaitləri və metodik ədəbiyyatın hazırlanması çox əhəmiyyətlidir. Uğurlu haldır ki, hazırda 30-dan çox Azərbaycan universitetlərində "Multukulturalizm" fənni tədris olunur. Təhsildə multikulturalizm prinsiplərinin tətbiqi ölkəmizin gələcəyini quracaq gənc nəslin vətəndaşlıq tərbiyəsində müstəsna rol oynamaqla yanaşı, fərqli xalqların və mədəniyyətlərin bir-birinə yaxınlaşmasına, anlaş21nikas və qarşılıqlı hörmətin artırılmasına şərait yarada bilər. Bundan ötrü elmi mənbə kimi Heydər Əliyev irsindən istifadə olunmalı və dönə-dönə bu irsə müraciət edilməlidir.

Problemin aktuallığı. Ümumtəhsil məktəblərində şagirdlərin milli və bəşəri dəyərlərə sahib gənc nəsil kimi yetişməsi müasir təhsilin əsas istiqamətlərindən biridir. Bu baxımdan müasir gəncliyin multukultural dəyərlər ruhunda tərbiyəsi Azərbaycanın çoxmillətli bir dövlət kimi dünyaya inteqrasiyasına zəmin yaratması baxımından çox aktualdır.

Problemin elmi yeniliyi multukultural dəyərlərin təhsil sistemində nəzərə almaqla bərabər bu dəyərlərin elmi mənbələri də konseptual əsaslarla irəli sürülmüşdür.

Problemin praktik əhəmiyyəti. Məqalədə göstərilən multukultural dəyərlər və onların tətbiqi imkanları pedaqoji prosesi inteqrativləşdirməklə yanaşı, milli-mənəvi dəyərləri də zənginləşdirə bilər.

Ədəbiyyat:

1. Heydər Əliyev Müstəqilliyimiz əbədidir /çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanları / -Bakı: - Azərnəşr, -1998. – 632 s.
2. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // Xalq. -1996, 6 fevral. – s.6
3. H. Əliyev məktəblilərin gözü ilə. -Bakı: Təhsil, -2015. -304 s.
4. Ağayev Ə.Ə. Seçilmiş Pedaqoji Əsərləri. 2 cilddə. I cild. –Bakı: Mütərcim, -2011.- 472 s.
5. Azərbaycanda multukulturalizm: 21nikas2121n21iya / layih. Rəhb. Ə. Qarayev, elmi red. Və burax. Məsul K.Tahirov. – Bakı, 2016. -504 s.
6. Təhsil millətin gələcəyidir / M. Mərdanov və Ə. Quliyevin redaktəsi ilə/ -Bakı: Təhsil, - 2002. -580 s.

Redaksiyaya daxil olub: 28.01.2025

UOT 37.0

Günay İlham qızı Poladova
Qarabağ Universitetinin Beynəlxalq Dil Mərkəzinin ingilis dili müəllimi
https://orcid.org/0009-0004-4521-1706
E-mail: *gunay.poladova@karabakh.edu.az*
https://doi.org/10.69682/arti.2025.92(1).22-26

MƏKTƏB MÜHİTİNDƏ KONFLİKTOLOJİ MƏDƏNİYYƏTİN ƏHƏMİYYƏTİ

Гюнай Ильхам гызы Поладова
преподаватель английского языка Международного Языкового Центра Карабахского Университета

ЗНАЧЕНИЕ КОНФЛИКТОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ В ШКОЛЬНОЙ СРЕДЕ

Gunay Ilham Poladova
English language teacher at the International Language Center of Karabakh University

THE İMPORTANCE OF CONFLİCTOLOGY CULTURE İN THE SCHOOL ENVİRONMENT

Xülasə. Bu məqalədə təhsil mühitində yaranan konfliktlərin səbəbləri, növləri və onların psixoloji aspektləri araşdırılmışdır. Məqsəd konfliktlərin mənfi təsirlərini minimuma endirmək üçün onların vaxtında aşkarlanması və səmərəli idarəetmə üsullarını müəyyənləşdirməkdir. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, konfliktlərin düzgün idarə olunması tədris prosesinin keyfiyyətini artırır və məktəb mühitində psixoloji rifahın yüksəlməsinə kömək edir. Məqalədə konfliktlərin konstruktiv həlli üçün psixoloji yanaşmalar və praktik tövsiyələr təklif olunmuşdur. Bu tövsiyələr məktəb psixoloqları, pedaqoqlar və müəllimlər üçün faydalı ola bilər.
Açar sözlər: *konflikt, psixoloji aspektlər, təhsil prosesi, konfliktin idarə olunması, məktəb psixologiyası, konstruktiv həll, emosional rifah, interpersonal münasibətlər*

Аннотация. В данной статье исследованы причины, виды и психологические аспекты конфликтов, возникающих в образовательной среде. Целью является своевременное выявление и определение эффективных методов управления конфликтами для минимизации их негативных последствий. В результате исследования установлено, что правильное управление конфликтами повышает качество учебного процесса и способствует улучшению психологического благополучия в школьной среде. В статье предлагаются психологические подходы и практические рекомендации для конструктивного разрешения конфликтов. Эти рекомендации могут быть полезны школьным психологам, педагогам и учителям.
Ключевые слова: *конфликт, психологические аспекты, образовательный процесс, управление конфликтами, школьная психология, конструктивное разрешение, эмоциональное благополучие, межличностные отношения.*

Abstract. This article examines the causes, types, and psychological aspects of conflicts arising in the educational environment. The aim is to identify early detection and effective management methods to minimize the negative effects of conflicts. The research findings indicate that proper conflict management improves the quality of the educational process and promotes psychological well-being in the school environment. The article proposes psychological approaches and practical recommendations for the constructive resolution of conflicts, which can be useful for school psychologists, educators, and teachers.
Keywords: *conflict, psychological aspects, educational process, conflict management, school psychology, constructive resolution, emotional well-being, interpersonal relationships.*

Çox zaman münaqişələr müxtəlif təşkilatların fəaliyyətində həlledici rola malik olur. Məktəbdə müəllim-şagird-valideyn münasibətlərində yaranmış münaqişələrin həlli yollarının tapılması şagirdlərin təlim-tərbiyəsində müsbət nəticələr əldə olunmasına gətirib çıxarır. Bu elm sahəsi yeni yaranmağa başlamışdır. Bu sahədə mütəxəssislər, demək olar ki, yox səviyyəsindədir. Əldə olan əsərlərin təhlili göstərir ki, münaqişələri, təxminən ondan artıq elm sahəsi öyrənir. Münaqişələr – politologiya, psixologiya, pedaqogika, sosiologiya, fəlsəfə hüquqşünaslıq və konfliktologiya elmlərinin obyektidir.

Konfliktologiya sözü Latın dilindəki "conflictus" (qarşıdurma, münaqişə) və Yunan dilindəki "-logia" (elm, bilik) sözlərindən yaranıb. "Konflikt" sözü qarşıdurma və ya ziddiyyətli maraqların olduğunu bildirir, "-logiya" isə bir sahədəki sistemli bilik və araşdırmanı ifadə edir. Beləliklə, "konfliktologiya" münaqişələrin və qarşıdurmaların yaranma səbəblərini, inkişafını və həlli yollarını öyrənən elmi sahə kimi təyin oluna bilər. Bu sahə, sosial, psixoloji və mədəni aspektləri nəzərə alaraq, münaqişələrin idarə edilməsi və həlli ilə bağlı nəzəri və praktik yanaşmaları inkişaf etdirir.

Konfliktlər həyatın hər sahəsində baş verən təbii hadisələrdir. Xüsusilə məktəb mühiti, sosiallaşmanın və şəxsi inkişafın əsas mərhələlərindən biri olduğu üçün münaqişələrin baş verməsi qaçılmazdır. Məktəblərdə şagirdlər sosial münasibətlər, psixoloji qarşıdurmalar və fərqli düşüncə tərzləri ilə qarşılaşırlar ki, bu da bir sıra münaqişələrin yaranmasına səbəb olur. Konfliktoloji mədəniyyət, məktəblərdəki münaqişələri konstruktiv şəkildə idarə etmək və onların qarşısını almaq üçün çox vacib bir anlayışdır.

Konfliktologiyada münaqişələrin bütün növləri eyni səviyyədə öyrənilməyib, məsələn, şəxsiyyətlərarası münaqişələrin öyrənilməsinə əsərlərin 83%-i həsr edilmişdir, lakin şəxsiyyətdaxili münaqişələrin öyrənilməsinə cəmi 8%-i həsr edilmişdir. Beynəlxalq əlaqələr sahəsində münaqişələrə həsr edilmiş tədqiqatların təxminən 5%-i metodoloji, ümumnəzəri xarakter daşıyır. Bundan əlavə, psixoloqlar insan fəaliyyətinin müxtəlif sahələrində – əmək kollektivlərində, hərbçilər, idmançılar, məhbuslar arasında, pedaqoji fəaliyyətdə, ailələrdə, insanın sosiallaşması prosesində, məktəbəqədər yaş dövründə, yeniyetməlik dövründə və s. Münaqişələri öyrənirlər.

Müəllimlərin əksəriyyətinin fikrinə görə, təhsil sahəsində ortaya çıxan bütün münaqişələr arasında ən geniş yayılanı şəxsiyyətlərarası ziddiyyətlərdir. Nəticə etibarı ilə, pedaqoji fəaliyyətin bu subyektiv tərəfinin konkretləşdirilməsi, təhsil müəssisələrində münaqişəli münasibətləri formalaşdıran amillərin təhlili üçün əsas verir. Pedaqoji münaqişələr, ilk növbədə, "fikir maneə"ləri, müəllimlər və şagirdlər arasındakı yanlış və ziddiyyətli münasibətlər əsasında formalaşdığından müəllimin təlim-tərbiyə fəaliyyətinə, eləcə də şagirdin təhsilinə verilən obyektiv qiymət onların qarşılıqlı münasibətlərinin öyrənilməsinə əsaslanmalıdır. Bundan əlavə, ailə – məktəb sistemində münaqişəli münasibətlərin formalaşmasına xüsusi diqqət yetirilməlidir ki, bu da müəyyən dərəcədə problemli şagirdlərlə deyil, həm də müəllim və valideynlərlə psixoloji, pedaqoji iş metodlarının optimallaşdırıl23nikas imkan verəcəkdir.

Münaqişələrə səbəb olan obyektiv amillər hər zaman olub, var və olacaqdır. Şübhəsiz ki, onlar nəzərə alınmalıdır, lakin buna baxmayaraq, məktəb münaqişələrinin meydana gəlməsi və həlli məsələlərində əsas rol subyektiv amillərə, hər şeydən əvvəl, müəllim, şagird, valideynlər və məktəb rəhbərliyi arasında düzgün qurulmayan münasibətlərə verilir.

Tədris mühitindəki münaqişələr daha çox tədris yükü problemindən qaynaqlanır. Q.İ.Kozırev müəllimlərin təqribən 87%-nin bunu məktəbdaxili qarşıdurmaların əsas səbəbi hesab etdiyini, eyni zamanda həm tədris yükünün çoxluğu, həm də çatışmazlığı ilə razı olmadıqlarını müəyyən edib. Müəllim kollektivində gərginlik və münaqişələrin artmasının səbəblərindən biri də müəllimin öz iş fəaliyyətindən məmnunluğu, şagirdlər, valideynlər, həmkarlar və məktəb rəhbərliyinin haqsız ittihamları ola bilər. Məktəblilər qeyd edirlər ki, bəzi müəllimlər səhv davranır, materialı aydın izah etmir, qeyri-adekvat qiymətləndirir, şagirdə subyektiv baxışlarını göstərməyə, fikirlərini söyləməyə imkan vermir, uğursuz və itaətsiz olan şagirdlərə mənfi münasibət bəsləyir, onları sinif yoldaşlarının qarşısında alçaldır və ya sinifdən kənarlaşdırırlar. Sinifdə nizam-intizam qaydalarının pozulması hallarında müxtəlif «pedaqoji» fəndlərə əl atırlar: qaydanı pozan şagirdi sinifdən kənarlaş-

dırır, gündəliyə iradlarını yazır, direktor və ya təlim-tərbiyə işləri üzrə direktor müavini ilə «qorxudur», qışqırır, valideynləri məktəbə çağırır, ev tapşırıqlarına qərəzli nəzarət edirlər.

Məktəbdə münaqişələr tez-tez baş verir. Üstəlik müəyyən hallarda münaqişə müəllimlər və şagirdlər arasında münasibətlərin normal inkişafına mane olan problemlərin həllində zəruri şərtə çevrilir. Təəssüf ki, hər məktəbin müəllim heyətində münaqişəli vəziyyətlərlə, həll olunmamış problemlərlə (yarımçıq gestalt) səriştəli şəkildə işləyə bilən mütəxəssislər olmadığı üçün münaqişələr ciddi şəkildə böyüyür. Bu problemlərin həlli yalnız digər təşkilatların – yetkinlik yaşına çatmayanlarla iş üzrə 24nikasyanın və ya polisin müdaxiləsi sayəsində mümkün olur.

Münaqişələrə səbəb olan sosial və fərdi amillər çoxdur. Onlar müxtəlif təzahür səviyyələrinə malikdir və hər konkret vəziyyət xüsusi olaraq təsnif edilir. Psixoloji və pedaqoji tədqiqatlar göstərir ki, məktəbdə münaqişəli davranışın yaranması üçün əlverişli şərtlər çoxşaxəli ola bilər və ən çox ailə, cəmiyyət, referent qrup və sosiumda formalaşır. Daha az valideyn sevgisi və qayğısı görən uşaqlar, bir qayda olaraq, digər uşaqlara və böyüklərə aqressiv münasibət göstərirlər. Böyüklər tərəfindən "sevilməyən" uşaqlar yaşıdlarına nisbətən daha destruktiv davranırlar. Onlar başqa uşaqlarla münaqişəyə girərkən bir tərəfdən başqalarına qarşı münasibətdə aqressiv olmağın qəbuledilməz olduğunu və buna görə cəzalandırıla biləcəklərini anlamağa başlayır, digər tərəfdən isə böyüklərin özlərinin də bu hərəkətlərə yol verdiyini görürlər.

Məktəblilərin münaqişəli davranışlarının səbəblərini öyrənərkən subyektiv və mədəni amilləri nəzərə almaq lazımdır. Qrupda mənfi davranışın formalaşması yeniyetmələrə xas olan "mövqeyi" və hamı kimi olmaq istəyi ilə izah olunur. Bəzi tədqiqatçılar aqressiv və münaqişəli uşaqların müxtəlif neqativ davranışlara (spirtli içkilərə meyllilik, mübahisələr və münaqişələr, ətrafdakılara hücumlar və s.) meylli olduqlarını iddia edirlər. Məktəbdə gizlin şəkildə pivə içmək, siqaret çəkmək özünü nüfuzlu və daha böyük göstərmək arzusundan irəli gəlir. Yeniyetmə gündəlik həyatda yaşadığı sıxıntıları, hüquqlarının pozulmasını isə fərdi və kütləvi münaqişələrdə iştirak etməsi ilə kompensasiya edir. Müəllimlər və həmyaşıdlarının münaqişəli uşaqlara mənfi münasibəti münaqişənin təzahürü üçün əlavə psixoloji təsirdir. Belə ki, uşaq «pis» və ya «sinfin təlxəyi» rolunu oynamağa məcbur olduğunu hiss edir və özünü daim bu rola uyğun aparmalı olur. Müəllimlərin belə şagirdlərə qarşı yanlış mövqe tutmaqla onları lazımsız münaqişələrə təhrik etmələrinə də tez-tez rast gəlinir. Belə şagirdlər zəif, yığma siniflərə keçirilir və ya fərdi təhsilə cəlb olunurlar. İlk baxışdan pedaqoji cəhətdən nəcib görünən bu addım sonradan mənfi nəticəyə gətirib çıxarır. Problemli şagirdin zəif sinfə keçirilməsi onu tərbiyələndirmir, əksinə, onun cəmiyyətdə qarşılıqlı fəaliyyət çevrəsini xeyli daraldır. Deməli, bu, qəzəb və intiqamı əvvəlcədən təyin edən, pedaqoji cəhətdən yaradılan süni vəziyyətdir

Konfliktoloji mədəniyyət, qarşıdurmaların səbəblərini anlamaq və onların müsbət yöndə həllinə yönəlmiş düşüncə və davranış tərzidir. Məktəb mühitində bu mədəniyyətin inkişafı yalnız münaqişə həllinə deyil, həm də şagirdlərin sosial və emosional bacarıqlarının inkişafına kömək edir. Məktəb mühiti, tərbiyəvi bir mühit olaraq, şagirdlərə münaqişə ilə mübarizə aparmaq və onları sülh yolu ilə həll etmək bacarığını öyrətməlidir.

Konfliktoloji mədəniyyət, münaqişə vəziyyətlərinə yanaşma tərzini və münaqişə tərəfləri arasında anlaşmanı, hörməti və əlaqəni möhkəmləndirməyə yönəlmiş bir mədəniyyət olaraq tərif edilə bilər. Konfliktoloji mədəniyyətin əsas prinsipləri, qarşıdurmaların mənfi təsirlərini azaltmağa, hər iki tərəfi qane edən həll yolları tapmağa və həm fiziki, həm də emosional zədələnmənin qarşısını almağa yönəlmişdir.

Məktəb mühiti cəmiyyətin kiçik bir nüsxəsidir. Şagirdlər burada sosial bacarıqlarını inkişaf etdirir, emosional təcrübələr qazanır və şəxsi əlaqələr qururlar. Müəllimlər, valideynlər və şagirdlər arasında yaranan münaqişələr, doğru şəkildə idarə edildikdə, şagirdlərin həyatlarında böyük bir inkişaf mərhələsi ola bilər. Konfliktoloji mədəniyyət, məktəb mühitində qarşıdurmaların sülh yolu ilə həllini təmin edərək, məktəb mühitinin ümumi atmosferini yaxşılaşdırmağa kömək edir.

Məktəblərdəki münaqişələr müxtəlif səbəblərlə meydana gələ bilər. Bu səbəblər həm daxili, həm də xarici faktorlardan irəli gəlir. Daxili səbəblərə şagirdlərin şəxsi xüsusiyyətləri, emosional vəziyyətləri və sosial bacarıqları da-

xildir. Xarici səbəblərə isə məktəbdəki idarəetmə tərzi, təhsil sisteminin strukturu və sosial mühit təsir edir.

Şəxsi və Emosional Fərqliliklər. Şagirdlərin fərqli xarakterləri, davranışları və emosional ehtiyacları münaqişələrə səbəb ola bilər. Bəzi şagirdlər, öz fikirlərini və hisslərini ifadə etməkdə çətinlik çəkə bilərlər, bu da qarşılıqlı anlaşılmazlıqlara gətirib çıxara bilər.

Əlavə Təzyiq və Tələblər. Məktəb mühitindəki təhsil tələbləri və sosial təzyiqlər, şagirdlər arasında gərginliyə və münaqişələrə səbəb ola bilər. Uğursuzluq qorxusu və özünü sübut etmə istəyi, şagirdləri bir-biri ilə münaqişəyə girə bilər.

Ətraf Mühit və İdarəetmə Prosesləri. Məktəbin idarəetmə tərzi, şagirdlər və müəllimlər arasında münasibətlərə təsir edir. Əgər məktəbdə autokratik və sərt idarəetmə mövcudsa, bu da münaqişələrin yaranmasına zəmin yaradır.

Konfliktoloji mədəniyyətin məktəb mühitində tətbiqi, yalnız münaqişələrin həllinə deyil, həm də şagirdlərin sosial və emosional inkişafına töhfə verir. Bu mədəniyyətin əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir:

Emosional və Sosial İnkişaf. Konfliktoloji mədəniyyət, şagirdlərə qarşı tərəfin hisslərini və fikirlərini başa düşmə bacarığını inkişaf etdirir. Bu, onların empatiya qurma və başqalarının mövqeyini anlama bacarıqlarını artırır. Emosional intellektin inkişafı, şagirdlərə sosial münasibətlərdə daha müsbət yanaşmalar və davranışlar yaratmağa kömək edir.

Münaqişə Həlli Bacarıqları. Məktəbdə konfliktoloji mədəniyyətin öyrədilməsi, şagirdlərə münaqişələri effektiv şəkildə necə həll etməyi öyrədir. Bu bacarıqlar yalnız məktəb mühitində deyil, gələcəkdə şəxsi və peşə həyatlarında da faydalıdır.

Təhsilin Keyfiyyətinin Artırılması. Məktəbdə münaqişələr yaxşı idarə olunduqda, şagirdlər daha az stress altında olur və dərsə daha çox fokuslanırlar. Bu, təhsilin keyfiyyətini artırır və ümumi məktəb mühitinin yaxşılaşmasına səbəb olur.

Məktəb Havasının Yaxşılaşması. Münaqişələrin konstruktiv şəkildə həll olunması, məktəbdə ümumi atmosferin yaxşılaşmasına səbəb olur. Şagirdlər arasında daha sülhsevər və hörmətli münasibətlər qurulur. Müəllimlər də şagirdlərin inkişafını dəstəkləyərək, daha produktiv bir mühit yaradırlar.

Məktəb münaqişələrin həllində ən ciddi maneə müəllimlərin və valideynlərin əksəriyyəti tərəfindən seçilən qeyri-effektiv davranış strategiyası – qarşıdurma strategiyasıdır. Çox vaxt onlar öz mənafelərini müdafiə edərək münaqişənin yalnız bir həll yolunu göstərirlər ("uşağım günahsızdır", "şagirdin öz səhvidir, böyüklərin nöqteyi-nəzərini qəbul etməlidir" və s.). Bəzən hakim kimi çıxış edən müəllim vəziyyəti nəzarətdə saxladığına tamamilə əmin olur. Məktəbdə çalışdığı illər ərzində öyrətmək və hökmranlıq etmək vərdişi təcrübəli müəllimə yanılmazlıq və haqlılıq hissi verir. Əlverişli psixoloji iqlimin yaradılması müəllimləri yalnız professional pedaqoji fəaliyyətə deyil, eyni zamanda uyğun insani keyfiyyətlərin, iradi səylərin, əməkdaşlıq etmək və güzəştə getmək bacarıqlarının inkişaf etdirilməsinə də yönəldir.

Məktəblərdə konfliktoloji mədəniyyətin tətbiqi, müəyyən metod və yanaşmaların tətbiqi ilə həyata keçirilə bilər. Bu metodlar aşağıdakılardır:

Təlim və Seminarlar. Müəllimlər və şagirdlər üçün mütəmadi olaraq konfliktoloji təlimlər və seminarlar təşkil etmək, münaqişə həllinə dair bilikləri artırmağa kömək edir. Bu təlimlərdə, şagirdlərə qarşılıqlı hörmət, anlayış və kommunikasiya bacarıqları öyrədilməlidir.

Vasitəçilik və Danışıqlar. Məktəb mühitində konfliktoloji mədəniyyətin inkişafı üçün vasitəçilik yanaşması vacibdir. Məktəbin daxilində vasitəçilər təyin edilərək, münaqişələr tərəflər arasında şəffaf və konstruktiv şəkildə həll edilə bilər.

Dostluq və Əməkdaşlıq Proqramları. Şagirdlər arasında əməkdaşlıq və dostluq münasibətlərini gücləndirmək, münaqişələrin yaranma ehtimalını azaldır. Məktəblərdə bu məqsədlə müxtəlif proqramlar və tədbirlər keçirilə bilər.

Dərs və Fəaliyyətlərdə Konflikt Həllinə Yönəlik Yanaşmalar. Məktəb dərslərində və fəaliyyətlərində şagirdlərə münaqişə həlli bacarıqları öyrədilməlidir. Məsələn, müxtəlif oyunlar və qrup tapşırıqları vasitəsilə şagirdlər münaqişə ilə necə mübarizə aparacağını öyrənə bilərlər.

Məktəb mühitində konfliktoloji mədəniyyətin inkişafı, yalnız münaqişələrin həllinə deyil, həm də şagirdlərin sosial və emosional inkişafına böyük təsir göstərir. Münaqişələrin düzgün idarə edilməsi, məktəbin ümumi atmosferi-

nin yaxşılaşmasına, şagirdlər arasında əməkdaşlığın artmasına və təhsil keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır. Bu mədəniyyətin tətbiqi, şagirdlərin gələcək həyatlarında daha sağlam və müsbət münasibətlər qurma bacarıqlarını artırır. Beləliklə, məktəblərdə konfliktoloji mədəniyyətin təbliği və inkişafı, cəmiyyətin ümumi rifahına və sülhün qorunmasına mühüm töhfə verir.

Problemin aktuallığı. Tarixən məktəb münaqişələri həmişə mövcud olmuşdur, bu gün də bu problem aktualdır. Məqalədə bu problem ətraflı tədqiq olunur və onların həlli yolları göstərilir.

Problemin elmi yeniliyi. Məqalədə məktəbdə baş verən münaqişələr həm daxili (şəxsi və emosional fərqliliklər), həm də xarici (idarəetmə tərzi, sosial mühit) amillərə əsaslanaraq elmi şəkildə təsnif edil26nikas. Bu yanaşma münaqişələrin mahiyyətini daha dərin anlamağa və təsnifləşdirməyə imkan verir. Həmçinin, məqalə konfliktologiyanın məktəb mühitinə tətbiqini, onun sosial, emosional və pedaqoji təsirlərini sistemli şəkildə tədqiq edir. Məktəbdə konfliktoloji mədəniyyətin inkişafının şagirdlərin şəxsi və sosial bacarıqlarına müsbət təsiri, elmi baxımdan daha geniş işıqlandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədə təqdim olunan üsul və tövsiyələr məktəb rəhbərliyi, müəllimlər və psixoloqlar üçün praktiki təlimat rolunu oynayır. Bu metodların tətbiqi məktəbdə sağlam psixoloji mühitin formalaşmasına kömək edir. Konfliktoloji mədəniyyətin pedaqoji prosesə inteqrasiyası şagirdlərin sosial-emosional inkişafını dəstəkləyir. Bu yanaşma onların öz duyğularını idarə etmə, empatiya qurma və konfliktləri konstruktiv şəkildə həll etmə bacarıqlarını artırır. Təklif olunan konflikt idarəetmə metodları məktəbdə üçtərəfli (müəllim, valideyn, şagird) münasibətlərin gücləndirilməsinə xidmət edir. Bu, daha sağlam kommunikasiya mühitinin yaranmasına şərait yaradır. Məqalədəki tövsiyələr məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi, psixoloqların münaqişələrin həllində aktiv 26nikrakı üçün əlavə resurs rolunu oynaya bilər.

Ədəbiyyat:

1. Augsburger, D. (1992). Conflict mediation across cultures. Louisville, Kentucky: Westminster / John Knox Press.
2. Bannon, I. & Paul Collier (Eds.). (2003). Natural resources and violent conflict: Options and actions. Washington, D.C: The World Bank.
3. Çələbiyev N.Z. (2008). Təhsil sistemində psixoloji xidmət: nəzəriyyə və təcrübə. I hissə. Bakı, ADPU-nun nəşriyyatı.
4. Xəlilov H. (2012). Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı, Qafqaz Universitetinin nəşriyyatı.
5. Kozırev Q.İ. (2001). Vvedenie v konfliktoloqiyu: Uçeb. Posobie dlya stud. Vısş. Uçeb. Zavedeniy. – M.; Qumanit. İzd. Sentr VLADOS.
6. Məmmədzadə R.H. (2004). Konfliktlər, ailələr, məktəblilər. Bakı: Müəllim,
7. Дмитриев А.В. Социальный конфликт: общее и особенное. М.: Гардарики, 2002.
8. Конфликтология. Учебник. 2-е изд. / Под ред. А.С.Кармина. СПб.: Лань, 2000.
9. Светлов В. А. Аналитика конфликта. СПб., “Ростоκ”, 2001.
10. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
11. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
12. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
13. Семенов В.А. Феномен конфликта. СПб., 2005.

Redaksiyaya daxil olub: 31.01.2025

TƏLİM PROSESİNDƏ DİFERENSİALLAŞMA
ДИФФЕРЕНЦИАЦИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ
DIFFERENTIATION IN THE TEACHİNG PROCESS

UOT 37.0

Gülnarə Həzi qızı Paşayeva
Qarabağ Universitetinin ingilis dili müəllimi
https://orcid.org/0009-0005-7095-6395
E-mail: Gulnara.pashayeva@karabakh.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).27-31

VI-IX SİNİFLƏRDƏ DİFERENSİALLAŞMANIN TƏLİM PROSESİNƏ TƏSİRİ

Гюльнара Гязи кызы Пашаева
преподаватель английского языка в Карабахском Университете

ВЛИЯНИЕ ДИФФЕРЕНЦИАЦИИ НА ОБРАЗОВАТЕЛЬНЫЙ ПРОЦЕСС В VI-IX КЛАССАХ

Gulnara Hazi Pashayeva
English teacher at Karabakh University

THE IMPACT OF DIFFERENTIATION ON THE LEARNING PROCESS IN GRADES VI-IX

Xülasə. Bu məqalədə təlimin diferensiallaşdırılması anlayışı və onun tədris prosesinin optimallaşdırılmasında rolu araşdırılır. Diferensiallaşdırılmış təlim şagirdlərin fərdi xüsusiyyətlərini, bilik və bacarıq səviyyələrini, öyrənmə tərzlərini nəzərə alaraq onların inkişafına yönəlmiş strategiyaların tətbiqini nəzərdə tutur. Məqalədə bu yanaşmanın pedaqoji və psixoloji əsasları, tətbiq prinsipləri və metodları təhlil edilir. Təlimin diferensiallaşdırılması şagirdlərin təlimə marağını artırmaq, onların öyrənmə potensialını tam reallaşdırmaq və tədris prosesini səmərəliləşdirmək baxımından mühüm vasitə kimi qiymətləndirilir. Bundan əlavə, müəllimlərin bu yanaşmanı uğurla tətbiq edə bilməsi üçün tələb olunan şərtlər və qarşılaşdıqları çətinliklər də müzakirə olunur. Məqalədə təqdim olunan təhlil və tövsiyələr təhsilin keyfiyyətinin artırılması və fərdi yanaşmanın gücləndirilməsi istiqamətində faydalı ola bilər.
Açar sözlər: *təlim, diferensiallaşma,optimallaşdırma, təhsil, şagird, müəllim*

Аннотация. В статье рассматривается концепция дифференциации обучения и ее роль в оптимизации процесса обучения. Дифференцированное обучение предполагает применение стратегий, направленных на развитие учащихся с учетом их индивидуальных особенностей, уровня знаний и навыков, а также стилей обучения. В статье анализируются педагогические и психологические основы, принципы применения и методы данного подхода. Дифференциация обучения считается важным инструментом повышения интереса учащихся к обучению, полной реализации их учебного потенциала и повышения эффективности процесса обучения. Кроме того, обсуждаются условия, необходимые учителям для успешной реализации этого подхода, и проблемы, с которыми они сталкиваются. Представленный в статье анализ и рекомендации могут быть полезны для повышения качества образования и усиления индивидуального подхода.
Ключевые слова: *обучение, дифференциация, оптимизация, образование, студент, преподаватель*

Abstract. This article examines the concept of differentiation of learning and its role in optimizing the learning process. Differentiated learning involves the application of strategies aimed at the development of students, taking into account their individual characteristics, knowledge and skill levels, and learning

styles. The article analyzes the pedagogical and psychological foundations, application principles, and methods of this approach. Differentiation of learning is considered an important tool in terms of increasing students' interest in learning, fully realizing their learning potential, and making the teaching process more effective. In addition, the conditions required for teachers to successfully apply this approach and the difficulties they face are also discussed. The analysis and recommendations presented in the article may be useful in improving the quality of education and strengthening the individual approach.

Keywords: *learning, differentiation, optimization, education, student, teacher*

Təhsil sistemində şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanın tətbiqi son illərdə geniş vüsət almışdır. Bu yanaşmalardan biri də diferensial təlimdir. Diferensial təlim, müxtəlif bacarıq, bilik səviyyəsi, öyrənmə üslubu və maraqları olan şagirdlərə uyğunlaşdırılmış tədris metodlarının tətbiqini nəzərdə tutur.

Müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri səmərəli təlim strategiyalarını işləyib hazırlamaq və tətbiq etməkdir. Bu baxımdan, təlimin diferensiallaşdırılması onun optimallaşdırılmasının əsas vasitələrindən biri kimi çıxış edir. Diferensial təlim tələbələrin fərdi ehtiyaclarını, bacarıqlarını və maraqlarını nəzərə alaraq onların potensialını maksimum əlverişli şəraitdə 28nikas etdirməyə imkan yaradan yanaşmadır.

Diferensial təlim – müəllimin eyni dərs çərçivəsində şagirdlərin fərdi ehtiyaclarına uyğun olaraq müxtəlif metod, üsul və materiallardan istifadə etməsidir. Bu yanaşma, tədrisin fərdiləşdirilməsi və şagirdlərin potensialının maksimum inkişaf etdirilməsi məqsədini daşıyır.

Diferensial təlimin əsas komponentləri seçim imkanı, çeviklik, müntəzəm formativ qiymətləndirmə və yaradıcılıqdır. Toplanan məlumatlardan düzgün istifadə edərək dörd əsas istiqamətdə diferensiallaşdırmanı həyata keçirmək mümkündür:

- məzmun;
- proses;
- nəticə;
- təlim mühiti (7, s. 81).

Məzmun dedikdə, şagirdlərin mənimsəməli olduğu bilik və bacarıqlar, həmçinin bu bilik və bacarıqları əldə etmək üçün istifadə olunan resurslar və metodlar anlaşılır.

Məzmunun diferensiallaşdırılması, şagirdlərin mövcud bilik səviyyəsinə uyğun fəaliyyətlərin təşkili və çalışmaların çətinlik dərəcəsinə görə tənzimlənməsi ilə həyata keçirilir. Bu zaman dərsin təlim nəticələrini dəyişdirmək və ya bəzi şagirdlər üçün gözləntiləri azaltmaq əvəzinə, tapşırıqların bütün şagirdlər üçün əlçatan olması təmin edilməlidir. Hər bir tapşırığın dərsin məqsədinə uyğun olması əsas şərtdir.

Diferensial təlim aşağıdakı əsas prinsiplərə əsaslanır:

1. Fərdilik prinsipi – Hər bir şagirdin öyrənmə potensialı və tərzi nəzərə alınmalıdır;
2. Fərqli tapşırıqların verilməsi – Şagirdlərin səviyyəsinə uyğun tapşırıqlar tərtib olunmalıdır;
3. Fərqli resurslardan istifadə – Vizual, audio, kinestetik və digər resurslarla dərslər zənginləşdirilməlidir;
4. Fərqli qiymətləndirmə üsulları – Şagirdlərin bilik və bacarıqları fərqli meyarlarla qiymətləndirilməlidir (2, s.76).

Diferensial təlimin üstünlükləri:

- Şagirdlərin motivasiyasını artırır;
- Öyrənmənin səmərəliliyini yüksəldir;
- Şagirdlərə öz potensiallarını daha yaxşı inkişaf etdirmək imkanı yaradır;
- Hər kəsin öyrənmə tempinə uyğunlaşdırılmış tədris prosesi təmin olunur.

Diferensial təlim şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun yanaşmanı təmin edən effektiv metodlardan biridir. Müəllimlər bu yanaşmanı tətbiq etməklə daha inklüziv və uğurlu tədris mühiti formalaşdıra bilərlər.

Bu metodun uğurlu icrası üçün müəllimlərin peşəkar inkişafı və metodoloji biliklərinin artırılması mühüm əhəmiyyət kəsb edir.

Diferensial təlimin həyata keçirilməsi üçün müəllimin ilk addımı şagirdlərin öyrənmə profillərini hazırlamaqdır. Bu profillərdə şagirdlərin fərdi qavrama üslubu, maraq dairələri, eləcə də digər məlumatları əks olunur. Bütün bunlar müəllimə şagirdyönlü diferensial təlimi planlaşdırmaqda kömək edir. Ancaq bunlar hər dərsdə bütün elementlərin tam şəkildə diferensiallaşdırılması demək deyil. Şagirdin ehtiyacını müəyyən etdikdə və ya modifikasiyanın onun daha dərin öyrənməsinə töhfə verəcəyindən əmin olduqda diferensial təlim strategiyalarını tətbiq etmək olar (5, s. 55).

Diferensial təlim haqqında düşünərkən, təlim prosesinin bütün aspektlərinin fərqləndirilməsi nəzərə alınmalıdır. Müəllim dərsi fərdiləşdirmək üçün aşağıdakı metodlardan istifadə edə bilər:

1. Yeni mövzunu izah edərkən həm şifahi, həm də vizual vasitələrdən yararlanır (eyni anda danışır və nümayiş etdirir).

2. Kiçik qruplarla işləyərək mövzunu yenidən izah edir (bu prosesə akademik cəhətdən daha güclü şagirdlər də qoşula bilər).

3. Oxu materialını tək bir mətn formatında deyil, bir neçə variantda təqdim edir ki, fərqli oxu bacarıqlarına malik şagirdlər də iştirak edə bilsinlər.

4. Şagirdlərin ehtiyaclarına uyğun müxtəlif köməkçi vasitələr təklif edir.

5. Öyrənilənləri ifadə etmək üçün müxtəlif yanaşmalar təqdim edir, məsələn, rollu oyunlar təşkil edir, şifahi cavab əvəzinə məktub yazmağı tövsiyə edir, həm fərdi, həm də qrup şəklində işləmək üçün şərait yaradır.

6. Müxtəlif öyrənmə tərzlərini nəzərə alaraq fərqli şərait yaradır – təkbaşına çalışmaq istəyənlər, qrupda işləməyə üstünlük verənlər və daima müəyyən bir kollektivin üzvü olanlar üçün uyğun mühit təmin edir (8, s.43).

Diferensial təlim yanaşmaları, həm adi, həm də xüsusi təhsil ehtiyacı olan şagirdlərin öyrənmə prosesini daha səmərəli və təsirli etmək üçün ən müasir və effektiv metodlardan biri hesab edilir.

Diferensiallaşdırılmış təlim, müxtəlif öyrənmə üslublarına və düşüncə tərzlərinə malik olan şagirdlərə vacib olan bilik və bacarıqları öyrətmək və mənimsətmək üçün istifadə edilən tədris strategiyasıdır. Diferensial öyrənmə bir proses kimi qəbul edilməli və müəllimlər tərəfindən şagirdlər üçün ən uyğun tədris şəraitini yaratmaq məqsədilə tətbiq olunmalıdır.

Öyrənmə prosesi dörd əsas aspektdən ibarətdir:

1. Fənlərin məzmunu və əldə edilməsi gözlənilən nəticələr (standartlar);

2. Şagirdlərin mövcud bilik səviyyələri, bacarıqları, inkişaf mərhələləri və xüsusi ehtiyacları;

3. Tədris metodları, tapşırıqlar, əlavə resurslar, vizual materiallar və biliklərin möhkəmləndirilməsi üçün verilən ev tapşırıqları və praktik məşqlər;

4. Qiymətləndirmə metodları və formaları.

Diferensiallaşdırılmış təlimin həyata keçirilməsi zamanı tədris prosesinin bütün aspektlərinin fərdi yanaşmaya uyğun tənzimlənməsi vacibdir (9, s.21).

Diferensial təlimi nəzərdən keçirərkən, təlim prosesinin bütün aspektlərinin diferensiallaşdırılması vacibdir.

5-9-cu siniflərdə diferensial təlimin tətbiq nümunələrini müxtəlif fənlər üzrə təşkil etmişik. Apardığımız araşdırmaların nəticələri tədqiqatımızda yer almışdır. Onlara nəzər yetirək:

2. Azərbaycan dili fənni üzrə:

Nümunə: Müəllim sinfi üç qrup üzrə bölə bilər:

- Əsas qrup: Qrammatik qaydaları anlamaqda çətinlik çəkən şagirdlər üçün vizual və praktiki tapşırıqlar təqdim edilir.
- Orta səviyyə: Qrammatikanı mənimsəmiş, lakin yazı bacarıqlarını inkişaf etdirməyə ehtiyacı olan şagirdlərə mətn üzərində işləmə tap29nikas2929n verilir.
- İrəli səviyyə: Yüksək nəticələr göstərən şagirdlərə yaradıcı yazı və esse yazma tapşırıqları verilir.

2. Riyaziyyat fənni üzrə:

Nümunə: Müəllim eyni mövzunu fərqli çətinlik səviyyələrində izah edə bilər:

- Vizual və praktik metodlarla izah (aşağı səviyyə)
- Əlavə nümunələr və qrup işləri (orta səviyyə)
- Tədqiqat xarakterli problemlər və məntiqi suallar (yüksək səviyyə)

2. Təbiət fənləri üzrə:

Nümunə:

- Eksperimentlərə əsaslanan yanaşma – Ətraf mühitlə bağlı layihələr həyata keçirilir.
- Problemyönlü öyrənmə – Şagirdlərə açıq suallar verilərək onların araşdırma aparması təmin edilir.
- Texnologiya və multimediyadan istifadə – Video, simulyasiya və interaktiv testlər tətbiq edilir.

2. Xarici dil fənni üzrə

Nümunə: Müəllim şagirdləri üç qrupa ayıraraq fərqli yanaşmalar tətbiq edə bilər:

- Danışıq bacarıqları zəif olanlar – Qısa dialoqlar və dinləmə tapşırıqları ilə işləyirlər.
- Orta səviyyədə olanlar – Müxtəlif situasiyalar əsasında rol oyunları həyata keçirirlər.

• İrəliləmiş səviyyə – Yazılı esse və təqdimatlar hazırlayırlar.

Diferensial təlim şagirdlərin bilik səviyyəsinə uyğun yanaşmanı təmin edərək, onların inki30nikas müsbət təsir göstərir. 5-9-cu siniflərdə tətbiq edilən bu metodlar həm müəllimlərin effektiv dərs keçməsinə, həm də şagirdlərin motiva30nikas3030n artmasına kömək edir. Tədris prosesində bu üsulların tətbiqi şagirdlərin bilik və bacarıqlarını maksimum səviyyədə inkişaf etdirməyə imkan yaradır.

Kompüter dərslərində diferensial təlim metodunun tətbiq olunmasından sonra, ümumilikdə şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsi artmışdır. Diferensial təlim metodunun ən nəzərəçarpacaq təsiri şagirdlərin təlim səviyyələrinə olmuşdur (1,s.10).

Hər bir şagirdə onun səviyyəsinə uyğun tap30nikas30 verilməsi, həmin şagirdin diferensial təlimdən öncəki aşağı təlim səviyyəli qrupdan orta təlim səviyyəli keçirdi. Bundan əlavə, bilik və bacarıq səviyyəsi yüksək səviyyədə müəyyənləşdirilə bilən şagirdlərin sayı isə artdı.

Sinifdə təlim səviyyəsi çox az dəyişsə də, bu müsbət istiqamətdədir: 1-ci tapşırıq üzrə beş şagird daha yüksək səviyyəli qrupa keçdi – onlardan ikisi orta səviyyəli qrupdan yüksək səviyyəli, üçü isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

2-ci tapşırıq üzrə isə üç şagird daha yüksək səviyyəli qrupa keçdi – onlardan biri orta səviyyəli qrupdan yüksək səviyyəli, ikisi isə aşağı səviyyəli qrupdan orta səviyyəli təlim qrupuna keçdi.

Ümumilikdə, sinifdə yeni tədris materialları ilə müstəqil və ya müəllimin cüzi köməyi işləməyi bacaran şagirdlərin sayı artır. Eksperiment diferensial təlimin istifadə olunmasının məqsədyönlüyünü göstərdi.

Yuxarıda göstərilənlərdən belə nəticə çıxarmaq olur ki, 7-ci sinif informatika dərslərində müxtəlif səviyyəli tapşırıqların verilməsi yolu ilə diferensial yanaşma metodu təlim prosesinin effektivliyinin yüksəlməsinə gətirib çıxarıb.

Diferensial təlim, fərdi yanaşma prinsipinə əsaslanaraq, şagirdlərin fərqli intellektual, psixoloji və öyrənmə türlərini nəzərə alır. Bu yanaşma aşağıdakı prinsiplər üzərində qurulur:

Müstəqil iş həm fərdi, həm də qrup şəklində aparıla bilər. Həmin işlərin formaları çox fərqli və rəngarəngdir. Lakin nəzərə almaq lazımdır ki, sərbəst işlərin bu və ya digər formasını seçərkən yerli şəraiti, məktəb ehtiyaclarını, maraqlarını, şagirdlərin yaşını və bilik səviyyəsini, habelə bir sıra digər məsələləri nəzərə almaq lazımdır. Bundan əlavə, şagirdlərin uğur qazanması üçün müəllim ilk növbədə könüllülük prinsipinə, onların arzu və istəklərinə, mövcud bilik səviyyəsinə diqqət yetirməlidir. Bir şeyi nəzərə almaq lazımdır ki, eyni tələbənin müxtəlif fənlər üzərində müstəqil işləməsinə icazə verilməməlidir. Bu zaman şagirddə işi bəyənmək əvəzinə nifrət hissi yarana bilər.

Azərbaycanın Gələcəyə Baxışı 2020 İnkişaf Konsepsiyasında tələbələrin məntiqi təfəkkürünün inkişafı üçün faydalı təkliflər verilir. Konsepsiyada qeyd olunur ki, "hazırkı yaddaş məktəbindən şagirdlərin idrak fəaliyyətini və ümumi inkişafını ləngidən təfəkkür və təfəkkür məktəbinə keçid təmin edilməli və bu məqsədlə sistemli tədbirlər həyata keçirilməlidir" [6].

Sinifdə müəllimin şagirdlərə verdiyi müstəqil iş şagirdlərə əşya və hadisələri anlamağa, həyatda baş verən dəyişiklikləri müşahidə etməklə onların səbəblərini anlamağa, elmi faktları üzə çıxarmağa, eksperimentlər aparmaqla elmi anlayışların və təbii faktların düzgünlüyünü sübut etməyə kömək edir. Çünki müstəqil işlər zamanı şagirdlərin tədqiqat və yaradıcılıq fəaliyyətinə daha çox yer vermək olar. Onlar həyatı və ətraf aləmi dərk etməkdə çətinlik çəkmirlər. İnsanlarla ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi şəxsiyyətlərini formalaşdıran bilik və bacarıqlar əldə edirlər.

Şagird ona tapşırılan iş üzrə tədqiqat aparır, bu məqsədlə müstəqil işləməyə çalışır və bu tip şagirdi mövzunu daha dərindən qavramağa yönəldir. Şagird daha müstəqil və rahatlaşır, söhbətlərdə, müzakirələrdə iştirak edir və bu iş şagirdlərin məntiqi təfəkkürünü formalaşdırır, nitqini təkmilləşdirir. Müstəqil iş həm fərdi, həm də tələbələrlə qrup şəklində aparıla bilər. Bu əsərlərin formaları çox müxtəlif və rəngarəngdir [9].

Şagirdlərin müstəqillik qabiliyyətinin formalaşması nəticəsində gələcəkdə tədbirli şəxsiyyət formalaşır.

Təlimdə şagirdlərin müstəqil işi dedikdə nə başa düşürük? Pedaqoji ədəbiyyatlarda müstəqil işin təlim prosesində yeri ilə bağlı vahid bir fikir yoxdur. Bu məsələlər qədimdən pedaqoqların diqqətini cəlb etmiş və bu da ciddi mübahisələrə səbəb olmuşdur. Bu gün də həmin mübahisələr davam etməkdədir.

Müstəqil işi bəzən təlimin metodu, üsul və priyomlar, bəzən də təlim vasitəsi və ya təlim fəaliyyəti kimi səciyyələndirirlər.

Müstəqil işi təlim metodu kimi qəbul edənlər daha çoxdur. Bunlardan Y. K. Babanski, N. Q. Kazanski, A. M. Pışkalonu göstərə bilərik. Y. K. Babanski təlim metodlarının bir qolu kimi nəzərdən keçirdiyi təlim-idrak fəaliyyətinin təş-

kili və həyata keçirilməsi metodları sırasında müəllimin rəhbərliyi ilə iş və müstəqil iş metodlarını xüsusi olaraq qeyd edir. O, təlimin söz, əyani və praktik metodlarını müəllimlə iş metodlarına, müəllimin bilavasitə rəhbərliyi olmadan həyata keçirilən fəaliyyət növlərini isə müstəqil iş metodlarına daxil edir. Burada zidd olan nədir? Əlbəttə ki, təlim prosesinin struktur vahidini təşkil edən müəllimin və şagirdin fəaliyyəti təcrid edilərək bir-birinə qarşı qoyulur [8]. Bu isə təlim prosesinin və eləcə də təlim metodunun mahiyyətinə ziddir. Müstəqil işi metodla eyniləşdirmək olmaz.

Bu hal müstəqil işi öyrənmə priyomu kimi götürmək mövqeyinə (A.F.Solovyova, A.V.Usova və b.) də eyni ilə aiddir. Qeyd edildiyi kimi, priyom işin icrası yollarını əks etdirir. İşin müvəffəqiyyəti priyom və metodların seçilib düzgün tətbiq edilməsindən asılıdır.

Prof. A.N. Abbasov yazır: " "Priyom metodun tərkib hissəsi, yaxud onun ayrıca tərəfi, metodun detalıdır, başqa sözlə, "metodun" ümumi anlayışına münasibət üzrə xüsusi anlayışdır. Nəql – təlimin metoddursa, plan barədə məlumat – diqqətin fəallaşdırılması priyomu olub, qavrayışın sistemliliyini təmin edir" (10, s. 162).

Təlim zamanı şagirdlərin müstəqil işinin yerini aydın etməyə çalışan tədqiqatçılardan bir qismi (O. A. Nilson, T. A. İlina və b.) onu təlim fəaliyyətinin xüsusi növü kimi səciyyələndirirlər.

Bu cür yanaşma müstəqil işlə təlim fəaliyyətini eyniləşdirməyə gətirib çıxarır. Bunlar isə fərqli anlayışlardır. Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin qənaətinə görə, "Fəaliyyət dedikdə, insanın dərk edilmiş məqsədi ilə tənzim edilən daxili (psixi) və xarici (fiziki) fəallığı başa düşülür" [1]. Fəaliyyət iş və hərəkətlər formasında təzahür edir. Təlim fəaliyyəti müəllim və şagirdlərin çox müxtəlif iş və hərəkətlərini özündə cəmləşdirir və onların bir-biri ilə qarşılıqlı vəhdəti, sistemi kimi həyata keçirilir.

Müstəqil işi təlim fəaliyyəti ilə eyniləşdirmək olmaz. M. Mehdizadənin sözləri ilə desək, "müstəqil iş şagirdlərin bütün fəaliyyətini səciyyələndirmir; onların təlim fəaliyyətinin bir qismi müstəqil olmayan işlə əlaqədardır. Buna o zaman nə deyək?" Müəllif sonra yazır: "Müstəqil işi – təlim fəaliyyəti" deməklə səciyyələndirmək olmaz, çünki müstəqil olmayan təlim işi də təlim fəaliyyətidir" [3].

Tədqiqatların bir qismində isə (İ.V.Lerner, M. N. Skatkin, P. İ. Pidkasistı və b.) şagirdlərin müstəqil işi təlim fəaliyyətinin vasitəsi kimi nəzərdən keçirir. İ. Y. Lerner müstəqil işi nə təlim məşğələlərinin təşkili forması, nə də təlim metodu hesab edir. Onun fikrinə görə, müstəqil iş şagirdləri idrak fəaliyyətinə cəlb etmək vasitəsi, bu fəaliyyətin məntiqi və psixoloji təşkili vasitəsi olaraq baxmaq daha düzgün olardı. Müstəqil işin mövqeyi ilə bağlı belə yanaşma bu işlərin mahiyyətini dəqiq əks etdirmir. M. Mehdizadə bu münasibətlə yazır: "Kimə məlum deyildir ki, pedaqoji prosesdə "vasitə" dedikdə biz, problemi müvəffəqiyyətlə həll etməkdən ötrü fəaliyyət göstərənin sərəncamında olanları nəzərdə tuturuq. Burada isə tədris kitabları, məlumat ədəbiyyatı, laboratoriya və emalatxanalar, müstəqil fəaliyyət üçün alət və xammal, didaktik vasitələr və s. ola bilər. Fəaliyyətin icrası isə bu vasitələrdən başqa özünə iş forma və metodları tələb edir" [7].

Şagirdlərin müstəqil işini təlim fəaliyyətinin vasitəsi kimi qəbul edənlər müstəqil iş dedikdə, onu, bir növ, "şagirdlərin yerinə yetirdikləri təlim tapşırıqları, məsələ və problemlə eyniləşdirirlər" [5].

Fəaliyyətin bir ünsürü kimi iş, o cümlədən müstəqil iş özünəməxsus məqsədə, məzmuna, vasitə və metodlara malikdir. Nəzərdən keçirilən konsepsiyada müstəqil iş və onun məzmununu təşkil edən məsələ (tapşırıq) bir anlayışda birləşir ki, bu da müstəqil işin mahiyyətini anlamaqda müəyyən dolaşıqlıq yaradır.

Təlimdə şagirdlərin müstəqil işinin yerini müəyyənləşdirmək baxımından daha bir konsepsiya maraq doğurur. Müstəqil işi təlimdə forma kimi qəbul edən tədqiqatların bir qismi (M. Mehdizadə, Q. V. Muxametzyanova və b.) onu geniş planda – təlimin təşkili forması kimi, digər qismi isə (B. P. Yesipov, B. A. Əhmədov və b.) nisbətən məhdud planda-şagirdlərin təlim-idrak fəaliyyətinin təşkili forması kimi səciyyələndirirlər.

Bizim fikrimizcə, şagirdlərin müstəqil işini təlimin təşkili forması kimi səciyyələndirmək çətindir, çünki təlimin təşkili forması kimi şagirdin yox, habelə müəllimin fəaliyyəti ilə bağlı olub, onların müəyyən qaydada və rejimdə cərəyan edən birgə fəaliyyətinin zahiri ifadəsidir. O biri tərəfdən, müstəqil işi təlimin təşkili forması kimi qəbul etmək, digər formalarda onun tətbiqi imkanlarını məhdudlaşdırmağa gətirib çıxara bilər.

Müstəqil işin təlim prosesində yerinə dair nəzərdən keçirilən sonuncu yanaşma onun mahiyyətini daha yaxşı əks etdirir. Çünki müstəqil iş şagirdlərin bilavasitə təlim fəaliyyəti ilə bağlı olub, bu fəaliyyətin təşkili, istiqamətləndirilməsi forması olaraq çıxış edir [4].

Şagirdlərin müstəqil işinin təlimdə yerini müəyyənləşdirmək sahəsində nəzərdən keçirilən konsepsiyalardan göründüyü kimi, problemə müxtəlif baxışlar mövcuddur.

Müstəqil işə pedaqoji-təşkilati cəhətdən yanaşmaq, onu şagirdlərin təlim-idrak fəaliyyətinin didaktik baxımdan əsaslandırılmış təşkili forması kimi səciyyələndirmək daha münasibdir. Çünki təlimdə şagirdin hər cür müstəqilliyi həmişə nisbi xarakter daşıyır. O, müəllimin təşkilati-pedaqoji rəhbərliyi ilə şərtlənir. Məhz müəllimin rəhbərliyi sayəsində şagirdlərin xüsusi təşkil edilmiş fəaliyyəti-özfəaliyyəti həyata keçirilir. Bu isə müstəqil iş formasında təşkil olunur.

Problemin aktuallığı. Bu məqalənin aktuallığı ondan ibarətdir ki, Müstəqil iş şagirdlərin özünüidarəetmə bacarıqlarını inkişaf etdirməyə, elmi dünyagörüşünü artırmağa, sinifdə müəyyən fənn qrupları üzrə bilikləri artırmağa, şagirdlərin meyl və bacarıqlarını aydınlaşdırmağa və nümayiş etdirməyə imkan verir.

Problemin elmi yeniliyi. Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin tətbiqi əhəmiyyəti. Bir çox pedaqoqlar elm sahəsində çalışan elm xadimləri bu mövzu ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Əhmədov, H. Ali təhsilin modernləşdirilməsi / H. Əhmədov. -Bakı: Maarıf, -2008. - 190 s.
2. Əlizadə, Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, problemlər. Psixopedaqoji araşdırmalar. / Əlizadə, Ə. - Bakı: Adiloğlu, -2001. -162s.
3. Həmidov, H. Azərbaycanda təhsil siyasəti strategiyası. Monoqrafiya / H. Həmidov.-Bakı: Qartal, -2008.- 911 s.
4. Həsənov, R. Təlim prosesində müstəqil iş və ona müxtəlif yanaşmalar //-Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi əsərləri, -2014. №3, -s. 45-48.
5. İsmayılova, N. Şagird təfəkküründə inkişafında kompüterin rolu. // -Bakı: Təhsildə İKT, ADPU, -2013. №3, -s.65-72
6. İsmixanov M. Təlimdə şagirdlərin müstəqilliyi və onlarda müstəqil iş bacarıqlarının aşılanmasının tarixinə dair. //-Bakı: Azərbaycan məktəbi, -2004. №6, -s.4-9
7. Mehdizadə, M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları / M. Mehdizadə. - Bakı: Maarif, -1982. - 345 s.
8. Mehrabov, A. Ali təhsil sistemində islahatların əsas istiqamətləri // -Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Əsərləri, Nazirliyi, -2010. №1, -s.3-10.
9. Nəbiyeva, Ş. Şagird intellektinin inkişaf etdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu // -Bakı: ADPU, Təhsildə İKT, -2010. №1, -s.83-98
10. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N. Abbasov. -Bakı: Mütərcim, 2015. - 360 s.

Redaksiyaya daxil olub: 15.01.2025

UOT 37.0

Elvira Haqverdi qızı Kərimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Tarix və coğrafiya fakültəsinin dekan müavini
https://orcid.org/0009-0000-3052-1040
E-mail:elvira.karimova83@mail.ru
https://orcid.org/0009-0000-3052-1040
https://doi.org/10.69682/arti.2025.92(1).46-49

TƏHSİLDƏ HUMANİSTLƏŞDİRMƏ AMİLİ VƏ ONUN MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

Эльвира Хагверди гызы Керимова
заместитель декана факультета истории и географии
Азербайджанского Государственного Педагогического Университета

ФАКТОР ГУМАНИЗАЦИИ В ОБРАЗОВАНИИ И ЕГО ВЛИЯНИЕ НА ВЗАИМООТНОШЕНИЯ УЧИТЕЛЬ-УЧЕНИК

Elvira Hagverdi Karimova
deputy dean of the faculty of History and geography at the
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0000-3052-1040

THE HUMANIZATION FACTOR IN EDUCATION AND ITS IMPACT ON TEACHER-STUDENT RELATIONSHIPS

Xülasə. Təhsilin humanistləşdirilməsi müəllimdən demokratik iş üslubu tələb edir. Hər bir müəllim qarşısında əyləşən şagirdə gələcəyin böyük adamı kimi baxmalı, onun maraq və tələbatlarına, arzularına, ehtiyaclarına xüsusi diqqətlə yanaşmalı, rəy və təkliflərini nəzərə almalıdır. Bunun üçün müəllim, ilk növbədə, kommunikativ qabiliyyətə, pedaqoji duyuma – empatiya hissinə malik olmalı, şagirdlərə fərdi yanaşmağı, onlara münasibətdə hörmət nümayiş etdirməyi, sinifdə sağlam mənəvi-psixoloji və öyrənmə mühiti yaratmağı bacarmalıdır.
***Açar sözlər**: humanistləşdirmə, empatiya, qarşılıqlı hörmət, fərdi yanaşma, öyrənmə mühiti, şəxsi nümunə*

Аннотация. Гуманизация образования требует от учителя демократического стиля работы. Каждый учитель должен рассматривать сидящего перед ним ученика как будущего взрослого, уделять особое внимание его интересам, потребностям, желаниям и нуждам, а также учитывать его мнения и предложения. Для этого учитель должен, прежде всего, обладать коммуникативными способностями**,** педагогической чуткостью – чувством эмпатии, уметь находить индивидуальный подход к ученикам, проявлять к ним уважение, создавать в классе здоровую морально-психологическую и учебную среду.
***Ключевые слова:** гуманизация, эмпатия, взаимоуважение, индивидуальный подход, среда обучения, личный пример*

Abstract. Teachers must adopt a democratic work style to humanize teaching. Every teacher should view the student in front of them as a future adult, pay close attention to their needs and interests, and take into account their thoughts and recommendations. First and foremost, the teacher needs to be empathetic, pedagogically sensitive, and skilled in communication. They also need to treat each student as a person, show them respect, and provide a positive moral-psychological and educational atmosphere.
Keywords: *humanization, empathy, mutual respect, individual approach, learning environment, personal example*

Humanist pedaqogika təhsilə mərkəzində şagird şəxsiyyətinin dayandığı bir proses kimi baxır. Zaman keçdikcə, fərdin ehtiyaclarını, ləyaqətini və potensialını prioritetləşdirən daha humanist metodlara doğru əhəmiyyətli dəyişikliklərin aparılması zərurət olaraq meydana çıxır. Bu dəyişikliyin ən vacib elementlərindən biri müəllim və şagirdlər arasındakı münasibətdir. Təhsil və tərbiyənin humanistləşdirilməsi kontekstində müəllim-şagird münasibətlərinin sağlam əsasda qurulması şagirdlərin şəxsiyyətinin, həyati bacarıqlarının, intellektual və emosional sferalarının inkişafına əsaslı təsir göstərən başlıca amilə çevrilir.

Yeni pedaqoji təfəkkürün əsas elementlərindən biri hesab olunan humanistləşdirmə amili müəllim-şagird münasibətlərinin də yeni müstəvidə qurulmasını tələb edir. Dövlətimizin təhsillə bağlı qəbul etdiyi normativ-hüquqi sənədlərdə (1, 2, 3, 4) humanistləşdirmə təhsil sahəsində dövlət siyasətinin başlıca prinsiplərindən biri kimi qəbul edilir, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan ...yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması həlli vacib məsələ kimi irəli sürülür, pedaqoji ünsiyyətin sağlam mənəvi-psixoloji əsasda qurulmasının vacibliyi xüsusi olaraq vurğulanır.

Təlim-tərbiyə prosesinin humanist dəyərlərə söykənməsi, pedaqoji ünsiyyətin subyekt-subyekt münasibətləri çərçivəsində qurulması, müəllimlərin demokratik iş üslubunun zəruriliyi humanistləşdirmə amilini də ön plana çəkir. Məktəb həyatının ana xəttinə çevrilən humanistləşdirmə müəllimi də, şagirdi də təlim-tərbiyə prosesinin mərkəzində dayanan bərabərhüquqlu tərəfmüqabillərə çevirir. Humanist dəyərlərə əsaslanan müəllim-şagird münasibətləri əməkdaşlıq pedaqogikasının bütün aspektlərinin nəzərə alınmasını-təhsilalanların maraq və meyllərinin, potensial imkanlarının diqqət mərkəzində saxlanmasını, onlara pedaqoji prosesin subyekti kimi yanaşılmasını tələb edir.

Prof. Ə.Ə. Əlizadənin qeyd etdiyi kimi " Hər bir şagird bir şəxsiyyət olaraq təlim-tərbiyə prosesinin mərkəzi hadisəsidir. Müəllim şagirdin şəxsiyyət olaraq məziyyətlərini görməli, ona hörmət etməli və inanmalıdır. Şagirdin özünüreallaşdırması üçün məktəbdə müvəffəqiyyət və xeyirxahlıq situasiyasi yaradılmalıdır (5, s. 58).

Müasir dövrdə əməkdaşlıq pedaqogikası anlayışını irəli sürən Ş. Amonaşvili, A. Maslou, K. Rocers kimi görkəmli pedaqoq və psixoloqlar təlim-tərbiyə prosesinin mərkəzində şagird şəxsiyyətinin qoyulmasını, onun maraq və meyllərinin nəzərə alınmasını vacib hesab edir. Ş. Amonaşvilinin təşkil etdiyi Beynəlxalq Humanist Pedaqogika Mərkəzi və onun 2011-ci il 7 iyulda elan etdiyi "Humanist Pedaqogika Manifesti" sevgini, xeyirxahlığı, mərhəməti pedaqoji ünsiyyətin ana xəttinə çevirməyi nəzərdə tutur: "Həm dəcəl, həm də sözəbaxan uşaqları eyni məhəbbətlə sevmək lazımdır. Xeyirxahlıq və uşaqlara məhəbbət onlarla kobud rəftar etməyə imkan vermir. Uşağın həyatına – onun sevincinə, kədərinə, şəxsi həyəcanlarına maraq göstərin, ona kömək edin, hisslərinə şərik olun. Onlara düşünməyi və öz fikirlərini etik şəkildə söyləməyi öyrədin" (6).

Müəllimi nurun daşıyıcısı, şagirdi isə nur axtaran qəlb hesab edən Ş. Amonaşvilinin fikrincə, "insansevər və avtoritar pedaqogikalar arasında qızıl orta yoxdur" (7). Bu baxımdan təhsilə humanist yanaşma müəllim peşəkarlığı ilə vəhdət təşkil edir.

Təhsilin humanistləşdirilməsi şəraitində şagirdlərin hissləri, emosiyaları və ideyaları təhsil prosesinin vacib hissələri hesab edilməklə, öyrədici mühitin bütün elementlərinin formalaşdırılmasına diqqət yetirilir. Bu kontekstdə müəllim həm də bələdçi və nümunə rolunu oynayır. Araşdırmalar göstərir ki, empatiyanın, qarşılıqlı hörmətin, fərdi yanaşmanın və əlverişli tərbiyəvi mühitin yaradılması müəllim-şagird münasibətlərinə töhfə verən əsas elementlər sırasındadır.

1. Müəllim-şagird münasibətlərində empatiyanın rolu

Empatiya, yəni başqalarının hisslərini anlamaq və bölüşmək, özünü onların yerinə qoymaq bacarığı humanistləşdirilmiş təhsilin təməl daşlarından biridir. Empatik müəllim-şagird münasibətində müəllimlər hər bir şagirdin fərdiliyini tanıyır və onların emosional, sosial və intellektual ehtiyaclarına cavab verirlər. Sinifdə empatiyanın tətbiqi, şagirdlərin başa düşüldüklərini, dəyərli olduqlarını hiss etdikləri dəstəkləyici mühit onlarla müəllim arasında daha möhkəm bağ yaradır.

Müəllimlər empatiya–daxili duyum hissinə malik olduqda, şagirdlərin üzləşdiyi istər şəxsi, istər akademik, istərsə də sosial problemləri daha yaxşı dərk edə bilirlər və bu çətinlikləri həll etmək üçün öz tədris metodlarını tənzimlə-

yə bilirlər. Məsələn, şagirdin mövzunun dərk edilməsi ilə bağlı problemini başa düşən müəllim fərdi kömək və ya alternativ öyrənmə strategiyaları təklif edə, həmçinin qarşısına çıxan maneələri dəf etməkdə ona kömək edərək emosional dəstək göstərə bilər.

Empatiya həm də şagirdləri bir-biri ilə mehriban və anlayışla rəftar etməyə təşviq etməklə müsbət davranış və mədəniyyət formalaşdırır. Şagirdlər müəllimlərinin empatik davranışları modelləşdirdiyini müşahidə etdikcə, həmyaşıdları ilə qarşılıqlı ünsiyyətdə oxşar münasibəti daha çox mənimsəyirlər. Beləliklə, empatiya həm fərdi müəllim-şagird münasibətlərini, həm də sinif daxilində daha geniş sosial dinamikanı formalaşdırmaq üçün güclü bir vasitəyə çevrilir.

2. Müəllim-şagird münasibətlərində qarşılıqlı hörmət

Qarşılıqlı hörmət müəllim-şagird münasibətlərinin humanistləşdirilməsinin digər vacib komponentidir. Hörmət başqalarının dəyərini və ləyaqətini dərk etməyi nəzərdə tutur və sinifdə həm müəllimlərin, həm də şagirdlərin qarşılıqlı münasibətlərdə bu hörməti nümayiş etdirmələri çox vacibdir. Müəllimlər şagirdlərinə hörmət etdikdə, onların müstəqilliyini və fərdiliyini qəbul edir, fikirlərini və təlim prosesinə töhfələrini qiymətləndirirlər. Bu, şagirdlərdə özgüvənlik hissini aşılamaqla yanaşı, həm də sinifdə əməkdaşlıq mühiti yaradır.

Qarşılıqlı hörməti inkişaf etdirməyin yollarından biri fəal dinləmədir. Müəllimlər şagirdlərini diqqətlə dinlədikdə, bu, onların fikirlərinin, narahatlıqlarının və hisslərinin əhəmiyyətli olduğunu göstərir. Öz növbəsində, şagirdlər daha çox dəyərli olduqlarını hiss edir və təlim prosesində fəal iştirak edir, müəllimlər onlarda uğur qazanmaq üçün inam və motivasiya yaratmağa kömək edirlər.

3. Şagirdlərə fərdi yanaşma

Təhsilin humanistləşdirilməsində əsas məqsədlərdən biri şagirdlərin müxtəlif öyrənmə ehtiyaclarını qəbul etmək və onlara cavab verməkdir. Tədrisə fərdi yanaşma hər bir şagirdin güclü, zəif tərəfləri, maraqları və öyrənmə üslubları ilə özünəməxsus olduğunu qəbul edir.

Müəllimlər öz yanaşmalarını müxtəlif yollarla fərdiləşdirə bilərlər. Məsələn, onlar müxtəlif öyrənmə qabiliyyətləri və ya ehtiyacı olan şagirdləri müəyyənləşdirməklə sinifdə diferensiallaşdırma aparmaq imkanı əldə edir..

Beləliklə, müəllimlər hər bir şagirdin güclü tərəflərini tanımaqla və inkişaf üçün imkanlar təklif etməklə onların uğur qazana biləcəyi dəstəkləyici mühit yaradırlar.

4. Öyrənmə mühitinin yaradılması

Müəllim-şagird münasibətlərinin sağlam əsasda qurulması üçün emosional və intellektual inkişafa şərait yaradan öyrənmə mühitinin formalaşdırılması vacibdir. Hər bir təhsil müəssisəsi maddi-texniki cəhətdən nə qədər yüksək səviyyədə təchiz olunsa da, orada sağlam mənəvi-psixoloji mühit, normal öyrənmə mühiti yaradılmayıbsa, təhsilin keyfiyyət təminatından söhbət gedə bilməz. Ona görə də məktəbdə həm əşyavi mühit, həm informasiya mühiti, həm də emosional mühit öyrənmə prosesinin səmərəliliyini təmin etməyə yönəlməlidir. Sinifdə normal öyrənmə mühiti yaradıldıqda şagirdlər də fikirlərini sərbəst ifadə edə və uğursuzluq qorxusu olmadan öyrəndiklərini nümayiş etdirə bilərlər.

Müəllimlər müsbət davranışı təşviq etmək, münaqişələri sülh yolu ilə həll etmək, emosional və ya psixoloji problemlərlə üzləşən şagirdlərə dəstək verməklə bu tip mühitin yaradılmasında mühüm rol oynayırlar.

5. Müəllimin şəxsi nümunəsi

Təhsilin humanistləşdirilməsi kontekstində müəllimlər təkcə tərbiyəçi deyillər; onlar şagirdlərə həyatın mürəkkəbliklərində istiqamət götürməyə kömək edən əxlaqi bələdçilərdir.

Dürüstlük, xeyirxahlıq və məsuliyyət nümunəsi olan müəllimlər şagirdlər üçün həmişə örnəkdir. Müəllimlər bu dəyərləri nümayiş etdirməklə şagirdləri də oxşar münasibət və davranışları mənimsəməyə təşviq edirlər. Bundan əlavə, şagirdlərlə qarşılıqlı münasibətdə ədalətlilik nümayiş etdirən, onlar arasında ayrı- seçkiliyə yol verməyən müəllimlər daha böyük nüfuz qazanaraq başqalarına hörmət və ləyaqətlə yanaşmağın vacibliyini anlamaqda şagirdlərə kömək edir.

Nəticə. Beləliklə, müəllimlər empatiya, qarşılıqlı hörmət, fərdi yanaşma nəticəsində şagirdlərin emosional, intellektual və sosial inkişafına töhfə verən qarşılıqlı münasibətləri formalaşdıra bilərlər. Bütün bunlar hər bir şagirdin ləyaqətini və dəyərini qiymətləndirməyə imkan verən öyrənmə mühitinin yaradılmasına kömək edir.

Problemin aktuallığı. Pedaqoji prosesdə müəllim-şagird münasibətlərinin düzgün qurulması həmişə diqqət mərkəzində olmuşdur. Təhsilin humanistləşdirilməsi şəraitində şagirdin də müəllimlə bə-

rabərhüquqlu tərəfmüqabilə çevrilməsi münasibətlərin subyekt-subyekt çərçivəsində qurulmasını zərurətə çevirir.

Problemin praktik əhəmiyyəti. Məqalədə əks olunan fikirlər pedaqoji prosesdə münasibətləri düzgün tənzimləmək və emosional-mənəvi, həmçinin səmərəli öyrənmə mühiti yaratmaqda müəllimlər üçün faydalı ola bilər.

Ədəbiyyat:

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. - Bakı: Qanun, - 2009, - 108 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 24 oktyabr 2013-cü ildə qəbul edilmişdir // Azərbaycan müəllimi. - 2013, 25 oktyabr, № 41
3. Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər –president.az/az/ articles / view/ 50474
4. "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" –e qanun.az / framework / 50013
5. Əlizadə, Ə.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. 3 cilddə. İ cild / Ə.Ə.Əlizadə, H.Ə.Əlizadə. - Bakı: ADPU-nun nəşriyyatı, - 2008. - 479 s.
6. Beynəlxalq Numanizm Manifesti.–içhp.org.ru /wp–content/upload/2019/ manifest _az. pdf.
7. Амонашвили, Ш. А. Размышление о гуманной педагогике/ Ш.А Амонашвили – М Издательский Дом Ш. Амонашвили, -1995. -496 с.

Redaksiyaya daxil olub: 27.01.2025

UOT 373.2

Rüxsarə Eldar qızı Tağıyeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi
htpp://orcid.org/0000-0002-2619-2034
E-mail: r.tagiyeva@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).50-53

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA OYUNLAR VASİTƏSİLƏ RİYAZİ BACARIQLARIN İNKİŞAFI

Рухсара Эльдар qızı Тагиева
ведущий специалист Института Образования Азербайджанской Республики

РАЗВИТИЕ МАТЕМАТИЧЕСКИХ НАВЫКОВ У ДОШКОЛЬНИКОВ ПОСРЕДСТВОМ ИГР

Rukhsara Eldar Taghiyeva
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan

THE DEVELOPMENT OF MATHEMATICAL SKILLS IN PRESCHOOL CHILDREN THROUGH GAMES

Xülasə. Məktəbəqədər dövr, uşaqların koqnitiv, emosional və sosial inkişafında mühüm bir mərhələdir. Bu dövrdə uşaqların riyazi bacarıqlarının inkişafı, onların gələcək akademik müvəffəqiyyətləri və analitik düşüncə qabiliyyətlərinin formalaşması üçün əhəmiyyətlidir. Oyunlar, uşaqların riyazi anlayışları mənimsəməsi və inkişaf etdirməsi üçün effektiv bir vasitədir. Bu məqalədə, məktəbəqədər uşaqlarda oyunlar vasitəsilə riyazi bacarıqların inkişafı yolları, metodları və strategiyaları geniş şəkildə müzakirə olunacaqdır.
Açar sözlər: *məktəbəqədər təhsil, bilik, bacarıq, inkişaf, oyun, sayma bacarıqları, riyazi anlayışlar.*

Аннотация. Дошкольный период является важной стадией в когнитивном, эмоциональном и социальном развитии детей. В этот период развитие математических навыков у детей имеет большое значение для их будущих академических успехов и формирования аналитических способностей. Игры являются эффективным средством для усвоения и развития математических понятий у детей. В этой статье будут широко обсуждены пути, методы и стратегии развития математических навыков у дошкольников посредством игр.
Ключевые слова: *дошкольное образование, знания, умения, развитие, игра, навыки счета, математические понятия.*

Abstract. The preschool period is a crucial stage in the cognitive, emotional, and social development of children. During this time, the development of mathematical skills is essential for their future academic success and the formation of analytical thinking abilities. Games are an effective means for children to grasp and develop mathematical concepts. This article will discuss in detail the ways, methods, and strategies for developing mathematical skills in preschool children through games.
Keywords: *preschool education, knowledge, skills, development, game, counting skills, mathematical concepts.*

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixoloji inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını və bir çox bacarıqları təmin edir. Məktəbəqədər dövrdə uşaq riyazi bacarıqlarda formalaşır. Bu formalaşma prosesində uşaqlarda həmçinin məntiqi bacarıqlarda inkişafını təmin edir. Uşaqlarda riyazi bacarıqları formalaşdırmaq üçün bir çox vasitələrdən istifadə edib, inkişaf etdirmək olur.

Riyazi bacarıqlar, uşaqların gündəlik həyatda riyazi anlayışları tətbiq etməsinə imkan tanıyır. Bu bacarıqlar analitik düşüncə, problem həll etmə və məntiqi düşüncə qabiliyyətlərinin inkişafında vacibdir. Riyazi bacarıqlar aşağıdakı sahələrdə əhəmiyyət kəsb edir:

Gündəlik həyatda tətbiq: Uşaqların gündəlik həyatda qarşılaşdıqları məsələlərin həllində riyazi biliklərdən istifadə etməsi.

İntellektual inkişaf: Riyazi bacarıqlar, uşaqların düşünmə qabiliyyətlərini artırır və onları müstəqil düşüncəyə yönəldir.

Sosial münasibətlər: Oyunlar vasitəsilə uşaqlar arasında əməkdaşlıq, paylaşma və rəqabət anlayışlarının formalaşması.

Məktəbəqədər yaş dövründə uşaqlarda riyazi bacarıqların inkişaf etdirilməsində bir neçə alimlərin nəzəriyyələri də mövcuddur:

Jean Piaget, uşaqların riyazi düşüncələrinin inkişafını mərhələli proses kimi izah edir. Onun nəzəriyyəsinə görə, uşaqların düşüncə qabiliyyəti 4 mərhələyə bölünür. Məktəbəqədər dövr 3-6 yaş arasını əhatə edir və "preoperasional mərhələ" adlandırılır. Bu mərhələdə uşaqlar simvolik düşüncə qabiliyyəti qazanırlar, lakin hələ də konkret məntiqi düşüncələrdən istifadə edə bilmirlər.

Lev Vıgotski, uşaqların sosial mühitdən, dil və mədəni kontekstdən təsirləndiyini vurğulayır. O, uşaqların riyazi anlayışları öyrənməsində tərbiyəçi-müəllim-uşaq qarşılıqlı əlaqəsinin və sosial mühitin əhəmiyyətini qeyd edir. Riyazi bacarıqların inkişafında oyunlar, uşaqların sosial qarşılıqlı münasibətləri və müzakirələri üçün bir platforma təmin edir.

Oyunlar məktəbəqədər uşaqların riyazi bacarıqlarını inkişaf etdirmək üçün bir vasitə olaraq önəmlidir. Oyunlar vasitəsilə uşaqlar, riyazi anlayışları əyləncəli və maraqlı bir mühitdə mənimsəyirlər. Oyunların riyazi bacarıqların inkişafındakı rolu aşağıdakı istiqamətləri əhatə edir.

Uşaqlara riyazi anlayışların aşılanmasında sayma və hesablama oyunları əhəmiyyətlidir. Məsələn, uşaqlara müxtəlif obyektlərin sayılması, toplama və çıxma əməliyyatlarını oyunlar vasitəsilə öyrətmək mümkündür.

Uşaqlara forma və ölçü anlayışlarının öyrədilməsi, onların riyazi düşüncə qabiliyyətlərini artırır. Oyunlar, uşaqlara müxtəlif formalardakı obyektlərin tanıdılması və müqayisə edilməsi üçün ideal bir mühit yaradır.

Uşaqların müxtəlif formalı bloklarla oynayaraq, onların forma tanıma qabiliyyətlərini inkişaf etdirmək.

Uşaqların fərqli ölçülərdəki obyektləri müqayisə edərək, ölçü anlayışlarını inkişaf etdirmək.

Riyazi tapmacalar və problemlər, uşaqların düşüncə qabiliyyətlərini artırmaq üçün əla vasitədir. Bu cür fəaliyyətlər, uşaqların problem həll etmə bacarıqlarını inkişaf etdirir. Oyunların riyazi bacarıqların inkişafında istifadəsi üçün müxtəlif yollar mövcuddur.

Rəqəmsal oyunlar, müasir dövrün uşaqları üçün cəlbedici bir vasitədir. Mobil tətbiq və oyunlar vasitəsilə uşaqlara riyazi bacarıqlar öyrədilə bilər.

3-6 yaş arası uşaqlar üçün sayma oyunları, onların riyazi bacarıqlarını və məntiqi düşüncələrini inkişaf etdirməyə kömək edir. Bu yaş dövründə uşaqlar rəqəmləri tanımağa, ardıcıllığı başa düşməyə və sadə hesablamalar aparmağa başlayırlar. Bu mərhələdə tədris əyləncəli və interaktiv formada olmalıdır ki, uşaqların diqqətini cəlb etsin və öyrənmə həvəsini artsın. Aşağıda bəzi maraqlı sayma oyunları var:

1. Say və tap

Necə oynanılır: Tərbiyəçi - müəllim və ya valideyn evdə və ya qrupda müəyyən sayda əşyalar (oyuncaq, qələm, daşlar) gizlədir. Uşaqlar həmin əşyaları tapıb onların sayını deməlidir. Bu oyun vasitəsi ilə sayma, müşahidə, yaddaş və diqqət bacarıqlarını inkişaf etdirmək olar.

2. Addım-addım sayma

Necə oynanılır: Uşaqlar müəyyən bir məsafədə yeriyirlər və hər addımda bir rəqəm deyirlər (məsələn, "bir, iki, üç..."). Bu oyun zamanı tullanma, qaçma və ya fərqli hərəkətlərin əlavə

edilməsi mümkündür. Bu oyun vasitəsi ilə sayma, ritm, motor bacarıqları inkişaf etmiş olur.

3. Sayma kartları

Necə oynanılır: Kartlarda fərqli sayda obyektlər çəkilir və uşaq kartdakı obyektləri sayıb uyğun rəqəmi tapır. Hər kartın üzərində müxtəlif rəqəmlər və obyektlər ola bilər (məsələn, 3 alma, 4 top). Bu oyun vasitəsi ilə vizual qavrama, uyğunlaşdırma bacarığı inkişaf etmiş olur.

4. Topların sayılması

Necə oynanılır: Fərqli rəngli toplar istifadə edərək uşaqdan müəyyən sayda topu sayıb göstərməsi və ya topları rənglər üzrə qruplaşdırması istənilir. Bu oyun vasitəsi ilə sayma, rənglər üzrə qruplaşdırma, riyazi məntiq bacarıqları inkişaf etmiş olur.

5. Rəqəmlər üzrə təsnifat

Necə oynanılır: Uşaqlara müxtəlif obyektlər verilir və onlardan həmin obyektləri sayaraq uyğun qruplara bölmələri tələb olunur. Məsələn, 5 qələm, 3 oyuncaq maşın. Bu oyun vasitəsi ilə sayma, təsnifat, məntiqi düşüncə bacarıqları inkişaf etdirmiş oluruq.

Uşaqlar bu yaşda toplama və çıxma əməliyyatlarını hələ başa düşmə mərhələsində olduqları üçün, oyunlar real həyatda rast gəldikləri əşyalarla və hərəkətlərlə əlaqələndirilməlidir. Məsələn aşağıdakı oyunlar:

1. Meyvə və tərəvəz toplama

Necə oynanılır: Oyun üçün plastik meyvələr və ya tərəvəzlər istifadə olunur. Məsələn, uşağa 3 alma verin və daha 2 alma əlavə edin. Sonra ondan neçə alma olduğunu soruşun. Daha sonra isə 1 almanı götürüb qalanlarının sayını müəyyən etməsini istəyin. Bu oyun vasitə ilə toplama və çıxma əməliyyatları, real obyektlərin istifadəsi ilə riyazi düşüncə inkişaf etmiş olur.

2. Oyuncaq maşınlarla toplama və çıxma

Necə oynanılır: Oyun üçün oyuncaq maşınlar və ya başqa sevimli oyuncaq növləri istifadə oluna bilər. Uşağa 5 oyuncaq maşın verin və onlardan daha 2 maşını gətirməsini istəyin. Sonra maşınların sayını birlikdə hesablayın. Ardınca isə bir neçə maşını götürün və çıxma əməliyyatı aparın. Bu oyun vasitə ilə sadə toplama və çıxma, müşahidə və sayma bacarığı inkişaf etmiş olur.

3. Qatla və çıxar

Necə oynanılır: Kağızdan hazırlanmış qutular və ya müxtəlif formalı bloklarla oynana bilər. Məsələn, uşağa 4 qutu verin və sonra onlara daha 3 qutu əlavə edin. Nəticədə neçə qutu olduğunu soruşun. Sonra isə bir neçə qutunu götürərək qalan qutuları saymasını istəyin. Bu oyun vasitə ilə toplama və çıxma əməliyyatları, məkan və həcm anlayışı formalaşır.

4. Əl işarəsi ilə riyaziyyat

Necə oynanılır: Əl barmaqlarından istifadə edərək toplama və çıxma əməliyyatları etmək sadə və təsirli bir üsuldur. Məsələn, uşağa 3 barmaq göstərib "Buna 2 barmaq daha əlavə etsək neçə olar?" sualını verin. Eyni şəkildə barmaqların bir qismini gizlədib "İndi neçə barmaq qaldı?" deyə soruşa bilərsiniz. Bu oyun vasitəsi ilə sadə toplama və çıxma əməliyyatları, əl göz koordinasiyası inkişaf etmiş olur.

Bu oyunlar uşaqların riyazi düşüncə tərzini inkişaf etdirməklə yanaşı, onları əyləndirir və öyrənməyi daha maraqlı edir.

Uşaqların riyazi bacarıqlarının inkişafında tərbiyəçi-müəllimlərin və ailələrin rolu əvəzolunmazdır. Tərbiyəçi-müəllimlər, uşaqlara oyunlar vasitəsilə riyazi anlayışları öyrətmək və onların inkişafını izləmək üçün strategiyalar hazırlamalıdırlar. Ailələr isə uşaqları evdə dəstəkləyərək, onların riyazi bacarıqlarını gündəlik həyatda tətbiq etməyə təşviq etməlidirlər.

Məktəbəqədər dövrdə uşaqlarda riyazi bacarıqların inkişafı, onların gələcək akademik müvəffəqiyyətlərinə və analitik düşüncə qabiliyyətlərinə zəmin yaradır. Oyunlar, uşaqların riyazi anlayışları əyləncəli və maraqlı bir mühitdə mənimsəmələrinə imkan tanıyır. Sayma, forma tanıma, riyazi tapmacalar və sosial qarşılıqlı əlaqələr vasitəsilə uşaqların riyazi bacarıqlarının inkişafı təmin edilir.

Uşaqların riyazi bacarıqlarının inkişaf etdirilməsi, onların intellektual potensialını artıraraq, gələcəkdə müstəqil düşünmə və problem həll etmə qabiliyyətləri qazandırır. Bu, onların uğurlu bir həyat sürmələrinə əsaslı bir təməl qoyur.

Problemin aktuallığı. Məktəbəqədər dövrdə uşaqların riyazi bacarıqlarının inkişafı son dərəcə aktual bir məsələdir. Erkən yaş dövründə uşaqların intellektual inkişafı, xüsusilə də riyazi düşüncə tərzinin formalaşması, gələcək akademik uğurlarına zəmin yaradır. Riyazi bacarıqların erkən inkişafı, uşaqların analitik və məntiqi düşüncə qabiliyyətlərini artıraraq, onların problem həll etmə və qərar vermə bacarıqlarını təkmilləşdirir. Müasir təhsil sistemində riyazi bacarıqların məktəbəqədər tədris proqramlarına daxil edilməsi bu sahədə tədqiqatların artması ilə də aktuallaşmışdır. Oyunlar və interaktiv metodlar vasi-

təsilə uşaqların riyazi biliklərinin öyrədilməsi, onların bu bilikləri əyləncəli şəkildə mənimsəməsinə imkan verir. Jean Piaget və Lev Vıgotski kimi məşhur nəzəriyyəçilərin uşaqların riyazi düşüncə prosesləri ilə bağlı fikirləri, mövzunun aktuallığını daha da gücləndirir. Sosial və mədəni mühitin uşaqların riyazi inkişafına təsiri də mühüm əhəmiyyət kəsb edir. Riyazi bacarıqların gündəlik həyatda tətbiqi, uşaqların intellektual potensialının genişlənməsinə töhfə verir. Bu yanaşmalar müasir təhsil metodlarında uşaqların təhsilinə strateji yanaşmanın aktuallığını göstərir. Beləliklə, məktəbəqədər dövrdə uşaqların riyazi bacarıqlarının inkişaf etdirilməsi tədris prosesinin ən aktual mövzularından biridir.

Problemin yeniliyi. Problemin yeniliyi ondan ibarətdir ki, rəqəmsal texnologiyaların inkişafı ilə uşaqların tədrisinə rəqəmsal oyunlar və mobil tətbiqlər də daxil olmuşdur. Bu, müasir dövrdə uşaqların maraqlarına uyğun təlim yanaşmalarını tələb edir. Riyazi bacarıqların inkişaf etdirilməsində tərbiyəçi-müəllimlər və valideynlərin birgə fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Oyun əsaslı yanaşmalar sayəsində uşaqlar, həm real həyatda, həm də virtual mühitdə riyazi bacarıqları daha rahat mənimsəyir. Riyazi bacarıqların məktəbəqədər dövrdə tədrisi, uşaqların analitik və məntiqi düşüncə qabiliyyətlərinin möhkəmləndirilməsinə töhfə verir.

Problemin praktik əhəmiyyəti. Məktəbəqədər təhsil sahəsində çalışan tərbiyəçi-müəllimlər, valideynlər, məktəbəqədər təhsil ixtisası üzrə təhsil alan tələbələr faydalana bilər.

Ədəbiyyat:

1. Clements, D. H., & Sarama, J. (2016). Learning and Teaching Early Math: The Learning Trajectories Approach. New York: Routledge. //https://is.gd/997z1f
2. Ginsburg, H. P., Lee, J. & Boyd, J. (2018). Mathematics in Early Childhood Education: A Guide for Teachers and Parents. New York: Routledge. //https://www.learningtrajectories.org/documents/1647887742943.pdf
3. Fuson, K. C., & Briars, D. (2019). Developing Mathematics Understanding in Early Childhood: Learning Trajectories for Young Children. In: Early Childhood Education and Care. Springer. // https://www.mdpi.com/2227-7102/13/8/839
4. Hirsch, L. (2017). The Role of Play in Developing Early Math Skills: A Review of the Literature. Early Childhood Education Journal, 45(2), 163-172. // https://is.gd/PVUeyG

Redaksiyaya daxil olub: 14.01.2025

UOT 372.3/.4

Гюнель Мухаммед гызы Мамедова
преподаватель кафедры педагогики начального образования
Азербайджанского Государственного Педагогического Университета
https://orcid.org/0000-0002-6248-9265
E-mail:gunelmemmedova2806@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).54-58

РОЛЬ ЛЕКЦИИ В ФОРМИРОВАНИИ ИССЛЕДОВАТЕЛЬСКИХ НАВЫКОВ У БУДУЩИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ

Günel Məhəmməd qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
ibtidai təhsilin pedaqogikası kafedrasının müəllimi

GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNDƏ TƏDQİQATÇILIQ BACARIĞININ FORMALAŞDIRILMASINDA MÜHAZİRƏNİN ROLU

Gunel Mahammad Mammadova
lecturer of the department of Primary education pedagogy,
Azerbaijan State Pedagogical University

THE ROLE OF LECTURE IN DEVELOPING RESEARCH SKILLS IN FUTURE PRIMARY SCHOOL TEACHERS

Аннотация. В статье рассматриваются основные черты интегративного характера лекций, условия их успешного проведения, а также представлена технология организации нестандартных лекций (проблемных лекций, визуальных лекций, бинарных лекций, лекций-пресс-конференций и т. д.). Отмечается, что несмотря на ежегодное сокращение количества часов, отводимых на лекции в высших педагогических учебных заведениях, они по-прежнему остаются основной формой организации обучения. В условиях обилия информации передача студентам известного содержания и предоставление готовых знаний не только «утомляет» их, но и снижает их мотивацию. Основная цель – научить студентов отбирать первичные (важные) материалы, обрабатывать их, обобщать и «открывать» новые знания. По этой причине подчеркивается интерактивный характер лекций.
Ключевые слова: *начальные классы, исследовательские навыки, учебный процесс, лекция, исследовательская культура*

Xülasə. Məqalədə mühazirələrin inteqrativliyinin əsas xüsusiyyətləri, uğurlu alınmasının şərtləri araşdırılır, qeyri-standart mühazirələrin (problem xarakterli mühazirə, vizual mühazirə, binar mühazirə, mühazirə-mətbuat konfransı və s.) təşkili texnologiyası təqdim edilir. Ali pedaqoji məktəblərdə mühazirəyə ayrılan saatların ildən-ilə azaldılmasına baxmayaraq hələ də təlimin əsas təşkili forması kimi qalır. İnformasiya bolluğu şəraitində məlum məzmunun tələbələrə ötürülməsi, hazır biliklərin verilməsi onları "yormaqla" yanaşı, motivasiyalarını aşağı salır. Əsas məqsəd tələbələrə birinci dərəcəli (vacib) materialları seçməyi, emal etməyi, ümumiləşdirməyi, yeni biliyi "kəşf" etməyi öyrətməkdir. Bu səbəbdən də mühazirələrin *interaktiv* xarakter daşıması önə çəkilir.
Açar sözlər: *ibtidai sinif, tədqiqat bacarığı, təlim prosesi, mühazirə, tədqiqatçılıq mədəniyyəti*

Abstract. In the article, the main features of the integrative character of lectures, the conditions for their successful implementation, and the technology of organizing non-standard lectures (problem lectures, visual lectures, binary lectures, lectures-press-conferences, etc.) are presented. It is noted that despite the annual reduction in the number of hours allocated to lectures in higher pedagogical educational institutions, they still remain the main form of training organization. In the conditions of the abundance of information, the transfer of known content to students and the provision of ready-made knowledge not only "tires" them, but also reduces their motivation. The main goal is to teach students to select primary (important) materials, process them, generalize and "discover" new knowledge. For this reason, the interactive character of the lectures is emphasized.

Keywords: *primary classes, research skills, teaching process, lecture, research culture*

Главной особенностью лекций, способных повлиять на формирование исследовательской культуры у будущих учителей начальных классов, является их *интерактивный характер*. Различные способы интерактивности лекций, предлагаемые в научно-педагогической литературе, можно классифицировать следующим образом:

1. Отбор и представление материалов с учетом специфических особенностей аудитории. Такой подход требует учета специфических особенностей аудитории, среды обучения, потребностей обучаемых и общества. Данные особенности связаны с различными внутренними и внешними факторами. Внутренние факторы включают выбор карьеры студентами (выбрали ли они профессию преподавателя по собственной воле?), уровень их подготовки по изучаемому предмету или теме, а внешние факторы включают потребности общества, образовательную инфраструктуру и среду обучения.

2. Согласование интересов, мотивов и целей педагогов и обучающихся для совместного поиска и «открытия». Основную роль в учебном процессе играет согласование интересов, мотивов и целей между преподавателем и студентами. Это явление способствует созданию позитивной образовательной среды, в которой обе стороны активно участвуют в совместном стремлении к знаниям и «открытию» новых горизонтов. Когда интересы и цели совпадают, у студентов появляется более сильная мотивация к обучению. Это происходит потому, что они видят важность изучаемого материала для своих личных целей и интересов. Совместное стремление к знаниям не только позволяет обмениваться идеями, но и способствует углубленному изучению предмета. Преподаватели могут сделать педагогический процесс более интерактивным и увлекательным, выбрав методы, соответствующие интересам студентов. Взаимодействие преподавателя и студентов способствует равноправному сотрудничеству и развитию навыков критического мышления. Сотрудничество между преподавателями и студентами создает возможности для творческого обучения и применения полученных знаний. Разнообразные идеи и предложения студентов еще больше обогащают учебный процесс.

3. «Индивидуализация» коммуникации. Суть этого подхода заключается в том, что преподаватель как бы ведет диалог со студентом и убеждает его. На самом деле, личная беседа, прививаемая ценность приемлемы для всей аудитории.

4. Во время обмена идеями обращение к аудитории с наводящими вопросами, а не с целью подтверждения или опровержения идей студентов. Студенты могут отвечать на вопросы правильно или неправильно. Их ответы могут быть полными или неполными. Приведенные ответы могут не иметь отношения к обсуждаемому вопросу. Затем преподаватель может полностью контролировать процесс, используя стимулирующие вопросы.

Лекции, состоящие в основном из комментирования теоретических материалов, в наше время отходят от классических традиций и трансформируются в новые формы. В современный период лекции стали средством научного общения и поэтому носят направляющий характер. Как и в общеобразовательной школе, в высшей педагогической школе основная задача преподавателя – ориентировать студентов в отборе необходимой научно-педагогической и методической информации. Предоставление им готовых знаний не позволяет им развивать умствен-

ную напряженность, многообразие мнений, критическое мышление, препятствует возникновению умений поиска и исследования. По нашему мнению, университетская лекция должна быть интерактивной, ориентированной на студента и реализовываться с применением информационно-коммуникационных технологий. Лекции следует использовать эффективно, чтобы активно вовлекать студентов в процесс обучения и способствовать глубокому усвоению материала.

Давайте сосредоточимся на тех компонентах лекции, которые мы считаем эффективными и продуктивными: 1) Обеспечение интерактивности на лекции. Современные лекции должны проводиться при активном участии студентов. Этого можно достичь посредством обсуждений, сессий вопросов и ответов и интерактивных опросов. Создавая среду сотрудничества и совместного обучения, можно вовлечь студентов в учебный процесс и завладеть их вниманием. 2) Обеспечение нестандартного подхода на лекции. Использовать в учебном процессе проблемные, наглядные, бинарные лекции, лекцию-пресс-конференцию, лекцию-ситуацию, лекцию-совет, лекцию-пропаганду, лекцию-диалог, лекцию-интервью. 3) Использование мультимедийных средств, слайдов и видеороликов на лекциях значительно повышает внимание и интерес студентов.

Это обусловлено несколькими факторами: а) визуальная привлекательность; б) интерактивность; в) многообразие форм; г) мотивация. Мультимедийные материалы, такие как видео и анимация, делают лекции более живыми и запоминающимися, помогают студентам концентрировать внимание во время лекции, активно участвовать в учебном процессе и делают обучение более увлекательным. Использование различных форм (текст, аудио, изображения) не только помогает студентам найти наиболее подходящий способ усвоения информации, но и укрепляет их мотивацию. 4) Развитие критического мышления на лекции. Лекции должны побуждать студентов критически анализировать прослушанный материал, проводить сравнения и делать обобщения. 5) Соответствие лекционных материалов реальной жизни. Связь содержания лекций с жизнью, будущим и реальным опытом студентов делает материал более доступным и интересным.

Когда студенты видят актуальность того, что они изучают, они становятся более мотивированными и стремятся глубже понять тему. 6) Правильное определение результатов обучения на лекции. Правильное определение структуры лекции и результатов обучения с учетом интересов и потребностей студентов в обучении оказывает сильное влияние на способность студентов точно выявлять цель и делать необходимые заметки и обобщения.

Предоставление студентам возможности давать обратную связь во время и после лекции может не только повысить интерес к обучению, но и помочь преподавателям внести необходимые коррективы в лекцию и улучшить свой подход к преподаванию. Лекцию следует классифицировать по ее общему назначению (информационная, образовательная, воспитательная, развивающая), содержанию (чисто теоретическая и практическая), дидактическим задачам (вводная, текущая, заключительная, обобщающая, обзорная), в зависимости от ее воздействия (эмоциональный уровень, уровень понимания, уровень веры и формирования убеждения), ее характера (догматический, информативный, проблемный), плотности информации (полная, неполная) и логики (последовательная, нелогичная) [2].

Активные и развивающие лекции требуют от лектора правильного и точного планирования и разработки, а также осознанного вовлечения студентов в учебный процесс. Они эффективно используют следующие приемы и подходы для обеспечения успешного проведения лекции.

➢ *Активизация индивидуальной и групповой работы студентов во время лекций.* Например, прежде чем предоставить слово студенту, который просит разрешения ответить на вопрос, вы можете попросить всех обсудить друг с другом свои мысли по поводу ответа. Здесь все студенты активно участвуют в жарких дискуссиях по заданному вопросу, размышляют и обмениваются идеями со своими одногруппниками. Убедившись, что все студенты активно участвуют в обсуждении, студенту, первому за-

давшему вопрос, предоставляется слово для ответа на него.

➢ *Вовлечение в интерактивную деятельность.* Вовлечение студентов в интерактивную деятельность во время лекций по педагогическим дисциплинам значительно повышает их вовлеченность и улучшает уровень усвоения. Студентам предлагается написать эссе о новых понятиях, педагогической проблеме или ситуации. Это развивает аналитические и интерпретационные навыки студентов. Они объясняют, как написанное ими соотносится с темой лекции. Преподаватели, использующие педагогические модели или диаграммы процессов на лекциях, просят студентов обсудить и прокомментировать, как эти диаграммы можно применять на практике, что помогает им правильно организовать критическое мышление и командную работу.

➢ *Определение уровня усвоения темы, обсуждаемой на лекции.* Для оценивания уровня усвоения лекционных тем преподаватели кафедры используют различные методы: 1) с помощью тестов и контрольных вопросов. В конце лекции преподаватели используют простые тесты или контрольные вопросы, чтобы определить уровень усвоения темы студентами. Вопросы могут быть открытыми или закрытыми, чтобы проверить как фактические знания, так и понимание концепций. 2) групповые обсуждения. При случае, когда условия аудитории позволяют, то, преподаватели делят студентов на небольшие группы, где они могут обсудить основные моменты, которые они узнали на лекции. Наблюдая за их сотрудничеством, идеями и аргументами, которые они выдвигают, можно определить, в какой степени они понимают тему. 3) презентации и мини-проекты. Студентам предлагается подготовить короткие презентации или мини-проекты, связанные с темой лекции. Это позволяет им продемонстрировать свою способность применять свои знания на практике. 4) рефлексия: В конце лекции студентам предлагается написать краткое изложение темы. Это поможет вам определить, какие аспекты темы понятны, а какие остаются неясными. Анонимный характер данного опроса не только обеспечивает объективность, но и позволяет студентам свободно выражать свое мнение.

В последние годы в высших учебных заведениях Азербайджана, готовящих учителей начальных классов, наряду с традиционными лекциями широко используются нестандартные лекции. Данный тип лекций имеет существенные преимущества перед классическими лекциями с точки зрения развития исследовательских навыков у будущих учителей начальных классов. Нестандартные лекции: основаны на взаимном сотрудничестве, совместной творческой деятельности и обратной связи. Это помогает студентам глубже понимать сложные педагогико-психологические концепции, образовательно-воспитательные теории и технологии, развивает у них критическое мышление; развивают навыки самостоятельного обучения и исследования. В отличие от классических лекций, такие лекции играют важную роль в формировании нестандартного мышления, навыков самостоятельного обучения и исследования, создавая чувство ответственности за собственное образование. Студентов поощряют к поиску для получения информации с целью получения знаний по необходимой проблеме, они учатся задавать вопросы и самостоятельно решать проблемы; развитие критического мышления. Активные стратегии обучения, используемые в нестандартных лекциях, развивают навыки критического мышления.

Следует также обратить внимание на новые типы лекций, которые мы наблюдаем в высших педагогических учебных заведениях, готовящих учителей начальных классов. Мы считаем, что подобные лекции могут сыграть важную роль в развитии исследовательских навыков у будущих учителей начальных классов.

1. Лекция проблемного характера. На таких лекциях вопросы и новая информация, которые предполагается преподать, представляются студентам в форме проблем. Основная задача студентов – услышать проблему, понять ее и найти решения. Они обмениваются идеями по проблеме, выдвигают теоретические идеи и получают новые знания, находя правильный ответ. Проблемно-ориентированные лекции побуждают студен-

тов работать самостоятельно и развивать свои когнитивные способности.

Создание проблемной ситуации на лекциях по предмету «Педагогика» не только интенсифицирует процесс обучения, развивает критическое мышление у студентов, но и оказывает существенное влияние на формирование у них исследовательских навыков. В ходе проблемной лекции успешно сочетаются монолог преподавателя и диалог студентов. Метод монолога играет важную роль на этапе актуализации деятельности, метод диалога – при формировании новых знаний и умений, метод монолога – на этапе контроля и оценивания.

2. Визуальная лекция. На таких лекциях тема доносится до студентов с помощью слайдов, изображений, видео, диаграмм, графиков и других визуальных элементов. Визуальные лекции позволяют глубже понять тему и делают урок более интерактивным и интересным. Помимо предоставления студентам необходимой информации, визуальные лекции вовлекают их в активное обсуждение и практическое применение знаний, что влияет на формирование у них исследовательских навыков.

3. Бинарная лекция. «Парное чтение лекций – это совместная работа двух преподавателей, которые читают лекции на одну и ту же тему и устанавливают связи как друг с другом, так и со своей студенческой аудиторией» [2]. Это помогает глубже и полнее понять тему. При этом участие двух преподавателей в процессе обучения формирует познавательную активность у студентов, формируя внутреннюю мотивацию к обучению. Содержание и технология таких лекций проблемно-ориентированы, дают более обширную информацию, формируют культуру дискуссий и исследований среди студентов.

4. Лекция-пресс-конференция. Лекция-пресс-конференция обладает широкими возможностями для повышения учебно-познавательной активности студентов [4]. Хотя проведение лекции в таком формате схоже с проведением пресс-конференций, есть и определенные отличия. Эти лекции основаны на вопросах студентов и проводятся одним или двумя преподавателями. В ходе исследования мы пришли к выводу, что ни одна форма лекций не может быть универсальной в подготовке будущих учителей начальных классов. При выборе форматов лекций следует учитывать характер и объем темы, уровень подготовки студентов, технические возможности аудитории.

Актуальность статьи определяется тем, что в ней рассматривается роль лекций в формировании исследовательских умений у будущих учителей начальных классов.

Научная новизна статьи заключается в обобщении современного опыта относительно роли чтения лекций в развитии исследовательских навыков будущих учителей начальных классов.

Практическая значимость статьи. Подготовить более качественные педагогические кадры можно, используя результаты исследований роли чтения лекций в развитии исследовательских навыков у будущих учителей начальных классов.

Литература:

1. İsmixanov, M. Ali məktəb pedaqogikası: Dərs vəsaiti / M.A. İsmixanov, H.B. Bayramov, S.V. Vəliyeva. - Bakı: ADPU, - 2019. - 239 s.
2. Загвязинский В.И. Вузовская лекция в структуре современного учебного процесса // Образование и наука. - 2014. № 2. - с.34-46.
3. Ибрагимова, Е.М. Исследовательская компетенция: основные характеристики понятия/ Е.М. Ибрагимова, И.Э. Идиятов // Образование и саморазвитие №4 (46) 2015. - Казань: Издательство Казанского университета, - 2015. - с. 24-26.
4. Роботова А.С. Университетская лекция: прошлое, настоящее, будущее // Высшее образование в России. - 2011. - №4. - с. 127-133
5. Рыскулова М.Н. Университетская лекция: традиции и инновации // Высшее образование в России. - 2011. - № 12. - с. 143-146.

Redaksiyaya daxil olub: 14.01.2025

UOT 378.

Rəhimə Rəhim qızı Kuhi
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-6835-0908
E-mail: rehime.kuhi.95@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).59-62

ALİ MƏKTƏBLƏRDƏ TƏDRİSİN TƏŞKİLİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRDƏN İSTİFADƏ

Рахима Рахим гызы Кухи
докторант по программе доктора философии
Бакинского Государственного Университета

ИСПОЛЬЗОВАНИЕ НАЦИОНАЛЬНО- ДУХОВНЫХ ЦЕННОСТЕЙ ПРИ ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Rahima Rahim Kuhi
doctorial student in the program of philosophy at Baku State University

USE OF NATIONAL AND SPIRITUAL VALUES IN THE ORGANIZATION OF EDUCATION IN HIGHER EDUCATIONAL INSTITUTIONS

Xülasə. Bu məqalə ali təhsil müəssisələrində tədris çərçivəsində milli mənəvi dəyərlərin inteqrasiyasını araşdırır. Bu dəyərlərin tələbələrin xarakterinin formalaşmasında və etik davranışın təşviqindəki əhəmiyyətini vurğulayır. Araşdırma, universitetlərin mədəni və mənəvi prinsipləri kurikulumlarına daxil etmək üçün istifadə etdiyi müxtəlif metodologiyaları önə çıxarır. Müxtəlif təhsil müəssisələrində milli dəyərlərə əsaslanan uğurlu proqramların nümunələri araşdırılır. Həmçinin, məqalə bu inteqrasiyanın faydalarını, məsələn, tələbələr arasında sosial məsuliyyətin və icma ilə əlaqənin artırılmasını qeyd edir. Müəllimlərin ənənəvi akademik fənlərlə mənəvi təhsili tarazlamaqda qarşılaşdığı çətinliklər də müzakirə olunur. Milli dəyərləri daha yaxşı əks etdirən materialları təkmilləşdirmək üçün təkliflər irəli sürülür. Bu prosesdə müəllimlərin təliminin vacib rolu vurğulanır ki, müəllimlər bu prinsipləri effektiv şəkildə öyrətmək üçün lazımi səviyyədə hazırlansın. Nəticə etibarilə, məqalə tələbələrdə həm intellekti, həm də mənəvi xarakteri inkişaf etdirən bir bütöv təhsil yanaşmasını müdafiə edir. Ümumilikdə, ali təhsildə milli mənəvi dəyərlərin aşılanmasının məsuliyyətli və vicdanlı vətəndaşların inkişafına əhəmiyyətli dərəcədə töhfə verdiyini vurğulayır.
Açar sözlər; *milli-mənəvi dəyər, inteqrasiya, ali təhsil, gənc nəsil*

Аннотация. Эта статья исследует интеграцию национальных духовных ценностей в рамках обучения в высших учебных заведениях. Подчеркивается важность этих ценностей в формировании характера студентов и содействии этическому поведению. Исследование выделяет различные методологии, используемые университетами для включения культурных и духовных принципов в учебные программы. Рассматриваются примеры успешных программ на основе национальных ценностей в различных учебных заведениях. Также статья отмечает преимущества этой интеграции, такие как повышение социальной ответственности среди студентов и связь с сообществом.

Обсуждаются трудности, с которыми сталкиваются преподаватели в балансировании морального воспитания с традиционными академическими дисциплинами. Выдвигаются предложения по улучшению учебного плана, более точно отражающего национальные ценности. Подчеркивается важная роль подготовки преподавателей, чтобы они могли эффективно обучать этим принципам. В итоге, статья защищает целостный образовательный подход, развивающий как интеллект, так и моральный характер студентов. В общем, утверждается, что внедрение национальных духовных ценностей в высшее образование существенно способствует развитию ответственных и добросовестных граждан.

Ключевые слова: *национальная духовная ценность, интеграция ,высшее образование, молодое поколение*

Abstract. This article explores the integration of national moral values within the framework of teaching at higher education institutions. It underscores the significance of these values in shaping students' character and fostering ethical behavior. The study highlights various methodologies employed by universities to incorporate cultural and moral principles into their curricula. Case studies from diverse institutions that have successfully implemented programs centered on national values are examined. Additionally, the article delineates the benefits of such integration, including the enhancement of social responsibility and community engagement among students. It also addresses the challenges faced by educators in balancing traditional academic subjects with moral education. Recommendations for refining the curriculum to better reflect national values are offered. The article emphasizes the crucial role of faculty training in this process, ensuring educators are adequately prepared to impart these principles effectively. In conclusion, it advocates for a holistic educational approach that nurtures both intellectual and moral character in students. Overall, it posits that the instillation of national moral values in higher education contributes significantly to the development of responsible and conscientious citizens.

Keywords. *National spiritual value, integration, higher education, young generation*

"Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyub saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır"
İlham Əliyev

Milli mənəvi dəyərlər, bir toplumun mədəniyyətini, ənənələrini və sosial davranışlarını formalaşdıran əsas prinsiplərdir. Bu dəyərlərin tanınması və qorunması, gənc nəslin milli kimliyinin formalaşmasında mühüm rol oynayır. Milli-mənəvi dəyərlərimiz o qədər zəngindir ki, onları saymaqla bitməz. Təsadüfi deyil ki, ulu öndərimiz hakimiyyətə gəldiyi zaman ilk gördüyü tədbirlərdən biri məhz ölkənin mədəni irsini yenidən həyata qaytarmaq, ölkəmizin milli dəyərlərini dünya səviyyəsində tanıtmaq oldu. Görülən bir çox tədbirlər sayəsində Azərbaycan milli-mədəni dəyərləri YUNESKO mədəni irsində öz yerini tapdı. Dövlət başçısı hər zaman milli-mənəvi dəyərlərin davam və inkişaf etdirilməsini və gənc nəslin milli-mənəvi dəyərlərə sadiq ruhda böyüməsinin əhəmiyyətini vurğulamışdır. Onun qeyd etdiyi kimi, "bu dəyərlər- ... nəsildən-nəslə keçməli və davam etməlidir... gələcəyimiz, gələcək inkişaf üçüm milli dəyərlər daim diqqət mərkəzində olmalıdır, qorunmalıdır. Gənc nəsil milli dəyərlər əsasında tərbiyə edilməlidir..." Qloballaşan mühitdə hər bir xalqın qlobal proseslərə verdiyi töhfə və əldə etdiyi dəyərlər, o xalqın inkişaf dinamikaları ilə bağlı olaraq, elm, təhsil və milli-mənəvi dəyərlər sisteminin göstəriciləri vasitəsilə qiymətləndirilir. Heydər Əliyev, dövlət quruculuğu sahəsində etnik xalqların milli və dini kimliklərinin, eləcə də milli-mənəvi dəyərlərin önəmini daim vurğulayırdı. O, bu məsələlərdə qətiyyətini nümayiş etdirərək, "Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin birliyi, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir" fikrini irəli sürmüşdür. Bu yanaşma, Azərbaycanda bəşəriliklə millilik arasında yeni bir inkişaf problematikasını ortaya qoymuşdur.

Azərbaycançılıq ideologiyasının yükü, milli-mənəvi dəyərlərə dəyər verən savadlı gənclərin üzərinə düşür. Ulu öndər qeyd edirdi ki, "Cəmiyyətin gələcək inkişafı, gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır... Bizim milli-mənəvi dəyərlərimiz, tarixi köklərimiz, dilimiz və dinimiz – bunların hamısı milli ideologiyamızın mühüm tərkib hissələridir". Bu sözləri ilə o, milli ideologiyanın sağlam inkişafının

gənclərin düzgün yönləndirilməsinə bağlı olduğunu vurğulamışdır.

Bu kontekstdə, gənclərin milli kimliyini, dəyərlərini və mədəniyyətini mənimsəmələri, onların gələcəkdə cəmiyyətin inkişafına olan töhfələrini artıracaq.

Bunun üçün gənclər arasında milli-mənəvi dəyərlərin qorunması istiqamətində işlər görülür, onlarda vətənpərvərlik və vətəndaşlıq hissləri gücləndirilir. Xüsusən, bu istiqamətdə təhsil prosesinin keyfiyyətinin artırılması, elmi-nəzəri və metodiki tövsiyələrin işlənib hazırlanmasında, normativ-hüquqi bazanın yaradılmasında ciddi çalışmalar aparılmaqdadır.Bəs nədir milli-mənəvi dəyər? bu dəyərlər yetişməkdə olan gənc nəslə necə təsir edir?

Milli-mənəvi dəyər dedikdə bir sıra məqamlara toxuna bilərik;

- Ailə dəyərləri, Azərbaycan mədəniyyətinin mərkəzindədir. Ailə, birliyinin və sevginin simvoludur. Valideynlərə hörmət, böyüklərə ehtiram, uşaqlara qayğı göstərmək, milli dəyərlərimizin əsasını təşkil edir. Ailə, cəmiyyətin təməl daşıdır və nəsillər arasında bağlılığı gücləndirir. Uşaqlar, ailə mühitində milli mənəvi dəyərləri öyrənir, bu da onların gələcəkdə bu dəyərləri yaşatmalarına imkan tanıyır. Ailənin əhəmiyyəti, yalnız fərdi səviyyədə deyil, eyni zamanda cəmiyyətin sağlamlığı üçün də vacibdir. Ailə mühitində öyrənilən dəyərlər, insanların bir-birinə olan münasibətini formalaşdırır. Ailənin içindəki sevgi, etibar və dəstək, gənc nəsillərin düzgün inkişaf etməsinə kömək edir.
- Qonaqpərvərlik, Azərbaycan xalqının mədəniyyətinin ayrılmaz hissəsidir. Qonaq qəbul etmək, ona hörmətlə yanaşmaq, dostluq və paylaşma mədəniyyətini inkişaf etdirir. Qonaqpərvərlik, yalnız maddi sərvətləri bölüşmək deyil, həm də ruhani sərvətlərin paylaşılması deməkdir. İnsanların bir-birinə yaxınlaşmasına, müxtəlif mədəniyyətlərin tanınmasına səbəb olur. Bu dəyər, millətin birliyini və həmrəyliyini gücləndirir. Qonaqpərvərlik ənənələri, müxtəlif bayramlarda və tədbirlərdə özünü daha qabarıq şəkildə göstərir. Hər il keçirilən Novruz bayramı, qonaqpərvərliyin gözəl bir nümunəsidir. Bu bayramda insanlar bir araya gəlir, bir-birinə hədiyyələr verir və birlikdə bayram şənlikləri təşkil edirlər.
- Milli musiqi və ədəbiyyat, bizim mənəvi irsimizin vacib komponentləridir. Şairlərimizin, yazıçılarımızın, musiqiçilərimizin yaradıcılığı, dərin hissləri, sosial problemləri və milli ruhu əks etdirir. Muğam, aşıq musiqisi və müasir musiqi janrları, mədəniyyətimizin müxtəlifliyini və zənginliyini nümayiş etdirir. Musiqi, yalnız bir əyləncə növü deyil, eyni zamanda insanların emosiyalarını ifadə etməyə imkan verən bir vasitədir. Ədəbiyyat isə düşüncələrin, duyğuların və ideyaların paylaşılması üçün bir platformadır. Həmçinin, xalq nağılları, əfsanələr və dastanlar, milli mənəvi dəyərlərin və mədəni irsin ötürülməsində mühüm rol oynayır.
- Tarixə və mədəniyyətə olan sevgi, milli mənəvi dəyərlərin qorunmasına və gələcək nəsillərə ötürülməsinə kömək edir. Tarixi abidələr, mədəniyyət mərkəzləri, qədim ənənələr, bu dəyərlərin canlı şahididir. Onları qorumaq və gələcəkdə də yaşatmaq, milli kimliyimizi gücləndirir. Tarixi irsimizin qorunması, gələcək nəsillərin öz köklərini bilməsi üçün vacibdir. Hər bir gənc, öz tarixini, mədəniyyətini tanıdıqca, daha güclü bir milli kimlik hissi inkişaf etdirir. Bu da, xalqın birliyini və həmrəyliyini artırır.
- Milli dəyərlərdən danışarkən dini baxışları diqqətdən kənar saxlamaq olmaz. Dini dəyərlər, milli mənəvi irsimizin ayrılmaz bir hissəsidir. İslam mədəniyyəti, xalqımızın gündəlik həyatında, adət-ənənələrində və münasibətlərində özünü göstərir. Dini bayramlar, insanları bir araya gətirir, birlik və həmrəyliyi gücləndirir. İman, ibadət və dini qaydalara riayət, insanların mənəvi dünyasını zənginləşdirir.

Ali məktəblərdə milli və mənəvi dəyərlərdən istifadə etməyin bir neçə yolu vardır ki, bunlar tələbələrin xarakterinin formalaşmasına və sosial məsuliyyət anlayışının inkişafına müsbət təsir göstərə bilər.

Kurikulumun inkişafı, milli və mənəvi dəyərlərin ali təhsildə sistematik şəkildə əks etdirilməsi baxımından vacibdir. Bu məqsədlə, müvafiq fənlərin və kursların əlavə edilməsi, məsələn, etik davranış, milli tarix, mədəniyyət, və sosial məsuliyyətlə bağlı dərslər, tələbələrin bu dəyərləri daha dərindən anlamalarına kömək edir. Bu cür dərslərdə real həyat situasiyalarından istifadə edərək, tələbələrin dəyərləri tətbiq etməsi təşviq olunur.

Tədris metodları da milli və mənəvi dəyərlərin inteqrasiyasında mühüm rol oynayır. İştirakçı tədris metodları, müzakirələr və qrup işləri vasitəsilə tələbələrin milli dəyərləri müzaki-

rə etməsi və tətbiq etməsi təşviq edilə bilər. Bu, tələbələr arasında dialoq və fikir mübadiləsini artıraraq, onların bir-birindən öyrənməsinə imkan tanıyır.

İctimai layihələr də milli və mənəvi dəyərlərin təbliğində əhəmiyyətli rol oynayır. Tələbələrin yerli icmalarda sosial məsuliyyət layihələrində iştirak etməsi, milli dəyərlərin praktikada tətbiqini təmin edir. Məsələn, könüllü fəaliyyətlər, ekoloji təşəbbüslər və sosial xidmət proqramları tələbələrə icma ilə əlaqə yaratmağa və onların sosial məsuliyyət anlayışını inkişaf etdirməyə kömək edir.

Təlimat və seminarlar vasitəsilə müəllimlər və ekspertlər milli və mənəvi dəyərlər haqqında məlumat verə bilər. Bu cür tədbirlər, tələbələrin bu dəyərləri anlamaq və mənimsəmək üçün nəzəri biliklər əldə etmələrinə şərait yaradır. Həmçinin, təlimlərdə əxlaq, ədalət, insan hüquqları və cəmiyyətə xidmət prinsipləri kimi mövzulara da yer verilə bilər.

Mədəni tədbirlər, məsələn, milli bayramlar, festivallar və mədəniyyət gecələri, tələbələrin milli kimliklərini daha yaxşı anlamalarına və öz mədəni irslərinə bağlılıqlarını artırmağa kömək edir. Bu cür tədbirlərdə iştirak, tələbələr arasında dostluq və həmrəylik hisslərini gücləndirir.

Nəhayət, mentorluq proqramları yaradaraq tələbələrə milli və mənəvi dəyərlərin əhəmiyyətini aşılayan rollar verilə bilər. Tələbələrə mentorluq edən müəllimlər və ya daha təcrübəli tələbələr, bu dəyərləri praktikada necə tətbiq edəcəyini nümayiş etdirə bilər. Bu, gənc nəslin liderlik bacarıqlarını inkişaf etdirmək üçün də əhəmiyyətlidir.

Bütün bu yanaşmalar, tələbələrin xarakterini formalaşdırmağa, onların mənəvi inkişafına kömək etməyə və gələcəkdə daha məsuliyyətli və vicdanlı vətəndaşlar olmalarına şərait yaradır. Ali təhsil müəssisələri, milli və mənəvi dəyərləri müasir dünyada aktuallaşdıraraq, gənc nəslin sosial və mədəni inkişafına əhəmiyyətli dərəcədə töhfə verir. Milli mənəvi dəyərlərimiz yalnız bizim üçün deyil, eyni zamanda gələcək nəsillər üçün də əhəmiyyətlidir. Bu dəyərlərin qorunması və inkişaf etdirilməsi, xalqımızın kimliyini və mədəniyyətini əbədi yaşatmaq üçün vacibdir. Biz, milli dəyərlərimizi yaşatmaqla, həm öz mədəni irsimizi qoruyuruq, həm də dünya ilə daha geniş bir əlaqə yaradırıq. Mili mənəvi dəyərlərimiz, bizi bir araya gətirən, milli birliyin və həmrəyliyin əsasını təşkil edən dəyərlərdir. Onları yaşatmaq, qorumaq və gələcək nəsillərə ötürmək, hər birimizin vətəndaşlıq borcudur. Bu yolla, milli irsimizi əbədi olaraq yaşadaraq, öz gələcəyimizi daha parlaq edə bilərik.

Problemin aktuallığı. Ali məktəblərdə tədrisin təşkilində milli-mənəvi dəyərlərin istifadəsi, müasir cəmiyyətin dinamik inkişafı kontekstində xüsusilə aktualdır. Cəmiyyətin sürətli qlobalizasiyası və mədəniyyətlərin qarşılıqlı təsiri şəraitində, gənclərin milli kimliklərini qorumaq və inkişaf etdirmək vacibdir. Bu dəyərlər, tələbələrin psixoloji və emosional sağlamlığına müsbət təsir göstərərək, onları milli irsə, adət-ənənələrə, və tarixi köklərə bağlayır. Gənc nəsil öz dəyərlərini və mədəniyyətini tanımaqla yanaşı, dünyagörüşünü genişləndirərək, müasir çağırışlara daha hazırlıqlı olurlar.

Problemin yeniliyi. Milli-mənəvi dəyərlərin tədris prosesinə inteqrasiyası, yeni pedaqoji metodların və innovativ yanaşmaların tətbiqini tələb edir. Məsələn, interaktiv dərslər, layihə əsaslı öyrənmə, və mədəni mübadilə proqramları vasitəsilə tələbələrə bu dəyərləri öyrətmək mümkündür. Eyni zamanda, müasir texnologiyalardan, o cümlədən, onlayn platformalardan istifadə edərək, milli dəyərlərin qlobal kontekstdə tanıdılması, gənclərin tədqiqat və innovasiyaya marağını artırır. Bu yanaşma, tələbələrə milli-mənəvi dəyərləri daha yaxşı başa düşmək və praktikada tətbiq etmək imkanı verir.

Problemin praktik əhəmiyyəti. Milli-mənəvi dəyərlərin ali məktəblərdə tədris proqramlarına inteqrasiya edilməsi, gənclərin etik və estetik anlayışlarını formalaşdırmaqla yanaşı, sosial məsuliyyət hissini də artırır. Tələbələr bu dəyərləri gündəlik həyatlarında tətbiq etməklə, daha müsbət və sağlam cəmiyyətin formalaşmasına töhfə verə bilərlər. Eyni zamanda, bu yanaşma, tələbələrin milli birlik və həmrəylik hissini gücləndirir, onları sosial mühitdə daha aktiv iştirak etməyə təşviq edir. Nəticədə, cəmiyyətin inkişafında dayanıqlılığı təmin edir, müasir dövrdə etik və sosial ədalət anlayışlarının güclənməsinə imkan yaradır.

Ədəbiyyat:

1. Xəlilov, T.F., Məlikov.N.S. Ali məktəblərdə mühazirə və seminar məşğələlərinin təşkili və keçirilməsi yolları. Metodik vəsait. -Naxçıvan, 2022. -128s.
2. Qeybullayev, Q.R. Ali məktəblərdə təlim və tədrisin keyfiyyətinə nəzarət sisteminin əsasları. -Bakı, 1999. -121s.
3. Əliyev, P.B. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. -Bakı, 2006. -135s.

4. Sadıqov, F.B.,Əhmədov, F.A. Ədəb-ərkan dünyamız və ya hamıya lazım olan kitab. -Bakı, 2000. -180 s.
5. Нездемковская, Г. Этнопедагогика. -Москва: Альма Матер, Академический Проект, -2011. -225 с.

Redaksiyaya daxil olub: 31.01.2025

DİSTANT TƏHSİL
ДИСТАНЦИОННОЕ ОБРАЗОВАНИЕ
DISTANCE EDUCATION

UOT 378.018.43

Nübar Əhmədəli qızı İsazadə
Azərbaycan Turizm və Menecment Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-4591-9083
E-mail: nubar2017@list.ru
https://doi.org/10.69682/arti.2025.92(1).63-66

DİSTANT TƏHSİL TEXNOLOGİYASI VƏ ONUN TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

Нубар Ахмедали гызы Исазаде
докторант по программе доктора философии
Азербайджанского Университета Туризма и Менеджмента

ТЕХНОЛОГИЯ ДИСТАНЦИОННОГО ОБУЧЕНИЯ И ОСОБЕННОСТИ ЕЕ ПРИМЕНЕНИЯ

Nubar Ahmadali Isazade
doctoral student in the program of doctor of philosophy
at Azerbaijan University of Tourism and Management

DISTANCE EDUCATION TECHNOLOGY AND ITS APPLICATION FEATURES

Xülasə. Təhsil sistemində istifadə olunan metodların inkişaf etdirilməsi ilə bərabər yüksək texnologiyaların da inkişafı və tətbiqi distant təhsilin müasir dövrdə aktuallığını artırmışdır. Distant təhsil sayəsində zaman, məkan və maliyyə çatışmamazlıqları baxımından kifayət qədər uyğun şəraitdə təhsil ala bilmək imkanı ola bilər. Distant təhsil – təhsil almaq istəyən şəxslə təhsil verənin coğrafi uzaqlıqda olduğu hal üçün istifadə olunan öyrənmə-öyrətmə (şagird-müəllim) sistemidir. Bu zaman müxtəlif informasiya vasitələri və qarşılıqlı təsir kanallarından istifadə edilərək öyrənmək istəyənlə (şagird) öyrədən (müəllim) bir-biri ilə ünsiyyət qurur. Təhsildə kitablar, nəşr olunmuş əlavə materiallar və əyani vasitələrdən istifadə edilə bildiyi kimi, video-audio disklər, elektron kitablar, kabel, peyk və s. İnteraktiv telekonfransların yaradılması da öyrədici vasitə rolunu oynaya bilər. Dərs materialları bu zaman daha çox şagirdi əhatə edə bilər və öz sahəsində mütəxəssis olan şəxs eyni zamanda daha çox sayda şagirdə dərs keçə bilər. Distant təhsil vasitəsilə şagird müəllimin tərtib etdiyi proqramla deyil, öz imkanlarına uyğun və əlverişli olan proqramla işləyə bilər. Distant təhsil nəinki təhsil təşkilatlarına əlaqə texnologiyalarını əlavə edir, eyni zamanda müasir təhsil sistemində bilik və informasiyanın çox sürətlə dəyişməsi səbəbiylə ömür boyu təhsilə çevrilir. Beləliklə, distant təhsil ənənəvi təhsillə bərabər imkanları təmin edə bilər, bu da təhsilə demokratik xüsusiyyət qazandırır.
Açar sözlər: *distant təhsil, keyfiyyət, inkişaf, müasir tədris, optimal yanaşma*

Аннотация. В современный период, наряду с развитием методов, используемых в системе образования, развитие и применение высоких технологий повысило актуальность дистанционного образования. Благодаря дистанционному обучению появляется возможность учиться в условиях, которые вполне подходят с точки зрения временных, пространственных и финансовых ограничений. Дистанционное образование – это система обучения-преподавания (ученик-учитель), используемая в

случаях, когда лицо, получающее образование, и педагог находятся на большом расстоянии друг от друга. В это время человек, который хочет учиться (ученик), и человек, который учит (учитель), общаются друг с другом, используя различные информационные средства и каналы взаимодействия. В образовании могут использоваться книги, опубликованные дополнительные материалы, наглядные пособия, а также видео – и аудиодиски, электронные книги, кабельное, спутниковое телевидение и т. д. Создание интерактивных телеконференций также может служить средством обучения. Тогда материалы курса могут охватывать большее количество учащихся, и человек, являющийся экспертом в своей области, может обучать большее количество учеников одновременно. Благодаря дистанционному обучению ученики могут работать по той программе, которая им подходит и удобна, а не по программе, разработанной учителем. Дистанционное образование не только добавляет коммуникационные технологии в учебные заведения, но и становится образованием на протяжении всей жизни из-за быстрого обмена знаниями и информацией в современной системе образования. Таким образом, дистанционное образование может предоставить равные возможности традиционному образованию, что придает образованию демократический характер.

Ключевые слова: *дистанционное образование, качество, развитие, современное обучение, оптимальный подход*

Abstract. Along with the development of methods used in the education system, the development and application of high technologies have increased the relevance of distance education in the modern era. Thanks to distance education, it is possible to receive education in quite suitable conditions in terms of time, space and financial constraints. Distance education is a learning-teaching (student-teacher) system used when the person who wants to receive education and the person who gives education are geographically distant. In this case, the person who wants to learn (student) and the person who gives education (teacher) communicate with each other using various information tools and interaction channels. Just as books, published additional materials and visual aids can be used in education, the creation of video-audio discs, electronic books, cable, satellite, etc. interactive teleconferences can also play the role of educational tools. In this case, lesson materials can cover more students and a person who is an expert in his field can teach a larger number of students at the same time. Through distance education, the student can work not with the program designed by the teacher, but with a program that is suitable and convenient for his capabilities. Distance education not only adds communication technologies to educational institutions, but also becomes lifelong education due to the rapid change of knowledge and information in the modern education system. Thus, distance education can provide equal opportunities with traditional education, which gives education a democratic character.

Keywords*: distance education, quality, development, modern education, optimal approach*

Distant təhsilin inkişafından bu yana bir çox texnologiyalardan istifadə edilir. Bəzi texnologiyalar ənənəvi təhsili dəstəkləyir, bəziləri də ənənəvi təhsilin əvəzinə istifadə edilir. Bəzi texnologiyalar müəyyən çərçivədə bilik verir, bəziləri isə şagirdin ehtiyacına görə əlavə bilik verə bilər və ya dərs materialını asanlaşdıra bilər. Məsələn, ABŞ-da distant təhsil şagird və tələbələrlə ikitərəfli qarşılıqlı təsiri təmin etmək şəklində qurulmuşdur.

Keyfiyyətli distant təhsil sistemi üçün şagird və ya tələbənin iştirakı və qarşılıqlı əlaqə qurmasından asılıdır. Distant təhsil sistemi ənənəvi təhsilə nə qədər çox yaxınlaşa bilərsə, bir o qədər interaktiv bir sistem kimi məqsədini reallaşdıra bilər. Distant təhsildə yeni texnologiyaların istifadəsinin artması ilə birlikdə qarşılıqlı təsirdə də bir çox müxtəliflik yaradılmağa başlanmışdır. Bu da distant təhsilin əhatə dairəsini genişləndirir. Audiotelekonfrans, video konfrans, e-mail, chat (söhbət) vasitələri, görüntülü toplantılar, şagird və ya tələbələrin bir-birlərini tanıya bilmələri imkanı, qarşılıqlı təsirdə bir-birlərini tapa bilmə və sistemi tanıya bilmə imkanları yaradılır [4].

Distant təhsildə qarşılıqlı təsir sistemi üç şəkildə ola bilər:

1. Şagirdlə müəllim arasında qarşılıqlı təsir sistemi;
2. Şagirdlə dərs materialı arasında qarşılıqlı təsir sistemi;
3. Şagirdlə şagird arasında qarşılıqlı təsir sistemi.

Müvəffəqiyyətli distant təhsil şagirdlər arasında sıx ünsiyyət sisteminin yaradıla bilməsi ilə xarakterizə edilir. Çünki distant təhsil alan şagird yalnızlıq duyğusu hiss edə bilər. Şagirdlərə xüsusilə vaxtlarını düzgün təşkil etmə, təhsil alma qabiliyyətlərinin inkişaf etdirilməsi, tədris vasitələrindən müvəffəqiyyətlə istifadə edə bilmələri üçün məsləhətlər, eləcə də dərslər-

lə əlaqəli akademik məsləhətlər də verilə bilər. Distant təhsildə müxtəlif texnologiyalardan istifadə edilir: adi poçt xidməti, kitab və nəşr materialları; radio-səs kasetləri, televiziya, video, telekonfrans, kompüter, internet və s. Adi poçt xidməti, kitab və nəşr materialları: Distant təhsildə ilk olaraq adi poçt xidməti vasitəsilə təhsil təşkil edilmişdir. Şagird və tələbələrə kitablar və nəşr materialları poçtla göndərilmişdir.

Yüksək texnologiyaların inkişaf etməsinə baxmayaraq kitablar və nəşr materiallarından istifadə hələ də davam edir. Radio-səs kasetləri: Bu vasitələrin ən sıx olaraq istifadə edildiyi sahə xarici dillərin öyrənilməsi olmuşdur. Televiziya: Televiziya vasitəsilə mövzular haqqında geniş biliklər verilmiş, hekayə, film və real həyatdan nümunələr göstərilmişdir. Video: Televiziyadan fərqli olaraq videodan istifadə etməklə vaxt maneəsi aradan qaldırılmış və tədris alanın öz istəyinə görə biliklər əldə edilməsi imkanı yaranmışdır. Telekonfrans: Telekonfrans vasitəsilə ayrı-ayrı yerlərdə olan qruplar öz aralarında əlaqə yaradırlar. Şagird və ya tələbələrlə müəllimlər bir-birlərilə eyni zaman anında qarşılıqlı ünsiyyət imkanı əldə edə bilirlər [1]. Həm audiokonfrans, həm də video-konfransdan istifadə edilir. Peyk televiziya şəbəkəsi: Bu tip texnologiya vasitəsilə təhsil çox populyar olub, bir sıra təşkilatlar tərəfindən biliklər əldə etmək üçün istifadə edilir. Kompüterdən istifadə etməklə təhsil: Kompüterdən istifadə etməklə CD, DVDlərlə istifadəçiyə çatdırılan təhsildir. Kompüterə qoşulan kamera, skaner vasitəsilə müxtəlif tipli sənədlər və şəkillər bir yerdən başqa yerə göndərilə bilər. İmtahanlar kompüter vasitəsilə keçirilə bilər və dərhal qiymətləndirilə bilər.

İnternetlə təhsil: Bu texnologiyaya bəzən "Veb əsaslı təhsil", "online elektron siniflər" və ya "virtual təhsil birlikləri" də deyilir. İnternetlə təhsil texnologiyası yuxarıda sadalanan hər üç qarşılıqlı təsir sistemini dəstəkləyir. Müxtəlif verilənlər bazası, elektron nəşrlər, jurnallar, kitabxanalar və linklər köməkçi qaynaq olaraq distant təhsilə kömək edir. Distant təhsildə yuxarıda göstərilən texnologiyalardan biri və ya bir neçəsi birlikdə istifadə edilə bilər. Bu texnologiyalardan hansının istifadə ediləcəyi, hansının daha effektiv olacağı hədəfdə olan şagird kütləsinin xüsusiyyətləri, kursun məqsəd və məzmunu və tədrisin müddətindən asılıdır [5].

Bu gün İKT-nin təhsilə tətbiqi sahəsində inkişaf əsasən 2 istiqamətdə davam edir:

1. Ənənəvi təhsil formalarının formalarının təkmilləşdirilməsi, yeniləşdirilməsi və tədrisin keyfiyyətinin yüksəldilməsində İKT-dən istifadə.

2. Təhsil prosesində yeni metodların yaradılması və yeni metodlardan istifadə etməklə distant (məsafədən) təhsil texnologiyasının tətbiqi.

Distant təhsil formasının inkişafı fərdi kompüterlərin və internet şəbəkənin yaranması ilə sürətlənmiş, və indi ən populyar təhsil formasına çevrilməkdədir.

Distant təhsilin baza xüsusiyyətlərinə əsasən aşağıda göstərilənlər aid edilir:

1. Əhalinin təhsil alma imkanlarının artması: Məsələn, əgər vaxt amili ənənəvi formada təhsil iştirakçılarının müəyyən mənada fəaliyyətini məhdudlaşdırırdısa, distant təhsil zamanı bu məhdudiyyətlərin demək olar ki, bütünlüklə aradan qalxır.

2. İnformasiyanın radikal olaraq tamamilə yeni forma və məzmunda çatdırılmasının təmin olunması: Məsələn, multimedia sistemlərinin tədris fəaliyyətində geniş tətbiqi, informasiyanın qeyri-standart üsullarla təqdimatı, iri həcmli avtomatlaşdırılmış sorğu sistemlərindən istifadə imkanlarının genişlənməsi (elektron kitabxana xidmətləri, elektron konfrans və s.)

3. Biliklərin daha təkmil qaydada qiymətləndirilməsi imkanlarının artması, test texnologiyasının tətbiqi və nəticələrin analitik sistemlərin köməyi ilə təhlili və s.

Distant təhsillə məşğul olan tədris müəssisələrini əsasən 3 kateqoriyaya ayırmaq olar:

1. Yalnız distant təhsillə məşğul olan təhsil müəssisələri. Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı çox deyildir və bu formada təhsil verən müəssisələr əsasən ABŞ-da daha geniş yayılmışlar.

2. Mütəxəssislərin təkmilləşdirilməsi və yenidən hazırlanması üzrə fəaliyyət göstərən müəssisələr. Hazırda dünyada bu növ fəaliyyətlə məşğul olan çoxlu sayda təhsil müəssisələri mövcuddur və bu müəssisələr fəaliyyətlərini əsasən distant yolla həyata keçirməyə üstünlük verirlər. Dünyanın bir çox aparıcı ali məktəblərində mütəxəssislərin təkmilləşdirilməsi və yenidən hazırlanması fakültələri və ya kursları mövcuddur. Distant təhsil üsulu belə mobil qrupların çevik yaradılmasına, onlarla işin səmərəli təşkilinə yaxşı imkanlar yaradır və bu

həm virtual qrup nümayəndəsinin həm də onun tədrisinin təşkili ilə məşğul olanların işinin təşkili üçün böyük imkanlar açır. Qeyd etmək lazımdır ki, əksər distant təhsil müəssisələri təkmilləşdirmə və yenidən hazırlanma təhsilinin təşkilində öyrənənlərin sifarişlərinə əsaslanır ki, bu da sonda yaxşı effektin alınmasına səbəb olur.

3. Eyni zamanda həm ənənəvi təhsil, həm də distant təhsillə məşğul olan təhsil müəssisələri: Hazırda dünyanın demək olar ki, bütün aparıcı ali təhsil müəssisələri distant təhsil formasından çox geniş istifadə edirlər və bu növ təhsil forması ilə məşğul olan altqurumlar həmin müəssisələrin Açıq Təhsil Fakültələri adlanırlar. Açıq təhsil fakültələrində işin uğurlu təşkili hər şeydən əlavə müəssisəyə əlavə gəlirlərin və dividentlərin cəlb olunmasına gözəl imkanlar açır və s.

Son illərdə distant təhsil forması təhsil və informasiya mədəniyyəti sahəsində qlobal (köklü) dəyişikliklərə səbəb olmuş, və hazırda inkişaf etmiş dövlətlərin əsas təhsil formasına çevrilməkdədir. Distant təhsil formasının inkişafı yeni təhsil müəssisələrinin, fakültələrin yaranmasına təkan verir və bu növ təhsil formasında təhsil almaq istəyənlərin sayının sürətlə artmasına və beləliklə də təhsilə yeni əlavə xərclərin cəlb olunmasına səbəb olur [2]. Lakin, artıq distant təhsil sisteminə keçmiş dünya ali məktəblərinin təcrübəsi sübut edir ki, bu forma təhsil sisteminin təşkilinə xərclənən vəsait tezliklə özünü doğruldur və müəssisəyə əlavə böyük gəlirlərin daxil olmasına yaxşı zəmin yaradır.

Problemin aktuallığı. Bu məqalənin aktuallığı ondan ibarətdir ki, distant təhsil son illərin ən geniş yayılmış mövzularından biri kimi bir çox yeni ədəbiyyatlarda işıqlandırılmışdır.

Problemin elmi yeniliyi. Bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin tətbiqi əhəmiyyəti. Bir çox pedaqoqlar və elm xadimləri, elm sahəsində çalışan şəxslər distant təhsil ilə bağlı tədqiqatlarında bu materialdan istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Qurbanov, C. Müasir tədris metodları və distant öyrənmə //- Bakı: Bakı Universiteti Nəşriyyatı. - 2022, - s.35-40
2. Məmmədov, Ə. Təhsildə rəqəmsallaşmanın psixoloji aspektləri və distant təhsil //- Bakı: Təhsil Nəşriyyatı. - 2021, - s.567
3. Məmmədov, M. Distant təhsil texnologiyaları və metodikası //- Bakı: Maarif Nəşriyyatı. - 2021, - s. 478
4. Mustafayev, Y. Virtual təhsil mühitində qiymətləndirmə və rəy bildirmə. //- Bakı: Maarif Nəşriyyatı. - 2020, - s.57-78
5. Nəcəfov, D. Təhsil texnologiyalarının innovativ tətbiqləri və distant təhsil. //- Bakı: Elm Nəşriyyatı. - 2021, - s.135
6. Orucova, F. Azərbaycan məktəblərində distant tədris təcrübəsi və nəticələr//- Bakı: Təhsil Nəşriyyatı. - 2023

Redaksiyaya daxil olub: 21.01.2025

UOT 37.1

Sevinc Tofiq qızı Vəliyeva
Naxçıvan Müəllimlər İnstitutunun
Pedaqogika və psixologiya kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: veliyeva_1979@bk.ru
https://doi.org/10.69682/arti.2025.92(1).67-74

ŞAGİRDLƏRDƏ AZƏRBAYCANIN FLORASINA VƏ FAUNASINA, TƏBİƏTİNƏ QAYĞIKEŞ MÜNASİBƏTİ FORMALAŞDIRMAQ SAHƏSİNDƏ MÜƏLLİMİN ROLU

Севиндж Тофиг кызы Валиева
Нахчыванский педагогический институт
заведующий кафедрой Педагогики и психологии,
доктор философии по педагогике

РОЛЬ ПЕДАГОГА В ФОРМИРОВАНИИ БЕРЕЖНОГО ОТНОШЕНИЯ К ФЛОРЕ И ФАУНЕ АЗЕРБАЙДЖАНА, ПРИРОДЕ У УЧАЩИХСЯ

Sevinj Tofig Valiyeva
Nakhchivan Pedagogical Institute
head of the department of Pedagogy and psychology,
doctor of philosophy in pedagogy

THE ROLE OF THE TEACHER IN FORMING A CAREFUL ATTITUDE TOWARDS THE FLORA AND FAUNA OF AZERBAIJAN, NATURE IN STUDENTS

Xülasə. Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə və omun əsrarəngiz gözəlliklərinə rəğbət, məhəbbət, sevgi və qayğıkeş münasibətə tələbatın formalaşdırılması son dərəcə aktual problemdir. Bu sahədə müəllimin üzərinə çox mühüm vəzifələr düşür.

Məqalədə şagirdlərə ölkəmizin təbiətinə, bitki və heyvanat aləminə qayğı ilə yanaşma sahəsində sinif müəllimin gördüyü işlərdən bəhs olunur.

***Açar sözlər**: flora və fauna, Azərbaycanın flora və faunası, qayğıkeş münasibət, qayğıkeş münasibət in açşılanması, məktəblilər*

Аннотация. Чрезвычайно актуальной является проблема формирования у младших школьников спроса на симпатию, любовь, любовное и заботливое отношение к флоре и фауне, природе и загадочным красотам Азербайджана. В этой области на учителя возлагаются очень важные обязанности.

В статье рассказывается о работе учиителя в области заботы о природе нашей страны, растительном и животном мире.

***Ключевые слова**: флора и фауна, флора и фауна Азербайджана, заботливое отношение, раскрытие заботливого отношения, школьники*

Abstract. The problem of forming the demand for sympathy, love, loving and caring attitude towards flora and fauna, nature and mysterious beauties of Azerbaijan in primary school students is extremely urgent. In this area, the teacher has very important responsibilities.

The article tells about the work of a teacher in the field of caring for the nature of our country, flora and fauna.

***Key words**: flora and fauna, flora and fauna of Azerbaijan, caring attitude, revealing caring attitude, schoolchildren*

İbtidai sinif müəllimlərinə məsləhətimiz budur ki, öz fəaliyyətləri, şagirdlərlə iş prosesində təlim və tərbiyənin prinsip və metodlarından faydalansınlar. İnandırma və alışdırma, tərbiyəçinin şəxsi nümunəsi, rəğbətləndirmə və cəzalandırma, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təhlili metodlarının imkanlarından istifadə etsinlər, cəzalandırma metoduna çox da müraciət etməsinlər. İnandırma metodu ağla, şüura, idraka təsir edən metodlar qrupuna; alışdırma isə, fəaliyyətin təşkili və mənəvi davranış təcrübəsini formalaşdıran metodlar qrupuna; rəğbətləndirmə və cəzalandırma metodları – şagirdlərin hiss və münasibətlərini stimullaşdıran metodlar qrupuna; aparılan təhsil-tərbiyə işlərinə nəzarət metodları – tərbiyədə nəzarət, özünənəzarət və özünü qiymətləndirmə metodlarına daxildir.

Sinif müəllimi bu metodlar qrupuna bələd olmalı, onlardan səmərəli şəkildə faydalanmalıdır.

Azərbaycanın florası və faunası ilə yaxından tanış olmaq, onların mühafizəsinin vacibliyini dərk etmək və bu istiqamətdə səmərəli fəaliyyət göstərmək üçün sinif müəllimləri tərbiyənin prinsiplərini rəhbər tutmalıdırlar. Aşağıdakı prinsiplərdən istifadə məsləhət bilinir. Sinif müəllimlərinə kömək məqsədilə tərbiyənin zəruri prinsiplərini və onlarım məzmununu təşkil edən məsələləri diqqət mərkəzinə gətiririk:

– təhsil-tərbiyə işlərinin həyatla, dinc quruculuq ilə əlaqələndirilməsi prinsipi;

– məqsədaydınlığı prinsipi;

– bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipi;

– şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqətin yetirilməsi prinsipi;

– nikbinlik prinsipi;

– hörmət və tələbkarlıq prinsipi;

– tələblərdə vahidlik prinsipi.

1. Təhsil-tərbiyə işlərinin real həyatla əlaqələndirilməsi prinsipi. Təlim-tərbiyə işində bu prinsipə əsaslanmaq son dərəcə səmərəli nəticələr verir. Həmin prinsip şəraitində məktəblilərin bitki və heyvanat aləminə, təbiətə, onun gözəlliklərinə qayğıkeş münasibət bəsləmənin nümunəvi təşkili, sağlam həyat tərzi, fəaliyyətin düzgün qiymətləndirilməsi nəzərdə tutulur. Haqqında danışılan prinsipə əsaslanarkən ölkəmizin flora və faunasına, təbiətinə qayğı ilə yanaşma işi təhsil-tərbiyə işlərinin həyatla, dinc quruculuq ilə əlaqələndirilir. Tərbiyə işləri, özü də təbiətə, flora və faunaya qayğı ilə bağlı işlər həyatdan təcrid olunmuş şəkildə aparıla bilməz. Təlim xarakterli sinifdənxaric məşğələlərdə ekoloji durumun yaxşılaşdırılması istiqamətində ölkəmizdə görülən işlərdən nümunələr gətirilir.

2. ***Məqsədaydınlığı prinsipi***. Kiçikyaşlı məktəblilərdə ölkəmizin flora və faunasına, təbiətinə qayğı ilə yanşama üzrə iş aparan sinif müəllimi ilk növbədə qarşısına məqsəd qoyur. Bu məqsədə çatmaq üçün vəzifələri müəyyənləşdirir. Bu vəzifələrə daxil ola bilər:

1) Təlim prosesində ibtidai siniflərdə tədris olunan ayrı-ayrı fənlərin, o cümlədən Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət və s. fənlər üzrə dərsliklərin araşdırılması. Azərbaycanın flora və faunasına, təbiətinə dair dərsliklərin imkanları hansı səviyyədədir? Haqqında söz açılan məsələlər aid mətnlər varmı? Əhatə dairəsi necədir?

2) Təlim xarakterli sinifdənxaric məşğələlərin imkanlarından faydalanmaq mümkündürmü? Hansı səviyyədə? Bu məşğələlərin hansı fənlər üzrə təşkil olunması məqsədəuyğundur? Təbii ki, Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət fənlərinin seçilməsi məsləhətdir.

3) Təlim xarakterli sinifdənxaric məşğələləri haqqında danışılan fənlərin məzmunundan, başqa sözlə, mətnlərindən, materiallarından təcrid olunmuş şəkildə nəzərdə tutulmalıdır. Bu məşğələlər təlim prosesinin bir növ davamı olaraq, həyata keçirilməlidir.

3. ***Bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipi***. Bu prinsip nəzərdə tutur ki, istər təlim prosesində, istərsə də təlim xarakterli sinifdənxaric məşğələlərdə flora və faunamıza, təbiətə dair nəzərdə keçirilən məsələlərdə sistemlilik gözlənilsin, fasiləyə yol verilməsin. "Fasiləyə yol verilməsin" dedikdə nə nəzərdə tutulur? Bəzən görürsən ki, bu və digər istiqamətində tərbiyə işləri bir müddət görülür, müəyyən vaxt keçdikdən sonra nədənsə yaddan çıxır. Bu isə, görülən işlərin səmərəli nəticələnəcəyinə imkan vermir.

Beləliklə, sistemlilik, ardıcıllıq, fasiləsizlik prinsipi nəzərdə tutur ki, Azərbaycanın flora-

sı və faunasına rəğbət, məhəbbət, sevgi, qayğılı münasibət üzrə işlər aparılarkən bu iş fasiləsiz olsun, müntəzəm xarakter daşısın, sistemli şəkil alsın. Ölkəmizin bitki və heyvanat aləminin mühafizəsi işinə şagirdlərin cəlb olunması zamanı, bitki və heyvanat aləminə rəğbət, məhəbbət və qayğılı münasibətin təşəkkül etdirilməsi məqsədilə sistemlilik, fasiləsizlik prinsipinin nəzərə alınmasını zəruri hesab edirik.

4.***Humanizm və mənəviyyata nailolma prinsipi***. Təlim-tərbiyə, təhsilin təşkili prosesində humanizm uşağın imkanlarına inamda özünü göstərir. Şagirdin həyat tərzi ilə maraqlanmaq, onun şəxsiyyətinə hörmətlə yanaşmaq və onunla, necə deyərlər, dil tapmağa çalışmaq məsləhət bilinir. Məktəbli ilə müəllimin mənəvi baxımdan bərabərliyini qəbul etmək, şagirdə təzyiq göstərməmək vacibdir. Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə qayğı ilə yanaşmanın formalaşdırılması işi ilə məşğul olan səriştəli müəllim onlara münasibətdə tərifi, xoş sözləri əsirgəmir, humanizmi üstün tutur. Müəllim öz davranışı ilə şagirddə inam və əməkdaşlıq mühiti yaradır, beləliklə də şagirdin inkişafına kömək göstərir.

Humanizm tələbkarlığı istisna etmir. Hörmət və ciddiliyin birləşməsi şagirdlərin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi zaman qarşıya çıxan pedaqoji problemlərin həlli və aradan qaldırılması üçün son dərəcə mzəruri şərtdir.

5.Təbiətə müvafiqlik prinsipi - təhsilin təbiətin inkişafının ümumi qanunlarının həyata keçirilməsinə, təbii və sosial proseslərin qarşılıqlı əlaqəsinin elmi anlamına, təhsilalanların cins və yaş xüsusiyyətlərinin hesaba alınmasına əsaslanmanı nəzərdə tutur. Tərbiyənin məqsədi özünə, biosferin vəziyyəti və gələcək təkamülü üçün cavabdehliyin təşəkkülü olmalıdır. Bu məqsədlə biosferə və planetə münasibətdə zəruri etik münasibətlər tərbiyə olunur, ona uyğun ekoloji və resurslara qənaət edən davranış və düşüncənin formalaşması baş verir.

Bildiyimiz kimi, bəşər övladı təbiətin bir hissəsidir. Odur ki, şəxsiyyətin təlimi, tərbiyəsi, təhsili və inkişafı *təbiət qanunlarından* son dərəcə asılıdır. İrəli sürdüyümüz bu ideya insanlığa çox qədim vaxtlardan – təbiət hadisələrinin və elementlərinin ibadət obyekti olduğu dövrlərdən tanış idi.

Bu prinsip XVII əsrdə çex pedaqoqu Yan Amos Komenski irəli sürülmüşdür. O, "Böyük didaktika" əsərində təbiətəmüvafiqlik prinsipinin mahiyyətinə aydınlıq gətirmiş, uşağın təbii inkişafının vacibliyini əsaslandırmışdır.

Odur ki, çox zaman Komenskinin pedaqogikası təbiətəmüvafiqlik pedaqogikası kimi nəzərdən keçirilir. Bu pedaqogika təbiətəmüvafiqlik prinsipi əsasında formalaşdırılmışdır. Böyük pedaqoq tərbiyənin yeni təbi qanunlarının sorağında olmuşdur. Onun fikrincə, həmin qanunlar təlimin öz təbiətindən irəli gəlməlidir. Bütün bunları əldə rəhbər tutaraq demişdir ki, düzgün tərbiyə təbiətə müvafiq şəkil almalıdır, insan təbiətin qanunlarına əsaslanmalı, bu qanunlara tabe olmalıdır.

6. Şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqətin yetirilməsi prinsipi. Ailədə hələ uşaqlıq illərindən oğlanlarla və qızlarla tərbiyə işləri aparılarkən səriştəli valideynlər onların yaş, fərdi və cinsi xüsusiyyətlərinə diqqət yetirirlər. İkincisi, bu iş məktəbdə davam etdirilir. Hər iki halda onlara yaşlarına uyğun tapşırıqlar verilməlidir. Sinif müəllimləri ilə maarifləndirici işlər zamanı onlara məsləhət görülürdü ki, bu məsələni diqqət mərkəzində saxlasınlar.

Müəllimlərə deyilirdi ki, şagirdlər flora və faunamızın qorunması, onlara qayğı ilə yanaşılması işinə cəlb olunarkən onların yaş, fərdi və cinsi xüsusiyyətlərinə fikir versinlər.

7. *Mədəniyyətə müvafiqlik prinsipi* – təhsilin ümumbəşəri mədəni dəyərlərə əsaslanmasını və milli mədəniyyətlərin dəyər və normalarına xas olan xüsusiyyətlərə uyğun qurulmasını təklif edir. Bu prinsip üzrə tərbiyənin məqsədi şəxsiyyəti öz etnik qrupunun və bütövlükdə dünyanın müxtəlif mədəniyyət təbəqələri ilə tanış etmək, özündə və ətraf aləmdəki dəyişikliklərə uyğunlaşmağın yollarının inkişafına nail olmaqdır. Prinsipin həyata keçirilməsi problemi mədəniyyətin ümumbəşəri dəyərləri ilə konkret etnik qrupların dəyərləri arasında uyğunsuzluq, bəzən isə əhəmiyyətli fərqdir.

8. ***Kollektivə güvənmək prinsipi.*** Kiçikyaşlı məktəbli kollektivi daxilində qarşılıqlı əlaqə və prinsiplər pedaqoji fəaliyyətin başlıca məsələlərindəndir. Usta müəllimin rəhbərlik və nəzarət edəcəyi sinif otağındakı, dərslərdəki, təlim xarakterli sinifdənxaric məşğələlərdəki psixoloji atmosferin saf olması son dərəcə məqsədəuyğundur, şagirdlərin ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmanı təmin edir. Bu mühüm amil sosial davranışa yiyələnməkdə şagirdə öz köməyini göstərir.

9. ***Nikbinlik prinsipi***. Bu prinsip şagirdə inam bəsləməyi, onun qüvvələrinə arxalanmağı, onu həvəsləndirməyi nəzərdə tutur. Müstəqilliyi, çalışqanlığı, təşəbbüskarlığı, təşkilatçılıq bacarığı, təlimə səyli şagirdlərlə yanaşı, təlimdə yetirməyən, təbiətə münasibətdə laqeyd məktəblilər də var. Müəllim nikbin olmalıdır ki, həmin şagirdi də nümunəvi məktəblilərin cərgəsinə gətirmək mümkündür.

Müəllim bu və ya digər məsələyə nikbinliklə yanaşaraq düşünməlidir ki, o, laqeyd, təbiətə biganə məktəbliyə də təbiətə həssas və qayğıkeş münasibət aşılaya bilər.

10. ***Hörmət və tələbkarlıq prinsipi*** nəzərdə tutur ki, şagird şəxsiyyətini alçaltmaq, onunla rişxənd danışmaq, onun suallarını cavabsız qoymaq, onu lağa qoymaq olmaq. Məktəblinin səhvləri varsa, onda nöqsanlar müşahidə olunursa, şəxsiyyətinə hörmət etməklə ona tələblər verilməlidir.

Sinif müəllimləri ilə maarifləndirici işlər zamanı onlara deyilirdi: şagird pedaqoji prosesin sadəcə obyekti deyil, həm də subyektidir. Bu, o deməkdir ki, məktəbli təlim prosesinin, tərbiyə prosesinin bərabərhüquqlu üzvüdür. Onun şəxsiyyətinə hörmətlə yanaşılmalıdır.

11. ***Tələblərdə vahidlik prinsipi***. Azərbaycan dili, həyat bilgisi, musiqi, təsviri incəsənət və s. fənlər üzrə dərslərdə və təlim xarakterli sinifdənxaric məşğələlər zamanı şagirdlərlə Azərbaycanın flora və faunası, təbiəti ilə bağlı aparılan işlər zamanı müəllim öz tələblərində ciddi, tələbkar olmalı, eyni zamanda onun tələbləri ailədə və pedaqoji kollektivin digər üzvləri tərəfindən nəzərə alınmalıdır. I-IV siniflərdə ibtidai sinif müəllimi ilə yanaşı başqa müəllimlər də dərs deyə bilər. Məsələn, tutaq ki, bu siniflərdə musiqini başqa müəllim tədris edir. O, dərs deməklə yanaşı musiqi fənni üzrə təlim xarakterli sinifdənxaric məşğələ təşkil edirsə, sinif müəllimi ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Yəni onun tələblərini nəzərdən qaçırmamalı, şagirdlərə münasibətdə onların tələblərində vahidlik olmalıdır.

Bitki və heyvanat aləminə, təbiətə qayğıkeş münasibət formalaşdırılarkən şagirdlərin ictimai fəallığına nail olunması çox faydalıdır. Onların ictimai fəallığı üzrə iş ailədə, eyni zamanda məktəbdə aparıla bilir. Görülən məqsədyönlü işlər onlara yaşıllıqlara qayğı göstərmək bacarığı formalaşdırır, onları gül-çiçəyə, ağaclara, bitkilərə, heyvanlara, qulluq göstərməyə alışdırır.

Tərbiyə metodlarının tətbiqi. Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına, təbiətinə və omun əsrarəngiz gözəlliklərinə rəğbət, məhəbbət, sevgi və qayğıkeş münasibətə tələbatın formalaşdırılması işinin səmərəliliyinə nail olmaq üçün ibtidai sinif müəllimi tərbiyə metodlarının imkanlarından faydalana bilər.

Böyüməkdə olan nəslin təlimi və tərbiyəsi metodları bacarıqların, dəyərlərin, əxlaqi və sosial normaların formalaşmasını nəzərdə tutur. Başlıca vəzifə ətraf aləmə və gələcək müstəqil həyata uyğunlaşmada şagirdə yardım göstərməkdən ibarətdir.

Təhsil-tərbiyə işləri aparılarkən ibtidai sinif müəllimi konkret faktın və ya nəticənin düzgünlüyünə aydınlıq gətirir və dediklərinə şagirdləri inandırır. Burada kiçikyaşlı məktəblilərin təcrübəsinə, onların mövzuya şəxsi münasibətinə və müstəqil şəkildə cavab tapmaq bacarığına arxayın olmaq lazımdır.

İnsan övladı dünyaya gələn andan tərbiyənin predmetinə çevrilir. Yaşından, sosial mövqeyindən asılı olaraq dəyişir. Beləliklə, ta uşaqlıqdan müəyyən yaş həddinə çatana qədər insan pedaqoji təsirlər altında olur, sosial bacarıqlar təşəkkül tapır, davranış tərzi, davranışla bağlı adətlər inkişaf edir və təkmilləşir. Tərbiyə metodları çərçivəsində müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti həyata keçir. Hər bir pedaqoji peşə sahibi, o cümlədən ibtidai sinif müəllimi öz üslubunu seçir, müxtəlif metodlardan faydalanır. Metodları "yaxşı, yaxud pis metod" kimi səciyyələndirmək məqsədəuyğun deyildir. Tərbiyənin hər bir metodun özünəməxsusluğu vardır.

Yuxarıda tərbiyə metodlarının adları artıq çəkilmişdir. Tətbiqi nəzərdə tutulan metodların mahiyyətinə və məzmununa aydınlıq gətirək:

1. İnandırma. Ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşmağın vacibliyi ilə bağlı kiçikyaşlı məktəblilərlə iş zamanı onların ağlına, şüuruna təsir diqqət mərkəzində olmalıdır. Başqa sözlə, inamın tərbiyəsi öncül yer tutmalıdır. Şagirdlər inanmalı, əmin olmalıdırlar ki, təbiət, onun nemətləri şəxsiyyətin mövcudluğunun, sağlam həyat tərzinin önəmli vasitələrindəndir. Bu mənada təbiəti sevmək, onu qorumaq hamının borcudur.

İnandırma metodu, hər hansı bir anlayışın (bitki və heyvanat aləminin və s.), mənəvi möv-

qeyin və ya baş verənlərin qiymətləndirilməsinin məntiqi sübutunu nəzərdə tutur. Bundan başqa, şagirdlərin şüuruna anlayışlar və mühakimələr deyil, onların sübutları öz təsirini göstərir. Kiçikyaşlı məktəblilər onlara çatdırılan məlumatları qiymətləndirərək öz fikirlərini, mövqelərini təsdiqləyir, yaxud onları düzəldirlər.

Kiçikyaşlı məktəblilər təqdim olunan məlumatlara reaksiya verir, onları qiymətləndirir, öz baxışları, mövqeləri ilə təsdiq edirlər.

Məşğələdə Vaqif Səmədoğlunun eyni adlı pyesinin motivləri əsasında Ramiz Əzizbəyli və Orxan Sadıqov ssenarisi, Ramiz Əzizbəylinin quruluşçu rejissorluğu ilə çəkilmiş "Bəxt üzüyü" bədii filmindən bir fraqment nümayiş etdirilməsi məqsədəuyğundur:

Filmdən kadr:

Tanrıverdi kişi üzünü Rasimə tutaraq deyir:

– Ay Rasim. Bu ağaclar yandı günün altında. Gəl bunlara su ver.

Rasim: – Tanrıverdi dayı. Sərf eləmir.

Tanrıverdi kişi: – Necə yəni sərf eləmir?

Rasim: – Mən bunu sulayım, böyüsün, meyvəsindən onun-bunun uşağı yesin.

Tanrıverdi kişi: – Bu, podmoskovyedən gəlib, şam ağacıdır. Bunların meyvəsi olmur.

Rasim: – Onda heç sərf eləmir.

Tanrıverdi kişi: – Kölgəsi olacaq ki.

Rasim: – Böyüyəndən sonra bunun kölgəsində kim oturacaq?

Tanrıverdi kişi: – Hamı.

Rasim: – Hə, kollektiv surətdə.

Tanrıverdi kişi: – Hə.

Rasim: – Kollektivin etibarını gördük də...

Bu dialoqa şagirdlərin münasibəti öyrənilir. Təbii ki, kiçikyaşlı məktəblilər Rasimin hərəkətini təqdir etmirlər.

Müəllim ümumiləşdirmə aparır: "Bəxt üzüyü" filmi Azərbaycanın film fondunda özünəməxsus rol oynayır. Bu filmdə görkəmli aktyorlarımız, xalq artistləri Cahangir Novruzov, Afaq Bəşir qızı, Arif Quliyev, Valeh Kərimov, Muxtar Maniyev, Ramiz Əzizbəyli, həmçinin Gülşad Baxşiyeva, Ayşad Məmmədov, Firəngiz Rəhimbəyli və b. çəkilmişlər Film 1991-ci ildə ekranlara çıxarılmışdır.

Film barədə ümumi məlumat verildikdən sonra, müəllim deyir:

– Uşaqlar, ola bilsin ki, bəzilərіniz bu filmə baxmayıb. Mənin məqsədim bütövlükdə filmin məzmununu sizə danışmaq deyil. Sadəcə diqqətinizə satdırılan kadra münasibət bildirmək istəyirəm. Yayın qızmar vaxtlarında üç ailə Bakı bağlarının birində kirayə tutduqları bağ evində qalır. Mehriban yaşayırlar. Bəxt üzüyünün itməsi səbəbindən aralarında anlaşılmazlıq yaranır. Bir-birindən inciyirlər. Tanrıverdi kişi müharibə veteranıdır. Zəhmətkeş adamdır. Əsa ilə yeriyir. O, ağacı özü də sulaya bilər. Lakin ayaqları sözünə baxmır ki, vedrəni quyudan su ilə doldurub ağacları sulasın. Hətta bir dəfə buna təşəbbüs göstərib, yıxılıb, əzilib, vedrə əlindən düşüb, su yerə dağılıb. Odur ki, Rasimdən xahiş edir ki, ağaclara su versin.

Rasim alverlə məşğul olan, özünü işə verməyən bir adamdır. Onu yalnız pul qazanmaq maraqlandırır. Bəlkə də o, Tanrıverdi kişinin sözünə qulaq asıb ağaclara su verərdi. Lakin bağ qonşularına acığı tutduğundan bu işdən boyun qaçırır. Təbii ki, onun hərəkəti, sizin də dediyiniz kimi yol verilməzdir. Təbiətə, ağaclara, heyvanlara qayğı göstərmək, onları qorumaq, onların yaşaması üçün kömək əlimizi uzatmaq bizim borcumuzdur.

Deyilənlərin düzgünlüyünə əmin olan məktəblilərdə cəmiyyətə, sosial münasibətlərə, ümumilikdə dünyaya özünə məxsus meydana gəlir. Müəllimdən gələn xarici təsirlər daxili prosesə çevrilir ki, bu da dünyagörüşünün formalaşmasını təmin edir.

İnandırma metodundan faydalanan müəllimin müzakirə olunan məsələ ilə bağlı şagirdlərin fakt və hadisələr barədə aydın təsəvvürə yiyələnmələrinə nail olur.

2. Alışdırma. Tərbiyə metodları arasında alışdırma metodunu öz yeri və əhəmiyyəti vardır. Uşağı, o cümlədən yeniyetməni, kiçikyaşlı məktəbliləri bu və ya digər mənəvi keyfiyyəti aşılamaqda problem yarandığı, inandırma yolu ilə tərbiyə buna nail olmaq qeyri-mümkün olduqda alışdırma metodu köməyə gəlir. Bəzi müəyyən yaş həddinə çatmış şəxslərdə olduğu kimi bir sıra məktəblilərdə də təbiətə qayğısız münasibət halları, ev heyvanlarını incitmə, ağacların budaqlarını sındırma, gül-çiçəyi tərgetmə və s. bu kimi hallarla rastlaşdıqda alışdırma metodunun tətbiqi zərurətə çevrilir.

Budur, evdə uşaqlardan biri – Elxan ona tapşırılan işi vaxtlı-vaxtında yerinə yetirmir. Nəticədə dibçəkdəki gözəl güllərdən biri yanmışdır. Elxana güllərə baxmaq, qulluq göstərmək tapşırılmış, ona etibar edilmişdir. O isə göstəri-

lən etibarı doğrultmamışdır. Sən demə, Elxan yadına nə zaman düşürsə o zaman gülləri sulayıb. Bu işi müntəzəm surətdə yerinə yetirməyib. Həmin hərəkətinə görə valideyn onu danlayır. Səhvini başa düşəcəyinə əmin olur. Lakin günlərin birində məlum olur ki, güllər yenə də vaxtlı-vaxtında sulanmır. Bunu görən ana məktəbə getmək istəyən Elxanı geri qaytararaq:

– Əvvəlcə gülləri sula, sonra məktəbə get, – deyir. – Hələ vaxtın var. Qorxma, dərsə gecikməzsən.

Uşaq tərslik edir:

– Yox, ana, yolda bəzən tıxac olur. Dərsə gecikə bilərəm.

Ana deyir:

– İndi televizorda elan elədilər, Şərifzadə küçəsində tıxac yoxdur.

Elxan çantasını yerə qoyub gülləri sulayır, yalnız bundan sonra məktəbə yollanır.

Bu kimi hallar eyni zamanda məktəbdə də baş verə bilər.

3. Nümunə metodu. Söhbət valideynin, müəllimin şəxsi nümunəsindən gedir. Bu tərbiyə metodunun də önəmli səciyyəvi cəhətləri vardır. Ata və yaxud ana, məktəbdə isə tərbiyə işləri aparan müəllim özü nümunə göstərməlidir. O özü davranışına fikir vermirsə, şagirdlərlə kobud rəftar edirsə, onların təşəbbüskarlıqlarını boğursa, müstəqilliklərini, fəallıqlarını nəzərə almırsa, təbii ki, pedaqoji əməkdaşlıqda, müəllim-şagird münasibətlərinin səmərəli qurulmasında çatlar yaranacaqdır. Müəllim özü bitki və heyvanat aləminə, təbiətə qayğısız münasibətdədirsə o, təbiətə qayğı ilə yanaşmağın vacibliyinə yetirmələrini necə inandıra biləcəkdir?!

Odur ki, çətin, lakin şərəfli peşə sahibi olan müəllim şagirdlərə yaxşı nümunə göstərməlidir. Müəllimin peşə və şəxsi keyfiyyətlərinin kamil olduğunu görən şagirdlər də özlərini müəllimlərinə oxşatmağa çalışır, peşə seçimində müəllimlik peşəsinə üstünlük verirlər.

4. Rəğbətləndirmə metodu. Tərbiyə olunanın, təhsil alanın yaxşı hərəkətləri, gördüyü işin müsbət tərəfi, təlim müvəffəqiyyəti qiymətləndirilməlidir. O görməlidir, başa düşməlidir ki, çəkdiyi zəhmət hədər getməmişdir. Yəni ağac, gül-çiçək əkmiş, onun qayğısını çəkmişdir. Bu, diqqətdən kənarda qalmamışdır.

Rəğbətləndirmə kiçikyaşlı məktəblilərin nümunəvi fəaliyyətinin, tapşırığı qaydasında icra etməsinin müsbət qiymətləndirilməsinin ifadəsidir. Bu metodun tətbiqi şagirdlərin müsbət bacarıq və vərdişlərini inkişaf etdirir, məktəblilərdə müsbət emosiyalar doğurur, özünə inamı artırır. Rəğbətləndirmə düzgün və ədalətli olmalı, həm də kollektivin fikrinə uyğun gəlməlidir.

Sinif müəllimi rəğbətləndirmənin aşağıdakı növlərindən faydalana bilər: tərif, bəyənmə, şəklinin "Şərəf lövhəsi"ndə vurulması, razılıq ifadə edən baxış, məktəb radio qovşağında, divar qəzetində haqqında məlumatın verilməsi, uşağın əlini sıxmaq, mükafat, təltif, minnətdarlıq.

5. Cəzalandırma metodu. Ümumiyyətlə, tərbiyə, təlim işləri elə qurulmalıdır ki, cəzaya ehtiyac qalmasın. Lakin bir sıra hallarda cəzasız da ötüşmür. Təbiətə qayğısız münasibət göstərən şagirdlər, gərəkdir ki, cəzalandırılsınlar. Bu cəza nədən ibarət ola bilər? Onu danlamaq olar, adı, əməli divar qəzetində, məktəb radio qovşağında səsləndirilə bilər. Lakin cəzanın üsulu qıcıqlandırıcı tərzdə olması məsləhət bilinmir.

Cəza ədalətli olmalı, diqqətlə düşünülmüş olmalı və heç bir halda tələbənin ləyaqətini alçaltmamalıdır. Bu güclü bir üsuldur. Müəllimin cəzalandırmadakı səhvini düzəltmək hər bir işdən qat-qat çətindir, ona görə də cəzanın ədalətliliyinə və onun şagirdin davranışına müsbət təsirinə tam əminlik yaranana qədər cəzalandırmağa tələsmək olmaz.

Cəzanın həlli üçün xüsusi resept yoxdur, ona görə ki, bu və ya digər fəaliyyət, yaxud hərəkət həmişə fərdi olur. Ona görə də cəzanın da fərqli olması mümkündür.

Rəğbətləndirmə və cəza təhsilalanların davranışlarını düzgün qiymətləndirmək bacarığının inkişafına imkan verir.

İbtidai sinif müəllimi kiçikyaşlı məktəblilərlə iş prosesində, onlara təbiətə qayğı ilə yanaşma adəti aşılayarkən tərbiyənin priyomlarından (tərzlərindən) da faydalanmalıdır

Professor A.N. Abbasovun düzgün qənaətinə görə, tərbiyə priyomları dedikdə, tərbiyə metodunun komponenti. onun tərkib hissəsi anlaşılır. Hər hansı metodun tərkibində bir neçə priyom ola bilər.

İbtidai sinif müəlliminin peşə və şəxsi keyfiyyətləri. Kiçikyaşlı məktəblilərlə Azərbaycanın flora və faunası, təbiəti ilə bağlı iş aparan müəllimin peşə və şəxsi keyfiyyətlərinin kamilliyi görülən tədbirlərin uğurlu nəticələnməsində mühüm rol oynayır. Peşəkarlıq və özünü pedaqoji işə həsr etmək - iki ən dəyərli keyfiyyətdir,

səriştədir. Bu əsasda ideal müəllimin obrazı canlanır. Öz müəllimlik peşəsinin vurğunu olmaq, – sinif müəllimi ixtisasını (həyat bilgisi, Azərbaycan dili, musiqi, təsviri incəsənət fənlərinin səmərəli tədrisi üzrə səriştəlilik) yaxşı bilmək əlverişli təhsil mühiti yaratmağa və məktəblilərlə ahəngdar qarşılıqlı münasibətləri qurmağa imkan verir.

Sinif müəlliminin peşə keyfiyyətləri anlayışı peşə hazırlığı və iş təcrübəsi zamanı qazanılan bir çox vacib komponentləri öz. Onlar pedaqoji fəaliyyətin səmərəliliyinə və uğuruna təsir göstərir və peşəkar mükəmməlliyin əsasında dayanır.

Müəllimdən, o cümlədən ibtidai sinif müəllimindən bir sıra pedaqoji qabiliyyətlərə yiyələnməsini tələb edir. Bu qabiliyyətlər onun təhsilalanlarla təlim-tərbiyə işləri aparmasında maraq, meyl və istəyində, yetirmələrinə sevgidə, onlarla ünsiyyətdən məmnunluq hissi keçirməsində özünü göstərir. Digər pedaqoji fəaliyyətləri ilə yanaşı kiçikyaşlı məktəblilərdə ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə qayğı ilə yanaşma tərbiyəsində də aşağıdakı pedaqoji qabiliyyətlər yiyələnməlidir: 1. Təşkilatçılıq qabiliyyətləri. 2. Kommunikativ (ünsiyyət) qabiliyyətləri. 3. Tədqiqatçılıq qabiliyyətləri. 4. Təlim qabiliyyətləri. 5. Perseptiv qabiliyyətlər. 6. Suqqestiv qabiliyyətlər və s.

1. Təşkilatçılıq qabiliyyətləri. Bu qabiliyyətə yiyələnmə sayəsində müəllim Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə işin səmərəli təşkilinin öhdəsindən bacarıqla gəlir. Eyni zamanda müəllim bu və ya digər məktəblinin, eləcə də şagirdi kollektivinin təbiətə qayğı ilə yanaşmaq və onu qorumaq istiqamətindəki fəaliyyətini yönəldir. Pedaqoji fəaliyyətin uğurlu olması bu qabiliyyətə yiyələnməkdən xeyli dərəcədə asılıdır.

2. Kommunikativ (ünsiyyət) qabiliyyətləri müəllim-şagird münasibətlərini, pedaqoji əməkdaşlığı təmin etmək sahəsində nümunə olur.

3. Tədqiqatçılıq qabiliyyətləri təbiəti sevmək, onu qorumaq istiqamətində şagirdlərlə təhsil-tərbiyə işlərini həyata keçirərkən yaranmış pedaqoji vəziyyətləri və baş verən pedaqoji prosesləri anlamaq və dəyərləndirmək bacarığının təşəkkülünü nəzərdə tutur.

4. Didaktik qabiliyyətlər. Təlim prosesini, şagirdləri, sinfi idarəetmə bacarığına malik olmağı tələb edir.

5. Perseptiv qabiliyyətlər. Kiçikyaşlı məktəblilərin daxili aləminə nüfuzetmə bacarığını nəzərdə tutur. Müəllim məktəblinin psixi halını anlamaqla özündə bəzi bacarıqları ehtiva edir. Onları nəzərə çatdıraq: şagirdləri, onların vəziyyətini başa düşmək, kömək əlini uzatmaq, pedaqoji müşahidəçilik, pedaqoji intuisiya və s.

6. Suqqestiv qabiliyyətlər. Təhsilalanlara emosional-iradı təsir etməklə bağlı bacarıqdır.

Hər pedaqoji peşə sahibi usta müəllim, səriştəli müəllim ola bilmir. Səriştəli müəllim bir sıra zəruri pedaqoji qabiliyyətləri özündə birləşdirməlidir. Kiçikyaşlı məktəblilərlə təbiətə qayğıkeş münasibətin formalaşdırılması üzrə işin səmərəli təşkilində haqqında danışılan qabiliyyətlə önəmli rol oynayır. İlk növbədə müəllim yaxşı mütəxəssis kimi müəyyən keyfiyyətlərə yiyələnməlidir. Onları diqqət mərkəzinə gətirək: 1. Pedaqogikanın və psixologiyanın ümumi əsaslarından xəbərdardır. 2. Öz peşəsinə dərin məhəbbəti var. 3. Tolerantdır. 4. Tələbkar və ciddidir. 5. Pedaqoji ustalığa sahib olub. 6. Şagirdləri və onlarla təlim-tərbiyə işlərini aparmağı sevir. 7. Təhsil, tərbiyə və təlim texnologiyalarını mənimsəyib və ölkəmizin bitki və heyvanat aləminə, təbiətinə münasibətdə şagirdlərə məhəbbət, rəğbət hissləri aşılamaqda onlardan faydalanmağı bacarır. 8. Uşaqlarla işdə hörmət və tələbkarlığa əsaslanır.

İbtidai sinif müəllimi işçi kimi aşağıdakı keyfiyyətlərə yiyələnməlidir: 1. Fəaliyyətin məqsədini düzgün müəyyənləşdirir. 2. Öz ixtisasını yaxşı bilir. 3. Vaxtdan səmərəli istifadə edir. 4. Məsuliyyətlidir. 5. Vətənpərvərdir. 6. İşləməyə həvəslidir. 7. Şagirdlərlə işlərdən yorulmur. 8. Qətiyyətlidir. 9. Ədalətlidir. 10. Öz üzərində işləyir, özünütəhsillə məşğuldur. 11. Dərslərdə yeni pedaqoji texnologiyalardan faydalanır.

Müəllimin müəyyən, zəruri peşə keyfiyyətlərinə sahiblənməsi vacibdir. Onun peşə keyfiyyətləri pedaqoji ustalıq səviyyəsinin əhəmiyyətli göstəricisi hesab edilir. Müəllim, hər şeydən əvvəl peşə fəaliyyətini həyata keçirmək üçün lazım olan bilik və bacarıqlara yiyələnməlidir. Müəllimin peşə keyfiyyətləri onun ixtisası ilə bağlı qəbul edilmiş ümumi tələblərə və standartlara cavab verməlidir.

Müəllim bir şəxsiyyət, bir insan kimi də müəyyən keyfiyyətlərə malikdir. Diqqət yetirək: 1. Nümunəvi davranış və rəftara malikdir. 2. Sağlam həyat tərzi yaşayır. 3. Fəal həyat mövqeyinə malikdir. 4. Milli iftixar və qürur hissinə sahibdir. 5. Əxlaqi cəhətdən safdır. 6. Əda-

lətlidir. 7. Humanistdir. 8. Mərifətli və nəzakətlidir.

Müəllimin, o cümlədən ibtidai sinif müəlliminin şəxsi keyfiyyətləri onun peşə keyfiyyətləri ilə sıx surətdə bağlıdır. Belə ki, bu, peşə hazırlığı prosesində qazanılmış və xüsusi bilik, bacarıq, düşüncə tərzi və fəaliyyət metodlarına yiyələnməsi ilə bağlıdır.

Problemin aktuallığı. Dünyada, bütün ölkələrdə olduğu kimi, bizim respublikada da müəyyən ekoloji əyər-əskikliklər mövcuddur. Ekoloji böhranın aradan qaldırılması dövlətdən başqa bizim hər birimizin işi olmalıdır. Belə mövzuya müraciət olunmasın özü problemin aktuallığından xəbər verir.

Problemin yeniliyi. Az işlənmiş mövzuya müraciət olunmuşdur.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorantlar, magistrantlar və magistrlər üçün faydalı ola bilər.

Ədəbiyyat:

1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. - Bakı: Mütərcim, - 2022. - 464 s.
2. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2022. - 272 s.

Redaksiyaya daxil olub: 19.12.2024

UOT 159.9

İradə Böyükağa qızı Əmirəliyeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3319-7466
E-mail: amiraliyeva_i@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).75-77

ZƏLİMXAN YAQUB, RAMİZ RÖVŞƏN, NÜSRƏT KƏSƏMƏNLİ: XOCALI HARAYI (şagirdlərlə söhbət)

Ирада Боюкага гызы Амиралиева
доктор философии по педагогике,
ведущий научный сотрудник Института Образования Азербайджанской Республики

ЗАЛИМХАН ЯГУБ, РАМИЗ РОВШАН, НУСРЕТ КАСЕМАНЛИ: ЗОВ ХОДЖАЛЫ (беседа с учениками)

Irada Boyukagha Amiraliyeva
doctor of philosophy in pedagogy,
leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan

ZALIMKHAN YAGUB, RAMIZ ROVSHAN, NUSRET KASEMANLI: CALL OF KHOJALY (conversation with pupils)

Xülasə. Məqalədə 1992 -ci ilin fevralında baş verən Xocalı soyqırımından danışılır. Bir qış gecəsi, qarlı-şaxtalı bir vaxtda ermənilərin Xocalıya hücum etmələri, uşaq, qoca, qadın bilmədən onları öldürmələri qeyd olunur. Eyni zamanda məqalədə şairlərdən Zəlimxan Yaqubun, Ramiz Rövşənin və Nüsrət Kəsəmənlinin Xocalı soyqırımına həsr etdiyi şeirlər verilir. Şagirdlərlə onların müzakirəsi keçirilir.
***Açar sözlər**: Xocalı, soyqırım, erməni-faşist, qış gecəsi, Zəfər günü*

Аннотация. В статье говорится о Ходжалинском геноциде произощедшем в феврале 1992 года. Рассказывается о том, как в холодную снежную ночь вооруженные силы Армении атаковали Ходжалы и безжалостно убивали мирных жителей, невзирая на детей, женщин и стариков. Кроме того, упоминается что в статье представлены стихи, посвященные Ходжалинскому геноциду, в том числе произведения Залимхана Ягуба, Рамиза Ровшана и Нусрета Касеманлы, и описывается обсуждение этих стихотворений со школьниками.
***Ключевые слова:** Ходжалы, геноцид, армяно-фашист, зимняя ночь, День Победы*

Abstract. The article talks about the Khojaly genocide that took place in February 1992. It describes how on a cold and snowy winter night, Armenian armed forces attacked Khojaly and mercilessly killed civilians, sparing neither children, women, nor the elderly. In addition, the article mentions poems dedicated to the Khojaly genocide, including works by Zalimkhan Yagub, Ramiz Rovshan and Nusret Kasemanli, and notes that these poems are discussed with students.
***Keywords:** Khojaly, genocide, Armenian fascist, winter night, Victory Day*

Erməni-faşist işğalçıları Yer üzünün görmədiyi bir vəhşiliyi törətdi: Xocalı faciəsini yaşatdı. Havadarlarının köməyi, dəstəyi ilə. Bir Azərbaycan şəhəri yerlə-yeksən oldu. Şəhər sakinləri bəşəriyyətin hələ indiyə qədər görmədiyi, görə bilməyəcəyi son dərəcə qəddarlıqla, vəhşiliklə qətlə yetirildi, onlara olmazın əziyyət verdilər. Uşağa, qocaya, qıza, gəlinə, cavana aman vermədən.

Bu qanlı soyqırım 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verdi. Erməni ordusu Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə

bu qanlı faciəni törətdi. Oxuyuruq: "Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.[2] Düşmən güllələsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil" (1).

Bizim borcumuz təhsilalanları – şagirdlərimizi və tələbələrimizi Xocalı soyqırımı və bu faciəyə bais olanlarla tanış etməkdir. Soyqırımdan artıq 33 il ötür. Lakin hər dəfə faciə anıldıqca ürəklərimiz qan ağlayır.

Azərbaycan yazıçı və şairləri bəzi əsərlərini Xocalı soyqırımına həsr etmişlər. Bədii filmlər və televiziya tamaşaları və filmləri də vardır. Yazıçı Ağarəhim ssenarisi, xalq artisti Mərahim Fərzəlibəylinin quruluşçu rejissorluğu ilə hələ ötən əsrin 90-cı illərində "Canavar balası" və "Qırmızı qar"; sonralar Vaqif Mustafayevin ssenarisi, Ceyhun Mirzəyevin quruluşçu rejissorluğu ilə "Fəryad", Aqil Abbasın ssenarisi, Elxan Cəfərovun quruluşçu rejissorluğu ilə "Dolu" bədii filmləri çəkildi.

Yazıçı Akif Abbasov "Aldanma sözlərə" romanını yazdı.

Bu məqalədə Azərbaycanın üç görkəmli şairinin "Xocalı"ya həsr etdikləri şeirləri üzərində dayanacağıq.

Xalq şairi Zəlimxan Yaqub "Xocalım, ay xocalım", "Layla, Xocalım, layla", "Sizi qınamıram" və s. şeirlərin müəllifidir. "Xocalım, ay xocalım" şeirində deyilir:

Quruyub cadar olmuş dodaqlara nə deyim?
Kəsilmiş biləklərə, barmaqlara nə deyim?
Qar içində buz olmuş ayaqlara nə deyim?
Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?
Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,
Xocalım, ay Xocalım! (2)

Düşmən o qədər məkrli, o qədər qəddar və amansızdır ki, öldürdükləri insanların başlarını kəsmiş, başlarının dərisini soymuş, ovub gözlərini çıxarmışdılar.

Ona görə də şair "Kəsilmiş biləklərə, barmaqlara nə deyim?" söyləyərək yanıb yaxılır. Şair şerin başqa bəndində aşağıdakı suala cavab axtarır: "Amansız cəmiyyətdə sənə nə aman tapım?" Bu fikir, təsadüfi irəli sürülməmişdir. O zamanlar biz SSRİ deyilən bir imperiyanın tərkibində idik. Biz də, ermənilər də SSRİ vətəndaşları sayılırdılar. Ermənistan Respublikasının Ali Soveti əzəli torpağımız, yurdumuz olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı qanuna sığmayan, özbaşına qərar çıxarmışdılar. SSRİ rəhbərliyi, onun başında duran M. Qorbaçov ermənilər cəzalandırmaq əvəzinə onlara arxa duraraq, əvvəlcə 20 yanvar, sonra da Xocalı soyqırımını təşkil etmişdi.

Beləliklə, Sovet rəhbərliyi SSRİ ordusunu düşmənimizin-ermənilərin sərəncamına verərək Xocalıların üstünə göndərmişdi. Beləliklə, azərbaycanlılara, dinc, silahsız insanlara divan tutuldu.

Zəlimxan Yaqub "Layla, Xocalım, layla" şerinə göz yaşlarını qataraq yazırdı:

Duz basdılar yarana, Layla, Xocalım, layla.
Düşdün gülləbarana, Layla, Xocalım, layla.
Namərdi kim çağırdı? Göydən ölüm yağırdı.
Dilnən demək ağırdı Layla, Xocalım, layla.
Daş üstə daşmı qaldı, Salamat başmı qaldı,
Gözümdə yaşmı qaldı, Layla, Xocalım, layla (3).

Gecənin bir aləmi, bir çoxu yatmış vəziyyətdə olan insanlar ağır texnika (tanklar və s.) və digər silahlarla güllələbaran edildilər.

Tələbələr xalq şairinin digər şeirini ("Sizi qınamıram") diqqət mərkəzinə gətirirlər:

Tələbə Sevinc: Şeir belə başlayır:

Bu əsəri mənə Xocalı dərdi,
Şuşa əzabı, Laçın ağrıları yazdırıb.
Sizi qınamıram ay Xocalılar,
Sizin başınızda şimşək oynadı,
Sizin başınızda dumanlar oldu (4).

Tələbə: Məlum olduğu kimi, Nəinki Xocalı, sonralar həmçinin Azərbaycanın Kəlbəcər, Laçın, Şuşa, Cəbrayıl, Ağdam, Füzulu, Zəngilan, Qubadlı da Xocalının taleyini yaşadı. Həmin rayonlardan yüzlərlə adam amansızlıqla öldürüldü, əsir götürüldü.

Digər tələbə Ramiz Rovşənə müraciət edir. Xalq şairinin "Xocalı yası" şeiri səslənir. Tələbələrin hərəsi şeirdən bir bəndi ifa edir. Nümunə:

Xocalı!
Ahım göyə ucalı!
Qanına qəltan oldun,
Həm uşaqlı- qocalı!

Gör necədi halımız,
Erməni əlindədi dövlətimiz, varımız!
Erməni əlindədi meşəmiz, həm dağımız!
İnləyir "Qisas!" – deyir yaralı torpağımız!
Xocalı dağlarında ayağı donana bax!
Od-alov qarsalayıb ciyəri yanana bax!
Erməni "dığaları" gülləbaran eylədi,
Xocalı tək obanı eli viran eylədi!
Asimana ucalır anaların naləsi!
Süngü-bıçaq altında onun bircə körpəsi,
Dəlmə-deşik bədənlər, soyulmuş qafa tası,
Yaralardan qan axır, əridir qarı, buzu! (5)

Şair yaxşı mənalandırıb: Yaralardan axan qan qarı, buzu əridir. Diqqət edək:

"Yaralardan qan axır, əridir qarı, buzu!"

Tələbələr bu dəfə Nüsrət Kəsəmənliyə müraciət edirlər. Şairin "Xocalı" şeri ifa edilir. Nümunə:

Tanklar qan üstündən yeridi,
Neçə can üstündən yeridi.
Körpələr qaldı dəmir ayaqlar altında,
İmdad istəyən böyüklərə
güvənmədilər daha.

Şair özünə sual verir:

Güllələdilər Babəkin qılıncını
Koroğlunun atını,
Güllələri qaytarmadı
Cavanşirin qalxanı.
Əzdilər yıxılanı,
Vurdular qalxanı.
Hanı bu yurdun
Nəbisi, Səttarxanı?! (6)

Şair köməyə Babəki, Koroğlunu, Cavanşiri, Nəbini, Səttarxanı çağırır.

Nəticə olaraq bildiririk ki, biz düşmənə qalib gəlmişik, 44 günlük Vətən Müharibəsi nəticəsində şəhər və rayonlarınız, kəndlərimiz düşməndən azad oldu. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi. Düşmən silahlarını qoyaraq qaçdı. Sonralar antiterror əməliyyatı nəticəsində yerdə qalan ərazilərimiz, o cümlədən Xocalı azad edildi. Düşmən layiqli cəzasını aldı.

Son söz olaraq deyirik ki, təhsilalanlar – şagirdlərimiz, tələbələr başımıza gətirilən oyunlardan, düşmənini məkrli siyasətindən xəbərdar olmalı, eyni zamanda Vətənimizin müdafiəsinə həmişə hazır olmalıdırlar.

Problemin aktuallığı. Xocalı faciəsindən 33 il keçir. Həmin soyqırımın yada salınması, düşmənə nifrət hissinin artırılması baxımından mövzu aktualdır.

Problemin yeniliyi. Azərbaycan şairlərinin Xocalı harayı diqqət mərkəzinə gətirilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat:

1. Xocalı soyqırımı. https://az.wikipedia.org/wiki/Xocal%C4%B1_soyq%C4%B1r%C4%B1m%C4%B1
2. Zəlimxan Yaqub. Xocalım ay Xocalım https://portal.azertag.az/az/node/12019
3. ZəlimxanYaqub. Layla, Xocalım, layla. Chrome-extension: //efaidnbmnnnibpcajpcglclefindmkaj/https://clb.az/dosyalar/931pdf
4. Zəlimxan Yaqub. Sizi qınamıram https://www.facebook.com/permalink.php/?story_fbid=859649324521019&id=479519925867296
5. Ramiz Rovsen. Xocalı yası. https://www.facebook.com/permalink.php/?story_fbid=431588953588458&id=245947545485934
6. Nüsrət Kəsəmənli. Xocalı https://www.facebook.com/permalink.php/?story_fbid=431401230273897&id=245947545485934&locale=az_AZ

Redaksiyaya daxil olub: 20.02.2025.

UOT 37.

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi
pedaqogika üzrə fəlsəfə doktoru
https://doi.org/10.69682/arti.2025.92(1).78-80

TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİNİN FORMALAŞDIRILMASI: AUDİTORİYADANKƏNAR TƏDBİRLƏRİN İMKANLARI

Лала Акиф гызы Мамедли
доктор философии по педагогике
ведущий специалист Института Образования Азербайджанской Республики

ФОРМИРОВАНИЕ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ У СТУДЕНТОВ: ВОЗМОЖНОСТИ ВНЕАУДИТОРНЫХ МЕРОПРИЯТИЙ

Lala Akif Mammadly
doctor of philosophy in pedagogy
leading specialist at the Institute of Education of the Republic of Azerbaijan

FORMATION OF AN ACTIVE LIFE POSITION IN STUDENTS: OPPORTUNITIES OF EXTRACURRICULAR ACTIVITIES

Xülasə. İnsanların, o cümlədən gənclərin həyatda fəal mövqe tutmaları son dərəcə vacibdir. Məhz fəal həyat mövqeyi qazanmaqla hər bir şəxs digərlərindən fərqlənir.

Şəxsiyyətin fəal həyat mövqeyinin əsasında uğur əldə etmək motivi dayanır. Fəal həyat mövqeyi dedikdə tələbənin yalnız standart vəzifələri həyata keçirmək deyil, eyni zamanda yeni ideyalar və onların reallaşması yollarını təklif etmək bacar və qabiliyyəti başa düşülür.

***Açar sözlər**: tələbə, həyat mövqeyi, fəal həyat mövqeyi, fəal həyat mövqeyinin formalaşdırılması, auditoriyadankənar tədbirlər*

Аннотация. Крайне важно, чтобы люди, в том числе и молодежь, занимали активную жизненную позицию. Именно благодаря активной жизненной позиции каждый человек выделяется среди других.

В основе активной жизненной позиции человека лежит мотив достижения успеха. Активная жизненная позиция подразумевает способность и умение студента не только выполнять стандартные задания, но и предлагать новые идеи и способы их реализации.

***Ключевые слова**: студент, жизненная позиция, активная жизненная позиция, формирование активной жизненной позиции, внеаудиторная деятельность*

Abstract. It is extremely important for people, including young people, to take an active life position. It is thanks to an active life position that each person stands out among others.

The basis of a person's active life position is the motive to achieve success. An active life position implies the ability and skill of a student not only to complete standard tasks, but also to offer new ideas and ways to implement them.

***Key words**: student, life position, active life position, formation of active life position, extracurricular activities*

Fəal həyat mövqeyi tələbənin öz maraqlarından, arzu və istəklərindən, ehtiyaclarından, və dəyərlərindən asılı olaraq mövcud reallığı dəyişdirmək və təkmilləşdirmək üçün şüurlu və məqsədyönlü şəkildə fəaliyyət göstərə biləcəyi xüsusi vəziyyətdir.

Ətraf mühitə maraq, onun daha yaxşı olmasına çalışmaq, qarşıda dayanan məqsədə çatmaq, niyyətlərə nail olmaq üçün özünü hərəkətlərdə ifadə etmək, konstruktiv həllər axtarmaq, məqsədyönlü, fasiləsiz fəaliyyət göstərmək fəal həyat mövqeyini şərtləndirən ümumi meyllərdir.

Fəal həyat mövqeyi necə inkişaf edə bilər? Bu suala cavab verməyə çalışaq:

- fəaliyyətin məqsədinin müəyyənləşdirilməsi;
- pis vərdişlərdən uzaq durmaq;
- müntəzəm mütaliə ilə məşğul olmaq;
- yeniliklər barədə düşünmək, təkliflər irəli sürmək;
- təşkilatçı olmaq, başqa sözlə təşkilatçılıq bacarıqlarına yiyələnmək;
- müstəqillik keyfiyyətinə nail olmaq;
- fəal olmaq və s.

Cəmiyyətdə daim dəyişən müasir həyat şəraiti şəxsiyyətə yüksək tələblər verir. İctimai münasibətlərin bir tərəfdən subyekti, digər tərəfdən isə, nəticəsi kimi çıxış edən şəxsiyyət məqsədyönlü fəaliyyət prosesində həm ətraf mühiti, həm də özünü şüurlu şəkildə dəyişdirərək fəal sosial fəaliyyətləri ilə təşəkkül tapıb formalaşır. Tələbə oğlanların və qızların fəaliyyətinin başlıca məqsədi özünü dərk və ifadə etməkdən ibarətdir.

Fəal həyat mövqeyi şəxsiyyətin həyatının müxtəlif sahələrində – təhsildə, işdə, işə münasibətdə və dürüstlükdə özünü göstərir. Heç də hər bir adam, o cümlədən tələbə oğlan və yaxud qız fəal həyat mövqeyi qazana bilmir.

Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması müxtəlif yollarla həyata keçə bilər. Buraya konkret məqsəd müəyyənləşdirmək öz prinsiplərini əsas götürmək, özünü motivasiya etmək bacarığı və s. aiddir. Kəsəsi, fəal həyat mövqeyi hər bir şəxsin, hər bir tələbənin həyatla necə münasibət qurmağa hazır olmasının ifadəsidir.

Fəal həyat mövqeyi ani, başqa sözlə, müəyyən bir vaxt, müddət üçün qazanılmır, onu ömrü boyu izləyir. Fəal həyat mövqeyinin prinsipi insanlara fayda verməkdən ibarətdir.

Fəaliyyət anlayışı elmin bir çox sahələrində (fəlsəfə, pedaqogika, psixologiya, sosiologiya, fiziologiya, mədəniyyətşünaslıq, biologiya və s.) diqqət mərkəzinə gəlir.

Həyatda fəal mövqe tutmaq üçün fəaliyyətdə olmaq lazımdır. Fəaliyyət insanın fərdi-tipoloji funksional keyfiyyəti kimi nəzərdən keçirilir. Buraya fərqli şəxsiyyət yönümləri, dəyər meyarlarına görə bu və ya digər strategiyanın ümumiləşdirilməsi, müxtəlif fərdi həyat təcrübələri, uğur – uğursuzluq, nikbinlik – bədbinlik, asanlıq – çətinlik, məmnunluq – narazılıq aiddir.

Hər bir şəxs bu və ya digər kollektivin (işdə, təhsil müəssisəsində, ailədə) üzvü olur. O, istər-istəməz anlayır ki: o, yalnız insanlar (dostları, tələbə yoldaşları) arasında yaşayan, mövcud olan şəxs deyil, eyni zamanda insanlar (dostları, tələbə yoldaşları) üçün yaşayan insan olmalıdır.

Həyatın bizə məlum bir sıra anlayışları, eləcə də şərhləri tale, vəzifə, çağırış, təqsir və s. yalnız həyatın əksini deyil, eyni zamanda tələbənin aktivləşmə qabiliyyətini bu və ya digər dərəcədə artırır, ya da azaldır (həyati "qüvvələr", həyati "enerji", təşəbbüs və s.). Deməli, məmnunluq və narazılıq tələbənin həyat fəaliyyətini fəallaşdırır, yaxud ləngidir.

Aldığından daha çoxunu verməyi bacaran şəxs (tələbə) xoşbəxtliyə qovuşar. Hər bir insan imkan daxilində anlamalıdır ki, fəallıq, müstəqillik, təşəbbüskarlıq kimi mühüm keyfiyyətlərə, təşkilatçılıq bacarığına malik olmadan həyatda çox şeyə nail olmayacaq, fəal həyat mövqeyi qazanmayacaqdır.

Deməli, gəldiyimiz qənaət budur ki: bu və ya digər şəxsin xoşbəxtliyə çatmasından ötrü ictimaiyyətlə şəxsi birliyin mövcudluğu, başqalarına fayda verən maraqlı, məzmunlu, əhəmiyyətli bir işin olması və ümumiyyətlə şəxsi xoşbəxtlik adlandırılan hər şeyin (dostluq, sevgi, yaxşı ailə, uşaqlar, yaxşı sağlamlıq, firavanlıq və s.) olması son dərəcə vacibdir.

Tələbənin xoşbəxtliyə qovuşmasından ötrü çox şey lazımdır: sağlamlıq və dostluq və sevgi, maddi nemətlər, ailə və yaxşı kollektivin üzvü olmaq, təhsil, elm, mədəniyyət, incəsənət, istirahət, bədən tərbiyəsi və idman, yaradıcılıq sevinci və s.

Tələbələr arasında elələri vardır ki, necə yaşamağı, həyatını necə təşkil etməyi bilmir, yaxud bu məsələyə fikir vermir, bəlkə də sadəcə ciddi yanaşmır. Elə tələbələrə də rast gəlinir ki, hər gününü planlaşdırıb, həyatdan nə gözlədiyini, gələcəkdə nə edəcəklərini yaxşı bilirlər.

Beləliklə, fəal həyat mövqeyi şəxsiyyətin, tələbənin ətraf aləmə münasibəti və haqqında söz açılan həmin münasibətin onun gördüyü və düşündüyü işlərdə özünün nə şəkildə öz ifadəsinin tapma səviyyəsidir.

Həyat mövqeyi özünəməxsus növlərə malikdir: 1) fəal həyat mövqeyi; 2) qeyri-fəal (passiv) həyat mövqeyi. Fəal həyat mövqeyi həyatda tələbələrə öz köməyini göstərir, ona müsbət təsir edir.

Qeyri-fəal (passiv) həyat mövqeyi tələbənin həyatda fəal mövqe qazanmasına maneçilik törədir.

Uşaqlıq illərindən hər bir şəxs bir sıra qıcıqlandırıcılar, təşviqlər və dərslər alır,. Onların sayəsində gələcək həyat mövqeyi təşəkkül taparaq formalaşır. Fəaliyyət, hərəkət və əməllər, davranış və rəftar, ünsiyyət tərzi müsbətdirsə, bu və ya digər şəxs fəal həyat mövqeyi qazanır. Təbii ki, ata-analar tərbiyə işlərini düzgün qurarlarsa.

Lakin bu, heç də həmişə belə olmur. Yanlış tərbiyə nəticəsində uşaqlar fəal həyat mövqeyi qazanmaq barədə çox da düşünmür, vaxtlarını necə gəldi keçirirlər.

Xasiyyəti, xarakteri yaxşıdırsa, deməli, insan yaxşı tərbiyə alıb, xeyirxah olmağı bacarır, başqalarına kömək etməyə və onları başa düşməyə hazırdır, həmçinin bağışlamağı da bilir. Onun həyatı həm də düzgün hədəflər qoyması, sağlam düşüncəsi, hər hansı formada zorakılığı və pisliyi rədd etməsi ilə xarakterizə olunur, həm də ona işləməyə kömək edir, ətrafındakılara və yaxınlarına fayda gətirməyə çalışır.

Dünyada, hətta ölkəmizdə qeyri-fəal həyat mövqeyə malik insanlar kifayət qədər çoxdur. Odur ki, bu məsələ özbaşına, nəzarətsiz buraxılmamalıdır.

Ali təhsil müəssisələrində tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması üzrə işlər müxtəlif yollar, üsul və vasitələrlə həyata keçirilir. Təlim prosesinin – mühazirə və seminar məşğələlərinin imkanlarından istifadə olunur. Pedaqoji kollektivin üzvləri, ali məktəb müəllimləri təlim prosesi ilə yanaşı auditoriyadankənar tədbirlərin zəngin imkanlarından faydalanırlar.

Auditoriyadankənar tədbirlər müəllimlər, pedaqoji kollektivin digər üzvləri tərəfindən tələbələr üçün onlara bilavasitə tərbiyəvi təsir göstərmək məqsədi ilə keçirilən tədbirlər, dərslər və vəziyyətlərdir.

Söhbət, mühazirə, müzakirə, disput, dəyirmi masa ətrafında rəy mübadiləsi, görüşlər (Milli Qəhrəmanlar, Vətən Müharibəsi Qəhrəmanları, Aprel döyüşlərində, 44 günlük müharibədə, Birinci Qarabağ döyüşlərində iştirakçılar və, fərqlənənlər qazilər və b. ilə) auditoriyadankənar işin səmərəli formalarıdır. Görkəmli şəxslərimizin (dövlət və ictimai xadimlərin, sərkərdələrin, şair, yazıçı, heykəltəraş və bəstəkarların, alimlərin və b.) fəal həyat mövqeyi tələbələr üçün nümunə olur. Belə tədbirlərin tələbələr tərəfindən hazırlanıb həyata keçirilməsi daha səmərəli təsir bağışlayır.

“Sənin doğma Vətən qarşında borcun”, “Sənin fəal həyat mövqeyin”, “Sənin vətəndaşlıq borcun”, “Sənin ailə (təhsil müəssisəsi) qarşısında borc və məsuliyyətin”, “Sənin sağlam həyat tərzin”, “Uğurların ünvanı”, “ “Əməklə dostluq telləri”, “Həyat, sən necə də gözəlsən!”, “Sənin idealın”, “Özünə nümunə götürdüyün şəxs”, “Fəallıq və müstəqillik – fəal həyat mövqeyinin əsası kimi”, “Sənin milli mənlik şüurun”, “Vətənin ləyaqətli oğul və qızı”, “Şərəf və ləyaqət hissi” və s. mövzularda söhbətlərin, müzakirə və disputların keçirilməsi məsləhətdir.

“Müasir milli tərbiyə idealı” mövzusunda təşkil olunan söhbətdə tələbələr bu ideala xas keyfiyyətləri aşağıdakı şəkildə sadalamışlar:

Tələbə Zaur: Müasir milli təhsil idealı dedikdə, mənim gözümün qarşısına yüksək mənəviyyata malik, səriştəli, yaradıcı, Vətənin taleyini özününkü kimi başa düşən və lazım gələndə bu tale yolunda canını belə qurban verməyə hazır olan, ölkəmizin hazırkı günü və sabahı üçün məsuliyyəti anlayan, xalqımızın milli, mənəvi və mədəni ənənələrini mühafizə edən vətəndaş gəlir.

Səmərəli təşkil olunan auditoriyadankənar iş tələbələri səfərbər edir, onlarda fəal həyat mövqeyinin formalaşmasına imkan verir.

Problemin aktuallığı. Həmişə olduğu kimi hazırda da tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Auditoriyadankənar tədbirlər tələbələrdə fəal həyat mövqeyinin tərbiyə edilməsin işin mühüm yolu kimi araşdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq yaradacaqdır.

Ədəbiyyat:

1. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2021. - 608 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. - Bakı: Mütərcim, - 2021. - 608 s.
3. Abbasov, A.N. Pedaqogika: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, H.Ə. Əlizadə. - Bakı: Mütərcim, - 2023. - 464 s.
4. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi / L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2022. - 272 s.

Redaksiyaya daxil olub: 20.02.2025.

UOT 37.0

Rəhiməxanım Rzabala qızı Məmmədzadə
Azərbaycan Dillər Universitetinin baş müəllimi
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-2256-3185
E-mail: ragimaxanum.mamedzade@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).81-85

TƏRBİYƏ TEXNOLOGİYALARINDAN FAYDALANMAQLA TƏLƏBƏLƏRDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

Рагимаханым Рзабала гызы Мамедзаде
старший преподаватель Азербайджанского Университета Языков
доктор философии по педагогике

ВОЗМОЖНОСТИ РАЗВИТИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ У СТУДЕНТОВ С ИСПОЛЬЗОВАНИЕМ ВОСПИТАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ

Rahimakhanim Rzabala Mammadzade
senior lecturer at the Azerbaijan University of Languages
doctor of philosophy in pedagogy

OPPORTUNITIES FOR DEVELOPING MORAL QUALITIES IN STUDENTS USING UPBRINGING TECHNOLOGIES

Xülasə. İnstitut və universitetlər tələbələrin mənəvi keyfiyyətlərini inkişaf etdirilməsinə nail olmaq üçün yeni tərbiyə texnologiyalardan faydalanmalıdırlar. Bu zaman fəaliyyət formaları pedaqoji vəziyyətə əsasən müəyyənləşdirilir. Bunlara aiddir: söhbət, müzakirə və disputlar, dəyirmi masa ətrafında rəy mübadiləsi tələbə konfransları, müsabiqə və yarışlar, ictimai faydalı və yaradıcı iş, ekskursiya və gəzintilər, tematik axşamlar və s. Təlim prosesinin səmərəliliyini şərtləndirən başlıca cəhət tələbələrin auditoriyanın fəal həyatına cəlb olunmasıdır. Bu zaman tələbələr üçün maraqlı olan tərbiyə texnologiyalardan istifadə edilməlidir.

***Açar sözlər**: tələbələr, mənəvi keyfiyyətlər, tərbiyə texnologiyalar, mənəvi keyfiyyətlərin formalaşdırılması, tərbiyə texnologiyalarından istifadə, təlim prosesi, auditoriyadankənar tədbirlər*

Аннотация. Институты и университеты должны использовать новые воспитательные технологии для развития нравственных качеств студентов. В это время формы деятельности определяются исходя из педагогической ситуации. К ним относятся: беседы, дискуссии и дебаты, обмены мнениями за круглым столом, студенческие конференции, конкурсы и соревнования, общественно-полезная и творческая работа, экскурсии и поездки, тематические вечера и т. д. Основным фактором, определяющим эффективность процесса обучения, является вовлечение студентов в активную жизнь аудитории. В это время следует использовать воспитательные технологии, которые интересны студентам.

***Ключевые слова**: студенты, нравственные качества, воспитательные технологии, формирование нравственных качеств, использование воспитательных технологий, учебный процесс, внеаудиторные мероприятия*

Abstract. Institutes and universities should use new upbringing technologies to develop students' moral qualities. At this time, the forms of activity are determined based on the pedagogical situation. These include: conversations, discussions and debates, round-table discussions, student conferences, contests and competitions, socially useful and creative work, excursions and trips, theme nights, etc. The main factor determining the effectiveness of the learning process is the involvement of students in the active life of the audience. At this time, upbringing technologies that are interesting to students should be used.

***Key words**: students, moral qualities, upbringing technologies, formation of moral qualities, use of upbringing technologies, teaching process, extracurricular activities*

Müasir təhsil müstəqil seçim edə bilən, müvafiq qərara əsasən məsuliyyəti öz üzərinə götürən, sosial fəallığa və müstəqilliyə yiyələnən, öz inkişafı qayğısına qalan və mənəvi təkmilləşməyə tələbatı olan "yeni tip" insanın təşəkkülünə yönəldilməlidir.

Müasir uşaq, yeniyetmə və gənclər özünəməxsus keyfiyyət və xüsusiyyətlərə malikdirlər və ötən əsrin uşaqlarından bir çox cəhətlərinə görə fərqlənirlər. Onlar fizioloji və psixoloji cəhətdən bəzən öz ata-analarına oxşamırlar ki, bu isə onların tərbiyəsində çətinliklərlə müşayiət olunur.

Müasir uşaqların başlıca xüsusiyyəti odur ki, onlarda yeni bir şüur növü var. Bu, XX əsr uşaqlarına məxsus sistemli-struktur deyil, sistemli-semantik şüurdur.

Uşaq, yeniyetmə və gənclərin sistemli-semantik şüuru ətrafdakı reallığı semantik reallıq kimi anlamaya əsaslanmışdır. Tələbəni maraqlandıran cisim və hadisələrin səbəb-nəticə asılılığı deyil, hərəkət, davranış, rəftar, hərəkət və əməllərin mənasıdır.

Tələbənin semantik istiqamətli olması onun inkişafının mənbəyi və stimulu rolunu oynayır. Tələbə oğlan və qız yerinə yetirməli olduğu tapşırığın, hərəkətin əhəmiyyətini qəbul və dərk edərsə, o vaxt onu yerinə yetirəcəkdir.

Ali təhsil müəllimi tələbələrin gündəlik həyatını və fəaliyyətini proqnozlaşdırır, təhlil və təşkil edir, nəzarəti həyata keçirir. Bu zaman o, öz fəaliyyətində təlim-tərbiyə işinin formalarından faydalanmaqla yanaşı, eyni zamanda tələbə kollektivi ilə işləmək təcrübəsində yeni texnologiyalarına müraciət edir. Pedaqoji vəziyyət nəzərə alınmaqla iş formaları seçilir.

Fəaliyyətinin texnologiyasına yiyələnmiş müəllim müdrik pedaqoq, şagirdlərin hər birində özünəməxsus şəxsiyyəti görməyə qadir olan, tələbələri pedaqoji diaqnostikaya əsasən hərtərəfli öyrənən, onunla pedaqoji əməkdaşlığı bərqərar edəndir. Tərbiyə texnologiyasının seçimindən əvvəl diaqnostika kimi mühüm amil qarşıda dayanır.

Bu fəaliyyətin səmərəliliyinə nəzarətin sadə və aydın mexanizmi yoxdursa, hansısa peşə fəaliyyətinin, o cümlədən müəllimin təhsil fəaliyyətinin olması mümkün deyildir. Odur ki, mənəvi tərbiyə prosesinin səmərəliliyinin diaqnostikası müəllimin və ali məktəbin çox aktual vəzifələrindəndir.

Bu diaqnostikanın məqsədi auditoriyada təşkil olunan mənəvi tərbiyə prosesinin tələbənin şəxsiyyətində müsbət dəyişikliklərə nə qədər səmərə verdiyindən xəbərdar olmaqdır.

Mənəvi tərbiyə nədir? Professor A.N.Abbasov bu suala belə cavab verir: "İnsanın ağlını, təfəkkürünü inkişaf etdirmək (*əqli tərbiyə*) nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının, müsbət əxlaqi keyfiyyətlərinin formalaşdırılması bir o qədər mühüm və zəruridir. Gənc nəsli biliklər sistemi ilə silahlandırmaq, onda dünyagörüşü yaratmaq öz-özlüyündə hələ azdır, mənəvi cəhətdən kamil, əxlaqca saf vətəndaşlar tərbiyələndirmək cəmiyyətimizin özülünü, dayaqlarını möhkəmləndirmək deməkdir. İnsan nə qədər bilikli, savadlı, fiziki cəhətdən sağlam olsa da, əxlaqi baxımdan kasıb, mənəviyyatca yoxsuldursa, cəmiyyətin sağlam əsaslar üzərində bərqərar olduğunu söyləmək çətindir. Odur ki, qarşısında duran məqsədə və yerinə yetirməli olduğu vəzifələrinə görə tərbiyənin tərkib hissələri arasında mənəvi tərbiyə daha əhatəli, geniş və vacibdir. Müasir dövrdə, cəmiyyətimizin həyatında mənəvi amilin təsir dairəsinin genişlənməsinə daha çox ehtiyac yaranmışdır" [1, s. 187].

Əgər auditoriyada təlim prosesinin təşkilinin başlıca vəzifələri tələbə şəxsiyyətinin inkişafı və tələbə kollektivinin formalaşdırılmasıdırsa, onda onun aşağıdakı səmərəliliyi meyarları nəzərə alınmalıdır: şagird şəxsiyyətinin inkişaf dinamikası; tələbə kollektivinin inkişaf səviyyəsi və onun bu kollektivdəki mövqeyi bu inkişafın mühüm şərtləri kimi.

Mənəvi tərbiyə prosesinin səmərəliliyinin meyar və göstəricilərinin nəzərə alınması məsələlərinə diqqət yetirək:

1) Birinci və başlıca meyar olaraq tələbənin fərdi inkişafını, göstərici kimi onun şəxsi böyüməsinin nəzərdən keçirilməsi;

2) ikinci meyarı kimi sinif kollektivinin inkişaf səviyyəsinin nəzərə alınması;

Lakin tələbə kollektivinin inkişaf səviyyəsinə dəyər verilməsi mənəvi tərbiyə prosesinin səmərəliliyini qiymətləndirmək üçün yetərli deyil. Axı kollektiv həm şəxsiyyətin fərdiliyini, onun yaradıcılıq potensialını inkişaf etdirə bilər, həm də onun səviyyələndirilməsi prosesini meydana gətirə bilər. Odur ki, yalnız tələbə kollektivinin inkişaf səviyyəsini deyil, eyni zamanda tələbələrin münasibətlərinin xarakterini öyrənmək vacibdir.

Bu, o deməkdir ki, sinifdə təşkil olunan tərbiyə prosesinin səmərəliliyinin üçüncü meyarı tələbənin kollektivdəki mövqeyi hesab edilir (göstərici: tələbələrin hər biri öz kollektivinə qəbul olunur, həmin kollektivdə onun dostları olur, onların diqqət və qayğısını hiss edir).

Mənəvi tərbiyə işini təkmilləşdirməyin mümkün yollarından biri pedaqoji kollektiv üzvləri tərəfindən məhsuldar pedaqoji ideyaların inkişafıdır.

Tərbiyə texnologiyalarından faydalanma mənəvi tərbiyə prosesini konkret məzmunla zənginləşdirmək üçün imkanlar açır, müəllimin peşəkar şüuruna aydınlıq gətirir.

Tərbiyə texnologiyalara sahiblənmək, onlardan faydalanmaq bacarığı müəllimə peşəkar fəaliyyətini uğurla həyata keçirməyə, tez bir zamanda sərištə qazanmağa imkan verir.

Tərbiyə texnologiyalarına aşağıdakı mühüm komponentlər aiddir: məqsədin müəyyənləşdirilməsi, məzmun komponenti, təşkilati və fəaliyyət komponenti, nəzarət və idarəetmə komponenti, diaqnoz, dizayn.

Məzmun komponenti düzgün müəyyənləşdirilmiş diaqnostik məqsədlə bərabər, tərbiyə texnologiyasının uğurunu və xarakterini diqqət mərkəzinə gətirir. Tərbiyə texnologiyasının informativ və ya inkişaf edən, ənənəvi və ya şəxsiyyət istiqamətli, məhsuldar və ya qeyri-məhsuldar olması onlardan xeyli dərəcədə asılıdır. Tərbiyə texnologiyasının səmərəliliyi də fəaliyyətin məqsəd və məzmununun əlaqələndirilməsi səviyyəsindən asılıdır.

Texnologiyaların hər biri şərti olaraq iki qrupa ayrılır: ənənəvi və həm də müasir.

Xeyli müddətdir ki, ənənəvi tərbiyə texnologiyalardan səmərəli şəkildə istifadə olunur. Fikir verək: 1) Qrup mənəvi tərbiyə işinin təşkili və aparılması texnologiyası. 2) Əməkdaşlıq pedaqogikası. 3) Humanitar – şəxsi texnologiya. 4) Kollektiv yaradıcılıq təhsilinin texnologiyası. 5) Humanist kollektiv tərbiyənin texnologiyası.

Hazırda yeni tərbiyə texnologiyaları da geniş vüsət tapmışdır ki, tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi məqsədi ilə onlardan gen-bol istifadə olunur. Həmin tərbiyə texnologiyaları ilə tanış olaq: 1) sağlamlığın mühafizəsinə xidmət göstərən texnologiya; 2) şəxsiyyəti inkişaf etdirən dialoq texnologiyası; 3) informasiya və kommunikasiya texnologiyaları; 4) münaqişələrin pedaqoji həlli texnologiyası; 5) layihələrin texnologiyası; 6) sosial dizayn; 7) incəsənət texnologiyası.

Müasir tərbiyə texnologiyaları müəyyən səmərəli alqoritmə uyğun şəkildə reallaşır: 1) hazırlıq işləri (diaqnostika); 2) tələbədə mənəvi biliyə marağın meydana gəlməsi; 3) psixoloji münasibət; 4) mahiyyət hissəsi 5) son mərhələ; 6) gələcək üçün planlar.

Tələbənin mənəvi keyfiyyətlərinin inkişafına əlverişli şərait yaradan şəxsiyyətyönlü tərbiyə texnologiyasından istifadə məqsədəuyğundur. Şəxsiyyətönlü tərbiyə nəzərdə tutur ki:

1. Müəllim həm şəxsiyyətin, həm də kollektivin arzu, maraq və meyllərini nəzərə alır.

2. Tələbələrin mənəvi tərbiyəsi üzrə işlər aparılarkən humanist münasibətlərin bərqərar olması, bu əsasda tələbələrin hər biri özünü tam hüquqlu şəxs kimi hiss edir, digərlərini də şəxsiyyət kimi qəbul edib onların hörmətini saxlayır.

3. Müəllim tələbələrin hüquqlarına hörmətlə yanaşır.

Problemin aktuallığı. Ali hərbi təhsil müəssisələrində tədris prosesində idarəetmə bacarıqlarının formalaşması mövzusu, təhsil və tədrisin idarəedilməsi sahələrinin kəsişməsində yer alan çoxşaxəli bir mövzudur. Bu mövzu hərbi təhsil müəssisələrində tədrisin keyfiyyətini və təhsil sisteminin səmərəliliyini artırmaq məqsədilə idarəetmə bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini vurğulayır. Belə müəssisələrdə tədris prosesi yalnız akademik biliklərlə məhdudlaşmır, eyni zamanda təhsilalanların şəxsi və peşəkar inkişafını dəstəkləyən idarəetmə və liderlik bacarıqlarını formalaşdırmağa yönəlir.

Problemin elmi yeniliyi. Aparılan təhlillər sübut edir ki, ali hərbi təhsil müəssisələrində təhsilalanların idarəetmə bacarıqlarının formalaşması öncə onun mahiyyəti, məzmunu və məqsədlərinin düzgün müəyyən edilməsini, nəzəri ideyaları müxtəlif prizmalardan araşdırır. Məlum olur ki, idarəetmə vərdişlərinin müasir cəmiyyətin tələblərinə uyğun təhsilalanların yeni elmi-siyasi, hərbi, sosial, iqtisadi, mədəni və ekoloji baxışlarının formalaşmasına xidmət edir.

Problemin praktik əhəmiyyəti. Ali hərbi təhsil müəssisələrində idarəetmə bacarıqlarının formalaşması, tədris prosesinin effektivliyini artırmaqla yanaşı, gələcəkdə mütəxəssis və lider kadrların yetişdirilməsinə də mühüm töhfə verir. Bu sahədə həyata keçirilən tədbirlər və inkişaf proqramları, hərbi təhsil müəssisələrinin ümumi keyfiyyətinə və nəticələrinə birbaşa təsir göstərir. Təhsilalanların yalnız hərbi biliklərə yiyələnməsi deyil, eyni zamanda güclü idarəetmə bacarıqları ilə təchiz olunması, onların gələcək karyeralarında müvəffəqiyyət əldə etmələrinə kömək edir.

Ədəbiyyat:

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" üzrə Fəaliyyət Planı, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir //– Bakı şəhəri, – 18 iyul, – 2018-ci il, №311
2. Ordonez, V. The Changing Role of Leadership (or A Changing Leadership for a Changing World). /In: Hershock, P.D., Mason, M., Hawkins, J.N. (eds.) / V.Ordonez. – Changing Education, – 2007. – p.249-272

3. Milkovich, G.T. Compensation. 8th Edition / G.T.Milkovich, J.M.Newman. – Boston: McGraw Hill, – 2005. – 447p.
4. O'Flaherty, J. and Phillips, C. The use of flipped classrooms in higher education // A scoping review, The Internet and Higher Education, – 2015. No 25, – p.85- 95.
5. Stoller, F. Establishing a theoretical foundation for project-based learning in second and foreign language contexts / In Beckett, G., H. & P. C. Miller (Eds.), Project-Based Second and Foreign Language education: past, present, and future/ F.Stoller. – Greenwich, Connecticut: Information Age Publishing, 2006. p. 19-40.
6. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / –Bakı: Çaşoğlu, – 2005. – 136 s.
7. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / –Bakı: Çaşoğlu, – 2005. – 136 s.
8. Veyisova, Z. Fəal interaktiv təlim. Müəllimlər üçün vəsait. / – Bakı: UNİSEF, – 2007. – 156 s.
9. Анисимова, Л.А., Козлова, Н.Г. Кейс-метод на занятиях по английскому языку – средство обучения студентов-менеджеров принятию решения // «Профессиональная компетенция преподавателя в современной парадигме образования», Сборник материалов и тезисов докладов XIV Межрегиональной научно-практической конференции. – Самара: Самар.гос. аэрокосм. ун-т., – 2008, – с. 79-82.
10. McLeod, J. The key elements of classroom management: Managing time and space, student behavior, and instructional strategies / J.McLeod, J.Fisher, & G.Hoover. – Alexandria, Virginia USA, Association for Supervision and Curriculum Development (ASCD), – 2003. – p. 134
11. O'Connell, V.A. The healthy college student: The impact of Daily routines on illness burden // SAGE Open, – 2014. doi:10.1177/2158244014547181 (3).
12. Əhmədov, H.H. İdarəetmənin pedaqogikası və psixologiyası / H.H. Əhmədov. – Bakı: –2000. – 384 s.
13. Əlizadə Ə. Pedaqoji psixologiya / Ə. Əlizadə, H. Əlizadə. – Bakı: – 2010. – 319 s.
14. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri / Q.E. Əzimov. – Bakı: – 2004. – 385 s.
15. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı / M.İ. İlyasov. – Bakı: Elm və təhsil, –2013. – 386 s.

Redaksiyaya daxil olub: 31.01.2025

UOT 355.233

Aytən İlqar qızı Nağızadə
Cəmşid Naxçıvanski adına Hərbi liseyin ingilis dili müəllimi
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun adyunktu
https://orcid.org/0009-0006-7387-1212
E-mail : aytanagizada@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).111-116

HƏRBİ LİSEY KURSANTLARINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ: İSTİQAMƏTLƏR VƏ TƏKLİFLƏR

Айтан Ильгар гызы Нагизаде
преподаватель английского языка Военного лицея имени
Джамшида Нахичеванского,
адъюнкт научно-исследовательского института
Военного университета национальной обороны

ФОРМИРОВАНИЕ И ПРОДВИЖЕНИЕ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ У КУРСАНТОВ ВОЕННОГО ЛИЦЕЯ: ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ И РЕКОМЕНДАЦИИ

Aytan Ilgar Naghizadeh
English language teacher at the Military Lyceum named Jamshid Nakhchivanski
adjunct at the Military Scientific Research Institute of the National Defense University

PROMOTING NATIONAL-SPIRITUAL VALUES AMONG MILITARY LYCEUM CADETS: DIRECTIONS AND SUGGESTIONS

Xülasə. Milli-mənəvi dəyərlər bəşər cəmiyyəti formalaşdığı dövrdən etibarən hər bir xalqın varlığının təməlini təşkil edir. Hərbi lisey kursantlarında bu dəyərlərin təbliği, gələcəyin dəyərlərə sadiq və lider bacarıqlarını tənzimləməyi bacaran hərbçiləri formalaşdırmaq baxımından önəm daşıyan bir prosesdir. Ulu öndər Heydər Əliyevin "Milli-mənəvi dəyərlərimiz bizim milli varlığımızdır" aforizmi bu istiqamətdə önəmli töhfə verir. Məqalədə hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği üçün mövcud idarəetmə sisteminin rolundan və bu istiqamətdə təkliflər öz əksini tapmışdır.
Açar sözlər : *şəxsiyyət, dəyər, milli-mənəvi, hərb*

Аннотация. Национальные и моральные ценности являются основой существования каждого народа с момента формирования человеческого общества. Продвижение этих ценностей среди курсантов военных лицеев – это значимый процесс, направленный на формирование будущих военнослужащих, преданных ценностям и способных развивать лидерские навыки. Афоризм великого лидера Гейдара Алиева: «Наши национальные и моральные ценности — это наша национальная сущность», вносит важный вклад в этом направлении. В статье подчеркивается роль существующей системы управления в военных лицеях для продвижения национальных и моральных ценностей, а также представлены предложения в этой области.
Ключевые слова: *личность, ценность, национально-нравственный, военный*

Abstract. National and moral values have been the foundation of every nation's existence since the formation of human society. The promotion of these values among military lyceum cadets is a significant process for shaping future servicemen who are loyal to values and capable of regulating leadership skills. The aphorism by the great leader Heydar Aliyev, "Our national and moral values are our national existence,"

makes an important contribution in this direction. The article highlights the role of the existing management system in military lyceums for promoting national and moral values and presents suggestions in this regard.

Keywords: *personality, value, national-moral, military*

Müasir dövrdə müstəqil dövlətdə güclü və müasir tələblərə cavab verə biləcək ordunun formalaşdırılmasında hərbi təhsilin təşkili müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, cəmiyyətin sosial-iqtisadi münasibətlərinin xarakterindən, elmi-texniki tərəqqidən, hərbi sahənin inkişaf tendensiyasından da asılı olaraq dəyişir. Hərbi təhsil sisteminin təşkili ordunun inkişaf dərəcəsini müəyyən edən strateji amil kimi mühüm rola malikdir. Hərbi təhsil sisteminin idarə olunması, hərbi təhsil sistemi iştirakçılarının hüquq və vəzifələri, hərbi təhsil sahəsində əsas prinsip və normalar xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələrinə və "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun tələblərinə əsasən müəyyənləşdirilir. Həmin tələblərə əsasən, hərbi təhsilin milli zəminə və müasir hərbi dəyərlərə, tədris prosesinə əsaslanması, elmi-hərbi-dünyəvi xarakter daşıması, şəxsiyyətyönlülük, fasiləsizlik, çeviklik prinsiplərindən yararlanması günün tələbi kimi çıxış edir. [10] Hərbi təhsil sistemində şəxsiyyətyönlü təşkil dedikdə təhsilalanların idraki, emosional və psixomotor bacarıqları əsasında onlarda milli-mənəvi dəyərlərin formalaşdırılması və həyati bacarıqların aşılanması ilə əlaqəlidir.

Milli-mənəvi dəyərlər bir xalqın tarixini, mədəniyyətini, adət-ənənələrini və dövlətçilik prinsiplərini özündə birləşdirən mənəvi sərvətdir. Bu dəyərlər millətin kimliyini və varlığını qoruyan sütunlar kimi çıxış edir. Hər bir xalqın milli-mənəvi dəyərləri onun həyat tərzini, dünya görüşünü və gələcək nəsillərə ötürdüyü əxlaqi normaları əks etdirir. Bu baxımdan, milli-mənəvi dəyərlər xalqın həm mədəni, həm də siyasi inkişafında əvəzsiz rol oynayır.[4, s.14] Hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği xüsusilə əhəmiyyətlidir, çünki bu, gələcək hərbçilərin həm peşəkar, həm də şəxsi keyfiyyətlərinin formalaşdırılmasında mühüm rol oynayır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Milli-mənəvi dəyərlərimiz bizim milli varlığımızdır." [3, s.187] Milli-mənəvi dəyərlər özündə bir neçə əsas elementləri birləşdirir. Buraya daxil olan vətənpərvərlik, dövlətçilik ruhu, milli tarix və mədəni irs, etik dəyərlər və əxlaq hərbi lisey kursantlarının cəlb edildiyi pedaqoji prosesdə formalaşdırılması zəruri olan elementlərdir.

Vətənpərvərlik, vətənə olan sevgi hər bir şəxsin mənəvi dəyərlərinin təməlini təşkil edir. Heydər Əliyev haqlı olaraq vurğulamışdır ki, "Vətən sevgisi ən yüksək hissdir və bunu bütün gənclərə aşılamaq lazımdır."[1 , s.169] Bu məfhum hərbi lisey kursantlarının təlim-tərbiyəsində xüsusi diqqət mərkəzində olmalıdır. Kursantlara vətənə bağlılıq hissi aşılanaraq, onların vətən uğrunda fədakarlıq etməyə hazır olmaları təmin edilməlidir. Hərbi liseylərdə bu keyfiyyətin formalaşdırılması kursantların gələcəkdə sahib olacağı vəzifələri daha şərəflə yerinə yetirmələrinin təməlidir. Bu cəhətdən vətənpərvərlik hisslərinin aşılanması üçün xüsusi metodikalar işlənilməli, vətən sevgisi təkcə fiziki fədakarlığın deyil, həm də psixoloji hazırlığın əsasında formalaşdırılmalıdır. Onlarda fiziki gücün artırılması üçün motivasiya mənbəyi məhz vətənpərvərlik duyğusu olması daha məhsuldar nəticələrin əldə edilməsinə şərait yaradar.

Dövlətçilik, hər bir vətəndaşın dövlətə qarşı məsuliyyətini və bağlılığını ifadə edən dəyərdir. Kursantlar dövlətçilik ruhunda yetişdirilərək, yalnız hərbi xidmətdə deyil, həm də gündəlik həyatlarında dövlət maraqlarını üstün tutmağa təşviq edilməlidirlər. Dövlətçilik anlayışının düzgün şəkildə təbliği gənc nəslin dövlətə sədaqətli olması üçün əsas şərtlərdəndir. Müasir dövrün kompetensiyalarından olan milli kimliyin dərki və milli iftixar hisslərinin formalaşdırılması dövlət rəmzlərini tanımaqdan başlayaraq azərbaycançılıq ideyalarının formalaşdırılmasına, həmçinin təbliğinə qədər bir sıra keyfiyyətlərin birləşimindən ibarətdir. Kursantların hərbi mütəxəssis kimi formalaşdırılması prosesi öncə onların fəal vətəndaş mövqeyinin aşılanması ilə başlayaraq, dövlət ənənlərinə sədaqət və dövlət maraqlarının müdafiəsinə qədər olan mürəkkəb bir yolu keçir. Bu sahədə tarix dərslərinin bir sıra ünsürləri, habelə vətəndaşlıq təhsilinin əvəzsiz rolu vardır. Kursantlara milli tariximizin və mədəniyyətimizin dərindən öyrədilməsi onların vətənə bağlılığını artırır. Tarixi şəxsiyyətlərimizin qəhrəmanlıq nümunələri, milli qəhrəmanlarımızın həyat və fəaliyyəti kursantların milli qürur hissini formalaşdırmaqda mühüm vasitədir. Mədəni irsin qorunması və nəsildən-nəslə ötürülməsi bu baxımdan vacibdir.

Əxlaqi normalar cəmiyyətin sağlam şəkildə formalaşması üçün zəruri olan dəyərlərdir. Hərbi lisey kursantlarına yüksək etik prinsiplər, dürüstlük, məsuliyyət və ədalət hissi aşılanmalıdır. Onlara həm peşəkar, həm də şəxsi həyatlarında bu prinsiplərə əməl etmək öyrədilməlidir. Bu prinsiplərlə aşılanan hərbi lisey kursantları gələcəkdə həm vətənpərvər və məsuliyyətli zabitlər, həm də yüksək əxlaqi dəyərlərə malik vətəndaşlar kimi formalaşa bilərlər. Belə təlim-tərbiyə sisteminin yaradılması milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsində əvəzsiz rol oynayacaq.

Azərbaycanda hərbi liseylərdə milli-mənəvi dəyərlərin təbliği genişmiqyaslı və çoxşaxəli tədbirlər, tədris proqramları və xüsusi tərbiyə prosesləri vasitəsilə həyata keçirilir. Bu istiqamətdə məqsəd, gənc kursantlarda vətənpərvərlik, milli şüur və əxlaqi prinsipləri formalaşdırmaqla onları həm peşəkar hərbiçi, həm də dəyərlərə sadiq vətəndaşlar kimi yetişdirməkdir. [5, s.145]

Hərbi kursantlarda milli- mənəvi dəyərlərin formalaşdırılması bir sıra tədbirlərin təşkili zərurətinə səbəb olur. Həmin tədbirlər cədvəl 1.-də öz əksini tapmışdır.



Cədvəl 1. Hərbi kursantlarda milli-mənəvi dəyərlərin formalaşdırılmasına xidmət edən tədbirlər

Tədris proqramlarının milli ideologiya ilə zənginləşdirilməsi. Tədris proqramlarında milli tarix, mədəniyyət və milli qəhrəmanların həyatına dair dərslərinin yer alması xüsusi önəm daşıyır. Bu gün hərbi liseylərin kurikulumlarına nəzər salsaq Azərbaycan xalqının qəhrəmanlıq tarixi, Qarabağ müharibəsi şəhidlərinin nümunələri və Heydər Əliyevin dövlətçilik prinsipləri kursantlara dərindən öyrədilir deyə bilərik. Ruhun tərbiyəsində əvəzsiz rolu olan ədəbiyyat dərslərində milli poeziya və nəsrdə vətənpərvərlik mövzularına üstünlük verilir. [6,s.76]

Vətənpərvərlik və dövlətçilik ruhu aşılayan tədbirlər kursantların fəaliyyətlərini vəzifə öhdəliyindən əlavə vətəndaş öhdəliyi kimi görmələrinə zəmin yaradır. Dövlət bayramlarının, şəhidlərin anım günlərinin və tarixi hadisələrin qeyd edilməsi, dövlət atributlarına- bayrağa, himnə və gerbə hörmətin artırılması məqsədi ilə xüsusi təlimlərin və tədbirlərin təşkili, şəhidlik zirvəsinə yüksəlmiş hərbçilərin həyatlarına və onların göstərdiklıri şücaətlərə həsr edilmiş seminarlar kursantlarda milli qürur hissini gücləndirir.

Hərbi lisey kursantları üçün təşkil edilmiş motivasiyaedici görüşlər **tərbiyəvi və ictimai təlimlərə** daxildir. Belə görüşlərdə hərbi liderlər, qazilər və ictimai xadimlərin iştirakı və öz təcrübələrini bölüşməsi, vətənə xidmətin əhəmiyyətini onlara aşılanmış vətənpərvərlik duyğu-

larını daha da artırmağa təkan vermiş olur. Tərbiyəvi işlər yalnız bu görüşlərlə məhdudlaşmayır. Tarixi məkanlara, həmçinin Şəhidlər Xiyabanına, Heydər Əliyev Mərkəzinə, Qarabağ müharibəsinə həsr edilmiş memorial komplekslərə ekskursiyalara aparılması mənəvi dəyərlərin əxlaq kodeksi ilə əlaqələndirməni, habelə etik davranış normalarının mənimsədilməsini təmin edir.

Ulu öndərin "Gənclər bizim gələcəyimizdir" [1,s.168] prinsipi hərbi liseylərin ideologiyasının təməl daşıdır. Onun milli-mənəvi dəyərlərə dair fikirləri xüsusi dərslərdə və tədbirlərdə müzakirəsi təşkil edilir. **Heydər Əliyevin ideyalarının təbliği k**ursantlarda liderlik keyfiyyətlərinin artırılmasına da zəmin yaradır. Belə ki onun dövlət idarəetməsi liderlik tərbiyəsində bariz nümunədir. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsi, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Milli-mənəvi dəyərlərinə sahib çıxmayan xalq məhvə məhkumdur. Onları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. “Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” – deyən Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. [3, s.186]

Milli-mənəvi dəyərlərin təbliği onlara **psixoloji yanaşm**anın formalaşması dərəcəsindən asılıdır. Milli-mənəvi dəyərlərin psixoloji aspektlərini mənimsəmiş kursantlar bu dəyərlərin praktik icrasını da mənimsəmiş olurlar. Psixoloji yanaşmanın möhkəmləndirilməsi xüsusi treninqlər vasitəsilə həyata keçirilir. Belə ki, bu treninqlər vasitəsi ilə kursantlarda həm fərdi, həm də kollektiv daxilində dəyərlərin tətbiqi müşahidə edilir.

Hərbi intizam və dəyərlərin birliyi. Hərbi intizam milli-mənəvi dəyərlərlə sıx əlaqələndirilir. Kursantların davranış normaları yalnız hərbi qaydalarla deyil, həmçinin milli əxlaq kodeksi ilə tənzimlənir. Kursantlar arasında dəyərlərə dayanan dostluq, birlik və qarşılıqlı hörmət mühiti yaradılır.

Ailə və cəmiyyətlə əlaqələrin gücləndirilməsi. Təhsil üçbücağının əsas tərəflərindən biri olan ailə dəyərlərin formalaşdırıldığı ilk mühitdir. Bu mühit milli-mənəvi dəyərlərə sadiq qalması müasirlik və millilik kodeksinin birləşdirilməsi, dəyərlərin unudulmaması və gələcək nəslə ötürülməsində böyük rola sahibdir. Ailə ilə əlaqələrin gücləndirilməsi üçün təşkil edilən valideyn iclaslarında bu məsələlərin müzakirəsi təxirə salınmamalı, kursantların davranış normalarını mənimsəmələrində dəyərlərin əhəmiyyəti onlara da aydın olmaldır.

Milli ruhun hərbi təhsilə inteqrasiyası üçün milli-mənəvi dəyərlərin təbliğində müasir texnologiyaların da tətbiqinə geniş yer vermək gərəkir. Virtual resurs hesab edilən filmlər, interaktiv oyunlar, multimedianın tətbiq edildiyi dərslər kursantların marağını daha artıra, onların təlim fəaliyyətini stimullaşdıra bilər. Milli qəhrəmanların həyatına həsr edilən sənədli filmlərin hazırlanması, onların nümayiş etdirilməsi və müxtəlif fənlərin tədrisində istifadə edilməsi kursantların təliminə əlavə töhfə vermiş olar. Bu tədbirlər və istiqamətlər hərbi lisey kursantlarında milli dəyərlərin qavranılmasını, onların bu dəyərlərə bağlılığını və bu prinsipləri gələcək həyatlarında tətbiq etmələrini təmin edir.

Milli-mənəvi dəyərlərin formalaşdırılmasının daha da müasirləşdirilməsi üçün bu sahədə bir sıra innovativ yanaşmaları tələb edir. Həmin yanaşmalardan bir neçəsini təklif qismində tədqiq edək.

- Rəqəmsal texnologiyaların tətbiqi;
- Milli dəyərlər akademiyası;
- Milli StartUp yarışları;
- Milli dəyərlər teatrı;
- Gənc qəhrəmanlar forumu;
- Vətənə xidmət həftəsi;
- Milli-mənəvi araşdırma mərkəzi;
- Milli irs məhəlləsi

Bu yanaşmalar hər biri müxtəlif ölkələrdə təcrübədən keçirilmiş və uzunmüddətli layihələri əhatə edən tədbirlər sırasında yer almışdır.

Rəqəmsal texnologiyaların tətbiqi. Qloballaşma dövründə texnologiyanın inkişafı hərb sənayesinə təsirsiz ötüşməyir. Texniki vəsaitlərin istifadəsi təhsildə daha səmərəli öyrənmə mühitinin formalaşdırılmasına təsir edir. Milli-mənəvi dəyərlərin təbliğində rəqəmsal texnologiyaların imkanlarından istifadə hərbi kursantlarda daha böyük maraq formalaşdıra bilər.

Mobil tətbiqlər və Virtual Reallıq (VR) buraya nümunə ola bilər.

Mobil tətbiqlər. Milli dəyərləri, qəhrəmanlarımızı və tarixi hadisələri tanıtmaq üçün interaktiv oyunlar, viktorinalar, hətta "augumented reality" (AR) ilə zənginləşdirilmiş tətbiqlər yaradıla bilər.

Virtual Reallıq (VR). Şagirdlər Qarabağ döyüşlərinin tarixi yerlərinə "virtual səyahət" edərək o mühitlərdə özlərini hiss edə bilələr. Bu həm maraqlı, həm də öyrədici ola bilər. Nümunə olaraq Türkiyədə "Çanakkale Savaşları VR Simulyasiyası" hazırlanıb. Təhsilalanlar bu texnologiya vasitəsilə Çanakkale döyüşlərini interaktiv formada öyrənir. Başqa bir nümunə Cənubi Koreyada tarix dərsləri üçün VR texnologiyası tətbiq edilir. Kursantlar Koreya Müharibəsi və digər tarixi hadisələri müasir texnologiyalar vasitəsi ilə hətta hiss edə bilirlər. [7]

Milli dəyərlər akademiyası . Bu lisey daxilində müntəzəm şəkildə fəaliyyət göstərən platformadır. Belə platformalarda tarix dərslərindən əlavə xüsusi təlimlər və seminarların təşkili nəzərdə tutulur. Təlim və seminarlar vasitəsi ilə kursantlarda liderlik, komanda işi və milli irs haqqında biliklər daha da dərinləşir, onların fəaliyyətləri layihələr, praktik məşğələlər və tədqiqatlar formasında olduğu üçün biliklər səviyyəsində qalmayaraq bacarıqların və kompotensiyaların formalaşdırılmasına zəmin yaradır. Nümunə olaraq Sinqapur və Finlandiya modellərini göstərə bilərik. Sinqapurda "Liderlik Akademiyaları" yalnız hərbi liseylərdə deyil, həmçinin məktəblərdə də təhsilalanların milli irsi və mədəniyyəti daha yaxşı başa düşməsini təmin etmək üçün yaradılıb. Finlandiyanın bu istiqamətdə fəaliyyət göstərən "Həyat Bacarıqları Akademiyaları" gənclərə liderlik, əməkdaşlıq və vətəndaşlıq bilikləri öyrətməklə məşğuldur.[8]

Milli StartUp yarışmaları. Bu yarışmalar həm lokal, həm də regional şəkildə tətbiq edilə bilər. Burada kursantlar milli dəyərləri texnologiya və innovasiya ilə birləşdirərək kreativ həllər hazırlayırlar. Hətta bu yarışmalar vasitəsi ilə hərbi sənaye, hərbi tibb sahələri də inkişaf etdirilir. Yarışmada fərqlənənlər üçün mükafatlandırma sistemi tətbiq olunur. Layihələr milli tarix, mədəniyyət, qəhrəmanlıq, musiqi və ya tarixi abidələrin qorunması ilə bağlı ola bilər. Belə layihələrin tətbiq edildiyi bir sıra ölkələr var. Məsələn Hindistanda "India Innovation Challenge" milli miras və tarixlə bağlı innovativ layihələri dəstəkləyir. Polşada "Heritage Hackathon" adlı proqram tələbələrə milli irs və tarixi binaların qorunması üçün texnoloji həllər hazırlamağa şərait yaradır. [9]

Milli dəyərlər teatrı. Belə teatrlarda təhsilalanlar milli qəhrəmanlar, tarixi hadisələr və vətənpərvərlik mövzularında teatr tamaşaları hazırlayır. Bu həm yaradıcılığı artırır, həm də tarix və milli dəyərləri dərindən mənimsəməyə imkan yaradır. Rusiyanın məktəblərində "Patriot Teatrları" yaradılıb. [9] Tarixi hadisələrin səhnələşdirilməsinə təhsilin bütün səviyyələrində təhsilalanlar cəlb edilir. "Living History Projects" proqramı tələbələrə Amerikanın milli qəhrəmanlarını və tarixi hadisələrini canlandırmağa imkan verir. [2, s.7]

Gənc qəhrəmanlar forumu. Belə forumlarda kursantlar istədikləri milli qəhrəmanları seçib onların həyatını təqdim edir və forum şəklində müzakirələr aparılır. Forum təhsilalanlara həm öz araşdırmalarını bölüşməyə, həm də milli irs barədə daha dərin biliklər əldə etməyə imkan yaradır. Kanadada "National Heroes Forum" təhsilalanların tarixi şəxsiyyətlər haqqında araşdırma aparması üçün keçirilir. Türkiyədə "Milli Kahramanlar Paneli" təşkil olunur. Bu, tələbələrin Mustafa Kamal Atatürk və digər milli qəhrəmanlar haqqında məlumatlarını dərinləşdirir. [8]

Vətənə xidmət həftəsi. Belə həftələrin təşkili kursantlara xüsusi fəaliyyətin təşkili ilə şərtlənir. Bu fəaliyyətlərə yaşlılara kömək, tarixi abidələrin tanıdılması, milli bayramlara, əlamətdar günlərə həsr edilən tədqimatların hazırlanması daxildir. Avstraliyada yaradılan "Community Service Week" təhsilalanlara yerli icmalarda iştirak etməklə milli və vətəndaş dəyərlərini təbliğ etməyə imkan yaradır. İsraildə "Heritage Week" adlı proqramda cəlb edilmiş kursantlar milli mirası qorumaq üçün müxtəlif layihələrdə iştirak edirlər. [10]

Milli-mənəvi araşdırma mərkəzi . Hərbi lisey daxilində milli tarix və mədəniyyət haqqında araşdırmalar aparmaq üçün xüsusi bir mərkəz yaradılır. Burada kursantlar tarixi hadisələri analiz edir, milli qəhrəmanlar haqqında layihələr hazırlayır, həmçinin milli irsin müasir dövrdəki əhəmiyyətini tədqiq edirlər. Belə model əsasında Almaniyanın "Youth Heritage Centers" mərkəzi gənclərə milli irs mövzusunda tədqiqat aparmaq imkanı yaradır. İtaliyada

"Historical Research Labs" tarixi abidələrin qorunması və öyrənilməsi üçün yaradılmışdır. Bu mərkəzə həm ekskursiya, həm də praktik fəaliyyətin təşkili mümkündür. [9]

Milli irs məhəlləsi. Lisey ərazisində tələbələr öz əlləri ilə milli qəhrəmanların barelyefləri, tarixi hadisələri əks etdirən kompozisiyalar və milli mədəniyyət nümunələri ilə zənginləşdirilmiş bir məkan yaradır. Bu məkan həm təlim, həm də mədəni dəyər daşıyır. Yaponiyada təhsil müəssisələri "Mədəniyyət Məhəlləsi" layihəsi ilə milli irsi yaşadır. Belə layihələrə bütün təhsil müəssisələri cəlb edilir. Fransanın təhsil müəssisələrində "Milli İrs Kəndləri" layihəsi ilə şagirdlər tarixi məkanların miniatürlərini yaradılır. Vizualizasiya təhsilalanlarda daha dərin təəssüratların formalaşdırılmasına imkan yaradır. [8]

Milli-mənəvi dəyərləri gənclərə daha yaxşı təbliğ etmək üçün, Azərbaycan kontekstində inteqrativ bir yanaşma tətbiq olunmalıdır. Bütün hərbi liseylər daxilində milli tariximizi, mədəni irsimizi və dəyərlərimizi bütünlükdə və yaradıcı formada birləşdirən proqramlar yaradılmalıdır. Bu proqramlar texnologiya, yarışmalar, teatr, forumlar və liderlik akademiyaları kimi fərqli istiqamətləri özündə ehtiva etməlidir.

Problemin aktuallığı. Dünya xalqlarının inkişaf və təkamül prosesinin əsasında dövlətçilik ənənələri ilə bərabər milli-mənəvi dəyərlər sistemi dayanır. Özünün zəngin milli-mənəvi irsi ilə xalqımız dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, əxlaq aləmində xarakteristik mövqe nümayiş etdirmişdir. Müasir dövlətimizin siyasi baxışında gənclərin bu irsə bağlı, qlobal tolerantlıq əsasında tərbiyəsi diqqət mərkəzindədir. Prezident İlham Əliyev ulu öndərimiz Heydər Əliyevin özündən sonra əmanət qoyduğu azərbaycançılıq ideologiyasını yaşadır və gənclərin milli-mənəvi tərbiyəsinə xüsusi qayğı göstərir. Milli-mənəvi dəyərlər mövzusunda bir çox dəyərli pedaqoqlar, tədqiqatçılar, filosoflar, sosioloqlar, psixoloqlar öz nöqteyi-nəzərlərini bildirmiş və bu sahədə çoxsaylı tədqiqatlar aparılmışdır. Hərbi təhsil sahəsində milli-mənəvi dəyərlərin aşılanmasına müxtəlif mövqelər nümayiş etdirilsə də, sistemli tədqiqat aparılmamışdır. Bu da öz növbəsində mövzunun aktuallığını artırır.

Problemin elmi yeniliyi. Elm sahəsi daimi zənginləşən dəyərlər əsasında inkişaf edir. Cəmiyyətdə formalaşan dəyərlər həmin cəmiyyətin inkişafı, dayanıqlığı üçün zəmin yaradır. Milli dəyərini itirmiş xalqda əzm, müstəqillik təfəkkürü, sədaqət və əxlaq kodeksi zamanla itər və keçmişini unudan, soyundan ayrılmış bir kökən yaranar. Hərb sahəsində yetişdirilən mütəxəssislər xalqlını və onun dəyərlərini sevməz, bu dəyərlərə sahiblənib onu yaşatmazsa onlarda sədaqət və əzm duyğusu da azalar, zamanla yalnız qərar vermə bacarığına sahib "robotlaşmış" müdafiə formalaşar. Qarabağın geri qaytarılmasında canından keçən gənclik məhz dəyərlərin unudulmadığı təhsilin bəhrəsi idi. Müstəqillik və suverenliyin daimi yaşadılması üçün hərbi sahəsində məhz bünövrədən – lisey təhsilindən başlayaraq bu dəyərlərin qorunması üçün sistemli fəaliyyət planı lazımdır. Məqalədə ilk dəfə bu fəaliyyət üçün dünya təhsil təcrübəsinə dayanan tədbirlərin təşkili təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti. Milli-mənəvi dəyərlər bir çox elm sahəsinin tədqiqat obyektinə çevrilmiş bir problemdir. Hərb sahəsində və milli-mənəvi dəyərlərlə əlaqəli araşdırma aparan təhsil işçiləri, müəllimlər, hərbçilər, magistrantlar, doktorantlar, adyunktlar, habelə bu sahəyə maraqlı tədqiqatçılar məqalənin təklif və nəticələrindən bəhrələnə bilərlər.

Ədəbiyyat:

1. Azərbaycançılıq ideyasının inkişaf tarixi və ulu öndər Heydər Əliyev tərəfindən milli ideologiya kimi formalaşdırılması / Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 1-4 may 2013. s. 168-170
2. Abbasov Ə. İnkişaf etmiş xarici ölkələrdə təhsil. -Bakı: "Elm və təhsil", -2020. -108 s.
3. Əkbərov Q. Heydər Əliyev və milli-mənəvi dəyərlər sistemində Azərbaycançılıq ideologiyası // Tarix və onun problemləri, -2013., № 4, -s. 186-189
4. Əliyev P. Əhmədov H. "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi". -Bakı: Təhsil, 2006. -264 s.
5. Təhməzov Ə. Heydər Əliyev və ordu quruculuğu. -Bakı: Adiloğlu, -2006. -480 s.
6. Milli-mənəvi dəyərlərə tarixi baxış // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, -2012. № 3, -s. 74- 78
7. Christopher P. M. Jones"The Military-Industrial Complex and the Education of Soldiers". Routledge. 2019.
8. Michael A. Smith"Comparative Analysis of Military Education Systems" .-Palgrave Macmillan. -2020
9. "The Role of Military Education in Modern Defense Strategy". Heather M. Chalmers. -Oxford University Press.-2018
10. https://mod.gov.az/az/pre/36864.html
11. https://mod.gov.az/images/pdf/87c0a9f9b43f470ea8659f4f8938da89.pdf?utm_source

Redaksiyaya daxil olub:21.01.2025

TƏHSİLİN İDARƏOLUNMASI MƏSƏLƏLƏRİ
ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ
ISSUES OF EDUCATION MANAGEMENT

UOT 378.11

Abbas İlham oğlu Babayev
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3939-9237
E-mail: abbas.babayev@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).117-120

KREDİT TOPLANMASI VƏ TRANSFERİ SİSTEMİNİN ÖMÜRBOYU TƏHSİLİ TƏMİN EDƏN TƏHSİL İNFRASTRUKTURUNUN TƏŞKİLİ BAXIMINDAN ƏHƏMİYYƏTİ

Аббас Ильхам оглы Бабаев
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ЗНАЧЕНИЕ СИСТЕМЫ НАКОПЛЕНИЯ И ПЕРЕВОДА КРЕДИТОВ В ОРГАНИЗАЦИИ ОБРАЗОВАТЕЛЬНОЙ ИНФРАСТРУКТУРЫ, ПОДДЕРЖИВАЮЩЕЙ ОБРАЗОВАНИЕ НА ПРОТЯЖЕНИИ ВСЕЙ ЖИЗНИ

Abbas İlham Babayev
doctoral student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

THE IMPORTANCE OF THE CREDIT ACCUMULATION AND TRANSFER SYSTEM IN ORGANIZING THE EDUCATION INFRASTRUCTURE THAT SUPPORTS LIFELONG EDUCATION

Xülasə. Məqalədə ömürboyu təhsilin təşviqi və təşkili baxımından kredit toplanması və transferi sisteminin əhəmiyyəti araşdırılmışdır. Məqalənin birinci hissəsində kredit sisteminin tətbiqinin təhsilverənlər və təhsilalanlar üçün yaratdığı üstünlüklər, o cümlədən kredit sisteminin qeyri-formal və informal təhsili formal təhsil ilə əlaqələndirilməsindəki rolu ətraflı təhlil edilmişdir. Məqalənin ikinci hissəsində kredit sisteminin tətbiqinə maneə yaradan amillər və məsələ ilə bağlı Azərbaycandakı vəziyyət öyrənilmişdir. Tədqiqat metodları kimi müstəqil eskpertlər, elm və təhsil istiqamətində dövlət sektorunda çalışan şəxslər və ölkənin ali təhsil müəssisələrinin nümayəndələri ilə yarıstrukturlu müsahibələrdən və kontent-analizdən istifadə olunmuşdur.
Açar sözlər: *ömürboyu təhsil, kredit toplanması və transferi sistemi, qeyri-formal və informal təhsilin tanınması, formal təhsil*

Аннотация. В статье рассматривается значение системы накопления и перевода кредитов с точки зрения продвижения и организации обучения на протяжении всей жизни. В первой части статьи подробно анализируются преимущества, которые дает введение кредитной системы для образовательных учреждений и учащихся, а также роль кредитной системы в связывании неформального и информального образования с формальным образованием. Во второй части статьи изучаются факторы, препятствующие применению кредитной системы, и ситуация в Азербайджане по этому вопросу. В качестве методов исследования использовались контент-анализ и полуструктурированные интервью с независимыми экспертами, лицами, работающими в

государственном секторе в области науки и образования, а также представителями высших учебных заведений страны.

Ключевые слова: *обучение на протяжении всей жизни, система накопления и перевода кредитов, признание неформального и неофициального обучения, формальное образование*

Abstract. The article examines the importance of the credit accumulation and transfer system in terms of promoting and organizing lifelong education. The first part of the article analyzes the benefits that the application of the credit system creates for education providers and learners, as well as the role of the credit system in linking non-formal and informal education with formal education. The second part of the article studies the factors that hinder the application of the credit system and the situation in Azerbaijan regarding this issue. The research methods used for this article included content analysis and semi-structured interviews with independent experts, people working in the public sector in the field of science and education, and representatives of national higher education institutions.

Keywords: *lifelong education, credit accumulation and transfer system, recognition of non-formal and informal learning, formal education*

Təhsildə kredit toplanması və transferi sistemi (bundan sonra – kredit sistemi) ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementlərindən biri kimi hesab edilir [1]. Kredit sistemi təhsilin ayrı-ayrı pillələri və səviyyələri arasında vəhdətin yaradılmasını və təhsil prosesinin səmərəli təşkilini təmin edir [2]. Bu məqalədə ömürboyu təhsilin təşviqi və təşkili baxımından kredit sisteminin əhəmiyyəti və rolu, kredit sisteminin tətbiqində müşahidə olunan əsas çətinliklər və həmin sistemin tətbiqi ilə bağlı Azərbaycandakı cari vəziyyət araşdırılmışdır. Tədqiqat çərçivəsində qarşıya qoyulan sualların cavablandırılması üçün məlumatlar müstəqil ekspertlər, elm və təhsil istiqamətində dövlət sektorunda çalışan şəxslər və ölkənin ali təhsil müəssisələrinin nümayəndələri ilə keçirilmiş yarıstrukturlu müsahibələrdən və kontent-analizdən götürülmüşdür.

Ömürboyu təhsilin təmin edilməsi baxımından kredit sisteminin verdiyi ən böyük üstünlük onun qeyri-formal və informal təhsili formal təhsil ilə əlaqələndirə bilməsidir. Başqa sözlə desək, insanlar qeyri-formal və informal təhsil formaları vasitəsilə, məsələn əmək fəaliyyəti zamanı, sertifikat və digər qısamüddətli təlim proqramları çərçivəsində, onlayn öyrənmə platformaları üzərində və sair yollar ilə əldə etdikləri bilik, bacarıq və səriştələri tanıtdıraraq onların qarşılığında akademik kredit toplayıb, daha sonra isə həmin kreditləri formal təhsilin müvafiq səviyyələrinin (məsələn, peşə təhsili, ali təhsil) uyğun ixtisasları üzrə tanıtdırıb formal təhsil təsnifatlarını daha qısa müddətdə və rahat şəkildə əldə edə bilərlər [3]. Belə imkanın mövcudluğu isə öz növbəsində təhsil prosesinin iştirakçıları, xüsusilə də təhsilalanlar və təhsil müəssisələri, üçün bir sıra üstünlüklərə yol açır. Birincisi, qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə olunan bilik və bacarıqlar qarşılığında akademik kreditlərin toplanması və daha sonra həmin kreditlərdən istifadə etməklə formal təhsil təsnifatlarının əldə edilə bilinməsi imkanı istənilən mühitdə, o cümlədən ailədə, işdə, müxtəlif dərnəklərdə və sair məkanlarda baş tutan öyrənmənin dəyərini artırır, çünki öyrənənlərə həmin bilik və bacarıqlardan praktiki istifadə imkanları yaradır [4]. İkincisi, formal təhsilin cəlbediciliyi və əlçatanlığı artır [5, s.70]. Yəni, əvvəlki bilik və bacarıqları (topladıqları kreditlər) təhsil müəssisələri tərəfindən nəzərə alındığı üçün təhsilalanlar bildikləri fənləri təkrarən keçmirlər və beləliklə, təhsil proqramlarını daha qısa müddətdə başa vurmaq imkanına sahib olurlar. Təhsil proqramını daha qısa müddətdə başa vura bilmək isə eyni zamanda təhsil xərclərinə də qənaət edilməsinə şərait yaradır. Qeyd olunanlar təhsil müəssisələrinin təhsilalanların fərdi xüsusiyyətlərinə və əvvəlki təcrübələrinə daha çevik uyğunlaşmasına və onlayn təhsil platformalarının sürətlə populyarlıq qazandığı bir dövrdə rəqabət qabiliyyətlərinin güclənməsinə xidmət edəcəkdir.

Yuxarıda qeyd olunan ikinci arqumenti eyni zamanda təhsili müxtəlif pillələrinin və səviyyələrinin bir-biri ilə əlaqələndirilməsinə də şamil etmək olar. Yəni, kredit sistemi təkcə qeyri-formal və informal təhsili formal təhsil ilə əlaqələndirmir, həm də formal təhsilin müxtəlif pillələrinin bir-biri ilə əlaqələndirilməsinə və həmin pillələr arasında vəhdətin yaradılmasına yol açır. Məsələn, bir şəxsin orta ixtisas təhsili pilləsində topladığı kreditlər onun uyğun ixtisaslar üzrə bakalavriat səviyyəsində təhsili zamanı

nəzərə alınır və həmin şəxsə bildiyi fənlər təkrarən tədris olunmur.

Yuxarıda təsvir olunan istiqamətlər üzrə işlərin praktikada necə həyata keçirildiyini daha yaxşı başa düşmək üçün kredit sistemini ömürboyu təhsilin təmin edilməsində effektiv bir alətə çevirməyi bacarmış ölkələrin təcrübələrinə nəzərə yetirmək məqsədəuyğun olar. Belə ölkələrdən biri Çin Xalq Respublikasıdır. Kredit sisteminin təhsil infrastrukturuna inteqrasiyası ilə bağlı Çin Xalq Respublikasının atdığı ən uğurlu addımlardan biri akademik kredit bankı kimi tanınan informasiya sisteminin yaradılması olmuşdur [6]. İnsanlar akademik kredit bankında özləri üçün elektron hesab yaradıb əldə etdikləri sertifikatları, diplomları və sair təsnifat sənədlərini, habelə digər aidiyyəti məlumatları ora əlavə edərək və sonra həmin sistemdən istifadə edərək topladıqları bilik və bacarıqları akademik kreditlərə çevirmək imkanı qazanırlar [7]. Akademik kredit bankının işləkliyinə və faydalarına nümunə olaraq həmin sistemin qurucusu olan Çin Açıq Universitetinin rəsmi internet səhifəsində poçt işçisi peşə təsnifat sənədlərini sənədinə yiyələnmiş tələbənin akademik kredit bankı vasitəsilə bilik və bacarıqlarını tanıtdırıb akademik kreditlər topladığı və həmin kreditlərdən istifadə edərək sözügedən Universitetin logistika ixtisası çərçivəsində tədris olunan üç kursdan azad edildiyi göstərilmişdir. Onu da qeyd etmək lazımdır ki, 2035-ci ilədək Çində Təhsilin Modernləşdirilməsi Planında milli akademik kredit bankının yaradılmasının strateji əhəmiyyəti vurğulanmışdır [7].

Kredit sisteminin tətbiqinə maneə törədən amillərə gəldikdə isə, burada əsas məsələlərdən biri bilik və bacarıqların kredit ekvivalentinin düzgün müəyyənləşdirilməsi, ixtisaslar üzrə təlim nəticələrinin standartlaşdırılması və bilik və bacarıqların qiymətləndirilməsi prosesində keyfiyyətin və obyektivliyin təmin edilməsidir [8]. Digər bir çətinlik isə kredit sisteminin səmərəli təşkilinin güclü inzibati infrastruktur tələb etməsidir [5, s.50]. Belə infrastruktur kreditlərin toplanması prosesinin mütəmadi izlənilməsinə və öyrənənlər barədə məlumatların yenilənmiş qalmasına, qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə olunmuş bacarıqların qiymətləndirilməsinə və digər zəruri tədbirlərin vaxtlı-vaxtında və dəqiq icrasına icazə verməlidir. Bunun üçün isə sistemin gətirə biləcəyi üstünlüklər barədə tam məlumatlılıq, təhsil infrastrukturunun təşkilinə fərqli baxış və maliyyə resursları zəruridir.

Kredit sisteminin Azərbaycanda tətbiqi ilə bağlı cari vəziyyətə nəzər saldıqda, sistemin ölkədə natamam tətbiqini görə bilərik. Belə ki, kredit sistemi hazırda yalnız ali təhsilin bakalavriat və magistratura, habelə orta ixtisas və yüksək texniki peşə təhsili səviyyələrində tətbiq olunur. Bu isə o deməkdir ki, öyrənənlərin hər bir təhsil səviyyəsində kredit toplamaq imkanı yoxdur. Bundan əlavə, Təhsil haqqında Qanunun 20.3-2-ci maddəsində subbakalavrların topladıqları kreditlərin uyğun ixtisaslar üzrə ali təhsil müəssisələri tərəfindən nəzərə alınmalı olduğu qeyd olunsa da, tədqiqat çərçivəsində keçirilmiş müsahibələr zamanı, ali təhsil müəssisələrinin belə kreditləri tanımaqda çox da maraqlı olmadığı müşahidə edilmişdir. Buna əsas səbəblərdən biri olaraq isə keyfiyyət təminatı məsələləri, yəni təhsilalanların əvvəlki təhsillərinin keyfiyyətinə dair narahatlıqlar göstərilmişdir. Vəziyyətin belə olması öyrənənlərin topladıqları kreditlərdən istifadə edərək təhsil proqramlarını daha qısa müddətdə başa vurmaq imkanından məhrum olduğunu göstərir. Ölkədə kredit sisteminin natamam tətbiqindən xəbər verən digər bir məqam qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması prosesi zamanı insanların tanınmış bilik və bacarıqları qarşılığında onlara akademik kreditlərin verilməməsidir [9]. Belə tanınma prosesi hazırda yalnız ilk peşə təhsili səviyyəsi üzrə tətbiq olunur və səriştələri qiymətləndirilən şəxslərə prosesin yekununda sertifikat və ya diplom verilir. Bunu nəzərə alaraq deyə bilərik ki, kredit sistemi hazırda ölkədə qeyri-formal və informal təhsili formal təhsil ilə əlaqələndirən bir vasitə kimi istifadə olunmur.

Nəticə. Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementlərindən biri kimi kredit sistemi həm qeyri-formal və informal təhsili formal təhsil ilə, həm də formal təhsilin müxtəlif pillə və səviyyələrini bir-biri ilə əlaqələndirərək təhsil sistemində vəhdətin yaradılmasına və öyrənənlərə daha qısa müddət ərzində təsnifat sənədlərini əldə etməsinə şərait yaradır. Lakin, kredit sisteminin işlək bir hala gətirilməsi üçün güclü inzibati infrastruktur zəruridir. Belə infrastruktur bilik və bacarıqların kredit ekvivalentinin düzgün müəyyənləşdirilməsinə, ixtisaslar üzrə təlim nəticələrinin stan-

dartlaşdırılmasına, kreditlərin toplanması prosesinin mütəmadi izlənilməsinə və prosesdə keyfiyyətin və obyektivliyin təmin edilməsinə icazə verməlidir. Belə infrastruktur yaranmadığı təqdirdə kredit sisteminin verə biləcəyi bütün üstünlüklərdən istifadə qeyri-mümkün olur. Hazırda ölkəmizdə də kredit sistemi natamam tətbiq olunduğundan onun yuxarıda sadalanan faydaları müşahidə edilmir.

Problemin aktuallığı. Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması Azərbaycanda Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının beş strateji istiqamətindən biri olduğundan belə təhsil infrastrukturun mühüm elementlərindən olan kredit sisteminin həmin infrastrukturun qurulmasında töhfəsinin dərindən başa düşülməsi strateji hədəfin icrasının təmin edilməsi baxımından aktualdır [10].

Problemin elmi yeniliyi. Məqalədə kredit sisteminin ömürboyu təhsil infrastrukturundakı rolu araşdırılmışdır və əldə olunan nəticələr ömürboyu təhsil infrastrukturunun daha dərindən və fərqli perspektivdən başa düşülməsinə kömək edəcəkdir.

Problemin praktik əhəmiyyəti. Məqalədə Azərbaycanda kredit sisteminin tətbiqində müşahidə olunan çətinliklər müəyyən edilmiş və beləliklə, dövlət təhsil siyasətinin icraçıları, o cümlədən təhsil müəssisələri üçün potensial dəyişiklik istiqamətləri göstərilmişdir.

Ədəbiyyat:

1. International trends of lifelong learning in higher education / UNESCO Institute for Lifelong Learning. – Hamburg, 2023.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir. – Bakı, 2009.
3. Werquin, P. (2010). Recognition of non-formal and informal learning: Outcomes, policies, and practices. Organization for Economic Co-operation and Development. URL: https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2010/04/recognising-non-formal-and-informal-learning_g1ghaff6/9789264063853-en.pdf
4. Singh, M. (2015). Global perspectives on recognising non-formal and informal learning: Why recognition matters? UNESCO Institute for Lifelong Learning. – Hamburg, 2015. URL: https://link.springer.com/book/10.1007/978-3-319-15278-3
5. ECTS Users' Guide / Publications Office of the European Union. – Luxembourg, 2015. URL: https://op.europa.eu/en/publication-detail/-/publication/da7467e6-8450-11e5-b8b7-01aa75ed71a1
6. Beijing launches academic credit bank [Electronic resource] / China Daily electronic newspaper – November 10, 2017. URL: https://www.chinadaily.com.cn/china/2017-11/10/content_34370454.htm
7. How Does a Credit Bank Build a Bridge for Lifelong Learning? [Electronic resource] / The Open University of China – November 8, 2023. URL: http://en.ouchn.edu.cn/index.php/news-v2/ouc-in-media/4716-how-does-a-credit-bank-build-a-bridge-for-lifelong-learning
8. Bekhradnia, B. (2004). Credit accumulation and transfer, and the Bologna Process: An overview. The UK Higher Education Policy Institute. – Oxford, 2004. URL: https://www.hepi.ac.uk/wp-content/uploads/2014/02/13CATFullReport.pdf
9. Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası // 5 avqust 2020-ci ildə təsdiq edilmişdir. – Bakı, 2020.
10. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 24 oktyabr 2013-cü ildə təsdiq edilmişdir. – Bakı, 2013.

Redaksiyaya daxil olub: 04.02.2025

UOT 378.11

Lalə Qabil qızı Şəfiyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
İbtidai təhsilin pedaqogikası kafedrasının laborantı
https://orcid.org/0009-0009-2722-1851
E-mail: laleshafiyeva063@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).121-125

İBTİDAİ SİNİFLƏRİN İDARƏ EDİLMƏSİ ÜZRƏ ƏSAS MODELLƏRİN NƏZƏRİ CƏHƏTLƏRİ

Лала Габиль гызы Шафиева
лаборант кафедры Педагогики начального образования
Азербайджанского Государственного Педагогического Университета

ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ОСНОВНЫХ МОДЕЛЕЙ ПО УПРАВЛЕНИЮ НАЧАЛЬНЫМИ КЛАССАМИ

Lala Gabil Shafiyeva
laboratory assistant of the department of Pedagogy of primary education
of the Azerbaijan State Pedagogical University

THEORETICAL ASPECTS OF THE MAIN MODELS OF PRIMARY SCHOOL MANAGEMENT

Xülasə. İdarəetmənin əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər idarəetmənin nəzəri əsasını təşkil edir. Sinfin səmərəli idarə edilməsi müəllimin qarşısında duran önəmli vəzifələrdən biridir. Sinfin idarə edilməsi, təhsil proqramı və planı, tədris metodu, təhsil fəaliyyəti, texnologiya, zaman, məkan, müəllim və şagird arasında effektiv koordinasiyanı təmin etməklə öyrənmə üçün əlverişli mühit və nizam yaratmaqdır. Məktəbdə idarəetmənin bir növünə də sinfin idarə edilməsi daxildir. Sinfin idarə edilməsi sinif rəhbəri tərəfindən həyata keçirilir. Sinif rəhbərinin vəzifəsinə illik, yarımillik və cari planları hazırlamaq, sinif jurnalının yazılması, şagirdlərin şəxsi işlərinin hazırlanması və saxlanması, lazım gəldikdə yenilənməsi, tabeliyindəki, sinifdə olan şagirdlərin valideynləri ilə əlaqə saxlanması, sinif valideyn iclaslarının təşkili, şagirdlərin dərsləri və təhsili ilə yanaşı onların tərbiyəsi ilə məşğul olmaq və s. işlər daxildir.
Açar sözlər: *Sinfin idarə edilməsi, motivasiya, davranış, şagird, müəllim, təhsil*

Аннотация. Основу управления составляет система научных знаний. Научные знания являются теоретической основой управления. Эффективное управление классом – одна из важных задач, стоящих перед учителем. Управление классом заключается в создании среды и порядка, способствующих обучению, путем обеспечения эффективной координации между учебной программой и планом, методом обучения, образовательной деятельностью, технологией, временем, пространством, учителем и учеником. Один из типов управления школой включает управление классом. Руководство классом осуществляет классный руководитель. Классный руководитель несет ответственность за подготовку годовых, полугодовых и текущих планов, ведение классного журнала, подготовку и ведение личной работы учащихся, ее обновление при необходимости, поддержание связи с родителями учащихся в подведомственном ему классе, организацию занятий.
Ключевые слова: *управление классом, мотивация, поведение, ученик, учитель, образование*

Abstract. The basis of management is the system of scientific knowledge. Scientific knowledge is the theoretical basis of management. Effective classroom management is one of the important tasks facing the teacher. Classroom management is to create an environment and order conducive to learning by ensuring effective coordination between the curriculum and plan, teaching method, educational activities, technology, time, space, teacher and student. One type of school management includes classroom management. Class management is carried out by the class teacher. The class leader is responsible for preparing annual, half-

yearly and current plans, writing a class journal, preparing and maintaining students' personal work, updating it when necessary, maintaining contact with the parents of students in the class under his supervision, organizing class parent meetings, and educating students along with their lessons and education. busy etc. works included.

Keywords: *classroom management, motivation, behavior, student, teacher, education*

İdarəetmənin əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər idarəetmənin nəzəri əsasını təşkil edir. İdarəetmə dedikdə, məqsədəuyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə yönəldilmiş fəaliyyət nəzərdə tutulur. Təhsil Nazirliyi, şəhər, rayon təhsil şöbələri idarəetmə sisteminin subyektləri kimi çıxış edirlər. Mürəkkəb, dinamik sosial sistem olan ümumtəhsil orta məktəbi məktəbdaxili idarəetmə obyektidir. Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin (məktəbi idarə edənin) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur.(2)

Sinfin idarə olunması təhsil idarəçiliyinin ilk və əsas addımıdır. Sinifdə şagirdlər nizamsız və hörmətsiz olsalar və eyni zamanda sinifdə şagird davranışını istiqamətləndirəcək aydın qayda və prinsiplər yoxdursa, xaos yaranır. Bu vəziyyətdən həm müəllimlər, həm də tələbələr narazıdır. Bir tərəfdən müəllimlər öyrətməyə can atır, digər tərəfdən tələbələr lazım olduğundan çox az öyrənirlər. Əksinə, yaxşı idarə olunan sinif otaqlarında tədris və öyrənmə üçün əlverişli mühit var. Sinifdə bu mühitin yaradılmasına səy göstərilməlidir və bu prosesdə ən böyük məsuliyyət müəllimin üzərinə düşür. Bu baxımdan təhsilin idarə edilməsinin keyfiyyəti sinif idarəetməsinin keyfiyyətindən asılıdır.

Hər bir müəllimin özünün sinfi idarə etmək metodları var. Yaxşı menecerlər şagirdləri çox qaydalarla yükləmirlər. Onlar qaydaları lazım gəldikdə təkrar edərək şagirdlərin yadına salırlar. Yadda saxlamaq lazımdır:

1) Vacib olan bir neçə qaydanı müəyyənləşdirin.

2) Qaydaları hər kəsə aydın izah edin

3) Qaydaları hamıya tətbiq edin

4) Öz sevimlilərinizi fərqləndirməyin (3).

• Sinifdə tədbirlərin keçirilməsi də sinif rəhbərinin vəzifəsidir. Medland və Vital (1984) müəllimin sinifdəki fəaliyyətlərini aşağıdakı kimi bölüşdürmüşdür:

1) Sinifdə keçiriləcək tədbirləri müəyyənləşdirmək;

2) Həmin tədbirlər üçün şagirdlərin sosial davranışlarını müəyyənləşdirmək;

3) Hansı tədbirlərin qaydalar siyahısının olmasının vacibliyini müəyyənləşdirmək"

4) Nəzərdə tutulan tədbirlər üçün qaydalar müəyyənləşdirmək.

- Qaydaları qısa yazın
- Qaydaları nikbin ruhda yazın
- Çoxlu qaydalar yazmayın

5) Ümumi qaydaların hazırlanması

Sinif idarəetmə modelləri bəzi tədqiqatçılar tərəfindən dörd başlıq altında qruplaşdırılsa da: reaktiv, ehtiyatlı, inkişaf etdirici və vahid digər tədqiqatçılar tərəfindən beş başlıq altında müzakirə olunur: ənənəvi, reaktiv, ehtiyatlı, inkişaf etdirici kimi qruplaşdırılır.

Təcrübəli müəllim Todd Finleyin bu istiqamətdə tətbiq etdiyi böyük və kiçik strategiyaları diqqətinizə çatdırırıq:

Böyük strategiyalar: Sinfin idarə edilməsinin əsas prinsipləri:

Hipnozun ilk addımından istifadə edin. Hipnozçunun ilk induksiya üsulu, hipnoz edəcəyi subyektin diqqətini onda artıq baş vermiş bir prosesə yönəltməkdir. Məsələn: "Gözlərinizdəki yorğunluğu hiss edin" ifadəsi yaxşı başlanğıcdır, çünki işləyən şəxsin gözlərində yorğunluq olur, sadəcə kimsə buna diqqət yönəltməsə, insanlar onu hiss etmir. Hipnozçular kimi müəllimlər də sinfin idarə edilməsində bu üsuldan istifadə edə bilərlər. Müəllimlər şagirdlərdən onlarda artıq başlayan bir prosesə diqqət yönəltməyi xahiş edə, sonra isə başqa bir göstəriş verə bilər. Məsələn, müəllimlər – "Mənə diqqətlə baxın" tapşırığını verib şagirdlərin buna əməl etmələrini gözləyərək növbəti tapşırığa keçir: "Söhbəti dayandırın, səhifə 237-yə nəzər yetirin, qələmi götürüb dəftərdə mövzunun başlığını yazın".

Keçidlərin məşqi. Əksər diqqət dağınıqlığı tənəffüslərdə və fəaliyyətlərarası vaxtda baş verir. "Səssiz 30 saniyə" bütün şagirdlərin iş masalarını təmizləmək və yarım dəqiqə ərzində səssiz oturmaq üçün siqnaldır. 30 saniyəni müvəffəqiyyətlə başa vuran sinfi mükafat gözləyir. Şa-

girdlərim bu proseduru heyrətlə izləyən şəxsləri görəndə lap çox həvəslənirlər.

Pozitiv telefon zəngləri edin və məktublar göndərin. Hər bir şagirdin valideynlərinə müsbət bir qeyd yazıb göndərdim və bu qeydi soyuducudan asmaq üçün bir maqnit hədiyyə etdim. Həmçinin şagirdlər haqqında müsbət fikirlərimi onların valideynlərinə səsli mesajlar vasitəsilə də çatdırdım. Beləliklə, valideynlər və uşaqlar məni müttəfiq kimi gördülər.

Kiçik strategiyalar: Sinfin idarə edilməsini dəstəkləyən sadə müdaxilələr

Şagirdə hər davranışına görə hesab verməli olduğunu başa salın. Çətin dərslərin sonunda şagirdlərə iki bilet verirəm – onlardan biri akademik səylərinə, digəri isə yaxşı davranışına görədir. Uşaqlar üzərində adları yazılmış biletləri bir bankaya atırlar. Cümə günü bankadan təsadüfi iki bilet çəkirəm və iki şagirdə konfet hədiyyə edirəm.(5)

Heç vaxt bir neçə şagirdə görə bütün sinfi cəzalandırmayın. Bütün sinfin düzgün hərəkət etmədiyini düşündüyünüz hallarda belə, bəzi uşaqlar həmişə nümunəvi davranış sərgiləyir. Sinfi bir qrup olaraq cəzalandırmaq daha çox əks təsirə səbəb olur.

Məzmunla bağlı gözlənti yaradın. Dərsin başlanğıcında "Bu gün sizinlə maraqlı bir mövzunu müzakirə edəcəyik", – söyləyin. Burada məqsəd şagirdlərin yayınmasının qarşısını almaq və onların fikrini dərsin məzmununa cəlb etməkdir.

Şagirddə təqdir olunacaq xüsusiyyətlər tapın. Dərsdə mübahisələr yerinə sizə zövq verən söhbətlər edin. Məsələn, şagirdlərin bəyəndiyiniz qabiliyyətlərini və ya davranışlarını təqdir edə bilərsiniz. Bu addım onları ruhlandıracaq.

Həvəsinizi artırın.

Öz hisslərinizi ifadə edin. Şagirdlər bəzən müəllimlərin səmimiliyinə ehtiyac duyurlar. Məsələn, onlara dərsdən məmnun qaldığınızı deyərək, şagirdləri ruhlandıra bilərsiniz.

Şagirdlərə seçim imkanı verin. Məsələn, "Bu tapşırığı sinifdə etmək istəyərsiniz yoxsa evdə?" və ya "Bu tapşırığı tək yoxsa qrup şəklində etmək istəyirsiniz?" sualını verin. Seçim şagirdlərin qərarvermə qabiliyyətini artırır.

Müəllimlərin qəbul etdiyi intizam yanaşmalarına əsasən, fərqli sinif idarəetmə modellərini qeyd etmək olar. Müəllim zaman və vəziyyətdən asılı olaraq bu modellərdən birini əsaslandıra bilər və ya bir çox yanaşmalardan faydalana bilər. Əslində, sinif idarəetmə yanaşmalarını və sinif idarəetmə modellərini kəskin sərhədlərlə ayırmaq çətindir. Çünki sinif idarəetmə modelləri həm də ənənəvi və müasir yanaşmalardan ibarətdir. Bu tədqiqatda sinif idarəetmə modelləri müvafiq ədəbiyyata uyğun olaraq ənənəvi, reaktiv, ehtiyatlı, inkişaf etdirici və vahid modellər kimi araşdırılmışdır.(2)

Ənənəvi Model: Ənənəvi sinif idarəetmə yanaşmasında təhsil müəllim mərkəzli şəkildə təşkil edilir. Sinif fəaliyyətlərində müəllim çox fəal, tələbələr isə passivdirlər. Müəllim-şagird və tələbə-şagird münasibətləri son dərəcə strukturlaşdırılmışdır və bütün səlahiyyətlər müəllimdə cəmləşmişdir.

Reaktiv Model: Bu model, mükafat-cəza tipli fəaliyyətlərlə arzuolunmaz tələbə davranışlarını aradan qaldırmağa çalışan bir sinif idarəetmə modelidir. Müəllimin arzuolunmaz tələbə davranışına reaksiyası kimi inkişaf edir. Qrupdan çox fərd üzərində fokuslanan və klassik sinif idarəçiliyi yanaşmalarını ehtiva edən bu model şagirdlə ünsiyyətdə arzuolunmaz nəticələrə səbəb ola biləcəyi üçün daim tənqid edilir. Reaktiv modeldən istifadə edərkən unutmaq olmaz ki, hər reaksiyanın əks reaksiyası olacaq. Demək olar ki, reaktiv modeldən tez-tez istifadə edən müəllimlərin sinif idarə etmə bacarıqları aşağıdır. Burada məqsəd sinifdə baş verən arzuolunmaz davranışları dəyişdirməkdir. Müəllimin hadisələrin səbəblərini deyil, nəticələrini ön plana çəkməsi və reaksiyalarını əsasən fərdin özünə yönəltməsi, arzuolunmaz davranışlara qarşı daha çox cəza üsullarından istifadə etməsi, qaydaları məqsədə çevirməsi və heç bir müzakirə aparmadan həyata keçirməyə çalışması reaktiv modelə uyğun sinif idarəçiliyi davranışlarıdır. (7)

Sinif nizamının yaradılması prinsipinə əsaslanan bu modeldə arzuolunmaz davranışların və vəziyyətlərin qarşısını almaq üçün qaydalar qoyulur. Sinifdə rastlaşa biləcək problemlərə qarşı əvvəlcədən planlaşdırılmış ehtiyat tədbirlərinin görülməsi modeli kimi də izah edilə bilər. Bununla belə, tədbir görülməsi şagird üçün şişirdilməli və darıxdırıcı olmamalıdır. Gözlənilməz vəziyyətlərdə bu model təsirsiz olur. Bu modeldə müəllim hadisələrin nəticələrinə deyil, səbəblərinə diqqət yetirir və öz reaksiyalarını şəxsə deyil, əsasən hadisəyə yönəldir. (2)

Ehtiyat Modeli: Sinifdə baş verə biləcək problemlərin təxmin edilməsi hər cür vəziyyəti

proqnozlaşdıra bilən sinif nizamının yaradılması prinsipinə əsaslanan bu modeldə arzuolunmaz davranışların və vəziyyətlərin qarşısını almaq üçün qaydalar müəyyən edilir. Sinifdə rastlaşa biləcək problemlərə qarşı əvvəlcədən planlaşdırılmış ehtiyat tədbirlərinin görülməsi modeli kimi izah edilə bilər. Bununla belə, tədbir görülməsi şagird üçün şişirdilməli və darıxdırıcı olmamalıdır. Gözlənilməz vəziyyətlərdə model təsirsiz olur. Bundan əlavə, həddindən artıq ehtiyat tədbirlərinə yanaşma, ehtiyat tədbirləri içində boğulmağa səbəb ola bilər. Bu modeldə müəllim hadisələrin nəticələrinə deyil, səbəblərinə diqqət yetirir və öz reaksiyalarını şəxsə deyil, əsasən hadisəyə yönəldir. (1)

İnkişaf modeli: Bu model şagirdlərin inkişaf xüsusiyyətlərinin nəzərə alındığı və sinfin idarə olunması prosesində əsas element kimi görüldüyü bir sinif idarəetmə modelidir. Şagirdlərin fiziki, əqli və emosional inkişaf mərhələlərinə uyğun olaraq sinif fəaliyyətinin dizaynıdır. Şagirdlərin inkişaf xüsusiyyətlərini nəzərə almaq və şagirdlərdən onların inkişaf səviyyələrinə uyğun davranmalarını gözləmək uğurları artıracaq. Şagirdlərin hazırlıq səviyyələrinə uyğun dərslərin planlaşdırılması və həyata keçirilməsi, sinifdə qaydaların müəyyən edilməsində və şagirdlərə vəzifələr təyin edilərkən şagirdlərin inkişaf xüsusiyyətlərinə üstünlük verilməsi, şagirdlərin inkişaf səviyyələrinə uyğun davranışların tələb edilməsi və gözlənilməsi, tələbələrin fərdi inkişaf xüsusiyyətlərinin nəzərə alınması inkişaf modelinə uyğundur.

Vahid model: Bu modelə sistem modeli də deyilir. Ehtiyat modelinə üstünlük versə də, lazım gəldikdə müəllimin bütün modellərə uyğun davranışlardan istifadə edə bilməsini nəzərdə tutur. Arzuolunmaz davranışların və vəziyyətlərin qarşısını almaq üçün onlara səbəb olan hallar aradan qaldırılır. Şagirdlərin inkişaf xüsusiyyətləri nəzərə alınmaqla fəaliyyət həyata keçirilir. Bu modeldə müəllim bütün modelləri situasiya anlayışı ilə nümayiş etdirir. (Başar, 2004) Bundan əlavə, sinif otağının ətraf mühitlə birlikdə nəzərə alınması bu modelin xüsusiyyətlərindən biridir. Burada gözlənilən odur ki, müəllim ən aşağı səviyyədə reaktiv modelə əsaslanan davranışları, ən yüksək səviyyədə isə ehtiyat və inkişaf modelinə əsaslanan davranışlar göstərsin.

Müəllimin sinif idarəetmə modelini düzgün seçib tətbiq etməsində də məktəbin böyük təsiri var. Türnüklü (2005) in dediyinə görə, İngiltərədəki demək olar ki, bütün məktəblərdə davranışın idarə edilməsi siyasəti var. Şagirdlər məktəbəqədər təhsilə başladığı andan bu siyasətə uyğun olaraq təhsil alırlar. Ona görə də müəllimlərin sinif idarə etmə səriştələri çox yüksək səviyyədədir. Türkiyədə müəllimlər öz təcrübələrindən öyrəndikləri dərslərlə öz sinif idarəetmə tərzini yaradırlar.

Problemin aktuallığı. Sinif rəhbəri təhkim olunduğu sinifdəki şagirdlərin təhsili və tərbiyəsi üçün məsuliyyət daşıyır. Müəllimin düzgün sinif idarəetmə modelini seçə bilməsi üçün məktəblərin ümumi davranış idarəetmə siyasəti yaratması vacibdir. Bu kontekstdə, bu araşdırmada sinif müəllimlərinin sinif idarəetmə prosesində istifadə etdikləri sinif idarəetmə modelləri araşdırılır. Müəllimlərin özlərinin və dərslərində onlara rəhbərlik edən tədris rəhbərlərinin rəylərinə əsasən müəyyən edilməsi olduqca aktual məsələlərdəndir.

Problemin yeniliyi. Məktəb rəhbərinin idarəetmə mədəniyyəti onun peşə-pedaqoji mədəniyyətinin bir hissəsidir. Bu, özünü müxtəlif növ idarəetmə fəaliyyətində, məktəbi idarəetmədə dəyərlərin və texnologiyaların mənimsənilməsində, ötürülməsində və yaradılmasında göstərir. Sinfin effektli idarə etmək üçün hazırda böyük əhəmiyyət kəsb edən biliklər, ideyalar, konsepsiyalar pedaqoji dəyərlər kimi çıxış edir.

Problemin praktik əhəmiyyəti. Pedaqoji fəaliyyət məqsədyönlüdür. Ümumi məqsədə nail olmaq üçün onu təşkil edən hissələri həyata keçirmək lazımdır. Tədqiqatda əks olunan məsələlər məktəbdaxili idarəetmənin nəzəriyyə və praktikasında pedaqoji təhlilin hazırlanmasında istifadə oluna bilər.

Ədəbiyyat:

1. McNeal, R. B., Jr. (2019). Parental involvement as social capital: Differential effectiveness on science achievement, truancy, and dropping out. Social Forces, 78(1), 117-144.
2. Newman, R. S. (2000). Social influences on the development of children's adaptive help seeking: The role of parents, teachers, and peers. Developmental Review, 20, 350-404.
3. Osterman, K. F. (2000). Students' needs for belonging in the school community. Review of Educational Research, 70, 323-367.
4. Pianta, R. C. (2006). Classroom management and relationships. In C. M. Evertson & C. S. Weinstein (Eds.), Handbook of classroom management: Research, practice, and contemporary issues (pp. 685-709).

5. Mahwah, NJ: Lawrence Erlbaum Associates. Powell, R. R., McLaughlin, H. J., Savage, T. V., & Zehn, S. (2001). Classroom management: Perspectives on the social curriculum. Upper Saddle River, NJ: Merrill/Prentice-Hall. Savage, T., & Savage, M. (2010). Successful classroom management and discipline: Teaching selfcontrol and responsibility.
6. Thousand Oaks, CA: Sage. Stough, L. (2006). The place of classroom management and standards in teacher education.
7. In C. M. Evertson & C. S. Weinstein (Eds.), Handbook of classroom management: Research, practice, and contemporary issues (pp. 909–923). Mahwah, NJ: Lawrence Erlbaum Associates.
8. Walker, J. M. T., & Hoover-Dempsey, K. V. (2006). Why research on parental involvement is important to classroom management. In C. M. Evertson & C. S. Weinstein (Eds.), Handbook of classroom management: Research, practice, and contemporary issues (pp. 665-684). Mahwah, NJ: Lawrence Erlbaum Associates.

Redaksiyaya daxil olub: 10.02.2025.

UOT 378.11

Vüsalə Yaşar qızı Ağahüseynova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3216-6238
E-mail: vusala.aghahuseynova.dok@arti.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).126-130

MƏKTƏBLƏRİN İDARƏ OLUNMASINDA KOUÇLUQ STRATEGİYALARININ ƏHƏMİYYƏTİ

Вусала Яшар гызы Агагусейнова
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ВАЖНОСТЬ КОУЧИНГОВЫХ СТРАТЕГИЙ В УПРАВЛЕНИИ ШКОЛАМИ

Vusala Yashar Aghahuseynova
doctorial student in the program of doctor of philosophy
at the Institute of Education of the Republic of Azerbaijan

THE IMPORTANCE OF COACHING STRATEGIES IN SCHOOL MANAGEMENT

Xülasə. Məqalədə "Məktəblərin idarə olunmasında kouçluq strategiyalarının əhəmiyyəti" mövzusu araşdırılıb. Təhsil sahəsində kouçluq metodlarının tətbiqinin məktəb idarəçiliyində və tədris prosesindəki müsbət təsirlərini vurğulanıb. Həmçinin, məqalədə kouçluq strategiyalarının məktəb rəhbərləri və müəllimlər üçün liderlik və idarəetmə bacarıqlarını inkişaf etdirməklə yanaşı şagirdlərin fərdi inkişafına, təhsilin keyfiyyətinə necə təsir etdiyinə dair əsas fikirlər təqdim olunub.

Kouçluq metodları məktəb rəhbərlərinin daha səmərəli qərarlar qəbul etməsinə, müəllimlərin peşəkar inkişafını dəstəkləməyə və şagirdlərə motivasiya verməyə kömək edir. Məqalədə kouçluğun tətbiqi ilə məktəblərdə əməkdaşlıq mühitinin yaradılması, şagird potensialının aşkar edilməsi və müasir tədris metodlarının tətbiqi kimi məsələlərə də diqqət çəkilib. Məqalədə həmçinin kouçluq strategiyalarının məktəb idarəçiliyində qarşılaşılacaq çətinliklər və bu çətinliklərin həlli yollarını təqdim edilib. Kouçluq metodlarının təhsil sistemində tətbiqi məktəblərin idarə olunmasında daha müasir və səmərəli yanaşmalara yol açır, təhsilin keyfiyyətinin yüksəlməsinə və məktəb mühitində müsbət dəyişikliklərin baş verməsinə şərait yaradır.

Açar sözlər: *kouçluq, məktəb idarəçiliyi, liderlik, təhsil keyfiyyəti, idarəetmə strategiyaları.*

Аннотация. В данной статье рассматривается тема «Значение стратегий коучинга в управлении школами» и широко обсуждается роль применения методов коучинга в образовательных учреждениях, в управлении школой, в профессиональном развитии учителей и в учебном процессе учащихся. Показано, как применение коучингового подхода в сфере образования влияет не только на индивидуальное развитие, но и на общее развитие образовательной среды.

Прежде всего, объясняется, как стратегии коучинга укрепляют лидерские и управленческие навыки в управлении школой. Применяя коучинговые подходы, руководители школ могут реализовать эффективные процессы принятия решений в управлении школами с помощью более прозрачных, открытых и творческих методов управления. Этот метод также помогает руководителям школ быстрее и правильнее решать проблемы в образовательной среде.

В статье показано, как коучинговые подходы влияют на профессиональное развитие учителей и как учителя могут преподавать более творчески, позитивно и мотивированно. Коучинг позволяет учителям лучше понимать и развивать свои собственные навыки.

В статье также широко обсуждаются трудности, возникающие при применении коучинговых подходов, и пути их решения. Среди этих трудностей отмечаются такие проблемы, как сопротивление новизне методов коучинга в системе образования, нехватка времени и ресурсов. Однако предлагаемые

решения для преодоления этих трудностей, подчеркивается в статье, заключаются в том, чтобы руководители школ более систематически применяли методы коучинга и поддерживали учителей и учащихся в принятии этих методов.

Ключевые слова: *коучинг, управление школой, лидерство, качество образования, стратегии управления.*

Abstract. The article examines the topic "The importance of coaching strategies in school management". The positive effects of the application of coaching methods in the field of education in school administration and the teaching process were emphasized. Also, the article presents key ideas on how coaching strategies affect the personal development of students and the quality of education, in addition to developing leadership and management skills for school leaders and teachers.

Coaching methods help school leaders make more effective decisions, support teachers' professional development, and motivate students. The article draws attention to issues such as creating an environment of cooperation in schools with the application of coaching, revealing student potential and applying modern teaching methods. The article also presents the difficulties of coaching strategies in school management and the ways to solve these difficulties. The application of coaching methods in the educational system paves the way for more modern and effective approaches to school management, improves the quality of education and creates conditions for positive changes in the school environment.

Keywords: *coaching, school management, leadership, educational quality, management strategies.*

XXI əsr təhsil sahəsində dərin dəyişikliklər və yeniliklər dövrü kimi xarakterizə edilə bilər. Bu dəyişikliklər həm qlobal rəqabət mühitinin artması, həm də texnologiyanın sürətli inkişafı ilə bağlıdır. Məktəblər yalnız akademik biliklərin ötürülməsi ilə məhdudlaşmır; onlar, eyni zamanda, şagirdlərin düşüncə qabiliyyətlərini inkişaf etdirən, onları daha güclü və səriştəli bir cəmiyyətin üzvləri olmağa hazırlayan yerlərdir. Bu vəzifənin yerinə yetirilməsində məktəb idarəçilərinin rolu danılmazdır. Məktəbin idarəetmə strukturu yalnız tədris keyfiyyətinə deyil, həm də müəllim və şagirdlərin motivasiyasına, ümumi təhsil mühitinə təsir göstərir.

Son illərdə müasir idarəetmə konsepsiyalarında kouçluq strategiyaları getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayıb. Ənənəvi liderlik yanaşmalarının məhdudiyyətləri yenilikçi və şəxsə yönəlmiş kouçluq yanaşmasının təhsil sisteminə daxil olmasına şərait yaradıb. Kouçluq anlayışı ilk növbədə iş dünyasında istifadə edilsə də artıq təhsil sahəsində də öz yerini tapmışdır. Kouçluq müəllimlərin və digər təhsil işçilərinin potensialını üzə çıxarmağa, onları motivasiya etməyə, şəxsi və peşəkar hədəflərinə çatmağa təşviq edən bir yanaşmadır. Kouçluq həm məktəb rəhbərlərinin, həm də müəllimlərin məktəb daxilində daha güclü əməkdaşlıq əlaqələri qurmasına, birlikdə işləyərək hədəflərinə çatmasına imkan verir.

Məktəbdə kouçluq strategiyalarının istifadəsi təhsil mühitinin daha şəffaf və məhsuldar olmasını təmin edir. Kouçluq strategiyaları vasitəsilə məktəb rəhbərləri yalnız əmrlərlə idarə etmə əvəzinə müəllim və şagirdlərin ehtiyaclarını başa düşməyə, onların inkişafına dəstək göstərməyə çalışır. Beləliklə, kouçluq yanaşması məktəblərdə idarəetmə prosesini daha humanist, qarşılıqlı anlaşmaya dayanan bir sistemə çevirir. Bu, həm də müəllimlərin iş mühitindən məmnunluğunu artırır, onları davamlı inkişaf yolunda irəliləməyə həvəsləndirir.

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi təhsil müəssisələrinin daha effektiv idarə olunmasına, müəllim və şagirdlərin potensialını tam şəkildə üzə çıxarmağa yönəlmiş müasir bir yanaşmadır. Bu strategiyaların əsas məqsədi məktəb icmasında pozitiv və dəstəkləyici bir mədəniyyət formalaşdırmaq, problemləri kollektiv şəkildə həll etmək və hər bir fərdin inkişafına dəstək olmaqdır.

Ənənəvi liderlik modellərində rəhbərlər daha çox əmrlərlə və nəzarətlə idarəetmə yanaşmasını seçirdilər. Lakin kouçluq liderliyində rəhbərlər müəllim və işçiləri motivasiya etməyə, onların fərdi hədəflərinə çatmalarına dəstək olmağa yönəlirlər. Belə yanaşma:

- İdarəçiləri strateji qərarvermə prosesində daha çevik edir.
- Müəllim və heyətin özünəinamını artırır.
- Rəhbərlərin problemləri səmərəli həll etməsinə imkan verir (1)

Məsələn, kouçluq vasitəsilə idarəçi, müəllimlərin peşəkar inkişafı üçün fərdi planlar hazırlaya və onları bu planların icrasında motivasiya edə bilər.

Kouçluq müəllimlərin iş fəaliyyətini daha məhsuldar etmək üçün istifadə olunan vacib bir vasitədir. Bu yanaşma müəllimlərə:

– Öz güclü və zəif tərəflərini müəyyən etməyə kömək edir.

– Yeni tədris metodlarının öyrənilməsi və tətbiqində dəstək verir.

– Stress və iş yükləməsini azaldaraq iş mühitini daha sağlam edir (1)

Məsələn, kouçluq görüşləri vasitəsilə bir müəllim öz dərs metodikasında hansı dəyişiklikləri etməli olduğunu daha asan müəyyənləşdirə bilər.

Kouçluq strategiyaları məktəbdə komanda işini inkişaf etdirmək üçün unikal imkanlar təqdim edir. Bu, məktəbin ümumi idarəetməsini daha harmonik edir və əməkdaşların bir-birinə dəstək olmasını təmin edir. Komanda əməkdaşlığı:

– Müəllimlər arasında təcrübə mübadiləsini artırır.

– Müəllimlər və rəhbərlər arasında daha açıq kommunikasiya yaradır.

– Məktəbdə problemlərin kollektiv şəkildə həllini asanlaşdırır.

Bir çox məktəbdə kouçluq təlimləri vasitəsilə müəllimlər, iş birliyinə əsaslanan dərs planlaması və sinifdaxili fəaliyyəti daha effektiv həyata keçirirlər.

Kouçluq şagirdlərin fərdi inkişafını dəstəkləmək üçün də geniş imkanlar yaradır. Şagird mərkəzli kouçluq yanaşması ilə:

–Onların maraqları və bacarıqları aşkarlanır.

–Özünəinam və motivasiya səviyyəsi artır

–Şagirdlərin öyrənmə prosesində daha fəal iştirak etməsi təmin edilir.

Məsələn, kouçluq prosesində müəllimlər hər bir şagirdə fərdi yanaşma tətbiq edərək onların xüsusi maraqlarına və istedadlarına uyğun tədris metodları seçirlər.

Effektiv tətbiq üçün təhsildə kouçluq yanaşmalarına investisiya qoyulmalı və bu sahədə təlimlər daha geniş şəkildə həyata keçirilməlidir (2).

Məktəblərin idarə olunmasında kouçluq strategiyalarının tətbiqi liderlik anlayışını ənənəvi idarəetmə modelindən daha innovativ və iştirakçı bir forma çevirir. Liderliyin gücləndirilməsi kouçluq yanaşmasının əsas hədəflərindən biridir və məktəb rəhbərlərinin təkcə inzibati qərarlar qəbul edən şəxs olmaqdan daha çox əməkdaşlıq edən, dəstəkləyən və istiqamət verən bir rola keçməsini təmin edir. Kouçluq vasitəsilə gücləndirilmiş liderlik, məktəblərin yalnız idarəetmə məsələlərini həll etməsinə deyil, həm də yüksək keyfiyyətli təhsil mühitinin formalaşdırılmasına imkan yaradır (3)

Müəllimlərin peşəkar inkişafı təhsil sisteminin keyfiyyətinin artırılmasında və məktəblərin davamlı müvəffəqiyyət əldə etməsində mühüm rol oynayır. Kouçluq strategiyalarının bu sahəyə tətbiqi müəllimlərin bilik və bacarıqlarının genişləndirilməsi, motivasiyalarının artırılması və onların professional hədəflərinə çatması üçün effektiv vasitədir. Müəllimlərin peşəkar inkişafı yalnız onların bilik və bacarıqlarının artırılması ilə məhdudlaşmır.

Motivasiya və əməkdaşlıq mühitinin qurulması həm müəllimlərin, həm şagirdlərin, həm də idarəetmə heyətinin daha məhsuldar və harmonik şəkildə fəaliyyət göstərməsi üçün əsas şərtlərdəndir. Kouçluq strategiyaları bu mühiti yaratmaq və davamlı saxlamaq üçün təsirli bir vasitədir. Şagirdlərin hər birinin müxtəlif maraqları, qabiliyyətləri və öyrənmə tərzləri vardır, buna görə də onların potensialını tam şəkildə aşkar etmək məktəb rəhbərliyinin və müəllimlərin diqqət mərkəzində olmalıdır (4).

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi təhsil sahəsində ciddi və təsirli dəyişikliklərə səbəb ola biləcək bir yanaşmadır. Bununla belə, bu yanaşmanın tətbiqində bir sıra çətinliklərlə qarşılaşmaq mümkündür. Bu çətinliklər həm metodoloji, həm də təşkilati aspektlərdə ortaya çıxa bilər. Lakin bu çətinliklərə qarşı həll yolları da mövcuddur ki, onlar kouçluq strategiyalarının məktəb idarəçiliyində daha effektiv şəkildə həyata keçirilməsinə imkan yaradır (5).

Birinci növbədə, kouçluq strategiyalarının tətbiqində ən böyük çətinliklərdən biri məktəb idarəetmə strukturlarının və resurslarının bu yanaşmaya uyğun olmamasıdır. Bəzi məktəblərdə kouçluq metodlarının tətbiqinə qarşı mənfi münasibət və ya müqavimət müşahidə edilə bilər, xüsusən də ənənəvi tədris və idarəetmə yanaşmalarına alışmış müdirlər və müəllimlər tərəfindən.

Bu çətinliyi aşmaq üçün məktəb rəhbərləri və müəllimlərə kouçluğun faydaları barədə ətraflı məlumat verilməli, müvafiq təlimlər təşkil edilməlidir. Kouçluğun effektivliyini göstərən nümunələr, uğurlu tətbiq təcrübələri və araşdırmalar təqdim edilməlidir. Bundan əlavə, məktəbin rəhbərliyi kouçluq prosesinə güclü dəstək göstərməli və kouçluq metodlarının tətbiqi üçün lazım olan resursları təmin etməlidir. İdarəetmə komandası-

nın kouçluq metodlarına inamı artırılarsa, bu, daha geniş tətbiq sahəsinə yol açacaqdır.

Məktəb rəhbərləri və müəllimlərdə xüsusi kouçluq bacarıqları olmalıdır. Lakin çox vaxt bu sahədə təcrübə və bilik çatışmazlığı müşahidə edilir. Müəllimlər və idarəçilər kouçluq metodlarını tətbiq etməkdə çətinlik çəkə bilər, çünki bu metodlar ənənəvi tədris üsullarından fərqli yanaşmalar tələb edir.

Bu çətinliyin aradan qaldırılması üçün kouçluq təlimləri və seminarları təşkil edilməlidir. Müəllimlərə və idarəçilərə kouçluq bacarıqlarını inkişaf etdirmək üçün xüsusi təlimlər verilməli, həmçinin bu sahədə ixtisaslaşmış peşəkarlardan məsləhət alınması tövsiyə edilməlidir. Kouçluq təlimləri yalnız nəzəri məlumat verməklə kifayətlənməməli, praktiki tətbiq bacarıqlarının da inkişaf etdirilməsinə yönəlməlidir.

Digər bir çətinlik müəllimlərin və məktəb idarəçilərinin kouçluq yanaşmalarına qarşı olan motivasiya çatışmazlığıdır. Əgər müəllimlər və idarəçilər kouçluq metodlarının tətbiqinin əhəmiyyətinə və faydalarına inanmasalar bu yanaşmanın təsirli tətbiqi çətinləşir.

Bu çətinliyin həlli üçün kouçluq yanaşmasının faydalarını və tətbiqinin praktiki nəticələrini göstərəcək motivasiyaedici tədbirlər təşkil edilməlidir. Misal üçün, kouçluq metodları tətbiq edilən məktəblərdə müsbət dəyişiklikləri göstərən real həyat nümunələri və uğurlu təcrübələr təqdim edilməlidir. Bundan əlavə, kouçluğun tətbiqi ilə bağlı əldə edilən müsbət nəticələrin müvafiq şəkildə qeyd edilməsi və müəllimlərə təşəkkür edilməsi motivasiyanı artıracaqdır.

Məktəblərdə fərqli mədəniyyətlərə və sosial qruplara aid olan şagirdlərin olması kouçluq yanaşmasının tətbiqində əlavə çətinliklər yarada bilər. Müxtəlif şagird qruplarının ehtiyacları və öyrənmə tərzləri fərqli ola bilər, bu da kouçluq strategiyalarının daha uyğun şəkildə tətbiq edilməsini tələb edir.

Bu çətinliyi aşmaq üçün kouçluq yanaşmaları şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq tətbiq edilməlidir. Müəllimlər və idarəçilər şagirdlərin mədəniyyətini və sosial vəziyyətini anlayaraq fərdi yanaşmalar tətbiq etməlidirlər. Bu məqsədlə fərdi inkişaf planları hazırlanmalı, müxtəlif ehtiyaclara uyğun strateji tədbirlər müəyyən edilməlidir. Kouçluq metodlarının şagirdlərin ehtiyaclarına uyğunlaşdırılması, onların inkişafına müsbət təsir edəcəkdir (6).

Zaman və resursların mövcudluğu da mühüm çətinliklərdən biridir. Müəllimlər və idarəçilər zaman baxımından çox məşğul olduqları üçün kouçluq fəaliyyətlərini həyata keçirmək üçün kifayət qədər vaxt ayıra bilməyəcəklərini hiss edə bilərlər. Bundan əlavə, kouçluq metodları üçün lazım olan materiallar, təlimatlar və texniki dəstək bəzən mövcud olmaya bilər.

Zaman və resurs çatışmazlığını aradan qaldırmaq üçün məktəb rəhbərliyi, kouçluq fəaliyyətlərini icra etmək üçün təqvim planları hazırlamalıdır. Bu planlarda kouçluq fəaliyyətləri üçün müvafiq vaxt ayırılmalı və resursların optimal istifadəsi təmin edilməlidir. Eləcə də, məktəb rəhbərliyi kouçluq metodlarını tətbiq etmək üçün lazım olan texniki dəstəyi və materialları təmin etməlidir. Mümkünsə məktəb büdcəsindən bu məqsədlər üçün xüsusi vəsait ayrılmalıdır (7).

Məktəb rəhbərliyi, müəllimlər və digər təhsil işçiləri, kouçluq metodlarının faydalarını anladıqca və onları düzgün şəkildə tətbiq etdikcə, təhsil mühitindəki ümumi inkişaf sürətlənəcək və şagirdlərin, müəllimlərin və məktəb idarəçilərinin potensialı tam şəkildə ortaya çıxacaqdır.

Nəticə / Conclusion

Kouçluq məktəb rəhbərləri, müəllimlər və şagirdlər arasında qarşılıqlı hörmətə əsaslanan əlaqələr qurulmasına kömək edir, həmçinin müsbət dəyişikliklərə və inkişaflara şərait yaradır. Bu strategiyalar xüsusən də liderliyin gücləndirilməsi, müəllimlərin peşəkar inkişafı, motivasiya və əməkdaşlıq mühitinin qurulması, şagird potensialının aşkar edilməsi və müasir tədris metodlarının tətbiqi sahələrində böyük əhəmiyyət kəsb edir.

Lakin kouçluq yanaşmalarının tətbiqi müəyyən çətinliklərlə müşayiət olunur. Təşkilati, metodoloji və motivasiya problemləri kouçluğun tətbiqinin qarşısında duran əsas maneələrdir. Bu çətinliklərin aşılması üçün məktəb rəhbərliyi və müəllimlərə kouçluq strategiyalarının faydalarını və tətbiq üsullarını izah edən təlimlər, seminarlar və müvafiq dəstək proqramları təşkil edilməlidir. Bu yanaşmaların effektiv tətbiqi nəticəsində məktəblərdə daha güclü liderlik, daha yüksək motivasiya və əməkdaşlıq mühiti yaradılacaq, şagirdlərin potensialı daha yaxşı ortaya qoyulacaqdır.

Kouçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqi məktəbin idarə edilməsindəki bü-

tün iştirakçıların potensialını ortaya çıxarmaq və təhsil mühitini inkişaf etdirmək üçün mühüm bir vasitədir. Bu yanaşma məktəb rəhbərlərinin, müəllimlərin və şagirdlərin fərdi və kollektiv inkişafına yönəlmiş bir yanaşma təmin edərək təhsil sisteminin daha müasir və effektiv şəkildə fəaliyyət göstərməsini mümkün edir.

Problemin aktuallığı. Məktəblərin idarə olunmasında koçluq strategiyalarının tətbiqi son dövrlərdə təhsil sisteminin inkişafı və yeniliklərə adaptasiyası baxımından son dərəcə aktual bir mövzuya çevrilmişdir. Təhsil sahəsində dəyişən tələblər və müasir yanaşmalar ənənəvi idarəetmə üsullarının kifayət etməməsinə və daha yenilikçi metodların tətbiqinə ehtiyac duyulmasına səbəb olmuşdur. Məktəb idarəçiliyində koçluq strategiyalarının əhəmiyyəti, xüsusən də müasir təhsildə dəyişən yanaşmalar və tədris tələbləri ilə uyğunlaşdırılmağa çalışıldıqda daha da aktuallaşır. Bu səbəbdən, bu mövzu həm nəzəri, həm də praktik baxımdan təhsil sisteminin inkişafına əhəmiyyətli dərəcədə töhfə verə bilər.

Problemin elmi yeniliyi. Bu məqalənin elmi yeniliyi koçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqinin təhsil sahəsindəki mövcud yanaşmalardan fərqli bir perspektiv təqdim etməsində və bu yanaşmanın məktəb rəhbərliyi, müəllimlər və şagirdlər arasında daha effektiv və məhsuldar əlaqələrin qurulmasında potensialını ortaya qoymasındadır. Məqalədə koçluğun yalnız rəhbərlik və idarəetmə proseslərinə deyil, həm də təhsil prosesinin hər bir iştirakçısının inkişafına xidmət etdiyi göstərilib. Bu yanaşmanın məktəbdəki bütün iştirakçılara, xüsusən müəllimlərə və şagirdlərə motivasiya, əməkdaşlıq və şəxsi inkişaf baxımından böyük fayda təmin edəcəyi vurğulanıb. Elmi yenilik həm də bu metodların tətbiqinə dair geniş bir nəzəri çərçivənin və praktiki tövsiyələrin təqdim edilməsindədir.

Problemin praktik əhəmiyyəti. Bu məqalənin praktik əhəmiyyəti koçluq strategiyalarının məktəb idarəçiliyində tətbiqinin təhsil sistemindəki idarəetmə və tədris proseslərinin keyfiyyətini artırmasına yönəlmişdir. Məktəb rəhbərləri və müəllimlər koçluq yanaşmalarını tətbiq etməklə, həm özlərini, həm də şagirdləri inkişaf etdirə bilərlər. Koçluq strategiyalarının məktəblərdə tətbiqi nəticəsində məktəblərdə daha güclü komanda işləri, daha yaxşı liderlik və idarəetmə bacarıqları, həmçinin şagirdlərin fərdi inkişafına daha çox diqqət ayrılacaq. Bu yanaşma təhsil müəssisələrinin müasir tələblərə cavab verməsini təmin edir və təhsilin ümumi keyfiyyətinin artırılmasına kömək edir.

Ədəbiyyat:

1. Kraft, M. A., Blazar, D., & Hogan, D. The effect of teacher coaching on instruction and achievement: A meta-analysis of the causal evidence. Review of Educational Research, – 2018, 88(4), – p.547-588.
2. Сорокопуд, Ю.В., Уварова, Н.Н. Педагогический коучинг как эффективное средство сопровождения одарённых студентов // Практики развития: новые отношения в образовании, их реализация и возможности управления: Материалы XXII научно-практической конференции. – Красноярск: Автономная некоммерческая образовательная организация «Институт психологии практик развития», – 2016, № 9, – с. 173-178.
3. Моисеев, А. М. Теория стратегического управления школой: ключевые вопросы и подходы к их решению: монография: в 2 т. / А. М. Моисеев; под ред. О. М. Моисеевой. – М.: АСОУ, – Т. 1. – 2015, – 260 с.
4. Зеленко, Н.В., Ковалева, Ю.Ю. Коучинг как инновационная технология управления индивидуально-личностным развитием обучающихся // Технолого-экономическое образование. – 2018, – № 9. – с. 23-27.
5. Кулемина, Е.В. Коучинг – эффективная технология психолого-педагогического сопровождения учащихся // Психология учебной и профессиональной деятельности. – Новосибирск: Общество с ограниченной ответственностью «Академиздат», – 2018, № 9 – с. 34-38.
6. Кострова, Ю. Б., Шибаршина, О. Ю., Коучинг как инновационная образовательная технология. Образовательные ресурсы и технологии. – 2019, № 2 (27), с.27-32.
7. Jones, G. How to Create a Coaching Culture / Gillian Jones, Ro Gorell. – London: Kogan Page, 2014, – 267 p

Redaksiyaya daxil olub: 10.02.2025.

UOT 372.854

Cümali Kərim oğlu Qəniyev
Azərbaycan Texniki Universitetinin
Mühəndis fizikası və elektronika kafedrasının dosenti,
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-5012-8350
E-mail: qaniyev.cumali@aztu.edu.az

Ramil Rəşadət oğlu İbrahimov
Azərbaycan Texniki Universiteti
https://orcid.org/0009-0000-5012-8350
E-mail: ibrahimovramil3003@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).131-134

80% N. BUTİL SPİRTLİ+20% İZOBUTİL SPİRTİNDƏN İBARƏT BİNAR QARIŞIĞIN İSTİDƏN GENİŞLƏNMƏ ƏMSALININ GENİŞ TEMPERATUR VƏ TƏZYİQ İNTERVALINDA HESABLANMASI

Джумали Керим оглы Ганиев
доцент кафедры Инженерной физики и электроники
Азербайджанского Технического Университета,
доктор философии по технике,

Рамиль Рашадат оглы Ибрагимов
Азербайджанский Технический Университет

ВЫЧИСЛЕНИЕ КОЭФФИЦИЕНТА ТЕПЛОВОГО РАСШИРЕНИЯ БИНАРНОЙ СМЕСИ, СОСТОЯЩЕЙ ИЗ 80% N. БУТИЛОВОГО СПИРТА + 20% ИЗОБУТИЛОВОГО СПИРТА В ШИРОКОМ ДИАПАЗОНЕ ТЕМПЕРАТУР И ДАВЛЕНИЙ

Jumali Karim Ganiyev
associate professor of the department of Engineering physics
and electronics at Azerbaijan Technical University,
doctor of philosophy in technique

Ramil Rashadat Ibrahimov
Azerbaijan Technical University

CALKULATION IN THE WIDE INTERVAL OF TEMPERATURES AND PRESSUR OF THERMAL EXPENSION FAKTOR AT VARIOUS CONCENTRATION OF BINARY MIX N-AND IZOALKAQOL OILS

Xülasə. N-İZ0 BUTİL spirtlərinin binar qarışıqları üçün yazılmış ümumiləşmiş hal tənliyindən istifadə edərək götürülmüş qarışıqların istidən genişlənmə əmsalı geniş temperatur və təzyiq intervalında hesablanmışdır.
Açar sözlər: *N.BUTİL spirti, İZO BUTİL spirti, istidən genişlənmə əmsalı*

Аннотация. В интервале температур 300-500К и давлений 0,1-100МПа, при различных концентрациях вычислен коэффициент теплового расширения бинарной смеси Н-и изо бутилового спирта. Максимальная погрешность составляет 0,2%.
Ключевые слова: *N- İZOBUTİLOVIY spirt, коэффициент теплового расширения*

Abstract. In an interval of temperatures 300-500K and pressures 0,1-100 MPa, at various concentration the thermal expansion factor of binary mix N-and izoalkaqol oils is calculated. The maximal error makes 0,2%.
Keywords: *N-AND İZOALKOQOLolis, coefficıent of thermal expansıon.*

Biz əvvəlki işlərimizdə N.butil spirtinin və izobutil spirtinin həm özlərinin həm də onların binar qarışıqlarının (N.butil spirti 80% -izobutil spirti 20% və butil spirti 88% və izobutil spirti 12%) geniş temperatur və təzyiq intervalında hidrostatik çəkmə üsulu ilə sıxlıqlarını təyin etmişik [2]. Alınmış təcrübi qiymətlərindən istifadə edərək xüsusi proqram əsasında kompüterin köməyi ilə, götürülmüş binar qarışıq üçün hal tənliyi yazılmışdır [1-3]. Biz hal tənliyindən istifadə edərək ,istidən genişlənmə əmsalının qiymətini geniş temperatur və təzyiq intervalında hesablaya bilərik. Adı yuxarıda göstərilən binar sistemin hal tənliyi

$$P = A(T) \cdot \rho^2 + B(T) \cdot \rho^8 \quad (1)$$

şəklində yazılmışdır. Burada: P – təzyiq (MPa), ρ -sıxlıq (q/sm^3), A(T) vpə B(T) isə temperaturdan asılı olan əmsaldır. Hardakı;

$$A(T) = \sum_{i=1}^{n} a_i \left(\frac{T}{100}\right)^i; B(T) = \sum_{i=1}^{n} bi \left(\frac{T}{100}\right)^i \quad (2)$$

Burada: a_i və b_i hər bir sıxlığı təyin edilən maye üçün müəyyən sabit kəmiyyətdir. N.Butil spirti və izobutil spirti üçüna_i və bi –nin qiyməti cədvəl 1-də verilmişdir.

Maddə

Cədvəl 1.

Əmsallar	**Maddə**			
	N.butil spirti	**İzobutil spirti**	**88% N.butil spirti+12% izobutil spirti**	**80%N.butil spirti 20% izobutil spirti**
a_0	-5,32903·10^2	-2,23071·10^2	-5,05872·10^2	-4,88686·10^2
a_1	3,54195· 15^1	-2,01723·10^0	1,28149·10^{-1}	2,81586·10^{-2}
a_2	2,27031·10^{-3}	8,45195·10^{-3}	2,92324·10^{-3}	3,10224·10^{-3}
a_3	-2,05500·10^{-6}	7,31700·10^{-6}	-2,68800·10^{-6}	-2,77300·10^{-6}
b_0	9,46486·10^2	-2,09018·10^3	5,63174·10^2	6,33536·10^2
b_1	-6,54319·15^{-1}	2,36369·10^1	2,51072·10^0	1,81350·10^0
b_2	2,67573·15^3	-6,07991·10^2	-5,98283·10^{-3}	-3,70353·10^{-3}
b_3	1,53000·10^{-6}	5,56380·10^{-5}	9,22000·10^{-6}	6,92900·10^{-6}

N.butil spirti və izobutil spirtindən ibarət sistemin istidən genişlənmə əmsalını müxtəlif konsentrasiyalarda hesablamaq üçün ümumiləşmiş hal tənliyindən –

$$P = \left[\sum_{i=0}^{2} K_i T_n^i \sum_{i=0}^{3} C_i \left(\frac{T}{T_n}\right)^i\right] \cdot \rho^2 + \left[\sum_{i=0}^{2} l_i T_A^i \sum_{i=0}^{3} d_i \left(\frac{T}{T_n}\right)^i\right] \cdot \rho^8 \quad (3)$$

istifadə edilir. Burada: T_n- sistemin, T_{n1} və T_{n2} isə uyğun olaraq birinci və ikinci komponentin normal qaynama temperaturlarıdır və belə təyin edilir:

$$T_n = T_m(1 - X) + T_{n2} \cdot X \quad (4)$$

Burada: X – ikinci komponentin nisbi kütləsinin miqdarıdır. K_i, C_i, l_i, d_i -isə N.butil və izobutil spirtindən ibarət binar qarışıqların sabitləridir və qiymətlər cədvəl 2 və cədvəl 3 –də verilmişdir.

(3) tənliyində ki C_i və d_i –nin əmsallarının qiyməti belədir:

Cədvəl 2

Əmsallar	**Binar sistemi**
	N.butil və izobutil spirti
C_0	2,137994
C_1	2,068325
C_2	-4,880447
C_3	-1,672741
d_0	0,204164
d_1	1,607606
d_2	-1,479198
d_3	0,660373

(3) tənliyində K_i və l_i əmsallarının qiyməti belədir:

Cədvəl 3

Əmsallar	**Sistem**
	N.butil və izobutil spirti
K_0	$-3{,}44772\cdot10^{2}$
K_1	$4{,}54174\cdot10^{-1}$
K_2	$-3{,}02800\cdot10^{-5}$
l_0	$2{,}52021\cdot10^{3}$
l_1	$-8{,}83654\cdot10^{0}$
l_2	$1{,}38940\cdot10^{-2}$

Öyrənilən binar sistemin izotermik genişlənmə əmsalı üçün (1) tənliyindən istifadə edilir. Termodinamikanın bizə məlum olan

$\alpha_P = \frac{1}{\rho}(\partial P/\partial T)_P$ (5)

düsturunda (1) və (3) düsturlarını nəzərə alsaq, onda

$\alpha_P = -\frac{A'(T)+B'(T)\cdot\rho^6}{2A(T)+8B(T)\cdot\rho^6}$ (6) olar.

Cədvəl 4

P,Mpa / T,K	**0,1**	**5**	**10**	**20**	**30**	**40**	**50**	**60**	**70**	**80**	**90**	**100**
300	0,9066	0,8815	0,8579	0,8163	0,7806	0,7496	0,7222	0,6979	0,6763	0,6557	0,638	0,623
320	0,9874	0,9559	0,9628	0,8759	0,8329	0,7960	0,7634	0,7858	0,7107	0,6883	0,668	0,469
340	1,0831	1,043	1,0065	0,9438	0,8918	0,8479	0,8182	0,7733	0,7484	0,7228	0,700	0,679
360		1,1444	1,0979	1,0199	0,9566	0,9042	0,8597	0,8216	0,7884	0,7591	0,733	0,710
380		1,2623	1,2023	1,1041	1,0267	0,9639	0,9116	0,8673	0,8299	0,6960	0,765	0,701
400		1,4044	1,3213	1,1961	1,1069	0,0256	0,9642	0,9129	0,8695	0,8319	0,799	0,771
420		1,5625	1,4564	1,2953	1,1777	0,0874	1,0155	0,9565	0,9072	0,8653	0,829	0,797
440		1,7501	1,6101	1,3999	1,2545	1,1466	1,0629	0,9957	0,9404	0,8939	0,854	0,82
460		1,9995	1,7844	1,5080	1,3277	1,1998	1,1035	1,0278	0,9664	0,9156	0,873	0,84
480		2,2829	1,9807	1,6129	1,3922	1,2126	1,1333	1,0494	0,9826	0,9280	0,882	0,843
500		2,6519	2,1970	1,7081	1,4411	1,2694	1,1481	1,0573	0,9862	0,9289	0,882	0,842

Cədvəl 5

P,MPa / T,K	**0,1**	**5**	**10**	**20**	**30**	**40**	**50**	**60**	**70**	**80**	**90**	**100**
300	1,0116	0,9825	0,9553	0,9073	0,8663	0,8306	0,7993	0,7716	0,7468	0,7244	0,7042	0,6858
320	1,1126	1,0753	1,0409	0,9812	0,9310	0,8881	0,8509	0,8182	0,7893	0,7635	0,7403	0,7192
340	1,2330	1,1843	1,1402	1,0650	1,0032	0,9513	0,9070	0,8686	0,8349	0,8051	0,7786	0,7547
360		1,3123	1,2546	1,1588	1,0822	1,0192	0,9663	0,9212	0,8821	0,8479	0,8176	0,7906
380		1,4631	1,3861	1,2624	1,1667	1,0901	1,0271	0,9742	0,9291	0,8900	0,8557	0,8254
400		1,6427	1,5374	1,3752	1,2551	1,1619	1,0870	1,0254	0,9735	0,9292	0,8908	0,8572
420		1,8595	1,7115	1,4958	1,3445	1,2314	1,1430	1,0718	1,0128	0,9632	0,9206	0,8837
440		2,1268	1,9119	1,6212	1,4307	1,2943	1,1911	1,1098	1,0438	0,9889	0,9425	0,9026
460		2,4648	2,1413	1,7455	1,5071	1,3450	1,2265	1,1354	1,0628	1,0034	0,9538	0,9116
480		2,9043	2,3985	1,8583	1,5647	1,3763	1,2434	1,1439	1,0662	1,0036	0,9518	0,9082
500		3,4895	2,6717	1,9429	1,5920	1,3800	1,2361	1,1310	1,0505	0,9865	0,9343	0,8907

(5) –düsturunun köməyi ilə α_P –nin geniş temperatur və təzyiq intervalında və müxtəlif konsentrasiyalarda qiymətlərini hesablamaq olar. Bu qiymətlər cədvəl 4 –də verilmişdir.

Cədvəl 6

P,MPa / T,K	**0,1**	**5**	**10**	**20**	**30**	**40**	**50**	**60**	**70**	**80**	**90**	**100**
300	0,9501	0,9255	0,9001	0,8545	0,8011	0,7831	0,7539	0,7280	0,7049	0,6840	0,6608	0,643
320	1,0414	0,0072	0,9753	0,9208	0,9140	0,838348	0,8003	0,7701	0,7432	0,7188	0,6984	0,6720
340	1,1431	0,1047	1,0645	0,9902	1,0001	0,8921	0,8163	0,8141	0,7833	0,7581	0,7325	0,7040
360		1,21176	1,2171	1,0802	1,0772	0,9471	0,9060	0,8641	0,8273	0,7963	0,7647	0,6910
380		1,3311	1,2835	1,1738	1,1617	1,0192	0,9618	0,9136	0,8722	0,8378	0,8461	0,7764
400		1,3084	1,4172	1,2743	1,1743	1,0847	1,0176	0,9651	0,9147	0,8740	0,8374	0,8072
420		1,6955	1,5702	1,3850	1,3396	1,1506	1,0721	1,0076	0,9386	0,9070	0,8674	0.7621
440		1,9204	1,7451	1,5001	1,4243	1,2136	1,1204	1,0476	0,9768	0,9343	0,8828	0,8553
460		2,2002	1,9444	1,6151	1,4001	1,2671	1,1587	1,0767	1,0100	0,9544	0,8670	0,624
480		2,5490	2,1670	1,7266	1,4725	1,3047	1,1851	1,0923	1,0204	0,9619	0,91832	0,8232
500		3,0132	2,4136	1,8197	1,8197	1,3254	1,1899	1,0912	1,0151	0,9549	0,9049	0,8637

Normal butil spirtinin istidən genişlənmə əmsalı ($\alpha \cdot 10^3, K^{-1}$)

İzobutil spirtinin istidən genişlənmə əmsalı ($\alpha \cdot 10^3, K^{-1}$)

80% N.butil spirti + 20% izobutil spirtinin istidən genişlənmə əmsalı ($\alpha \cdot 10^3, K^{-1}$)

Problemin aktuallığı. Ümimiləşdirilmiş hal tənliyi yazılmışdır.

Problemin yeniliyi. Heç bir təcrübə aparmadan istidən genişlənmə əmsalı 0.2% dəqiqliklə geniş hal parametrləri üçün hesablanmışdır

Problemin praktik əhəmiyyəti. Vaxta və enerjiyə qənaət etmək.

Ədəbiyyat:

1. N.butil spirti və izobutil spirtindən ibarət binar qarışığın geniş hal parametrləri intervalında P,v,T asılılığının tədqiqi.
2. Qəniyev C.K., Rəhimov R.S. " β –sianpropion aldehidin istidən genişlənmə və izotermik sıxılma əmsallarının geniş temperatur və təzyiq intervalında hesablanması." AzTU –nun elmi əsərləri № 4, Bakı - 2010, -s. 46-50.
3. Qəniyev C.K., Tağıyev S.İ. N.butil və izobutil spirtindən ibarət binar qarışığın geniş temperatur və təzyiq intervalında daxili təzyiqinin (P_i) hesablanması. AzTU-nun Elmi əsərləri, -Bakı, 2013, № 4, -s.24-25.
4. Qəniyev C.K., Tağıyev S.İ. "75% -N.yağ və 25% izoyağ aldehidindən ibarət binar qarışığın izotermik sıxlığının geniş temperatur və təzyiq intervalında hesablanması. AzTU –nun Elmi əsərləri -Bakı, 2014, № 2, -s.72-76.
5. İ. Rüstəmov. Verilənlərin təhlili və proqram təminatı. -Bakı, 2015.
6. E. Sultanov. Kompüter texnologiyaları və proqramlaşma. -Bakı, 2016. -s.256.

Redaksiyaya daxil olub: 10.02.2025.

UOT 372.854

Gülnarə Nizami qızı İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
kimya üzrə fəlsəfə doktoru
https: //orcid.org/0009-0001-6364-2313
E-mail: gulnara.ismayilova@yandex.ru
https://doi.org/10.69682/arti.2025.92(1).135-138

KİMYA FƏNNİNİN TƏDRİSİNDƏ EKOLOJİ BİLİKLƏRİN ÖYRƏNİLMƏSİNDƏ KİMYA EKSPERİMENTİNİN ROLU

Гюльнара Низами гызы Исмаилова
доктор философии по химии
Азербайджанский Государственный Педагогический Университет

РОЛЬ ХИМИЧЕСКОГО ЭКСПЕРИМЕНТА В УСВОЕНИИ ЭКОЛОГИЧЕСКИХ ЗНАНИЙ ПРИ ПРЕПОДАВАНИИ ХИМИИ

Gulnara Nizami Ismayilova
doctor of philosophy in cemistry
Azerbaijan State Pedagogical University

THE ROLE OF CHEMICAL EXPERIMENT IN LEARNING ECOLOGICAL KNOWLEDGE IN CHEMISTRY TEACHING

Xülasə. Ekoloji təhsilə ehtiyacın yaranmasının başlıca səbəblərindən biri insanların yaşadıqları mühitin əlverişli olmasıdır. Ətraf mühitin keyfiyyəti və ekoloji cəhətdən yararlı olması insanların hüquqlarını və sivilizasiyanın inkişafında əsas məqsədi müəyyənləşdirir. Məqalədə kimya fənnin tədrisində şagirdlərdə ekoloji bilikləri formalaşdırmaq və ekoloji aspektdə yeni biliklər əldə etmək üçün bir sıra məlumatlar verilir. Kimya eksperimentindən istifadə etməklə yeni bilik əldə olunmasının yolları göstərilir. Bu da onlarda fənnə olan marağın daha da artmasına imkan yaratmış olur.
Açar sözlər: *kimya eksperimenti, batareya tullantıları, torpaq, ekoloji böhran, ekosistem, monitorinq*

Аннотация. Одной из главных причин необходимости экологического образования является благоприятная среда, в которой живут люди. Качество и экологическая пригодность окружающей среды определяют права людей и главную цель развития цивилизации. В статье приведены некоторые сведения по формированию экологических знаний у учащихся при обучении химии и приобретению новых знаний в экологическом аспекте. Показаны способы приобретения новых знаний с помощью химического эксперимента. Это позволяет еще больше повысить интерес к предмету.
Ключевые слова: *химический эксперимент, отходы батарей, почва, экологический кризис, экосистема, мониторинг*

Abstract. One of the main reasons for the need for environmental education is the favourable environment in which people live. The quality and ecological suitability of the environment determines the rights of people and the main purpose of the development of civilisation. In the article, some information is given for the formation of environmental knowledge in students in chemistry teaching and the acquisition of new knowledge in the environmental dimension. Ways of acquiring new knowledge by using a chemical experiment are shown. This allows the interest in the subject to increase even more.
Key word: *chemical experiment, battery waste, soil, environmental crisis, ecosystem, monitoring.*

Ekoloji mədəniyyətin, həmçinin ekoloji məsuliyyətin formalaşmasına istiqamətlənmiş fasiləsiz təhsil, inkişaf, elmi-dünyagörüşü tərbiyəsi, ekoloji tərbiyə, əmək tərbiyəsi ekoloji təhsil deməkdir.

Mütəxəssislər düşünürlər ki, məsuliyyət - cəmiyyət və şəxsiyyətin qarşılıqlı asılılığı, universal əlaqə formasıdır. Yaxınlarımızın, vətənimizin, ölkəmizin, ümumiyyətlə, bütün planetimizin taleyi üçün məsuliyyətli şəxslər formalaşdırmaq lazımdır. Buna görə də məsuliyyət hissinin tərbiyə olunması ilə şəxsiyyətin formalaşması bir-biri ilə sıx bağlıdır.

Ekoloji məsuliyyət özünə nəzarətlə, özünə və başqalarına qarşı tənqidi yanaşmaqla, öz hərəkətlərinin ətrafa necə təsir etdiyini və bu təsirin nəticələrini görmək qabiliyyətilə bağlıdır. Təbiətə qarşı münasibətdə əxlaqi tələblərə riayət etmək möhkəm etiqadın nə dərəcədə inkişaf etdiyini göstərir.

Təhsil sisteminin ekologiyalaşdırılması və ekoloji təhsil qarşılıqlı əlaqədə olmalarına baxmayaraq, bir-birindən fərqlənirlər.

İki əsas istiqamətə ayrılmış ekoloji təhsilin hər iki istiqaməti bir-birilə qarşılıqlı əlaqədədir, ona görə ki, onların arasında ekoloji qanunauyğunluqları dərk etmək və yanaşmaq prinsipləri dayanır. Bu istiqamətlər aşağıdakılardır :

1) Təbii və antropogen ekosistemlərinin varlığının öyrənilməsi, biotik , abiotik təsirlərin ümumi qanunauyğunluqlarına aid xüsusi peşəkar biliklərin qazanılması

2) Ətraf mühitin və insanların mühafizəsinin ümumi ideyalar və qanunauyğunluqlar əsasında tərbiyə prosesinin təşkil və maarifləndirmə.

Təhsil sisteminin ekologiyalaşdırılması üçün ekoloji yanaşmalar, anlayışlar, prinsiplər və ideyalar başqa təlimlərə nüfuz etməli, eyni zamanda ekoloji biliklərə malik müxtəlif sahə mütəxəssisləri hazırlanmalıdır.

Ekoloji təhsilin aşağıdakı xarakterik xüsusiyyətləri var.

1) Ekologiyanın elmi, həmçinin pedoqoji aspektləri digər fənnlərlə inteqrasiyası eyni zamanda və qarşılıqlı inkişaf edir.

2) Dünya ictimaiyyətinin daha da aktiv və informasiyalaşdırılmış olması, ekoloji təhsildə beynəlxalq əməkdaşlığa təsir etdi və güclənməsinə səbəb oldu. Ölkəmizdə keçirilən COP – 29 tədbiri insanların həyatında yeni ekoloji aspekti formalaşdırdı.

Təhsil sisteminin elmi tədqiqatlara nisbətən bir qədər ləngiyir. Bu gerilik xoşa gəlməyəndir və mümkün olduğu qədər minimuma endirilməlidir. Cəmiyyətin ekoloji cəhətdən düzgün tərbiyə edilməsi olduqca vacib məsələdir. Şagirdlər tədris prosesində ekoloji problemlərlə dərindən tanış edilməlidirlər. Şagirdlərin ekoloji tərbiyəsi elə istiqamətdə aparılmalıdır ki, onlar gələcəkdə vətənə, təbiətə yararlı olsunlar. Bu prosesdə müəllimlərin yaradıcılığı olduqca əhəmiyyətlidir.

Şagirdlərə ekologiya ilə kimyanın əlaqəsini bildirmək üçün aşağıdakılardan istifadə etmək lazımdır:

1. Ekoloji sistemlərdə kimyəvi qarşılıqlı təsirlərin əhəmiyyətini vurğulamaq.

2. Trofik zəncirdə kimyəvi birləşmələrin rolunu və dövranını izah etmək

4. Şagirdləri fənlərarası yanaşma vasitəsilə ekoloji problemlərin həlli yollarını axtarmağa sövq etmək

5. Kimya və ekologiya arasında əlaqəni göstərmək üçün kimya eksperimentlərini reallaşdırmaq

6. Ekoloji sistemlərdə kimyəvi anlayışları nümayiş etdirən praktiki laboratoriya fəaliyyətlərini dərsə daxil etmək.

7. Şagirdlərdən real dünya ekoloji problemlərinin həlli yollarını inkişaf etdirmələrini, tənqidi düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirmək.

Atmosfer çirkləndiriciləri təbii və ya insan mənbələri tərəfindən havaya atılan , ətraf mühitə və insan sağlamlığına zərər verə bilən maddələrdir. Atmosferi çirkləndiricilərə bəzi nümunələr hissəciklər, karbonmonoksid, kükürd dioksid, azot oksidləri, ozon və qurğuşundur. Onlar tənəffüs yolları xəstəlikləri, ürək-damar xəstəlikləri, xərçəng və nevroloji xəstəliklər yaradaraq insan sağlamlığına təsir göstərə bilər. Buna görə də ətraf mühiti və insan sağlamlığını qorumaq üçün atmosferi çirkləndiricilərin səviyyəsini ölçmək və nəzarət etmək vacibdir.

Üzləşdiyimiz bir çox ekoloji problemlər vardır ki, onlarla şagirdləri tanış etmək və bu mövzularda ekoloji dərs – seminarların təşkili prosesi bugünkü prioritet məsələ kimi diqqət mərkəzində olmalıdır.

1. İqlim Dəyişikliyi: İqlim dəyişikliyi Yerin yerli, regional və qlobal iqlimlərini müəyyən etməyə gələn orta hava modellərində uzunmüddətli dəyişiklikdir. Bu, ilk növbədə, atmosferdə istixana qazlarının konsentrasiyasını artıran və istiliyi saxlayan qalıq yanacaqların yandırılması,

meşələrin qırılması və sənaye prosesləri kimi insan fəaliyyəti nəticəsində yaranır.

2. Havanın çirklənməsi: Havanın çirklənməsinə zərərli hissəciklər, azot oksidləri, kükürd dioksid və ozon kimi zərərli maddələrin havaya atılması səbəb olur. Tənəffüs problemləri, ürək-damar xəstəlikləri və hətta vaxtından əvvəl ölümə səbəb ola bilər.

3. Suyun çirklənməsi: Suyun çirklənməsi çaylar, göllər və okeanlar kimi su obyektlərinə zərərli maddələrin axıdılması nəticəsində yaranır. Su həyatına mənfi təsir göstərə bilər və insanlarda sağlamlıq problemlərinə də səbəb ola bilər.

4. Meşələrin qırılması: Meşələrin qırılması, çox vaxt kənd təsərrüfatı və ya inkişaf üçün torpaqların təmizlənməsi məqsədi ilə meşələrin və meşəliklərin daimi olaraq çıxarılmasıdır.

5. Biomüxtəlifliyin itməsi: Biomüxtəlifliyin itməsi müəyyən ərazidə növlərin sayının və müxtəlifliyinin azalmasına aiddir. Bu, yaşayış mühitinin məhv edilməsi, çirklənmə və iqlim dəyişikliyi kimi insan fəaliyyəti nəticəsində yaranır. Biomüxtəlifliyin itirilməsi insan sağlamlığına, ərzaq təhlükəsizliyinə və iqtisadiyyata ciddi təsir göstərir.

6. Plastik çirklənmə: Plastik çirklənmə ətraf mühitdə, o cümlədən okeanda plastik tullantıların yığılması nəticəsində yaranır, burada dəniz canlılarına zərər verir və insan qida zəncirinə daxil ola bilir.

Bu ekoloji problemlər mürəkkəb və bir-biri ilə bağlıdır və onların həlli üçün fərdlərin, bizneslərin və hökumətlərin birgə səylərini tələb edir.

Ekoloji təhsil şagirdləri ətraf mühitin mühafizəsi, davamlılığı və iqlim dəyişikliyi kimi ekoloji problemlər haqqında maarifləndirilməsi və onlara ətraf mühitin mühafizəsi üçün tədbirlər görmək səlahiyyətinin verilməsi prosesidir. Məktəblərdə ekoloji maarifləndirmə çox vacibdir, çünki o, şagirdlərdə ətraf mühitə qarşı məsuliyyət və mühafizəkarlıq hissini, həmçinin ekoloji problemlərin həlli üçün tədbirlər görmək üçün lazım olan bilik və bacarıqları inkişaf etdirməyə kömək edə bilər.

Kimya dərslərində yeni bilik əldə olunması üçün istifadə edilən ən mükəmməl eksperiment növü laboratoriya işlərinin icrasıdır. Laboratoriya işləri fərdi, qrup və kollektiv şəkildə icra oluna bilər. Kimya dərsində ekoloji aspektdə yeni bilik əldə olunması üçün təcrübənin həyata keçirilməsi xüsusi maraq doğurur. Nəzəri biliklər praktika isbat edir və bu da şagirdlərdə fənnə olan marağı daha da yüksəltmiş olur.

İlkin olaraq eksperiment üçün ləvazimatlar toplanır. Şagirdlər bu təcrübəni qrup şəklində icra edirlər. Qruplar kiçik yəni 4 -5 şagirddən ibarət olaraq seçilir. **Eksperiment:** Ətraf mühitə atılan batareya tullantılarının vurduğu zərər.

Məqsəd: Bu təcrübənin məqsədi batareya tullantılarının bitki böyüməsinə təsirini araşdırmaqdır.

Hipotez: Batareya tullantıları batareyalardan süzülə bilən zəhərli kimyəvi maddələr və metallar səbəbindən bitki böyüməsinə mənfi təsir göstərəcək.

Materiallar: Eyni növ və ölçüdə 2 ədəd dibçək; Eyni yerdən götürülmüş torpaq; Çəkic; Əlcək; Qoruyucu eynək; Müxtəlif ölçülü və tipli işlənmiş litium-ion batareyaları (məsələn, telefon, noutbuk, elektrik aləti, saat batareyası); Su; Etiketləmə materialları.

Prosedur: Şagirdlərə verilən tapşırıq:

İlk öncə təcrübə icrası zamanı istifadə edilən təhlükəsizlik texnikası qaydaları ilə tanış olun. Götürdüyünüz hər bir qabın üzərinə etiket yapışdırın və rum rəqəmi ilə işarələyin.. Hər qabı eyni miqdarda eyni tədqiqat sahəsi torpağı ilə doldurun və hər qaba bir bitki əkin. Qabları eyni həcmdə su ilə sulayın və eyni şəraitdə günəşli bir yerə qoyun. I qaba heç bir batareya tullantısını əlavə etməyin. Bu nəzarət qrupudur. II qaba əzilmiş telefon batareyası (saat batareyası) əlavə edin. Batareyaları əzmək üçün çəkicdən istifadə edin və təhlükəsizlik üçün əlcək və qoruyucu eynək taxın.

İlk gündə hər bir çiçəyin ilkin hündürlüyünü və kütləsini qeyd edin. Hər qabı dörd həftə ərzində hər gün eyni miqdarda su ilə sulayın. Dörd həftə ərzində hər həftə hər bir çiçəyin hündürlüyünü və kütləsini ölçün və cədvələ qeyd edin.

Bu məqsədlə iş dəftərinizdə cədvəl tərtib edin. Nəticələri ilk gündən sona qədər qeyd edin. Ayrılıqda hər bir qab üçün müxtəlif zaman intervalında (günləri və tarixləri yazmaqla) hər bir çiçəyin hündürlüyünü və kütləsini göstərmək lazımdır.

Nəticələr:. Hər bir zaman intervalında hər qabdakı çiçək üçün orta hündürlüyü və kütləni hesablayın.

Zamanla hər qab üçün orta hündürlük və kütlənin dəyişməsini göstərmək üçün xətt qrafiki yaradın. Bütün məlumatları cədvəldə qeyd edin.

Məlumatların toplanması və təhlili: Hər iki qabın nəticələrini müqayisə edin və batareya tullantılarının bitki böyüməsinə necə təsir etdiyini izah edin. Nəticələri nəzəriyyə ilə əlaqələndirin və onun əldə edilən məlumat tərəfindən dəstəkləndiyini və ya rədd edildiyini bildirin. Təcrübənin mümkün səhv mənbələrini və məhdudiyyətlərini müzakirə edin və gələcək tədqiqatlar üçün təkmilləşdirmələr təklif edin.

Gözlənilən Nəticələr: Batareya tullantısı qoyulmuş qabda olan bitkilərin adi sadəcə torpaq olan qabdakı bitki ilə müqayisədə böyüməsinin geri qalacağı gözlənilir.

Nəticə: Bu təcrübənin nəticələri batareya tullantılarının bitkilərin böyüməsinə təsiri haqqında dəyərli məlumat verəcəkdir. Nəticələr batareya tullantılarının ətraf mühitə, xüsusən də bitkilərə mənfi təsirlərini azaltmağa yönəlmiş siyasət qərarlarını məlumatlandırmaq üçün istifadə edilə bilər. Bunu nümayiş etdirmək üçün iki eyni bitkinin ayrı qablara yerləşdirildiyi bir təcrübə qura bilərsiniz.

Təcrübənin sonunda batareya tullantısı qoyulmuş qabda olan bitkinin adi torpaqda olan bitki ilə müqayisədə daha kiçik, zəif və yarpaqlarının rəngini itirdiyini müşahidə edə bilməlidirlər. Bu təcrübə şagirdlərə ətraf mühitin çirklənməsinin canlı orqanizmlərə təsirini və ekoloji problemləri öyrənmək üçün kimyadan necə istifadə olunacağını anlamağa kömək edə bilər.

Problemin aktuallığı. Ümumtəhsil məktəblərində kimya dərslərində şagirdlərə ekologiya fənni ilə inteqrasiya məsələləri və kimya eksperimenti vasitəsilə biliklərin aşılanması lazımi səviyyədə verilmir. Buna görə də onlar gələcəkdə təbiətə atılan zərərli maddələrin nəticələrini düşünə bilmirlər.

Problemin elmi yeniliyi. Şagirdlərdə kimya eksperimentinin köməyi ilə yeni biliklər formalaşır və praktiki nəticələr əsasında səriştələr inkişaf etmiş olur.

Problemin praktik əhəmiyyəti. Kimya fənnin tədrisində ekoloji aspekti inkişaf etdirməklə yanaşı, inkişafetdirici təlim əsasında bacarıq və vərdişləri dərinləşdirmək, şagirdlərdə motivasiyanı yüksəltmək imkanları. Verilən məlumatlardan bu sahədə tədqiqat aparanlar və müəllimlər faydalana bilərlər.

Ədəbiyyat:

1. İsmayılova G.N. Kimya fənninin tədrisində ekoloji təhsilin əhəmiyyəti. // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2024 . № 2, - s. 152-155.
2. Şadlinskaya G.V., Qasımova G.Ə. Neft emalı zamanı ətraf mühitin çirkləndirilməsi və onun aradan qaldırılması yolları // - Bakı : Akademik Y.H. Məmmədəliyev adına Neft - Kimya Prosesləri İnstitutunun "Kimya məktəbdə" jurnalı - 2017. № 60.- s. 71-76.
3. Ağdamski T.Ə. Atmosfer kimyası və iqlim // - Bakı : Akademik Y.H. Məmmədəliyev adına Neft - Kimya Prosesləri İnstitutunun Kimya məktəbdə jurnalı - 2013. № 43.- s. 17-23.
4. Tağıyev T.İ., Əsgərov V.H. // Kimyanın tədrisində sinifdənxaric işlərdən istifadə etməklə ekoloji biliklərin öyrədilməsi // - Bakı: Akademik Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun Kimya məktəbdə jurnalı – 2011.№ 36.- s. 23 -29.
5. Məmmədov, Q.Ş. Ekologiya və ətraf mühitin mühafizəsi. / Q.Ş. Məmmədov, M.Y. Xəlilov . -Bakı: Elm, - 2005. 435 s.
6. Арканова В.Н и др. Методы формирования экологической культуры школьников. //Химия в школе./ - 2013, №2,- с.69-73.
7. Боровский Е.Э. // Проблемы экологии промышленные и бытовые отходы. // Химия в школе. - 2005, №7, - с. 6-15.

Redaksiyaya daxil olub: 28.01.2025

UOT 372.851

Xumar Tofiq qızı Novruzova
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org 0009-0007-1415-8457
E-mail: novruzovaxumar@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).139-144

RİYAZİYYAT MÜƏLLİMİ HAZIRLIĞI PROBLEMİ VƏ İKT

Хумар Тофиг гызы Новрузова
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике

ИКТ И ПРОБЛЕМЫ ПОДГОТОВКИ УЧИТЕЛЯ МАТЕМАТИКИ

Khumar Tofiq Novruzova
associate professor at Baku Slavic University,
doctor of philosophy in pedagogy

THE ISSUE OF MATHEMATICS TEACHER TRAINING AND IKT

Xülasə. Məqalədə ali təhsil müəssisələrində riyaziyyat müəllimlərinin hazırlanması ilə bağlı məsələlər müzakirə olunur. Xarici ölkələrdə müvafiq metodologiyanın öyrənilməsi və tanış olması üçün türkiyəli tədqiqatçılar Ərsoy, Erbaş, Dədə, Akgün, Bray, Tomas, Baskan, Barış və başqalarının əldə etdikləri nəticələr təhlil olunur. Məqalədə Sinqapur metodologiyasının müsbət tərəfləri və PİSA qiymətləndirməsinin nəticələrinin təhlili də göstərilir.

Məlumdur ki, ali təhsil müəssisəsində tədris prosesinin təşkili çox mürəkkəb prosesdir və bu prosesə tələbələrin idrak fəaliyyətinin inkişafı və yüksək ixtisaslı mütəxəssisin hazırlanması üçün zəruri olan bütün amillərin sintezi daxil edilməlidir. Tədris prosesi elə təşkil edilməlidir ki, şagirdlərin mənəvi və elmi tələbatlarını ödəməkdən əlavə, onlar üçün rahat və optimal iş prosesi təmin edilsin. Belə bir atmosfer İKT alətlərindən, xüsusən MathCad, Mathematica, MatLab və Marle riyazi paketlərindən istifadə etməklə yaradıla bilər.

Açar sözlər: *riyaziyyat, cəbr, İKT, kompetensiya, müəllim, Sinqapur metodikası*

Аннотация. В статье рассматриваются вопросы, связанные с подготовкой учителя математики в высших учебных заведениях. С целью изучения и ознакомления с соответствующей методикой в зарубежных странах мира, приведены результаты, полученные исследователями Ерсой, Ербаш, Деде, Акгюн, Брай, Томас, Баскан, Барыш и других. Также в статье показаны положительные стороны Сингапурской методики, анализ результатов оценивания PİSA.

Известно, что организация учебного процесса в высшей школе – очень сложный процесс, который должен включать в себя развитие познавательной деятельности студентов и синтез всех факторов, необходимых для подготовки высококвалифицированного специалиста. Учебный процесс должен быть организован таким образом чтобы, помимо удовлетворения духовных и научных потребностей обучающихся, для них был обеспечен комфортный и оптимальный рабочий процесс. Такую атмосферу можно организовать с помощью средств ИКТ, в частности математическими пакетами MathCad, Mathematica, MatLab и Maple.

Ключевые слова: *математика, алгебра, ИКТ, компетенция, преподаватель, Сингапурская методика*

Abstract. The article discusses issues related to the preparation of a mathematics teacher in higher education institutions. In order to study and familiarize with the relevant methodology in foreign countries, the results obtained by researchers Ersoy, Erbash, Dede, Akgün, Bray, Thomas, Baskan, Barysh and others are presented. The article also shows the positive aspects of the Singapore methodology, an analysis of the PİSA assessment results.

It is known that the organization of the educational process in higher education is a very complex process that should include the development of students' cognitive activity and the synthesis of all the factors necessary for the preparation of a highly qualified specialist. The educational process should be organized in such a way that, in addition to satisfying the spiritual and scientific needs of students participating in the audience, a comfortable and optimal work process is provided for them. Such an atmosphere can be organized using ICT tools, in particular the mathematical packages MathCad, Mathematica, MatLab and Marle.

Keywords: *mathematics, algebra, ICT, competence, teacher, Singapore Method*

Müəllim hazırlığı məsələlərinə dünyanın müxtəlif ölkələrində fərqli yanaşmalar mövcuddur. Müasir dövrün tələblərinin dəyişilməsi ilk növbədə həyatımıza İKT-nin əsaslı şəkildə daxil olması, uşaqdan böyüyə hər kəsin evində və iş yerlərində kompüterdən istifadə amili ilə şərtlənir. Təhsil sistemində, o cümlədən müəllimlərin peşə hazırlığında bu amilin nəzərə alınması, hansı formada və hansı şərtlər daxilində istifadə edilməsi məsələsi araşdırılır və araşdırmaların sayı artdıqca daha çox suallar yaranır. Bu məqsədlə qloballaşma şəraitində Azərbaycan təhsil sisteminin dünya səviyyəsinə inteqrasiyası meyllərini nəzərə alaraq, bir neçə ölkədə müəllim hazırlama siyasətinin inkişaf tendensiyalarını araşdırmaq və müqayisəli təhlil aparmaq zəruridir.

ABŞ-da cəbr dörd bölmə üzrə öyrədilir: 1) elementar (elementary) cəbr, 2) ali (advanced) cəbr, 3) abstrakt (abstract) cəbr, 4) xətti (linear) cəbr. ABŞ-da müəllim hazırlama modelinin əsas xüsusiyyəti – müəllimlərin komandalarda işinin təşkil edilməsidir. Bu işin təşkili həm rəhbərlik, həm də pedaqoji səviyyədə yerinə yetirilir. Məsələn, Texas universitetində blok 1-də A – pedaqogika, B – riyaziyyat, C – riyaziyyatın tədrisi metodikası kursunu aparan müəllimlər təmsil edilirsə, semestrin əvvəlində bu müəllimlər mütləq şəkildə görüşüb sillabuslarını müqayisə və təhlil edir, bu üç fənnin mənimsədilməsi üçün ümumi bir tədris istiqaməti, qiymətləndirmə meyarları müəyyən edirlər. Konkret olaraq, riyaziyyatın tədrisində aşağıdakı pedaqoji yanaşmalar əsas götürülür (1):

Səhv etmək imkanının olması. Bu yanaşmanın əsasında belə bir psixoloji faktor durur ki, nəinki uşaqlar, hətta böyüklər, müəllimlərin özləri belə müxtəlif tərzdə düşünür və fikir yürüdürlər. Belə olan halda riyaziyyat kimi mürəkkəb quruluşa malik olan bir fənnin tədrisində hər bir təhsilalanın məsələ həllinə, teoremin isbatına müxtəlif münasibəti ola bilər. Bu münasibət səhv olsa belə, riyaziyyatda səhvlərin bəzən böyük kəşflərə gətirib çıxardığını göz önünə alaraq, onları dərindən müzakirə etmək, yoxlamaq və düzgün nəticələrə gətirib çıxarmaq lazımdır.

– Genişlənməyə doğru deyil, dərininə öyrənmək. Dərsdə bir məsələni üç müxtəlif üsulla həll etmək, 3-4 məsələni eyni bir üsulla həll etməkdən daha yaxşıdır, ya da bir dərsdə bir anlayışı dərindən öyrətmək, eyni zamanda bir neçə anlayışı səthi öyrətməkdən daha məqsədəuyğundur.

– Proses nəticədən daha vacibdir. Riyaziyyatın tədrisində, məsələ həllində, teoremin isbatında məntiqi mülahizələr zəncirinin qurulması prosesi cavabın alınmasından daha vacib sayılır. Test tapşırıqlarından istifadə edilməsi ABŞ məktəblilərində riyazi təfəkkürü, həllin axtarılması yollarını, arqumentlərin tapılması və onların analiz edilməsi proseslərini xeyli zəiflətdi. Bunun qarşısını almaq üçün test tapşırıqlarından deyil, riyazi isbat və məsələ həllərindən istifadə edilməlidir.

– Tədris etməklə öyrənmək. Riyaziyyatın tədrisində daha yaxşı nəticələr əldə etmək üçün təhsilalanların bir-birindən öyrənmələri, bir-birlərinə dərs keçmələri, dərsdə interaktivliyin təmin edilməsi həm psixoloji cəhətdən, həm də riyazi təfəkkürün inkişafı baxımından effektiv üsuldur.

– Adı çəkilən universitetdə üç aylıq pedaqoji praktikanın gələcək riyaziyyat müəllimləri üçün kifayət etməyəcəyini hesab edərək, proqramda 180^0-li dönüş edildi: müəllim hazırlığı prosesi bilavasitə məktəblərə keçirildi. Universitet proqramlarına daxil olan pedaqogika, riya-

ziyyat kimi fənlər məktəbdə tədris edilməyə başlandı. Belə inteqrativ metodun üstünlüyü ondan ibarətdir ki, burada praktika ilə nəzəriyyənin vəhdəti təmin edilir. Tələbələr professor-müəllim heyətindən öyrəndiklərini eyni anda məktəbdə dərs prosesində tətbiq edə bilirlər (1).

ABŞ-da riyaziyyat müəlliminin kompetensiyalarına:

– riyazi informasiyanın müxtəlif modellərlə təsvir edilməsi,

– kompüterdən, kalkulyatordan, internetdən və digər informasiya texnikası vasitələrindən istifadə edilməsi,

– informasiyanın konkret, əyani və abstrakt təsviri modelləri vasitəsilə nümayiş edilməsi,

– ensiklopediyalardan, sorğu materiallarından, verilənlər bazalarından istifadə edilməsi,

– tədris sərgilərinin, ekspozisiyaların, təqdimatların, konfransların təşkili və keçirilməsi,

– audio-vizual didaktik vasitələrdən istifadə edilməsi və s. kimi struktur elementləri aid edilir (1).

Türkiyəli tədqiqatçılar – Kürşat Yenilmez və Melike Teke cəbr yönümlü düşüncə tərzini inkişaf etdirən amilləri üzə çıxarmaq məqsədilə eksperiment keçirmişlər. Onlar "Cəbr nədir?" sualına cavab olaraq cəbrin riyaziyyatın ən vacib sahəsi olmaqla yanaşı, abstrakt düşünmək qabiliyyətini artıran, problemləri həll etmək üçün bir açar olan fənn olduğunu qeyd edirlər. Hətta cəbrin həyatın hər sahəsində lazım olan bir fənn olduğunu, bu səbəblə də bütün təhsilalanlar tərəfindən öyrənilməsinin vacibliyini vurğulayırlar. Tədqiqatçılar qeyd edirlər ki, hazırda bir çox yeni və fərqli təlim metodları mövcud olsa da, cəbri öyrətmək üçün ən yaxşı yol müəllimlərin ənənəvi üsulla – anlama və yadda saxlama yolu ilə öyrətmələridir. Tədris prosesində riyazi fikirləri simvollarla, qrafiklərlə, şəkillərlə və cədvəllərlə, nəhayət, ətraf aləmlə və real həyatla ifadə edib göstərmək təhsilalanların riyaziyyata daha mükəmməl yiyələnmələrinə kömək edəcəkdir (2).

Türkiyəli tədqiqatçılar Ersoy və Erbaşın 1998-ci ildə apardıqları araşdırmaya əsasən Türkiyədə cəbrin tədrisi ilə bağlı böyük çətinliklərin olduğu üzə çıxmışdır. Belə ki, 26 sualdan ibarət olan cəbr testlərinə düzgün cavabların sayı olduqca aşağı – orta hesabla 2,1-ə bərabər idi. Həmin tədqiqatçılar 2002-ci ildə yenidən cəbrin tədrisi ilə bağlı şagirdlər arasında araşdırma aparmış, xüsusən də tənliklərin həllində şagirdlərin çox çətinlik çəkdiyini qeyd etmişdilər (3, s.25).

2007-ci ildə Akgünün tədqiqatlarında riyaziyyatın təməl anlayışlarından sayılan dəyişən kəmiyyət anlayışının yaranma tarixi, riyaziyyat elmi üçün bu anlayışın açar olması amili qeyd edilmişdir. Tədqiqatçı tarixi faktlarla şagirdlərin cəbri anlayışlara olan marağını artırmağın əhəmiyyətini vurğulamışdır (3).

Evrim Erbilgin və Burçak Bozun apardığı araşdırmalar üç ölkədə - Finlandiya, Sinqapur və Yaponiyada riyaziyyat müəllimi hazırlanması məsələsinə həsr olunmuşdur. Tədqiqatçılar qeyd edir ki, araşdırmanın məqsədi bu ölkələrin müəllim hazırlama siyasətinin Türkiyədəki müvafiq siyasətlə müqayisə edilməsi və müsbət amillərin dəyərləndirilməsidir. Tədqiqatda bu ölkələrin seçilməsi onların şagirdlərinin TİMSS və PİSA yarışlarında riyaziyyat üzrə yaxşı nəticələr göstərməsi ilə əlaqədardır. Belə ki, TİMSS 2011-ci ilin nəticələrinə görə, 50 ölkənin iştirak etdiyi bu yarışlarda riyaziyyat üzrə Sinqapur 1-ci, Yaponiya 5-ci və Finlandiya 8-ci olmuşdur. Türkiyə isə 35-ci sırada yer almışdır.

Türkiyədə riyaziyyat müəllimi hazırlayan 3 proqram mövcuddur: orta məktəb proqramı (4 il), pedaqoji sertifikatlı proqram (1 il), lisey proqramı (5 il). Sinqapurda riyaziyyat müəllimləri ibtidai təhsildən sonrakı dövrdə 5 il ərzində fəaliyyət göstərirlər. Bu ölkədə riyaziyyat müəllimi hazırlanması üçün iki proqram var: ali məktəb proqramı (4 il) və pedaqoji setifikatlı proqram (1 il).

Finlandiyada iki yol var: birincisi, 60 kredit (1+ il ərzində) toplayan pedaqoji təhsil alan tələbələr riyaziyyatdan tədqiqat işi hazırlayır, ikincisi isə, riyaziyyatdan ali təhsili olan tələbələr pedaqogikadan 60 kredit nəticə ilə riyaziyyat müəllimi ola bilərlər. Hər iki halda həm riyaziyyat, həm də pedaqogika səhəsində kreditlər eyni olduğundan, şərtlər də bərabər hesab edilir.

Yaponiyada riyaziyyat müəllimi 4 il ali təhsil alır. Bu təhsil sayəsində onlara 1-ci dərəcəli müəllim sertifikatı verilir. Həmin sertifikatla onlar orta məktəblərdə və liseylərdə işləyə bilərlər. Aspirantura oxuyan tələbələrə isə yüksək dərəcəli (advanced) sertifikatı verilir. Bununla bərabər, müvəqqəti sertifikatlar da mövcuddur ki, onları alan tələbələr müəllim çatışmadığı hallarda orta məktəblərdə işləyə bilərlər. Bundan başqa, həmin ölkələrdə məktəb təcrübəsi (prak-

tikası) və staj proqramları da mövcuddur: Finlandiyada orta məktəb riyaziyyat müəllimliyi (3+2 il), lisey riyaziyyat müəllimliyi (3+2 il), pedaqoji təhsil (1 il), Sinqapurda riyaziyyat müəllimliyi 4 il, pedaqoji təhsil 1 il, Yaponiyada riyaziyyat müəllimliyi üçün 4 il nəzərdə tutulur. Tələbələrin riyaziyyat müəllimi işləyə bilməsi üçün məzuniyyət şərtləri univerisetlərdə fərqli olsa da, Yaponiyada hər fəndən 4 baldan azı 2 bal, Sinqapurda 5 baldan azı 2 bal, Türkiyədə 4 baldan azı 2 bal toplamalıdırlar – yəni ballar demək olar ki, eynidir. Finlandiyada vəziyyət bir qədər fərqlidir: burada tələbə təhsil aldığı müddətin sonunda təhsilinin tamamlanmış olması haqqında yazılı sənəd alır. Tədqiqatçılar qeyd edir ki, aparılan tədqiqatdan aşağıdakı nəticələr alınıb (4):

Türkiyədə müəllim hazırlanması proqramı digər üç ölkədə mövcud olan proqramlardan fərqlənir. Belə ki, Türkiyədə müəllim seçimi əsasən onların imtahanda topladıqları bala görə aparılır, lakin digər üç ölkədə bundan əlavə, müsahibə və əlavə imtahanlar da keçirilir. Həmin ölkələrdə müəllimlərin öz işlərindən ayrılması halları çox cüzidir, müəllim cəmiyyətdə həm maddi, həm də mənəvi baxımdan yüksək qiymətləndirilir. Digər bir amil Türkiyədə müəllimlərin əlavə pedaqoji təhsil almamasıdır. Başqa bir türk tədqiqatçısı Eraslan bu amillərin Türkiyəyə tətbiq edilməsini uyğun görmür, alternativ yol kimi məktəb və lisey rəhbərliyinin müəllimin fəaliyyətinə daha diqqətli yanaşmasını təklif edir (4).

Son illərdə təhsil sahəsində, xüsusən də riyazi təhsildə Sinqapur metodikası haqqında çox fikirlər səslənir. Sinqapur metodikası – özündə Teambuilding, Rally Robin, Round Robin, Clock Buddies, Hi-Five, Mix Pair Share, Corners və s. 250-dən çox texnikanı birləşdirir. "Bir yerdə oxuyaq" şüarı ilə tədrisin təşkil olunduğu Sinqapur məktəblərində bir sinifdə 30-40 uşaq oxuyur. Onlar belə hesab edirlər ki, sinifdəki uşaqların sayının çox olması uşaqlarda kommunikativ bacarıqları, fikir mübadiləsi aparmağı, sağlam rəqabəti və bunun sayəsində də daha çox bilik əldə etməyi təmin edir.

1965-ci ildə Malayziyadan ayrılaraq müstəqillik qazanan Sinqapur dünyanın ən yoxsul və təhsil sisteminə görə ən geridə qalmış ölkələrindən biri idi. Lakin düzgün təhsil siyasəti nəticəsində hazırda Sinqapur təhsili yüksək göstəricilər əldə etdi və bu ölkənin məzunları dünyanın ən qabaqcıl univeristetlərində təhsillərini davam etdirirlər. Xüsusilə riyaziyyat sahəsində Sinqapur dünyada ön sıralarda yer alır. Bu ölkədə riyazi biliklərin, riyazi təfəkkürün inkişafına xüsusi diqqətlə yanaşırlar. Riyaziyyatın tədrisində Sinqapur metodikası təhsilin ilk pillələrindən başlayaraq təhsilalanlarda sərbəst fikir yürütmək, kreativ düşüncə və müstəqil şəkildə həll üsullarını müəyyənləşdirmək kimi keyfiyyətlərin formalaşdırlmasına xidmət edir. Bunun nəticəsində riyazi təlim üzrə yüksək göstəricilər əldə edilmiş, hazır düstur və qaydaların əzbərlənməsinə deyil, məntiqi təfəkkürün inkişafına əsaslanan bir metodikanın tətbiqi həyata keçirilmişdir (5).

Sinqapur metodikasında şagird kompetensiyaları aşağıdakı kimi müəyyən edilmişdir:

– Vacib qərarların alınması, özünü idarə edə bilmək, sosial məlumatlılıq, münasibətləri idarə edə bilmək;

– Tənqidi və kreativ düşüncə tərzinə malik olmaq, mədəniyyətlərarası qarşılıqlı əlaqələrin olması, vətəndaşın savadlılığı, ümumi dünyagörüşünün olması, İKT bacarıqları;

– Müstəqil şəkildə öz inkişafını təmin edən, özündən əmin, məsuliyyətli, aktiv həyat tərzinə malik insan olmaq.

Müəllim kompetensiyaları isə aşağıdakı şəkildə təyin edilmişdir: etik, peşəkar, dəyişikliklərə açıq, cəmiyyətin inkişafında aktiv iştirak edən, özündən əmin, aktiv həyat mövqeyi olan, məsuliyyətli və yardımsevər, liderlik qabiliyyətləri olan müəllim – müasir dövrün müəllimi məhz bu keyfiyyətlərə malik olan insan hesab edilir.

Müasir texnologiyalara, yeni təlim texnologiyalarına Sinqapur dövləti tərəfindən ayrılan vəsait əhalinin həyat səviyyəsinin uğurlu inkişafına xidmət edir. Bu gün ölkənin 6 milyona yaxın əhalisinin 94,5 faizi təhsillidir. Qeyd edək ki, 2015-ci il nəticələrinə görə riyaziyyat fənni üzrə TİMSS Beynəlxalq Qiymətləndirmə Proqramı üzrə 57 ölkənin şagirdləri arasında Sinqapur şagirdləri I yer tutublar. Bu da riyaziyyatın tədrisində Sinqapur modelindən istifadə edilməsinin müsbət addım olduğunu göstərir (5).

2020-ci ildən Azərbaycanla Sinqapur şirkətləri arasında əməkdaşlıq yaradılıb və bu sahədə işlər davam etdirilir. 2013-cü ilin sentyabrından Sinqapurda STEAM təhsil mexanizminin tətbiqinə başlanıb. Sosial ədalətin bərpa edilmə-

si, təhsildə keyfiyyətin əldə olunması, real həyatla əlaqənin təmin edilməsi, həyatda qarşılaşacaqları problemlərin həll edilməsi ideyaları bu sistemin əsas istiqamətini müəyyən edir (6).

Son illərdə inkişaf etmiş ölkələrdə elm, texnika sahəsində olan nailiyyətlər, ixtiralar, onların tətbiqi Birləşmiş Millətlər Təşkilatının XXI əsri "İntellekt əsri" adlandırmasına səbəb olmuşdur. Elə bu səbəbdən də "İntellekt əsri"nin ilk illərindən başlayaraq yeni pedaqoji üsullardan, yeni təlim metodlarından istifadə etmək, dünya təhsil sisteminə inteqrasiya son zamanlardakı qlobal problemlərdəndir. Bu mənada keçirilən layihələr arasında PİSA qiymətləndirmə layihəsi xüsusi yer tutur (6).

PİSA layihəsində 90-dan artıq ölkənin 3000000-dan çox şagirdi iştirak edib və qiymətləndirilib. Qiymətləndirmə meyarlarını nəzərə alsaq, təhsil sistemində əsas hədəf olaraq praktik bacarıqların vacib olduğunu görə bilərik. Ona görə də, bu gün pedaqoji universitetlərdə məhz bu istiqamətdə köklü dəyişikliklərin aparılması, tələbələrin yeni informasiyalı cəmiyyətin tələblərinə uyğun şəkildə təhsil almalarını təmin edilməsi lazımdır.

Müasir dövrdə Azərbaycan təhsilinin dünya səviyyəsinə çatdırılması İKT amili olmadan demək olar ki, qeyri-mümkündür. Kompüter proqramlarından tədris prosesində səmərəli istifadə etməklə tələbələrin dərsə münasibətini və motivasiyasını müsbət istiqamətə yönəltmək mümkündür. Bu baxımdan riyazi fənlərin tədrisində Maple, Mathematica, MathCad, MatLab kimi hazır proqram paketlərindən istifadə edilməsi məqsədəuyğundur.

Hazırda Maple proqramından dünyanın bir çox universitetlərində riyazi məsələlərin həlli üçün istifadə edilir. Xüsusən də, proqramın son versiyasının qrafik interfeysi vuzuallaşdırma və qrafiklərin qurulması üçün olan alətləri onu daha da əlverişli etmişdir. Simvolik riyaziyyatda liderlik edən proqramlardan biri olan Maple gün-gündən təkmilləşir və həll edə bildiyi məsələlərə görə, həmçinin digər proqramlarla– MathCad, Mathematica və MatLab-la inteqrasiyası sayəsində daha da populyar proqrama çevrilir. Onun aşağıdakı üstünlüklərini sadalamaq olar (7):

– tədris prosesini daha əyani, interaktiv və maraqlı və deməli, effektiv etməsi;

– alqoritmik təfəkkür tərzini inkişaf etdirməsi;

– tələbələrin alqoritmləşdirmə və proqramlaşdırma sahəsindəki biliklərini inkişaf etdirməsi;

– təhsilalanların sistemli düşünmə qabiliyyətlərinin, yaradıcılıq və tədqiqatçılıq bacarıqlarının formalaşdırması;

– proqramlaşdırmanın qrafik interpretasiyasının hazırlanması ilə yaradılan bacarıqların nümayiş etdirilməsi;

– tələbələr tərəfindən müstəqil şəkildə öz müəllifləri olduqları proqram məhsullarının hazırlanması, onların modelləşdirmə texnologiyalarına yiyələnmələri;

– təhsilalanların dərs və dərsdənkənar fəaliyyətlərində informasiya texnologiyaları sahəsindəki peşəkarlıq səviyyəsinin yüksəldilməsi;

– tələbələr tərəfindən riyaziyyat, fizika və informatika fənləri arasında inteqrasiyanı təmin etməklə müvafiq proqram məhsullarını hazırlanması və s.

Ali məktəblərdə dərs prosesinin təşkili çox mürəkkəb bir proses olub, özündə tələbələrin idraki fəaliyyətinin inkişafını, yüksək ixtisaslı mütəxəssisin hazırlanması üçün lazım olan bütün amillərin sintezini nəzərdə tutmalıdır. Tədris prosesi elə təşkil olunmalıdır ki, auditoriyada iştirak edən tələbələrin mənəvi və elmi ehtiyacların ödəməklə yanaşı, onlar üçün rahat və optimal iş prosesi təmin edilsin. Bu proses müxtəlif formalarda təşkil oluna bilər. Hazırda ali məktəblərdə istifadə olunan tədrisin əsas təşkili formaları aşağıdakılardır:

– mühazirə;
– laborator, seminar və praktik məşğələ;
– tədris praktikası;
– pedaqoji praktika;
– kurs (sərbəst) işlərinin yerinə yetirilməsi;
– buraxılış işləri və ya diplom işlərinin yerinə yetirilməsi;
– məsləhət saatları;
– kollokviumlar;
– tələbələrin müstəqil işlərinin təşkili.

Gələcək müəllimin metodik hazırlığı birbirilə sıx bağlı olan üç əsas komponentdən asılıdır – bunlar tədrisin məzmunu, tədris prosesinin özü və tələbələrin mənimsəmə fəaliyyətidir. B. Krayevskiy, M. Skatkinin və b. tədqiqatlarında göstərilir ki, tədrisin məzmunu üç səviyyədə

müəyyən edilir: ümumi nəzəri materialın, konkret predmetin və tədris materialının mənimsədilməsində (8, s. 78). Tədris materialı əsasən dərs vəsaitlərində və dərsliklərdə öz əksini tapır. Müəllimin vəzifəsi tələbələrə tədris materialı əsasında öz bilik dairəsini genişləndirməyə imkan verən, elmi biliklərlə zəngin, elmi cəhətdən dolğun nəzəri biliklərə istiqamətləndirməkdir.

P.Y. Qalperin və N.F. Talızinanın nəzəriyyəsinə əsaslanan əqli fəaliyyətin, mənimsəmənin mərhələli şəkildə təşkili, məşğələlərdə mənimsəmə prosesindəki tətbiqi əhəmiyyəti cəbr elementlərinin, cəbrin əsas anlayışlarının öyrənilməsində də əhəmiyyətli rola malikdir. Yeni bilik yalnız o zaman tələbə tərəfindən dərk edilir ki, bu bilik tətbiq olunsun, müxtəlif məsələlərdə nəzərdən keçirilsin. Kompüter proqramları bu mənada böyük rola malikdir: kompüterdə təqdim olunan informasiyanı tələbə daha aydın görür, dərk edir.

Azərbaycan coğrafiya və milli meyarlara görə Türkiyəyə çox yaxın ölkə olduğundan, riyaziyyat müəlliminin hazırlığı məsələlərində qonşu dövlətin meyarlarından istifadə edə bilərik.

Problemin aktuallığı. Azərbaycanda müəllim hazırlığı sahəsində bir çox problemlər mövcuddur. Problemlərin həlli isə riyaziyyat müəllimlərinin hazırlığında – ilk növbədə cəmiyyətdə müəllim nüfuzunun qaldırılması, riyazi bilik və bacarıqların vacibliyinin qabardılması, dərslərdə İKT təminatı ilə tələbələrin dərsə münasibətinin dəyişdirilməsi və buna paralel olaraq müəllimlərin İKT mədəniyyətinin və İKT bacarıqlarının formalaşdırılması kimi məsələlərin həlli ilə bilavasitə bağlıdır. Bu da qoyulan problemin aktual olduğunu göstərir.

Problemin elmi yeniliyi. Məqalədə riyaziyyat müəllimi hazırlığında digər dövlətlərin təcrübələrinə əsaslanaraq, İKT-dən istifadə etməklə yeni metodik yanaşma təklif edilir.

Problemin praktik əhəmiyyəti. Təhsilimizin dünya təhsil sisteminə inteqrasiya meyllərini nəzərə alaraq, bu təhsil sistemlərindəki müsbət və mənfi amilləri düzgün qiymətləndirmək, onlardan xalqımızın və dövlətçiliyimizin mənafeyi naminə səmərəli istifadə etmək və dəyərləndirmək lazımdır.

Ədəbiyyat:

1. Виноградов, В.Л. Теория и технология подготовки учителей в США. Конспект лекций. - Казань: Казаньский федеральный университет, - 2013. – 32с.
2. Yenilmez, K., Teke, M. Yenilenen matematik proqramının ögrencilerin cebirsel düşünme düzeylerine etkisi // - İnönü Üniversitesi Fakültesi Dergisi, cild 9, sayı 15, - 2008. - s. 229-246.
3. Uçak, F.S. Soyut cebir dersi veren ögretim elemanlarının ögretim uyğulamaları: / yüksek lisans tezi / Konya, - 2019. – 99 s.
4. Erbilgin, E. Matematik Ögretmeni Yetiştirme Proqramlarımızın Finlandiya, Japoniya ve Singapur Proqramları ile Karşılaştırılması // Hacettepe Üniversitesi egitim Fakültesi Dergisi, (1), - 2013. - s. 156-170.
5. Mənsimli, C., Məhərrəmov, M. Sinqapur dərslikləri nəyi öyrədir? // - 2020. https://azedu.az/az/news/37819-sinqapur-derslikleri-neyi-oyredir-tehlil-
6. Mənsimli, C. Təhsilə PİSA yanaşması // Azərbaycan müəllimi.- 2020. https://www.muallim.edu.az/news.php?id=13974
7. Абдуррахманов, А.Г. Применение математических пакетов в образовании на примере математического пакета Maple // - Саратов: Экономика и социум, - 2021. №3 (82), - с. 761-768.
8. Ананченко, К.О. Методическая система обучения по углубленному курсу алгебры и началам анализа в общеобразовательной школе // - Минск: Весник Віцебскага дзяржаунага универсітэта імя П.М. Машэрава, - 2003. №4 (30), - с. 77-82. https://rep.vsu.by/handle/123456789/8940

Redaksiyaya daxil olub: 06.02.2025.

UOT 372.851

Səbinə Vaqif qızı Rüstəmova
Azərbaycan Dillər Universiteti, müəllim
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5392-4384
E-mail: sabina.rustemova.87@inbox.az
https://doi.org/10.69682/arti.2025.92(1).145-147

TƏDQİQAT İŞİNİN YERİNƏ YETİRLMƏSİ ZAMANI TƏLƏBƏLƏRDƏ KƏMİYYƏT BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSI VƏ ƏHƏMİYYƏTİ

Сабина Вагиф гызы Рустамова
преподаватель Азербайджанского Университета Языков,
доктор философии по педагогике

ЗНАЧЕНИЕ И РАЗВИТИЕ КОЛИЧЕСТВЕННЫХ НАВЫКОВ У СТУДЕНТОВ ПРИ ВЫПОЛНЕНИИ ИССЛЕДОВАТЕЛЬСКОЙ РАБОТЫ

Sabina Vagif Rustamova
teacher at the Azerbaijan University of Languages,
doctor of philosophy in pedagogy

DEVELOPMENT AND IMPORTANCE OF QUANTITATIVE SKILLS IN STUDENTS DURING RESEARCH WORK

Xülasə. Kəmiyyət bacarıqlarının tədqiqat işindəki rolu və əhəmiyyəti çox genişdir və elmi tədqiqatların müvəffəqiyyətində həlledici bir amildir. Məlumatların düzgün təhlili və ədədi verilənlərdən mənalı nəticələr çıxarmaq tədqiqatın keyfiyyətini artırır və nəticələrin daha geniş tətbiq sahələrinə yönəldilməsini təmin edir. Beləliklə, kəmiyyət bacarıqları tədqiqatçıların elmi fəaliyyətlərində mühüm vasitə rolunu oynayır, onların işlərinin elmi etibarlılığını və dəqiqliyini təmin edir. Bu bacarıqları inkişaf etdirən tədqiqatçılar həm də gələcəkdə daha geniş miqyaslı və mürəkkəb araşdırmaların aparılmasına imkan yaradırlar.
Açar sözlər: *kəmiyyət bacarıqları, statistik analizlər, analitik düşüncə, proqramlaşdırma.*

Аннотация. Роль и значение количественных навыков в исследовательской работе очень широки и являются решающим фактором успеха научных исследований. Правильный анализ данных и получение содержательных выводов из числовых данных повышают качество исследований и гарантируют, что результаты будут направлены на более широкие области применения. Таким образом, количественные навыки играют важную роль в научной деятельности исследователей, обеспечивая научную достоверность и точность их работы. Исследователи, которые развивают эти навыки, также смогут проводить более масштабные и сложные исследования в будущем.
Ключевые слова: *количественные навыки, статистический анализ, аналитическое мышление, программирование*

Abstract. The role and importance of quantitative skills in research is very broad and is a decisive factor in the success of scientific research. Proper analysis of data and drawing meaningful conclusions from numerical data increases the quality of research and ensures that the results are directed to wider areas of application. Thus, quantitative skills play an important role in the scientific activities of researchers, ensuring the scientific reliability and accuracy of their work. Researchers who develop these skills also create the opportunity to conduct larger-scale and more complex research in the future.
Keywords: *Quantitative skills, statistical analysis, analytical thinking, programming.*

Kəmiyyət bacarıqları, ədədi məlumatları təhlil etmək və bu məlumatlardan mənalı nəticələr çıxarmaq üçün riyazi və statistik metodları tətbiq etmək qabiliyyətini əhatə edir. Kəmiyyət

bacarıqları, tədqiqatçılara statistik alətlərdən istifadə edərək məlumatları analiz etməyə və onları riyazi yanaşmalarla şərh etməyə imkan verir. Kəmiyyət bacarıqları eyni zamanda tədqiqatçılara düzgün və etibarlı məlumatlar toplamağa imkan verir. Tədqiqatçılar, istifadə olunan metodlar və alətlər vasitəsilə məlumatları sistemli şəkildə yığmalı və bu məlumatları təhlil etmək üçün hazırlamalıdırlar. Kəmiyyət tədqiqatları çox vaxt böyük həcmdə verilənlər toplayır, buna görə də məlumatların düzgün yığılması və idarə olunması vacibdir. Məsələn, tədqiqatçı anketlər və ya sorğular vasitəsilə verilənləri toplayarkən, kəmiyyət bacarıqları sayəsində sorğu suallarının düzgün formalaşdırılması və məlumatın təsadüfi və ya yanlış məlumatlardan qorunması təmin edilir.

Statistik analizlər verilənlərin təhlilində istifadə olunur və bu da tədqiqatın nəticələrini daha obyektiv və dəqiq hala gətirir. Statistik analizlər nəticəsində əldə edilən məlumatlar, fərqli dəyişənlər arasındakı əlaqələri və təsirləri göstərir.

Məsələn, bir tədqiqatda iki dəyişənin əlaqəsi (məsələn, əmək haqqı ilə işçi məmnuniyyəti) tədqiq edilir. Kəmiyyət bacarıqları olan bir tədqiqatçı bu əlaqəni qiymətləndirmək üçün reqressiya analizi və ya korrelyasiya analizi kimi statistik metodlardan istifadə edərək nəticələri təhlil edəcək və əlaqənin mövcud olub olmadığını və onun gücünü müəyyən edəcək.

Reqressiya analizi – bir və ya bir neçə asılı olmayan dəyişənin digər asılı dəyişənə təsirinin statistik analiz üsuludur. Məqsədi bir asılı olan, və bir və ya bir neçə asılı olmayan dəyişənlər arasındakı münasibəti araşdırmaqdır. Burada asılı dəyişənlərin sistematik təsiri nəticəsində asılı olmayan dəyişənlərin özlərini aparmasını izah etmək və onları təsadüfi təsirlərdən ayırd etmək əsas məsələlərdəndir.(3)

Statistikada korrelyasiya və ya asılılıq iki təsadüfi dəyişən, ikidəyişənli verilənlər arasında səbəb əlaqəsi statistik əlaqədir. Bu dəyişənlərdən birinin və ya bir neçəsinin dəyişməsi digərlərinin sistematik dəyişməsinə gətirib çıxarır. İki dəyişən arasındakı korrelyasiya riyazi olaraq əmsallarla ifadə olunur. Əmsallar qarşılıqlı əlaqənin xarakterindən asılı olaraq mənfi və ya müsbət olurlar. Mənfi korrelyasiya zamanı bir dəyişənin artması digərlərinin azalmasına və əksinə təsir edir. Korrelyasiya əmsalı ehtimal nəzəriyyəsində iki təsadüfi dəyişənin qarşılıqlı təsiri üçün göstərici kimi qəbul edilir. (4)

Kəmiyyət tədqiqatlarında nəticələrin təkrarlana bilirliyi böyük əhəmiyyət kəsb edir. Yəni, eyni metodlar və proseslər istifadə edildikdə, başqa tədqiqatçılar eyni nəticələri əldə etməlidirlər. Bu, tədqiqatın elmi cəmiyyətdə etibarlılığını artırır və tədqiqatın doğruluğuna olan inamı gücləndirir. Tədqiqatçılar düzgün metodologiya və ölçmə alətləri ilə tədqiqatlarını apararsa, eyni nəticələr başqa tədqiqatçılar tərəfindən də əldə oluna bilər. Məsələn, bir pedaqoji sınaqda, kəmiyyət metodları vasitəsilə təlim metodundan istifadənin effektivliyini ölçmək, müxtəlif tədqiqatçıların eyni nəticələrə gəlməsini təmin edər.

Tədqiqatçıların istifadə etdikləri ölçmə alətləri və üsulları vasitəsilə, verilənlərin hər bir hissəsi ölçülür və qiymətləndirilir. Kəmiyyət bacarıqları burada hər hansı bir ölçmə səhvinin qarşısını alır və nəticələrin mümkün qədər dəqiq və təkrarlana bilən olmasını təmin edir. Kəmiyyət bacarıqları inkişaf etmiş tədqiqatçılar, məlumatları təhlil etmək üçün ən müasir statistik proqramlardan (SPSS, R, Python və ya STATA kimi) istifadə edir. Onlar, məsələn, böyük verilənlər (big data) analizi və maşın öyrənməsi (machine learning) kimi yeni texnologiyaları tətbiq edərək daha mürəkkəb tədqiqatlar aparırlar.

Tədqiqatçı, anket və ya müsahibə kimi məlumat toplama üsullarını istifadə edərkən, iştirakçılara tədqiqatın məqsədini izah etməli və onların məlumatlarının necə istifadə olunacağı barədə razılıqlarını almalıdır. Kəmiyyət bacarıqları etik və hüquqi məsələləri düzgün idarə etməyə kömək edir, beləliklə tədqiqatın etibarlılığı və düzgünlüyü artır.

Kəmiyyət bacarıqlarının təkmilləşdirilməsi üçün tədqiqatçılar statistika, verilənlər analizi və proqramlaşdırma sahəsində təlim keçməli və statistik metodları mənimsəməlidirlər. Universitetlər və tədqiqat institutları bu sahədə kurslar və seminarlar təşkil edərək kəmiyyət bacarıqlarını artırmağa kömək edə bilər.

Bundan başqa kəmiyyət bacarıqlarının inkişafında praktik təcrübə çox önəmlidir. Tədqiqatçılar real həyatda statistik alətləri istifadə edərək məlumatların düzgün təhlilini həyata keçirməlidirlər. Praktik təcrübə sayəsində, tədqiqatçılar daha təcrübəli və səriştəli olurlar.

Kəmiyyət bacarıqlarını inkişaf etdirmək üçün statistik proqramlar və verilənlər bazası

alətlərindən istifadə vacibdir. Tədqiqatçılar, müasir proqramlaşdırma dilləri (R, Python, SQL və s.) və statistik analiz alətləri ilə işləməyi öyrənməlidirlər. Bu alətlər daha mürəkkəb verilənlər ilə işləməyi və nəticələrin daha sürətli təhlilini mümkün edir.

Kəmiyyət bacarıqlarının inkişaf etdirilməsi məlumatların qrafik, cədvəl, diaqram şəklində verilməsini də təmin etmiş olur.

Problemin aktuallığı. Məqalə son dövrlərdə elmi tədqiqat və akademik işlərin yüksək dərəcədə kəmiyyət əsaslı məlumatlara və statistik analizlərə əsaslanması baxımından aktual bir məsələyə həsr olunmuşdur. Tələbələr tədqiqat apararkən məlumatları düzgün toplayıb təhlil etmək və dəqiq nəticələr çıxarmaq üçün kəmiyyət bacarıqlarına sahib olmalıdırlar. Bu bacarıqlar yalnız tədqiqatın keyfiyyətini artırmaqla qalmır, həm də tələbələrin daha geniş akademik və peşəkar sahələrdə uğur qazanmalarına imkan yaradır.

Problemin yeniliyi. Məqalənin elmi yeniliyi, tələbələrdə kəmiyyət bacarıqlarının inkişaf etdirilməsi və bu bacarıqların tədqiqat işlərinin yerinə yetirilməsindəki əhəmiyyətinə dair yeni yanaşmaların təqdim edilməsidir. Məqalədə həmçinin müasir tədqiqat metodologiyalarında kəmiyyət bacarıqlarının əhəmiyyətini və tələbələrə bu bacarıqları necə daha effektiv şəkildə öyrətmək və tətbiq etmək imkanlarını təqdim edir. Bu baxımdan, məqalə, həm nəzəri, həm də praktik olaraq yeni yanaşmalar təklif edir və tələbələrin tədqiqat bacarıqlarını daha geniş şəkildə inkişaf etdirmək üçün tövsiyələr verir.

Problemin praktik əhəmiyyəti. Kəmiyyət bacarıqları, riyazi və statistik düşünmə qabiliyyətlərinin inkişafı, verilənlərə əsaslanaraq düzgün qərar vermə və problemləri həll etmə bacarıqlarıdır. Bu bacarıqlar, tələbələrin həm təhsil müddətində, həm də əmək bazarında uğur əldə etmələrinə kömək edir.

Nəticə. Kəmiyyət bacarıqları tədqiqatçılara məlumatları düzgün toplamaq, təhlil etmək, nəticələri qiymətləndirmək və təqdim etmək üçün vacib alətlər təqdim edir. Bu bacarıqlar, tədqiqatların etibarlılığını, dəqiqliyini və təkrarlana bilirliyini təmin edir. Kəmiyyət bacarıqlarının inkişaf etdirilməsi, tədqiqatçıların elmi və tətbiqi sahələrdə daha yüksək keyfiyyətli nəticələr əldə etmələrinə imkan verir. Nəticədə, elmi cəmiyyətlərdə və praktiki sahələrdə tətbiq edilə bilən, etibarlı və dəqiq nəticələr əldə etmək üçün kəmiyyət bacarıqları mühüm rol oynayır.

Ədəbiyyat:

1. Cəbrayılov İ. Tədqiqatçılıq mədəniyyəti səriştə əsaslı təhsilin yeni məzmununun mühüm komponenti kimi // – Bakı: Azərbaycan məktəbi, -2021, № 1. -s. 60-68.
2. Nağızadə Z. Təlim prosesində şagirdlərin tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsinin imkan və yolları// – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2022, cild 89, № 1, -s.203-207.
3. https://az.wikipedia.org/wiki/Reqressiya_analizi
4. https://az.wikipedia.org/wiki/Korrelyasiya
5. https://www.thebritishacademy.ac.uk/documents/220/Count-Us-In.pdf

Redaksiyaya daxil olub: 27.01.2025

UOT 372.857

Gülşən Nadir qızı Hacıyeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.orq/0000-0002-1351-6730
E-mail: gyulshan.gadzhiyeva@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).148-151

ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ BİOLOGİYANIN TƏDRİSİ ZAMANI İNKLÜZİV TƏHSİLLƏ BAĞLI MƏSƏLƏLƏRİN ÖYRƏDİLMƏSİ YOLLARI

Гюльшан Надир гызы Гаджиева
доцент
Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПУТИ ИЗУЧЕНИЯ ВОПРОСОВ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ ПРИ ПРЕПОДАВАНИИ БИОЛОГИИ В ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ ШКОЛАХ

Gulshan Nadir Hajiyeva
associate professor at the
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

WAYS OF TEACHING INCLUSIVE EDUCATION IN THE SUBJECT OF BIOLOGY TEACHING METHODOLOGY IN HIGHER PEDAGOGICAL SCHOOLS

Xülasə. İnklüziv təhsil bütün uşaqların fiziki, intellektual və digər xüsusiyyətlərinə baxmayaraq, ümumi təhsil sisteminə daxil edilməsinə və yaşayış yeri üzrə həmyaşıdları ilə birlikdə kütləvi ümumtəhsil məktəbində təhsil almasına əsaslanır.

"İnklüziv təhsil" anlayışı təhsilin əsas insan hüququ olduğuna və daha ədalətli cəmiyyət üçün zəmin yaratdığına inamdan formalaşmışdır. Bütün tələbələrin fərdi keyfiyyətlərindən və problemlərindən asılı olmayaraq təhsil almaq hüququ vardır.

İnklüzivlik sözün geniş mənasında təkcə təhsil sahəsini deyil, həm də sosial münasibətlərin bütün spektrini əhatə edir: iş, ünsiyyət, əyləncə. Hər yerdə rahatlıq, xoş əhval olmalı, ətraf mühitin, ictimai şüurun maneələri aradan qaldırılmalıdır.

Açar sözlər: *İnklüziv, xüsusi, fərdi, təhsil, metod*

Аннотация. Инклюзивное образование основано на том, что все дети, несмотря на их физические, интеллектуальные и другие особенности, включены в систему общего образования и учатся в массовой общеобразовательной школе вместе со своими сверстниками по месту жительства.

Концепция «инклюзивного образования» основана на убеждении, что образование является основным правом человека и создает основу для более справедливого общества. Все учащиеся имеют право на образование, независимо от их индивидуальной квалификации и проблем.

Инклюзия в широком смысле слова охватывает не только сферу образования, но и весь спектр социальных отношений: работу, общение, развлечения. Везде должен быть комфорт и хорошее настроение, должны быть устранены препятствия среды и общественного сознания.

Ключевые слова: *инклюзивное, специальное, индивидуальное, образование, метод*

Abstract. Inclusive education is based on inclusion of all children in the general education system, regardless of their physical, intellectual and other characteristics, and studying in a mass general education school together with their peers based on their place of residence.

The concept of "inclusive education" is formed from the belief that education is a basic human right and creates a foundation for a fairer society. All students have the right to study, regardless of their individual qualifications and problems.

Inclusion in the broadest sense of the word covers not only the field of education, but also the entire spectrum of social relations: work, entertainment, entertainment. There should be comfort and good mood everywhere, obstacles of environment and social consciousness should be removed.

Key words: *Inclusive, special, individual, education, method*

İnklüziv təhsil elə bir təhsil və tərbiyə prosesidir ki, bu prosesdə fiziki, əqli və digər xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqlar ümumi təhsil sisteminə daxil edilir və əlilliyi olmayan həmyaşıdları ilə birlikdə yaşayış yeri üzrə təhsil alırlar.

İnklüziv təhsilin xüsusiyyəti nədir?

İnklüziv təhsil və tərbiyə formasının fərqləndirici xüsusiyyəti bütün uşaqların fərdi təhsil ehtiyaclarını adətən inkişaf edən və "xüsusi" olanlara bölmədən nəzərə alınmasıdır.

İnklüziv təhsilin mənası nədir?

İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən, bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşma baxımından hamı üçün təhsilin əlçatanlığını nəzərdə tutan ümumi təhsilin inkişafı prosesidir.

Təlim məqsədləri: Şagirdlərin uzun müddət ərzində əldə etməsi gözlənilən geniş miqyaslı hədəflərdir. Bu hədəflər dövlət və ya məktəb proqramında öz əksini tapır.

Təlim hədəfləri: Həm qısa, həm də uzunmüddətli olmaqla daha spesifik təlim nəticələridir.

Təlim hədəfləri müəllimlər tərəfindən müəyyən edilir, dərs planı və qiymətləndirmə strategiyalarını tərtib etməyə onlara kömək edir.

Təlim hədəfləri 3 hissəyə bölünür: Uşaq nəyi bilməlidir? Uşaq nəyi anlamalıdır? Dərsdən sonra, yarımil və ya dərs ilinin sonunda nə bacarmalıdır?

Nəyi bilməlidir? Şagirddən yadda saxlaması tələb olunan əsas məlumatlara faktlar, təriflər, tarixlər və lüğət daxildir.

Nəyi anlamalıdır? Konsepsiya, prinsiplər və ümumiləşdirmələr şagirdin anlamalı olduğu "əsas məsələlər"dir.

Nə bacarmalıdır? Müxtəlif kontekstlərdə uşaqların sərbəst olaraq tətbiq etməsi gözlənilən bacarıqlar nəzərdə tutulur. Bu tənqidi və yaradıcı düşüncə tələb edir.

Nümunə: Biologiya fənni "Səhraların biosferi" mövzusundan sonra şagirdlərdən aşağıda sadalananlar tələb olunur:

- Nəyi bilməlidir? Səhra bitkiləri; Səhra heyvanları; Təriflər: həyat dövrü, təbii şərait, ətraf mühit.
- Nəyi anlamalıdır? Səhra bitkiləri və heyvanları aid olduqları konkret mühitə uyğun davranış nümayiş etdirirlər. Səhra heyvanları və bitkilərinin qida zəncirini.
- Nə bacarmalıdır? Səhra heyvanları və bitkilərinin həyat dövrünü təsvir etmək. Səhra heyvanları və bitkilərinin yaşadığı mühitə uyğunlaşmasına imkan verən xüsusiyyətləri (funksiya və strukturlar) təsvir etmək. Səhra heyvanları və bitkilərinin qida zəncirinin bir qismi kimi bir-biri ilə qarşılıqlı əlaqəsini müəyyən etmək. Səhrada baş verən dəyişikliklərin səhra heyvanlarına mənfi və müsbət təsirini müəyyən etmək.

Digər mövzu: "Təbiətdə və insan həyatında bitkilərin əhəmiyyəti"

Müəllim: "Bitkilərin təbiətdə və insan həyatında əhəmiyyəti" dərsliyinin mətnini oxuyun.

Müəllim: Dərsliyin mətni ilə tanış olduqdan sonra bitkilərin təbiətdə və insan həyatında əhəmiyyətindən danışaq.

- Yer üzündə insan həyatı bitkilərsiz mümkündürmü? (mümkün deyil, onlar qida və oksigen, sənaye üçün xammal verir, həyatımızı bəzəyir).

Bitkilər insanların istifadəsinə görə hansı qruplara bölünür? (yem, qida, dekorativ və texniki, dərman).

Bitkilərin heyvanlar üçün əhəmiyyəti nədir? (bitkilər qidadır; bəzi heyvanlar yaşayış evləri tikmək və qoruyucu məqsədlər üçün istifadə olunur)

Şagirdlər: öz seçimlərini təklif edirlər.

Müəllim: İndi alınan məlumatları dəftərlərə qeyd edək.

Şagirdlər: Dərslikdən təbiətdə və insan həyatında bitkilərin mənalarının əsas növlərini yazın.

Müəllim: indi aşağıdakı tapşırığı yerinə yetirək (illüstrasiyalar və tapşırıqlar olan didaktik kartlar paylanır)

Şagirdlər: Dərslikdən təbiətdə və insan həyatında əsas rol oynayan bitki növlərinin adlarını yazırlar.

Müəllim sonra mövzu ilə əlaqədar krosvord həlli, klaster və digər tapşırıqlar verir.

İnklüziv formada. Dərsin mövzusu: "Otlar"

Müəllim: Bu gün sizinlə otlar kimi bitkilərin həyat forması haqqında danışacam (söhbət elementləri (mimika, jestlər, fasilə ilə danışmaq və s.) ilə müəllimin hekayəsi)

Otlar yerə yaxın bitən, ağac kimi hündür olmayan, bərk gövdəsi olmayan, gövdəsi yumşaq və yaşıl olan bitkilərdir.

Pəncərədən baxaq: qış ağacının görünüşünü təsvir edin.

Ot görürsən? (yox) ona nə olub? (quruyub, qar altında donub)

Qışda otlar ölür, yalnız toxumları qalır, yazda cücərəcək və yeni bitkilər görünəcək.

Gəlin bu aləmin sakinləri haqqında daha çox öyrənək. Bütün otlar meşədə bitə bilməz (Sizcə niyə? – qaranlıqdır). Açıq havada, çəmənliklərdə və çöllərdə ot üçün genişlkdir. Burada, yəni meşədə isə onların bütün hissələri – budağı, yarpağı, saplağı çox sıxılır, yayda isə əsl çəmənlikdə otların içindən keçmək çətindir.

Biz çəmənlikdə torpağı qazmağa çalışsaq, nə görəcəyik? – yalnız kürəklə onun üst qatını kəsə bilərik. Otların kökləri bir-birinə qarışmışlar, axı bura çəmənlikdir.

Burada nə qədər müxtəlif otlar var – saymaq olmur. Adətən biz "ot" sözünü birbaşa yerdən böyüyən uzun nazik yarpaqlı bitkilərə deyirik.

Otlar müxtəlifdiirlər, buna görə də birbirlərinə sıxlıq yaratmırlar. Otlar arasında işıqsevənlərin gövdəsi hündürdür. Gövdəsi qısa olanlar onların kölgəsində inkişaf edirlər.

Otların necə çiçək açdığına baxaq. Yayda onların üzərində nazik, lakin çox güclü bir sap böyüyəcək – bu saman çöpüdür. Saman çöpünün üzərində düyünlər görəcəksiniz. Saman bir düyündən o biri düyünə qədər böyüyür. İçərisi də boru kimi olur. Hər borunun sonunda yarpağı inkişaf edir. Samanın yuxarı hissəsində isə sünbülü olur (müəllim ot bitkisinin gövdəsini, yarpağ və sünbülünü canlı şəkildə göstərə bilər.

Yazda çəmən otları tamamilə eyni görünür: "yaşıl otlardır". Yayda isə otlar küləyin təsiri ilə yellənəndə onların nə qədər fərqli olduğunu görmək olar. Bu otlardan biz yayda çələng düzəldib başımıza bəzək kimi qoyuruq.

Altı ayda bir qarış.

Bir ayda altı qarış.

Taxıl.

Müəllim: indi aşağıdakı tapşırığı yerinə yetirək (illüstrasiyalar və tapşırıqlar olan didaktik kartlar paylanır) .

Tamamlanmış tapşırıqlar əsasında söhbət (söhbət elementləri ilə) aparılır.

Müəllim:

Otlar haqqında nə öyrəndiniz? (bunlar yerə yaxın bitən bitkilərdir, ağac kimi hündür deyil, möhkəm gövdəsi yoxdur, gövdəsi yumşaq və yaşıldır.)

Çəmənlikdə hansı otlar bitir? (taxıl və yonca, çobanyastığı kimi müxtəlif ot bitkiləri.)

Çəmən nədir? Niyə meşədə çəmənliyə nisbətən torpaqda ot bitkilərinin sıxlığı azdır? (Çəməndə bitkilərin bir-birinə qarışmış kökləri çoxdur. Çünki çəmənlikdə ot bitkilərinin sayı daha çoxdur.)

Nəyə görə onlar sıxlıq olsa da birlikdə yaşaya bilirlər? (bəziləri işıqsevər olur, bəziləri də kölgədə inkişaf edir).

Biologiyanın tədrisi şagirdlərin əqli və fiziki inkişafındakı nöqsanların aradan qaldırılmasına yönəlib. Canlı və cansız təbiətlə tanışlıq prosesində şagirdlərin müşahidə, nitq və təfəkkürü inkişaf etdirir, ən sadə səbəb-nəticə əlaqələrini və canlı orqanizmlərin qarşılıqlı əlaqəsini qurmağı öyrənirlər. Dərsləri apararkən informasiya-kommunikasiya texnologiyalarından fəal şəkildə istifadə edilir. Şagirdlərə multimedia təqdimatlarına, maarifləndirici sənədli və bədii filmlərə baxmağı təklif olunmalıdır. Buna əsasən aşağıdakı müxtəlif didaktik materiallardan istifadə oluna bilər:

- proqramın mövzuları üzrə cədvəllər və tablolar, kartlar, illüstrasiyalar,
- üçölçülü tablolar,
- tərəvəzlərin, meyvələrin, göbələklərin süni formaları,
- bitkilərin, təbii obyektlərin quruluşunun modelləri,
- herbarilər;
- həşəratların, minerallarn kolleksiyaları;
- heyvan skeletləri.

Əyaniliyə görə heç bir məktəb fənni biologiya ilə müqayisə oluna bilməz. Müvafiq olaraq, belə uşaqlarla işləməkdə vacib element biologiyadan rəsm çəkmək və mikroskopla işləməkdir. Eyni zamanda, sağlamlıq imkanları məhdud uşaqların iş tempinin də nəzərə alınması vacibdir. Bioloji rəsmlərin öz-özünə yerinə yetirilməsi çətinlik yaradır. Bu vəziyyəti "Bitki hüceyrəsinin quruluşu" dərsinin nümunəsində nəzərdən keçirmək olar. Müəllim əvvəlcədən rəsm şablonunu hazırlayır, çap edib əlilliyi olan şagirdə verir. Şablonda şəkil və şəkil üçün başlıqların siyahısı var, şagirdin vəzifəsi şəkil üçün rəqəmsal qeydi imzalamaq olacaq . Uşaq çox səy göstərmədən öhdəsindən gəlirsə, şablonun konturlarının köməyi olmadan öz əlinizlə iş kitabında bənzər bir rəsm çəkməyə çalışmağı təklif edə bilərsiniz.

Problemin aktuallığı. İnklüziv təhsil və tərbiyə formasının fərqləndirici xüsusiyyəti bütün uşaqların fərdi təhsil ehtiyaclarını adətən inkişaf edən və "xüsusi" olanlara bölünmədən nəzərə alınmasıdır.

Ali pedaqoji məktəblərdə oxuyan gənclərə orta məktəbdə inklüziv təhsilin öyrədilir.Gələcəyin biologiya müəllimlərinə də inklüziv yanaşmanın yollarını öyrənirlər.

Problemin elmi yeniliyi. Ali pedaqoji məktəblərdə inklüziv yanaşmanın yolları nümunələr əsasında məqalədə göstərilmişdir.

Problemin praktik əhəmiyyəti. İnklüziv, diferensial yanaşma nəticəsində şagirdin bilik səviyyəsi daha da yüksəlir, elmə, oxumağa marağı artır. Biologiya fənnində keçilən bütün mövzularda inklüzivlik və diferensiallığa riayət etmək lazımdır.

Ədəbiyyat:

1. Burns, Mary. "Five Models of Teacher-Centered Professional Development." https://www.globalpartnership.org/blog/ five-models-teacher-centered-professionaldevelopment, Education Development Centre, 2014.
2. "Flipping Teacher Professional Development." https: //www. globalpartnership. org/blog/ flipping-teacher-professional-development, Education Development Centre, 2016.
3. "Professional Development Alternatives to the Workshop." https:// www. globalpartnership.org/blog/professional-development-alternatives-workshop,Education Development Centre, 2018.
4. UNICEF. "Vebinar 11, Əlçatan məktəb və təlim mühiti – Universal Öyrənmə Dizaynı. Texniki məlumat kitabçası." -Nyu-York: UNICEF, -2014.
5. "Vebinar 12 – Müəllim, inklüziv və uşaqyönümlü təlim və pedaqogika. Texniki məlumat kitabçası." -Nyu-York: UNICEF,- 2014.
6. UNICEF və WHO. "Əlilliyi olan uşaqlar üçün köməkçi texnologiya. Təhsil, inklüziya və iştirak üçün imkanların yaradılması: Müzakirə vərəqəsi" https://www.unicef.org/disabilities/files/Assistive-Tech-Web.pdf (Son giriş tarixi: 14/11/18), UNICEF və WHO, 2015.
7. Villinqs, C. "Görmə məhdudiyyətləri olan şagirdlərin təlimi" https://www.teachingvisuallyimpaired.com/board-work-chalk-interactive-white.html (Son giriş tarixi: 13/11/18), 2018.
8. https://kbsu.ru/bez-rubriki/inkljuzivnoe-obrazovanie-chto-jeto-takoe/ © Kabardin-Balkar Dövlət Universitetinin rəsmi saytı. HM. Berbekova

Redaksiyaya daxil olub:10.01.2025

UOT 372.857

Təranə Qeyis qızı Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9151-8950
E-mail: abdullayeva.tarana@adpu.edu.az

Əfsanə Nəzir qızı Uluxanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0007-7579-5943
E-mail: efsaneuluxanova19@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).152-156

BİOLOGİYANIN TƏDRİSİNDƏ PRAKTİK İŞLƏRLƏ BAĞLI PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Тарана Гейс гызы Абдуллаева
доктор философии по биологии, доцент
Азербайджанского Государственного Педагогического Университета

Афсана Назир гызы Улуханова
Азербайджанский Государственный Педагогического Университет

ПРОБЛЕМЫ, СВЯЗАННЫЕ С ПРАКТИЧЕСКОЙ РАБОТОЙ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ И СПОСОБЫ ИХ РЕШЕНИЯ

Tarana Qeyis Abdullayeva
associate professor at
Azerbaijan State Pedagogical University
doctor of philosophy in biology,

Afsana Nazir Ulukhanova
Azerbaijan State Pedagogical University

PROBLEMS AND SOLUTIONS IN THE TEACHING OF BIOLOGY THROUGH PRACTICAL WORK

Xülasə. Keçirilən biologiya dərsləri əzbərə dayanan bilik yox bacarıq formalaşdırmalıdır. Praktik işlərdən istifadə etmək şagirdlərdə yaradıcılıq potensialının inkişafına şərait yaradır. Praktik işlərin həyata keçirilməsi üçün müəyyən mövzularda İKT-dən istifadə edilir ki, təəssüflər olsun ki, bəzi məktəblərdə İKT vasitələri hələ də yoxdur. Bu da öz təsirini biologiya dərslərinin tədrisində bəzi çatışmazlıqlar ilə göstərir. Başqa bir problem isə dərs saatlarında praktik işlərlə bağlı əlavə saatın ayrılmamasıdır. Bu da bir dərs müddəti bəzi praktik işlərin yerinə yetirilməsində yetərli deyil .Bu problemləri həll etmək üçün bir sıra addımların atılması vacibdir. Bunlardan biri müəllimin metod seçimidir. Keys - texnologiyalarının tətbiqi ilə də bir çox praktik işləri yerinə yetirmək mümkündür ki, bu texnologiya bir çox praktik üsul, metod və priyomları özündə birləşdirir.
Açar sözlər: *metod, proqram, texnologiya, priyom, ixtiraçılıq, tədqiqatçılıq*

Аннотация. Проведение уроков биологии должно формировать не только запоминание знаний, но и навыки. Использование практических работ способствует развитию творческого потенциала учащихся. Для реализации практических работ в определенных темах используется ИКТ, однако, к сожа-

лению, в некоторых школах такие средства все еще отсутствуют. Это негативно сказывается на преподавании биологии и приводит к определенным недостаткам. Еще одной проблемой является отсутствие дополнительных часов для практических работ в учебном расписании, что делает недостаточным время для выполнения некоторых практических заданий. Для решения этих проблем необходимо предпринять ряд шагов. Одним из них является выбор методов преподавания. Применение кейс-технологий позволяет успешно реализовать множество практических заданий, так как эта технология включает в себя различные методы и приемы.

Ключевые слова: *метод, программа, технология, прием, изобретательность, исследовательская деятельность*

Abstract. In biology teaching, the focus should be on developing skills rather than memorizing information. The use of practical work helps foster students' creativity and potential. In some topics, Information and Communication Technology (ICT) is used for conducting practical activities. Unfortunately, some schools still lack the ne-cessary ICT tools, which affects the quality of biology lessons. Another issue is the lack of additional time for practical work during lessons. As a result, there is often insufficient time to complete certain practical activities within a single lesson. To address these issues, several steps need to be taken. One of these is the teacher's choice of method. The application of case-based technologies, which incorporate va-rious practical techniques, methods, and approaches, can also be used to perform many practical tasks effectively.

Key words**:** *method, program, technology, technique, creativity, research*

Biologiya fənni ilə bağlı elmi-metodik ədəbiyyatın araşdırılması və əldə olunan nəticələr:

Biologiya və onun tədrisində yeni təlim texnologiyaları kitabının 2-ci mövzusunda fənnin tədrisində kurikulumun tələblərindən istifadə, fənin tədrisi zamanı isə dərslərin şəxsiyyətyönümlü qurulmasının nə dərəcədə zəruriliyindən söz açılır.(1,s. 12)

3-cü mövzuda biologiya dərslərinin fənn kurikulumunun tələbləri əsasında qurulması xarici ölkələrin təcrübəsindən istifadə edilməsi diqqət mərkəzində olmalı olduğu qeyd edilir. (1.s 14)

4-cü mövzuda İKT-nin nə dərəcədə biologiyada vacib olması onun tətbiqinin hansı müsbət nəticələrinin olduğu qeyd olunur. Təəssüf hissi keçirik ki, hələ bir çox məktəblərdə İKT avadanlıqları yoxdur ki, bu da biologiya dərslərinin keyfiyyətinə öz təsirini göstərir.(1.s. 16)

Vurğulamaq lazımdır ki keçilən biologiya dərsləri şagirdlərdə əzbərə dayanan bilik yox bacarıq formalaşdırmasına şərait yaratmalıdır. Hər müəllim başa düşməlidir ki, şagirdlərə bilik verməklə yanaşı dəyişən şəraitdə onlardan istifadə etməyi bacarmağı öyrətmək lazımdır.

Praktik işlərlə bağlı proqramlarda sadalanan çatışmazlıqlar vardır. Praktik işlərdən istifadə şagirdlərin yaradıcılıq potensialının inkişafına, biologiya sahəsində biliklərin dərinləşməsinə, öyrənilən fənnə marağının artmasına kömək edir.

Biologiya dərslərində şagirdlərin idrak fəaliyyətinin aktivləşməsinin ən mühüm komponentləri laboratoriya və praktik işlərdir. Ən maraqlı olan şagirdlərin tədqiqat fəaliyyətində iştirak etməsidir. Bitkilər, heyvanlar canlı təbiətin bir hissəsidir. Məktəblərdə canlı guşənin yaradılması çox aktual məsələdir. Lakin bir çox məktəblərdə buna rast gəlinmir. Müəllim tez-tez dərslərində bir sıra vacib problemləri həll edən laboratoriya təcrübəsini daxil etməli, tədris prosesinin qurulması, ayrı- ayrı alətlərin iş prinsiplərini öyrənməli və bioloji proseslərin xüsusiyyətlərinin nümayiş etdirmək bacarıqlarını inkişaf etdirməklə, baş verənləri izləyib məktəb təcrübəsinə gətirməlidir. (2, s. 18)

Müəllimlər öz işlərində dərsi təşkil edərkən inteqrasiyaya əməl etməlidir.

İnformasiya texnologiyaları hazırda üstünlük təşkil edir. Kompüter texnologiyası praktiki olaraq nümayiş üçün yeganə vasitədir. Kompüter texnologiyalarından istifadə etmək, elektron vasitələr ilə işləmək, virtual təcrübələr, məktəb laboratoriyasında hə-yata keçirilə bilməyən təcrübələr aparmağa imkan verir. (2, s. 22)

8-ci sinif biologiya dərsliyi bütövlükdə insan orqanizmi ilə bağlı mövzuları əhatə edir. 3D anatomy, 4 D anatomy və s. kimi mobil tətbiqlər vasitəsilə və onlayn laboratoriyalar vasitəsi ilə şagirdlər öyrənmə prosesinin tam içərisində olurlar. (2. s. 25)

Biologiya 8-ci sinif dərsliyindən gəldiyim nəticəyə əsasən laboratoriya təcrübələri üçün dərsliklərdə xüsusi yer və göstəriş yoxdur. Həmçinin onun üçün də xüsusi saat ayrılmamışdır. Müəllim yaradıcı yanaşarsa biologiyadan möv-

zular real təcrübə laboratoriya işləri ,canlı obyektlərlə təcrübələrin aparılması, şagirdlərdə müstəqil idrak fəaliyyəti üçün texnika və bacarıqların inkişafına kömək edər. (2, s. 23)

Şagirdlərin öyrənməsini asanlaşdırmaq, öyrəndiklərini daha yaxşı yadda saxlamağına şərait yaratmaq üçün əyləncəli praktik işlərə və laboratoriya işlərinə yer vermək olar. Maraqsız izahat, az və sıxıcı faktlar əvəzinə ixtiraçılıq, sağlam düşüncənin inkişafına, məntiqinin inkişafına şərait yaratmaq olar.

Dərslərdə yaradıcılıq ,tədqiqat və ixtiraçılıq tapşırıqlarından istifadə edilməlidir.

Müasir məktəb təhsili şagirdlərin həm intellektual həm də tədqiqatçılıq və yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir. Biologiya dərsləri daha düşünülmüş proqramlaşdırılmalıdır ki, şagirdlərdə müstəqil fəaliyyətin inkişafına, bir sıra praktik bacarıqların mənimsənilməsinə kömək etsin.

Biologiyada Keys texnologiyalarından istifadə.

Son zamanlar ümumtəhsil məktəblərində biologiya müəllimlərinin metod seçməsi lazım gəlir ki, metodların növlərinə uyğun özündə bir neçə üsulu, metodu birləşdirən Keys texnologiyalarından istifadə edilir.

Keys sözü ingilis sözü olub, hadisə deməkdir. Müəyyən praktik problemlərin həlli yolunda kollektiv şəkildə və ya fərdi olaraq araşdırılmasına uyğun çox funksiyalı texnologiyadır. Keys texnologiyasının məktəblərdə tətbiqi 20-ci əsrin əvvəllərinə təsadüf edir. Keys texnologiyası ilə situatik çalışmalar, nəzəriyyələr və praktik vərdişlərin öyrənilməsi üçün fərdi fəaliyyət istiqamətləri olmalıdır. (3. s 32)

Keys texnologiyası ilə hazırlanan çalışmaların dolğun cavablandırılması bir neçə pillədə həyata keçirilir.

1-ci mərhələ – keys çalışmalarını şagirdlər mətnə uyğun analiz etməlidir.

2-ci mərhələ – problemə uyğun bioloji biliklərə aid elmi və praktik məlumatlar cəmləşdirilməlidir.

3-cü mərhələ – praktik situasiyanın nəticəsinə əsaslanıb şagirdlər fərdi cavabları formalaşdırmalıdır.

4-cü mərhələ – digər variantlar müzakirə olunmalıdır. Şagirdlərə paylanmış materiallar praktik bacarıqların formalaşmasına şərait yaradır.

Texnologiya bir sıra bacarıqların inkişafına şərait yaradır:

1) öyrənməyi öyrətmək bacarığı
2) praktik bacarıq
3) tədqiqatçılıq bacarığı
4) kommunikativ bacarıqlar

Praktik bacarıqları inkişaf etdirməklə bərabər olaraq nəzəri biliklərin qanun və nəzəriyyələrinin öyrənməsi üçün metod və nəzəriyyələrinin öyrənilməsi üçün priyomlardan istifadə üçün şərait yaradır. Praktik işlərin icrasının mənimsəməklə laboratoriya məşğələlərinin aparılmasında, işin gedişində tətbiq edərək nəticə əldə olunmasını asanlaşdırır və praktik tapşırıqların nəticələr əsasında təqdimat hazırlama bacarıqlarını inkişaf etdirir. (3. s 34)

Praktiki keyslər verilən nəzəri bilikləri və bioloji qanunların öz təsdiqini tapması üçün istifadə olunur.

Praktik işlər də özü iki qrupa bölünür :

1)praktik məşğələlər
2) laboratoriya məşğələləri

Praktik keyslərdə şagirdlər canlar aləmində baş verən proseslərin əyani şahidi olur. Praktiki keyslər həmçinin tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına şərait yaradır. Praktiki keyslərin məqsədi ondan ibarətdir ki, şagirdlərin fənnə, tədris vahidinə dair qazandığı nəzəri bilikləri praktikada tətbiq etməklə bir sıra bacarıqları özündə yaradır. Bundan başqa elmi tədqiqat keysləri və s. də istifadə olunur. (3, s. 36)

Hazırlanan dərs nümunəsinin icmalında keysin tiplərindən istifadə olunmuşdur. İcmala daxil edilən qiymətləndirmə tapşırılqarı keys texnologiyasının tələbləri əsasında hazırlanıb. Materiallar situativ tiplidir. Tapşırıqlar mövzu ilə bağlı bilik və bacarıqların sərbəst mənimsənilməsinə şərait yaradır.

Sinif: 8

Mövzu: Qida maddələri və həzm orqanları

Alt standart: 1.1.2. İnsan orqanizminin təşkil səviyyələrini təsvir edir.

Təlim nəticəsi: Həzm sistemi orqanlarını təsvir etmək.

İnteqrasiya: H.b 4.1.1 Kimya 1.1.2.

İş üsulları: Venn diaqramı,3-2-1,klaster

İş forması: kollektivlə, qrupla, komada ilə

Resurs: kompüter, İKT vasitələri, proyektor, marker, dərslik, paylama materialları

1.Maraqoyatma

https://youtu.be/iYkQwpA86hU?si=kovI8KfkjtWZJwKT

Zərərli qidalar və onların qəbulu nəticəsində hansı orqanların zərər görməsi haqqında videonun müşahidəsi.

Araşdırma: Bu mərhələdə şagirdlərə qida maddələrinin orqanizmdə rolunu ,həzm olunmasını və keçdiyi yolları araşdırmaq tapşırılır.

Şagirdlər jurnal sırasında cüt və tək saylar olmaqla 3 qrupa ayrılır.

İş vərəqi – 1

Tapşırıq 1

Su və mineral maddələrin orqanizmdə rolunu və keçdiyi yolu araşdırın.

Tapşırıq 2

Həzm kanalına nələr daxildir? anlayışını daxilə yazın və klasteri həll edin.

İş vərəqi – 2

Tapşırıq 1

Yağların orqanizmdə rolunu və keçdiyi yolu araşdırın.

Tapşırıq 2

Nümunəyə əsasən tamamlayın.

Su – orqanizmdə istiliyi tənzimləyir. Bir çox reaksiyalar su mühitində gedir.

Karbohidrat –

Zülal –

Mineral duzlar –

Yağlar –

İş vərəqi – 3

Tapşırıq 1

Zülalların orqanizmdə rolunu və keçdiyi yolu araşdırın.

Tapşırıq 2

Uyğunluğu müəyyən edin.

1. Su a) sümükləri möhkəmləndirir.

b) yaraların sağalmasına kömək edir

2. Mineral duz c) Maddələri daşıyır

ç) istiliyi tənzimləyir.

İzahetmə: Qəbul edilən qidalar orqanizm üçün çox əhəmiyyətlidir. Onların içərisində su, mineral duzlar, karbohidratlar, zülallar, yağlar və vitaminlər var. Qida məhsullarının tərkibində bu maddələrin miqdarı fərqlidir. Onların hər biri bir neçə funksiya yerinə yetirir. Bu isə orqanizmin qorunmasına, böyüməsinə və inkişafına, digər funksiyaları yerinə yetirməsinə səbəb olur.

Su həlledicidir. Orqanizmdə maddələri daşıyır, istiliyi tənzimləyir

Mineral duzlar bir çox həyati əhəmiyyətli prosesin tənzimlənməsində iştirak edir: sümükləri möhkəmləndirir, qanın laxtalanmasına kömək edir, orqanizmin daxili maye mühitinin sabitliyini təmin edir və s. Mineral duzlardan yalnız xörək duzunu qidaya əlavə edirik, digər duzlar isə orqanizmə su və qidalarla daxil olur.

Zülallar, əsasən, orqanizmdə böyümə, inkişaf, yaraların sağalması, saçların uzanması, mikroorqanizmlərə qarşı müqavimət kimi prosesləri həyata keçirir. Orqanizmin əsas inşaat materialıdır, lazım gəldikdə enerji mənbəyi rolunu da oynayır.

Yağlar orqanizmin ehtiyacı olduqda enerji mənbəyi funksiyasını yerinə yetirir. Yağ-ların oksidləşməsindən alınan su orqanizmi su ilə də təmin edir. Yağların artığı orqanizmdə toplanır və çəkini artırır. Qəbul etdiyimiz yağlar bərk və duru halda olur.

Karbohidratlar əsas enerji mənbəyidir. Çatışmadıqda orqanizm zəifləyir.

93 94 95

Dərinləşdirmə

Qida maddələrinin oxşar və fərqli cəhətlərini Venn diaqramı çəkməklə yazın.

1-ci komanda

Karbohidratlar və yağlar

2-ci komanda

Su və mineral duzlar

Qiymətləndirmə

1.Təsvir etmə

2.İzahetmə

Refleksiya

3-2-1 metodu

3 bilmədikləriniz

2 öyrəndikləriniz

1 maraqlı olan məlumat (6, s. 109)

Problemin aktuallığı. Bu gün əsas problemlərdən biri məktəblərdə praktik işlərlə bağlı olan problemlərdir. Dərs saatlarında bununla bağlı əlavə saat ayrılmaması, eyni zamanda da proqramlaşdırmanın düzgün aparılmaması praktik işlərin öz funksiyasının itirilməsinə, şagirdlərdə mövzuya marağın azalmasına gətirib çıxarır. Elə mövzular var ki, bu mövzular məhz praktikada daha maraqlı və yadda qalan olur. Ümumtəhsil məktəblərində müəllimlər dərsləri təşkil edərkən metod seçimini düzgün etməli, proqramlaşdırmanı düzgün aparmalıdır. Bu aktual bir problemdir.

Problemin yeniliyi. Praktik işlərlə bağlı müəllimlərin təcrübəli olması, dərs müddətində praktik işlərin aparılması, proqramlaşdırmanın düzgün tərtib edilməsi, Keys texnologiyasından istifadə və bir sıra tələblərin reallaşdırılmasıdır.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Məqalə ümumtəhsil məktəb müəllimlərinin dərsin təşkili işində istifadə oluna bilər.

Ədəbiyyat:

1. Əhmədova S.S. Biologiya və onun tədrisində yeni təlim texnologiyaları: / Əhmədova S.S.- Bakı: "Maarif" nəşriyyatı,-2020.-108 s.
2. Cavadova A.Ə. Ümumtəhsil məktəblərində biologiyanın həyat bilgisi ilə əlaqəli tədrisi:/ magistr ali elmi-ixtisas dərəcəsi dissertasiyası)/- Bakı, 2024. – 79 s.
3. Бекшаев, И.А. Физиологии клетки; осмотические свойства. Разработка практического занятия по биологии в школенатему / И.А. Бекшаев , Р.Г. Иванов//- Rusiya:Проблемы собременного педагогического образования, -2018, №59-,с 77-81.
4. Бекшаев,И.А. Кейс-метод:ставление и использование заданий в учебномпрацессе / И.А. Бекшаев, Т.В. Дьячкова, Р.Г Иванов//- Rusiya :Биология в школе, -2020.№2-,с .31-42.
5. Kazımov ,İ.M. Biologiya-Ümumtəhsil məktəblərinin VI-XI sinifləri üzrə qiymətləndirmə vəsaitləri, gündəlik dərs planlaşdırmasının tətbiqi. Metodik vəsait./ İ.M. Kazımov, B .Bayramova. -Bakı: ADPU-nun nəşri,-2019.-214 s.
6. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün biologiya fənni üzrə dərsliyin metodik vasaiti. - Bakı: Şərq-Qərb,- 2019.- 176 s.

Redaksiyaya daxil olub: 23.01.2025

UOT 372.857

Xoşqədəm Qonaq qızı İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5987-3346
E-mail: xosqedem.ibrahimova59@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).157-161

BİOLOGİYA DƏRSLƏRİNDƏ MƏNTİQİ TAPŞIRIQLARIN TƏTBİQİ TEXNOLOGİYASI

Хошгадам Гонаг гызы Ибрагимова
доцент Азербайджанского Государственного Педагогического Университета
доктор философии по педагогике

ТЕХНОЛОГИЯ ПРИМЕНЕНИЯ ЛОГИЧЕСКИХ ЗАДАНИЙ НА УРОКАХ БИОЛОГИИ

Khoshgadam Gonag Ibrahimova
associate professor at the Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

APPLICATION TECHNOLOGY OF LOGICAL PROBLEMS IN BIOLOGY LESSONS

Xülasə. Məqalədə biologiya dərslərində məntiqi təfəkkürü inkişaf etdirən tapşırıqların tətbiqi texnologiyası açıqlanmışdır. Məntiqi təfəkkürün inkişaf etdirən tapşırıqların tətbiqi zamanı yeni bilik, bacarıq və vərdişlər formalaşır, fəallıq, maraq, erudisiya, yaradıcı təfəkkür və digər şəxsi keyfiyyətlər inkişaf edir. Şagirdlərin bilik keyfiyyətinin yüksəldilməsində, onların intellektual inkişafı və elmi dünyagörüşünün formalaşmasında təfəkkürün fəallaşdırılması böyük rol oynayır.
Açar sözlər: *məntiqi təfəkkür, təhlil, sintez, müqayisə, abstraksiya ümumiləşdirmə, konkretləşdirmə, spesifikasiya*

Аннотация. В статье описана технология применения заданий, развивающих логическое мышление на уроках биологии. В ходе выполнения заданий, развивающих логическое мышление, формируются новые знания, умения и навыки, развивается активность, интерес, эрудиция, творческое мышление и другие личностные качества. Активизация мышления играет большую роль в повышении качества знаний учащихся, в их интеллектуальном развитии и формировании научного мировоззрения.
Ключевые слова*: логическое мышление, анализ, синтез, сравнение, абстракция, обобщение, конкретизация, спецификация*

Abstract. The article describes the technology of applying tasks that develop logical thinking in biology lessons. During the application of tasks that develop logical thinking, new knowledge, skills and habits are formed, activity, interest, erudition, creative thinking and other personal qualities develop. Activation of thinking plays a major role in improving the quality of students' knowledge, their intellectual development and the formation of a scientific worldview.
Key words*: logical thinking, analysis, synthesis, comparison, abstraction, generalization, concretization, specification*

Təhsilin ən vacib vəzifələrindən biri də meyl və qabiliyyətlərin, intellektin inkişafı, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdir. Buna görə də şagirdlərin məntiqi təfəkkürünün inkişafı məktəbin prioritet istiqamətlərindən biridir.

Təfəkkür – ali psixi fəaliyyətin insana məxsus bir forması olub, cisim və hadisələr arasındakı qanunauyğun əlaqə və münasibətlərin ümumiləşmiş və vasitəli inikasından ibarət olan mürəkkəb idrak prosesidir.

Məktəb yaşının ilk dövrlərində praktik təcrübə əsasında, ilk dəfə sadə şəkildə olsa da, məntiqi təfəkkür yaranır və inkişaf edir. Təfəkkür insanın yaradıcı fəaliyyətinin əsasını təşkil edir. Təfəkkür prosesi zamanı faktlar təhlil edilir, ümumiləşdirilir və yeni nəticələr əldə edilir: məsələn, fosfor çatışmazlığı bitkinin kökünün inkişafını məhdudlaşdırır, bitkini zəiflədir, çox vaxt bənövşəyi yaşıl rəng alır. Azotun çatışmaması isə bitkinin inkişafdan qalması, yarpaqların ağ-yaşıl və sarımtıl-yaşıl rəng alması ilə müşahidə olunur. Bitki nazikləşir, gücdən düşür, inkişaf zəifləyir, cırlaşır və məhsul azalmaqla keyfiyyəti aşağı düşür. Azotu normadan artıq istifadə etdikdə bitkinin vegetativ orqanları həddən artıq böyüyür, fizioloji proseslər pozulur. Bitkinin tərkibində canlı orqanizmlər üçün zərərli olan toksiki maddələr toplanır. Anemiya ilə daxil olan xəstəni həkim müayinə edərkən xəstəliyin ümumi əlamətlərinə, dəridə baş verən dəyişikliklərə, halsızlıq, baş gicəllənməsi, yuxululuq, orqanizmdə dəmir, fol turşusu, B_{12} vitamininin çatışmazlığı və digər yaranma səbəblərini müəyyən edir, ilk profilaktik tədbir olaraq düzgün qidalanmanı göstərir, gələcəkdə nə kimi ağırlaşmaların ola biləcəyini nəzərə alır və bunlara əsasən müalicəni davam edir [6, s. 161-163].

Məntiqi təfəkkür, inkişaf etmiş düşünmə qabiliyyəti hər bir uşaq üçün lazımdır. Axı həm öyrənmədə, həm də həyatda davamlı uğuru ancaq düzgün nəticə çıxaran, ağılla hərəkət edən, ardıcıl düşünənlər əldə edir.

Biologiyanın tədrisində təlim nəticəsinə uyğun olaraq müqayisəedici, qruplaşdırıcı, əsas məsələləri ikinci dərəcəli məsələlərdən seçməni tələb edən tapşırıqlar vermək kifayət edir ki, məntiqi təfəkkürün inkişafına təkan vermiş olsun. Biologiya dərslərində təsvir et, müqayisə et, oxşarlıqları və fərqləri tap, təsnif et, qur, dəyişdir, hesabla, sadələşdir, müəyyən et, öz tərifini ver, əlaqəni aşkar et, sxem, qrafik, cədvəl düzəlt, tərtib et, davam et, təhlil et, izah et, şərh et, nəticə çıxart, səbəbi tap(səbəb, nəticə), ümumiləşdir, əsas ideyanı seçib ayır, mahiyyətini ifadə et kimi ifadələrdən məntiqi təfəkkürün inkişaf etdirilməsinə aid tapşırıqlarda istifadə olunur. Təfəkkür prosesinin əsasını həyat təcrübəsi, bilik ehtiyatları təşkil edir, təfəkkür intellektin aktiv fəaliyyət forması kimi də başa düşülür. Təfəkkür prosesi zamanı insan faktları müqayisə və təhlil edir, onların arasındakı əlaqələri, qanunauyğunluqları və digər münasibətləri nəzərdən keçirir, bunların əsasında mühakimə yürüdür.

Təfəkkür prosesinə təsəvvür və anlayışların inteqrasiyası, təhlili əsasında müvəqqəti əlaqələrin yaranması kimi də baxmaq olar.

Anlayışların formalaşmasının əsas məntiqi üsulları təhlil, sintez, müqayisə, abstraksiya, ümumiləşdirmə, dəqiqləşdirmə, təsnifatdır. Ardıcıl, məntiq qanunlarına uyğun düşünmək bacarığı, düşüncələri müəyyən qaydalara uyğun birləşdirmək bacarığı məktəbdə inkişaf etdirilir. Qiymətləndirmək, müzakirə etmək, müqayisə etmək, mühakimə etmək kimi bu keyfiyyətlər həmişə lazımdır. Bütün dərslərdə şagirdlərin məntiqi təfəkkürünün inkişafı təhsilin keyfiyyətini təmin etmək üçün ən vacib tələblərdən biridir.

Məntiqi təfəkkür qanunları həqiqi mühakimələrin və nəzəriyyələrin sübutu, eləcə də yanlış mühakimə və nəzəriyyələrin təkzib edilməsi prosesində düzgün mülahizə prinsipləri kimi fəaliyyət göstərir. Məntiqi təfəkkürün formaları anlayışlar, mühakimələr və nəticələr kimi başa düşülür. Biologiya dərslərində məntiqi təfəkkürün inkişafı üçün müqayisə, təhlil etmək, sübut etmək, səbəb-nəticə əlaqələri qurmaq və ümumiləşdirmək bacarıqlarını inkişaf etdirən tapşırıqlardan istifadə olunur. Müasir təhsilin əsas məqsədlərindən biri "necə öyrənməyi öyrətməkdir". Ancaq inkişaf etmiş məntiqi təfəkkür olmadan yüksək səviyyəli özünütərbiyə və özünü inkişaf etdirmək mümkün deyil. Qətiyyətli və ardıcıl mülahizə yürütmək bacarığı insanın cəmiyyətdə daha uğurlu özünü dərk etməsi üçün lazımdır [7, s. 131-141].

Məntiqi təfəkkürün inkişafı üçün qeyri-standart tapşırıqlardan istifadə xüsusilə önəmlidir. Mövzunun öyrənilməsi zamanı şagirdləri təkcə canlılar aləminin müxtəlifliyi ilə tanış etmək deyil, həm də məlumatları təhlil etməyi, ümumiləşdirməyi və sistemləşdirməyi öyrətmək, müşahidələrdən düzgün nəticə çıxarmağı öyrətmək lazımdır. Qeyri-standart tapşırıqlar məntiqi təfəkkürün inkişafı üçün ən təsirli vasitə hesab edilir. Onlar qeyri-adiliyi ilə diqqəti cəlb edir, düşüncə proseslərini aktivləşdirir və bir sıra təlim problemlərini həll etməyə imkan verir.

Məntiqi təfəkkür məntiqi texnika və konstruksiyalardan istifadə edən təfəkkür növüdür və təhlil, sintez, müqayisə, abstraksiya ümumiləşdirmə, konkretləşdirmə, spesifikasiya ilə fərqlənir.

Təhlil-obyekt və ya hadisənin ayrı-ayrı hissələrini, xüsusiyyətlərini və xassələrini vurğulayaraq onun tərkib hissələrinə əqli şəkildə bölünməsidir. Mürəkkəb bir ideyanın səbəblərini, nəticələrini və digər tərkib hissələrini tapmaq bacarığıdır.

Sintez ayrı-ayrı elementlərin, hissələrin vahid bütövlükdə birləşməsidir. Təsnifatı öyrənərkən müxtəlif hissələri birləşdirmək bacarığı da lazımdır. Məsələn, müəyyən xüsusiyyətlərə malik heyvanların hansı sinfə aid olduğunu müəyyən edə bilmək. Sintezdən dərslərdə istifadə bacarıqlarının formalaşdırılmasına misal olaraq aşağıdakı qeyri-standart tapşırıq verilə bilər: bitkilərin verilmiş xüsusiyyətlərini birləpəlilər və ikiləpəlilər sinfində birləşdirmək və əlaqələndirmək lazımdır.

Müqayisə – cisim və hadisələrin oxşar və fərqli cəhətlərini tapmaq üçün onların müqayisəsidir. Müqayisə – obyektlərin ümumi və xüsusi xüsusiyyətlərini müəyyən etməyə imkan verir. Heyvanlar aləminin təkamülünün inkişafını tam başa düşmək üçün müqayisə çox vacibdir.

Bitki və heyvan hüceyrəsinin müqayisəsi onların ümumi və xüsusi xüsusiyyətlərini müəyyən etməyə imkan verir.



Bitki və heyvan hüceyrələrinin oxşarlıqları	*Bitki və heyvan hüceyrələri arasındakı fərqlər*
1. Nüvə var. 2. Hüceyrə membranı var. 3. Sitoplazma var. 4. Vakuol var. 5. Ribosom var. 6. Mitoxondri var. 7. Holci aparatı var. 8. Endoplazmatik şəbəkə var. 9. Mikroskopdan istifadə etməklə onu görmək olar. 10. Adi gözlə görmək üçün çox kiçikdir. 11. Canlıdır və həyati fəaliyyətləri var. 12. Tənəffüs, ifrazat və həzmi və s. həyata keçirirlər.	1. Hüceyrə divarı bitki hüceyrələrində olur, heyvan hüceyrələrində yoxdur. 2. Bitki hüceyrəsi bucaqlı, heyvan hüceyrəsi oval və ya dairəvidir. 3. Bitki hüceyrələrində plastidlər var, heyvan hüceyrələrində isə yox. 4. Bitki hüceyrələrində sentrosomlar yoxdur, lakin heyvan hüceyrələrində olur. 5. Bitki hüceyrələrinin vakuolları böyük və sayca azdır, heyvan hüceyrələrinin vakuolları isə kiçik və çoxsaylıdır. 6. Bitki hüceyrələrində lizosom orqanoidi yoxdur, lakin heyvan hüceyrələrində olur. 7. Bitki hüceyrələri qlükozanı nişastaya çevirərək saxlayır, heyvan hüceyrələri qlükozanı qlikogenə çevirir.

Bitki hüceyrəsi quruluşuna görə heyvan hüceyrəsindən nə ilə fərqlənir və onların ortaq cəhəti nədir?



Hüceyrə morfologiyası haqqında bilikləri möhkəmləndirmək üçün bitki və heyvan hüceyrələrinin quruluşunun müqayisəli diaqramını, cədvəlini tərtib etmək tapşırığı verilə bilər [2, s.26].

Abstraksiya ümumiləşdirmənin əsasını təşkil edir. Bu əməliyyat mühüm olanı əhəmiyyətsizdən təcrid etmək üçün konkret misallara istinad etmədən mücərrəd düşüncədən ibarətdir. Ümumiləşdirmə cisim və hadisələrin ümumi xüsusiyyətlərinə görə psixi birləşməsidir. Ümumiləşdirmə obyektlərin və hadisələrin abstraksiya prosesində vurğulanan ümumi və əsas əlamətlərə görə qruplara bölünməsidir. Abstraksiya və ümumiləşdirmə prosesi konkretləşdirmə prosesinə qarşı qoyulur. Ümumiləşdirmə bacarıqları canlı aləmin təsnifatını öyrənərkən formalaşır, məsələn, şagird canlı orqanizmin hansı aləmə, tipə, şöbəyə, sinfə, sıraya, dəstəyə, fəsiləyə, cinsə, növə aid olduğunu əlamətlərlə müəyyən etməyi bacarmalıdır. Dərsliyin mühüm bölmələrini öyrəndikdən sonra bu bacarığı inkişaf etdirmək üçün ümumiləşdirici cədvəllərdən istifadə etmək çox əhəmiyyət kəsb edir. Konkretləşdirmə ümumiləşdirmənin əksidir. Bu bacarığın istifadəsi üçün müəyyən növə, cinsə, sinfə, aləmə və s. aid olan konkret canlı orqanizmi misal göstərmək olar. Tapşırıqların köməyi ilə şagirdlərin bilikləri nəinki möhkəmləndirilir, həm də aydınlaşdırılır, müstəqil iş bacarıqları formalaşır, düşüncə bacarıqları gücləndirilir. Şagirdlər daim təhlil etməli, müqayisə etməli, ifadələr və cümlələr qurmalı, ümumiləşdirməli olurlar. Eyni zamanda, şagirdin bir sıra ən vacib diqqət, yaddaş, müxtəlif düşüncə növləri, nitq, müşahidə və s. intellektual keyfiyyətlərinin eyni vaxtda inkişafı təmin edilir.

Problemli təlim müəllimin rəhbərliyi altında problemli situasiyaların yaradılmasını və onları həll etmək üçün şagirdlərin fəal müstəqil fəaliyyətini əhatə edən təlim fəaliyyətinin təşkili kimi başa düşülür, bunun nəticəsində biliklərin yaradıcı mənimsənilməsi, bacarıq və təfəkkür qabiliyyətlərinin inkişafı meydana gəlir. Tutaq ki, çəmənlikdə bitən ot bitkilərinin gövdəsinin yuxarı və bütün çiçəkli hissələrini mal-qara üçün yem kimi daim istifadə edirlər. Bu çəmənlikdəki bitkilərin heç nəsil verə bilməyəcəyi qənaətinə gəlmək düzgündürmü? Çiçəklərin daimi məhv edilməsi bitkiyə biganəlikdirmi? Niyə belə düşünürsən? Bu problemli tapşırıq dərsin əvvəlində "Bitkilərin çoxalması" mövzusunu öyrənərkən ortaya çıxa bilər. Müəyyən fəaliyyətlərə səbəb olur:

1. Şagirdlər bu məsələ ilə bağlı fərziyyələr irəli sürürlər;

2. Bu problemin həlli yollarını seçirlər (qruplarda iş);

3. Sualları üzrə nəzəri araşdırmalar aparırlar;

4. Bitkilərin çoxalma üsulları haqqında məlumat verirlər;

5. Nəticə çıxarılır, problemli suala düzgün və qısa cavab verirlər.

7-ci sinifdə "Suda-quruda yaşayanlar" mövzusunu tədris edərkən Böyük Britaniya, Hollandiya və Macarıstandakı bağbanlar başqa ölkələrdən qurbağalar gətirərək bağlara və istixanalara buraxdılar. 30-cu illərin ortalarında isə aqa qurbağasının 150-yə yaxın nümunəsi Antil adalarından Havay adalarına gətirildi. Onları çoxaltdılar və bir milyondan çox qurbağa şəkər qamışı və şirin kartof (batat) plantasiyalarına buraxıldı. Səbəbini izah edin? [5, s. 79].

Cavab vermək üçün əlavə məlumat və mövcud biliklərin təhlili tələb olunur. Ancaq maraqlısı odur ki, bunu təkcə güclü şagirdlər deyil, zəiflər də və mükəmməl şəkildə yerinə yetirirlər. Beləliklə, bu cür fəaliyyətlər çevik, qeyri-ənənəvi düşüncənin və özünə hörmətin formalaşması yolu ilə şagirdlərin uyğunlaşma qabiliyyətlərini artırmağa kömək edir. Bu, artıq yaradıcı bir işdir, onun həlli üçün çox vaxt dərs kifayət deyil, əlavə ədəbiyyat və digər vasitələrdən istifadə etmək lazımdır [3, s.10].

Məktəblilərin inkişafı, onların möhkəm biliklərə yiyələnməsi, eləcə də ondan praktik fəaliyyətdə istifadə etmək bacarığı birbaşa təhsil bacarıqlarının mənimsənilməsindən asılıdır. Buna görə də məktəblilərin təlim-tərbiyə fəaliyyətini rasional təşkil etməyi, onları məqsədyönlü və məhsuldar etməyi bacarmaq vacibdir.

Dərsdə şagirdlərin idrak fəaliyyətini artırmaq üçün analitik, müqayisəli və ümumiləşdirici mətn cədvəlləri, herbari materialları, kolleksiya dəstləri, açıqcalar, dinamik cədvəllər və tətbiq diaqramları kimi tədris vasitələrindən istifadə olunur. Müqayisəli diaqramlardan istifadə şagirdlərin əqli fəallığının artmasına kömək edir. Onların tərtibi oxşarlıqların və fərqlərin xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir ki, bu da şagirdlərin zehni fəaliyyətinin - təhlil və sintezin inkişafına kömək edir. Şagirdlərin biliklərindəki boşluqları möhkəmləndirmək, aydınlaşdırmaq və aradan qaldırmaq, biliklərdən təcrübədə istifadə etmək bacarığını inkişaf etdirmək üçün müqayisəli diaqramların quraşdırılması təklif oluna bilər [4, s. 64-69].

Biologiya dərslərində şagirdlərin idrak marağını inkişaf etdirmək üçün hər cür bioloji tapşırıqlardan istifadə edilir. Təlim prosesində məqsədlərin qoyulması şagird fəallığını artırır. Şagirdlər hadisəni araşdırır, onun həlli yollarını axtarır, müxtəlif fərziyyələr irəli sürür, sübutlar gətirir və bu, şübhəsiz ki, şagirdlərin zehni fəaliyyətinin aktivləşməsinə, məntiqi təfəkkürünün, idraki fəallığının inkişafına, nəticə etibarilə formalaşmasına və mükəmməlləşməsinə kömək edir.

Problemin aktuallığı. Biologiya dərslərində məntiqi təfəkkürü inkişaf etdirən tapşırıqların tətbiqi zamanı şagirdlərdə yeni bilik, bacarıq və vərdişlər formalaşır, təfəkkür müstəqilliyi, idrak fəallığı yüksəlir, diqqət, yaddaş, müxtəlif düşüncə növləri, nitq, müşahidə və s. intellektual keyfiyyətlərinin eyni vaxtda inkişafı təmin edilir. Bu baxımdan dərslərdə məntiqi təfəkkürün inkişaf etdirən tapşırıqların tətbiqi aktualdır.

Problemin elmi yeniliyi. Biologiya təlimində məntiqi təfəkkürlü tapşırıqların tərtibi və həlli texnologiyası göstərilmişdir.

Problemin praktik əhəmiyyəti. Məntiqi təfəkkürü inkişaf etdirən tapşırıqların tərtibi və həlli yollarından müəllim və tədqiqatçılar faydalana bilərlər.

Ədəbiyyat:

1. Aəzrbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya fənni üzrə təhsil (kurikulum)" (VII-XI siniflər). -Bakı: 2023. - 57s.
2. Səlimov, R. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün biologiya fənni üzrə dərslik(1-ci hissə) / Səlimov R., Əliyeva N., Əhmədbəyli X., Məmmədov E. -Bakı: Şərq-Qərb. -2023.- 88s.
3. Səlimov, R. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün biologiya fənni üzrə dərslik (2-ci hissə) / Səlimov, Əliyeva N., Əhmədbəyli X., Məmmədov E. -Bakı: Şərq-Qərb, -2023. – 80 s.
4. Болгова, И.В. Сборник задач по общей биологии с решениями для поступающих в вузы. / Болгова И.В. -М.: Оникс, -2006. -256 с.
5. İbrahimova, X.Q. Məktəb biologiya kursunda məsələ həllinin texnologiyası: Dərs vəsaiti / İbrahimova X.Q. -Müəllimı. -Bakı: -2022.- 216s
6. İbrahimova, X.Q. Biologiyanın tədrisi metodikası (Ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramının-kurikulumun tətbiqi): Dərs vəsaiti / X.Q. İbrahimova -Bakı: -ADPU-nun nəşri .-2023. -319 s.
7. Рысьева, Т.Г. Задачи по биологии: Задачник / сост. Т.Г. Рысьева Т.Г., Дедюхин С.В., Тюлькин Ю.А. –Ижевск: Удмуртский университет, - 2010. - 157 с.

Redaksiyaya daxil olub: 23.01.2025

UOT 372.857

Elnurə Fazil qızı Səfərova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
E-mail:seferovaelnure@mail.ru

Günel Əlimövsüm qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0001-6916-7955

https://doi.org/10.69682/arti.2025.92(1).162-165

TAM ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ

Эльнура Фазиль гызы Сафарова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

Гюнель Алимовсум гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ИСПОЛЬЗОВАНИЕ ИКТ В ПРЕПОДАВАНИИ БИОЛОГИИ НА УРОВНЕ ПОЛНОЙ СРЕДНЕЙ ШКОЛЫ

Elnura Fazil Safarova
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

Gunel Alimovsum Mammadova
teacher of the Azerbaijan State Pedagogical University

USING ICT IN TEACHING BIOLOGY AT THE SECONDARY EDUCATION LEVEL

Xülasə. Müasir cəmiyyətimiz informasiyalaşdırma adlanan tarixi bir prosesə qoşulmuşdur. Bu prosesi isə kompüterləşmə həyata keçirir. İnformasiyalaşdırma cəmiyyətin elmi-texniki və sosial-iqtisadi inkişafının başlıca mənbəyi kimi gənc nəslin təlim-tərbiyəsində başlıca rol oynayır. İnformasiyalaşdırma və kompüterləşdirmə nəticəsində İKT-dən istifadə zəruri bir hala çevrilmişdir. İKT dedikdə əslində informasiyanın əldə olunması, saxlanılması, təkrar istifadəsi və eyni zamanda qorunması ilə bağlı geniş texnologiyaları əhatə edən bir sahədir.

Biologiya dərslərində İKT-dən istifadə zamanı zəif göstəricisi olan hər bir şagirdin mövzunu öyrənməyə marağı artır, praktik təcrübələri virtual laboratoriyaların köməyi ilə təhlükəsiz bir şəraitdə mənimsəyə bilir.

Açar sözlər: *Biologiya, İKT, tədris, metod, fənn*

Аннотация. Наше современное общество присоединилось к историческому процессу, называемый информатизацией. Этот процесс осуществляется посредством компьютеризации. Информатизация играет большую роль в воспитании молодого поколения как основного источника научно-технического и социально-экономического развития общества. В результате информатизации и компьютеризации использование ИКТ стало необходимым. ИКТ на самом деле представляет собой область, включающую широкий спектр технологий, связанных со сбором, хранением, повторным использованием и одновременно защитой информации.

В ходе использования ИКТ на уроках биологии у каждого ученика с плохой успеваемостью повышается интерес к изучению предмета, а также он может освоить практический опыт в безопасных условиях с помощью виртуальных лабораторий.

Ключевые слова: *биология, ИКТ, преподавание, метод, предмет.*

Abstract. Our modern society has joined a historical process called informatization. This process is carried out by computerization. Informatization plays a major role in the education of the younger generation as the main source of scientific, technical and socio-economic development of society. As a result of informatization and computerization, the use of ICT has become a necessity. ICT is actually a field that encompasses a wide range of technologies related to the acquisition, storage, reuse and protection of information.

Every student who has a weak performance in using ICT in biology lessons increases his interest in learning the subject and can master practical experiences in a safe environment with the help of virtual laboratories.

Key words: *Biology, ICT, teaching, method, subject*

İKT sahəsində aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, informasiyalaşdırma sistemi qarşılıqlı əlaqədə olan aşağıdakı komponentlərdən ibarətdir:

İnformasiyalaşdırma – bütün sosial əhəmiyyətli xüsusi ilə informasiyaların elektron vasitələrindən seçilərək əlverişli formada saxlanması, işlənərək ötürülməsi və təqdim edilməsidir. Təhsilin informasiyalaşdırılması kifayət qədər çətin bir proses olub, müəyyən vaxt tələb etməklə, mərhələlərlə həyata keçirilir:

1. İKT vasitələrinin kütləvi mənimsənilməsi − kompüter siniflərinin yaradılması, telekommunikasiya vasitələri, operativ nəşrlər, interaktiv təsvirlər sistemi, verilənlər bazasından və proqram vasitələrindən istifadə etmək üçün müəllim və şagirdlərin əsas hüquqlarının həyata keçirilməsi;

2. Tədris fənlərində İKT vasitələrinin geniş tətbiqi üçün təhsilin məzmununa yenidən baxmaqla, kompakt disklər(optik) əsasında təsvir və audio materialların təminatı;

3. Fasiləsiz təhsil radikal şəkildə yenidən qurulmalı, distant (məsafədən təhsil) təlimə başlanılmalı, təlimin metodik əsasları dəyişdirilməlidir.

Son illərdə "İnformasiya texnologiyası" terminlərindən geniş istifadə olunur.

İnformasiyanı yaratmaq, ötürmək, saxlamaq, emal etmək mümkündür. Informasiyanın istifadəyə yararlı olması üçün aşağıdakı şərtlər ödənilməlidir: [3]

• tamlığı – tam şəkildə təsvir olunmalıdır;

• düzgünlüyü – həqiqəti əks etdirməlidir;

• qiymətliliyi – maksimum az məsrəflə əldə edilməlidir;

• əhəmiyyətliliyi – istifadəçi üçün vacib olmalıdır;

• aktuallığı – cari vaxtda tələb edilən olmalıdır;

• anlamlılığı – istifadəçinin başa düşdüyü tərzdə hazırlanmalıdır. İnformasiya prosesi-informasiyanın toplanması, işlənməsi və ötürülməsidir.

İnformasiyanın toplanması – subyektin onu maraqlandıran obyektə aid məlumatlar əldə etməsidir. O, texniki vasitələr, qurğu və aparatlarla həyata keçirilir. İnformasiya mübadiləsi-prosesin gedişində informasiya mənbəyinin informasiyanı ötürməsi, ikinci tərəfin isə qəbul etməsidir.

İnformasiyanın işlənməsi – sistemli bir proses olub, onların canlandırılması hər hansı məsələnin həlli alqoritminə əsaslanır. İnformasiya texnikası-informasiya texnologiyasının maddi əsasını təşkil etməklə, informasiyanın toplanması, saxlanması və işlənərək ötürülməsini təmin edir. [2]

İnformasiya texnologiyası – informasiya ehtiyatlarından istifadə olunması proseslərinin ağırlığını azaltmaq, onların etibarlığını və operativliyini çoxaltmaq məqsədilə informasiyanın toplanması, ötürülməsi, saxlanması, emalı və istifadəçilərə çatdırılmasını təmin edən və texnoloji zəncirdə birləşdirən metodlar, istehsal prosesləri və texniki-proqram vasitələri toplusudur. Bir sözlə informasiya texnologiyası dedikdə, hər hansı bir obyektə aid proqramla işləyən qurğu və hesablama texnikasında istifadə olunan texnologiya başa düşülür. İnformasiya texnologiyasında məqsəd insan tərəfindən analiz edilmək və onun əsasında qərar qəbul etmək üçün informasiya istehsalıdır. İnformasiya texnologiyası elmi-texniki tərəqqinin inkişafı, informasiya emalı üçün yeni texniki vasitələrin yaradılması ilə təyin olunan bir neçə təkamül mərhələsi keçmişdir. Müasir cəmiyyətdə informasiya emalı tex-

nologiyasının əsas texniki vasitəsi texnoloji proseslərin işlənib hazırlanması və istifadə olunması konsepsiyasına, həmçinin nəticə informasiyanın keyfiyyətinə ciddi təsir etmiş kompüterlər hesab olunur. Kompüterlərin informasiya mühitində tətbiqi və telekommunikasiya vasitələrindən istifadə olunması informasiya texnologiyasının inkişafını yeni mərhələyə çatdırdı. Bununla da yeni informasiya texnologiyaları mərhələsi başlandı. İnformasiyanın lazımi formaya salınması müasir informasiya texnologiyalarının tətbiqi ilə həyata keçirilir. Digər tərəfdən cəmiyyətin informasiya resurslarından istifadə etməsi prosesinin vacib tərkib hissəsi informasiya texnologiyası hesab olunur. İnformasiya texnologiyası aşağıdakı əsas əlamətləri ilə səciyyələnir: prosesin işlənməsi obyektin verilənləri ilə həyata keçir; prosesin məqsədi məlumatların alınmasını təmin etməkdir. Günümüzdə mövcud olan informasiya texnologiyalarını iki əsas növə ayırmaq olar:

1) verilənlərin emalı texnologiyası;

2) idarəetmənin informasiya təminatı texnologiyası.

İKT biliyinə mükəmməl yiyələnməyin ən yaxşı yolu isə elə orta məktəbdən başlayır. İbtidai siniflərdən başlayaraq təhsilin İKT əsasında qurulması, şagirdlərə ənənəvi dərslərlə yanaşı ilkin informatik biliklərin öyrədilməsi, məktəblilərin kompüterlə, internetlə işləməyə psixoloji hazırlanması uşaqların savadlı və istedadlı kadr kimi yetişməsində çox mühüm rol oynaya bilər. Qeyd etmək lazımdır ki, ümumilikdə təhsil sisteminin İKT əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Artıq təhsil sisteminin informasiyalaşdırılması ilə əlaqədar əsas hədəflər müəyyənləşdirilmiş, nəzərdə tutulan tədbirlərin xeyli hissəsi həyata keçirilmişdir.

Məktəblərin İKT avadanlığı, o cümlədən kompüter, noutbuk, interaktiv lövhələr ilə təchizatı isə hazırda uğurla davam etdirilir. Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur. Bu gün pedaqoji professionallığın informatik keyfiyyətini artırmadan İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaq qeyri-mümkündür. Bu səbəbdən müəllimlərin tək öz seçdikləri fundamental biliklər, pedaqogika və psixologiya sahəsində deyil, həm də informasiya sahəsində yenidən təlim alması olduqca aktuallaşır. Artıq yeni nəsil biologiya müəllimlərindən konkret öyrətdikləri fənnin struktur məzmununa və məqsədinə uyğun, uşaqların individual xüsusiyyətlərini nəzərə alan, şagirdlərin harmonik inkişafını mümkün edən texnologiyaları seçib tədrisdə tətbiq etmək tələb olunur. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar uşaqların idrak aktivliyinə müsbət təsir göstərir və yekun etibarilə şagirdlərin olimpiadalarda, müxtəlif intellektual yarışmalarda göstərdikləri nəticələrin keyfiyyəti xeyli artır.[1]

XX əsrin sonlarından başlayaraq Azərbaycanda təhsil sahəsində fasiləsiz olaraq həyata keçirilən islahat proqramları düşünülmüş bir strategiya üzrə uğurla davam etdirilməkdədir. Təhsilin elə bir sahəsi yoxdur ki, islahatlar o sahəni əhatə etməsin. Bir-birindən az əhəmiyyətli olmayan, eyni zamanda da bir-biri ilə qarşılıqlı əlaqəli olan təhsilin məzmunu, infrastrukturu, maddi-texniki bazası, səriştəli təhsilverənlərin formalaşması kimi istiqamətlərdə aparılan islahatlar nəticə etibarı ilə təhsil mühitinin həm məzmun, həm də maddi-texniki-baza cəhətdən zənginləşməsinə, müasirləşməsinə əlverişli zəmin yaratmışdır. Məktəblər, biologiya sinif otaqları tədricən ən müasir İKT avadanlıqları ilə təmin olunmuşdur ki, bu da öz növbəsində müasir dövrün tələblərinə cavab verə biləcək şəxsiyyətlərin yetişdirilməsi üçün müəllimə lazım olan səriştə və bacarıqlar üzrə yeni keyfiyyətlərin yaranmasını zəruri etmişdir. Bütün bu düşünülmüş strategiyanın həyata keçirilməsi sayəsində cəmiyyətdə müəllimin yeni, inkişafın önündə olan, təşəbbüskar və yenilikçi bir obrazı yaranmışdır.

Bu məsələ respublika Elm və Təhsil Nazirliyinin qarşıya qoyduğu prioritet məsələlərdən biridir. Bu günə qədər elektron resurslar istiqamətində qısa müddətdə irimiqyaslı layihələrə başlanılıb. Yaradılan bütün elektron resurslardan istifadə rahatlığı üçün ümumi bir portal yaradılıb və resursların hamısı orada yerləşdirilib. [2] Elektron resurs (e-resurs. edu.az) portalı şagird və müəllimlərin rahat istifadə etməsi üçün elektron resursları birləşdirən 9 bölməni özündə cəmləyir. İstifadəçilər bu portala daxil olaraq seçdikləri elektron resursdan rahatlıqla istifadə edə bilərlər. Biologiya dərslərində İnformasiya və kommunikasiya texnologiyalarının

geniş istifadə imkanları idrakı fəaliyyətin hər üç mərhələsində şagirdlər üçün problemin həll edilməsini daha da asanlaşdırır və şagird fəaliyyətini məhsuldar edir. Belə ki, şagird İKT vasitəsi ilə biologiya sinif otağından birbaşa informasiya mənbəyinə qoşularaq ən son məlumatları əldə edə bilir. Biologiya dərslərində İKT-nin Mikrosoft Office, Mikrosoft Word,Mikrosoft Power Point, Paint, Internet Explorer, Google Chrome, virtual laboratoriyalar və digər proqramlarının imkanları adı çəkilən idrakı fəaliyyətlərin təşkil edilməsində, məqsədəuyğun tapşırıqların yerinə yetirilməsində çox əhəmiyyətlidir.[4]

Problemin aktuallığı. Tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə edən biologiya müəllimlərinin fikirlərinə görə, İKT vasitələri öz geniş imkanları ilə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini individual proqram üzrə təşkil etməyə, təhsil alanların dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər şagirdlər üçün çox cəlbedici və yaddaqalan olur.[5]

Problemin elmi yeniliyi. Biologiyanın tədrisində mütəmadi olaraq təcrübələrin nümayişinə ehtiyac olur. İKT texnologiyaları o cümlədən virtual laboratoriyalardan istifadə etməklə həm vaxta qənaət etmiş, həm material çatışmazlığını aradan qaldırıb və təhlükəsiz şəraitdə dərsi təşkil edə bilərik.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Müasir texnologiya və alətlərdən istifadə etməklə müəllimlər biologiya siniflərini dinamik, interaktiv təlim məkanına çevirirlər. Texnologiya inkişaf etdikcə gələcək nəsil bioloqları həvəsləndirmək üçün müəllimlərin müasir tədris avadanlığının gücündən istifadə etmələri vacibdir. Məqalədən ümumi təhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının ümumi təhsil məktəbləri üçün Biologiya fənni üzrə Təhsil Proqramı (kurikulum) /. - Bakı, 2023. - 57s.
2. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) "Azərbaycan məktəbi" jurnalı / № 2. - Bakı, 2010.
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə təhsil proqramı (kurikulumu) (VI-XI siniflər) / - Bakı, 2013. - 76s.
4. Bunyatova F. Təlim və tərbiyədə interaktiv texnologiya / F. Bunyatova. - Bakı, 2000. - 154s.
5. Hacıyeva G.N. Biologiyanın tədrisi metodikasından laborator və seminar məşğələlər. Dərs vəsaiti. / G.N. Hacıyeva, E.F. Səfərova, S.M. Axundova. - Bakı: Müəllim, - 2020.- 204s.

Redaksiyaya daxil olub:09.01.2025

UOT 372.857

İmran Musa oğlu Kazımov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-9437-2603
https://doi.org/10.69682/arti.2025.92(1).166-169

Qönçə Rövşən qızı Məmişova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0003-9587-069X
E-mail: qonce.memisova.2001@gmail.com

MƏKTƏB BİOLOGİYA KURSUNUN TƏDRİSİNDƏ FƏNLƏRARASI İNTEQRASİYANIN TƏŞKİLİ ÜZRƏ İŞİN SİSTEMİ

Имран Муса оглы Казимов
старший преподаватель Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по биологии

Гонча Ровшан гызы Мамишова
Азербайджанский Государственный Педагогический Университет

СИСТЕМА РАБОТЫ ПО ОРГАНИЗАЦИИ МЕЖПРЕДМЕТНОЙ ИНТЕГРАЦИИ В ПРЕПОДАВАНИИ ШКОЛЬНОГО КУРСА БИОЛОГИИ

Imran Musa Kazimov
head teacher at the Azerbaijan State Pedagogical University,
doctor of philosophy in biology

Goncha Rovshan Mamishova
Azerbaijan State Pedagogical University

SYSTEM OF WORK ON ORGANIZING INTERDISCIPLINARY INTEGRATION IN TEACHING THE SCHOOL BIOLOGY COURSE

Xülasə. Fənlərarası inteqrasiya bütün fənlərdə olduğu kimi biologiya fənninin tədrisində də olduqca önəmli yer tutur. Belə ki, tədris zamanı fənlərarası inteqrasiya təmin olunduqda fənnə aid olan biliklər şagirdlər tərəfindən daha asan mənimsənilir, uzun müddət yadda qalır. Bununla yanaşı fənlərarası inteqrasiya sayəsində şagirdlərdə tədqiqatçılıq və elmilik meylləri və məntiq, təfəkkür, ünsiyyət bacarıqları inkişaf edir. Biologiya fənni həyatla əlaqəli fənn olduğu üçün bir sıra fənlərlə inteqrasiya edə bilir ki, bunlara coğrafiya, riyaziyyat, fizika, kimya, tarix, STEAM və s. aiddir. Məqalədə biologiya fənninin adı çəkilən fənlərlə olan fənlərarası inteqrasiyasını nümunələrlə əsaslandırmağa çalışmışam.
Açar sözlər: *inteqrasiya, biologiya, fənlərarası, kimya, coğrafiya, riyaziyyat, metodika*

Аннотация. Межпредметная интеграция очень важна в преподавании биологии, как и всех других предметов. Таким образом, когда в процессе обучения обеспечивается междисциплинарная интеграция, знания, связанные с предметом, легче усваиваются обучающимися и надолго запоминаются. При этом за счет междисциплинарной интеграции у студентов развиваются исследовательские и научные тенденции, а также логика, мышление и коммуникативные навыки. Поскольку биология является предметом, связанным с жизнью, она может интегрироваться с рядом предметов, включая географию, математику, физику, химию, историю, STEAM и т. д. В статье автор попытался на примерах обосновать междисциплинарную интеграцию биологии с упомянутыми предметами.

Ключевые слова: *интеграция, биология, междисциплинарность, химия, география, математика, методика*

Abstract. Interdisciplinary integration is very important in the teaching of biology, as in all subjects. Thus, when interdisciplinary integration is ensured during teaching, the knowledge related to the subject is more easily absorbed by the students and is remembered for a long time. At the same time, due to interdisciplinary integration, research and scientific tendencies and logic, thinking, and communication skills develop in students. Because biology is a life-related subject, it can integrate with a number of subjects, including geography, mathematics, physics, chemistry, history, STEAM, etc. belongs to. In the article, I tried to justify the interdisciplinary integration of biology with the mentioned subjects with examples.

Keywords*: integration, biology, interdisciplinary, chemistry, geography, mathematics, methodology*

Qədim dövrlərdən başlayaraq alimlər öyrənmə qanunlarını sistemləşdirməyə çalışırdılar. Öyrənmə qanunlarını bir sistemə gətirməyə çalışan ilk sistemləşdiricilərdən biri Y.A. Komenski olmuşdur. Y.A. Komenski qeyd edirdi, "Qarşılıqlı əlaqədə olan hər şey bu cür əlaqədə də öyrənilməlidir" (4.s.3)

Hazırda yeni standartlara uyğun olaraq təhsilalanlara təkcə bilik vermək yetərli deyil, həm də bilikləri vahid şəkildə birləşdirməyi öyrətmək olduqca önəmlidir. Bu problemin həlli variantlarından biri və ən başlıcası inteqrasiyadır.

Bütün sahələri, xüsusilə də təhsili inteqrasiyasız təsəvvür etmək mümkün deyil. Təsadüfi deyil ki, XXI əsri İKT əsri ilə yanaşı, inteqrasiya əsri də adlandırırlar. İnteqrasiya nəticəsində təkrara yol verilmir, şagirdlər artıq yüklənmir və tədris üçün ayrılmış vaxta qənaət edilir. Şagirdlər az vaxt ərzində çox və bir-birilə əlaqəli biliklər əldə edirlər. Müasir dünya təcrübəsinə əsasən inteqrasiyanın 3 səviyyəsi fərqləndirilir: fəndaxili, fənlərarası və fənlərüstü inteqrasiya (3.s.4).

Tədris zamanı fənlərarası inteqrasiyanın təmin olunması nəticəsində bilik və bacarıqlar şagirdlər tərəfindən daha asan mənimsənilir, dərslər daha maraqlı alınır, həmçinin şagirdlərdə tədqiqatçılıq, elmilik meylləri inkişaf edir. Fənlərarası inteqrasiya bir neçə fənnə aid olan bilik və bacarıqların sintezi olmaqla yanaşı, bir fənnə aid olan anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya nəticəsində müxtəlif fənlər arasında məntiqi əlaqə qurulur. Fənlərarası əlaqə nəticəsində şagirdlərin biliyi sistemə salınır, real aləm haqqında onlarda tam təsəvvür yaradılır və hadisələrin qarşılıqlı dialektik əlaqəsi formalaşdırılır. Bundan başqa, fənlərarası inteqrasiya nəticəsində eyni bir bacarıq ayrı-ayrı fənlərdə tətbiq olunduğu üçün təkmilləşir və təlimin keyfiyyəti artır. Fənlərarası inteqrasiyanın ən vacib xüsusiyyətlərindən biri də şagirdləri interaktiv öyrənməyə yönəltməsidir. Bu inteqrasiya nəticəsində şagirdlər təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş bilik və bacarıqlara yiyələnirlər.

Fənlərarası əlaqə bütün fənlərin tədrisində olduğu kimi biologiya dərsləri üçün də olduqca vacib və əhəmiyyətlidir. Biologiyanın tədrisində fənlərarası inteqrasiyanın təşkil olunması şagirdlərin potensialını inkişaf etdirir, onları ətrafdakı reallıqlar haqqında fəal biliyə həvəsləndirir, səbəb-nəticə əlaqələrini dərk etməyə və tapmağa kömək edir, məntiq, təfəkkür və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Bu inteqrasiya nəticəsində şagirdlər əldə etdikləri biliklər arasında qarşılıqlı əlaqəni başa düşür və əldə etdikləri bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edirlər. Fənlərarası əlaqə biliyin şagirdlər tərəfindən sistemli şəkildə mənimsənilməsini təmin edir. Biologiya fənninin tədrisində fənlərarası inteqrasiyadan ardıcıl şəkildə istifadə olunduqda tədrisin səviyyəsi yüksəlir, şagirdlərin təfəkkürü inkişaf edir, dünyagörüşü genişlənir. Bu isə şagirdlərdə XXI əsrin tələb etdiyi həyati bacarıqları inkişaf etdirir, həyatı dərk etməsini asanlaşdırır.

Biologiya inteqrativ fənn olmaqla, həm orta məktəblərdə, həm də ali məktəblərdəki tədrisinə xüsusi diqqət yetirilən son dövrün tələblərini əks etdirən STEAM ilə də sıx əlaqədədir.

Araşdırmalara görə mütəxəssislər müəyyən ediblər ki, şagirdlərin 90%-i özfəaliyyət prosesində əldə etdikləri məlumatları uzun müddət yadda saxlayırlar. Dərslərin belə qurulması nəticəsində şagirdlərin idrak fəaliyyəti, fəallığı artır, məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf edir ki, bunun da nəticəsində təhsilin keyfiyyəti artır. Fənlərin, xüsusilə biologiyanın tədrisində inteqrasiyanın tətbiqi imkanları genişdir.

Lakin ümumtəhsil məktəb fənlərinin, o cümlədən biologiyanın tədrisində inteqrasiya problem tam həllini tapmamışdır. Onun səbəblə-

rinin araşdırılması, imkan və yollarının aşkar edilməsi, bununla fənn müəllimlərinə metodiki kömək etdirilməsi vacib məsələ kimi biz tədqiqatçıların qarşısında durur.

VIII sinif "Ağciyərlər, tənəffüs hərəkətləri, qaz mübadiləsi" (7.s.83), "Qida maddələri və həzm orqanları" (7.s.93), "Böyrəklərin quruluşu, sidiyin əmələ gəlməsi" (7.s.117), "Çoxalma və çoxalma orqanları" (7.s.124) kimi mövzuların digər fənlərin mövzuları ilə tədrisinə Anatomy 4D tətbiqetmə daha geniş imkan yaradır. Məsələn, "Ağciyərlər, tənəffüs hərəkətləri, qaz mübadiləsi" (7.s.83) mövzusunun tədrisi zamanı Anatomy 4D tətbiqi vasitəsilə ağciyərlərin quruluşu, işləmə mexanizmi və s. göstərilir.

VIII sinif "İnsanın sinir sistemi və onun reflektor funksiyası" (7.s.27), "Mərkəzi sinir sistemi" (7.s.30), "Periferik sinir sistemi" (7.s.34) mövzuların tədrisi zamanı 3D Brain tətbiqetməsindən istifadə olunduqda müsbət nəticə əldə olunur. Bu tətbiqetmə vasitəsilə şagirdlər xəstəliklər və ya zədələnmələr zamanı insan beynində gedən dəyişikliklər, beynin quruluşu, beynin müxtəlif hissələrinin yerinə yetirdiyi funksiyalar haqqında tədqiqatlar apara bilərlər. Məsələn, "Mərkəzi sinir sistemi" (7.s.30) mövzusunun tədrisi zamanı tətbiqetmə vasitəsilə onurğa beyin, baş beyin və onun hissələri göstərilə bilər.

Animal 4D tətbiqetməsi də biologiyanın tədrisində geniş istifadə olunur. Bu tətbiqetmə vasitəsilə müxtəlif heyvanların xarici və daxili quruluşu, həyat tərzi və s. barədə ətraflı məlumat əldə etmək mümkündür. Biologiya 7 "Onurğalı heyvanların xarici bədən örtükləri" (11. s. 6), "Onurğalı heyvanların bədən hissələri" (11.s.9) və s. kimi mövzuların tədrisi zamanı istifadə olunur.

Biologiyanın tədrisi zamanı Visual anatomy tətbiqetməsindən də istifadə edilə bilər. Bu zaman şagirdlər insan bədəninə interaktiv 3D animasiyalara çıxış edə bilərlər. Tətbiqetmənin daxilində səsləndirmə də mümkündür. Tətbiqetmədə qan dövranı, həzm sistemi, sinir sistemi, əzələlər və s. kimi mövzular əhatə edilmişdir. Bu tətbiqetmədən Biologiya 8 "Hərəkət edə bilərik. Əzələlər, oynaqlar, bağlar" (7. s.48) və s. kimi mövzuların tədrisi zamanı istifadə edilə bilər.

Biologiya və kimya fənləri bir-birilə ayrılmaz şəkildə bağlıdır. Bildiyimiz kimi, biologiya həyatın öyrənilməsinə, canlı orqanizmlər və həyati proseslərin dərk edilməsinə əsaslanır. Kimya isə maddələrin tərkibi, quruluşu, xassələri və onların məruz qaldığı çevrilmələri öyrənən elm sahəsidir. Buna görə də bir sıra biologiya mövzularında kimya fənni ilə inteqrasiya yaratmaq çox vacibdir. Məsələn, IX sinifdə "Hüceyrənin kimyəvi tərkibi" (10.s.18), "Hüceyrənin üzvi birləşmələri; karbohidratlar, lipidlər" (10.s.24), "Hüceyrənin üzvi birləşmələri: zülallar və onların quruluşu" kimi mövzularda kimya fənni ilə əlaqə yaratdıqda şagirdlər mövzunu daha tez və asan mənimsəyirlər. Məsələn, "Hüceyrənin kimyəvi tərkibi" (10.s.18) mövzusu keçirilərkən biologiya müəllimi kimya IX sinif "Oksigen yarımqrupu elementlərinin icmalı", "Azot yarımqrupu elementlərinin icmalı. Azot və onun oksidləri", "Karbon yarımqrupu elementlərinin icmalı. Karbon" mövzuları ilə fənlərarası əlaqə yaradaraq maddələrin quruluşu, xüsusiyyətləri barədə məlumatları bir-birilə əlaqəli şəkildə öyrənmək imkanı əldə edirlər.

Biologiya mövzuları fizika fənni ilə də sıx əlaqədədir. VIII sinifdə "Eşitmə və müvazinət orqanımız-qulaq" (7.s.143) mövzusunun tədrisində fizikadan "Səs dalğaları", "İnsanın eşidə bilmədiyi dalğalar. Seysmik dalğalar" mövzuları ilə inteqrasiyanın yaradılması mənimsəməni dərinləşdirir. Belə olduqda mövzu şagirdlərin hafizəsində uzun müddət qalır və şagirdlər məlumatları bir-birilə əlaqələndirmək və bütöv halda öyrənməyin vacibliyini dərk etmiş olurlar.

Biologiyadan bir çox mövzuların tədrisində bu və ya digər tarixi faktlardan istifadə etmək lazım gəlir. Bunlar tarix və biologiya fənlərinin inteqrasiyasına əsaslanır. Anatomiya və fiziologiyanın öyrənilməsində tibbi-gigiyenik məsələlərin tarixinə aid materiallardan istifadə edilməsi mövzunun daha asan mənimsənilməsini təmin edir. Taun, vəba, tif və çiçək kimi epidemiyaların bəşəriyyət tarixində yeri ilə bağlı bir çox məqamlar vurğulanır. Belə mövzulara Biologiya X sinifdə "Ən qədim insanlar" (8.s.150) mövzusunu göstərmək olar. Mövzunun tədrisində Ümumi tarix X sinifdə "İbtidai cəmiyyət" mövzusu ilə inteqrasiya yaradılması mənimsəməni asanlaşdırır.

Biologiya fənni ilə coğrafiyanın məzmunu arasında birləşdirici əlaqə canlı orqanizmlərin ətraf təbiətdə təbii zonallığa görə paylanmasını, endogen, ekzogen mühit amillərinin və antropogen təsirin təsiri altında canlı orqanizmlərin həyat fəaliyyətinin öyrənilməsidir. Coğrafiya və

biologiyanın öyrənilməsi təbiətin maddiliyi, onun obyektiv real xarakteri haqqında təsəvvür yaradır. Biologiya və coğrafiyanın inteqrasiyasına imkan verən mövzulardan biri Biologiya IX sinif "Bioloji müxtəlifliyin saxlanılması. Azərbaycanda ekoloji problemlər" (10.s.161) mövzusudur. Mövzunun tədrisi zamanı Azərbaycanda mövcud olan ekoloji problemləri şagirdlərin diqqətinə çatdırarkən mövzunun coğrafi biliklərlə əlaqələndirilməsi tədrisin keyfiyyətinə əsaslı təsir göstərir.

Biologiya 11 "Qlobal ekoloji problemlər" (9.s.131) mövzusunun tədrisi zamanı da coğrafiya fənni ilə inteqrasiya olduqca əhəmiyyətli və vacibdir. Mövzunun tədrisində dünyada mövcud olan ekoloji problemləri şagirdlərin diqqətinə çatdırarkən mövzunun coğrafi biliklərlə əlaqələndirilməsi mövzunun daha asan və tez mənimsənilməsinə kömək edəcəkdir.

Biologiya dərslərində bədii sözün təsirindən istifadə etdikdə dərs daha maraqlı və canlı olur. Məsələn, heyvanların, meyvələrin, çiçəklərin, payız hadisələrinin tədrisi zamanı şerlər, təmsillər, tapmacalar, hekayələrdən istifadə edilməsi daha effektli olur.

Müasir elm və texnikanın inkişaf etdiyi bir dövrdə biologiya və informatika fənləri arasında geniş inteqrasiyanın yaradılması olduqca zəruridir. Hazırda fəal təlim ilə keçirilən dərslərdə virtual laboratoriyalardan, elektron kitabxanalardan da istifadə etmək mənimsəmənin səviyyəsini yüksəldir, şagirdlərin biotexnoloji bacarıqlarını artırır.

Biologiyanın tədrisində riyaziyyat fənnindən əldə edilmiş bacarıqlardan istifadə edilməsi mövzunu tamamlayır. Bir çox bioloji məsələlərin həlli ilə fənnin riyaziyyat ilə inteqrasiya edilməsinə geniş imkanlar açır. Məsələn, X sinifdə "Genetika irsiyyət və dəyişkənlik haqqında elmdir. Monohibrid çarpazlaşma" (6.s.158) mövzunun tədrisində riyazi biliklərdən geniş surətdə istifadə edilir.

Problemin aktuallığı. Hal-hazırda müəllimlərin qarşısında dayanan ən vacib məsələlərdən biri şagirdə sadəcə bilik vermək deyil, həmçinin həmin bilikləri vahid şəkildə birləşdirməyi öyrətməkdir. Bu problemin həlli variantlarından biri və ən başlıcası fənlərarası inteqrasiyadır. Biologiya fənni də olduqca inteqrativ fənn olduğu üçün biologiya müəllimləri istənilən mövzunu tədris edərkən onun digər fənlərlə olan inteqrasiyasını bilməli və biliyi vahid şəkildə verməyi bacarmalıdır. Çünki biliklər vahid və inteqrasiya olunmuş şəkildə verildikdə şagirdlər tərəfindən daha asan mənimsənilir, daha uzun müddət yadda qalır.

Problemin elmi yeniliyi. Biologiya fənninin STEAM və digər fənlərlə inteqrasiyası, onlara aid nümunələr verilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalədə verilmiş bilik və məlumatlar biologiya fənni üçün əhəmiyyətli olan fənlərarası əlaqənin qurulması ilə bağlıdır. Həmçinin məqalədə fənlərarası əlaqənin qurulmasına dair nümunələr də verilmişdir. Hər bir biologiya müəllimi fənnin tədrisi zamanı qeyd olunan nümunələrdən istifadə edə bilər.

Ədəbiyyat:

1. Hacıyeva V.E., Biologiyanın tədrisində istifadə olunan fənlərarası əlaqənin növləri və formaları // Pedaqoji Universitet xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası – 2020, C. 68, № 1. -s. 222-228.
2. Kazımov İ.E., Biologiyanın tədrisində fənlərarası inteqrasiyanın yaradılması üzrə işin sistemi. Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri mövzusunda beynəlxalq elmi konfrans, Gəncə, III hissə, 2022. -s.114-117.
3. Kazımov İ.E., Biologiyanın tədrisində inteqrativlik. -Bakı, 2022. -s.27
4. Paşayev P.A., Təbiət elmlərinin əlaqəli öyrənilməsi. -Bakı, 1977. -s.107.
5. Raziyev S.Ə., Fotosintez prosesinin fənlərarası inteqrasiya ilə öyrədilməsi. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 90, 2023, №2,. -s. 62-66
6. Məmmədova R.F., Biologiya tədrisində STEAM metodologiyası. Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 89, №4, 2022. -s. 197-203.
7. Məmmədova N., Həsənova B., Mahmudova K., Fətiyeva L. Biologiya 8. -Bakı, 2019, -s. 180.
8. Məmmədova N., Həsənova B., Mahmudova K., Fətiyeva L. Biologiya 10. -Bakı, 2019. -s. 208
9. Məmmədova N., Həsənova B., Mahmudova K., Fətiyeva L. Biologiya 11, -Bakı, 2018. -s. 192
10. Seyidli Y., Əliyeva N., Əhmədbəyli X. Biologiya 9. -Bakı, 2020. -s. 203
11. Səlimov R., Yunusov E., Əhmədbəyli X., Məmmədov E. Biologiya 7, II hissə, -Bakı, 2024. -s. 80

Redaksiyaya daxil olub: 06.02.2025.

UOT 372.853

Seyfəddin Adil oğlu Cəfərov
Naxçıvan Dövlət Universitetinin dosenti
https://orcid.org/0009-0000-1609-0387
E-mail:seyfadjafarov@gmail.com.

Billurə Təvəkkül qızı Hacıyeva
Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, dosent
https://orcid.org/0009-0007-3990-6298
E-mail:billurehaciyeva75@gmail.com.

Araz Cavanşir oğlu Qulusoy
Naxçıvan Dövlət Universiteti
E-mail:arazqulusoycs@gmail.com.
https://orcid.org 0009-0001-7420-3025
https://doi.org/10.69682/arti.2025.92(1).170-175

UNİVERSİTETİN FİZİKA KURSUNDA MÜASİR NANOTEXNOLOGİYALARIN TƏDRİSİ BÖLMƏLƏRİNİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ

Сейфаддин Адиль оглы Джафаров
доцент Нахчыванского Государственного Университета,

Биллура Таваккюль гызы Гаджиева
заведующий кафедрой, Нахчыванского Государственного Университета
доцент

Араз Джаваншир оглу Гулусой
Нахчыванский Государственный Университет

МЕТОДОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРЕПОДАВАНИЯ РАЗДЕЛОВ СОВРЕМЕННЫХ НАНОТЕХНОЛОГИЙ НА КУРСЕ ФИЗИКИ УНИВЕРСИТЕТА

Seyfaddin Adil Jafarov
associate professor of Nakhchivan State University,

Billure Tavakkul Hajiyeva
head of departament at
Nakhchivan State University,
associate professor
Araz Cavanshir Gulusoy
Nakhchivan State University

METHODOLOGICAL FEATURES OF TEACHING SECTIONS OF MODERN NANOTECHNOLOGIES IN THE COURSE OF PHYSICS OF THE UNIVERSITY

Xülasə. Ali və ixtisaslaşdırılmış peşə təhsilinin mövcud standartları konkret praktik fəaliyyət növlərinə yönəldilmişdir. Fizika və material elmlərində müasir biliklərin inkişaf etdirilməsinə aydın ehtiyac var. Məqalə fizika və nanotexnologiyanın müasir bölmələrinin universitet kursunda təqdim edilməsinin metodoloji xüsusiyyətlərinə həsr edilmiş və mühüm anlayışların tətbiqi xüsusiyyətləri işdə ətraflı şəkildə araşdırılmışdır. Eyni zamanda "Nanotexnologiya" və "nanohissəciklər", nanomaterialların növləri və aşağı ölçülü strukturların fizikasında əsas tədqiqat sahələri araşdırılmışdır. Bundan əlavə, yeni texnologiyalarla bağlı ən çox yayılmış yanlış təsəvvürlərdən (miflərdən) bəziləri verilmişdir: nanotexnologiyanın banisi haqqında mif, tullantısız texnologiya haqqında mif, nanomaşınlar haqqında mif, nanorobotlar haqqında mif və s. Bu gün fizikada müasir cərəyanların metodoloji təqdimatının kifayət qədər yüksək səviyyədə olmadığına və artan diqqət və öyrənilməsi tələb etdiyinə bizi inandıran çoxlu arqumentlər verilir. Müasir sənaye, texnologiya, tibb və digər sahələrdə tətbiq olunan nanotexnologiyanın ən diqqətçəkən tətbiqləri jurnallarda tapıla bilər. "Nanosənaye", "nanotexnologiyaları", "Nano və mikrosistem texnologiyaları", "Nanotexnika" və digər tematik dövri nəşrlər. Nanotexnologiya elm və texnologiyanın yeni perspektivli sahəsidir və böyük kəşflər bizi gözləyir və çox güman ki, onlar ən gözlənilməz olacaqlar. Elm və texnika bunu tarixi inkişafın müxtəlif mərhələlərində dəfələrlə nümayiş etdirmişdir.

Açar sözlər: *Nanotexnologiya, fizika, elm və texnika, nanotexnika sanaye*

Аннотация. Действующие стандарты высшего и специального профессионального образования ориентированы на конкретные виды практической деятельности. Существует очевидная необходимость в развитии современных знаний в области физики и материаловедения. Статья посвящена методическим особенностям изложения современных разделов физики и нанотехнологий на вузовском курсе, в работе подробно исследуются особенности применения важных понятий. В статье также рассматриваются такие низкоразмерные структуры, как «нанотехнологии» и «наночастицы», типы наноматериалов и низкоразмерные структуры. Кроме того, приведены некоторые наиболее распространенные заблуждения (мифы), связанные с новыми технологиями: миф об основателе нанотехнологий, миф о безотходной технологии, миф о наномашинах, миф о нанороботах и т.д. Сегодня приводится много аргументов, убеждающих в том, что методическое изложение современных направлений физики находится на недостаточно высоком уровне и требует повышенного внимания и изучения. Наиболее яркие примеры использования нанотехнологий в современной промышленности, технике, медицине и других областях можно найти в журналах «Наноиндустрия», «Нанотехнологии», «Нано- и микросистемные технологии», «Нанотехника» и других тематических периодических изданиях. Нанотехнологии – это новое перспективное в области науки и техники и великие открытия, и, скорее всего, они будут самыми неожиданными. Наука и техника неоднократно демонстрировали это на разных этапах исторического развития.

Ключевые слова: *нанотехнологии, физика, наука и технологии, нанотехнологическая промышленность*

Abstract. The current standards of higher and specialized professional education are focused on specific types of practical activities. There is an obvious need to develop modern knowledge in the field of physics and materials science. The article is devoted to the methodological features of presenting modern sections of physics and nanotechnology in a university course; the work examines in detail the features of applying important concepts. The main areas of research in the field of physics are considered. Such low-dimensional structures as "nanotechnology" and "nanoparticles", types of nanomaterials and low-dimensional structures. In addition, some of the most common misconceptions (myths) associated with new technologies are given: the myth of the founder of nanotechnology, the myth of waste-free technology, the myth of nanomachines, the myth of nanorobots, etc. Today, many arguments are given convincingly that the methodological presentation of modern areas of physics is not at a high enough level and requires increased attention and study. The most striking examples of the application of nanotechnology in modern industry, engineering, medicine and other areas can be found in the journals "Nanoindustry", "Nanotechnology", "Nano- and microsystem technologies", "Nanotechnics" and other thematic periodicals. Nanotechnology is a new promising. We are waiting for the fields of science and technology and great discoveries, and most likely they will be the most unexpected. Science and technology have repeatedly demonstrated this at different stages of historical development.

Keywords: *Nanotechnology, physics, science and technology, nanotechnology industry*

GİRİŞ

Hazırda universitet kurslarının və klassik dərsliklərin proqramı, bir qayda olaraq, müasir fizikanın inkişaf tendensiyalarını və kəşflərini əks etdirmir. Zərrəciklər fizikası, kondensasiya olunmuş maddələr fizikası, nanotexnologiyalar, fiziki elektronika, müasir astrofizika və s.-də kəşflərin əksəriyyəti ya kifayət qədər əks olunmur, ya da "Ümumi və eksperimental fizika" kurslarına daxil edilmir. Bu problemin həlli çox aktualdır ki, bu da fizikanın müasir sahələri üzrə universitetlər üçün yeni ədəbiyyatın hazırlanması zərurətini yaratmışdır. Ali təhsil üçün üçüncü nəsil təhsil standartları seçmə kursların məzmununu əhəmiyyətli dərəcədə dəyişməyə imkan verir. Gələcək mühəndislər, alimlər və fizika müəllimləri hazırlanarkən əlavə seçmə kurslar elə qurulmalıdır ki, tələbələr (gələcək müəllimlər) təkcə fizikanın müəyyən edilmiş sahələrini deyil, həm də müasir, o cümlədən tətbiqi məsələləri başa düşsünlər və istiqamətləndirsinlər.[1]

Təhsil müəssisəsi tərəfindən tətbiq edilən xüsusi kursların (seçmə kurslarının) strukturu makrofizika (qeyri-xətti fizika, elektronikanın və nanotexnologiyanın fiziki əsasları, fövqəladə radiasiya mənbələri, fövqəlkeçiricilik), mikrofizika (qeyri-xətti fizika) sahələri üzrə müasir fizikanın problemlərini əks etdirməlidir. nüvələr və hissəciklər, idarə olunan termonüvə birləşməsi problemləri, birləşmə nəzəriyyəsi) və astrofizika (qara dəliklər, qravitasiya dalğaları, qaranlıq maddə və qaranlıq enerji) [Ginsburg, 2007, 346]. Bu bölmələrin təqdimatı yalnız ümumi fizikanın klassik bölmələri haqqında fundamental biliklərə malik olduğunuz halda mümkündür. Bilikləri möhkəmləndirmək və dərinləşdirmək üçün mühazirə kursu (video təqdimatlar və digər əyani materiallarla) konkret hesablama məsələləri, referatlar, layihələr və digər iş növləri ilə praktiki məşğələlərlə müşayiət olunur. Kafedrada fəaliyyət göstərən tədris və elmi qrupların işində iştirak etmək, həmçinin fizikanın müasir problemlərinə dair kurs işlərinin və yekun ixtisas işlərinin yazılması yeni biliklərin mənimsənilməsi üçün çox faydalıdır.

Nanoquruluşlar fizikasının öyrənilməsinin xüsusiyyətləri

Nanotexnologiyanın fiziki əsaslarının xüsusiyyətlərinin öyrənilməsi üzərində daha ətraflı dayanaq. Nanostrukturların fizikasının öyrənilməsinin nəzəri əsasını kvant mexanikası və bərk cisim fizikası təşkil edir. Nanoobyektlərin fizikasının əsasları öyrənilmə səviyyəsindən asılı olaraq dərsliklərdə təsvir edilmişdir . Nanoobyektlərin kvant fizikası sahəsində bilikləri inkişaf etdirərkən əsas çətinliklərdən biri müasir biliklərin formalaşdırılması və tarixən kök salmış "miflərin" istisna edilməsidir. [3]

Əvvəlcə nanotexnologiya dedikdə nəyi nəzərdə tutduğumuzu müəyyən edək.

"Nanotexnologiya" termini 1974-cü ildə Tokio Universitetinin materialşünası Norio Taniguchi tərəfindən istifadə edilmişdir və o, onu "1 nm-ə qədər ultra yüksək dəqiqliyə və ultra kiçik ölçülərə nail ola bilən istehsal texnologiyası" kimi təyin etmişdir. Nanotexnologiya materialların, cihazların və sistemlərin öyrənilməsi, layihələndirilməsi və istehsalı üçün istifadə olunan texnoloji metodların məcmusudur, o cümlədən strukturun, kimyəvi tərkibinin və onların ayrı-ayrı elementlərinin nano-narıncı rəngdə qarşılıqlı təsirinin məqsədyönlü nəzarəti və idarə edilməsidir.

"Azərbaycan Respublikasında nanotexnologiya sahəsində işin inkişafı Konsepsiyası" na uyğun olaraq, nanotexnologiya daha kiçik ölçülü komponentlər də daxil olmaqla, idarə olunan şəkildə obyektləri yaratmaq və dəyişdirmək qabiliyyətini təmin edən metod və üsulların məcmusudur. 100 nm-dən çox, ən azı bir ölçüdə və bunun nəticəsində onların daha geniş miqyaslı tam işləyən sistemlərə inteqrasiyasına imkan verən əsaslı yeni keyfiyyətlər əldə etmək.[2]

Miniatürləşməyə doğru müasir tendensiya göstərdi ki, bu maddənin çox kiçik bir hissəciyini götürsəniz, bir maddə tamamilə yeni xüsusiyyətlərə sahib ola bilər. Ölçüsü 1 ilə 100 nanometr arasında dəyişən hissəciklər adətən "nanohissəciklər" adlanır. Məsələn, məlum oldu ki, bəzi materialların nanohissəcikləri səth atomlarının nisbətən böyük hissəsinə görə çox yaxşı katalitik və adsorbsiya xüsusiyyətlərinə malikdir. Digər materiallar heyrətamiz optik xassələri göstərir, məsələn, günəş hüceyrələrinin istehsalı üçün üzvi materialların ultra nazik təbəqələrindən istifadə olunur. Belə batareyalar, nisbətən aşağı kvant səmərəliliyinə malik olsalar da, daha ucuzdur və mexaniki olaraq elastik ola bilirlər.

Nanotexnologiyalar üzrə Ardahanda keçirilən konfransın (2024) tövsiyəsinə əsasən nano-

materialların aşağıdakı növləri fərqləndirilir: nanoməsaməli strukturlar; nanohissəciklər; nanoborular və nanoliflər; nanodispersiyalar (kolloidlər); nanostrukturlu səthlər və filmlər; nanokristallar və nanoklasterlər.[5]

Ümumilikdə nanotexnologiyadan danışırıqsa, o zaman nanotexnologiya adətən üç tədqiqat sahəsi kimi başa düşülür:

1. Ayrı-ayrı nanometr ölçülü elementlərdən yeni maddələrin, materialların və strukturların yığılması.

2. Əsasını müəyyən edilmiş ölçülərə (təxminən 1-100 nm) malik hissəciklər təşkil edən yeni materialların sintezi.

3. Nanostruktur elementlərdən istifadə etməklə məlum maddələrin və strukturların modifikasiyası.

Ölçü nəzarəti təkcə kvant hadisələrini (diskret enerji spektri, tunel effektləri) "bütün şöhrəti ilə görməyə" imkan vermir, həm də materialların əsas xassələrini dəyişdirməyə və beləliklə, müxtəlif sahələrdə istifadə olunan yeni strukturlar yaratmağa imkan verir. Bütün müasir elektron cihazlar artıq müəyyən dərəcədə nanotexnologiyadan istifadə edir.

Nanotexnologiyanın mifləri və onların tənqidi təhlili

Hər bir yeni texnologiya tədricən kifayət qədər ümidlərin və miflərin formalaşmasına köməк edir. Ədəbiyyatda nanotexnologiyanın əsas, ən məşhur miflərini sadalayaq.

1. Nanotexnologiya – ayrı-ayrı atomlardan obyektlərin yığılması texnologiyaları. Qeyd edək ki, bu yanlış təsəvvür hətta elmi ictimaiyyətə mənsub insanlar arasında da mövcuddur. Nanotexnologiyanın ilk növbədə atomları idarə etmək və atomların yığılması əsasında obyektlər inşa etməkdən ibarət olması səhvdir. Əsl nanotexnoloji proseslər bu mifə tamamilə ziddir. Ayrı-ayrı atomlardan bir obyektin yığılması unikal, nadir bir haldır.

2. Nanotexnologiyanın "qurucu atası" mifi. Miflər silsiləsində ən zərərsiz olanı, kvant sahə nəzəriyyəsi və elementar hissəciklər fizikası sahəsində mütəxəssis olan Riçard Feynmanın nanotexnologiyanın banisi roluna aid edilməsidir. Mif onun Nobel mühazirəsinə əsaslanır "Aşağıda hələ də çox yer var", lakin bu mühazirədə R. Feynman nanotexnologiya haqqında danışmadı [Feyman, www].

3. Tullantısız texnologiya mifi. Hər hansı bir obyekt atomunu atom-atom yaratmaqla biz tullantısız texnologiyadan istifadə edirik. Ancaq yığılmaq üçün atomların haradan gəldiyi sualı heç kimi maraqlandırmır və bu məhsulların kimya sənayesi ilə əlaqəsi hələ də görünmür. Hazırda kimya sənayesi təbii ehtiyatlardan geniş miqyasda və yeni texnologiyaya qənaət etmədən istifadə edir.

3. Nanomachinlərin mifi. Mikroelektromexaniki cihazların mövcudluğuna bənzətməklə, nanoölçülü dizayn üçün müvafiq ölçülü idarəetmə mexanizminin olmasının zəruriliyi ideyasının mahiyyəti aydındır. Bununla belə, nanoobyektlər tamamilə fərqli xüsusiyyətlərə malikdir: keçiricilər tez-tez dielektriklərə çevrilirlər, sürtünmə qüvvəsi inanılmaz dərəcədə artır və s. Məşhur jurnallarda və mediada daim fındıq, dişli çarxlar və işləyən maşınların yaradılması nəzərdə tutulan digər mexaniki hissələrin nanokopiyalarının təsvirləri var. Belə layihələrə ciddi yanaşmaq olmaz.

4. Nanorobotlar haqqında mif. Nanomaşınlar ideyasının inkişafı nanorobotlardır ki, cizgilərə görə, nanoqurğular insanın müəyyən etdiyi proqrama uyğun olaraq yaradılacaq. Bundan əlavə, bir şəkildə bütün prosesi müşahidə etmək lazımdır, məsələn, makro ölçüləri olan elektron mikroskopdan istifadə etməklə. Üstəlik, atomların və molekulların vizuallaşdırılması məsələsi birtəhər həll olundu; Atomu "tutan" manipulyator, kimyəvi qarşılıqlı təsir sayəsində onunla etibarlı şəkildə əlaqə quracaqdır. Nanorobot elementar hərəkətlərin ardıcıllığını yerinə yetirmək üçün kifayət qədər yaddaşa malik olmayacaq.

5. Maddələrin sintezinin fiziki üsulu haqqında mif. Riçard Feynman məşhur mühazirəsində fiziklərin gizli əbədi yuxusunu bilmədən açıqladı: "Kimyaçılar sintez əmri verəcək, fiziklər isə sadəcə olaraq atomları düzgün qaydada "tənzimləyəcəklər". Bu, kökündən yanlışdır. Molekul nəinki tələb olunan ardıcıllıqla düzülmüş, həm də kimyəvi bağlarla bağlanmış atomlar qrupudur.

6. "Boz mucus"un görünmə ehtimalı. Erik Drexler [Drexler, 2014] əsərlərində texniki konsepsiyaya iki növ cihaz təqdim etdi. Birincisi sökücülərdir, onların birbaşa funksiyaları montajçıların əksinədir. Belə qurğular yeni obyektin strukturunu öyrənməli, onun atom quruluşunu nanokompüterin yaddaşında saxlamalı idi. Tək-

rarlanma müddətinin dəqiqələrlə ölçüləcəyini fərz etsək, onda həndəsi irəliləyişə görə gündə trilyonlardan çox yeni yaradıcı yaradılacaq ki, bu da yeni montajçılar istehsal edəcək. Bu mif, sistemin yalnız idarəolunmaz klonlama rejiminə keçəcəyi və replikatorların bütün fəaliyyətinin yalnız öz əhalisini çoxaltmağa yönəldiləcəyi bir vəziyyətin yarana biləcəyini iddia edir. Dünyanın sonu haqqında mif heç də yeni deyil.[8]

Təəccüblü deyil ki, bu yeni texnologiyanın meydana çıxması ilə ortaya çıxdı (Böyük Adron Kollayderinin işə salınmasından əvvəl dünyanın sonu haqqında nə qədər mif olduğunu xatırlayaq). Lakin hadisələrin göstərilən gedişatı tamamilə qeyri-mümkündür. Atomlardan əhəmiyyətli bir şey toplamaq ehtimalını fərz etsək belə, aşağıdakıları nəzərə almalıyıq. Əvvəla, Drexlerin replikatorları oxşarlarını yaratmaq üçün kifayət qədər mürəkkəbliyə malik olmayacaq. Hətta 100 milyon atomun kiçik yaddaşı 12,5 meqabayt (hər atom üçün 1 bit) olacaq ki, bu da açıq şəkildə bu fəaliyyət üçün kifayət deyil. Bundan əlavə, replikatorlar ehtiyac duyduqları xammalı əldə edə bilməyəcəklər. Axı, onların elementar tərkibi ətraf mühitin, o cümlədən biokütlənin bir hissəsi olandan ciddi şəkildə fərqlənməlidir. Atomların zəruri elementlərini tapmaq, çatdırmaq və çıxarmaq çox vaxt və enerji tələb edir. Bu nanotexnologiya miflərinin tam siyahısı deyil. Maraqlanan oxucu "nanometr" saytına [Erlich, 2010] və texnologiya mifləri saytına [Nanotechnologies, www] müraciət edə bilər. Yuxarıdakı müddəaların yanlışlığını tam başa düşmək üçün əlaqəli fənlər (riyaziyyat, informatika, kimya) sahəsində bilikləri inkişaf etdirmək, eləcə də təbiət elmlərinin inkişaf tarixini və xüsusən də tarixi anlamaq lazımdır. [7]. Bu, elm və texnikanın inkişaf tarixi sahəsində tələbələrin texniki və təbiətşünaslıq profillərinin inkişaf etdirilməsinin zəruriliyini bir daha sübut edir. Eyni zamanda nanotexnologiya mifləri iqtisadçıların və siyasətçilərin diqqətini cəlb edir və müəyyən müsbət rol oynayır.

Nəticə

Müasir sənaye, texnologiya, tibb və digər sahələrdə tətbiq olunan nanotexnologiyanın ən diqqətçəkən tətbiqləri jurnallarda tapıla bilər. "Nanosənaye", "nanotexnologiyaları", "Nano və mikrosistem texnologiyaları", "Nanotexnika" və digər tematik dövri nəşrlər. Nanotexnologiya elm və texnologiyanın yeni perspektivli sahəsidir və böyük kəşflər bizi gözləyir və çox güman ki, onlar ən gözlənilməz olacaqlar[6]. Elm və texnika bunu tarixi inkişafın müxtəlif mərhələlərində dəfələrlə nümayiş etdirmişdir. Nanotexnologiyanın fiziki əsaslarının tədrisi əlaqəli fənlər çərçivəsində mümkündür: bərk cisimlər fizikası və ya yarımkeçiricilər fizikasının öyrənilməsinin bir hissəsi kimi 1-2 mühazirə (1-2 laboratoriya işi), bu sahədə problemlərin həlli, nanostrukturların kvant mexanikası və s. Beləliklə, nanotexnologiyanın əsasları üzrə biliklərin formalaşdırılması müasir bölmələrin məsələlərini əhatə etmək üçün əlaqəli fənlərin 1-2 sinfinin ayrılması ilə mümkündür. Bu gün dünyada nanotexnologiyaların – nanohissəciklərə əsaslanan, ölçüsü 100 nm-dən çox olmayan "ən yüksək" texnologiyaların inkişafı və bazara daxil olması ilə bağlı əsl inqilab baş verir. Bu, bizi nanodünyaya – elm və sənayenin bir çox sahələrində yeni biliklər və nailiyyətlər təqdim edə bilən "ağıllı" materiallar, cihazlar və dərman maddələri, innovasiyalar dünyasına aparır. Məşhur amerikalı fizik E. Teller demişdir: "Kim nanotexnologiyanı başqalarından əvvəl mənimsəsə, 21-ci əsrin texnosferində aparıcı yer tutacaqdır".

Problemin aktuallığı. Tədqiqat mövzusunun aktuallığı və əhəmiyyəti təhsildə baş verən dəyişikliklərlə izah olunur. "2010-cu ilə qədər olan dövr üçün Azərbaycan Təhsilinin Müasirləşdirilməsi Konsepsiyası"nda Ali məktəb xüsusi təlim proqramları və əlavə təhsil üzrə təlim nəticəsində tələbələrin ixtisas nailiyyətlərinə əsaslanan əsas kompetensiyaların formalaşdığını qeyd etdi. Məktəbin fizika ixtisası kursunun tədris prosesinin məzmununun müasirləşdirilməsi istiqamətlərindən biri də mikro- və nanoelektronikanın fiziki-texniki əsaslarının öyrənilməsidir. Müasir dünyanın elmi-texniki tərəqqisinə uyğun olaraq tələbələrin yeni biliklərin formalaşdırılması zərurəti diktə edir. Mikroelektronika hazırda əsasən inteqrasiya olunur, çünki əksər müasir yarımkeçirici dizaynların yaradılması inteqrasiya prinsipindən istifadə etmədən düşünülə bilməz. İnteqrasiya edilmiş elektronikanın inkişafına təkan verən ən mühüm amillərdən biri onun komponentlərinin aşağı qiymətidir. Yalnız müasir inteqral sxemlər orta istehlakçı üçün əlçatan olan elektron kompüterlər, mobil telefonlar, audio və video avadanlıqlar yaratmağa imkan verir. İnteqrasiya edilmiş elektronikanın tərəqqisinə töhfə verən ikinci amil, yerinə yetirdikləri funksiyaların mürəkkəbliyini və müxtəlifliyini və çox aşağı enerji istehlakını qoruyarkən inteqral sxemlərin olduqca kiçik ölçüləridir.

Problemin yeniliyi. "Mikro və nanoelektronika" anlayışları çox geniş məsələləri əhatə edir ki, on-

lardan məktəb fizikası kursunda yalnız xüsusi nəzəri hazırlıq tələb etməyən hissəni real şəkildə nəzərdən keçirmək mümkündür. Buna görə də ali məktəb fizika təhsilinin prinsiplərinə cavab verən mövzuların məzmununu diqqətlə seçmək lazımdır. Nanoelektronika elementləri ilə mikroelektronika üzrə hazırlanmış tədris-metodiki kompleks müəllif xarakterlidir, Ali məktəbin və əlavə təhsil müəssisələrinin ixtisas kurslarında tələbələrdə fizika üzrə əsas bacarıqların formalaşmasını təmin edən orijinal eksperimental proqramların inteqrasiyasını nəzərdə tutur. Nəzərdə tutulan laboratoriya işi (inteqral sxemli aşağı tezlikli güc gücləndiricisinin eksperimental modeli üzrə mikrosxemin tədqiqi, birqütblü və bipolyar tranzistorların parametrlərinin təyini, elektrik dövrəsinin diskret elektron komponentlərinin təkamülünün tədqiqi və onlara əsaslanan dizaynlar, ...) orijinal qurğulara əsaslanır.

Problemin praktik əhəmiyyəti. Hazırda Ali məktəbləri üçün fizikanın tədrisinin klassik metodologiyasında mikro və nanoelektronikanın fiziki-texniki əsaslarının öyrənilməsində əhəmiyyətli boşluqlar mövcuddur. Ali təhsil müəssisələrinin, xüsusən də kənd təhsil müəssisələrinin fizika kabinetləri və laboratoriyalarının müasir tədris-metodiki komplekslərlə kifayət qədər təchiz olunmaması səbəbindən tələbələrin bu sahədə yeni biliklərin formalaşdırılması pedaqoji problemə çevrilmişdir. Ali məktəb tələbələrinə eksperimental və konstruktiv işlərin öyrədilməsi onların yeni fiziki biliklərə, xüsusən də mikro və nanoelektronikaya yiyələnmək motivasiyasını əhəmiyyətli dərəcədə artıracaqdır.

Ədəbiyyat:

1. Cəfərov, S.A. Nanohissəciklər fizikası. Dərs vəsaiti / S.A. Cəfərov, Ə.F. Abbasov. – Bakı: Mütərcim, – 2025. – 280 s.
2. Cəfərov, S.A., Hacıyeva, B.T. Nanoelektronika., 2018. Hissə 1. -286 s.
3. Drexler, E. Ümumi rifah. Nanotexnologiya inqilabı sivilizasiyanı necə dəyişəcək. -M., 2014. -504 s.
4. Nanotexnologiya. URL: http://www.molomo.ru/myth/ nanotechnologies.html
5. Poole, Ch., Owens, F. Nanotexnology. -M.: Texnosfera, -2010. -340 s.
6. Svetuxin, V.V. Nanotexnologiyaya giriş. Fizika modulu. Seçmə kurs. -Ulyanovsk, 2008. -160 s.
7. Tipler, P.A. Müasir fizika / P.A. Tipler, R.A. Llewellyn. – Москва: Mir, – 2007. cild 1. – 496 s.
8. Feyman, R. URL: http://do.chem.msu.su/rus/jvho/2002-5/4
9. Erlikh, G.V. Nanotexnologiyanın mifləri. URL: http://www.nanometer.ru/

Redaksiyaya daxil olub: 06.02.2025.

UOT 372.881.111.1

Aytan Eldaniz Huseynzade
doctoral student in the program of doctor philosophy of
Khazar University
English teacher in the educational complex No. 132 and 134 of Baku cuty
https://orcid.org/0009-0007-4602-1164
E-mail: aytan.huseynzada@khazar.org
https://doi.org/10.69682/arti.2025.92(1).176-179

CHALLENGES AND OPPORTUNITIES IN TEACHING COLLOQUIAL ENGLISH IN AZERBAIJANI PUBLIC SCHOOLS

Aytən Eldəniz Hüseynzadə
Bakı şəhəri 132 və 134 nömrəli Təhsil Kompleksində ingilis dili müəllimi
Xəzər Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı

AZƏRBAYCAN DÖVLƏT MƏKTƏBLƏRİNDƏ DANIŞIQ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ ÇƏTİNLİKLƏR VƏ İMKANLAR

Айтен Эльданиз гызы Гусейнзаде
учитель английского языка в образовательном комплексе № 132 и 134 гор. Баку
докторант по программе доктора философии университета Хазар

ПРОБЛЕМЫ И ВОЗМОЖНОСТИ ПРЕПОДАВАНИЯ РАЗГОВОРНОГО АНГЛИЙСКОГО ЯЗЫКА В ГОСУДАРСТВЕННЫХ ШКОЛАХ АЗЕРБАЙДЖАНА

Abstract. Increased attention has been given to teaching colloquial English, as the global importance of English as a lingua franca is recognized, which is important for effective communication in informal and real-life contexts. In public schools, special challenges and opportunities are presented by teaching colloquial English in Azerbaijan. This paper examines the challenges that educators and schoolchildren face when integrating colloquial English into the curriculum. It also draws attention to strategies that may improve this integration. By analyzing a variety of teacher feedback, many schoolchildren's attitudes, and several institutional constraints, this study reveals ways that many public schools in Azerbaijan may improve their teaching of colloquial English, which could importantly narrow the divide between academic English skills, and everyday language usage.
Keywords: *Colloquial English, Azerbaijani public schools, language teaching, curriculum development, teacher training, schoolchildren engagement, technology in education, global communication*

Xülasə. Qeyri-rəsmi və real həyat vəziyyətlərində effektiv ünsiyyət üçün lingua franca kimi ingilis dilinin qlobal əhəmiyyətini nəzərə alaraq şifahi ingilis dilinin tədrisinə daha çox diqqət yetirilir. Dövlət məktəblərində Azərbaycanda danışıq ingilis dilinin tədrisi xüsusi problemlər və imkanlar təqdim edir. Bu məqalə şifahi ingilis dilini kurikuluma inteqrasiya edərkən müəllimlərin və məktəblilərin qarşılaşdıqları çətinlikləri araşdırır. O, həmçinin bu inteqrasiyanı təkmilləşdirə biləcək strategiyalara diqqət çəkir. Müxtəlif müəllim rəylərini, bir çox məktəbli münasibətini və bir sıra institusional məhdudiyyətləri təhlil edərək, bu tədqiqat Azərbaycanda bir çox dövlət məktəblərinin şifahi ingilis dilinin tədrisini təkmilləşdirə biləcəyi yolları aşkar edir ki, bu da akademik ingilis dili bacarıqları ilə gündəlik dil istifadəsi arasındakı fərqi əhəmiyyətli dərəcədə azalda bilər.

Açar sözlər: *danışıq ingilis dili, Azərbaycan dövlət məktəbləri, dil tədrisi, kurikulumun hazırlanması, müəllim hazırlığı, məktəblilərin cəlbi, təhsildə texnologiya, qlobal ünsiyyət*

Аннотация. Повышенное внимание уделяется преподаванию разговорного английского языка, поскольку признается глобальная важность английского языка как lingua franca, что необходимо для эффективного общения в неформальных и реальных ситуациях. В государственных школах преподавание разговорного английского языка в Азербайджане представляет особые проблемы и возможности. В этой статье рассматриваются проблемы, с которыми сталкиваются учителя и школьники при интеграции разговорного английского языка в учебную программу. В ней также обращается внимание на стратегии, которые могут улучшить эту интеграцию. Анализируя различные отзывы учителей, многие установки школьников и несколько институциональных ограничений, это исследование раскрывает способы, с помощью которых многие государственные школы в Азербайджане могут улучшить преподавание разговорного английского языка, что поможет существенно сократить разрыв между академическими навыками английского языка и повседневным использованием языка.

Ключевые слова: *разговорный английский, азербайджанские государственные школы, преподавание языка, разработка учебных программ, подготовка учителей, вовлеченность школьников, технологии в образовании, глобальная коммуникация*

Introduction

Effective communication has become important as English is spoken more widely due to the world becoming more linked. Although schools in Azerbaijan focus heavily on teaching academic English, they overlook the importance of colloquial English used in daily conversation. The inability to communicate effectively in real-world situations, especially in casual environments where everyday language thrives, is limited for schoolchildren due to this gap.

This paper studies the challenges public schools in Azerbaijan face. It also looks at ways to improve teaching methods for colloquial English. Educators who tackle these challenges prepare schoolchildren better for global communication and ethnic integration.

1. Challenges in Teaching Colloquial English

1.1. Curriculum Limitations

In Azerbaijan, the primary focus of the national curriculum centers on grammar, vocabulary, and formal writing skills while giving limited attention to colloquial language. Teachers focus on exam preparation that stresses academic English and provides little time for conversation practice.

In examining the English curriculum for grades 9-11, one finds that less than 10% of the time dedicated to instruction concentrates on speaking and listening activities that include colloquial expressions (1, p.12).

1.2. Lack of Teacher Training

In Azerbaijani public schools, many English teachers without formal training battle to effectively teach schoolchildren colloquial English. They focus mainly on customary grammar-based methods in their education, but these methods are insufficient for promoting conversational fluency.

A large portion of teachers, specifically 65%, report feeling unprepared to effectively teach colloquial English, according to survey data provided (2, p.23).

1.3. Limited Exposure to Native Speakers

In Azerbaijani public schools, schoolchildren and teachers often do not get enough chances to engage with native English speakers, and this lack of interaction makes it difficult for them to learn real-life phrases and correct pronunciation.

Only a small fraction of public school schoolchildren in Baku have ever spoken with a native English speaker, yet many wish to practice (3, p.45).

1.4. Socioeconomic Barriers

Resource constraints limit access to modern language-learning tools in rural public schools and these tools include multimedia resources and language labs. For teaching colloquial English through multiple immersive experiences, necessary tools exist.

Compared to urban schools, audio-visual resources are 40% less available in rural schools (4, p.34) and this difference affects rural schoolchildren's learning experiences.

2. Opportunities for Improvement

2.1. Integrating Colloquial English into the Curriculum

By giving more time to speaking and listening activities, curriculum reforms can improve how much schoolchildren hear and use colloquial English. Using role-play and dialogues helps make language learning practical. Real-life scenarios can increase engagement in lessons.

In Ganja, several schools conducted conversational workshops, and they noted a 20% increase in schoolchildren's speaking confidence (5, p.67).

2.2. Teacher Professional Development

Specialized training in teaching colloquial English is helpful because it can importantly improve the quality of instruction for many teachers and students alike. When educators receive this training their methods become more effective and their schoolchildren gain costly skills. Conclusively many learners improve their understanding and use of everyday language. Teachers can be equipped with effective skills to teach conversational language through many workshops, multiple online courses, and many exchange programs in countries where English is natively spoken.

A pilot program in Sumqayit that provided monthly training on teaching colloquial English methods led to a 30% rise in student participation in speaking activities (6, p.78).

2.3. Leveraging Technology

Language-learning apps, online conversation platforms, and virtual exchange programs help schoolchildren practice colloquial English and they provide opportunities to do so outside the classroom.

A study carried out in rural Azerbaijan revealed something interesting. Schoolchildren who used language apps for six months achieved an outstanding improvement. Their conversational fluency rose by 25 percent as a result of this practice (7, p.91).

2.4. Collaborating with Native Speakers

International organizations and language centers create opportunities for schoolchildren to interact with native English speakers and these partnerships improve communication skills. Interactions help schoolchildren grasp colloquial language and they learn ethnic nuances.

Partnering with volunteer programs, schools reported that schoolchildren importantly improved their pronunciation, and use of idiomatic expressions (8, p.103).

Conclusion

Many obstacles are encountered in the teaching of colloquial English in Azerbaijani public schools. These include some limitations in the curriculum. There is also inadequate training for teachers and limited exposure to native speakers. Public schools can improve teaching colloquial English. They can add conversational English to the curriculum. They can offer professional development for many teachers. They can use technology. They can form multiple collaborations with native speakers. These efforts will prepare school-children for real-world communication. They will help schoolchildren succeed in a globalized world.

Scientific Innovation

This article offers a truly special analysis of systemic teaching challenges in Azerbaijani schools. It also explores untapped opportunities in teaching colloquial English using educational theory plus sociolinguistic factors.

Practical Sense and Relevance

This article offers evidence-based recommendations to educators and policymakers. These address shortcomings in teacher training resources plus curriculum for teaching colloquial English improving schoolchildren’s communicative competence for real-world interactions. Moreover, it offers actionable strategies for improving teacher training, resource allocation, and curriculum design to enhance the effectiveness of colloquial English instruction in Azerbaijani public schools.

References:

1. Abbasov, T. Impact of Conversational Workshops on Speaking Confidence // Baku Journal of Linguistics. – Baku: – 2023. – Vol. 18, No. 1, p. 65-70.
2. Aliyev, F. Curriculum Analysis of English Language Instruction in Azerbaijani Secondary Schools. – Baku: Education Press, – 2022. – 274 p.
3. Gasimova, Z. Collaborations with Native Speakers in Language Learning // International Journal of Language Studies. – Tehran: 2020. – Vol. 14, No. 2. -p. 101-105.

4. Guliyeva, L. Professional Development Programs for English Teachers // Educational Innovations. – Baku: 2022. – Vol. 10, No. 2. -p. 76-80.
5. Huseynova, R. Resource Allocation in Rural Schools of Azerbaijan. – Ganja: Rural Education Studies, – 2019. – 164 p.
6. Ismayilov, N. Interaction with Native English Speakers in Azerbaijani Schools // Language and Culture. – Tbilisi: 2020. – Vol. 12, No. 4. -p. 43-48.
7. Karimov, A. The Role of Technology in Language Learning // ICT in Education. – Baku: 2021. – Vol. 9, No. 3. -p. 89-93.
8. Mammadova, S. Teacher Preparedness for Teaching Conversational English // Journal of Language Education. – Moscow: 2021. – Vol. 15, No. 3. -p. 21-25.

Redaksiyaya daxil olub: 17.01.2025

UOT 372.881.111.1

Elnurə Hikmət qızı Quliyeva
Heydər Əliyev adına Hərbi İnstitutun
Xarici dillər kafedrasının müəllimi
https://orcid.org/0009-0000-1846-747
E-mail:eq634061@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).180-184

XÜSUSİ TƏYİNATLI HƏRBİ MÜƏSSİSƏLƏRDƏ XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ

Эльнура Хикмет гызы Гулиева
преподаватель кафедры иностранных языков
Военного Института им. Гейдар Алиева

ИСПОЛЬЗОВАНИЕ ИННОВАЦИОННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ ПРИ ПРЕПОДАВАНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ В ВОЕННЫХ УЧРЕЖДЕНИЯХ СПЕЦИАЛЬНОГО НАЗНАЧЕНИЯ

Elnura Hikmet Guliyeva
the teacher of Foreign languages departament at the
Military Institute named after Heydar Aliyev

USING INNOVATIVE TEACHING METHODS TO ENHANCE THE QUALITY OF FOREIGN LANGUAGE TEACHING IN SPECIALIZED MILITARY INSTITUTIONS

Xülasə. Xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dilin səmərəli öyrənilməsi üçün innovativ təlim metodlarının tətbiqi mühüm əhəmiyyət kəsb edir. İnnovativ təlim metodları hərbi qulluqçuların peşəkar hazırlığını artırmaq məqsədilə onların dil biliklərini qısa müddətdə inkişaf etdirmək və öyrənilən materialların uzun müddət yadda qalmasını təmin etməyə yönəlmişdir. Xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dillərin öyrədilməsində innovativ təlim metodlarının tətbiqi müasir təhsil tələblərinə cavab verərək tədris prosesinin keyfiyyətini artırır. Bu metodlar ənənəvi yanaşmalardan fərqli olaraq, hərbi mühitin spesifik ehtiyaclarını nəzərə alır və öyrənən mərkəzli yanaşma ilə tədrisi daha səmərəli edir. Layihə əsaslı, oyun əsaslı, kommunikativ, konstruktiv və texnologiya əsaslı metodlar hərbi qulluqçuların dil öyrənmə prosesini sürətləndirir, praktiki ünsiyyət bacarıqlarını təkmilləşdirir, onların dil öyrənməkdə fərdi tələbat və ehtiyaclarını təmin etmiş olur.

Hərbi mühitin xüsusi tələblərinə cavab verən innovativ metodlar şəxsi heyətin çoxdilli mühitdə uğurla fəaliyyət göstərməsinə əlverişli imkanlar yaradır və beynəlxalq təhlükəsizlik əməliyyatlarında səmərəli ünsiyyət bacarıqlarını təmin edir. Beləliklə, innovativ təlim metodlarının tətbiqi xarici dillərin öyrədilməsi sahəsində yeni imkanlar açaraq hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsini əhəmiyyətli dərəcədə yüksəldir və onların uğurla fəaliyyətinə dəyərli töhfələr verir.

***Açar sözlər**: İnnovativ metodlar, xarici dilin tədrisi, yeni texnologiyalar, hərbi mühit.*

Аннотация. В быстро развивающейся сфере образования для эффективного усвоения иностранных языков в специализированных военных учреждениях особое значение имеет исследование инновационных методов обучения. Эти методы направлены на повышение профессиональной подготовки военного персонала за счет улучшения их языковой компетенции в более короткие сроки и обеспечения долгосрочного сохранения изученного материала. Традиционные подходы к обучению иностранным языкам, хотя и полезны, часто не соответствуют специфическим требованиям военной среды, таким как быстрое обучение, практическое общение и способность действовать в условиях высокого стресса.

Инновационные методы устраняют эти пробелы, сосредотачиваясь на обучении, ориентированном на учащегося, которое является интерактивным, практическим и адаптированным к индивидуальным потребностям. Такие техники, как проектное обучение, игровое обучение, коммуникативные методы и средства, основанные на современных технологиях, играют ключевую роль в развитии

креативности, критического мышления и активного участия среди военных учащихся. Эти подходы также интегрируют военные специфические требования, такие как четкое и лаконичное общение и использование аббревиатур, в языковые программы.

Применение таких методов является жизненно важным для подготовки персонала к многоязычной среде, позволяя эффективно общаться во время зарубежных миссий, разведывательных операций и разрешения конфликтов. Применяя инновационные стратегии, военные учреждения могут лучше подготовить свой персонал к успешной работе в глобальных операциях безопасности, обеспечивая, чтобы их языковые навыки непосредственно способствовали успеху миссий.

Ключевые слова. *инновационные методы, преподавание иностранных языков, новые технологии, военная обстановка*

Abstract. In the rapidly evolving field of education, exploring innovative teaching methods for effective foreign language acquisition in specialized military institutions holds significant importance. These methods aim to enhance the professional preparedness of military personnel by improving their language proficiency in a shorter time and ensuring long-term retention of learned material. Traditional approaches to language teaching, while valuable, often fail to meet the specific demands of military environments, such as rapid learning, practical communication, and the ability to perform under high stress. Innovative methods address these gaps by focusing on learner-centered approaches that are interactive, practical, and tailored to individual needs. Techniques such as project-based learning, game-based learning, communicative methods, and technology-driven tools play a key role in fostering creativity, critical thinking, and active participation among military learners. These approaches also integrate military-specific requirements, such as clear and concise communication and the use of abbreviations, into language programs. The application of such methods is crucial for preparing personnel for multilingual environments, enabling effective communication during foreign missions, intelligence operations, and conflict resolution. By adopting innovative strategies, military institutions can better equip their personnel to succeed in global security operations, ensuring their language skills contribute directly to mission success.

Key words*: Innovative methods, foreign language teaching, new technologies, military environment*

Təhsil sahəsində xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dilin səmərəli öyrənilməsində innovativ təlim metodlarının tətbiqinin xüsusi əhəmiyyəti vardır. Xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dillərin tədrisində innovativ təlim metodlarının əhəmiyyəti zabit və hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsini yüksəltmək üçün ən vacib bir məqamdır. Müasir dünyamızda qlobal informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bərabər, xarici dilləri səmərəli öyrənmək və ünsiyyət bacarıqlarını təkmilləşdirmək üçün ənənəvi üsullara alternativ olan yeni metodlar tələb olunur. Bu baxımdan hərbi müəssisələrdə innovativ təlim metodları dil öyrənmə prosesində daha yüksək effektivlik əldə etməyə və hərbi heyətin operativ fəaliyyəti zamanı xarici dildə ünsiyyət bacarıqlarını artırmağa imkan verir.

Bu metodların əsas məqsədi hərbi qulluqçuların xarici dil biliklərini inkişaf etdirmək, mümkün qədər öyrənmə müddətini qısa və sürətli şəkildə mənimsətmək və öyrənilən materialların daha tez yadda qalmasını təmin etməkdir. Hərbi müəssisələrdə xarici dilin öyrədilməsində əsas məqsəd xarici missiyalara təhkim olunan hərbi qulluqçuları səriştəli və hərətərəfli bilikli yetişdirməkdir. Qlobal təhlükəsizlik və beynəlxalq münasibətlər sahəsində sürətli inkişaf dilin də sürətli inkişafına səbəb olmuşdur. Məhz bu səbəbdən ünsiyyət qurmaq bacarığı effektiv hərbi əməliyyatlar üçün əsasdır. Hərbi qulluqçular arasında xarici dil bilikləri yalnız müttəfiqlər, yerli əhali və koalisiya qüvvələri ilə birbaşa ünsiyyət üçün deyil, həm də kəşfiyyat, danışıqlar və münaqişələrin həlli üçün əhəmiyyətli bir vasitədir. Ənənəvi dil tədrisi metodları xarici dillərin tədrisində əhəmiyyətli olsa da, o hərbi şəraitdə sürətli dil mənimsəmə və praktik ünsiyyət bacarıqlarının tələb olunduğu spesifik, çox məqsədli tələbləri tam olaraq qarşılaya bilmir [1, s.22]. Bu boşluq hərbi xarici dili öyrənənlər arasında dil biliklərinin yadda saxlanması və təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş innovativ təlim metodlarının tətbiqini zəruri edir. Bu metodları mənimsəməklə hərbi müəssisələr şəxsi heyəti çoxdilli mühitdə səmərəli fəaliyyət göstərmək üçün daha yaxşı hazırlaşdıra bilər, bu səbəbdən də dili səlist bilmək bacarığı birbaşa xarici missiyada olan bir hərbiçinin uğuruna əhəmiyyətli dərəcədə təsir edə bilər.

Hərbi mühitin tələbləri mülki dil öyrənmə prosesindən əhəmiyyətli dərəcədə fərqlənir.

Ənənəvi öyrənənlərdən fərqli olaraq hərbi sahədə təhsil alanlar çox vaxt məhdud öyrənmə müddəti, yüksək stress səviyyəsi və praktiki dil bacarıqlarını sürətlə əldə etmə ehtiyacı ilə üzləşirlər. Bundan əlavə hərbi təlimlərdə iştirak edən hərbiçilərdən aydın, qısa və dəqiq danışmaq tələb olunur. Hərbi dili bəzən də qısaltmalar dili (abbreviatura) də adlandırırlar. Ona görə də xarici dilin tədrisində bu sadalananlar proqramın bir hissəsi kimi inteqrasiya olunmalıdır [2,s.25].

Bu kontekstdə innovativ təlim metodlarının tətbiqi vacibdir, çünki bu metodlar hərbi xarici dili öyrənənlərin həm kognitiv çətinliklərini, həm də praktiki ehtiyaclarını nəzərə alaraq uyğunlaşdırılmış bir yanaşmanı təmin edir. Eyni zamanda real iş şəraitinə uyğunlaşdırılmış simulyasiyalar vasitəsilə hərbçilər müxtəlif dil situasiyalarında təcrübə qazanır və bu onların gələcək vəzifələrində operativ və cəld qərar vermək qabiliyyətini artırır. Bu yolla hərbi strukturların xarici ölkələrlə əlaqələrinin güclənməsi və beynəlxalq əməliyyatlarda daha səmərəli ünsiyyət qurulması təmin edilir. İnnovativ təlim metodları multimedia vasitələrinin, interaktiv platformaların və simulyasiyaların istifadəsini əhatə edir. Bununla yanaşı "online" dərs platformaları, qrup müzakirələri və dinamik oyun metodları hərbi təhsil alanların dil biliklərini daha yaxşı mənimsəməsinə, həmçinin öz aralarında və təlimçilərlə canlı ünsiyyətdə daha fəal olmalarına şərait yaradır. Müasir dünyada sürətlə dəyişən qlobal əlaqələr, əməkdaşlıq və təhlükəsizlik tələb edir ki, müxtəlif dillərdə səlist ünsiyyət qura bilən mütəxəssislər yetişdirilsin. Bu baxımdan innovativ təlim metodları xarici dil tədrisinin effektivliyini artırmaq üçün güclü vasitə hesab oluna bilər. Bu metodlar tədris prosesini daha praktik, interaktiv və şəxsə uyğun etmək üçün ənənəvi yanaşmalardan fərqli olaraq tələbə yönümlü bir yanaşmanı təşviq edir. Bu səbəbdən, xarici dil öyrənmə prosesinin keyfiyyətini artırmaq üçün tədris metodları üzərində ciddi iş aparılmalı, innovativ və effektiv yanaşmalar tətbiq olunmalıdır.

İnnovativ metodlar digər tərəfdən, xarici dillərin tədrisi zamanı hərbi təhsil alanlara daha çox fərdi yanaşma imkanı verir, onların dil öyrənmə prosesini əyləncəli və motivasiyaedici hala gətirir. Layihə əsaslı, oyun əsaslı, kommunikativ və texnologiya əsaslı metodlar bu yanaşmaların əsasını təşkil edir. Bu metodlar yalnız bilik ötürməkdən ibarət deyil, həm də gərgin və stressli mühitdə təhsil alan hərbi qulluqçuların yaradıcı və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirməyə, onları aktiv şəkildə dərs prosesinə cəlb etməyə yönəlmişdir[3,s. 45].

Beləliklə, innovativ təlim metodlarının tətbiqi xarici dil tədrisində yeni imkanlar yaradır, tədrisin keyfiyyətini artıraraq müasir tədris tələblərinə uyğunlaşır.

İnnovativ təlim metodlarının hərbi təhsil alanların öyrənmə sürətinə və motivasiyasına təsiri geniş və hərtərəflidir.

İnnovativ metodların tətbiqi hərbi təhsil alanların motivasiyasını artırır, onları dil öyrənməyə həvəsləndirir və öyrənmə prosesini asanlaşdırır. Layihə əsaslı və oyun əsaslı metodlar tələbələrə dil bacarıqlarını praktik şəraitdə tətbiq etmək imkanı yaradır ki, bu da onların dil öyrənmə sürətini artırır. Oyun əsaslı təlim metodları hərbi təhsil alanların dərslərə marağını və həvəsini yüksəldir. Oyunlar vasitəsilə onlar yeni sözləri və qrammatik qaydaları daha sürətlə yadda saxlaya bilirlər.

İnnovativ metodlar sırasında geniş yayılmış İnteraktiv metodların özünəməxsus müəyyən xüsusiyyətləri vardır. Burada biliyin əsas qrup və cütlərlə iş formalarından müntəzəm şəkildə istifadə etməklə axtarılıb tapılması ön plana çəkilir.

"İnteraktiv" ingilis sözü olub üç mənada təqdim olunur. Birincisi "enter" şəklində, yəni "daxili", ikincisi "intero" "içəri" mənasında, üçüncüsü isə "interna- şin" şəklində yəni, "qarşılıqlı əlaqə" "dialoq" mənasında işlədilir. "Aktiv" və ya "akt" sözü isə beynəlxalq status almış "aktivişhin" sözündən olub "fəaliyyət", "fəal", "fəallıq", "fəallaşmaq" mənasında işlədilir. Demək "İnteraktiv" "qarşılıqlı əlaqə", "anlaşma", "əməkdaşlıq", "dialoq" deməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur. Bu fəallaşma adi və normal fəallaşma kimi deyil, çevik və dinamik fəallaşma kimi başa düşülür. Deməli, "interaktiv" sözü pedaqoji prosesin son dərəcə dinamik fəallaşdırılması kimi başa düşülməlidir. Bu prosesdə hər bir kursantın, tələbənin öz müstəqil fikri, düşüncəsi və ideyası olur və hər bir zəif şagird də fəallaşırlar. Bütün bunlar da heç şübhəsiz təlim keyfiyyətinin yüksəlməsinə, təkmilləşməsinə bilavasitə təsir göstərir, təhsil alanların mənimsəmə keyfiyyətini artırır [4.s.275].

İnteraktiv dərs platformaları, qrup müzakirələri və dinamik oyun metodları isə tələbələrin bir-biri ilə ünsiyyət quraraq öyrənməsinə imkan yaradır. Xüsusilə, hərbi fəaliyyət göstərərkən tez və aydın ünsiyyət bacarığı vacib olduğuna görə, bu metodlar vasitəsilə kursantlar arasında həmrəylik güclənir və onlar bir komanda şəklində çalışaraq müxtəlif dil tapşırıqlarını yerinə yetirirlər. Bu metodlar sayəsində kursantlar həm öyrənmə prosesinə daha tez-tez cəlb olunurlar, həm də dil biliklərinin praktiki tətbiqini mənimsəyirlər.

Onu da vurğulamaq lazımdır ki, beynəlxalq əməliyyatlarda iştirak edən hərbi şəxsi heyətin xarici dil biliklərinin yüksək olması beynəlxalq əlaqələrin inkişafına və qarşılıqlı anlaşmanın güclənməsinə səbəb olur. Bu baxımdan hərbi strukturların xarici ölkələrlə əməkdaşlıq etmək qabiliyyətini artırmaq üçün dil öyrənmə prosesində innovativ metodların tətbiqi vacibdir. Bu metodlar eyni zamanda, hərbi şəxsi heyətin beynəlxalq standartlara uyğun şəkildə təlim almasını və bu sahədə rəqabətə davamlı olmasını təmin edir.

Aparılmış tədqiqatlar sahəsində belə nəticəyə gəlmək olar ki, xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dillərin öyrədilməsi sahəsində innovativ təlim metodlarının tətbiqi yalnız dil biliklərinin artırılmasına deyil, həm də kursantların psixoloji və praktiki hazırlığına müsbət təsir göstərir. Bu metodların istifadəsi hərbçilərin beynəlxalq əməliyyatlarda özünü daha sərbəst hiss etməsinə və müxtəlif mədəniyyətlərdən olan tərəfdaşlarla səmərəli ünsiyyət qurmasına imkan yaradır.

Xüsusi təyinatlı hərbi müəssisələrdə innovativ təlim metodları ilə xarici dillərin tədrisi hərbi şəxsi heyətin beynəlxalq mühitdə uğurla fəaliyyət göstərməsinə səbəb olur. Bu metodlar tədrisin səmərəliliyini artıraraq dil öyrənmə prosesini daha çevik və məqsədyönlü edir.

İnteraktiv təlimə tədrisin və idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusu kimi baxmaq olar. İnteraktiv təlim üçün aşağıdakı cəhətlər səciyyəvi ola bilər:

Müəllim tərəfindən şüurlu surətdə (iradi olaraq) idraki problem situasiyasının yaradılması; problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması; təhsil alanlar üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması.

İnteraktiv yanaşmanın mahiyyəti ondadır ki, təlim təhsil alanların yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib. Bu zaman təhsil alan müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materialın öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər.

Texnologiya əsaslı təlim metodları hərbi təhsil alanlara daha müstəqil öyrənmə imkanı verir. Məsələn, "Duolingo" və "Babbel" kimi mobil tətbiqlər tələbələrin fərdi öyrənmə sürətinə uyğunlaşaraq hər birinin öz tempində irəliləməsinə şərait yaradır. Bu cür tətbiqlərdən istifadə etməklə vaxtı məhdud olan hərbi təhsil alanlar istədikləri vaxtda, istənilən yerdə öyrənə bilirlər, bu isə onların motivasiyasını və öyrənmə effektivliyini artırır. Virtual reallıq (VR) və süni intellekt (AI) texnologiyaları isə onlara real dil mühitində öyrənmə təcrübəsi təqdim edir, bu isə onların öyrəndiklərini praktiki şəkildə tətbiq etməsinə və dərinləşdirməsinə şərait yaradır.

Vurğulamaq lazımdır ki, "ağıllı siniflər" və onlayn platformalar tələbələrə qrup işində və kollektiv layihələrdə iştirak etmə imkanı verir. Bu metodlar tələbələrin həm qrup dinamikasına, həm də fərdi öyrənmə prosesinə töhfə verir. Məsələn, onlayn forumlar və interaktiv platformalar vasitəsilə tələbələr öyrəndikləri materialı müzakirə edərək bir-birlərindən də öyrənə bilərlər.

Ümumi olaraq bildirmək olar ki, yeni texnologiya əsaslı metodlar hərbi təhsil alanlara daha yüksək motivasiya, daha dərin öyrənmə təcrübəsi və real şəraitdə praktiki biliklərin tətbiqi imkanı təqdim edərək onların dil öyrənmə prosesini daha da effektiv edir.

Sonda onu da vurğulamaq lazımdır ki, xarici dillərin innovativ tədrisi yalnız hərbi sahədə peşəkarlığın artırılmasına deyil, həm də hərbi şəxsi heyətin fərdi inkişafına şərait yaradır. Dil biliklərinin artırılması onların həm peşəkar, həm də şəxsi həyatında yeni üfüqlər açır, liderlik ba-

carıqlarını və fərdin özünəinamını artırır. Beləliklə, xüsusi təyinatlı hərbi müəssisələrdə bu cür tədris metodlarının tətbiqi yalnız hərbi-strateji baxımdan deyil, həm də sosial və mədəni aspektlərdə davamlı inkişafa xidmət edir və müasir hərbi təhsil sisteminin ayrılmaz hissəsinə çevrilir.

Problemin aktuallığı. Xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dillərin tədrisi keyfiyyətinin yüksəldilməsi innovativ təlim metodlarının tətbiqi müasir dövrün tələbləri baxımından çox aktual və əhəmiyyətlidir. Belə ki, dövrümüz elm və texnika əsridir, yeni texnologiyalar, innovasiyalar və süni intellektin yaradılması dövrüdür. Belə dövr fəaliyyətimizin bütün sahələrinə – o cümlədən təhsil sahəsinə də, dil öyrənmək texnologiyasına da öz qüvvətli təsirini göstərərək onu daha səmərəli və keyfiyyətli edir. Təcrübələrdən də məlum olur ki, dövrün texnika və texnologiyalarının, innovasiyaların tətbiqi tədrisin keyfiyyətini xeyli dərəcədə yüksəldir, ənənəvi metotodlardan fərqli olaraq daha çox praktiki və interaktiv yanaşmaları əhatə edir. Belə metodların tətbiqi sayəsində hərbi təhsil alanlar dili yalnız nəzəri cəhətdən deyil, həm də praktiki olaraq yaxşı mənimsəyirlər ki bu da onların gələcək hərbi əməliyyatlarda, hərbi kəşfiyyat işlərində xarici tərəfdaşlarla daha səmərəli ünsiyyət qurmalarına, dialoq aparmalarına imkan yaradır. İnnovativ təlim metodları hərbi şəxsi heyətin dil bacarıqlarını daha da tez inkişaf etdirir, dil öyrənməkdə müddəti qısaldır və əldə olunan biliklərin daha uzun müddət yadda qalmasını təmin edir.

Problemin yeniliyi. Məqalədə xüsusi təyinatlı hərbi müəssisələrdə xarici dillərin öyrədilməsində innovativ təlim metodlarının tətbiqi pedaqoji və psixoloji cəhətdən əsaslandırılır, müəllim müasir təhsil tələblərinə cavab verərək tədris prosesinin keyfiyyətini artırır. Bu metodlar ənənəvi yanaşmalardan fərqli olaraq, hərbi mühitin spesifik ehtiyaclarını nəzərə alır və öyrənən mərkəzli yanaşma ilə tədrisi daha səmərəli edir. Layihə əsaslı, oyun əsaslı, kommunikativ, konstruktiv və texnologiya əsaslı metodlar hərbi qulluqçuların dil öyrənmə prosesini sürətləndirir, praktiki ünsiyyət bacarıqlarını təkmilləşdirir, onların dil öyrənməkdə fərdi tələbat və ehtiyaclarını təmin etmiş olur.

Hərbi mühitin xüsusi tələblərinə cavab verən innovativ metodlar şəxsi heyətin çoxdilli mühitdə uğurla fəaliyyət göstərməsinə əlverişli imkanlar yaradır və beynəlxalq təhlükəsizlik əməliyyatlarında səmərəli ünsiyyət bacarıqlarını təmin edir. Beləliklə, innovativ təlim metodlarının tətbiqi xarici dillərin öyrədilməsi sahəsində yeni imkanlar açaraq hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsini əhəmiyyətli dərəcədə yüksəldir və onların uğurla fəaliyyətinə dəyərli töhfələr verir.

Problemin praktik əhəmiyyəti. Məqalədə hərbi təyinatlı ali məktəblərdə xarici dilin tədrisində innovasiyaların tətbiqinə dair təqdim edilən materiallar praktik əhəmiyyət daşıyır və xarici dilin tədrisində uğurla istifadə edilə bilər.

Ədəbiyyat:

1. Smith, K., & Hill, J. (2019). *Defining the Nature of Blended Learning through Its Depiction in Current Research*. Higher Education Research & Development, 38, 383-397.
2. Terry Anderson, Pablo Rivera-Vargas *A critical look at educational technology from a distance edication perspective*. (2020) Digital Education Review
3. Shevchenko. İnnovative teaching methods as a component of the educational environment of a modern institution of higher military education National University of Kyiv Military-Special Sciences (2024) June
4. Hüseynzadə, R.L. Pedaqogika. Dərslik. / R.L. Hüseynzadə. -Bakı: Mütərcim, -2021. -488 s.

Redaksiyaya daxil olub: 03.02.2025

UOT 372.881.111.1

Mətanət Dağıstan qızı Zalova
Gəncə şəhəri M.C. Paşayev adına 39 №-li
tam orta məktəbin ingilis-fransız dilləri müəllimi
https://orcid.org/0009-0002-4928-9098
E-mail: metanetzalova29@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).185-189

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MƏDƏNİYYƏTLƏRİN ÖYRƏNİLMƏSİ

Матанат Дагестан гызы Залова
учитель английского и французского языков
полной средней школы №39 им.М.Дж. Пашаева города Гянджи

ИЗУЧЕНИЕ КУЛЬТУР В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Metanet Daghistan Zalova
English-French languags teacher
of M.J. Pashayev secondary school No. 39 at Ganja city

CULTURE STUDY IN ENGLISH LANGUAGE TEACHING

Xülasə. İngilis dilinin tədrisində mədəniyyətlərin öyrənilməsi müasir metodologiyada ən vacib bir sahədir. Dil və mədəniyyət arasındakı əlaqə haqqında bir sıra empirik tədqiqatlar onun dil bacarıqlarının və mədəni dünyagörüşün öyrənilməsində əhəmiyyətli rolundan bəhs edir. Məqalənin məqsədi ümumi təhsil məktəblərində ingilis dilini öyrənən şagirdlərin mədəniyyətlər haqqında bilik və bacarıqlarının inkişaf etdirilməsi yollarını təqdim etməkdir. Bu məqsədlə məqalə araşdırmalarda verilən fikir və rəylərinə əsaslanan nəzəri çərçivəni müzakirə edir.
Açar sözlər: *mədəniyyət, dil, bilik və bacarıqlar, dünyagörüş, kommunikasiya*

Аннотация. В статье подчеркивается, что современная методология является важным направлением изучения культур в преподавании английского языка. Ряд эмпирических исследований взаимосвязи языка и культуры указывают на ее важную роль в освоении языковых навыков и культурного мировоззрения. Цель статьи – представить пути развития знаний и навыков о культурах у учащихся, изучающих английский язык в общеобразовательных школах. С этой целью в статье обсуждается теоретическая основа, основанная на идеях и мнениях, высказанных в исследованиях.
Ключевые слова: *культура, язык, знания и умения, мировоззрение, коммуникация.*

Abstract. The research paper focuses on learning cultures in English language teaching, an essential aspect of modern methodology. Several empirical studies examine the relationship between language and culture, underscoring its crucial role in developing language skills and cultural perspectives. The article aims to present strategies for enhancing students' knowledge and skills regarding cultures while learning English in general education schools. To achieve this, it discusses a theoretical framework based on the ideas and findings presented in existing studies.
Keywords: *culture, language, knowledge and skills, perspectives, communication*

İngilis dili həm ünsiyyət, həm də mədəniyyət vasitəsi kimi qlobal cəmiyyətdə əhəmiyyətli dərəcədə rol oynayır. Bu baxımdan bir çox alimlər dil və mədəniyyət arasında əlaqənin olduğuna inanır və bu sahədə bir sıra araşdırmalar aparırlar. İngilis dilinin tədrisi sahəsində dil və mədəniyyət arasındakı əlaqə ilə bağlı iki əks perspektiv mövcuddur.

Mədəniyyət ingilis dilinin öyrənilməsinə əhəmiyyətli dərəcədə təsir edir, öyrənənlərin motivasiyasını, qavrayışını və ünsiyyət strategiyalarını formalaşdırır. Mədəniyyətin inteqrasiyası kommunikativ səriştəni artırır, mədəniyyət-

lərarası anlaşmanı gücləndirir və dil öyrənmə mühitlərində inklüzivliyi və hörməti təşviq edir [2; 3; 9]. Buna baxmayaraq, mədəni boşluqlar müəllimlərin şagirdlərin davranışlarını yanlış şərh etmələrinə səbəb ola bilər ki, bu da çox vaxt münaqişəyə səbəb olur. Bu münaqişələr bir sıra təsirlərə səbəb olur. Belə olan halda şagirdlər özlərini səhv başa düşülən və ya təcrid olunmuş hiss edir, intizamla bağlı müraciətlərin daha yüksək nisbətləri yaranır və mədəni dünyagörüşə zəif malik olurlar.

S. Cenkinsə (Jenkins, S., 20210) görə, *"dillərin mədəniyyətlə güclü, ayrılmaz və mürəkkəb əlaqələri var*" (2010) və dili öyrənmək mahiyyətcə bir xalqın mədəniyyətinə və adətlərinə bir pəncərə açır [8, s.460]. Bütün dünyada ingilis dili müəllimləri öz öyrənənlərinin öz millətlərini inkişaf etdirmək üçün lazım olan linqvistik bacarıqları əldə etmələrinə diqqət yetirsələr də, ingilis dilində dil və mədəniyyətlərin öyrənilməsi sinifdə mühüm rol oynayır. J. Mörfi (Murphy, J.) öz araşdırmalarında mədəniyyətin insanın hissləri və fəaliyyəti ilə sıx əlaqəsi olduğunu və onun sosial, milli və kimlik məsələləri ilə bağlı olduğunu qeyd edir. Mədəniyyət *sosiologiya, psixologiya, antropologiya və dilçilik* kimi çoxsaylı sahələrdə bir çox tədqiqatların obyektinə çevrilmişdir [9, s. 147].

Öyrənmə və öyrətmə sahəsində F. Qao (Gao, F. 2006: 59) dil öyrənmə və mədəniyyət təlimi arasındakı əlaqəni aydın şəkildə vurğulayaraq, *"dil öyrənmək mədəniyyət öyrənməkdir"* ifadəsi kimi işlədir. O, eyni şəkildə qeyd edir ki, *"dil öyrətmək mədəniyyət öyrətməkdir".* Bundan əlavə, Qao vurğulayır ki, müəllimlər ingilis dilinin tədrisində mədəniyyətşünaslığın əhəmiyyətini dərk etməli və şagirdlərin mədəni şüurunu artırmaq və onların kommunikativ səriştələrini təkmilləşdirməyi hədəfləməlidirlər [6, s.7].

K. Bayram və C. Kortes (Byram, K. and Kramsch, C. 2007) mədəniyyətlərin tədrisi haqqında bəzi araşdırmalar ziddiyyətli fikirlər irəli sürmüşlər [2; 3]. Birincisi, qeyd edirlər ki, tədris üzrə dil sillabusları yüklüdür. Ona görə də dil kurrikulumlarda mədəniyyəti tədris etməyə həm zaman, həm də məkan baxımından yer vermək çətinləşir. İkincisi, bir çox müəllimlər üçün mədəniyyəti öyrətmək dillərdən daha çətin görünür və adətən mədəniyyət və ya *"mədəniyyətlərarası sərişta"* öyrətməyə hazır deyillər. Bunun səbəbi onlara "mədəniyyətlərarası sərişta"nin öyrədilməməsidir. Onların tədris metodunda uyğunlaşdıracaq və ya təqlid edəcək bir modeli yoxdur və başqa sözlə, müəllimlərin mədəniyyətlərin tədrisi üzrə praktiki təcrübəsi çox aşağı səviyyədədir.

2. **Mədəniyyətlərin öyrənilməsi sahələri**

Mədəniyyətin inkişafına təsir edən çoxlu sahələr – akademik fənlər mövcuddur. Birincisi, mədəniyyətlərarası ünsiyyətin təməl daşını təşkil edən linqvistik təhlil anlayışlarına töhfə verən *dilçilikdir*. Digəri, insan davranışını və motivasiyasını dərk etmək üçün istifadə etdiyimiz bir çox fikirləri bizə verən psixologiyadır. Antropologiya və sosiologiya davranış və müxtəlif cəmiyyətlərdə sosial dəyərləri formalaşdıran amillərlə bağlı araşdırmalarımıza təsir edən digər iki sahədir.

Dil öyrənmək təkcə əlifba, lüğət və qrammatikanı əhatə edən mürəkkəb bir prosesdir. Davranış və mədəni normalar kimi dillərin məzmununu öyrənmək lazımdır. Məsələn, şagirdlər ingilis dilini və eyni zamanda digər ölkələrin dilini öyrənmək istədikləri zaman sadəcə dilin linqvistikasını deyil, ingilis dili və Birləşmiş Krallıq haqqında hər şeyi özündə cəmləşdirirlər.

M.N. Brok və Y. Naqasaka (Brock, M.N., Nagasaka, Y. 2005) iddia edirlər ki, dil öyrənmənin hər mərhələsində *"mədəniyyətlərarası"* və ya *"praqmatik*" sərişta nəzərə alınmalıdır. Bu konsepsiya dil öyrənənlərin özlərini rahat hiss etmələrinə kömək edən sosial bacarıqları əhatə edir, çünki bu, onlara ünsiyyət bacarıqlarına effektiv şəkildə nail olmaq imkanı verir [1, s.20].

Mədəni şüur həqiqətən müxtəlif humanist fənlərdən olan fikirləri sintez edən fənlərarası bir mövzudur. Bu yanaşma müxtəlif mədəniyyətləri effektiv şəkildə anlamaq və onlarla əlaqə qurmaq üçün lazım olan qabiliyyət və bacarıqları müəyyən etməyə kömək edir.

Mədəniyyət yaradıcılığı ifadə etmək, şəxsi şəxsiyyəti formalaşdırmaq və cəmiyyətin ətrafı ilə əlaqəsini gücləndirmək və ya saxlamaq üçün həyati bir vasitə kimi xidmət edir. Mədəni təcrübələrlə məşğul olmaq asudə vaxt və əyləncə imkanlarını təmin edir, eyni zamanda öyrənməyi və başqaları ilə təcrübə mübadiləsini asanlaşdırır [4; 7].

Mədəniyyət bir-biri ilə əlaqəli olan müxtəlif ölçüləri əhatə edir, cəmiyyət daxilində mürəkkəb anlaşma şəbəkəsini təşkil edir. Xarici dillərin öyrənilməsi üzrə milli standartlara (1996) əsasən,

biz bunu üç əsas komponentə bölmək olar: *perspektivlər, təcrübələr və məhsullar.*



Şəkil 1. Mədəniyyətlərin öyrənilməsi komponentləri

1) *Fəlsəfi Perspektivlər:* Bura cəmiyyətin dünyagörüşünü formalaşdıran *inanclar, dəyərlər və fərziyyələr* daxildir. Bu perspektivlər fərdlərin ailə, təhsil və uğur kimi anlayışlar haqqında düşüncələrinə təsir edir. Bu fəlsəfi əsasları başa düşmək, müəyyən davranışların və təcrübələrin bir mədəniyyət daxilində niyə qəbul edildiyini anlamaq üçün vacibdir.

2) *Davranış Təcrübələri*: Bunlar cəmiyyətin dəyərlərini və inanclarını əks etdirən gündəlik hərəkətlər və qarşılıqlı əlaqələrdir. Buraya mədəniyyətdəki fərdlərin bir-birləri ilə necə yaşadığına və əlaqə saxlamasına rəhbərlik edən rituallar, ənənələr və sosial normalar daxil ola bilər. Davranış təcrübələri hətta oxşar fəlsəfi perspektivləri paylaşan qruplar arasında da geniş şəkildə fərqlənə bilər.

3) *Maddi və qeyri-maddi Məhsullar*: Bu aspektə mədəniyyət tərəfindən istehsal olunan artefaktlar, incəsənət, ədəbiyyat, musiqi və texnologiya, eləcə də daha az görünən, lakin mədəniyyətə dərindən ayrılmaz olan dillər, adətlər və sosial strukturlar daxildir. Həm maddi, həm də qeyri-maddi məhsullar mədəniyyətin fəlsəfi dəyərlərinin ifadəsi kimi xidmət edir və müasir təcrübələrlə formalaşır [5, s.47].

Bu üç komponent arasındakı əlaqə mədəniyyətin necə dinamik və bir-biri ilə əlaqəli sistem olduğunu göstərir. Fəlsəfi perspektivlərdəki dəyişikliklər davranış təcrübələrində dəyişikliklərə səbəb ola bilər ki, bu da öz növbəsində mədəniyyətin istehsal etdiyi maddi və qeyri-maddi məhsulların növlərinə təsir göstərə bilər. Bu qarşılıqlı əlaqəni başa düşmək xarici dil və mədəniyyət haqqında daha dərin fikir əldə etmək istəyən hər kəs üçün çox vacibdir.

L. Damen (Damen, L.1987) bu komponentləri təhlil edərək mədəniyyətin altı diqqətəlayiq xüsusiyyətini təqdim etmişdir [5, s. 78]:

1) Mədəniyyət öyrənilir;

2) Mədəniyyətlər və mədəni nümunələr dəyişir;

3) Mədəniyyət insan həyatının universal faktıdır;

4) Mədəniyyətlər yaşayış üçün unikal və bir-biri ilə əlaqəli, seçilmiş planlar toplusunu və bu planları dəstəkləmək üçün onları müşayiət edən dəyər və inanc dəstlərini təmin edir;

5) Dil və mədəniyyət bir-biri ilə sıx bağlıdır və interaktivdir;

6) *Mədəniyyət öz daşıyıcıları ilə ətraf mühitin təqdim etdiyi çoxlu stimullar arasında filtrləmə vasitəsi kimi fəaliyyət göstərir [4; 9].*

2. Mədəniyyətlərin tədrisinin tətbiqi yolları

Məqalə mədəniyyət gündəminin tədrisinə daha ətraflı baxır və aşağıdakı sahələrdə mümkün düşüncə yollarını araşdırır:

- Mədəniyyət hara uyğun gəlir? Hansı bacarıqlara aiddir?

- Mədəniyyət kurikulumu hansı sahələri əhatə edir?

- İngilis dilində mədəniyyətin tədrisini nə vaxt tətbiq etməliyik?

- Mədəniyyətin tədrisində nəyi və hansı səviyyədə öyrətməliyik?

- Materiallar mədəniyyət məsələsini necə həll edir və bu adekvatdırmı?

- *Mədəniyyətin tədrisi üçün ən yaxşı audio, mətn və əyani vəsaitlər hansılardır?*

- *Müxtəlif səviyyələrdə mədəniyyətlərin tədrisi üçün hansı metodologiya ən uyğundur?*

- *Hansı fəaliyyət növləri başqa mədəniyyətləri öyrənməyə və qiymətləndirməyə kömək edir?*

Məktəblərdə ingilis dilinin tədrisində mədəniyyətin təlimini gücləndirmək üçün şagirdlər, müəllimlər, valideynlər və icma üzvləri arasında qarşılıqlı əlaqə yaratmaq üçün müəyyən edilmiş prosesləri kəşf etmək faydalı olur. Təlim prosesi:

- *Liderlik təcrübələrini və şagird maraqlarını formalaşdıran mövzuları müəyyən etmək*

- *Təlimi formalaşdıran sahələri anlamaq*

- *Məktəb, icma və valideyn tərəfdaşlığını inkişaf etdirmək*

- *Xüsusilə risk altında olan məktəblər üçün qayğıkeş mədəniyyəti daxil etmək*

- *Müəllimlər üçün uyğun resursları yaratmağı təşviq etmək.* [4; 5; 7]

Yerli mədəniyyəti vurğulayarkən ingilis dilini öyrətməyin ən təsirli yollarından biri sahə səfərləri və ya icma ilə qarşılıqlı əlaqə kimi real dünya fəaliyyətləridir. Yerli muzeyə, mədəni sayta və ya hətta məşhur bazara baş çəkmək maraqlı söhbətlərə səbəb ola bilər və öyrətdiyiniz dil üçün kontekst təmin edə bilər.

Ünsiyyət yaratmaq üçün *nitq etiketləri, müraciət formaları, yumor, adət-ənənə və yaxşı davranış,* həqiqətən, ingilis mədəniyyəti ilə əlaqəli xüsusiyyətlərdir. Digər ölkələrin ədəbiyyatı, kino, musiqi, incəsənət və fəlsəfəyə verdiyi töhfələr böyük təsirə malikdir. Xarici ölkələrin bədii əsərlərindən tutmuş məşhur filmlərə və musiqilərə qədər ingilis dilli ölkələrin mədəniyyəti qlobal incəsənət və ideyaların formalaşmasında mühüm rol oynamışdır. Bu elementlər nəinki dili zənginləşdirir, həm də millətin irsi və dəyərlərinin daha dərindən dərk edilməsini təmin edir və onu ingilis dilinin tədrisində və ondan kənarda kəşfiyyat üçün maraqlı mövzu halına gətirir [1; 4].

Sinifdə şagirdlərlə mədəniyyətlərin öyrənilməsində şagirdlərə ingilis dilini öyrənməyə kömək etmək üçün dörd praktik məsləhəti vermək olar:

- *ingilis dilində əyləncə və media təmin etmək*

- *rollu oyunlarda mədəniyyəti nümayiş etdirmək*

- *müzakirə və söhbəti təşviq etmək*

- *lüğət yaratmaq üçün oyunlar oynamaq*

- *qəzet və jurnal məqalələrindən istifadə etmək*

- *müxtəlif mövzularda aydın təlimatlar hazırlamaq*

- *anlama ilə əlaqəli ifadələri öyrətmək.*

Müəllimlər mədəniyyətlərin tədrisində fənləri bir-birinə inteqrasiya edir və bu inteqrasiyada həlledici rol oynayırlar. Onların mədəniyyətə yanaşmaları və münasibətləri tələbələrin qavrayışlarına və məşğuliyyətlərinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bundan əlavə, kurikulumlar və dərsliklər mədəni kontekstləri və təcrübələri daxil etmək üçün düşünülmüş şəkildə tərtib edilməlidir. Ənənəvi materiallar mədəni nüansları nəzərdən qaçıra bilər, beləliklə, öyrənmə dərinliyinə xələl gətirir. Nəticə etibarilə, pedaqoqlar müxtəlif perspektivləri və immersiv mədəni təcrübələri təmsil edən resursları seçməlidirlər [2; 5].

Bundan əlavə, mədəni şüurun öyrədilməsi üsulları və mədəni öyrənmənin xarici dil siniflərinə inteqrasiyası yolları təsvir olunacaq. Bundan əlavə, dil sinif müəllimləri üçün mədəniyyət məsələlərinin həlli üçün bəzi praktiki təlimatlar veriləcəkdir. İngilis dilinin tədris olunan siniflərdə mədəniyyətin öyrədilməsinin üstünlükləri və mənfi cəhətləri də müzakirə olunmalı və sonda müzakirə və nəticə təqdim olunmalıdır.

Problemin aktuallığı. Mədəniyyət tədrisi insanların həyat tərzlərini, münasibətlərini, inanclarını və dəyərlərini tədqiq etməklə öyrənənlərə hədəf mədəniyyət haqqında anlayışlarını gücləndirməyə kömək edir. Tədqiqatlar göstərir ki, müəllimlər dərslərinə mədəni elementləri daxil etdikdə dil öyrənilməsi daha effektiv ola bilər. Bu yanaşma öyrənənlərə hədəf dillə əlaqəli mədəniyyətə tam şəkildə batırmağa imkan verir və bu, daha zəngin və daha cəlbedici öyrənmə təcrübəsinə səbəb olur.

Problemin elmi yeniliyi. Ümumi təhsildə ingilis dilinin öyrədilməsində mədəniyyətlərin tədrisi innovativ metodlardan istifadə edilməklə yeni yanaşmaların perspektivliyini sübut edir. Mədəniyyətin tədrisində müasir təlimatlar və üsullar ingilis dilinin metodologiyasında ən vacib sahə kimi araşdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalədə verilmiş tədqiqatın təhlilləri və alınan nəticələri ümumi təhsil müəssisələrində ingilis dilinin tədrisində mədəniyyətlərin tədrisində tətbiq oluna bilər. Digər tərəfdən, tədqiqat üzrə mədəniyyət təlimi üzrə təlimat kimi istifadə oluna bilər.

Ədəbiyyat:

1. Brock, M.N. and Nagasaka, Y. Teaching pragmatics in the EFL classroom? SURE you can! TESL Reporter, 2005 31(1), 17-26.
2. Byram, K. and Kramsch, C. Why is it so difficult to teach language as culture? The German Quarterly, 2008 81(1), 20-34.
3. Byram, M. and Grundy, P. (ed.) Context and culture in language teaching and learning. Clevedon: Multilingual Matters. 2003 – pp.24-49
4. Cortés, N.C. Language meeting culture in the foreign language classroom: A comparative study. Interlingüística, 2007 17, 230-237.
5. Damen, L. Culture learning: The fifth dimension in the language classroom. Reading, MA: Addison-Wesley. 1987 123 p.
6. Gao, F. Language is culture – on intercultural communication. Journal of Language and Linguistics, 2006 5(1), 58-67.
7. Holliday, A. The role of culture in English language education: key challenges. Language and Intercultural Communication, 2009 - 9(3), 144-155.
8. Jenkins, S. Monolingualism: an uncongenial policy for Saudi Arabia's low-level learners. ELT Journal, 2010 64(4), 459-461.
9. Murphy, E. The cultural dimension in foreign language teaching: Four models.Language, Culture and Curriculum, 1988 1(2), 147-163.

Redaksiyaya daxil olub: 03.02.2025.

UOT 372.881.111.1

Nərminə Soltan qızı Quliyeva
Azərbaycan Dövlət İqtisad Universitetinin baş müəllimi
https://orcid.org/0000-0002-5090-9699
E-mail: quliyevanermine55@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).190-193

İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

Нармина Солтан гызы Гулиева
старший преподаватель Азербайджанского Государственного Экономического Университета

ФОРМИРОВАНИЕ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ СТУДЕНТОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

Narmina Soltan Guliyeva
senior lecturer at the Azerbaijan State Economic University

FORMATION OF MORAL EDUCATION OF STUDENTS IN THE PROCESS OF TEACHING ENGLISH

Xülasə. Gənc nəslin milli-mənəvi dəyərlər əsasında formalaşdırılması ali məktəblərin qarşısında qoyulmuş başlıca vəzifələrdəndir. Bu, təhsil prosesinin idarə olunması, təlimin məzmunu və tədris edilən fənlərin təşkili kimi mühüm istiqamətlərdə əksini tapır. İngilis dili fənni təhsilalanların bu dildə kommunikativ bacarıqlarının formalaşmasına xidmət etsə də, onların vətənpərvərlik, insansevərlik, dövlətçilik, sülhsevərlik, dözümlülük, söz və əməldə birlik və s. kimi milli-mənəvi tərbiyə olunmasında önəmli rol oynayır.
Açar sözlər: *ingilis dili, tələbələrin mənəvi tərbiyəsi, inkişaf, linqvistik biliklər, kommunikativ bacarıqlar*

Аннотация. Формирование подрастающего поколения на основе национальных и духовных ценностей является одной из основных задач, стоящих перед высшими учебными заведениями. Это находит отражение в таких важных областях, как управление образовательным процессом, содержание обучения, организация преподаваемых дисциплин. Несмотря на то, что преподавание английского языка служит развитию коммуникативных навыков студентов на этом языке, оно также должно играть важную роль в их национальном и нравственном воспитании, развивать у студентов патриотизм, человеколюбие, государственность, миролюбие, толерантность, единство слова и дела и т. д.
Ключевые слова: *английский язык, нравственное воспитание студентов, развитие, лингвистические знания, коммуникативные навыки*

Abstract. The formation of the younger generation based on national and moral values is one of the primary responsibilities of higher education institutions. This is reflected in key aspects such as the management of the educational process, the content of instruction and the organization of subjects taught. While the English language subject aims to develop students' communicative skills in this language, it also plays a significant role in fostering their moral upbringing in areas such as patriotism, humanism, statehood, peacefulness, tolerance, unity in word and action and other national and moral values.
Keywords: *English language, students' moral upbringing, development, linguistic knowledge, communicative skills*

Respublikamızın prezidenti cənab İlham Əliyevin müxtəlif ölkələrə səfərləri qarşılıqlı iqtisadi, mədəni, sosial əlaqələrin genişlənməsinə, mədəni, mənəvi, ticarət münasibətlərinin güclənməsinə şərait yaradır. Bu proseslərdə hər bir vətəndaş öz ölkəsinin mədəniyyətini, incəsənətini, ədəbiyyatını müxtəlif yerlərdə təbliğ etmək istəyir. Bu istək məhz mənəvi keyfiyyətlərlə bağlıdır. İnsan mənəvi cəhətdən zəngin olarsa, o, Vətəninin, xalqının keçmişini dəyərləndirər

və bu gün də onun tanınması üçün əlindən gələni edər. Bu cür istəyin həyata keçirilməsində isə xarici dillərin, xüsusilə də ingilis dilinin böyük rolu vardır. Məhz xarici dillər milli-mənəvi dəyərlərin, mədəniyyətin, insan biliklərinin qoruyucusu və daşıyıcısı, xalqların, millətlərin, ayrı-ayrı şəxsiyyətlərarası münasibətlərin, hər sahədə əməkdaşlığın vasitəçisidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyllərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi, xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha da zəruri etmişdir. Bir qisim müəllimlər xarici dilin tələbələrin mənəvi tərbiyəsi ilə bağlı olmadığı iddiası ilə çıxış edir. Onların fikrincə, xarici dil fənninin başlıca vəzifəsi yalnız bilik vermək olmalıdır. Təhlil və müşahidələrimiz göstərir ki, belə bir arzuolunmaz vəziyyətin yaranma səbəblərindən biri də bu müəllimlərinin müvafiq pedaqoji-metodik maarifləndirmə mənbələri ilə əhatə olunmamasıdır. Əlbəttə bu yanlış fikirdir. Xarici dil fənninin emosional təsir imkanları tarix, ədəbiyyat, musiqi, rəsm və digər fənlərlə bərabər tutulmalıdır. Lakin hər halda xarici dil müəllimi də insanın, konkret olaraq tələbələrin mənəvi insan kimi yetişməsində, hazırlanması işində iştirakçıdır. O da tələbələrin mənəvi tərbiyəsi üzrə tədris etdiyi fənnin daxili imkanlarını, konsepsiyasını aşkarlamağa və ondan səmərəli şəkildə istifadə etməyə borcludur. Belə bir baxışdan ali məktəblərin xarici dil müəllimlərinin pedaqoji-metodik məlumatlandırılması günümüzün reallığı kimi dəyərləndirilməlidir. Xarici dil təlimi vasitəsilə tələbələrdə başqa xalqların dil və mədəniyyətinə, milli-mənəvi dəyərlərinə hörmət hissi, tolerantlıq formalaşdırılır. Xarici dilə yiyələnmə tələbələrin humanitar təhsil səviyyəsini yüksəldir, şəxsiyyətin qloballaşmasına, daim dəyişən dünyanın tələblərinə uyğunlaşmasına imkan yaradır [3].

Xarici dil tələbələrin linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır və nitq inkişafına müsbət təsir göstərir. Xarici dilə mükəmməl yiyələnmiş hər bir gənc harada olmasından asılı olmayaraq ölkəmizi layiqincə təmsil etməklə yanaşı, dünya ölkələri ilə tanışlıq, xarici dil daşıyıcılarına Azərbaycanı təqdim etmək, respublikamızda baş verən prosesləri dünya ictimaiyyətinə birbaşa çatdırmaq imkanı əldə edir.

Xarici dil dərsləri çox böyük imkanlara malikdir. Məqsəd təkcə xarici dili öyrətmək deyil, həm də Vətənin ləyaqətli müdafiəçisi olan, yüksək mənəvi keyfiyyətlərə, elmi dünyagörüşünə, milli adət-ənənələrə malik, ümumbəşəri dəyərləri mənimsəyən vətəndaş yetişdirməkdir. Müasir cəmiyyətin inkişaf mərhələsində Azərbaycanda təhsilin modernləşdirilməsi xarici dilin təşkilində innovativ proseslərin tətbiq edilməsi ilə bağlıdır.

Tələbələrin ingilis dilində kommunikativ bacarıqlara yiyələnməsi özündə milli və bəşəri dəyərləri ehtiva edən ailəyə, yaşadığın yerə (kəndə, şəhərə, mahala) və ümumən vətənə bağlılıq, cinsindən, dinindən, irqindən asılı olmayaraq insana hörmət və qayğı, əhatə olunduğun canlı və cansız aləmi mühafizə, mənsub olduğun xalqın tarixinə dərindən bələdlik, digər xalqların mədəniyyətinə bələdlik, əməksevərlik kimi mövzularda disput və dialoqların qurulması, esselərin yazdırılması kimi işlərə geniş yer verilməlidir [6].

Müasir insan şəxsiyyət olaraq ailədə, universitetdə və əhatə olunduğu mühitdə yetişir. İngilis dili dərslərində cəmiyyətimizin ictimai həyatında baş verən mühüm hadisələrə, məsələn, xalqımızın Qarabağ uğrunda qələbə qazandığı Vətən müharibəsinə həsr olunmuş mövzulara müraciət olunması tələbələrdə vətənə, millətə, torpağa sədaqət ruhunda tərbiyələnməsinə şərait yaradır.

İngilis dili dərslərində tələbələrin mənəvi tərbiyəsinin formalaşmasına imkan yaradan metod və priyomlara qarşılıqlı fəaliyyətin kollektiv formalarını aid etmək olar. Bu baxımdan qruplarla və cütlərlə iş xüsusi əhəmiyyət kəsb edir. Məhz qruplarla və cütlərlə iş zamanı bu və ya digər problemin müzakirəsi baş verir. Məhz ətrafdakılarla qarşılıqlı fəaliyyət nəticəsində müxtəlif görüşlər, fikirlər meydana gəlir. Beləliklə, bu vəziyyətdə problemin müzakirəsi iş metodlarından birinə çevrilir. Lakin iş yalnız müzakirə ilə bitmir. Hər hansı bir problemin müzakirəsi zamanı verilən qərar bütün auditoriyaya təqdim edilir və ən yaxşı həlli seçilir və seçimini əsaslandırır.

Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Bugünkü təhsil və tərbiyənin əsasını Azərbaycan torpağına məhəbbət və vətənpərvərlik təşkil edir.

Tələbələrin xarici dilə olan marağının, özünə inamının daha da artması, biliklərin genişlənməsi üçün daim yeni şeylər öyrənməyə can atması, kollektiv qarşısında çıxış etmək, fikir yürütmək, müzakirələrdə iştirak etmək, rəqabət hissini duymaq, qabiliyyət və bacarıqlarından istifadə edərək bildiklərini söyləməkdən qorxmamaq kimi hissləri aşılamaq üçün auditoriyadankənar tədbirlərin əhəmiyyəti çox böyükdür.

Tələbə şəxsiyyətinin hərtərəfli inkişafı, mənəvi keyfiyyətlərin formalaşması, onun daxili aləminin zənginləşdirilməsi, yalnız təlim prosesində verilən biliklərlə deyil, həm də onların düşüncə tərzi, psixoloji durumu, əhval-ruhiyyəsi ilə bağlıdır. Hisslərin tərbiyə olunması tələbələrin daxili aləmini zənginləşdirir, onların əməllərini, davranışını, düşüncəsini nizamlayır [1].

İngilis dilinin tədrisi prosesində bədii mətnlərdən, didaktik oyunlardan, yeni təlim texnologiyalarından istifadə edərkən bu dilin spesifik xüsusiyyətlərini nəzərə almaqla mənəvi tərbiyənin formalaşdırılmasını həyata keçirmək üçün aşağıdakı prinsiplərin nəzərə alınması əsas şərtlərdən biridir:

1. Tələbələrin maraqlarının nəzərə alınması:
Genetik sistemdə davamlılıq və dəyişkənlik arasında tarazlığın pozulması orqanizmlərin həm reproduktiv funksiyalarının, həm də uyğunlaşma qabiliyyətlərinin azalması ilə nəticələnir. Təbiətə antropogen təsirin mənfi nəticələrinin qarşısının alınması üçün müvafiq tədbirlər görülməsinə və çox böyük vəsaitlərin sərf edilməsinə baxmayaraq, xoşagəlməz dəyişikliklərin ümumi tendensiyası davam etməkdədir. İnsan fəaliyyəti nəticəsində növlərin itməsi onların təbii səbəblərlə bağlı yoxolmasından min dəfələrlə sürətlə baş verir.

Tədqiqatlar göstərir ki, müvafiq iqtisadi maraqlara və biomüxtəlifliyin dəyərlərinə əsaslanan mühafizə proqramlarının məsələlərin hüquqi səviyyədə nizamlanmasına nisbətən daha səmərəli ola bilər.

Bütün bunların nəticəsində təbii floranın növ tərkibinin kasadlaşması və mədəni bitki sortlarının irsən ötürülən əlamətlərinin cırlaşması müşahidə edilir ki, bu da növbəsində, təbii və süni bio-və aqrosenozların dağılmasına səbəb olub aclıq təhlükəsi yaradır.

II Dünya müharibəsində sonra əhalinin daha da sürətlə artması və elmi-texniki inqilab nailiyyətlərinin aqrar-sənaye kompleksinə tətbiqi nəticəsində kənd təsərrüfatı sistemlərində istifadə edilən mövcud genetik baza daha da kiçildi, müxtəliflik xeyli azaldı, biotexnoloji üsullarla bir çox əlamətlərin süni yığımından ibarət olan modern (bəzən də geni dəyişdirilmiş) sortlar, F1 hibridlərin və s. bu kimi orqanizmlərin II genetik aşınma deyən prosesə rəvanc Verdi. Azərbaycan Respublikasında da biomüxtəliflikləlrlə bağlı problemlərdən yan keçməmişdir.

Sirr deyil ki, antrojen landşaftların genişləndirilməsi, stress amillərinin güclənməsi, torpağın, suyun, havanın intensiv çirkləndirilməsi, meşə və kolluqların yanacaq və tikinti məqsədi ilə qırılması aran rayonlarında şoranlaşma, əkin sahələrinin genişlənməsi və heyvandarlığın ekstensiv inkişafı genetik ehtiyatların səmərəsiz istifadəsi, bundan əlavə exsitu kolleksiyalarda saxlanma şəraitinin lazımı səviyyədə olmaması, iqlimdə baş verən dəyişmələr genetik aşınmaya səbəb kimi göstərilə bilər. Otlaq kimi istifadə olunan düzənlikdə otarılma normalarının gözlənilməməsi, mal-qaranın intensiv otarılması, torpaqların eroziyasını sürətləndirmiş və yarğanları əmələ gəlməsinə, səhralaşma proseslərinin sürətlənməsinə səbəb olmuşdur.

Azərbaycanda kənd təsərrüfatı üçün yararlı olan torpaqların 3.6 mln. hektarı eroziyaya məruz qalmışdır. Torpaqların şoranlaşması prosesi də çox böyük narahatlıq görünür. Əkinçilikdə aqrotexniki qaydalara əməl olunmaması, drenaj-kollektor və suvarma şəbəkələri düzgün quraşdırılmaması, çoxsaylı su anbarlarının yüksək relyefli ərazilərdə tikilməsi və s. eroziya və şoranlaşma prosesini sürətləndirən amillərdən biridir.

İnkişaf etmiş aqrar-sənaye infrastrukturuna malik Azərbaycanda karbohidrat xammalı, neft-kimya və metallurgiya sənayesi məhsulları və s ilə fəal çirklənmə ehtimalı böyük olaraq qalır. Yuxarıda göstərilənlərdən aydın olur ki, bu və digər səbəblərə görə ölkədə bitki ehtiyatlarının bütün müxtəlifliyinin qorunması üçün real təhlükə yaranmışdır.

Genetik ehtiyatların qorunmasının əxlaqi-etik tərəfi də vardır. Biomüxtəlifliyin estetik qiyməti kimi, etik əhəmiyyətini də ölçmək və pul vahidi ilə ifadə etmək düzgün olmazdı. İnsanı təbiət yaradır, insan da təbiətə, onun ehtiyatlarına hörmət və qayğı ilə yanaşmalıdır.

Biotexnologiya və genetika üzrə tədqiqatlarda biomüxtəliflik elmi və sənaye məqsədləri üçün istifadə olunur. Biotexnoloji metodlar vasitəsilə biomüxtəlifliyin mədəni və yabanı bitki növlərinin mühafizəsi, çoxaldılması, tükənmə təhlükəsi altında olan və ya çətin boy atan bitkilərin in vitro metodu ilə bərpası və artırılması həyata keçirilir. Eyni zamanda bu metodla alınmış bitkilər əlverişli obyekt olaraq müxtəlif elmi-tədqiqat işlərində istifadə olunur. Laboratoriya şəraitində bərk və yumşaq buğda sortları, arpa, çovdar, yonca, tütün, qızılgül, üzüm, pomidor, müxtəlif hibridlər kulturada alınmış və ya mikroklonal çoxaldılmışdır. Genetikada biomüxtəlifliyin yabanı növlərindən mədəni bitkilərin genotiplərinin mənşəyinin təyin edilməsində, onların qiymətli əlamətlərinə görə hibridləşdirilməsində istifadə edilir. Fermerlər nadir bitkilərin genetik müxtəlifliyinə böyük maraq göstərilər. Ən geniş yayılmış və istifadə olunan yabanı tərəvəz bitkiləri içərisində ərzaq əhəmiyyəti olan bir neçə bitki növünü misal göstərmək olar. Əməköməci fəsiləsinə aid əməköməci (Malva neglecta Wallr.) bitkisinin yarpağı və zoğları müxtəlif xörəklərin hazırlanmasında istifadə edilir. Kərəviz fəsiləsindən efir yağlı bitki olan baldırğanın (Heracleum asperum Bieb) özü yığılıb yeyilir, duza qoyulur. Yalotu fəsiləsinə

aid müalicəvi əhəmiyyəti ilə qırxbuğum və ya yalotunun (Polygonum alpinum C.A.Mey) körpə zoğları və yarpaqlarından sıyıq, kətə, plov və dovğa bişirilir, qurudulub saxlanılır. Gicitkən fəsiləsinə aid gicitkənin (Urtica dioica L.) körpə zoğları, yarpaqları duzla ovulub yeyilir, ondan müxtəlif xörəklərin hazırlanmasında istifadə edilir. Çoxillik, limon ətirli bitki olan dalamaz melisanın (Melissa officinalisL.) körpə zoğ və yarpaqları yığılıb ətriyyatda və tibbdə istifadə edilir. Azərbaycanda yabanı halda razıyanəboyana (Foeniculum vulgare Mill.) kökü yumru soğan (Allium rotundum L.) qulançar (Asparagus officinalis L.) əvəlik (Rumex acetosa L.), quzuqulağı (Silene L), rəvənd (Mentha piperita L.), dağnanəsi (Satureja montana L.), yarpız (istiot nanəsi Mentha piperita L.), çöl keşnişi (Aethusa cynapium L.), tər keşnişi (Anthriscus cerefolium Hoffm.), yemlik (Bifora radians L.) və onlarla digər tərəvəz bitkiləri xalq tərəfindən istifadə edilir.

Azərbaycan mətbəxində yeməklərin tamını artıran meyvə və qurumeyvələr, ədvalar, limon, zeytun, sirkə, narşərab, gavalı, kişmiş, ərik, meyvə pastası, sumax və s. istifadə olunur. Xörəklərin hazırlanmasında düyü, paxlalılar və müxtəlif tərəvəzlər, xüsusən badımcan, pomidor, şirin bibər, kələm, ispanaq, turşəng, çuğundur, turp və soğan daha çox işlədilir. Xörəklərə və salatlara zəfaran, zirə, cirə, dəfnə yarpağı, keşniş, nanə, şüyüd, cəfəri, kərəviz, tərxun, reyhan, kəklikotu və s. də əlavə olunur. Tərəvəzli və şabalıdlı küftələr, lobya və şabalıd qızartması, qəlyanaltılar, duza qoyulmuş pomidor, xiyarı, sarımsaq, badımcan, acı bibər, pörtlədilmiş, cacıq və s. bitkilərdən hazırlanmış turşularda hazırlanan turşular da çox sevilir. Xüsusi qaydada dadlanmış tünd çay süfrələrin bəzəyidir. Çox hallarda çay əncir, zogal, heyva, ərik, armud, gilas, gilənar, şaftalı, qarpız, gavalı, qoz, üzüm, moruq, böyürtkən tut və.s sadalanan bitkilərin kompotları da süfrələrin bəzəyidir.

Yağlı və dərman bitkilərinin müxtəlifliyi də geniş istifadə edilir. Azərbaycan florasındakı bitkilərdən müxtəlif tərkibli yağlar, doşablar şirələr, sirkələr hazırlanmasında istifadə olunur.

Azərbaycanda 150 növdən çox bitki dərman hazırlanmasında işlənir, müalicəvi əhəmiyyətli bitkilərin sayı isə 800-dən çoxdur. Onlardan hündür andız – Inula helenium L., adi qaraqınıq – Origanum vulgare L., adi dəvədabanı-Tussilago farfara L., dərman pişikotu – Valeriana officinalis L., qumlu solmazçiçək – Helichrysum arenarium L. və s. geniş istifadə olunur. Bu və digər bitkilərdən 35-ə qədər adda məhsul, həmçinin qida sənayesi üçün bioloji fəal maddələr istehsal olunur. Yağlı bitkilərin toxum və ləpələrindən (qoz, püstə, fındıq, fıstıq, üzüm, pomidor, nar, dazotu, pitraqotu, çaytikanı, sarımsaq, balqabaq, şaftalı, ərik, albalı) soyuq presləmə üsulu ilə yağlar istehsal olunur. Dərman və yağlı bitkilərin mühafizəsi üçün onların əkin sahələrinin genişləndirilməsi məqsədəuyğundur.

Problemin aktuallığı. Biologiya fənninin tədrisində (VIII-XI sinif) bitki genetik ehtiyatlarının keçmişi, bu günü, perspektiv mövzusunun dərslərdə müzakirəsinin keçirilməsində keçirilən dərslərdə məlumat verilməsi, şagirdlərin ekoloji təfəkküründün formalaşmasına ekoloji mədəniyyət, ekoloji dünyagörüşünün formalaşması və qorunması yollarının öyrədilməsi məqsədəuyğundur.

Problemin praktik əhəmiyyəti. Biologiya müəllimləri öz ərazilərində mövcud olan biomüxtəlifliyin yerini müəyyənləşdirmək və onların qorunması yolların şagirdlərə öyrənilməsi üçün ekskursiyaların təşkilini təmin etməlidir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının "Qırmızı Kitabı". -Bakı, 1969.
2. Əkbərov Z.İ. Məmmədov A.T Bitki genetic ehtiyatlarının əsas tədqiqat strategiyası. -Bakı, 2007.
3. Əliyev, C. Bioloji müxtəliflik. / C. Əliyev, Z. Əkbərov. A. Məmmədov. -Bakı, 2008.
4. Məmmədov Q.S. Xəlilov M.Y. Ekologiya və ətraf mühit.

Redaksiyaya daxil olub: 14.01.2025

UOT 37:372.8

Adilə Həsən qızı Nəzərova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı elmi işçisi
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
E-mail: adile1970@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).209-212

NƏSİMİ ŞEİRLƏRİNDƏ DİL VƏ ÜSLÜB İDRAK PROSESİ KİMİ

Адила Гасан гызы Назарова
ведущий научный сотрудник
Института Образования Азербайджанской Республики
доктор философии по филологии

ЯЗЫК И СТИЛЬ В СТИХАХ НАСИМИ КАК ПОЗНАВАТЕЛЬНЫЙ ПРОЦЕСС

Adila Gasan Nazarova
leading research
at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in philology,

LANGUAGE AND STYLE AS A PERCEPTIVE PROCESS IN NASIMI'S POEMS

Xülasə. Hürufilik məktəbinin fəal davamçısı İ. Nəsiminin yaradıcılığını haqlı olaraq Azərbaycan ədəbi dilinin formalaşmasında ilkin mərhələ hesab etmək olar. Nəsimi poeziyasının dil və üslub xüsusiyyətlərinin genişliyi onun dünyagörüşünün genişliyi ilə vəhdət təşkil edir. Belə ki, şair əsasən hürufiliyin əsas prinsipləri ilə bağlı fikirlərini milli dilin və özünəməxsus üslubun vasitəsilə, diqqət, düşüncə, kamal, yaddaş, mühakimə, qərarvermə və s. kimi idrak prosesini genişləndirən təsirlər yaratmaqla çatdırmağa nail olmuşdur.
Açar sözlər: *dil, üslub, frazeoloji birləşmələr, Azərbaycan ədəbi dili, tuyuğ*

Аннотация. Творчество И. Насими, активного последователя школы Хуруфизма, по праву можно считать первым этапом формирования литературного языка Азербайджана. Широта языковых и стилистических особенностей поэзии Насими соответствует широте его мировоззрения. Так, свои представления об основных принципах хуруфизма поэт выражал главным образом через национальный язык и свой неповторимый стиль, а также посредством внимания, мысли, совершенства, памяти, суждения, принятия решений и т. д.
Ключевые слова: *язык, стиль, фразеологические сочетания, азербайджанский литературный язык, туюг*

Abstract. The work of I. Nasimi, an active follower of the Huruf school, can rightly be considered the initial stage in the formation of the Azerbaijani literary language. The breadth of linguistic and stylistic features of Nasimi's poetry is united with the breadth of his worldview. Thus, the poet managed to convey his ideas mainly on the basic principles of Hurufism through the national language and unique style, creating effects that expand the cognitive process, such as attention, thought, perfection, memory, judgment, decision-making, etc.
Keywords: *language, style, phraseological combinations, Azerbaijani literary language, hollow*

Məlumdur ki, ümumtəhsil məktəblərinin idarə edilməsində əsas məsələlərdən biri təlim-tərbiyənin vahidliyini təmin etmək, gənclərə elmlərin əsaslarını öyrətməklə bərabər, həm də onların fəal ictimaiyyətçi, ideya cəhətdən sağlam və mətin nəsil kimi böyüməsinə nail olmaqdır.

İmadəddin Nəsimi tarixən kamil insanı yetişdirmək üçün yaşayıb-yaradan və bunun uğrunda həlak olan şairdir. O, hürufilik məktəbinin

ən fəal davamçısı olmaqla yanaşı, Azərbaycan ədəbi dilinin başlanğıc mərhələsidir, desək yanılmarıq. Nəsimi ilk böyük şairdir ki, Azərbaycan dilində olan milli söz və ifadələri ədəbi dilə gətirməklə, XIV əsr ədəbi dilinin milli zəmin üzərində qurulmasını təmin etmişdir. Nəsimi yaradıcılığında ərəb, fars dili ilə bərabər doğma ana dilində də mükəmməl əsərlər yaratmışdır. Onun poetik yaradıcılığında türk dili ərəb və fars dilləri ilə yanaşı işlənmiş, hətta bu rəqabət Nəsimi ilə başlamışdır.

Nəsimi və ondan sonra gələn sələfləri sübut etdilər ki, türk dili ədəbi səviyyə dilidir və bu dildə də yüksək poetik nümunələr yaratmaq mümkündür.

Al ilə ala gözləri aldatdı aldı könlümü,
Alini gör nə al edər kimsə irişməz alinə!
Yaxud:

Aləmdə bu gün sənciləyin yar kimin var!
Gər "var" desən "yox" deməzəm "var", kimim var?

Nəsiminin ən gözəl frazeoloji birləşmələri Azərbaycan türk sözündən alınmış söz və ifadələrdir. Onun Azərbaycan dilində yaratdığı böyük poeziyanın özülü xəlqilik, millilikdir ki, bunlar da öz əksini şairin ana dilində Azərbaycan xalqının əsrlərlə yaratdığı müdrik kəlamlarda sabit ismi və feli söz birləşmələrində, qapalı cümlə tiplərində atalar sözü və məsəl məzmunlu poetik misralarında tapır. (1)

Yandırırsan könlümü eşqində, məlum oldu kim,
Ani risvayi – cahan etmək dilərsən, etməgil!

Nümunələrdən də göründüyü kimi Nəsimi, sözün həqiqi mənasında, milli şairdir, onun poeziya dilində külli miqdarda xalq dilində işlənən söz və ifadələr vardır.

Nəsiminin üslubu bədii, dili ərəb, fars, Azərbaycan, məfkurəsi isə başdan sona türkdür. Bu baxımdan Nəsiminin əsərləri dil tarixi üçün də maraqlıdır. Bu tarix İ. Nəsimi ilə başlayıb, Ş.İ. Xətai yaradıcılığında əsaslandırılan yeni ədəbi üslubun davamı ilə inkişaf edir. Nəsimi bir tərəfdən qədim ədəbiyyatımızdan gələn bədii ifadələrdən istifadə etmiş, o biri tərəfdən də yeni ədəbi dilin xüsusiyyətlərini yaradıb bir araya gətirmişdir. Yəni şifahi dildən istifadə edərək ədəbi dili yeniləşdirmiş və zənginləşdirmişdir.

Nəsiminin əsərlərini bədii obrazlılıq və zəngin frazeoloji birləşmələrin düzgün istifadəsi baxımından mozaik rənglərlə təsvir edilmiş təbiət lövhəsinə bənzətmək olar. Çünki frazeoloji birləşmələr sadəcə anlayış deyil, həm də bədii rəngdir.

Dünyanın ***mülki-malına meyli-məhəbbət*** *eyləmə,*
Çün gedüsərsən, ey mələk, ***axirətin sarayı****na!*

Surətin vəsfini *hər taifədən sordum isə,*
Məninin güzgüsünü surəti-rəhman *dedilər!*

Təmiz türk dilində olan belə frazeoloji birləşmələr şairin poeziya dilinin milliliyini, xəlqiliyini və bununla da, ölməzliyini təmin edir.

Ey sənəm, hicran əlində naleyi-zar eylərəm,
Gözlərimdən sanasan dəryayi-umman ayrılır.

...Rəngi-çöhrəm zərd olubdur, qamətim həm çün hilal,
Ol günəş üzlü həbibim, ləli xəndan ayrılır.

...Məhşəri-yövmül-hesab qopdu qiyamət başıma,
Ey Yusif surətli, məndən piri-Kənan ayrılır.

Nəsiminin dilində müxtəlif mənalı ismi frazeoloji birləşmələr vardır, bunlardan ***dəryayi-ümman (açıq dəniz), rəngi-cührəm zərd olub (çöhrəmin-üzümün rəngi saralıb), qamətim hilal (qamətim – boyum ay kimi əyilib), günəş üzlü həbibim (üzü günəş kimi işıq saçan dostum), məhşəri-yovmul-hesab qopdu qiyamət başıma (halını axirət günündə qiyamətin qopmasına bənzədir), Yusif surətli, piri-Kənan (Yusif peyğəmbərin gözəlliyinə və pir olmasına işarədir, ki, yəhudilər ona iman gətirib inanmamışdılar)*** və s. bu kimi məcazlaşmış söz birləşmələri Nəsimi zəkasının obrazlı vasitələri kimi onun poeziya dilinin poetik imkanlarını nümayiş etdirir: "*Mərifət kəsb eylə ləbi-lövhə məşğul ol! Gör nə surət göstərür hər dəm* ***oyunçu ruzigar****!" "Aləmdə bu gün* ***əhdi bütün*** *yar ələ girməz..."*

Şairin ***oyunçu ruzigar*** ismi frazeoloji vahidi ilə həyatın gözlənilməz hadisələr gətirəcəyini diqqətə çatdırmaq istəyir; ***əhdi-bütün*** vahidi isə sadiqliyi ifadə edir. (4, s.409)

Burada xüsusi olaraq qeyd edək ki, klassik əsərlərdəki tərbiyəvi əhəmiyyətli pedaqoji fikir-

lər şagirdlərin, eləcə də digər tərbiyə olunanların tədris və tərbiyəsində böyük rol oynayır.

Azərbaycan klassik ədəbi dilində, eyni zamanda Nəsimi dilində bədii obrazların təsviri özünəməxsusdur, yenidir, bənzərsizdir. Burada bədii xitablar çox vaxt əvvəldən axıra kimi ən yüksək səviyyədə məcazlaşır. Elə bunun üçün də bu xitabları həyəcansız, sönük, pafossuz oxumaq hardasa mümkünsüzdür.

Canımı yandırdı hicrin, ***ey Nigarım****, hardasan?!*
Gözlərim nuru, iki aləmdə varım*, hardasan?!*

Bağrımı qan eylədi acı fərağın, gəl, yetiş!
Ey ***ləbi vəslət, şərabı-xoşgüvarım****, hardasan?!*

Səbrimi yəğmalədi şövqün, qərarım qalmadı,
Ey ***mənim aramım, ey səbrü-qərarım,*** *hardasan?!*

...Səndən özgə könlümə yoxdur vəfalı yari-dust,
Ey ***cəfasız, hüsnü-kamil yadigarım****, hardasan?!*

Yar üçün hər guşədə min div olur düşmən mənə,
Ey ***səvadü-əzəmü möhkəm hasarım****, hardasan?!*

Çün Nəsimidir bu gün əyyami-eşqin sərvəri,
Ey ***şəkər-ləb, yari-şirin ruzigarım****, hardasan?!*

Bədii obrazların bu kimi təsviri Nəsiminin sələfləri Ş.İ. Xətyai, M. Füzuli, M.P. Vaqif, (hətta müasirimiz Ə. Vahid, M. Seyidzadə) kimi söz sərraflarının əsərlərinin poetik obrazlar sisteminin əsasını təşkil etmişdir.

Nəzərə alaq ki, pedaqoji elmin əsas mənbələrindən sayılan klassik ədəbi nümunələr, şifahi və xalq yaradıcılığı nümunələri, canlı və təsirli deyimlər tədris müəssisələrində həyata keçirilən pedaqoji biliklərin əsas mənbəyi hesab olunur.

Bildiyimiz kimi Nəsimi eyni zamanda təbiət şairidir. O, yazı-baharı vəsf edən qəzəllərinə bahariyyələr, payızı təsvir edən qəzəllərinə isə xəzaniyyələr adı vermişdir. Bu ad altında toplanan qəzəlləri irfani, dini-fəlsəfi əsərlərindən hesab olunur. Şairə görə, bu dünya bir ayna kimi Mütləq Həqiqəti əks etdirir və xaliq yaratdıqlarından kənarda deyil, hər yerdədir ***("Hər yerdə çü sənsən əyan, adın nədən bica imiş***".) Odur ki, Nəsimi bahariyyələrindən birində deyir:

Bahar oldu, gəl, ey dilbər, təmaşə qıl bu gülzarə,
Buraxdı qönçələr pərdə, bəşarət bülbüli-zarə.

Dilbər klassik, xüsusilə irfani şeirdə yalnız gözəl və sevgili deyil, eləcə də həmfikirdir. Nəsimi baharda üzə çıxan gözəllikləri dilbəri ilə seyrə çıxan aşiq-arif insan üzünü gözəlliklərdən çevirərək, ibadət və zikrlə məşğul olan zahid obrazı ilə qarşılaşdıraraq təzad yaratmağa nail olur. Şairə görə, yarı (Allahı) xəlvətə çəkilərək – qaranlığa baxıb zikr edərək yox, Allahın yaratdığı əlvan rənglərdə görmək mümkündür.

Məni mən' etmə, ey zahid, güvənmə zikrə, ey sufi,
Ki, sən məğrurisən zikrə, mənəm müştaq didarə.

Qədim yunan filosoflarına görə gözəlliyə baxmaq savabdır, ona görə ki, yer üzündəki bütün gözəlliklər insanı sevgiyə kökləyir. Gözəllik sevgi yaradır və ancaq sevgi Eşqi oyandırmaq iqtidarına malikdir. Gözəlliklər Allahın "sevgi məktubu"-dur. Bu məktub isə ancaq ruhu təmizlənmiş insanlara gəlir.

Nəsimi şeirinin dil və üslub xüsusiyyətlərinin genişliyi onun dünyabaxışının ölçüsü ilə vəhdət təşkil edir. Belə ki, şair düşüncələrini, xüsusilə hürufiliyin əsas prinsiplərini ifadə etməyə çalışırkən, digər tərəfdən də dil və üslub tərzini qorumağa çalışmışdır. Nəsimi üçün xüsusilə dil insanın idrakını ortaya qoyan əsas vasitədir. Şairin bütün yaradıcılığında vəzn və ahəngin uyumu gözlənilir. İstifadə edilən ***vəsvin, vəslin, hüsnün, boyun, üzün, saçın, xəttin, halın, ləbin, dilin*** və s. azərbaycan türk sözləri özündən sonra gələn sözlərin ahəngini bəlli edir.

Surətin xətti-ilahi, anı nadan nə bilür?
Divi-məl'unsifət mə'niyi-Qur'an nə bilür?

Göründüyü kimi altı yüz il öncə yaşayıb yaratmasına baxmayaraq, Nəsimi müasir ədəbi dilimizdən cüzi fərqlənən bir dildə danışır, öz xəlfləri ilə söhbət edir. Bu misralarda Kamil insanın gözəlliyinə səcdə etməyənlər, şairin fikrincə, haqq yolundan azmış div, şeytan və qanmaz heyvanlar adlandırılır. Bununla humanist şair şər qüvvələrin məhv edilməsinə hökm vermir, əksinə, islah, tərbiyə yolu ilə onların özlərini tanımasına, insan olduqlarının fərqində olmalarına çalışır.

M. Fatih Köksal "Seyyid Nesiminin yayımlanmamış şiirleri" kitabında yazır:

"Nəsimini fərqləndirən bir başqa özəlliyi dili ilə əlaqədardır. Dildən istifadə etmə məharəti onda zəka, qavrama və hissiyyatla birləşmiş, türk dilinin bütün imkanlarını dəyərləndirən bir sənətkar dili ortaya çıxmışdır." Bütün təsəvvüf şairlə-

rində "ənəlhəqq" mövzusu işlənmişdir, amma heç kimsə ahəng, ritm və məna bütövlüyünü Nəsimi qədər usta bir dillə ifadə edə bilməmişdir.

Aşiqi-divanəyəm, gəldim, ənəlhəq söylərəm,
*Nar birdir, **nur** bir, asılıversəm, **dar** bir…*

Diqqət edək, buradakı "asılıversəm" sözündəki ***s*** və ***m*** səsləri sanki adama Həllac Mənsuru xatırladır. ***(Bilirik ki, ənəlhəq – "mən allaham" sözü ilk dəfə Şərq dünyasının məşhur sufi şairlərindən olan Mənsur Həllac tərəfindən söylənilib.)*** Şairin ***nar, nur, dar*** sözlərinin arasına sığdırdığı "asılıversəm" ifadəsi onu oxucu gözündə Mənsurlaşdırır. Təkcə bu misradakı qramatik ölçülərin və fonetikanın vəhdəti oxucunu düşündürdüyü qədər də onun ruhunu qidalandırmağa imkan verir.

Dildar olan etməzmi Nəsimiyə məhəbbət,
Ey kalbü min-əl kalbi ilə-l kalbi – sebila… (2, s. 89)

Və ya:
Yüzün nur-i Hudadır, ya Muhammed,
Sana canlar fedadur, ya Muhammed.

Elif mim bir yazıldı suretinde,
Şerif adun "Taha"dur, ya Muhammed.

Adunı Ahmed-i Mahmud didi Hak,
Bir adun Mustafadur, ya Muhammed.

Urucun sırr-ı "sübhane-l-lezi" dur,
Sana Merve Sefadur ya Muhammed. (2, s. 90)

Həmin kitabda 36 tuyuğ (əruzda – xüsusilə rubai formasında yazılmış xalq şeiri üslubunda dördlüklər) yer almışdır. Nəsiminin bütün əsərlərində olduğu kimi, bu tuyuğlarında da arxaikləşmiş bəzi fellər nəzərə alınmazsa, şairin dilində işlənmiş feillərin hamısı həm şəkil, həm də məzmun cəhətdən müasir dilimizdə öz işləkliyini saxlayır.

Bivəfa dünyadan usandı könül,
Yox – dedi, dünyayı yox sandı könül,
Düşdü eşqin oduna yandı könül,
Vəhdətin qəndabinə qandı könül. (Tuyuğ)

***

Adımı Hak'tan Nesimî yazerem
Bil bu mâ'nîden ki sîmem, yâ zerem
Hem hidayet eylerem, hem azerem
Hem bûtu uşadıcı, hem Âzer'em! (Tuyuğ) (3)

Bəndin sətri anlamını belə izah etmək olar:

Tanrının əmri ilə adımı Nəsimi yazaram,
Gümüş, ya da qızıl olduğumu buradan anla.

Həm insanı doğru yola gətirənəm,
Həm yoldan çıxararaq azdıraram,
Həm bütləri qıran (İbrahim peyğəmbər), həm Azərəm
(İbrahim Peyğəmbərin atası, bütpərəst Azər peyğəmbəri nəzərdə tutur).

Burada: Azər sözü şairin Azərbaycan türkü olmasına da işarədir, fikrini hər iki mənada işlədərək sənətkarlığının gücünü də ortaya qoyması ehtimal olunur).

Şairin qəzəllərinin lüğət tərkibi hazırlansa görərik ki, Nəsimi dilində Azərbaycan mənşəli sözlər ərəb və fars mənşəli sözlərdən daha çoxdur və daha hərəkətlidir. Bu da ondan irəli gəlir ki, Nəsimi dilində feillərin işləkliyi, rəngarəngliyi şairin təfəkkürünün dinamizmi ilə bilavasitə bağlıdır və müəyyən yaş dövründə idrak prosesini gücləndirir, hadisələrin qavranılmasını genişləndirir.

Problemin aktuallığı. Nəsimi şeirləri əsrlərdir ki, öz aktuallığını itirmir, bunun səbəbi də şairin dilinin xalq dilinə və xalq təfəkkürünə yaxın olması və öz ideyalarını insanın idrak prosesinin genişlənməsinə, dərinləşməsinə təsir göstərən dillə rahat ötürmə bacarığının olmasıdır.

Problemin elmi yeniliyi. İ. Nəsimi yaradıcılığının tədrisi yaradıcı şagirdlərin bədii söz ehtiyatlarını zənginləşdirməklə yanaşı tuyuq şeir formasının inkişafına da təkan verə bilər. Beləcə Azərbaycan ədəbiyyatında dondurulmuş (belə demək olarsa) bu şeir janrını yenidən həyata qaytarmaq imkanı yaranar.

Problemin praktik əhəmiyyəti. Klassik Azərbaycan şairi İmadəddin Nəsiminin nəsihətamiz şeirlərini öyrənmək gənclərin tərbiyəvi, əxlaqi cəhətdən saf, cəsarətli, ədalətli insan kimi yetişmələri üçün olduqca əhəmiyyətlidir.

Ədəbiyyat:

1. C. Qəhrəmanov, Nəsimi "Divan"ının leksikası. -s. 12.
2. M.F. Köksal, Seyyid Nesiminin yayımlanmamış şiirleri, -135 s.
3. Muhammed Bahadırhan Dinçaslan. *Nessimi Divanı ve Türkler. https://tonyukuk666.blogspot.com/2010/12/nesimi-divan-ve-turkler.html*
4. Türkan Əsgərova. Nəsiminin dilində ismi frazeoloji vahidlər. *http://www.kulturevreni.com/4-406.pdf s. 409*

Redaksiyaya daxil olub: 10.01.2025

UOT 37:372.8

Arzu Aydın qızı Aslanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/0009-0007-7291-1929
E-mail: aa.aslanova@adpu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).213-215

ŞƏRQİ ZƏNGƏZURUN İQTİSADİ-COĞRAFİ MÖVQEYİ

Арзу Айдын гызы Асланова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ВОСТОЧНОГО ЗАНГЕЗУРА

Arzu Aydin Aslanova
teacher at the Azerbaijan State Pedagogical University

ECONOMİC AND GEOGRAPHİCAL POSİTİON OF EASTERN ZANGEZUR

Xülasə. Məqalədə Şərqi Zəngəzurun iqtisadi-coğrafi mövqeyi, onun Azərbaycan üçün əhəmiyyəti haqqında ətraflı məlumat verilmişdir. Şərqi Zəngəzur iqtisadi rayonunda təbii ehtiyatların işlənməsinə innovativ yanaşmaların tətbiqi, iqtisadi inkişaf problemi geri qaytarılma kimi qalır. İşğaldan azad edilmiş ərazilərin təsərrüfat işlərinin vahid proqram əsasında aparılması mühüm vəzifədir ki, bu da dövlət başçısının mühüm vəzifəsidir. uzadılması haqqında qərarın qəbul edilməsinə səbəb olur. İqtisadi rayonların yeni bölgüsü yerli iqtisadiyyatın sürətləndirilmiş inkişafına diqqət yetirmək və onun iqtisadiyyatının sistemli idarə olunmasını təkmilləşdirmək üçün nəzərdə tutulmuşdur.
Açar sözlər: *Zəngəzur, təsərrüfat, iqtisadiyyat, mövqe, turizm*

Аннотация. В статье подробно рассматривается экономико-географическое положение Восточного Зангезура и его значение для Азербайджана. Актуальными вопросами остаются применение инновационных подходов к разработке природных ресурсов в Восточно-Зангезурском экономическом районе и проблемы экономического развития. Важной задачей является проведение хозяйственных работ на освобождённых территориях на основе единой программы, что также представляет собой приоритет для главы государства. Новое районирование экономических зон направлено на ускоренное развитие местной экономики и совершенствование её системного управления.
Ключевые слова: *Зангезур, хозяйство, экономика, позиция, туризм*

Abstract. The article provides a detailed analysis of the economic-geographical position of Eastern Zangezur and its significance for Azerbaijan. The application of innovative approaches to the development of natural resources in the Eastern Zangazur economic region and the challenges of economic development remain pressing issues. Conducting economic activities in the liberated territories based on a unified program is a crucial task, which is also a priority for the head of state. The new zoning of economic regions aims to accelerate the development of the local economy and improve its systematic management.
Key words: *Zangazur, economy, economy, situation, lifestyle.*

1993-2020-ci illər arasında ərazisi Ermənistan silahlı qüvvələrinin işğalı altında idi. İkinci Qarabağ müharibəsini sonlandıran 9 noyabr bəyanatından sonra tamamilə azad olunmuşdur.

Ərazisinin böyük hissəsi 2021-ci ilə kimi Kəlbəcər-Laçın iqtisadi rayonuna daxil idi. 7 iyul 2021-ci ildə Azərbaycan prezidentinin "Azərbaycan Respublikasında iqtisadi rayonla-

rın yeni bölgüsü haqqında" fərmanına əsasən yaradılmışdır.

2022-ci ildə Azərbaycanla İran arasında "İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Azərbaycan tərəfi bu layihəyə quru və dəmir yolları, həmçinin elektrik xətlərinin daxil olduğunu bildirmişdir.

Şərqi Zəngəzurun iqtisadi-coğrafi mövqeyi Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir və bir sıra xüsusiyyətləri ilə diqqət çəkir:

1. Coğrafi mövqe:

Şərqi Zəngəzur Azərbaycanın qərb hissəsində yerləşən tarixi-coğrafi ərazilərdən biridir. Şərqi Zəngəzur hazırda əsasən Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarını əhatə edir. Onun coğrafi mövqeyi strateji baxımdan çox önəmlidir. Ərazi Azərbaycanı Ermənistan, İran və Naxçıvanla əlaqələndirən marşrutların mərkəzində yerləşir.

Coğrafi mövqeyinin əsas xüsusiyyətləri:

1. Sərhədləri:

• Şimalda Qarabağ dağlıq zonası ilə,

• Şərqdə Qarabağ düzənliyi ilə,

• Cənubda Araz çayı vasitəsilə İranla,

• Qərbdə isə Ermənistan Respublikası ilə sərhədlənir.

2. Reliefi və təbii xüsusiyyətləri:

Ərazi dağlıq və yarı dağlıq relyefə malikdir. Dağlar arasında yüksək dağ aşırımları, dərələr və çay vadiləri mövcuddur. Qərb hissəsi Zəngəzur silsiləsi ilə əhatələnib.

3. İqlimi:

Ərazi müxtəlif iqlim tipləri ilə xarakterizə olunur. Dağlıq zonalarda soyuq iqlim, alçaq yerlərdə isə mülayim iqlim üstünlük təşkil edir.

Bu regionun tarixi, strateji və təbii resurslar baxımından Azərbaycan üçün böyük əhəmiyyəti vardır.

2. Nəqliyyat əlaqələri:

• Region Zəngəzur dəhlizinin bir hissəsidir və bu dəhliz Azərbaycanın qərb rayonlarını Naxçıvan və Türkiyə ilə birləşdirmək baxımından vacibdir.

• Şərqi Zəngəzurdan keçən yollar Azərbaycanı İran və Ermənistan üzərindən digər beynəlxalq ticarət marşrutlarına bağlama potensialına malikdir.

Zəngəzur Dəhlizi-Şərqi Zəngəzurun nəqliyyat əlaqələrində ən strateji layihələrdən biri Zəngəzur dəhlizidir. Bu dəhliz Azərbaycanı Naxçıvanla birləşdirərək Türkiyə və Avropaya çıxış imkanı yaradır. Layihə yalnız Azərbaycanın deyil, bütövlükdə regionun tranzit potensialını artıracaq.

3. Təbii sərvətlər:

• Şərqi Zəngəzur zəngin təbii resurslara, xüsusilə mis, qızıl, və digər faydalı qazıntılara malikdir.

• Dağlıq relyef və ormanlıq sahələr regionun ekoturizm potensialını artırır.

Şərqi Zəngəzur iqtisadi rayonu Azərbaycanın zəngin təbii sərvətləri ilə seçilən bölgələrindən biridir. Bu ərazi həm təbii ehtiyatlarla, həm də ətraf mühit baxımından strateji əhəmiyyətə malikdir. Aşağıda Şərqi Zəngəzurun əsas təbii sərvətləri qeyd olunur:

4. İqlim və kənd təsərrüfatı:

Şərqi Zəngəzur Azərbaycanın mühüm iqtisadi-coğrafi bölgələrindən biridir və burada kənd təsərrüfatı əsas təsərrüfat sahələrindən biridir. Bu bölgə torpaq, su, və iqlim resursları baxımından əlverişli olduğuna görə kənd təsərrüfatının müxtəlif sahələri burada inkişaf edib. Əsas xüsusiyyətlərini belə ümumiləşdirmək olar:

4. Bitkiçilik

• Taxılçılıq: Bölgədə buğda və arpa istehsalı geniş yayılıb.

• Bağçılıq və tərəvəzçilik: Meyvə bağları, xüsusilə alma, armud, və üzüm bağları geniş yer tutur. Həmçinin pomidor, xiyar və digər tərəvəz məhsulları yetişdirilir.

• Ərzaq bitkiləri: Kartof, qarğıdalı və şəkər çuğunduru kimi məhsullar da bölgənin kənd təsərrüfatı sektorunda mühüm rol oynayır.

2. Heyvandarlıq

• Bölgədə maldarlıq, qoyunçuluq və keçiçilik geniş yayılıb. Bu sahə xüsusilə dağlıq və dağətəyi ərazilərdə aktiv inkişaf edib.

• Süd və süd məhsullarının istehsalı, həmçinin yun və ət istehsalı iqtisadiyyatda mühüm yer tutur.

3. Arıçılıq

• Şərqi Zəngəzurun dağlıq əraziləri arıçılıq üçün əlverişlidir. Bal istehsalı, xüsusilə yüksək keyfiyyətli dağ balı ilə tanınır.

4. Suvarma və torpaq islahatı

• Bölgədə kənd təsərrüfatı fəaliyyətlərinin inkişafı üçün suvarma sistemləri geniş istifadə olunur. Şərqi Zəngəzur dağ çaylarının bolluğu bu sahədə üstünlük yaradır.

5. Siyasi-iqtisadi əhəmiyyət:

• Şərqi Zəngəzurun azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və iqtisadi inteqrasiyanın güclənməsi baxımından mühüm rol oynayır.

• Regionun təhlükəsizliyi və infrastrukturu ölkənin ümumi inkişafına birbaşa təsir göstərir.

6. Turizm potensialı:

• Tarixi abidələr, dağ mənzərələri və ekoloji resurslar Şərqi Zəngəzuru turizm üçün cəlbedici edir.

• Xudafərin körpüsü və Qarabağ silsiləsi kimi ərazilər tarixi və mədəni turizmin inkişafını təşviq edir.

Şərqi Zəngəzur iqtisadi-coğrafi mövqeyi, zəngin təbii ehtiyatları, tarixi və mədəni abidələri ilə turizm potensialı baxımından böyük əhəmiyyətə malikdir. Bu region Azərbaycan Respublikasının yeni iqtisadi rayonlarından biri kimi turizm və rekreasiya sahəsində xüsusi inkişaf perspektivləri təklif edir.

Təbii turizm resursları

4. Milli parklar və qoruqlar:

• Şərqi Zəngəzurun dağlıq əraziləri flora və faunanın zənginliyi ilə seçilir. Bu ərazilər ekoturizm üçün idealdır.

• Meşəlik ərazilər və dağ çayları trekking və kamp turizmini təşviq edir.

2. Mineral sular və isti su mənbələri:

• Regionda müalicəvi əhəmiyyət daşıyan mineral su mənbələri var. Bu, sağlamlıq turizmini inkişaf etdirmək üçün əlverişlidir.

3. UnikallLandşaftlar:

• Qarabağ və Zəngəzur dağlarının təbii mənzərələri fotoqrafiya və digər aktiv turizm növləri üçün uyğun şərait yaradır.

Tarixi və mədəni abidələr

Problemin aktuallığı. Şərqi Zəngəzurun iqtisadi-coğrafi mövqeyi Azərbaycanın iqtisadi inkişafına, regional əməkdaşlığa və geosiyasi mövqeyinin güclənməsinə mühüm töhfə verir. ərqi Zəngəzurun iqtisadi-coğrafi mövqeyi Azərbaycanın regional inkişafı və strateji məqsədləri baxımından mühüm əhəmiyyət kəsb edir. Şərqi Zəngəzur mühüm beynəlxalq nəqliyyat dəhlizlərinin keçdiyi bir regiondur. Bu bölgə Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb rayonlarını Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birləşdirir. Bu, həmçinin regionun Avropa və Asiya arasında tranzit ölkə rolunu gücləndirir. Beləliklə, Şərqi Zəngəzurun strateji mövqeyi Azərbaycanın nəqliyyat-logistika imkanlarını artırır.

Problemin yeniliyi. Şərqi Zəngəzurun azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə yanaşı, regionun iqtisadi inteqrasiyasını da sürətləndirir. Bu, həmçinin regional təhlükəsizliyi möhkəmləndirərək yeni iqtisadi tərəfdaşlıqların formalaşmasına şərait yaradır.

Problemin praktik əhəmiyyəti. Şərqi Zəngəzurun iqtisadi-coğrafi mövqeyi Azərbaycanın iqtisadi gücünü artırmaqla yanaşı, onun beynəlxalq nəqliyyat, enerji və ticarət sahələrində strateji mövqeyini gücləndirir. Bu regionun inkişafı Azərbaycanın iqtisadi siyasətində mühüm rol oynayır. Ona görə də bu məqalə gənc tədqiqatçılar üçün çox yararlı olacaq.

Ədəbiyyat:

1. Müseyibov, M.A. / Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarif, / M.A. Müseyibov. -1998 -254 s.
2. Azərbaycan Respublikasının coğrafiyası, 2 cildə [I cild], -Bakı: AMEA-nın Elmi əsərləri,- 2014.-304 s.
3. Azərbaycan Respublikasının coğrafiyası, 2 cildə [I I cild], -Bakı: AMEA-nın Elmi əsərləri,- 2014. -304 s.
4. Abbasov, C.R. / Azərbaycan Respublikasının İqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Dövlət Universitetinin elmi kitabxanası, / C.R. Abbasov. -2005. -297 s.

Redaksiyaya daxil olub: 21.01.2025

UOT 159.9

Novruz İsa oğlu Musayev
Azərbaycan Tibb Universitetinin professoru,
pedaqogika elmləri doktoru
Aypara İbrahim qızı Həsənova
fizika-riyaziyyat üzrə fəlsəfə doktoru
orcıd:https://orcid.orq/0009-0007-4008-2580
E-mail: fizikaelmi@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).216-221

ORQANİZMİN STASİONAR HALININ TƏNZİMLƏNMƏSİNİN FİZİOLOJİ MEXANİZMLƏRİNİN NƏZƏRİ ƏSASLARI

Новруз Иса оглы Мусаев
профессор
Азербайджанский Медицинский Университет,
доктор педагогических наук
Айпара Ибрагим гызы Гасанова
доктор философии по физико-математическим наукам

ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ФИЗИОЛОГИЧЕСКИХ МЕХАНИЗМОВ РЕГУЛЯЦИИ СТАЦИОНАРНОГО СОСТОЯНИЯ ОРГАНИЗМА

Novruz Isa Musayev
professor at the
Azerbaijan Medical University,
doctor of pedagogical sciences
Aypara Ibrahim Gasanova
doctor of philosophy in physical and mathematicals sciences

THEORETICAL BASIS OF PHYSIOLOGICAL MECHANISMS REGULATION OF THE STATIONARY STATE OF THE ORGANISM

Xülasə. Orqanizm ancaq onu əhatə edən ətraf mühit maddələri ilə qarşılıqlı təsirdə mövcud ola bilər. Bu qarşılıqlı təsir vasitəsilə orqanizm özünü tənzimləyir, təzələyir və mövcudluğunu təmin edir. Müxtəlif funksiyaları yerinə yetirən orqanizm, xarici mühitə uyğunlaşır və ya mühiti özünün tələblərinə uyğunlaşdırır. Orqanizmin inkişafı prosesində onun müəyyən funksiyaları meydana gəlir və onun keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verir. Ona görə də tədqiqat işlərinin əsas vəzifəsi, o dəyişiklikləri araşdırmaq və meydana çıxan funksiyaları öyrənməkdir. Məqalə həmin funksiyaların araşdırılaraq, yerinə yetirilməsi proseslərinin təmin edilməsinin öyrənilməsinə həsr edilmişdir.
Açar sözlər: *orqanizm, canlı, enerji, maddə, proses, tənzimləmə, mübadilə*

Аннотация. Организм может существовать только во взаимодействии с окружающим миром. Посредством такого взаимодействия организм регулирует себя и обеспечивает свое существование. Выполняя несколько функций, он адаптируется под окружающий мир, а также адаптирует его под свои потребности. В процессе развития, появляются новые функции, параллельно с качественными и количественными изменениями. Поэтому основной задачей исследования является выявление таких изменений и изучение новых функция. Данная статья посвящена обеспечению механизмов выявления и изучения новых функция организма.

***Ключевые слова**: организм, живой, энергия, вещество, процесс, регулирование, обмен*

Abstract. An organism can exist only in interaction with the surrounding world. Through such interaction, the organism regulates itself and ensures its existence. Performing several functions, it adapts to the surrounding world, and also adapts it to its needs. In the process of development, new functions appear, in parallel with qualitative and quantitative changes. Therefore, the main task of the study is to identify such changes and study new functions. This article is devoted to providing mechanisms for identifying and studying new functions of the organism. Keywords: organism, living, energy, substance, process, regulation, exchange.

***Key words**: organism, live, energy, matter, process, regulation, exchange,*

Orqanizm üzvi aləmin özünü tənzimləməyə qabil vahid bir varlığıdır. Orqanizm ancaq onu əhatə edən ətraf mühitlə qarşılıqlı təsirdə olduqda öz mövcudluğunu təmin edə bilər. Bu qarşılıqlı təsir vasitəsilə orqanizm özünü tənzimləyir, təzələyir və mövcudluğunu təmin edir. İ.M. Seçenovun qeyd etdiyi kimi, "orqanizm, onun varlığını təmin edən xarici mühitsiz mövcud ola bilməz".

Müxtəlif funksiyaları yerinə yetirən canlı orqanizm xarici mühitə uyğunlaşır və ya mühiti özünün tələblərinə uyğunlaşdırır. Istənilən hüceyrə, toxuma, orqan və ya orqanizmin bütün fizioloji funksiyaları, bu canlı varlığın tarixi əlamətlərinin və fərdi inkişafının nəticəsidir. Bu inkişaf prosesində canlı quruluşun müəyyən funksiyaları meydana gəlir və onun keyfiyyət və kəmiyyət dəyişiklikləri baş verir. Ona görə də elmin əsas vəzifəsi o dəyişiklikləri araşdırmaq və meydana gələn funksiyaları öyrənməkdir.

Canlı orqanizmin əsas vəzifəsi ətraf mühit elementləri ilə maddə *və enerji mübadiləsi funksiyasını yerinə* yetirməkdir. Bu proses, həm bütöv orqanizmdə və həmdə onun bütün təşkiledicilərində daimi baş verən kimyəvi və fiziki dəyişikliklərdən, maddə və enerji çevrilmələrindən ibarətdir. Maddə mübadiləsi və ya *metobolizm*, həyat üçün vacib olan əsas şərtdir. O, canlıları cansızlardan, canlı aləmi, qeyri üzvi aləmdən fərqləndirir. Maddə dəyişikliyi və enerji çevrilmələri qeyri üzvi aləmdə də baş verir. Lakin, canlı orqanizmlərdə və qeyri üzvi aləmdə baş verən belə proseslər arasında prinsipial fərqlər mövcuddur. Bu fərqlərin mahiyyətini F. Engels "Təbiətin dialektika"sı əsərində belə formalaşdırmışdır: "Qeyri üzvi cisimlərdə də analoji maddə mübadiləsi baş verir, hansı ki, faktiki olaraq hər yerdə baş verir, çünki hər yerdə çox yavaş da olsa, kimyəvi proseslər baş verir. Lakin fərq ondan ibarətdir ki, qeyri üzvi cisimlərdə belə mübadilə onları dağıdır, parçalayır, canlı aləmdə isə, o, onların yaşaması – mövcudluğu üçün vacib, lazımlı şərt sayılr". Yaşamaq, fəaliyyət göstərmək, o vaxta qədər mümkün olur ki, nə vaxta qədər maddələr mübadiləsi onları mühafizə edir və onun özünü təzələməsini təmin edir. Maddə mübadiləsinin kəsilməsinin nəticəsi ölüm, protoplazmanın dağılması və onun üçün xarakterik olan kimyəvi birləşmələrin, birinci növbədə zülali birləşmələrin parçalanmasıdır.

Açıq termodinamik sistem olan canlı orqanizm, ətraf mühit maddələri ilə qarşılıqlı təsirdə olmasına baxmayaraq, onun vəziyyətini xarakterizə edən parametrlər zaman keçdikcə dəyişmir. Termodinamik sistemlərin belə vəziyyətinə stasionar hal (qomeostaz) deyilir. Stasionar halda sistemin müxtəlif hissələrində, sistemi xarakterizə edən parametrlərin qiymətləri (orqanizmin müxtəlif hissələrinin temperaturu, hüceyrə membranının müxtəlif tərəflərində diffuziya edən hissəciklərin konsentrasiyası və s.) biri-birindən fərqlənir. Nəticədə bu parametrlərin qiymətlərinin qradienti yaranır, bu qradientlər biri-birindən fərqlənir və daim sabit qalır. Bu sistemlərdə kimyəvi reaksiyalar da sabit sürətlə baş verir və s. Belə sistemlərin stasionar halı, sistemdən keçən maddə və enerji sellərinin hesabına əldə edilir.



Şəkil 1

Stasionar halda sistemin müxtəlif hissələrində sistemi xarakterizə edən parametrlərin qiymətləri biri-birindən fərqlənir. Məsələn, insan bədəninin müxtəlif hissələrində temperatur, sitoplazmatik membranın müxtəlif tərəflərində diffuziya edən molekulların konsentrasiyası və

s. müxtəlif qiymətlərə malik olurlar və zaman keçdikcə onlar sabit qalırlar. Belə sistemlərdə kimyəvi reaksiyalar da sabit sürətlə baş verir. Sistemin stasionar halı, xaricdən sistemə və sistemdən xaricə keçən maddə və enerji selinin dəyişməsi hesabına təmin edilir. Sxematik olaraq sistemin stasionar halı şəkil 1 a-da göstərilmişdir.

Təcrid olunmuş sistemlər müəyyən vaxt keçdikdən sonra termodinamik tarazlıq halına keçir. Bu halda, qərarlaşmış halda olduğu kimi, sistemin parametrləri zamandan asılı olaraq dəyişməz qalır, onların qiymətləri sistemin müxtəlif nöqtələrində biri-birinə bərabər olur. Təcrid olunmuş sistemlərdə tarazlıq halı sxematik olaraq şəkil 1 b-də göstərilmişdir.

Klassik termodinamikada belə hesab edilirdi ki, termodinamikanın ikinci qanunu bioloji sistemlərə tətbiq edilə bilməz. Belə ki, bu qanuna görə, termodinamik sistemlərdə ancaq enerjinin səpələnməsi və sərbəst enerjinin azalması ilə bağlı proseslər baş verə bilər. Bu proseslər qradientlərin azalmasına, sistemin iş görmə qabiliyyətinin aşağı düşməsinə və son nəticədə termodinamik tarazlığın yaranmasına səbəb olur. Lakin, canlı orqanizmlərdə qradientlə əlaqəli proseslərin baş verməsindən (məsələn, maddələrin passiv transportu) başqa, əks qradient prosesləri də (məsələn, maddələrin aktiv transportu) baş verir. Bioloji sistemlərin iş görmə qabiliyəti də zaman keçdikcə azalmır – onların həyat fəaliyyəti isə illərlə və on illərlə davam edir. Klassik termodinamikaya görə isə sistemdə baş verən bütün proseslər, sistemi termodinamik tarazlıq halına yaxınlaşdırmalıdır. Onun canlı sistemlərə tətbiqi isə o deməkdir ki, onları ölümə yaxınlaşdırmalıdır. Lakin, bütün bunlar ancaq məsələnin görünən, zahiri əlamətlərdir. Bu onunla izah olunur ki, klassik termodinamikanın qanunları təcrid olunmuş sistemlər üçün tərtib edilmişdir, canlı orqanizmlər isə açıq termodinamik sistemlərdir. Ona görə də, canlı orqanizmlərin termodinamikasına, açıq sistemlərin termodinamikası kimi baxılmalıdır. Açıq sistemlərin termodinamiksı isə, XIX əsrdən sonra Kolosovski, De Donde, İ.Priqojin tərəfindən tərtib edilmişdir.

Açıq termodinmik sistemlərdə sərbəst enerjinin dF və entropiyanın dS ümumi dəyişmələri iki cəmdən ibarətdir: sərbəst enerjinin dF_i və entropiyanın dS_i dəyişmələri, sistem daxilində baş verən biokimyəvi və biofiziki proseslərin getməsi ilə, sərbəst enerjinin dF_e və entropiyanın dS_e dəyişmələri isə, sistemin ətraf mühitlə qarşılıqlı təsiri nəticəsində baş verən dəyişmələridir:

$$dF = dF_i + dF_e \quad (1)$$
$$dS = dS_i + dS_e \quad (2)$$

Orqanizmlərdə bütün biokimyəvi və biofiziki proseslər dönməyən proseslərdir və onlar enerjinin bir hissəsinin istiliyə çevrilməsi ilə baş verirlər. Nəticədə, sistemin sərbəst enerjisi arası kəsilmədən azalır, entropiyası isə arası kəsilmədən artır, yəni: $dF_i<0$, $dS_i>0$. Lakin canlı orqanizmlərdə, sərbəst enerjinin artmasına səbəb olan əksqradient prosesləri də baş verir: məsələn, maddələrin, konsentrasiya qradientinin əksinə transportu, müxtəlif yüksək molekullu birləşmələrin sintezi. Belə əksqradient prosesləri lokal, yerli xarakter daşıyır, qradientin əmələ gəlmə prosesləri ilə əlaqəli və eyni zamanda baş verirlər. Məsələn, orqanizmdə sərbəst enerji ehtiyatının əmələ gəlməsinə səbəb olan aktiv transport əksqradiet prosesidir. Əgər orqanizm, ətraf mühitlə maddə və enerji mübadiləsində olmasaydı, onda o mütləq termodinamik tarazlığa yaxınlaşardı. Lakin, bu baş vermir, belə ki, açıq termodinamik sistemin sərbəst enerjisi, arası kəsilmədən xaricdən sistemə daxil olan enerji hesabına bərpa olunur, orqanizm daxilində hasil olunan entropiya isə, daim orqanizmdən xaric olunur. Beləliklə: $dF_e>0$, və $dS_e<0$; yəni, sistemin sərbəst enerjisinin artması (bərpası) və entropiyanın azalması prosesi baş verir. Sərbəst enerjinin bərpası, yeyinti məhsullarının orqanizmə daxil edilməsi ilə, entropiyanın azalması isə, orqanizmdən xaric edilən maddə və istilik hesabına həyata keçirilir.

Bunu əsaslandırmaq üçün *mənfi entropiya*, və ya *neqaentropiya* anlayışından istifadə edilir. Belə hesab edilir ki, orqanizm daim müsbət entropiya hasil edir, ətraf mühit maddələrindən isə, orqanizmə daim mənfi entropiya daxil olur. Mənfi entropiya dedikdə, orqanizmə hər hansı nizamlılığın daxil olması başa düşünülmür, sadəcə olaraq orqanizmə daxil olan sərbəst enerji başa düşülür. Orqanizmə daxil olan yeyinti məhsullarından orqanizm heç də ehtiyat nizamlılıq yox, səbəst enerji ehtiyatı alır, (hasil edir). Onun istifadəsi isə, orqanizmi həyat fəaliyyəti prosesi ilə təmin edir.

Sitoplazmatik membranlarda baş verən köçürmə hadisələri, passiv transporta aid olub, kimyavi enerjinin işlənməsi (istifadəsi) hesabına

baş verməyib, sadəcə olaraq, hissəciklərin (molekul və ionların) konsentrasiyasının çox olduğu yerdən, konsentrasiyanın az olduğu yerə (tərəfə), başqa sözlə desək, elektrokimyəvi potensial çox olan yerdən, elektrokimyəvi potensial az olan tərəfə (elektrokimyəvi potensialın az olduğu istiqamətdə) köçürülməsi hesabına baş verir. Passiv transportda ionlar da elektrik sahəsi qüvvəsinin təsiri istiqamətində transport edir (köçür)-yəni, sərbəst enerjinin işlənməsi hesabına baş vermir.

Passiv transportla əlaqəli hüceyrə membranında molekul və ionların elektrokimyəvi potensialın çox olduğu yerdən, elektrokimyəvi potensialın az olduğu yerə (istiqamətdə) transportu da baş verir (Molekullar onların konsentrasiysı çox olan yerdən, onların konsentrsiyası az olan yerə, ionlar isə elektrik sahəsi tərəfindən, onlara təsir edən qüvvənin əksi istiqamətində köçürülür.

Belə köçürülmə enerjinin tətbiqi (işlənməsi) hesabına həyata keçirilir və aktiv transport adlanır. Aktiv transport hissəciklərin (molekul və ionların) qradientinin əmələ gəlməsinə imkan yaradır. Qradientin yaranmasına imkan yaradan membranlar sisteminə, natrium-kalium nasosları və ya sadəcə olaraq, natrium nasosları adı verilir.

Natrium-kalium nasosları sitoplazmatik membranların tərkibinə daxildirlər. Onlar АТФ molekulunun hidrolizi nəticəsində əmələ gələn enerji hesabına işləyir və АДФ molekulunun və qeyriüzvi fosforun Φ_n əmələ gəlməsi ilə nəticələnir:

$$АТФ = АДФ + \Phi_n \quad (3)$$

Natrium-kalium nasosları qarşılıqlı çevrilmə qaydası ilə işləyirlər: АДФ və Φ_n ionların konsentrasiyasının qradienti, АТФ molekulunun sintezini əmələ gətirir:

$$АДФ + \Phi_n = АТФ \quad (4)$$

АТФ-in hidrolizi nəticəsində alınan enerjinin, bir mol maddəni az (aşağı) konsentrsiyalı c_{1i} sahədən, çox (yuxarı) konsentrasiyalı c_{2i} sahəyə köçürmək üçün gördüyü iş, Gibbs enerjisinin və ya kimyəvi potensialın dəyişməsi kimi hesablana bilər:

$$A = \Delta\mu = RT \ln \frac{c_{2_i}}{c_{1_i}} \qquad (5)$$

Belə ki, əgər K^+ ionlarının hüceyrə daxili mayedəki konsentrsiyasının, hüceyrə xarici mayedəki konsentrsıyasından 50 dəfə çox olduğunu qəbul etsək, onda (5) düsturuna əsasən, 36^0 temperatur üçün alarıq:

$$A = 8{,}31 C/(mol \cdot K) \cdot 309\ K \cdot In\ 50 = 10\ kC/mol.$$

Natrium-kalium nasoslarının işləmə mexanizmi elmi olaraq tam axıra qədər öyrənilməmişdir. Lakin, qeyd etmək lazımdır ki, bu nasosların işləməsi üçün natrium və kalium ionlarının eyni zamanda göstərilən yerlərdə (natrium ionunun hüceyrə daxili (sitoplazmatik) mayedə, kalium ionunun isə, hüceyrə xarici mayedə mövcudluğu vacibdir. Yəni, bu nasosların işləməsi üçün göstərilən şərtin (hüceyrə daxili mayedə natrium ionunun, hüceyrə xarici mayedə kalium ionunun olması-şərtinin ödənilməsi vacibdir. Bu o deməkdir ki, əgər hüceyrə daxilində Na^+ ionu olmasa, kalium ionunun K^+ hüceyrə daxilinə keçməsi baş verə bilməz, eləcə də hüceyrə xarici mayedə K^+ ionu olmasa, hüceyrə xaricinə Na^+ ionu nüfuz edə bilməz. Başqa sözlə natrium ionu natrium-kalium nasosunun işini hüceyrə daxilində, kalium ionu isə natrium-kalium nasosunun işini hüceyrə xaricində aktivləşdirir.

Natrium-kalium nasosu, iki ion kalium ionunun hüceyrə xarici mayedən hücyrə daxili mayeyə köçürülməsinin (keçirilməsinin) əvəzində, üç ion natrium ionunun hüceyrə daxili mayedən hüceyrə xarici mayeyə köçürür. Bununla da hüceyrə membranında potensiallar fərqi yaradılır və bu potensiallar fərqi saxlanılır.

(2) bərabərliyini başqa formada da yazmaq olar:

$$dS/dt = dS_i/dt + dS_e/dt, \quad (6)$$

haradakı t-zamandır.

(6) bərabərliyi, canlı orqanizmlər üçün termodinamikanın ikinci qanununun riyazi ifadəsidir. Bərabərlikdən görünür ki, *orqanizmdə, ümumi entropiyanın dəyişmə sürəti, orqanizm daxilində entropiyanın əmələ gəlmə sürəti ilə, ətraf mühit maddələrindən orqanizmə daxil olan mənfi entopiyanın dəyişmə sürətlərinin cəbri cəminə bərabərdir.* Orqanizm üçün elə hal daha əhəmiyyətlidir ki, o halda sistem daxilində entropiyanın əmələ gəlmə sürəti, ətraf mühit maddələrindən sistemə daxil olan mənfi entropiyanın dəyişmə sürətinə bərabər olsun:

$$dS_i/dt = - dS_e/dt. \quad (7)$$

Bu zaman, sistem daxilində entropiyanın və sərbəst enerjinin ümumi dəyişməsi sıfıra bərabər olur. (7) bərabərliyi orqanizmin stasionar halının tənliyidir. Stasionar hal ilə, termodinamik tarazlıq halının biri-birinə oxşarlığı onunla izah olunur ki, hər iki halda sistemi xarakterizə edən parametrlər zamandan asılı olaraq dəyişmir. Lakin, stasionar halda sistemin parametrlərinin sabitliyi, termodinamik tarazlıqda olduğu kimi, sistem daxilində müxtəlif proseslərin baş verməməsi ilə yox, orada baş verən proseslərin sürət və istiqamətlərinin sabitliyi və qarşılıqlı sürətdə biri-birilərini tarazlaşdırması ilə izah olunur.

Canlı orqanizm üçün enerjinin saxlanması qanunu belə ifadə edilir: yeyinti məhsullarının həzmi nəticəsində əmələ gələn enerji U, ətraf mühitə verilən istiliyin Q və orqanizmin fəaliyyəti zamanı gördüyü işlərin A kompensasiyasına sərf olunur:

$$U = Q + A \quad (8)$$

Bu insan orqanizminin enerji balansı tənliyidir və bunun əsasında da insanların qəbul edəcəyi yeyinti məhsullarının kalorilik dərəcəsi müəyyənləşdirilir.

Canlı orqanizmlərdə materiya yaranmır və itmir, o ancaq bir şəkildən başqa şəklə çevrilir. Çevrilən enerji ilə ayrılan istiliyin miqdari cəhətdən biri-birinə ekvivalentliyi 1781-ci ildə A.L.Lavuaze və P.S.Laplas tərəfindən müəyyən edilmişdir.

Sutka ərzində insanın enerji balansı orta hesabla aşağıdakı cədvəldə göstərilmişdir (Cədvəl 1)

Cədvəl 1. Sutka ərzində insanın enerji balansı

Daxil olma (kkal)	Sərfiyyat (xaric olma) kkal
Qida maddələri	Dəridən xaric olan istilik 1374
56,8 q. zülal 237	Nəfəs vermə ilə xaric olan qaz 43
140 q. yağ 1307	Nəcis və sidik 23
79,9 q. qarbohidrat 335	Nəfəs vermə vasitəsilə buxarlanma 181
	Dəridən buxarlanma 227
	Düzəliş 11
Yekun ... 1879	Yekun ... 1859

Orqanizmin qidasını təşkil edən yağlar, karbohidratlar və zulali maddələr yanma prosesində müxtəlif miqdarda enerji hasil edirlər. Məsələn 1 q karbohidratın son məhsula qədər parçalanması zamanı 4180 kalori, 1 q yağ son məhsula qədər parçalanan zaman 9460 kalori və 1 q zulal son məhsula qədər parçalanan zaman 4360 kalori istilik verir.

Yanma prosesində 100q yağın verdiyi istiliyi, 215q zülal və 230q karbohidratın yanmasından almaq olar. Lakin qeyd edilən izodinamiki uyğunluğun olmasına baxmayaraq, qida normasından istənilən üzvi maddəni çıxarıb, başqası ilə əvəz etmək olmaz. Çünki, qidalanma prosesində qida maddələrindən yağlar, zülallar və karbohidratlı maddələr ayrı-ayrılıqda zəruridirlər və müxtəlif funksiyaları yerinə yetirirlər.

Hesablamalar göstərir ki, tam istirahət zamanı insan orqanizmi bir sutka ərzində 75q zülal, 82q yağ və 204q karbohidrat istifadə edir.

Orqanizmin qidasını təşkil edən yağlar, karbohidratlar və zulali maddələr yanma prosesində müxtəlif miqdarda enerji hasil edirlər. Məsələn 1 q karbohidratın son məhsula qədər parçalanması zamanı 4180 kalori, 1 q yağ son məhsula qədər parçalanan zaman 9460 kalori və 1 q zulal son məhsula qədər parçalanan zaman 4360 kalori istilik verir.

Yanma prosesində 100q yağın verdiyi istiliyi, 215q zülal və 230 q karbohidratın yanmasından almaq olar. Lakin qeyd edilən izodinamiki uyğunluğun olmasına baxmayaraq, qida normasından istənilən üzvi maddəni çıxarıb, başqası ilə əvəz etmək olmaz. Çünki, qidalanma prosesində qida maddələrindən yağlar, zülallar və karbohidratlı maddələr ayrı-ayrılıqda zəruridirlər və müxtəlif funksiyaları yerinə yetirirlər.

Hesablamalar göstərir ki, tam istirahət zamanı insan orqanizmi bir sutka ərzində 75q zülal, 82q yağ və 204q karbohidrat istifadə edir.

Problemin aktuallığı. Canlı orqanizmlərdə baş verən fiziki və fiziki-kimyəvi proseslərin dəqiq elmlərlə araşdırılması dövrün aktual problemlərindəndir.

Problemin elmi yeniliyi. Orqanizmin izotermiyasının fiziki və fiziki-kimyəvi araşdırılması problemin aydınlaşdırılmasına elmi yanaşmadır.

Problemin praktik əhəmiyyəti. Canlı orqanizmlərin enerji balansının izahı bütün tibb işçiləri, tələbə kollektivi və praktik həkimlər üçün böyük praktik əhəmiyyətə malikdir.

Ədəbiyyat:

1. Musayev, N.İ. Tibbi və bioloji Fizikanın ixtisas fənləri ilə əlaqəli tədrisinin elmi-metodiki əsasları. Monoqrafiya. / N.İ. Musayev. -Bakı: Hüquq ədəbiyyatı, -2010. -509 s.
2. Musayev N.İ. Tibbi təhsil müəssisələrində fizika elminin tədrisinə verilən müasir tələblər. // Azərbaycan Milli Elmlər Akademiyasının məruzələri. -Bakı, 2010. № 4. -səh.127-131
3. Губанов, Н.И. Медицинская биофизика. / Н.И. Губанов, А.А. Утепбергенов. -М.: Медицина, -1978. -335 с.
4 Бабский Е. Б. и др. Физиология человека. -М.: Медицина, -1966. -656 с.
5 Ремизов, А.Н. Учебник по медицинской и биологической физике / А.Н. Ремизов, А.Г. Максина, А.Я. Потапенко. -Москва: Дрофа, - 2005.

Redaksiyaya daxil olub: 14.01.2025

UOT 159.9

Solmaz Qüdrət qızı Həsənli
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-5931-482X
E-mail: solmazhasanli@hotmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).222-225

SOSİALLAŞMA ANLAYIŞI VƏ SOSİALLAŞMANIN MAHİYYƏTİ

Солмаз Гудрат гызы Гасанли
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике,

ПОНЯТИЕ СОЦИАЛИЗАЦИИ И СУЩНОСТЬ СОЦИАЛИЗАЦИИ

Solmaz Gudrat Hasanly
associate professor at the
Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy

THE CONCEPT OF SOCİALİZATİON AND THE ESSENCE OF SOCİALİZATİON

Xülasə. Günümüzdə sürətli sosial dinamizm insanın sahib olduğu toplumda özünütəsdiqini çətinləşdirir. Nəticədə insan sosial yalnızlığa sürüklənir, sahib olduğu topluma yabançılaşır və sosiallaşma prosesində uğursuzluğa düçar olur. Məqalədə müasir dövrdə sosiallaşma prosesinin insan psixologiyasına təsiri baxımından mahiyyəti və xüsusiyyətləri təhlil olunmuşdur.
Açar sözlər: *sosiallaşma, sosial inkişaf, sosial normalar, uğurlu sosiallaşma, uğursuz sosiallaşma*

Аннотация. Сегодня стремительный социальный динамизм мешает человеку самоутвердиться в обществе, к которому он принадлежит. В результате человек тянется к социальной изоляции, отчуждается от общества, которым он владеет, и терпит неудачу в процессе социализации. В статье проанализированы природа и особенности процесса социализации в современное время с точки зрения его влияния на психологию человека.
Ключевые слова: *социализация, социальное развитие, социальные нормы, успешная социализация, неудачная социализация*

Abstract. Today, rapid social dynamism makes it difficult for a person to assert himself in the society he belongs to. As a result, a person is drawn into social isolation, becomes alienated from the society he belongs to, and fails in the socialization process. The article analyzes the essence and characteristics of the socialization process in modern times in terms of its impact on human psychology.
Keywords: *socialization, social development, social norms, successful socialization, unsuccessful socialization*

Sosial təsir bu təsirə qoşulanların davranışını dəyişdirmək məqsədi daşıyan bir prosesdir. Uşaq sosial təsir yolu ilə qrup mədəniyyətini qazanır. İnsanlar sosial təsir nəticəsində içində olduqları topluma uyğunlaşırlar. İnsanın sosiallaşması çox çətin bir prosesdir. O, ətrafında baş verən və hər gün rastlaşdığı saysız hadisələrin, insanların, ətraf mühitdəki müxtəlif dəyişikliklərin və bu kimi hadisələrin təsirindədir. Bu hadisələrin qarışıq təsiri nəticəsində insan bir şəxsiyyət kimi formalaşır, sosiallaşır.

"Sosiallaşma" termini ilk dəfə amerikalı sosioloq Franklin Henry Giddingsin 1887-ci ildə nəşr olunan "Sosiallaşma nəzəriyyəsi" əsərində

istifadə olunmuşdur. Giddingsə görə, sosiallaşma fərdin sosial təbiətinin və ya xarakterinin inkişafı, insanın sosial həyata hazırlanmasıdır. Termin kimi sosiallaşma anlayışı amerikalı sosioloq tərəfindən ilk dəfə istifadə edilməsinə baxmayaraq, toplumla qarşılıqlı əlaqə prosesində fərdin şəxsiyyətinin formalaşması ilə bağlı fikirləri 19-20-ci əsrlərin əvvəllərində xüsusilə Z. Freyd, J. Piaje, E. Durkheym və başqa müəlliflər öz əsərlərində açıqlamağa çalışmışlar. E. Durkheyim pedaqoji prosesin sosiallaşdırma funksiyasını "yaşlı nəslin böyüyən nəsli gələcək sosial həyata hazırlaması, psixoloji, intellektual və əxlaqi baxımdan yetişdirməsi" olaraq açıqlamışdır. O, pedaqoji prosesi "metodlu sosiallaşma", toplum içində məqsədsiz, plansız, kortəbii şəkildə göstərilən təsirləri isə "metodsuz sosiallaşma" adlandırmışdır.

"Şəxsiyyətin sosiallaşması mürəkkəb, ziddiyyətli və çoxşaxəli bir prosesdir. Onun ana xətti, ilk növbədə, insan münasibətləri ilə bağlıdır. Uşaq da bir şəxsiyyət kimi elə bu insani münasibətlərin bənzərsiz axarında formalaşır. İnsan münasibətlərinin mənimsənilməsi şəxsiyyətin sosiallaşmasının başlıca problemlərindən biri kimi meydana çıxır" (3, 84 s.)

Heç bir uşaq sosial və ya anti-sosial olaraq dünyaya gəlmir. Bununla bərabər insanlarla birlikdə yaşama tələbatı həyatın ilk ilində formalaşır. Birgə yaşama ehtiyacının eyni zamanda heyvanların böyük bir hissəsinin ortaq xüsusiyyəti olmasından fərqli olaraq, sosial davranış insan övladına xas bir xüsusiyyətdir. İlk sosial davranış körpənin insanlarla əşyaları bir-birindən ayırmağa başladığı zaman meydana çıxır. Körpə həyatının üçüncü ayından başlayaraq insan və əşyalara fərqli reaksiyalar göstərir. Onun ilk sosial reaksiyaları valideynləri və ona yaxın digər ailə üzvlərinə yönəlir.

Bir öyrənmə prosesi olan sosiallaşma, insanın toplum içindəki norma və dəyərlərə uyğun davranış formalarını qəbul etməsi və mənim-səməsi deməkdir. Digər insanları anlamaq və onlara uyğunlaşmaq sosiallaşmanın öndə gələn ölçüsüdür.

Bir uşağın sosiallaşması üçün üç önəmli şərt mövcuddur.

1. Sosiallaşma üçün hər hansı bir toplumun varlığı lazımdır.

2. Uşağın lazımi səviyyədə psixoloji xüsusiyyətlərə sahib olması gərəklidir.

3. Uşağın digər insanlarla sosial münasibət qurmaq ehtiyacı hiss etməsi lazımdır.

Sosiallaşma prosesi iki mərhələdə həyata keçir. Bunlardan birincisi ailədən başlayan və məktəbə qədər olan dövrü əhatə edən ilkin sosiallaşma prosesidir. Digəri isə məktəbdən başlayan və insanın həyatının sonuna qədər davam edən ikinci sosiallaşma mərhələsidir. Bu iki mərhələ bir-birindən onunla fərqlənir ki, birinci sosiallaşma mərhələsi insanın öz ailəsi və yaxınlarının formalaşdırdığı qapalı mühit xarakteri daşıyır. İkinci sosiallaşma mərhələsində isə insanı daha böyük bir sosial mühit əhatə edir və insan bu prosesdə topumun dəyərlərinin, normalarının daşıyıcısına çevrilir.

Sosiallaşmanın təməlində insanın sosial inkişafı dayanır. Sosial inkişaf sosial qıcıqlandırıcılara, xüsusən də insanın daxil olduğu qrupun təsir və məcburediciliyinə qarşı həssaslıq hissini inkişaf etdirməsi, qrupda və ya geniş mənada təmsil etdiyi toplumda başqaları ilə normal ünsiyyət qurması, toplumun digər üzvləri kimi davranması, qadın-kişi rollarını mənimsəməsi və sosial məsuliyyət hissi qazanmasıdır. Toplumun tələb etdiyi dəyər və normalara uyğunluq göstərməyə əsaslanan sosial inkişaf, geniş mənada insanın doğulmasıyla başlayan və ölümünə qədər davam edən bir mərhələni, dar mənada isə gündəlik sosial davranış nümunələrini əhatə edir.

İnsan yaşadığı toplumda həm hörmət və seçkinlik qazanmağa, həm öz yerini müəyyənləşdirməyə, həm də özünütəsdiqə ehtiyac hiss edir. Sosiallaşma geniş ölçüdə bu ehtiyacın təmin olunmasından asılıdır. Sosiallaşmanın ölçüsü insanın çevrəsindəki insanlarla münasibət və ünsiyyəti, daxil olduğu qrup içindəki fəaliyyətlərdə aktiv iştirakı, toplum üçün önəmli olan davranış normalarını mənimsəməsi ilə müəyyənləşdirilir. Bütün bu keyfiyyətlər müəyyən zaman müddətində meydana gəlir.

Mütəxəssislər insanın sosiallaşması ilə bağlı üç xüsusiyyətə diqqət çəkirlər:

- İnsan sosial davranışı toplumla qarşılıqlı təsir nəticəsində öyrənir.
- İnsanın sosiallaşma baxımından nə öyrənəcəyini içində yaşadığı toplum müəyyənləşdirir.
- İnsanın sosiallaşması sosial sistemə aktiv və uğurlu bir şəkildə qoşulması ilə tamamlanır.

Təbiidir ki, sosiallaşma prosesi ümumi xüsusiyyətlərə sahib olsa da, hər bir toplumun özü-

nəməxsus xüsusiyyətlərinin varlığı səbəbindən insanların sosiallaşması prosesində bir toplumda digərlərinə görə fərqli cəhətlərin üzə çıxmasına səbəb olur. Odur ki, sosiallaşma prosesinin toplumun milli dəyərləri, həmin toplumda qəbul edilən davranış normaları baxımından araşdırılmasına ehtiyac vardır. Eyni zamanda daim göz önündə tutmaq lazımdır ki, durmadan dəyişən dünyada sosiallaşmaya təsir edən amillər, onların xarakter və funksiyaları da daim dəyişməkdədir. Elə buna görə də düşünürük ki, problem hər bir cəmiyyət üçün olduğu qədər, hər bir tarixi dövr üçün də öz aktuallığını saxlayır və bu məsələyə mövcud tarixi kontekstdə baxmağı zəruri edir.

Ümumiyyətlə, bu sahədə aparılan araşdırmaların çoxalmasının önəmli bir səbəbi texnologiyanın inkişafı ilə bağlı olaraq insanlar, mədəniyyətlər və toplumlar arasında qarşılıqlı təsirin artması nəticəsində dünyanın kiçilməsi, qloballaşma və bunların nəticəsində yeni dünyada yaşayan insanların sosiallaşma problemlərinin çoxalmasıdır. Qloballaşma prosesində insanların fərqli mədəniyyət və sosial dəyərlərlə üz-üzə qalmaları, onların sahibi olduqları mədəni-mənəvi dəyərlərə yabançılaşması və təzadlı bir sosial-psixoloji həyata sürüklənmələri ilə nəticələnir.

Son zamanlarda insanın içində olduğu topluma uyğunlaşması və sosiallaşması prosesində ortaya çıxan subyektiv və obyektiv psixoloji problem və çətinliklərin səbəblərini araşdırmaq, bu problemlərin həlli yollarını ortaya qoymaq və şəxsiyyətin uğurlu sosiallaşmasını təmin etmək məqsədi ilə bir çox ölkələrdə müxtəlif elmi araşdırmalar aparılır. Çünki artıq hər bir toplumda baş verən sosial baxımdan sürətli dəyişmələr, insanların bu dəyişmələrə ayaq uydurmalarını tələb edir. Bu dəyişən obyektin subyektə təsiri onu da özünə bənzətmə istəyi sürətli dəyişmə kontekstində təbiidir ki, subyekt olan insanın bir sıra psixoloji problemlərlə qarşı-qarşıya qalmasına səbəb olur. Ona görə də çağdaş insan get-gedə daha çox sosial-psixoloji problemlər məngənəsində yaşamaq məcburiyyətində qalır.

Geniş mənada sosiallaşma uşağın yaşadığı topluma uyğunlaşması deməkdir. Bu prosesə eyni zamanda topluma hazırlanma da deyilir. Çünki uşaq bu prosesdə hər hansı bir toplumla, dar mənada isə hər hansı bir qrupla bütünləşir. Böyüməkdə olan uşaq ətrafındakı insanların təsiri ilə onların davranışlarına oxşar davranışları daha da inkişaf etdirir. Bunun nəticəsində toplumun üzvü olan, bir-birindən fərqli psixoloji xüsusiyyətləri olmasına baxmayaraq bir-birinə oxşar dəyərlərə sahib insan qrupları yaranır.

Sosiallaşmaya iki yanaşma mövcuddur. Birinci yanaşmanın tərəfdarları sosiallaşma prosesində insanın passiv mövqeyini təsdiqləyir və güman edir ki, sosiallaşma topluma uyğunlaşma prosesidir. Bu yanaşmanı ***subyekt-obyekt*** yanaşması adlandırmaq olar (toplum təsir predmeti, insan isə onun obyekti). Obyektiv baxımdan sosiallaşma dedikdə isə toplumun insan üzərindəki təsiri nəzərdə tutulur. Belə ki, toplum sahib olduğu dəyərləri, düşüncə tərzini, davranış normalarını onun üzvü olacaq insanlara aşıladaraq onlara sosial rolu, sosial normaları mənimsədir. Bu yanaşmanın tərəfdarları fransız alimi Emil Dürkheym və amerikalı alim Talkott Parsonsdur.

İkinci yanaşmanın tərəfdarları insanın sosiallaşma prosesində fəal iştirak etdiyini və sadəcə topluma uyğunlaşmadığını, həm də onun həyat şəraitinə və özünə təsir göstərdiyi fikrini irəli sürürlər. Bu yanaşma ***subyekt-subyekt*** yanaşması olaraq təyin edilir. Bu yanaşmanın öncülləri amerikalılar Çarlz Kuli və Corc Herbert Middır. Subyekt-subyekt yanaşmasına əsasən, sosiallaşma bütün yaş mərhələlərində insanın kortəbii, nisbətən yönəldilmiş və məqsədyönlü şəkildə yaradılan sosial mühit ilə qarşılıqlı əlaqədə meydana gələn mədəniyyətin mənimsənilməsi prosesində insanın inkişafı və özünü dəyişdirməsi kimi şərh edilir. Yəni subyektiv baxımdan sosiallaşma insanın içində olduğu sosial mühitə uyğunlaşmasıdır. İnsan toplumun hər kəs tərəfindən qəbul edilmiş düşüncə və davranış normalarını mənimsəyir. İnsan bu dəyərləri, normaları mənimsəyib onları özününküləşdirir, bu dəyərlərə inteqrasiya olunur. Yuxarıda qeyd edilən hər iki yönlü sosiallaşmada insan mənlik şüuruna sahib olur, şəxsiyyətə çevrilir.

Ümumi olaraq sosiallaşma prosesinin əsasən aşağıdakı xüsusiyyətləri vardır:

1. Sosiallaşma prosesi hər zaman müəyyən bir konkret toplum üçün keçərlidir. Yəni insan tərkibində olmadığı digər toplumlara uyğun sosiallaşması mümkün deyildir. Mövcud toplumların mədəni-mənəvi dəyərlərindəki fərqliliklər baxımından insan sadəcə yaşadığı cəmiyyətə uyğunlaşır, onun dəyərlərini mənimsəyir və həmin cəmiyyət tərəfindən sosiallaşdırılır.

2. Sosiallaşma hər hansı bir insanın doğulduğu andan etibarən başlayan, uşaqlıq, yeniyetməlik dövründə sürətlə cərəyan edən və əsasən son gənclik dövründə müstəqillik xüsusiyyətinin qazanılması ilə nəticələnən bir prosesdir.

3. Sosiallaşma prosesi insanın fərdi-psixoloji xüsusiyyətləri ilə maraqlanmır. Bu prosesdə insanın özünəməxsus xüsusiyyətləri toplum dəyərlərinə uyğunlaşdırılır.

Sosiallaşmanın iki növü vardır: uğurlu sosiallaşma və uğursuz sosiallaşma.

Uğurlu sosiallaşma eyni zamanda sosial nəzarətin bir vasitəsidir. Sosiallaşma prosesində rəğbətləndirmə və cəzalandırma mexanizmləri iştirak edir. Yəni gənc nəsil sosial normalara əməl etmənin rəğbətləndirmə, onları yerinə yetirməmənin isə cəzalandırma ilə nəticələnəcəyini öyrənir. Sosiallaşma sadəcə insan davranışlarına nəzarətin təmin edilməsi mexanizmi deyildir. Sosiallaşma eyni zamanda gənc nəslin müsbət yöndə inkişafını təmin edir, motivləri hərəkətə gətirir, insanda müsbət yöndə arzu, istək yaradır, onu toplum tərəfindən qəbul edilə bilən davranışlara yönləndirir. Beləliklə, uğurlu sosiallaşma həm formalaşdırıcı, həm də yaradıcı bir prosesdir. Yəni ilk əvvəl uğurlu sosiallaşma uşağı toplumun istədiyi yöndə formalaşdırır, daha sonra isə ondan topluma xeyir verən, onun mənafeyini qoruyan bir şəxsiyyət yaradır.

Uğursuz sosiallaşma mənfi davranışların qazanılmasına səbəb olur. Bəzən uşaqlar onları əhatə edən mikro və ya makro mühitin mənfi təsirlərinə məruz qalır və toplum tərəfindən qəbul edilməyən davranışlara yiyələnirlər. Bu səbəblə də hər zaman yaşadıqları toplumun norma və qanunları ilə təzad təşkil edən davranışlar göstərirlər.

Sosiallaşmanın bir proses olduğu və bunun hətta körpəlik yaş dövründən başlayaraq gənclik yaşının sonu və orta yaş dövrünün başlanğıcında uğurlu və ya uğursuz olaraq nəticələndiyini göz önündə tutsaq qeyd edə bilərik ki, bu dövrdə insanın psixoloji bir rəhbərliyə, yardıma və məsləhətə ehtiyacı vardır. Təbii ki, bu prosesdə insanın fərdi psixoloji xüsusiyyətlərinə diqqət yetirməmək mümkün deyil və düşünürük ki, bir şəxsiyyətin formalaşmasında sosial amillər nə qədər önəmli rol oynayırsa, psixoloji amillər də bir o qədər önəmə sahibdir.

Problemin aktuallığı. Günümüzdə sürətli iqtisadi-sosial dəyişmələr, texnologiyanın, sənayenin inkişafı, bu dəyişmələr və inkişaf nəticəsində insanlar arasında səmimi münasibətin getdikcə azalması, real münasibətlərin yerini texnoloji vasitələrin alması və nəticədə yalnız, özünü sosial mühitdən təcrid edən bir nəslin meydana gəlməsi baxımından sosiallaşma prosesi araşdırılması önəmli olan problemlərdəndir.

Problemin elmi yeniliyi ondan ibarətdir ki, məqalədə sosiallaşma prosesinin mahiyyəti açıqlanmış, elmi mənbələrə əsasən ümumiləşdirmələr aparılmış və problemlə bağlı elmi yanaşmalar irəli sürülmüşdür.

Problemin praktik əhəmiyyəti. Məqalədə irəli sürülən mülahizələrdən psixoloqlar, pedaqoqlar, valideynlər, ümumiyyətlə geniş kütlə faydalanaraq sosiallaşma prosesinin uğurla nəticələnməsi baxımından problemin mahiyyətini dərindən dərk edərək praktik fəaliyyətlərində nəzərə almaq imkanına sahib olarlar.

Ədəbiyyat:

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. -Bakı, 2003. -356 s.
2. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. -Bakı, 2000. -442 s.
3. Əlizadə H., Mahmudova R.M. Sosial pedaqogika. -Bakı, 2013. -368 s.
4. Белинская, Е.П. Социальная психология личности: -М., 2009. -304 s.
5. Şavran G., Ayşın F., Gökalp E. Modern sosyoloji tarihi. -Eskişehir, 2013. -237 s.

Redaksiyaya daxil olub: 14.01.2025

UOT 159.9

Kamilə Qinyaz qızı Kazımova
Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının baş müəllimi
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6360-2322
E-mail: kamilakazimova@bsu.edu.az
https://doi.org/10.69682/arti.2025.92(1).226-232

DEPRESSİYANIN GENETİK VƏ NEYROBİOLOJİ NƏZƏRİYYƏLƏRİNƏ BAXIŞ

Камилла Гиньяз гызы Казимова
старший преподаватель кафедры Психологии
Бакинского Государственного Университета,
доктор философии по психологии

ОБЗОР ГЕНЕТИЧЕСКИХ И НЕЙРОБИОЛОГИЧЕСКИХ ТЕОРИЙ ДЕПРЕССИИ

Kamila Ginyaz Kazimova
senior lecturer at the department of Psychology at Baku State University
doctor of philosophy in psychology

A REVIEW OF GENETIC AND NEUROBIOLOGICAL THEORIES OF DEPRESSION

Xülasə. Məqalədə depressiya haqqında məlumat verilərək depressiyanın geniş yayılmış, xroniki və təkrarlana bilən psixi pozuntu olduğu qeyd edilmişdir. Depressiyanın etiologiyasında genetik amillərin əsas yer tutduğu, tədqiqatlar nəticəsində monoziqot əkizlərdə depressiya riskinin diziqot əkizlərə nisbətən daha yüksək olduğu qeyd edilmişdir. Monoziqot əkizlərdə depressiyanın konkordans nisbəti 45-50%, diziqot əkizlərdə isə 15-20% arasında dəyişir. Həmçinin məqalədə monoamin hipotezinin depressiyanın bioloji etiologiyasında monoamin neyromediatrların çatışmazlığının rolunu izah etməyə çalışan bir nəzəriyyə olduğu qeyd edilir. Son tədqiqatların nəticələrinə əsasən depressiyanın etiologiyasında neyromediatrların rolunun təkcə monoamin nəzəriyyəsi ilə izah edilmədiyi, depressiyanın etiologiyası üçün hazırlanmış fərziyyələrin artıq molekulyar səviyyəyə keçdiyi və gen ifadəsi nəzəriyyəsi ilə izah olunmağa çalışıldığı qeyd olunub. Neyroplastiklik də depressiyanın neyrobioloji amilləri içərisində mühüm yer tutur. Depressiv insanlarda beynin yeni sinir əlaqələri qurmaq və mövcud əlaqələri dəyişmək qabiliyyəti, yəni neyroplastiklik zəifləyir. Məqalədə depressiyanın əsas səbəblərindən birinin beyində neyrotransmitterlərin balansının pozulması olduğu da öz əksini tapıb. Eyni zamanda, müasir tədqiqatlarda iltihab nəzəriyyəsinin də depressiyanın inkişafında vacib olduğu göstərilir; bu nəzəriyyəyə görə, iltihab prosesləri beynin müəyyən bölgələrindəki dəyişikliklərə səbəb olur və depressiyanın simptomlarını gücləndirir. Beyindəki struktur dəyişikliklər, xüsusən hipokampus, amiqdala və prefrontal korteksdəki dəyişikliklər emosional disfunksiya və yaddaş problemləri ilə əlaqələndirilir. Məqalənin sonunda depressiyanın genetik və neyrobioloji nəzəriyyələri tədqiq olunmaqda davam etdiyi və bu tədqiqatların hər birinin həm psixoterapiya, həm də profilaktika baxımından yeni perspektivlər açdığı qeyd edilərək gələcəkdə depressiv insanlara fərdi yanaşmaların tətbiqi üçün böyük potensial təqdim edilməsi baxımından əhəmiyyətli olduğu vurğulanmışdır.

Açar sözlər: *Depressiya, genetik amillıər, genlər, neyrotransmitter, neyroplastiklik, neyrobioloji nəzəriyyələr, monoamin nəzəriyyəsi, iltihab nəzəriyyəsi*

Аннотация. В статье представлена информация о депрессии и отмечается, что депрессия является распространенным, хроническим и рецидивирующим психическим расстройством. Генетические факторы играют важную роль в этиологии депрессии, и исследования показали, что риск развития депрессии у монозиготных близнецов выше, чем у дизиготных. Частота конкордантности депрессии у монозиготных близнецов колеблется в пределах 45-50%, а у дизиготных близнецов – в пределах 15–20%. В статье также отмечается, что моноаминовая гипотеза – это теория, которая пытается объяснить роль дефицита моноаминовых нейротрансмиттеров в биологической этиологии депрессии. По

результатам последних исследований отмечено, что роль нейротрансмиттеров в этиологии депрессии не объясняется исключительно моноаминовой теорией, но что гипотезы, разработанные для этиологии депрессии, в настоящее время перешли на молекулярный уровень и подвергаются проверке. Эта объясняется теорией экспрессии генов. Нейропластичность также играет важную роль в нейробиологических факторах депрессии. У людей, страдающих депрессией, нарушается способность мозга формировать новые нейронные связи и изменять существующие, т.е. нейропластичность. В статье также утверждается, что одной из основных причин депрессии является дисбаланс нейромедиаторов в мозге. В то же время современные исследования показывают, что теория воспаления также важна в развитии депрессии. Согласно этой теории, воспалительные процессы вызывают изменения в определенных областях мозга и усугубляют симптомы депрессии. Структурные изменения в головном мозге, особенно в гиппокампе, миндалевидном теле и префронтальной коре, связаны с эмоциональной дисфункцией и проблемами с памятью. В конце статьи отмечается, что генетические и нейробиологические теории депрессии продолжают изучаться, и каждое из этих исследований открывает новые перспективы с точки зрения как психотерапии, так и профилактики, и важно с точки зрения представления большого потенциала для применения. индивидуальных подходов к людям с депрессией в будущем.

Ключевые слова: *Депрессия, генетические факторы, гены, нейромедиатор, нейропластичность, нейробиологические теории, теория моноаминов, теория воспаления*

Abstract. The article provides information about depression, noting that it is a widespread, chronic, and recurrent mental disorder. It states that genetic factors play a key role in the etiology of depression, as research has shown that the risk of depression is higher in monozygotic twins compared to dizygotic twins. The concordance rate of depression in monozygotic twins ranges between 45-50%, whereas in dizygotic twins, it varies between 15-20%. Additionally, the article mentions the monoamine hypothesis, which attempts to explain the role of monoamine neurotransmitter deficiency in the biological etiology of depression. However, recent research findings indicate that neurotransmitters alone cannot fully explain the etiology of depression. Hypotheses regarding the etiology of depression have now progressed to the molecular level and are being explained through the gene expression theory. Neuroplasticity also holds a significant place among the neurobiological factors of depression. In depressive individuals, the brain's ability to form new neural connections and modify existing ones – i.e., neuroplasticity – is weakened. The article also highlights that one of the main causes of depression is an imbalance in neurotransmitters in the brain. Moreover, modern research suggests that the inflammation theory is also crucial in the development of depression. According to this theory, inflammatory processes lead to changes in certain regions of the brain, exacerbating depressive symptoms. Structural changes in the brain, particularly in the hippocampus, amygdala, and prefrontal cortex, are associated with emotional dysfunction and memory problems. At the end of the article, it is emphasized that research into the genetic and neurobiological theories of depression is ongoing, and each of these studies opens new perspectives in terms of both psychotherapy and prevention. It is also underlined that these findings hold significant potential for the application of personalized approaches to depressive individuals in the future.

Key words: *Depression, genetic factors, genes, neurotransmitter, neuroplasticity, neurobiological theories, monoamine theory, inflammation theory*

Depressiya dünyada çox geniş yayılmış, xroniki və təkrarlana biləcək psixi pozuntudur. Depressiya düşüncələrə, hiss və davranışa təsir edir. Bütün yaş qruplarında rast gəlinə bilər.

Depressiya, əhval-ruhiyyə pozuntuları arasında ən çox yayılmış, ən intensiv öyrənilən, müxtəlif nəzəri yanaşmalarla izah edilən psixi xəstəliklərdən biridir. Onun yaranma səbəbləri genetik, neyrobioloji və s. faktorların qarşılıqlı təsiri ilə bağlıdır. Belə ki, depressiya etiologiyası, patogenezi, klinik təzahürləri, terapevtik müdaxilələrin gedişi, reaksiyası baxımından mürəkkəb ətraflı təhlil tələb edən psixi pozuntudur. Əsas simptomlardan – depressiv pozuntuların diaqnostikasının əsasını təşkil edən meyarlardan əlavə olaraq, depressiyanın inkişafına təsir edən genetik amillər və neyrobioloji amillər də böyük maraq doğurur. Genetik faktorlar depressiyaya meyilliliyi müəyyən edən mühüm amillərdəndir. Depressiyaya irsi meyllilik – bəzi depressiya formalarının ailədə nəsildən-nəslə ötürülməsi xəstəliyə mövcud bioloji meylliliyin irsi ola biləcəyini qəbul etmək üçün əsas verir.

Hər bir nəsildə depressiv pozuntudan əziyyət çəkən şəxsin olduğu ailələrinin araşdırılması göstərmişdir ki, xəstə və sağlam ailə üzvlərinin genetik quruluşunda fərqlər mövcuddur. Belə ki, irsi faktorların təsir dərəcəsi irsi xəstəliyin növü və

şiddətinə görə dəyişir. Tədqiqatlar göstərir ki, ailəsində depressiya olan insanlarda bu pozuntunun inkişaf riski daha yüksəkdir. Əkizlər üzərində aparılan tədqiqatlar göstərir ki, depressiyanın yaranma riskində genetik təsirlər 30-40% arasında dəyişir. Bu, xüsusilə monoziqot (eyni) əkizlərdə daha aydın müşahidə edilir; onların hər ikisində depressiyanın inkişaf etmə ehtimalı diziqot (fərqli) əkizlərə nisbətən daha yüksəkdir. (9, s. 27-42) Ailədə depressiya keçmişi olan şəxslərin övladlarında bu pozuntunun yaranma riski əhəmiyyətli dərəcədə artır.

Monoziqot əkizlər üzərində aparılan tədqiqatlar genetik faktorların depressiya kimi psixi xəstəliklərin inkişafında mühüm rol oynadığını göstərir. Bu sahədəki araşdırmaların əhəmiyyətli hissəsi, eyni genetik quruluşa malik monoziqot əkizlərin oxşar xəstəlik nümunələri göstərmə ehtimalının diziqot əkizlərdən daha yüksək olduğunu sübut etməyə yönəlmişdir.

J. Costa və E. Silva tərəfindən 1980-ci ildə aparılan tədqiqat Portuqaliyada Psixiatrik Klinika Tibbi Araşdırma Mərkəzində həyata keçirilmişdir. Tədqiqat üçün seçilən baza, həm monoziqot, həm də diziqot əkizlərin tibbi məlumatlarını toplamaq və onların genetik və ətraf mühit faktorlarını təhlil etmək üçün uyğun şərait təqdim edirdi. Belə bir mühit, psixiatrik diaqnozların dəqiq təsnifatı və əkizlər arasındakı konkordans (əkizlər üzərində aparılan tədqiqatlarda, müəyyən bir xüsusiyyətin və ya xəstəliyin genetik və ya ətraf mühit təsirlərindən qaynaqlandığını anlamaq üçün istifadə edilən statistik ölçü vahidi) dərəcələrinin müqayisəsi üçün ideal tədqiqat imkanları yaratmışdır.

Monoziqot və diziqot əkiz cütlükləri, ətraflı tibbi tarixçə, genetik analizlər və ətraf mühit təsirləri ilə bağlı sorğular vasitəsilə öyrənilmişdir. Əkizlərin depressiya diaqnozu, DSM meyarlarına əsaslanaraq, mütəxəssis psixiatrlar tərəfindən qoyulmuşdur. Tədqiqat iştirakçıları yaş, cins və sosial-iqtisadi şərait kimi dəyişənlər baxımından uyğunlaşdırılmışdır.

Tədqiqat nəticələrində monoziqot əkizlərdə depressiyanın konkordans nisbətinin diziqot əkizlərdən əhəmiyyətli dərəcədə yüksək olduğu aşkar edilmişdir. Monoziqot əkizlərdə bu göstərici təxminən 45%-50%, diziqot əkizlərdə isə 15%-20% arasında dəyişmişdir. Bu nəticələr, genetik faktorların depressiya riskinə böyük təsir göstərdiyini ortaya qoymuşdur.

Tədqiqat, genetik və ətraf mühit təsirləri arasındakı qarşılıqlı əlaqəni araşdırmaq üçün önəmli bir başlanğıc nöqtəsi olmuşdur. Bu metodologiya, sonrakı onilliklərdə genetik epidemiologiya sahəsində daha irəliləmiş tədqiqatların əsasını qoymuşdur və psixi xəstəliklərin molekulyar mexanizmlərinin öyrənilməsində istifadə edilmişdir. (9, s. 27-42)

K. Kendler və onun tədqiqat qrupu tərəfindən 1990-cı illərdə İsveçdə aparılan digər genişmiqyaslı tədqiqatların nəticələri də monoziqot əkizlərdə depressiyanın inkişafı üzrə konkordans nisbəti təxminən 50%, diziqot əkizlərdə bu göstərici 20%-dən aşağı olduğu göstərilmişdir. Bununla yanaşı, H. Sallivan və digər tədqiqatçıların 2000-ci ildə apardıqları meta-analiz irsi faktorların major depressiyanın təxminən 37%-ni təşkil etdiyini ortaya qoymuşdur. Monoziqot əkizlərdə oxşar genetik materialın olması onların xəstəlik riskindəki paralelliyi artırır, lakin tədqiqatlar göstərir ki, ətraf mühit faktorları və epigenetik dəyişikliklər gen ifadəsini modullyasiya edərək, fərqli nəticələrə səbəb ola bilər. Bu araşdırmaların nəticələri, fərdiləşdirilmiş tibbin inkişafında və psixi xəstəliklərin kompleks genetik təsirini anlamaqda mühüm rol oynayır.

Depressiyanın bioloji etiologiyası üçün müəyyən edilmiş ilk nəzəriyyələrdən biri 1950-ci illərdə depressiv insanlarda əhval-ruhiyyəni yüksəldən təsirlərin olduğunun aşkarlanması idi. Bu tədqiqata əsasən məlum oldu ki, depressiyanın yaranmasına səbəb mərkəzi sinir sistemində monoamin oksidaza fermentinin ifrazının tormozlanmasıdır.

Monoamin hipotezi depressiyanın bioloji etiologiyasında monoamin neyromediatrların çatışmazlığının rolunu izah etməyə çalışan bir nəzəriyyədir.

Depressiyanın monoamin nəzəriyyəsi depressiyanın serotonin kimi monoaminlərin səviyyəsinin azalması ilə nəticələndiyini proqnozlaşdırır. Serotonin bir neyrotransmitterdir. O, beyində bir ötürücü kimi fəaliyyət göstərir və depressiyaya uğramış şəxslərdə təsirlənən funksiyaları tənzimləməklə əlaqələndirilir.

Son tədqiqatlar göstərir ki, depressiyanın etiologiyasında neyromediatrların rolu təkcə monoamin hipotezi ilə izah edilə bilməz. Depressiyanın etiologiyası üçün hazırlanmış fərziyyələr artıq molekulyar səviyyəyə keçib və gen ifadəsi nəzəriyyəsi ilə izah olunmağa çalışılıb.

Belə ki, hal-hazırda əsas tədqiqat reseptorlara, hətta gen ifadəsini tənzimləyən molekulyar proseslərə yönəlib. Daha sonra inkişaf etdirilən monoamin reseptorlarının sayı neyromediatr çatışmazlığı, stress və ya irsi reseptor anomaliyaları səbəbindən artır və ya digər reseptor funksiyaların pozulması depressiyanın səbəbi kimi müəyyən edilir.

Gen ifadəsi nəzəriyyəsi, genetik materialın necə funksional məhsullara çevrildiyini izah edən bioloji konsepsiyadır və canlıların genetik kodunun hüceyrə fəaliyyətlərini necə tənzimlədiyini öyrənir. Gen ifadəsinin tənzimlənməsi, hüceyrənin müəyyən bir zamanda hansı genləri aktivləşdirməli və ya aktivliyini azaltmalı olduğuna qərar verməsinə imkan verir, beləliklə, inkişaf, fərqlənmə və stress reaksiyaları kimi həyati proseslər idarə olunur. Transkripsiya, translyasiya və post-translyasiya modifikasiyaları daxil olmaqla, bir neçə mərhələ bu prosesi nəzarət altında saxlayır və həm daxili (hüceyrədaxili), həm də xarici (ətraf mühit) siqnallar gen ifadəsinə təsir göstərə bilər. Əsas tədqiqatçılar, o cümlədən Fransis Krik və Ceykob Monod, gen ifadəsi tədqiqatlarına böyük töhfələr vermiş, lak operonu (genetik tənzimləmənin əsas modeli) kimi mexanizmləri aşkar edərək genetik tənzimləmənin molekulyar əsaslarını izah etmişlər. Bu nəzəriyyəyə görə, reallıqda monoamin itkisi yoxdur, molekulyar səviyyədə pozuntu var.

Neyroplastiklik də depressiyanın neyrobioloji faktorları içərisində mühüm yer tutur. Depressiv insanlarda beynin yeni sinir əlaqələri qurmaq və mövcud əlaqələri dəyişmək qabiliyyəti, yəni neyroplastiklik zəifləyir. Belə ki, depressiya zamanı neyroplastikliyin azalması müşahidə olunur, bu da sinir hüceyrələrinin adaptasiya qabiliyyətinə mənfi təsir edir. Beyin mənşəli neyrotrofik faktor (BDNF) neyroplastiklik proseslərində əsas rol oynayır və onun səviyyəsinin azalması depressiyanın inkişafında mühüm mexanizm kimi qəbul edilir.

BDNF geni həmişə diqqət mərkəzindədir. Bu gen beyin neyronlarının müxtəlifliyini təmin edir. BDNF sinir hüceyrələrinin böyüməsi, sağ qalması və neyroplastikliyi üçün mühüm əhəmiyyətə malikdir. Bu gendəki Val66Met polimorfizmi sinir əlaqələrinin zəifləməsinə, neyroplastikliyin azalmasına və nəticədə depressiyaya səbəb ola bilər. Tədqiqatlar göstərir ki, bu polimorfizmə malik olan şəxslərdə emosional reaksiya tənzimlənməsi çətinləşir. (10, s. 54-63) Belə ki, stress şəraitində BDNF geninin aktivliyi azalır, neyronların atrofiyasına və zəif neyronların apoptozuna (hüceyrənin öz-özünü məhv etməsi) səbəb olur. Bu, depressiyaya və depressiv epizodların təkrarlanmasına səbəb olur, həmçinin müalicəyə cavab olaraq müqavimət göstərir. Beləliklə, stressin yaratdığı zəiflik neyronların funksiyalarında əsas rol oynayan BDNF kimi neyrotrop amillərin gen ifadələrinin azalmasına səbəb olur. Bu nəzəriyyə depressiya zamanı hippokampal neyronların ölçüsü və funksiyaların azalması tədqiqatlar vasitəsi ilə izah edilir. Bununla yanaşı, depressiyanın bioloji mexanizmləri də genetik faktorlarla sıx bağlıdır. Məsələn, serotonin nəqlini təmin edən SERT genindəki polimorfizmlər depressiyaya meylliliyi artırır. Genetik faktorların təsiri təkcə birbaşa biokimyəvi pozuntularla məhdudlaşmır, həm də fərdin depressiyaya qarşı həssaslığını müəyyən edə bilər.

FKBP5 geni də diqqətəlayiqdir. Bu gen stress hormonlarının tənzimlənməsində mühüm rol oynayır və onun müəyyən polimorfizmləri depressiya ilə əlaqələndirilir. FKBP5 genindəki variasiyalar HHA (hipotalamus-hipofiz-adrenal) oxunun disfunksiyasına və xroniki stresin neqativ təsirlərinə qarşı həssaslığı artırır ki, bu da nəticədə depressiyanın yaranmasına gətirib çıxarır. (11, s. 21-26)

2003-cü ildə Caspi və həmkarları, 5-HTTLPR genindəki polimorfizmlə stress faktorları arasındakı qarşılıqlı təsiri tədqiq edərək, müəyyən genetik variantların stresə daha yüksək həssaslıqla əlaqəli olduğunu nümayiş etdirmişdir. Müasir Genom Miqyaslı Assosiasiya Tədqiqatları (GWAS) nəticəsində depressiya ilə əlaqəli olan yüzlərlə genetik variant müəyyən edilmişdir. Məsələn, 2018-ci ildə, Naomi Wray və onun rəhbərlik etdiyi beynəlxalq tədqiqat qrupu, 135 mindən çox insanın məlumatlarını təhlil edərək depressiya ilə əlaqəli 44 genetik bölgə müəyyən etmişdir. Tədqiqat, əsasən, Avstraliya Queensland Beynəlxalq Bioinformatika İnstitutunda (QIMR Berghofer Medical Research Institute) həyata keçirilmişdir. Eyni zamanda, tədqiqatlar göstərir ki, bu genetik faktorlar ətraf mühit təsirləri ilə birgə fəaliyyət göstərir və epigenetik dəyişikliklər gen ifadəsində mühüm rol oynayır. Genom Miqyaslı Assosiasiya Tədqiqatları (GWAS) depressiya ilə əlaqəli olan yeni ge-

netik markerləri müəyyən etmişdir. Bu markerlər arasında neyroplastiklik, stress reaksiyası və iltihab proseslərində iştirak edən genlər də yer alır. Bu tədqiqatlar depressiyanın kompleks genetik əsaslarını daha yaxşı anlamağa kömək edir.

Mitoxondrial DNT-də baş verən dəyişikliklər də depressiyanın inkişafında rol oynaya bilər. Belə ki, mitoxondrial disfunksiya və enerji mübadiləsinin pozulması depressiyanın mümkün bioloji mexanizmləri arasında yer alır. Beyin yüksək enerji tələb edən bir orqandır. Mitoxondrial genetik pozuntular enerji mübadiləsini pozur ki, bu da sinir hüceyrələrinin fəaliyyəti üçün zəruri olan enerjinin çatışmazlığına gətirib çıxararaq, sinir hüceyrələrinin funksiyasını zəiflədir və nəticədə depressiv simptomların yaranmasına səbəb olur. (13, s. 386-389)

1960-cı illərdə "katexolamin hipotezi" insanların depressiyaya düşmələrinin səbəbinin məşhur izahı idi. Bu hipotezə görə, beyinin müəyyən sahələrində neyrotransmitter norepinefrinin (noradrenalin kimi də tanınır) çatışmazlığı depressiyalı əhval-ruhiyyənin yaranmasına səbəb olur. Belə ki, depressiyanın əsas səbəblərindən biri də beyində neyrotransmitterlərin balansının pozulmasıdır. Xüsusilə serotonin, dopamin və norepinefrin kimi kimyəvi maddələrin qeyri-adekvat səviyyədə olması emosional tənzimləmə sistemində disfunksiyaya səbəb olur. Eyni zamanda, hipotalamus-hipofiz-adrenal (HHA) oxunun həddindən artıq aktivliyi xroniki stresə və nəticədə depressiv simptomlara gətirib çıxara bilər. Əsasən serotonin, dopamin və norepinefrin kimi neyrotransmitterlərin qeyri-adekvat səviyyələri emosional vəziyyətin tənzimlənməsində çətinliklər yaradır. Bu neyrotransmitterlər beyində emosiyaların idarə olunması, motivasiya və zövq hissi kimi funksiyalarda mühüm rol oynayır. Məsələn, serotoninin azalması əhval-ruhiyyənin aşağı düşməsi, narahatlıq və yuxu pozuntuları ilə əlaqələndirilir. (13, s. 386-389)

Dopaminin qeyri-kafi səviyyələri isə zövq alma hissinin itirilməsi (anhedoniya) və motivasiya çatışmazlığı kimi simptomlara səbəb olur. Norepinefrinin çatışmazlığı diqqət və konsentrasiya problemlərinə, eləcə də enerjinin azalmasına gətirib çıxarır. Bu üç neyrotransmitter arasında balansın pozulması depressiyanın fərqli simptomlarını izah etməyə kömək edir.

Beyindəki neyrotransmitter balansının pozulmasına genetik faktorlar və s. amillər təsir edə bilər. Həmçinin, HHA oxunun həddindən artıq aktivliyi depressiyanın inkişafında mühüm rol oynayır.

Depressiya zamanı beyində müəyyən struktur və funksional dəyişikliklər müşahidə olunur. Helen Mayberqin 2005-ci ildə keçirilmiş "The Anatomy of Depression: Brain Imaging Findings" adlı tədqiqatı depressiyanın beyində yaratdığı dəyişiklikləri izah edən əhəmiyyətli bir tədqiqat işidir. Bu tədqiqatın məqsədi, funksional maqnit rezonans görüntüləmə (fMRI) texnologiyasından istifadə edərək depressiya ilə əlaqəli beyin strukturlarında və fəaliyyətində baş verən dəyişiklikləri başa düşmək idi.

Əsas təsirlənən sahələr arasında hipokampus, prefrontal korteks və amiqdala yer alır. Tədqiqatlar göstərir ki, depressiyadan əziyyət çəkən insanlarda bu bölgələrin fəaliyyətində dəyişikliklər gedir. Bu dəyişikliklər depressiyanın əsas simptomları, məsələn, emosional disfunksiya, yaddaş problemləri və qərar qəbuletmə çətinlikləri ilə əlaqələndirilir. Məsələn, prefrontal korteks və hipokampus kimi sahələrdə həcmin azalması və fəaliyyət fərqlilikləri qeyd olunur. Hipokampusun kiçilməsi xüsusilə uzunmüddətli depressiya epizodlarında aşkar edilmişdir. Uzunmüddətli depressiya zamanı hipokampusda neyroplastikliyin azalması və həcm itkisi müşahidə edilir. Hipokampusdakı dəyişikliklər depressiya ilə əlaqəli yaddaş problemlərini və neqativ düşüncələrə həssaslığı izah edə bilər. Prefrontal korteks isə qərar qəbuletmə, diqqət və özünütənzimləmə proseslərinə cavabdehdir. Depressiya zamanı prefrontal korteksin həcmi və funksiyası azalır. Bu bölgədəki fəaliyyətin zəifləməsi neqativ emosiyaların idarə olunmasında çətinliklər yaradır və depressiv düşüncə tərzinin möhkəmlənməsinə səbəb olur. Sol prefrontal korteksdəki fəaliyyətin azalması adətən ümidin itməsinə və enerjinin aşağı səviyyəsinə, sağ prefrontal korteksdəki həddindən artıq aktivlik isə narahatlıq və neqativ həssaslığa gətirib çıxarır. Amiqdala emosional təcrübələrin emalında və onların yaddaşa inteqrasiyasında mühüm rol oynayır. (4, s. 145-148) Depressiya zamanı amiqdalanın fəaliyyəti artır və bu, neqativ emosiyaların daha intensiv hiss olunmasına gətirib çıxarır. Amiqdalanın həddindən artıq aktivliyi depressiv şəxslərdə kiçik streslərə qarşı belə güclü emosional reaksiya ilə nəticələnə bilər. Həmçinin amiqdalanın çox aktiv olması

emosional həssaslığın artmasına və neqativ təcrübələrin daha dərin yadda qalmasına səbəb olur ki, bu da nəticədə depressiyanın yaranmasına təkan verir. Depressiv insanlarda amiqdalanın hiperaktivliyi, emosional reaksiyaların güclənməsinə və mənfi hisslərin daha da artmasına yol açır.

Tədqiqatlar göstərir ki, depressiya ilə əlaqəli struktur dəyişikliklər beyindəki neyrotrofik faktorların, xüsusilə BDNF-in səviyyəsinin azalması ilə əlaqədardır. BDNF-in səviyyəsinin azalması sinir hüceyrələrinin öz funksiyalarını yerinə yetirməsini və yeni neyron əlaqələrinin yaranmasını çətinləşdirir.

Eric Kandel, neyroplastiklik sahəsində işləri ilə tanınır və depressiya zamanı sinaptik əlaqələrin azalmasını öyrənmişdir. Robert Sapolsky isə kortizolun (stres hormonu) beyinə təsirini və depressiyada onun rolunu dərindən tədqiq etmişdir. Onun əsərləri, kortizolun hipokampusa təsirini başa düşmək üçün əhəmiyyətlidir və bu, depressiyanın neyrobioloji əsaslarını anlamağa kömək edir.

Beyin görüntüləmə və funksional araşdırmalar sahəsindəki tədqiqatlar da depressiyanın beynin strukturlarına təsirini öyrənməkdə əhəmiyyətli bir yer tutur. National Institute of Mental Health (NIMH) depressiyanın beynin strukturlarına təsirini öyrənmək üçün ABŞ-da böyük miqyaslı tədqiqatlar həyata keçirir. Allen Brain Institute isə beyin xəritələşdirilməsi layihələri ilə depressiyanın beyində yaratdığı struktur dəyişiklikləri təsdiqləyir. American Psychiatric Association (APA) və World Federation of Societies of Biological Psychiatry (WFSBP) depressiyanın bioloji əsasları haqqında qlobal tədqiqatları dəstəkləyir və məlumatları geniş ictimaiyyətlə paylaşır.

Neyroinflammasiya və iltihab araşdırmaları da depressiyanın inkişafında əhəmiyyətli rol oynayır. Carmine Pariante, King's College London-da iltihabın depressiyaya təsiri barədə çoxsaylı işlər aparmışdır. Onun araşdırmaları göstərir ki, yüksək səviyyəli sitokinlər beyində struktur və funksional dəyişikliklərə səbəb ola bilər. Charles Raison isə depressiya ilə iltihab arasındakı əlaqələri araşdırmış və bu mexanizmlərin hipokampusun həcminə təsirini göstərmişdir. Sitokinlər kimi iltihab markerlərinin səviyyəsinin yüksəlməsi beyində neyroinflammasiya proseslərinə təkan verə bilər, bu da depressiv simptomlarla nəticələnə bilər. Belə ki, iltihab da depressiyanın inkişafında təsirli ola bilər. Son araşdırmalar göstərir ki, sitokinlər kimi iltihab mediatorlarının səviyyəsi artarsa, beyində neyroinflammasiya prosesləri başlaya bilər. Bu proseslər neyrotransmitterlərin istehsalına və funksiyasına zərər verir. İltihab həm də serotoninin sintezini azalda və onun funksiyasını pozaraq depressiv simptomları gücləndirə bilər.

Depressiyanın iltihab nəzəriyyəsi son vaxtlar daha çox diqqət mərkəzinə çevrilmişdir və bu yanaşma onun neyrobioloji mexanizmlərini başa düşməkdə yeni perspektivlər təqdim edir. Tədqiqatlar göstərir ki, depressiyalı fərdlərdə sitokinlər kimi iltihab markerlərinin səviyyəsi normadan daha yüksəkdir. Xüsusilə interleykin-6 (IL-6), tumoru nekrozu faktoru-alfa (TNF-α) və C-reaktiv zülalın (CRP) səviyyələrinin artması depressiv simptomlarla əlaqələndirilmişdir. Carmine Pariante və Andrew Miller tərəfindən 2001-ci ildə aparılmış araşdırmalarda depressiyalı şəxslərdə bu iltihab markerlərinin səviyyəsinin artdığı aşkar edilmişdir. Onların fikrincə, infeksiyalar beyində neyroinflammasiya proseslərini təkan verərək depressiv simptomlara səbəb olur. (12, s. 35-50)

Neyroinflammasiya hipokampus, amiqdala və prefrontal korteks kimi əsas beyin bölgələrinə təsir edir. Tədqiqatlar göstərir ki, bu iltihab prosesləri neyrotransmitterlərin balansını pozur, xüsusilə də serotonin sintezində və onun reseptorlarında disfunksiya yaradır.

İltihab nəzəriyyəsi həmçinin genetik faktorlarla da əlaqələndirilmişdir. Sitokinlərdə polimorfizmlərin depressiyaya həssaslığı artırdığı tədqiqatlarla sübut edilmişdir. Smith və əməkdaşları tərəfindən aparılmış genetik tədqiqatlar göstərmişdir ki, interleykin-1 beta (IL-1β) və TNF-α genlərindəki müəyyən variasiyalar depressiv simptomların daha yüksək səviyyədə müşahidə olunması ilə əlaqəlidir.

İltihab nəzəriyyəsi həmçinin beynin struktur dəyişiklikləri ilə də izah olunur. Tədqiqatlar göstərmişdir ki, yüksək iltihab səviyyələri hipokampus və prefrontal korteks kimi bölgələrdə neyronların kiçilməsi ilə əlaqədardır. Claudia Zunszain və Carmine Pariante tərəfindən aparılmış bir tədqiqatda, bu struktur dəyişikliklərinin iltihab mediatorlarının təsiri altında meydana gəldiyi təsdiqlənmişdir. Onların araşdırması iltihabın beynin spesifik bölgələrinə təsir edərək funksional və struktur dəyişikliklərə səbəb ola

biləcəyini elmi şəkildə ortaya qoymuşdur. Bu tədqiqat King's College London universitetinin Psixiatriya, Psixologiya və Neyrologiya bölməsində aparılmışdır. (12, s. 35-50)

Beləliklə, depressiyanın genetik və neyrobioloji nəzəriyyələri tədqiq olunmağa davam edir və bu tədqiqatların hər biri həm psixoterapiya, həm də profilaktika baxımından yeni perspektivlər açaraq gələcəkdə fərdiləşdirilmiş yanaşmaların tətbiqi üçün böyük potensial təqdim edir. Bir depressiv insanda neyrotransmitter pozuntuları əsas amil ola biləcəyi halda, digərində iltihab və ya genetik faktorlar daha böyük rol oynaya bilər. Neyroplastiklik mexanizmlərinin başa düşülməsi də depressiyanın daha effektiv və kompleks psixoterapiya strategiyalarının hazırlanmasına yol açır.

Problemin aktuallığı. Depressiyanın dünyada ən geniş yayılmış psixi pozuntulardan biri olduğunu nəzərə alsaq, depressiyanın yaranmasına təsir edən başqa faktorlarla bərabər genetik və neyrobioloji əsaslarının öyrənilməsi müasir dövr üçün vacib olan məsələlərdən biridir. Bu baxımdan genetik və neyrobioloji faktorların depressiyanın yaranmasında rolu olduğu üçün mövzu ilə bağlı bu istiqamətdə tədqiqatların araşdırılması böyük əhəmiyyət kəsb edir. Depressiyanın genetik və neyrobioloji nəzəriyyələri ilə bağlı tədqiqatların təhlili depressiyanın profilaktikası və müalicəsi baxımından çox vacibdir ki, bu da problemin nə qədər aktual olduğunun əyani sübutudur.

Problemin elmi yeniliyi. Depressiyanın genetik və neyrobioloji əsaslarının araşdırılması onun daha erkən diaqnostikasında və müalicəsində fərdi yanaşmaların inkişafına kömək edərək gen ifadəsi, neyroplastiklik və s. kimi müasir konsepsiyalar əsasında yeni yanaşmalar təqdim edir. Məqalədə depressiv vəziyyətin yaranmasında BDNF və digər genlərinin rolu, epigenetik dəyişikliklərin, mitoxondrial disfunksiyanın təsiri və s. kimi məsələlər ətraflı təhlil edilərək yeni elmi nəticələr ümumiləşdirir.

Problemin praktik əhəmiyyəti. Məqalədən depressiyanın profilaktikası və müalicəsində – o cümlədən psixiatr və klinik psixoloqlar, depressiya ilə bağlı elmi-tədqiqat işi aparan mütəxəssislər və magistrantlar, həmçinin mövzu ilə maraqlananlar istifadə edə bilərlər. Məqalədə öz əksini tapan genetik və neyrobioloji nəzəriyyələrə əsaslanaraq, uyğun terapiya metodlarından istifadə etmək müalicənin səmərəliliyini artıra bilər. Həmçinin, bu nəzəriyyələrdən irəli gələn markerlər əsasında risk qruplarının müəyyən edilməsi depressiyanın qarşısının alınmasına töhfə verə bilər.

Ədəbiyyat:

1. İsmayılov, N. V. Psixiatriya: Dərs vəsaiti / N.V. İsmayılov. – Bakı: Apostroff, – 2013. – 528 s.
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Klinik Psixologiya üzrə Tibbi Protokol. / Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. – Bakı: İctimai Səhiyyə və İslahatlar Mərkəzi, – 2021. – 62 s.
3. World Health Organization. Depression. / World Health Organization. – [online] https://www.who.int/news-room/fact-sheets/detail/depression
4. Kahveci, T., & Demirtaş, T. Depresyon ve Beyin Yapısal Değişiklikleri: BDNF ve Nörotrofik Faktörlerin Rolü. / T. Kahveci, T. Demirtaş. – Psikiyatri Dergisi, – 2018. – 49(2), s - 145-158.
5. Yılmaz, T. Depresyonun nörobiyolojisi ve genetik temel / T. Yılmaz. – İstanbul: Tıp Akademisi, – 2019. – 210 s.
6. Kaya, H. Depresyon ve çevresel-genetik etkileşimler. / H. Kaya. – Ankara: Sağlık Yayınları, – 2021. 180 s.
7. Смирнов, А. В. Современные подходы к изучению нейробиологии депрессивных расстройств / А.В. Смирнов. – Москва: Психиатрия, – 2020. s – 99-112.
8. Гуляев, В. И. Психопатология депрессии: нейробиологические и генетические аспекты / В.И. Гуляев. – Москва: Медицина, – 2017. s – 134-145.
9. Costa, J., & Silva, E. Twin study on depression: Concordance rates in monozygotic and dizygotic twins / J. Costa, E. Silva. – Portuqaliya Psixiatrik Klinika və Tibbi Araşdırma Mərkəzi, – 1980. – 50 s.
10. Lodish, H., Molecular Cell Biology. / H. Lodish [və b.]. – 2016. – 1166 s.
11. Wallace, D. C. Mitochondria and the Pathophysiology of Neuropsychiatric Disorders. / D. C. Wallace. – American Journal of Medical Genetics Part C: Seminars in Medical Genetics, – 2005. s – 21-26.
12. Slavich, G. M. Psychoneuroimmunology of Stress and Mental Health. / G. M. Slavich. – In K. Harkness & E. P. Hayden (Eds.), The Oxford Handbook of Stress and Mental Health. – Oxford University Press, – 2019. s – 35-50.
13. Caspi, A. Influence of Life Stress on Depression: Moderation by a Polymorphism in the 5-HTT Gene. / [və b.]. – Science, – 2003. – s – 386-389.
14. Lesch, K. P. Association of Anxiety-Related Traits with a Polymorphism in the Serotonin Transporter Gene Regulatory Region. / K. P. Lesch, [və b.] – Science, – 1996. – s - 1527-1531.

Redaksiyaya daxil olub: 04.02.2025

UOT 159.9

Nigar Ruslan qızı Nəsirova
Bakı Dövlət Universitetinin Psixologiya kafedrasının müəllimi,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-6839-3734
e-mail: nigar_nasirova86@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).233-237

TƏLƏBƏ QRUPLARINDA QEYDƏ ALINAN ŞƏXSİYYƏT POZUNTULARININ TƏHLİLİ VƏ PSİXOLOJİ YARDIM MEXANİZMİ

Нигяр Руслан гызы Насирова
преподаватель кафедры Психологии Бакинского Государственного Университета,
доктор философии по психологии

АНАЛИЗ РАССТРОЙСТВ ЛИЧНОСТИ, ЗАРЕГИСТРИРОВАННЫХ В СТУДЕНЧЕСКИХ ГРУППАХ, И МЕХАНИЗМ ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ

Nigar Ruslan Nasirova
doctor of philosophy in psychology,
lecturer of department of Psychology,
at Baku State University,

PSYCHOLOGICAL SUPPORT AND ANALYSIS OF PERSONALITY DISORDERS IN STUDENT GROUPS

Xülasə. Ali məktəb tələbələrinin sayı, cəmiyyətdəki mövqeyi artan iqtisadi və sosial münasibətlər sferasında xüsusi bir yerə sahibdir. Onların fizioloji, sosioloji və psixoloji problemlərinin tədqiqi, öyrənilməsi və vaxtında profilaktik tədbirlərin tətbiqi gələcəkdə daha effektiv nəticələrə gətirib çıxara bilər. Məhz bu səbəblə qeyd edilən problem tədqiqat mövzusu olaraq seçilmişdir. Tədqiqat dünyanın müxtəlif ölkələrində təhsil alan tələbələrin psixoloji sağlamlığında qeydə alınan problemlərə dair nəşr edilmiş elmi məqalələrin təhlilinə əsaslanır. İlk növbədə qeyd edilən meyar üzrə məqalələrin araşdırılması aparılmış və təhlil edilmişdir. Toplanmış məqalələrdə gənc tələbə kollektivlərində müxtəlif davranış pozuntuları, asılılıq yaradan maddələrdən istifadə halları, emosional sfera pozuntuları, xüsusilə depressiya və təşviş əlamətləri, eləcə də intihar riskinin qeydə alındığına rast gəlinmişdir. Müəlliflər problemlərin təhlili və profilaktikası məqsədilə müxtəlif yanaşmalarla çıxış etmiş və tövsiyələr vermişlər.

Məqalə elmi materialların, statistik əhəmiyyətli göstəricilərin araşdırılmasına əsaslanır və bu sahədə tədqiqat aparan şəxslər, pedaqoji heyət və müəllimlər üçün əhəmiyyət kəsb edə bilər.

Açar sözlər: *tələbə qrupları, şəxsiyyət faktoru, psixoloji sağlamlıq, psixoloji pozuntu, emosional sfera pozuntuları*

Аннотация. Численность студентов высших учебных заведений и их повышенное положение в обществе занимают особое место в сфере экономических и социальных отношений. Исследование и изучение их физиологических, социологических и психологических проблем, а также своевременное применение профилактических мер может привести к более эффективным результатам в будущем. По этой причине указанная проблема была выбрана в качестве предмета исследования. Статья базируется на анализе научных статей, опубликованных по проблемам, зафиксированным о психологическом здоровье студентов, обучающихся в разных странах мира. В первую очередь статьи были рассмотрены и проанализированы по указанным критериям. В собранных статьях было установлено, что в студенческих группах молодежи регистрировались различные поведенческие

расстройства, случаи употребления наркотических веществ, эмоциональные расстройства, особенно симптомы депрессии и тревожности, а также риск суицида. Авторы предложили различные подходы и дали рекомендации по анализу и профилактике проблем.

Статья основана на изучении научных материалов, статистически значимых показателей и может иметь значение для лиц, проводящих исследования в этой области, педагогических кадров и учителей.

Ключевые слова: *студенческие группы, фактор личности, психологическое здоровье, психологическое расстройство, расстройства эмоциональной сферы*

Abstract. The number of university students, their position in society is increasing, they have a special place in the sphere of economic and social relations. The study, study of their physiological, sociological and psychological problems and the timely application of preventive measures can lead to more effective results in the future. For this reason, the mentioned problem was chosen as the subject of research. The study is based on the analysis of scientific articles published on the problems recorded in the psychological health of students studying in different countries of the world. First of all, the articles were examined and analyzed according to the mentioned criteria. In the collected articles, it was found that various behavioral disorders, cases of use of addictive substances, emotional disorders, especially symptoms of depression and anxiety, as well as the risk of suicide were recorded in young student groups. The authors came up with various approaches and gave recommendations for the analysis and prevention of problems.

The article is based on the study of scientific materials, statistically significant indicators and may be of importance for those conducting research in this field, pedagogical staff and teachers.

Keywords: *student groups, personality factor, psychological health, psychological disorder, emotional disorders*

Giriş. Universitet tələbələri arasında psixi xəstəlik təhsil müəssisələri üçün aktual problem yaradır, sonrakı periodlarda destruktiv halların qarşısının alınmasına diqqət yetirməklə psixi sağlamlığı gücləndirən profilaktik strategiyalara ehtiyac vardır. Tədqiqatlarda ali təhsil müəssisələri tələbələri arasında psixi xəstəliklərin profillərini ayırd etmək və bir sıra əlaqədar amilləri fərqləndirmək məqsəd olaraq müəyyən edilmişdir.

Müəlliflərin fikrincə, orta məktəbdən sonra ali və ya texniki/peşəkar təhsilə daxil olan gənclər arasında psixi sağlamlıq problemlərinin yayılması təhsil müəssisələri və ümumilikdə cəmiyyət üçün kritik məsələdir (1, s.168), xüsusən də qeyd etmək lazımdır ki, əksər hallarda psixi sağlamlıq pozğunluqları bu dövrdə özünü göstərir (2, s.591). Hal-hazırda, təhsil müəssisələrində mövcud olan stressorlar və universitet tələbələrinin zehni və sosial rifahını dəstəkləmək üçün həyata keçirilə biləcək strategiyalar haqqında məlumat çatışmazlığı var (3, s.674). Digər müəlliflərin qeyd etdiyi kimi, bir sıra inkişaf etməkdə olan ölkələrdə sosial-mədəni, iqtisadi və təhsil amillərinin ali təhsilə daxil olan tələbələrə təsiri ilə bağlı məhdud tədqiqatlar aparılmışdır (4, s.1226).

Tələbələrə təsir edən ən çox bildirilən psixi sağlamlıq problemləri maddə asılılığı, narahatlıq və emosional əhval-ruhiyyə pozuntularıdır. Qadınlar, müxtəlif dini inancları olan şəxslər və LGBT icmasının üzvləri bu şərtlərə qarşı xüsusilə həssasdırlar (5, s.623). Müxtəlif ölkələrdə bu pozuntuların yayılması əhəmiyyətli dərəcədə dəyişir. Məsələn, Kanada təhsil müəssisəsi tələbələrinin təxminən 30%-i təşviş pozuntusundan əziyyət çəkdiyini bildirmişdir (6, s. 482), halbuki Amerika institutlarından, o cümlədən texniki təlim və ali təhsildən olan tələbələrin yalnız 10%-i belə problemlərlə üzləşdiyini bildirmişdir (7, s.110). Bundan əlavə, dünya üzrə texniki və ali təhsil təklif edən 19 təhsil müəssisəsində aparılan bir araşdırma, tələbələrin 16,4%-də təşviş pozuntusunun üstünlük təşkil etdiyini faktını ortaya qoymuşdu (5, s. 623).

Braziliyalı universitet tələbələri arasında təşviş pozuntusunun yayılması 37,7% idi (8, s.148). Bu, digər yuxarı-orta gəlirli ölkələrdən olan həmyaşıdlar arasında müşahidə olunan 29,8%-dən və aşağı-orta gəlirli ölkələrdə müşahidə olunan 54,2%-dən yüksəkdir. Nəticədə Braziliya kəskin psixi sağlamlıq problemləri ilə üzləşdiyi müəlliflər tərəfindən izlənilmişdir.

Braziliyalı tələbələr arasında depressiyanın 28,5% yayılması var ki, bu da yuxarı-orta gəlirli ölkələr üçün 30,8% və aşağı-orta gəlirli ölkələr üçün 42,5% qlobal orta göstəricidən bir qədər aşağıdır. Bu daha geniş tədqiqata Latın Amerikasından yalnız bir araşdırma daxil edilmişdir, daha çox regional tədqiqatlara ehtiyac olduğunu göstərir (7, s.115).

Bu problemin xüsusilə narahatedici tərəfi gənclər arasında intihar düşüncələrinin və intihara cəhdləri ilə bağlıdır. Dünyada hər il təxminən 703.000 intihar hadisəsi qeydə alınır. Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, intihar 15-29 yaş arası insanlar arasında dördüncü əsas ölüm səbəbidir (1, s.168-169). Son iyirmi il ərzində ölkələr arasında bəzi nəzərə çarpan dəyişikliklərə baxmayaraq Amerika qitəsində intihar nisbətləri ardıcıl olaraq artmışdır, 2019-cu ildə 97,000-dən çox intihar izlənilmişdir (9, s.535).

Kanadada hər dörd universitet tələbəsindən biri intihar etməyi düşünür, 6%-i isə intihara cəhd edib (10, s.24). ABŞ-a gəlincə, intihar düşüncələri və cəhdləri müvafiq olaraq 24,3% və 9,3% səviyyəsində bildirildi (10, s. 26). Braziliyada son on ildə yeniyetmələr və gənclər arasında intihar nisbətləri əhəmiyyətli dərəcədə artmışdır. Xüsusilə, 20-29 yaş qrupu üçün bu, dördüncü ən çox yayılmış ölüm səbəbi olmuşdur. Demenech və həmkarları universitet tələbələrinin 9% intihar davranışının ümumi yayılmasının olduğunu aşkar etmişdi (8, s.150). Başqa bir araşdırmanın nəticələri göstərir ki, müxtəlif ölkələrdə, universitet tələbələri arasında intihar düşüncələrinin illik nisbəti və ömür boyu intihara cəhd nisbəti müvafiq olaraq 14,1% və 3,1% təşkil etmişdir (11, s. 30). Bu faktlar tələbələr arasında bu narahatedici nisbətləri aradan qaldırmaq üçün profilaktik və dəstəkləyici tədbirlər də daxil olmaqla, məqsədyönlü psixi sağlamlıq təşəbbüslərinə təcili ehtiyac olduğunu göstərir.

Bir çox ölkələrdən bu problemlə bağlı aparılan tədqiqatların azlığını və nəticədə bu tədqiqatın regionların təmsil olunmamasını nəzərə alsaq, ali təhsil kontekstində psixi pozğunluqlar haqqında biliklərimizi dərinləşdirməli olduğumuz aydındır. Sosial-iqtisadi bərabərsizlik, psixi sağlamlıqla bağlı stiqma və psixoloji dəstək xidmətlərinə məhdud çıxış kimi universitet tələbələrinin psixi sağlamlığına təsir edə biləcək kritik amilləri gizlədə bilən bir boşluğun olduğu aydındır (12, s. 30). Bu, xüsusilə etnik və irqi azlıqlar, LGBT icmasının üzvləri və iqtisadi cəhətdən əlverişsiz vəziyyətdə olanlar arasında bu pozuntuların yayılması və tanınmasına gəldikdə aktualdır. Ali təhsildə psixi pozğunluqların öyrənilməsi, yanaşmalar və müdaxilələr tələbələrin yerli ehtiyaclar ilə daha sıx uyğunlaşdırılan, eyni zamanda daha geniş və daha çox təmsil olunan qlobal perspektiv əldə edən şəkildə hazırlana bilməsi mütləqdir. Daha əhatəli həlləri formalaşdırmaq üçün müxtəlif sosial-iqtisadi və mədəni reallıqları nəzərə almaq lazımdır. Bununla əlaqədar olaraq, bu tədqiqat aşağıdakı suala cavab verməк məqsədi daşıyırdı: Ali və texniki təhsilə daxil olan tələbələrin psixi sağlamlıq vəziyyəti necədir və bununla əlaqəli amillər hansılardır?

Xəstəliyin profilini xarakterizə etmək üçün şəxsə əsaslanan yanaşmanın istifadəsi əhəmiyyətli klinik əhəmiyyətə malik ola biləcək daha möhkəm təsnifatla nəticələnə bilər.

Əhval-ruhiyyə, narahatlıq və maddə istifadəsi pozğunluqları əsasən yeniyetməlik və erkən yetkinlik dövründə ortaya çıxır (13, s.165). Universitet tələbələri arasında yaşa bağlı keçidlərin çətinlikləri sosial, akademik və peşə stressorları ilə daha da ağırlaşır. Amerika Kolleci Sağlamlıq Assosiasiyası 2015-ci il sorğusu göstərdi ki, hər üç kollec tələbəsindən biri "özünü o qədər depressiyada hiss edir ki, işləmək çətinləşir" və hər 10 nəfərdən biri son 12 ayda "intihara cəhd etməyi ciddi şəkildə düşündüklərini" bildirib Həyəcan vericidir ki, bir universitetdə skrininq layihəsinin nəticələri orta dərəcədə ağır və ya ağır depressiyaya uğramış tələbələrin yalnız 14,5%-nin psixi sağlamlıq müalicəsi aldığını müəyyən edilmişdir (14, s. 830).

Amerika İntiharın Qarşısının Alınması Fondu (AFSP) risk altında olan tələbələrin psixi sağlamlıq xidmətinə cəlb edilməsində ali təhsil müəssisələrini dəstəkləmək üçün İnteraktiv Skrininq Proqramını (İSP) hazırlayıb. Hər bir məktəbin məsləhət mərkəzi tərəfindən həyata keçirilən İnteraktiv Skrininq Proqramını, tamamilə onlayn rejimdə yoxlanış, fərdiləşdirilmiş rəy və növbəti addımlar üçün tövsiyələr təqdim edir. Proqram stiqma və məxfi şəkildə - xidmətlərə daxil olmaq üçün ümumi maneələrdən narahat olan tələbələrə məlumat və dəstək əldə etmək üçün anonim bir yol təklif edir (10, s.30).

Klaster analizi ilə əlaqəli latent sinif təhlili çoxvariantlı kateqoriyalı məlumatlarda oxşar halların qruplarını aşkar etmək üçün istifadə edilə bilər. İntihar riski ədəbiyyatında, latent amillər müxtəlif etnik və irqi mənşəli yeniyetmələr arasında intihar düşüncələri üçün təhrikediciləri müəyyən etmək üçün istifadə edilmişdir, intihar davranışını proqnozlaşdırmaq, intihar edənlər arasında intihar üçün məlum risk faktorlarının nümunələrini tanımaq, intihar dü-

şüncələri və ya davranışları ilə daha güclü əlaqəli ola biləcək psixiatrik pozğunluq alt tiplərini müəyyən etmək və intihar risk faktorları arasında qarşılıqlı əlaqəni araşdırmaq (15, s. 212).

İnteraktiv Skrininq Proqramı vasitəsilə toplanmış məlumatlardan istifadə edərək risk altında olan tələbələrin alt qruplarını müəyyən etmək üçün latent qiymətləndirmə də istifadə edilmişdir. İntihar davranışı mürəkkəb və heterojen olduğundan, bir çox alt növləri qeydə alındığından risk faktorları da alt tiplər arasında fərqlənə bilər. Bu nümunədə fərqli risk qruplarının məlumat əsasında müəyyən edilməsi bu arqumenti daha da gücləndirəcək. Bu qrupların xarakteristikası intihar davranışı alt tipləri və onların müvafiq etiologiyaları haqqında daha dərindən başa düşülməyə təkan verə bilər (16, s. 935)

Alkoqol istifadəsi, depressiya və intihar dünyanın bir sıra ölkələrində əsas ictimai sağlamlıq problemləridir və kollec və ali təhsil müəssisələrində oxuyan gənclər bu məqamda xüsusi risk altında ola bilər. Qeyd etmək lazımdır ki, ABŞ-ın kollec şəhərciklərində çoxlu içki qəbulu narahatlıq doğurmağa davam edir və kollec tələbələri zərərli alkoqol istehlakı üçün risk altında olan qrup kimi müəyyən edilmişdir (17, s. 664). Universitet tələbələri də psixiatrik pozğunluqlar riski altındadır, tələbələrin təxminən 17%-i depressiya əlamətlərini bildirir və 9%-i ağır depressiya meyarlarına cavab verir (17, s. 667). Müvafiq olaraq, bu populyasiyada intihar riskini artıran amillərin müəyyən edilməsinə böyük maraq göstərilmişdir.

Alkoqol istifadəsi davamlı olaraq kollec tələbələri arasında həm depressiya, həm də intihar riski ilə əlaqələndirilir. Depressiya və intihar davranışları üçün risk faktoru kimi alkoqoldan istifadəyə diqqət, ötən il yüksək içki qəbulu (75,5%) və alkoqol istifadəsi pozğunluqları (38,1%) fərqləndirilmişdir (18, s.2 70). Üstəlik, tədqiqat ardıcıl olaraq depressiv simptomların intihar düşüncələri və cəhdlərinin tez-tez xəbərçisi olduğunu göstərdi (18, s. 276-277). Məsələn, kollec tələbələrinin milli miqyasda təmsil olunan nümunəsindən əldə edilən nəticələr intiharı ciddi şəkildə düşünən şəxslərin əksəriyyətinin (94,9%) əvvəlki 12 ay ərzində ən azı bir dəfə ağır depressiv simptomlar yaşadıqlarını bildirdiyini sənədləşdirmişdi (18, s. 276).

Depressiyanın intihara meylliliyin müəyyən edilmiş risk faktoru olduğunu və alkoqoldan istifadənin bu dəyişənlərin hər ikisinə töhfə verdiyini nəzərə alsaq, alkoqoldan istifadə edən və depressiv simptomlar yaşayan şəxslər arasında intihar riskinin artmasına səbəb ola biləcək potensial əsas mexanizmləri araşdırmaq vacibdir.

İmpulsivlik bu sağlamlıq riski davranışlarının müəyyən edilməsində və qiymətləndirilməsində nəzərə alınmalı olan amillərdən biridir. İmpulsivlik geniş şəkildə bu reaksiyaların mənfi nəticələrini nəzərə almadan daxili və ya xarici stimullara sürətli, planlaşdırılmamış reaksiyalara meyl kimi müəyyən edilə bilər. Bununla belə, cari ədəbiyyatda tez-tez ortaya çıxan problemlərdən biri impulsivliyin necə təyin olunduğu ilə bağlı uyğunsuzluqdur. Bu qeyri-müəyyənliyi həll etmək üçün qıcıqlandırıcıların qruplaşdırılmasını təklif etmişdilər, bu amillər fərqli cəhətləri ehtiva edir: təcililik, (əskikliyi) əvvəlcədən düşünmə, (əzmsizlik) və sensasiya axtarışı. Təcililik, güclü emosiyalar yaşadıqda tələsik qərarlar qəbul etmək meylinə aiddir; qabaqcadan düşünmənin olmaması fərdin potensial nəticələri nəzərə almadan hərəkət etmək meyli ilə müəyyən edilir; əzmkarlığın olmaması bir işi başa çatdırmaqda çətinlikləri ifadə edir; və sensasiya axtarışı maraqlı və yeni fəaliyyətlərlə məşğul olmaq meylini göstərir. Bu amil strukturu İmpulsiv Davranış Şkalasının (UPPS) hazırlanmasına gətirib çıxardı ki, bu, dörd ayrı aspekti qiymətləndirmək üçün nəzərdə tutulmuş impulsivliyin geniş istifadə olunan ölçüsüdür və hər biri impulsivliyə aparan fərdi fərqli şəxsiyyət yolu kimi qeyd edilmişdir (19, s.303).

İmpulsivlik müxtəlif qruplarda spirtli içki istifadəsi, depressiya və intihar davranışları ilə əlaqələndirilir. Tədqiqatlar göstərir ki, impulsiv insanlar impulsiv olmayanlara nisbətən daha çox spirt istehlak edirlər. Üstəlik, impulsivlik və depressiya güclü şəkildə əlaqəlidir. Xüsusilə, tədqiqatçılar destruktiv davranışları, impulsiv qərar qəbul etmənin və mənfi təcili və əzmkarlığın bir biri ilə bağlı olduğunu müəyyənləşdirmişlər (15, s.214). Bundan əlavə, mənfi əhval-ruhiyyə ilə problemli/adaptiv olmayan davranış arasındakı əlaqə daha impulsiv insanlar arasında daha güclüdür. Depressiya və impulsivlik tez-tez maddə istifadəsi pozuntusu olan şəxslərdə birlikdə baş verir. Birlikdə, bu nəticələr göstərir ki, depressiv simptomlarla birləşən impulsivlik, spirt istehlak edən şəxslər arasında risk alma davranışlarının artmasına gətirib çıxara bilər.

Tədqiqatlar göstərmişdir ki, impulsivlik intihar düşüncələri və davranışları üçün əhəmiyyətli risk yaradır (20, s.638). Təəccüblüdür ki, yalnız bir neçə tədqiqat intihar araşdırmalarında dürtüselliyin İmpulsiv Davranış Şkalasının tətbiq etmişdir (20, s .630). Müəlliflər şəxsiyyət pozğunluğu olan stasionar xəstələrdə mənfi davranışları, əvvəlcədən düşünmənin olmaması və əzmkarlığın olmamasının, lakin sensasiya axtarışının deyil, intihar cəhdlərini proqnozlaşdırdığını təsbit etmişdi. Eynilə, narkotik və alkoqoldan sui-istifadə müalicəsi mərkəzində stasionar xəstələrin nümunəsində Lynam və həmkarları mənfi aktuallığın, əzmkarlığın olmaması və əvvəlcədən düşünməmənin birbaşa intiharla əlaqəli olduğunu tapmışdı (21, s. 320)]. Ümumilikdə, tədqiqatlar impulsivlik və intihar riski arasında əlaqəni açıq şəkildə ortaya qoymuşdu; lakin, kollec tələbələri arasında intihara səbəb olan amillər kimi depressiya və spirt istifadəsi ilə İmpulsiv Davranış Şkalasının və impulsivlik modelinin dörd aspektinin rolunu müəyyən etmək üçün bu sahədə daha çox araşdırmaya ehtiyac var.

Problemin aktuallığı. Mövzunun təhlili zamanı qarşıya çıxan faktlara və beynəlxalq ədəbiyyat nümunələrinə istinadən demək olar ki, bir sıra psixi sağlamlıq problemlərinin başlanması və inkişafı məhz bu yaş dövrünə təsadüf edir. Tələbə kollektivlərində şəxsiyyət və davranış pozuntularının təhlili və geniş şəkildə öyrənilməsi aktuallıq kəsb edir və tədqiqatçılar və təhsil sistemi qarşısında vacib əhəmiyyətli məqsəd olaraq mövcuddur.

Problemin yeniliyi. Şəxsiyyət pozuntularının müxtəlif yaş qruplarında, xüsusilə yetkin yaşlı əhalidə öyrənilməsi bir sıra ədəbiyyat nümunələrində öz əksini tapır. Lakin bu sahədə tələbə qruplarına dair araşdırılmanın aparılması və gələcək tədqiqatlara təkan verilməsi yenilik kəsb edir.

Problemin praktik əhəmiyyəti. hazırlanmış məqalə tədqiqatçılar, tələbələr və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər. Xüsusilə ali məktəb mühitində təhsilin daha effektiv nəticələrinin alınmasında tələbələrin psixoloji sağlamlıq vəziyyətinin təhlilinin davam etdirilməsi növbəti tədqiqatlar üçün zəmin yaratmış olacaqdır.

Ədəbiyyat:

1. Kessler, R. C., Angermeyer, M., Anthony, J. C., De Graaf, R. O. N., Demyttenaere, K., Gasquet, I., ... & T BEDIRHAN, Ü. S. T. Ü. N. /Lifetime prevalence and age-of-onset distributions of mental disorders in the World Health Organization's World Mental Health Survey Initiative./ World psychiatry/ -2007. 6(3),- p.168-171.
2. Duffy, M. E., Twenge, J. M., & Joiner, T. E. /Trends in mood and anxiety symptoms and suicide-related outcomes among US undergraduates, 2007–2018// Evidence from two national surveys. Journal of Adolescent Health/ 2019. 65(5), -p.590-598
3. Baik, C., Larcombe, W., & Brooker, A. /How universities can enhance student mental wellbeing: The student perspective. Higher Education Research & Development/ -2019. 38(4), -p.674-687.
4. Hernández-Torrano, D., Ibrayeva, L., Sparks, J., Lim, N., Clementi, A., Almukhambetova, A., ... & Muratkyzy, A. / Mental health and well-being of university students: A bibliometric mapping of the literature. Frontiers in psychology/ -2020. 11, -p.1226.
5. Auerbach, R. P., Mortier, P., Bruffaerts, R., Alonso, J., Benjet, C., Cuijpers, P., ... & Kessler, R. C. /WHO world mental health surveys international college student project: Prevalence and distribution of mental disorders. Journal of abnormal psychology/ -2018. 127(7), -p. 623-627
6. Garlow, S. J., Rosenberg, J., Moore, J. D., Haas, A. P., Koestner, B., Hendin, H., & Nemeroff, C. B. /Depression, desperation, and suicidal ideation in college students: results from the American Foundation for Suicide Prevention College Screening Project at Emory University. Depression and anxiety/ - 2008. 25(6), -p.482-488
7. Liu, Q., Huang, Z., Yin, Y., Chen, E., Xiong, H., Su, Y., & Hu, G.:/ Exercise-aware knowledge tracing for student performance prediction. IEEE Transactions on Knowledge and Data Engineering/ - 2019, 33(1),- p.100-115.
8. Demenech, L. M., Oliveira, A. T., Neiva-Silva, L., & Dumith, S. C./ Prevalence of anxiety, depression and suicidal behaviors among Brazilian undergraduate students: A systematic review and meta-analysis. Journal of affective disorders/ - 2021, 282, -p.147-159.
9. Eisenberg, D., Gollust, S. E., Golberstein, E., & Hefner, J. L./ Prevalence and correlates of depression, anxiety, and suicidality among university students. American journal of orthopsychiatry/- 2007, 77(4), -p.534-542.

10. Moffitt, L. B., Garcia-Williams, A., Berg, J. P., Calderon, M. E., Haas, A. P., & Kaslow, N. J. /Reaching graduate students at risk for suicidal behavior through the interactive screening program. Journal of College Student Psychotherapy/ - 2014, 28(1),- p.23-34.
11. Crispim, M. D. O., Santos, C. M. R. D., Frazao, I. D. S., Frazão, C. M. F. D. Q., Albuquerque, R. C. R. D., & Perrelli, J. G. A. / Prevalence of suicidal behavior in young university students: A systematic review with meta-analysis. Revista Latino-Americana de Enfermagem/- 2021,- p.29-38
12. Pena, J. B., Matthieu, M. M., Zayas, L. H., Masyn, K. E., & Caine, E. D. /Co-occurring risk behaviors among White, Black, and Hispanic US high school adolescents with suicide attempts requiring medical attention, 1999–2007// Implications for future prevention initiatives. Social psychiatry and psychiatric epidemiology//- 2012. 47,- p.29-42.
13. Lynam, D. R., Miller, J. D., Miller, D. J., Bornovalova, M. A., & Lejuez, C. W./ Testing the relations between impulsivity-related traits, suicidality, and nonsuicidal self-injury: a test of the incremental validity of the UPPS model// Personality disorders: Theory, research, and treatment//- 2011, 2(2), - p.151-167
14. Corruble, E., Benyamina, A., Bayle, F., Falissard, B., & Hardy, P.. /Understanding impulsivity in severe depression? A psychometrical contribution. Progress in Neuro-Psychopharmacology and Biological Psychiatry/- 2003, 27(5),- p.829-833.
15. Corruble, E., Damy, C., & Guelfi, J. D. / Impulsivity: a relevant dimension in depression regarding suicide attempts?. Journal of affective disorders/- 1999, 53(3), -p.211-215
16. Logan, J., Hall, J., & Karch, D. / Suicide categories by patterns of known risk factors: a latent class analysis. Archives of general psychiatry/ - 2011, 68(9), -p.935-941.
17. Capron, D. W., & Schmidt, N. B. / Positive drinking consequences among hazardous drinking college students. Addictive behaviors/- 2012, 37(5), -p.663-667
18. Weitzman, E. R./ Poor mental health, depression, and associations with alcohol consumption, harm, and abuse in a national sample of young adults in college/. The Journal of nervous and mental disease//- 2004, 192(4), p.269-277
19. Gonzalez, V. M., Reynolds, B., & Skewes, M. C. / Role of impulsivity in the relationship between depression and alcohol problems among emerging adult college drinkers/.// Experimental and clinical psychopharmacology//- 2011, 19(4), -p.303
20. Lamis, D. A., Ballard, E. D., & Patel, A. B./ Loneliness and suicidal ideation in drug-using college students. Suicide and Life-Threatening Behavior/- 2014, 44(6), - p. 629-640
21. Lynam, D. R., & Miller, J. D./ Personality pathways to impulsive behavior and their relations to deviance: Results from three samples/.// Journal of quantitative criminology//- 2004, 20, p.319-341.

Redaksiyaya daxil olub: 28.01.2025

UOT: 159.9.

Рейхан Мирзага гызы Мирзагаева
докторант по программе доктора философии
Бакинского Государственного Университета
https://orcid.org/0000 0002 20740837
E-mail: reyhan.mirzagayeva@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).239-243

РАЗВИТИЕ КОГНИТИВНЫХ НАВЫКОВ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ С ЦЕЛЬЮ ПРЕОДОЛЕНИЯ ДЕВИАНТНОГО ПОВЕДЕНИЯ

Reyhan Mirzağa qızı Mirzağayeva
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı

YENİYETMƏLİK DÖVRÜNDƏ DEVİANT DAVRANIŞI ARADAN QALDIRMAQ ÜÇÜN İDRAK BACARIQLARININ İNKİŞAFI

Reyhan Mirzagha Mirzaghayeva
doctorial student in the program of doctor of philosophy
of Baku State University

DEVELOPMENT OF COGNITIVE SKILLS IN ADOLESCENCE TO OVERCOME DEVIANT BEHAVIOR

Аннотация. В статье рассмотрена важность развития когнитивных навыков у подростков как способа борьбы с девиантным поведением. Основное внимание уделено стратегиям развития когнитивных навыков, включая образовательные программы, направленные на развитие критического мышления и решения проблем, психологическую поддержку для улучшения саморефлексии и самоконтроля, а также вовлечение семьи в процесс воспитания и развития.
Ключевые слова: *подростковый возраст, девиантное поведение, когнитивные навыки*

Xülasə. Məqalədə deviant davranışla mübarizə yolu kimi yeniyetmələrdə koqnitiv bacarıqların inkişafının vacibliyindən bəhs edilir. Əsas diqqət tənqidi təfəkkür və problem həllini təşviq etmək üçün təhsil proqramları, özünü əks etdirmə və özünə nəzarəti təkmilləşdirmək üçün psixoloji dəstək və valideynlik və inkişafda ailənin iştirakı da daxil olmaqla, idrak bacarıqlarının inkişafı strategiyalarına yönəlib.
Açar sözlər: *yeniyetməlik, deviant davranış, koqnitiv bacarıqlar*

Abstract. The article discusses the importance of developing cognitive skills in adolescents as a way to combat deviant behavior. The focus is on strategies for developing cognitive skills, including educational programs to promote critical thinking and problem solving, psychological support to improve self-reflection and self-control, and family involvement in parenting and development.
Keywords: *Adolescence, Deviant behavior, Cognitive skills*

В современном обществе вопросы воспитания и развития подростков занимают ключевое место в области социальной работы и педагогики. Одной из наиболее актуальных проблем является девиантное поведение подростков, которое представляет собой серьезный вызов как для образовательной системы, так и для общества в целом. Девиантное поведение включает в себя ряд антисоциальных действий, таких как агрессия, нарушение правил, употребление запрещенных веществ и другие виды поведения, нарушающие социальные нормы и законы.

Среди факторов, влияющих на развитие девиантного поведения, особое внимание

уделяется когнитивным аспектам личности подростка. Когнитивные навыки, включающие способности к анализу, решению проблем, критическому мышлению и принятию решений, играют важную роль в формировании социально адекватного поведения. Недостаточное развитие этих навыков может приводить к негативным последствиям, в том числе к выбору девиантных моделей поведения.

Таким образом, важность изучения и развития когнитивных навыков в контексте профилактики и коррекции девиантного поведения подростков является неоспоримой. В данной статье мы рассмотрим, каким образом улучшение когнитивных навыков может способствовать снижению тенденции к девиантному поведению среди подростков, а также обсудим эффективные методы и стратегии, направленные на развитие этих навыков. В этом контексте развитие когнитивных навыков играет ключевую роль. Когнитивные навыки помогают подросткам адекватно воспринимать и обрабатывать информацию, а также принимать осознанные и обдуманные решения. Улучшение этих навыков может способствовать укреплению самоконтроля, повышению уровня самосознания и развитию социальной ответственности.

Таким образом, исследование стратегий по развитию когнитивных навыков у подростков и их применение в образовательной и социальной сферах являются необходимыми для формирования здоровой и функциональной личности, способной адаптироваться к социальным нормам и избегать девиантного поведения.

Девиантное поведение – это поведение, которое отклоняется от общепринятых социальных норм и правил. В контексте подростков, это часто включает в себя действия, которые могут быть агрессивными, противоправными, или нарушающими общественные ожидания и стандарты. Характеристики девиантного поведения [3]:

- Противоправные действия: это может включать воровство, вандализм, употребление наркотиков и алкоголя, насилие и другие виды преступного поведения.
- Агрессия и насилие: нападения, драки и другие формы агрессивного поведения.
- Антисоциальное поведение: ложь, обман, манипуляции и другие формы поведения, направленные против социальных норм и отношений.
- Отказ от социальных норм: нежелание следовать правилам школы, семьи или общества.

Причины девиантного поведения [4]

- Психологические факторы: эмоциональные и поведенческие проблемы, низкая самооценка, депрессия и тревожность.
- Семейные факторы: недостаток внимания и поддержки со стороны родителей, семейное насилие, негативные семейные отношения.
- Социальные факторы: давление сверстников, негативное влияние социальных групп, недостаток социальной поддержки.
- Образовательные факторы: проблемы в школе, низкая учебная мотивация, отсутствие вовлечения в образовательный процесс.
- Культурные и экономические факторы: нищета, социальное неравенство, культурные нормы и ожидания.

Понимание девиантного поведения у подростков требует комплексного подхода, включающего психологические, социальные, семейные и образовательные аспекты. Эффективная коррекция и профилактика девиантного поведения включает в себя не только наказание за неправомерные действия, но и комплексную поддержку и развитие навыков, которые помогут подростку адаптироваться к социальным нормам и успешно интегрироваться в общество.

Когнитивные навыки – это умственные способности, позволяющие человеку эффективно воспринимать, обрабатывать, запоминать и использовать информацию. Эти навыки имеют критическое значение для обучения, принятия решений, решения проблем и общего понимания и взаимодействия с окружающим миром.

Внимание – это способность концентрировать умственные усилия на определенной задаче или объекте, при этом игнорируя отвлекающие факторы. В подростковом возрасте умение удерживать фокус внимания на учебном материале или важной задаче является ключевым для академического успеха и эффективного выполнения заданий [5].

Память включает в себя кратковременную и долговременную память, а также способность эффективно запоминать и воспроизводить информацию. Развитие памяти помогает подросткам лучше усваивать учебный материал и удерживать важную информацию, что способствует обучению и развитию навыков. Логическое мышление – это способность рассуждать и анализировать аргументы, делая логические выводы на основе предоставленной информации. Этот навык особенно важен для решения математических и научных задач, а также для формирования обоснованных мнений и выводов.

Решение проблем включает в себя способность находить решения в сложных или непредвиденных ситуациях. Этот навык помогает подросткам оценивать различные варианты решений и принимать обдуманные решения, что является важной частью как учебного процесса, так и повседневной жизни. Критическое мышление – это умение критически оценивать информацию и аргументы, различать факты от мнений и формировать обоснованные суждения. В современном информационном обществе этот навык имеет особую значимость для развития информационной грамотности и способности к самостоятельному мышлению [6].

Саморегуляция включает способность контролировать свои эмоции, поведение и мысли в соответствии с требуемыми задачами или социальными нормами. Развитие этого навыка помогает подросткам справляться со стрессом, управлять своим поведением и эмоциями, что способствует их социальной адаптации и успеху. Творчество – это способность генерировать новые идеи, подходы или решения, демонстрируя гибкость и оригинальность мышления. Развитие творческих способностей помогает подросткам находить нестандартные решения, способствует их личностному росту и самовыражению.

Социальное восприятие – это понимание и интерпретация социальных сигналов и нюансов, что включает в себя эмпатию и способность читать эмоциональные состояния других людей. Развитие этого навыка критично для успешного социального взаимодействия и построения здоровых межличностных отношений. Когнитивные навыки у подростков могут быть развиты и улучшены через образовательные программы, психологическую поддержку и целенаправленные упражнения, что способствует их общему успеху в учебе, повседневной жизни и социальной адаптации.

Взаимосвязь между когнитивным развитием и девиантным поведением

Взаимосвязь между когнитивным развитием и девиантным поведением у подростков представляет собой сложный и многогранный процесс, где различные аспекты когнитивного развития могут оказывать влияние на склонность к девиантным формам поведения. Влияние недостаточно развитых когнитивных навыков [7]:

- Недостаточная саморегуляция: подростки с недоразвитыми навыками саморегуляции могут испытывать трудности в контроле импульсов, что может приводить к девиантным поступкам, таким как агрессивное поведение или вовлечение в рискованные действия.
- Ограниченные навыки решения проблем: неумение адекватно анализировать ситуации и искать конструктивные решения может привести к выбору негативных поведенческих стратегий.
- Недостатки в критическом мышлении: отсутствие критического мышления может способствовать подверженности влиянию девиантных сверстников и принятию негативных социальных норм

Когнитивное развитие влияет на способность подростков понимать и

интерпретировать социальные сигналы и эмоции других людей. Недостаточное развитие этих навыков может привести к социальной изоляции или непониманию социальных норм. Подростки с недоразвитыми когнитивными навыками часто имеют трудности с оценкой долгосрочных последствий своих действий, что может приводить к рискованному поведению и принятию непродуманных решений [8].

Успех в учебе и развитие когнитивных навыков тесно связаны. Недостаточное когнитивное развитие может привести к учебным трудностям, что, в свою очередь, может увеличить риск девиантного поведения. Социальное окружение подростка, включая взаимодействие со сверстниками, также влияет на когнитивное развитие и поведенческие выборы. Таким образом, развитие когнитивных навыков играет ключевую роль в предотвращении девиантного поведения у подростков. Улучшение этих навыков может способствовать формированию более здорового поведения, лучшему социальному взаимодействию и общему благополучию молодых людей.

Стратегии развития когнитивных навыков

В образовательной сфере ключевым направлением является интеграция упражнений и заданий, нацеленных на развитие критического мышления, решения проблем и аналитических навыков в учебный план. Это может включать интерактивное обучение, такое как групповые дискуссии, проектная работа и ролевые игры, которые способствуют развитию коммуникативных навыков и умению работать в команде. Также важным является применение образовательных технологий, включая обучающие игры и программы, стимулирующие когнитивное развитие [9].

Предоставление подросткам доступа к психологической помощи и терапии имеет огромное значение. Это может включать консультирование для развития навыков саморегуляции и эмоционального интеллекта, а также применение методов когнитивно-поведенческой терапии для коррекции негативных мыслительных паттернов и повышения самосознания.

Роль семьи в развитии когнитивных навыков неоценима. Обучение родителей методам поддержки развития этих навыков у детей, включая эффективное общение и позитивное подкрепление, является ключевым. Совместные семейные деятельности, требующие решения проблем и критического мышления, например, семейные игры или проекты, также важны для совместного развития и укрепления семейных отношений.

Участие в дополнительных кружках и клубах по интересам помогает развивать критическое мышление, творчество и командную работу. Это могут быть дебатные клубы, научные кружки или другие социальные инициативы, например, волонтерские программы или общественные проекты, направленные на социальное вовлечение и развитие гражданских навыков [10].

Проведение тренингов и семинаров по личностному росту, развитию лидерских качеств и самоуправления способствует укреплению уверенности в себе и самостоятельности подростков. Практики медитации и осознанности также могут быть включены для улучшения концентрации, саморегуляции и эмоционального благополучия. Комбинирование этих стратегий обеспечивает многофакторный подход к развитию когнитивных навыков, что является важным элементом в поддержке здорового развития подростков и предотвращении девиантного поведения.

Исследование взаимосвязи между развитием когнитивных навыков и девиантным поведением у подростков имеет фундаментальное значение для образования, психологии и социальной работы. Подростковый возраст - это критический период, когда формируются ключевые умственные способности, влияющие на поведение, социальное взаимодействие и принятие решений. Развитие когнитивных навыков у подростков, таких как критическое мышление, решение проблем, саморегуляция и эмоциональный интеллект, имеет решающее значение для

предотвращения девиантного поведения и способствует формированию здоровых и адаптивных взрослых личностей.

Многогранный подход, включающий образовательные программы, психологическую поддержку, семейное вовлечение, социальные и внеклассные активности, а также личностный рост и саморазвитие, является ключевым в развитии этих навыков. Каждый из этих элементов играет свою роль в обеспечении подростков необходимыми инструментами для эффективного взаимодействия с окружающим миром и преодоления вызовов, связанных с их возрастной категорией.

В заключение, важно подчеркнуть, что продолжающиеся исследования и практическое применение разработанных стратегий будут способствовать более глубокому пониманию и эффективному решению проблемы девиантного поведения среди подростков. Вовлечение различных секторов общества, включая образовательные учреждения, семьи, здравоохранение и социальные службы, необходимо для создания согласованной и комплексной системы поддержки, направленной на развитие здорового и сбалансированного поколения молодых людей.

Актуальность темы: Тема развития когнитивных навыков в подростковом возрасте для преодоления девиантного поведения является весьма актуальной. В подростковом возрасте мозг активно развивается, и это время критически важно для формирования когнитивных функций, таких как внимание, память, мышление и решение проблем. Развитие этих навыков может помочь подросткам лучше справляться с социальными, академическими и эмоциональными задачами.

Научная новизна темы: Исследование объединяет теории когнитивного развития с социально-психологическими и педагогическими подходами к проблеме девиантного поведения. Это позволяет более глубоко понять, как когнитивные процессы влияют на социальное поведение подростков. Исследование предлагает новые методики и подходы к обучению критического мышления и решению проблем, адаптированные к потребностям подростков, что может предложить новые пути в педагогической практике. Использование элементов когнитивно-поведенческой терапии в работе с подростками для коррекции девиантного поведения является относительно новым направлением, требующим дальнейшего изучения и развития.

Практическая значимость и применение темы: Практическая значимость темы развития когнитивных навыков для преодоления девиантного поведения в подростковом возрасте заключается в создании эффективных подходов и методов воспитания, образования и социальной работы. Интеграция программ по развитию когнитивных навыков в учебный план поможет подросткам лучше справляться с академическими задачами и социальными вызовами. Это может включать уроки по критическому мышлению, решению проблем, эффективному общению и управлению эмоциями. тема развития когнитивных навыков для преодоления девиантного поведения обладает важным практическим значением, обеспечивая основу для многогранной работы с подростками в различных контекстах, начиная от образования и заканчивая правоохранительной системой.

Литература:

1. Бернс, Р. Развитие когнитивных навыков у детей и подростков. -Москва: Издательство: Просвещение, – 2018. – 126 с.
2. Голдштейн, Э. Б. Когнитивная психология: Вводный курс. -Санкт-Петербург: Питер, – 2020. – 254 с.
3. Люрия, А. Р. Основы нейропсихологии. -Москва: Академический Проект, – 2021. – 189 с.
4. Мейер, Д. Психология: Теория и практика. -Санкт-Петербург: Питер. –2022. –315 с.
5. Ньюман, Б. М., & Ньюман, П. Р. Развитие человека: Жизненный цикл. -Москва: Издательство: Евразия, –2017. –105 с.
6. Пелер, М. Социология подростка. -Москва: Академический Проект, –2018. –215 с.
7. Саймонс, Дж. Р., Чабрис, К. Ф. Невидимый горилла и другие способы ошибаться. -Москва, 2021. –163 с.

Redaksiyaya daxil olub: 22.11.2024

UOT 159.9

Məhərrəm Sabir oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).244-249

PSİXOANALİTİK NƏZƏRİYYƏ PERSPEKTİVİNDƏ İNTİHAR PROBLEMİ

Магеррам Сабир оглы Алиев
доцент кафедры Общей психологии Азербайджанского Государственного Педагогического Университета, доктор философии по психологии

ПРОБЛЕМА САМОУБИЙСТВА В ПЕРСПЕКТИВЕ ПСИХОАНАЛИТИЧЕСКОЙ ТЕОРИИ

Maharram Sabir Aliyev
associate professor of the department of General psychology at Azerbaijan State Pedagogical University, doctor of philosophy in psychology

THE PROBLEM OF SUICIDE IN THE PERSPECTIVE OF PSYCHOANALYTIC THEORY

Xülasə. Psixoanalitik nəzəriyyə şüursuz konfliktin rolunu qeyd edərək intihara əsaslı görüşü təklif edir. Özünü məhvedici meyllərin müəyyən edilməsində erkən münasibətlərin və daxili obyektlərin önəminə vurğu edir. İlkin uşaqlıq xatirələrinin sıxışdırılmış travmalara çevrilməsinin gələcəkdə aqressivlik şəklində insanın özünə yönələ biləcəyi ehtimalına yer verir. Müasir tədqiqatların və tibbi praktikanın əlaqəsi sayəsində psixoanaliz intihar probleminin sirrini çözməyə və bu zəmində ümidini itirənlərə ümid verməyə davam edəcək.
Açar sözlər: *intihar, psixoanaliz, şüursuzluq, ölüm və həyat instinkti, özünə zərərvermə, özünüməhv*

Аннотация. Психоаналитическая теория предлагает глубокий подход к самоубийству, отмечая роль бессознательного конфликта. Подчеркивает важность ранних отношений и внутренних объектов в определении саморазрушительных тенденций. Это дает возможность того, что трансформация ранних детских воспоминаний в вытесненные травмы может быть направлена на человека в виде агрессии в будущем. Через соединение современных исследований и медицинской практики психоанализ продолжит разгадывать тайну проблемы самоубийств и давать надежду тем, кто потерял надежду на этой почве.
Ключевые слова: *самоубийство, психоанализ, бессознательное, инстинкт смерти и жизни, членовредительство, самоуничтожение*

Abstract. Psychoanalytic theory offers a profound approach to suicide, noting the role of unconscious conflict. It emphasizes the importance of early relationships and internal objects in determining self-destructive tendencies. This gives the possibility that the transformation of early childhood memories into repressed traumas can be directed at the individual in the form of aggression in the future. By combining modern research and medical practice, psychoanalysis will continue to unravel the mystery of the suicide problem and give hope to those who have lost hope on this basis.
Key words: *suicide, psychoanalysis, unconsciousness, instinct of death and life, self-harm, self-destruction*

Giriş

Psixoanalitik nəzəriyyə prizmasından intiharın öyrənilməsi şüursuzluğa "dalmağı" nəzərdə tutur. Bu anlamda, həll edilməmiş konfliktlərin öyrənilməsi və erkən uşaqlıq illərinin təcrübəsinin özünüməhv meyllərinə necə təsir etməsinin başa düşülməsi önəmli addımlardan biridir. Psixoanalitik nəzəriyyələrin köməyilə intiharı araşdırmaq üçün növbəti məsələləri diqqətdə saxlamaq və rəhbər tutmaq lazımdır.

Birincisi, psixoanalizin nəzəri əsasını anlamaq lazımdır. Bunun üçün psixoanalizin əsas konsepsiyaları ilə tanış olmaq önəmlidir. Məsələn, Z. Freud'un (1853-1939) Tanatos anlayışı (ölüm instinkti) Erosla (həyat instinkti) konfliktdə şüursuz olaraq özünüməhv meyilinə götürür (1). Melanie Klein'ın (1882-1960) obyekt münasibətləri nəzəriyyəsi erkən münasibətlərin və daxilən mənimsənilmiş "pis obyektlərin" məyusluq və ümidsizlik hissinin yaranmasına necə şərait yarada biləcəyini araşdırır (2). Jacques Lacan'ın (1901-1981) "Güzgü Mərhələ" anlayışı suisidal düşüncələrdə fraqmentar identikliyin və yadlaşmanın rolunu nəzərdən keçirir (3). Eqo psixologiyası isə öyrənir ki, zəif Eqo İd və Super-Eqo arasında vasitəçilik rolu üçün necə mübarizə apara bilər, hansı ki, destruktiv impulslara gətirib çıxara bilir.

İkincisi, psixoanalitik prinsipləri (şüursuz günah və həya, itki və yas, müdafiə mexanizmləri, köçürmə və əksköçürmə) diqqətdə saxlamaq önəmlidir. Məsələn, şüursuz günah və həya sıxışdırılmış emosiyalar kimi suisidal düşüncələrə şərait yaradır. Freud'da kədər və depressiyanı öyrənmək çözülməmiş kədərin özünə yönəlmiş aqressiya kimi necə təzahür edə biləcəyini anlamağa imkan verir. Digər yandan, insanı düşündürməyə bilməz ki, suisidal davranışda sıxışdırma, inkaretmə kimi qeyri-adaptiv müdafiə mexanizmləri hansı rolu oynayır. Suisidal tendensiyalara təsir edəcək münasibətləri və proqnozları (köçürmə və əksköçürmə) təhlil etmək də işin yararına ola bilər.

Üçüncüsü, konkret halları və ya hadisələri tədqiq etməklə, problemə açıqlıq gətirmək olar. Məsələn, psixoloji travma ilə insan psixologiyasını formalaşdıran bağlanma və ya laqeydlik problemi arasındakı əlaqəni anlamaq üçün uşaqlıq təcrübəsinin öyrənilməsi intihara götürən səbəbləri açığa çıxarmaqda bizə kömək edə bilər. Həmçinin röyaların və hekayələrin təhlili (həyat hekayələrində və rəvayətlərdə özünütənqid, məyusluq və ya gerçəkləşməmiş istək və arzu modellərinin öyrənilməsi) şüursuz konfliktlərin üzə çıxarılması üçün istifadə edilə bilər.

Dördüncüsü, müasir perspektiv baxımından klassik psixoanalizin tənqidi və imkanlarının genişləndirilməsinə fokuslanaraq, məsələyə daha fərqli prizmadan yanaşmaq olar. Özümüzə belə suallar verə bilərik ki, məsələn, "Müasir neyroelm Freud'un şüursuzluq haqqında ideyaları ilə necə səsləşir?" və ya "İntiharı daha yaxşı anlamaq üçün psixoanalitik nəzəriyyəni koqnitiv, davranış və sosiomədəni modellərlə inteqrasiya etmək mümkündürmü?"

Beşincisi, problemə birbaşa müdaxiləyə diqqət yönəldərək psixoanaltik verilənlərin istifadəsi ilə müalicə üzrə tövsiyələrin işlənilməsini əsas saymaq olar. Məsələn, röyaların və simvolların yozumu pasiyentlərə intihar haqqında düşüncələrlə əlaqəli olan şüursuz konfliktləri açmağa kömək edir. Digər halda, insana çözülməmiş qəzəb, itki və ya günah hissləri ilə mübarizə aparmaqda köməklik etməklə ölçü götürmək olar. Daha da ötəsi, dözümlülüyün və dəfetmə mexanizmlərinin formalaşdırılmasına fokuslanmaqla, insanın Eqo'sunun möhkəmləndirilməsinə nail olmaq olar.

Altıncısı, mədəni yönəlişlərin və sosial təsirlərin şüursuzluğa necə təzyiq edib intihara şərait yarada biləcəyini öyrənmək maraqlı perspektiv təqdim edə bilər. Bu anlamda, özümüzə belə suallar verə bilərik: "Kollektiv günah yaxud sosial normalar psixoanalitik konsepsiyalarla necə əlaqələnir?" və ya "Məyusluğa gətirib çıxaran əlçatmaz idealları bizə sırıyan mədəni "Super-eqolar" mövcuddurmu?"

Yeddincisi, intihar haqqında mövcud psixoanalitik ədəbiyyatın xülasəsi köməyə gələ bilər. Bu, bizə pasiyentin təcrübəsi haqqında təsəvvür əldə etməyə yardım edir.

Metod

Klassik və müasir psixoanalitik ədəbiyyatların təhlili nəticəsində alınmış məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir. Müxtəlif psixoanalitiklərin nəzəri fikirləri və təcrübələri öyrənilmiş, məsələyə münasibətlərinin şərhi həyata keçirilmişdir.

Nəticə

Əsrlər boyu insan şüurunu çaşdıran mürəkkəb və dərin köklü insan təcrübəsi sahəsi

olan intihar psixoloji, sosioloji və fəlsəfi sahələrin kəsişməsində yerləşir. Z. Freud'un əsas işindən qaynaqlanan psixoanalitik nəzəriyyələr, özünüməhv davranışının altında yatan şüursuz proseslərə birbaşa diqqət yetirən maraqlı bir çərçivə təqdim edir. Psixoanalitik nəzəriyyədə intiharın səbəbi insanların xarici aləmə mənfi münasibəti kimi başa düşülür. Bu nəzəriyyə tərəfdarlarını intihar probleminə yanaşmada iki istiqamətə ayırmaq olar:

1. İnsan və cəmiyyət kontekstində;

2. ***Şəxsiyyətdaxili ixtilaf kimi, şəxsiyyətlərarası münasibətlər zəminində.***

Z. Freud'un ölüm instinkti yaxud Tanatos haqqında nəzəriyyəsi intiharın psixoanalitik anlaşılmasında mərkəzi yeri tutur. İlk dəfə "Həzz prinsipinin ötəsində" əsərində Freud iddia edirdi ki, insan davranışını idarə edən iki əsas instinkt var: Eros (yaşam instinkti) və Tanatos (ölüm instinkti). Eros həyatı qorumaq, nəsil artımını təmin etmək istəyir, Tanatos isə, əksinə, Freud'a görə özünüməhvə və cansızlığa şüursuz meyili bildirir (1).

İntihar zamanı ölüm meyili Eqo-nun daxili konflikt və xarici gerçəkliyi tarazlamaq qabiliyyəti üzərində zəfər qazanır. Freud iddia edirdi ki, özünüdağıdıcı impulslar istiqaməti dəyişdirilmiş aqressiyadan yarana bilər. Xarici obyektə yönəlmiş aqressiya daxilə yönələndə biz özünə zərərvermə yaxud intihara şahidlik edirik. Bu internalizasiya, bir qayda olaraq, özlüyündə fərdin çözmədiyi konfliktləri və sıxışdırdığı günah yaxud həya hisslərini ifadə edir (4).

Məhz birinci yanaşmanı inkişaf etdirən Z. Freud'un nəzəriyyəsində yuxarıda deyilənləri nəzərə alsaq, intihar insanın özünə qarşı yönəlmiş aqressiyası kimi izah olunur. "Kədər və melanxoliya" əsərində, o qeyd edir ki, depressiya zamanı müşahidə olunan özünə qarşı nifrət sevdiyi insana münasibətdə qəzəb kimi yaranır, hansını ki, subyektlər geriyə özünə doğru yönəldir (5, s.255-257). Kədərdə Eqo özünü itirilmiş obyektlə eyniləşdirir, nəticədə həmin obyektə münasibətdə qəzəb yaranır. Bu dinamika özünü cəzalandırmaya və suisidal düşüncələrə gətirib çıxara bilər (4). Depressiya sevimli insanın, statusun yaxud özünüqiymətləndirmənin itirilməsindən irəli gələn çözülməmiş kədərin intihara necə gətirə biləcəyini anlamağa əsas verir. İtirilmiş şeylərdən ayrıla bilməmək qabiliyyəti insanı özündən iyrənmə və ümidsizlik tsiklində ilişib qalmağa məcbur edir, bu da, öz növbəsində, özünüməhv əməllərinin həyata keçirilməsi riskini artırır. Z. Freud'a görə, intihara meylli o insanlar ola bilər ki, onlar başqa insanları öldürmək istəyini vaxtilə sıxışdırmışlar.

K. Menninger (1893-1990) Z. Freud'un "insanlarda özünümühafizə və özünüməhvetmə instinktləri arasında gərgin mübarizə gedir" fikri ilə razılaşaraq, intiharın dərin motivlərini araşdırmış və sonra suisidal davranışın üç tərkib hissəsini ayırd etmişdir:

1) öldürmək istəyi;

2) öldürülmək istəyi;

3) ölmək istəyi (6).

O, "Öz-özünlə müharibə" kitabında yazır ki, intihar-həyatın iç qaraldan gerçəkliklərindən qaçmaq cəhdidir və hadisələrin axarı və sosial-ictimai faktorlar bunda önəmli rol oynayır (7).

Analitik psixologiya məktəbinin qurucusu olan C.G. Jung (1875-1961) intihara psixologiya kontekstində kollektiv şüursuzluğa – arxetiplərə – böyük diqqət yetirməklə yanaşırdı (8; 9; 10). Onun metodu kollektiv şüursuzluğun və insan varlığının mənəvi ölçüsünün hərtərəfli nəzəriyyəsi üzərində qurulmuşdur. Jung intihara mərkəzi bir məsələ olaraq çox da diqqət yetirməmiş olsa da, onun yazıları və ideyaları analitik psixologiya çərçivəsində intiharın dərk edilməsinə dair dəyərli fikirlər təklif edir. Jung'a görə, intihar düşüncələri insan həyatında məna tapa bilmədikdə və ya şüurlu, ya da şüursuz mənliyi arasında keçilməz konfliktlə üzləşdikdə yaranır. O, intiharı inteqrasiyanın uğursuz olduğu sınmış psixikanın ifadəsi kimi görür. Jung'ın kölgə Mən konsepsiyası – sıxışdırılmış və inkaredilən cəhət kimi ideyası – insan əzablarının anlaşılması üçün mərkəzi əhəmiyyət daşıyır (11). Suisidal impulslar insan öz kölgəsinə aludə olub, şüurlu Mən'i ilə barışa bilməyəndə yaranır. O, hesab edir ki, insanın mənəvi cəhətdən yenidən doğulmağına şüursuz canatması öz əllərilə ölümə vacib səbəblərdən ola bilər (12). Jung tez-tez intihara sadəcə zehni problem deyil, mənəvi və ya ekzistensial böhran kimi baxır. O, ruhun tələbatlarını ödəməyin və ali məqsədlə əlaqələri möhkəmləndirməyin intihar ümidsizliyinin qarşısını almağa kömək edə biləcəyini təklif edir.

E. Eriksona (1902-1994) görə, suisidal davranışın əsas faktoru yeniyetmə və gənclərin stressə açıq olmalarıdır, hansı ki, öz növbəsində "identiklik böhranı"na gətirib çıxarır (13). İstər

məktəbdə, istərsə də qəbulda imtahan proseduralarının dəyişdirilməsi və mürəkkəbləşdirilməsi, narkotik maddələrdən istifadə etmənin artması, gələcək peşənin seçilməsi qərarsızlığı və s. bu kimi məsələlər "identiklik böhranı"nı xarakterizə etməklə, əslində intihar hallarının artmasına səbəbiyyət verə bilər. Onun fikrincə, intiharın profilaktikasında ən vacib vasitə ailə və onun dəyərləridir.

E. Fromm (1900-1980) öz kitabında (14; 15) həyatsevərlik və ölüsevərlik xarakter tipologiyası əsasında insanın sosial xarakter tiplərini fərqləndirir: məhsuldar və məhsuldar olmayan (alıcı, ekspluator, toplayıcı və marketoloq). Onun fikrincə, məhsuldar olmayan tiplər intihara meyllidir, deməli, intiharın qarşısını almaq üçün şəxsiyyətin məhsuldarlığını artırmaq lazımdır. Əlbəttə, bu fikirlə tam razılaşmaq mümkün deyil, çünki Avropanın bir çox aparıcı ölkəsində ən məhsuldar insan belə intihara cəhd edir və ya intihar edir.

İntihara şəxsiyyətdaxili konflikt kimi yanaşan psixoloqlardan biri K. Horney (1885-1952) olmuşdur (16). O güman edir ki, insanlar arasında qarşılıqlı münasibətlər pozulanda nevrotik konflikt yaranır. K. Horney nevrotik meylləri 3 kateqoriyaya aid edirdi: insanlara yönəlmə, insanlara qarşı olma və insanlardan uzaqlaşma. Belə nəticəyə gələ bilərik ki, son iki meylli insanlarda intihar halları özünü daha bariz göstərə bilər.

M. Klein insan psixologiyasının formalaşmasında erkən münasibətlərin rolunu vurğulayaraq, Z. Freud'un nəzəriyyəsini genişləndirir. M. Klein'in iddiasına görə, körpələrin onların başlıca qəyyumları ilə yaşadıqları təcrübə "yaxşı" və "pis" obyektlərin internalizasiyasına təsir göstərir. Bu daxili obyektlər insanın daxili aləminin əsasını təşkil edir (2).

M. Klein'in nöqteyi-nəzərindən suisidal meyllər o zaman yaranır ki, insanın daxili aləmi zülm edən yaxud pozulmuş obyektlərin hökmü altında olur, məsələn, əgər erkən təcrübə laqeydliklə yaxud zorakılıqla qeyd olunubsa. İnsanlar özünütənqid və ümidsizliyə sövq edən cəzalandırıcı "atalar sözlərini" qəbul edə bilərlər. "Yaxşı" və "pis" obyektlərin inteqrasiyası ilə bağlı mübarizədə onlar intensiv konflikt yaşaya bilərlər, hansı ki, ümidsizlik və viranəlik hisslərinə gətirib çıxarır (17).

J. Lacan'ın psixoanalitik nəzəriyyəsi intihara fərqli baxış bucağı təklif edir. Onun işində mərkəzi yeri "güzgü mərhələləri" tutur, harada ki, körpə ilk dəfə özünü öz şəxsi obrazı ilə identifikasiya edir. Bu identifikasiya mahiyyəti etibarilə yad olan "ideal Mən" yaradır, belə ki, o, fraqmentar "Mən"in tamlığı ilə çata bilməyəcəyi mükəmməllik obrazını əks etdirir (3).

J. Lacan üçün intihar öz-özlüyündə fraqmentar "Mən" və əlçatmaz ideal arasındakı gərginliyi həll etməyə cəhdi ifadə edə bilər. İdentikliyə əlavə olaraq, insanın "simvolik" və "xəyali" mahiyyəti onun kim olduğu ilə kim olması lazım olduğu arasında görünən sanki dözülməz uçurumdan qaçmaq istəyi ilə kulminasiya nöqtəsinə çatır. Bundan əlavə, Lacan'ın "jouissance" (həddindən artıq həzz və ya ağrı) anlayışı intihar davranışının da iztirabdan nihai, transsendental azadlığa nail olmaq cəhdi ola biləcəyini göstərir (18).

A. Freud'un (1895-1982) müdafiə mexanizmləri haqqında əsərində insanların konflikt və həyəcanın öhdəsindən şüursuz şəkildə necə gələ bildikləri qeyd edilir. İntihar halında sıxışdırma, inkaretmə və proyeksiya kimi zorakılıqdan müdafiə mexanizmləri Eqo'nu müdafiə etməyə bilərlər. Bu, əzici ümidsizlik hissinə gətirib çıxarır (19). Məsələn, onu təhqir edən birinə qarşı qəzəbini sıxışdıran bir insan, şüursuz olaraq bu qəzəbini öz içinə yönəldə bilər. Bu, özünü məhv etmək düşüncələrinə gətirib çıxarır və parçalanma (splitting) müdafiə mexanizmi – təcrübələri "hamısı yaxşı" və ya "hamı pis" olaraq bölmək də – buna şərait yarada bilər. Nəticədə, ziddiyyətli emosiyalarla barışa bilməmək qabiliyyəti intihar riskini artırır.

Qeyd etməliyik ki, intiharın psixoanalitik nəzəriyyə prizmasından anlaşılması klinik praktikaya dərin təsir göstərir. Terapiya şüursuz konfliktlərin üzə çıxarılmasına, çözülməmiş kədərlə işə və Eqo'nun möhkəmləndirilməsinə mərkəzləşə bilər. Bu zaman əsas rəhbər tutulacaq prinsiplər aşağıdakılar ola bilər:

-*Röyaların təhlili:* şüursuz qorxuların, istəklərin və konfliktlərin üzə çıxarılması üçün röyaların tədqiq olunması (20).

-*Köçürmə və əksköçürmə:* gizli hiss və modellərin üzə çıxarılması üçün terapevtik münasibətlərin təhlili (21).

-*Yenidən işləmə:* pasiyentə sıxışdırılmış qəzəb, günahkarlıq və ya kədər hissi ilə qarşılaşmağa və onları inteqrasiya etməyə kömək etmək.

-Eqo'nun möhkəmləndirilməsi: Daxili və xarici stressorları idarə etmək üçün davamlılıq və adaptiv mübarizə mexanizmlərinin qurulması.

Müzakirə

Psixoanalitik nəzəriyyələrin dəyərli fikirlər təqdim etməsinə baxmayaraq, bu nəzəriyyələr empirik sübutların olmamasına və sosial-mədəni amillərdən daha çox daxili psixoloji proseslərə önəm vermələrinə görə tənqid edilmişdir. Müasir yanaşmalar intihar haqqında daha tam bir anlayışı təmin etmək üçün çox vaxt psixoanalitik anlayışları koqnitiv, davranış, sistematik və sosial-mədəni modellərlə birləşdirir.

Məsələn, bağlanma nəzəriyyəsi üzrə tədqiqatlar erkən münasibətlərin psixi sağlamlığa və intihar riskinə necə təsir etdiyini araşdırmaq üçün psixoanalitik prinsiplərə əsaslanır (22). Eynilə, psixoanalitik nəzəriyyələrin neyroelmlə inteqrasiyası şüursuz proseslərin beyin fəaliyyətində və davranışında necə təzahür etdiyinə dair anlayışımızı dərinləşdirdi (23).

Problemin aktuallığı. Günümüzdə XXI əsrin texnologiya əsri olmasına baxmayaraq, intihara götürən səbəblərin hələ də dəqiq müəyyən edilə bilməməsi şüursuzluq konsepsiyasını inkişaf etdirən psixoanalitik nəzəriyyələrə baxışı yenidən aktual edir.

Problemin elmi yeniliyi. İlk dəfə məqalədə intihara psixoanalitik yanaşmanın müddəaları sistemli işlənilmiş, intiharla bağlı psixoanalitik düşüncənin yol xəritəsi çəkilmişdir.

Problemin praktik əhəmiyyəti. İntihara psixoanalitik nəzəriyyələr perspektivində yanaşmaq psixoanalitik metodlardan istifadə edərək pasiyentlərlə, o cümlədən psixoanalitik ədəbiyyatla iş prosesində intihara meylliliyin əsasında dura biləcək şüursuz motivləri və amilləri aşkar etməyə imkan yaradır.

Ədəbiyyat:

1. Freud, S. Beyond the Pleasure Principle: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 1961.
2. URL: https://ia902907.us.archive.org/17/items/SigmundFreud/Sigmund%20Freud%20%5B1920%5D%20Beyond%20The%20Pleasure%20Principle%20%28James%20Strachey%20Translation%201961%29.pdf
3. Klein, M. Notes on Some Schizoid Mechanisms: [Electronic resource] / Envy and Gratitude and Other Works 1946–1963,104():1-24. – 1975. URL: https://pep-web.org/browse/document/IPL.104.0001A?index=20&openNotificationModal=false&page=1
4. Lacan, J. The Mirror Stage as Formative of the *I* Functionas Revealed in Psychoanalytic Experience: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 2006. URL: https://mudrac.ffzg.hr/~bmikulic/Filoz-Psy2012/JL_0393329259.pdf
5. Freud, S. (1917). Mourning and Melancholia: [Electronic resource] / The Standard Edition of the Complete Psychological Works of Sigmund Freud, Volume XIV (1914-1916): On the History of the Psycho-Analytic Movement, Papers on Metapsychology and Other Works, 243-258
6. URL:https://www.sas.upenn.edu/~cavitch/pdf-library/Freud_MourningAndMelancholia.pdf
7. Фрейд, З. Печаль и меланхолия // Суицидология: прошлое и настоящее. – М.: Когито-центр, – 2001. – с. 255-270.
8. Моховиков, А.Н. Суицидология: Прошлое и настоящее: Проблема самоубийства в трудах философов, социологов, психотерапевтов и в художественных текстах. – М.: Издательство Когито-Центр, – 2013. – 376 с.
9. Менингер, К. Война с самим собой / пер. Ю. Бондарева. – М.: Изд-во ЭКСМО-Пресс, – 2001. – 480 с.
10. Jung, C.G. Man and His Symbols: [Electronic resource] / Anchor Press, Doubleday/New York/London/Toronto/Sydney/Auckland. – 1964. URL: https://antilogicalism.com/wp-content/uploads/2017/07/man-and-his-symbols.pdf
11. Jung, C.G. Psychology and Alchemy (Collected Works, Vol. 12) : [Electronic resource] / The Collected Works Of C.G.Jung Volume 12, Bollingen Series XX, *Princeton University Press. – USA. – 1980.* URL: https://maypoleofwisdom.com/wp-content/uploads/2021/02/collected-works-of-c.g.-jung-volume-12-psychology-and-alchemy-pdfdrive-.pdf
12. Jung, C.G. (1954). The Practice of Psychotherapy (Collected Works, Vol. 16) : [Electronic resource] / The Collected Works Of C.G.Jung Volume 16, Bollingen Series XX, *Princeton University Press. – USA. – 1985.* URL: https://jungiancenter.org/wp-content/uploads/2023/09/Vol-16-the-practice-of-psychotherapy-essays-on-the-psychology-of-the-transference-and-other-subjects.pdf

13. Casement, A. The shadow: [Electronic resource] / In Renos K. Papadopoulos (ed.), The Handbook of Jungian Psychology: Theory, Practice and Applications. Routledge. pp. 94 (2006) URL: https://appliedjung.com/wp-content/uploads/2020/06/Casement_Ann_The_Handbook_of_Jungian_Psychology.pdf
14. Юнг, К.Г. Аналитическая психология и психотерапия: хрестоматия / К.Г. Юнг. – СПб.: Питер, – 2001. – 232 с.
15. 13.Эриксон, Э. Детство и общество / Э.Эриксон. – СПб.: Ленато, АСТ, Фонд «Университетская книга», – 1997. – 592 с.
16. Fromm, E. Sevginin ve şiddetin kaynağı / İngilisce aslından çevirenler: Y.Salman ve N.İçten. – İstanbul: Payel, – 2014. – 144 s.
17. Фромм, Э. Бегство от свободы / пер. с англ. А.Лактионова. – М.: Аст:Аст МОСКВА, – 2009. – 284 с.
18. Хорни, К. Наши внутренние конфликты: Невроз и развитие личности // Собр. соч.: в 3 т. – М.: Смысл, – 1997. Т.1. – с. 37.
19. Klein, M. (1935). A Contribution to the Psychogenesis of Manic-Depressive States: [Electronic resource] / International Journal of Psychoanalysis 16:145-174
20. URL: https://nonoedipal.wordpress.com/wp-content/uploads/2009/10/psychogenesis-of-manic-depressive-states.pdf
21. Lacan, J. Ecrits: A Selection: [Electronic resource] / W.W.Norton & Company. – NewYork/London. – 2006. URL: https://mudrac.ffzg.hr/~bmikulic/Filoz-Psy2012/JL_0393329259.pdf
22. Freud, A. The Ego and the Mechanisms of Defence: [Electronic resource] / The Hogarth Press. London. – 1966. URL: https://psptraining.com/wp-content/uploads/Freud-A.-1936-1993.The-ego-and-the-mechanisms-of-defence.-London-Karnac-Books.pdf
23. Freud, S. The Interpretation of Dreams: [Electronic resource] / The Macmillan Company. – New York. – 2013
24. URL: https://www.gutenberg.org/cache/epub/66048/pg66048-images.html
25. Klein, M. The Origins of Transference: [Electronic resource] / Envy and Gratitude and Other Works 1946–1963,104():48-56 – 1975. URL: https://pep-web.org/browse/document/IPL.104.0048A
26. Bowlby, J. Attachment and Loss: Vol. 3. Loss, Sadness, and Depression: [Electronic resource] / The Travistock Institute of Human Relations. – USA. – 1980. URL: https://sycofx.wordpress.com/wp-content/uploads/2012/11/john-bowlby-loss-sadness-and-depression-attachment-and-loss-1982.pdf
27. Solms, M. The Interpretation of Dreams and the Neurosciences: [Electronic resource] / The Scientific Meeting of The British psychoAnalytical Society on 17th November, 1999. URL: https://psychoanalysis.org.uk/articles/the-interpretation-of-dreams-and-the-neurosciences-mark-solms

Redaksiyaya daxil olub: 27.01.2025

UOT 159.9

Pərvin Vaqif qızı Quliyeva
Bakı Dövlət Universitetinin
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0001-8866-9141
E-mail: parvin198196@gmail.com
https://doi.org/10.69682/arti.2025.92(1).250-253

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARLA PEDAQOJİ İŞ ZAMANI MÜƏLLİM MƏSULİYYƏTİ

Парвин Вагиф гызы Гулиева
докторант по программе доктора философии
Бакинского Государственного Университета

ОТВЕТСТВЕННОСТЬ УЧИТЕЛЯ ПРИ ПЕДАГОГИЧЕСКОЙ РАБОТЕ С ДЕТЬМИ, НУЖДАЮЩИМИСЯ В ОСОБОЙ ЗАБОТЕ

Parvin Vaqif Quliyeva
doctorial student in the program of philosophy at Baku State University

TEACHER RESPONSIBILITY DURING PEDAGOGICAL WORK WITH CHILDREN WITH SPECIAL NEEDS

Xülasə. Müasir təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunması, digər uşaqlarla birgə təhsil alması onların yalnız akademik bacarıqlarına deyil, eləcə də sosial-emosional inkişafına da öz töhfəsini verir. Bu prosesdə şagird kollektivinin idarə olunması, münasibətlərin tənzimlənməsi, eləcə də xüsusi qayğı və yanaşma tələb edən bu uşaqların təhsil nəticələrinin qiymətləndirilməsi müəllimlərdən bacarıq, bilik və məsuliyyət tələb edir. Əlbəttə ki, bu prosesə ilk növbədə təhsilverənlərin hazır olması mütləqdir. Məqalədə müəllimlərin xüsusi qayğıya ehtiyacı olan bu uşaqlarla işləyərkən malik olmalı olduğu bacarıqları, məsuliyyət daşıdıqları məqamlar təhlil edilmişdir. Məqalə nəzəri materialların araşdırılmasına əsaslanır və bu sahədə tədqiqat aparan şəxslər, pedaqoji heyət və müəllimlər üçün əhəmiyyət kəsb edə bilər.
Açar sözlər: *xüsusi qayğıya ehtiyacı olan uşaqlar, inklüziv təhsil, sosial emosional bacarıqlar, təhsil mühiti*

Аннотация. В современной системе образования вовлечение детей с ограниченными возможностями в процесс обучения и совместное обучение с другими детьми способствует не только развитию их академических навыков, но и их социальному и эмоциональному развитию. В этом процессе управление коллективом учащихся, регулирование взаимоотношений, а также оценивание результатов обучения этих детей, требующих особой заботы и подхода, требуют от учителей навыков, знаний и ответственности. Конечно, важно, чтобы в первую очередь к этому процессу были готовы педагоги. В статье анализируются навыки и обязанности, которыми должны обладать педагоги при работе с детьми, нуждающимися в особой заботе. Статья основана на изучении теоретических материалов и может представлять интерес для исследователей в данной области, педагогических работников и учителей.
Ключевые слова*: дети с особыми потребностями, инклюзивное образование, социально-эмоциональные навыки, образовательная среда.*

Abstract. In the modern education system, involving children with disabilities in education and studying together with other children contributes not only to their academic skills, but also to their social and emotional development. In this process, managing the student body, regulating relationships, as well as evaluating the educational results of these children who require special care and approach, requires skills, knowledge and responsibility from teachers. Of course, it is imperative that educators are ready for this process first of all. The

article analyzes the skills that teachers should have when working with these children who need special care and the points of responsibility they bear. The article is based on the study of theoretical materials and may be of importance for those conducting research in this field, pedagogical staff and teachers.

Keywords: *children with special needs, inclusive education, social emotional skills, educational environment*

Giriş: 1970-ci illərdən bəri təhsil sistemində sağlamlıq imkanları məhdud şəxslərə dəstək əhəmiyyətli dərəcədə artdı, bu məqam ABŞ-da üç əsas qanunvericilik aktında öz əksini tapırdı: 1973-cü, 1975-ci və 1990-cı il Əlilliyi olan şəxslər üçün Təhsil Aktı (IDEA-individuals with disabilities education act). Tətbiq edilən qanunvericilik aktları sağlamlıq imkanları məhdud olan öyrənənlər üçün alternativ qiymətləndirmələr, daha az məhdudlaşdırıcı mühitə yerləşdirmə və fərdi təhsil planları daxil olmaqla yeni təhsil təcrübələrini təhsil sisteminə gətirdi [15].

Sağlamlıq imkanları məhdud olan şagirdləri təsnif etməyin bir çox yolu var ki, lakin bu təsnifatlar stereotipləşdirmə və fərdlərin güclü və ehtiyaclarını qiymətləndirmədə müəyyən risklər daşıyır. Öyrənmə çətinlikləri olan şagirdlərin təhsil sistemində yeri, şagird və müəllim münasibətlərinin təhlili tədqiqatçılar tərəfindən öyrənilmiş və proqramlar hazırlanmışdır [3,4, s.170].

Ədəbiyyat təhlili: IDEA – "İndividuals with disabilities education act" qanunvericiliyi üç yeni gözlənti yaratmaqla müəllimlərin işinə müsbət təsir etmişdi [15]. Birinci gözlənti əlilliyi olan şagirdlər üçün alternativ qiymətləndirmə üsullarının təmin edilməsidir; ikincisi, mümkün qədər normal və ya "ən az məhdudlaşdırıcı" olan öyrənmə mühitini təşkil etməkdir; üçüncüsü isə əlilliyi olan şagirdlər üçün fərdi təhsil planlarının yaradılmasında iştirak etməkdir [5, s.344-347].

Alternativ qiymətləndirmələr: sağlamlıq imkanları məhdud olan öyrənənlərin kontekstində qiymətləndirmə ilk növbədə şagird haqqında məlumat toplamaqla başlayır. Burada həm tələbənin güclü tərəflərini müəyyən etmək, həm də onun hansı xüsusi təhsil dəstəyinə ehtiyacı olduğunu müəyyən etmək nəzərdə tutulur. Bunlar müəllimlərin bütün tələbələr üçün yanaşmasında mütləqdir: qiymətləndirmə, məsələn, testlər və tapşırıqlar verərkən və sinif müzakirələri zamanı tələbələrin şərhlərinin keyfiyyətinə diqqətlə qulaq asmaq lazımdır. Sağlamlıq imkanları məhdud olan öyrənənlər üçün isə bu cür ənənəvi qiymətləndirmə strategiyaları çox vaxt tələbələrin səriştəsini ciddi şəkildə qiymətləndirmir [4, s.170, 5,s.360]. Əlillikdən asılı olaraq, şagird (a) qələm tutmaq, (b) sualı aydın eşitmək, (c) şəklə diqqət yetirmək, (d) cavabı bilsə də, cavabı vaxtında qeyd etməkdə, (e) başqa insanların yanında diqqəti tapşırığa cəmləmək və ya (f) suala sinfin qalan hissəsinə lazım olan sürətlə cavab verməkdə çətinlik çəkə bilər [5, s.360.,6, s.180,7, s.198]. Ənənəvi olaraq, müəllimlər bütün tələbələrin ya bu bacarıqlara sahib olduqlarını, ya da onları az miqdarda məşq, təşviq və iradə gücü ilə öyrənə biləcəklərini güman edirdilər. Bir çox digər öyrənənlər üçün, məsələn, belə bir şey demək kifayət ola bilər: "Sualı diqqətlə dinləməyi unutmayın!". Sağlamlıq imkanları məhdud olan öyrənənlər üçün isə belə bir şərh işləməyəcək və hətta həssas ola bilər. Görmə qüsuru olan şagirdə "lövhədə yazdıqlarıma diqqətlə baxmağı" xatırlatmağa ehtiyac yoxdur; bunu etmək şagirdin lövhəni daha aydın görməsinə səbəb olmayacaq – baxmayaraq ki, xatırlatma tələbənin narahatlığını və özünüdərkini artıra bilər [8, s. 210].

Qiymətləndirmələri ədalətli olmağa çalışan və eyni zamanda müəllimlərin adətən nə qədər məşğul olduqlarını tanıyan üsullarla dəyişdirmək üçün bir sıra strategiyalar mövcuddur. Bunlardan biri, şagirdin zamanla inkişafını nümayiş etdirən və adətən şagirdin, müəllimin və ya hər ikisinin bir növ əks etdirən və ya qiymətləndirici şərhlərini özündə əks etdirən tələbə işlərinin toplusu olan portfoliolarla şərti tapşırıqları və ya testləri əlavə etməyi düşünməkdir [6, s.121-123]. Digəri, qısa da olsa, şagirdi müntəzəm olaraq müşahidə etmək və sonradan müşahidələr haqqında qeydləri qeyri-rəsmi olaraq qeyd etmək üçün bir sistem hazırlamaqdır. Üçüncü strategiya, bəzən sağlamlıq imkanları məhdud olan öyrənənlərə kömək etmək üçün iştirak edən müəllim köməkçilərini cəlb etməkdir; köməkçi tez-tez şagirdə qısa bir test və ya fəaliyyət həyata keçirə bilər və daha sonra nəticələr haqqında hesabat verə və müəllimlə müzakirə edə bilər [6, s.121].

Bu strategiyalar üzərində düşünmək, onların səmərəli ola biləcəyini sınaqdan keçirmək olar. Sağlamlıq imkanları məhdud olan öyrənənlər bir şəkildə bacarıq nümayiş etdirirsə, lakin digər öyrənənlər bunu başqa cür nümayiş etdirirlərsə, onlara oxşar kredit verilməlidirmi? Digər tərəfdən, şagirdin normal eşitmə qabiliyyəti kimi müəllimlərin, prinsipcə, heç vaxt öyrədə bilməyəcəyi qabiliyyəti olmadığına görə, bir şagirdin aşağı qiymət alması ədalətlidirmi? Bu etik məsələlər qanuni və vacib xarakter daşıyır və sual yaradır.

Ən az məhdudlaşdırıcı mühit (least restrictive environment)

Mövcud qanunvericilik əlilliyi olan tələbələri mümkün qədər adi sinif otaqları və məktəb proqramları ilə şagirdi cəlb edən parametrlərin birləşməsi kimi müəyyən edilən ən az məhdudlaşdırıcı mühitə yerləşdirməyi tələb edir [11,s.30-32, 12, s.10-12]. Dəqiq birləşmə müəyyən bir məktəbin və şagirdin şəraiti ilə müəyyən edilir. Məsələn, yüngül idrak qüsuru olan bir uşaq bağçasında vaxtının çox hissəsini adi uşaq bağçası sinfində keçirə, əlil olmayan sinif yoldaşları ilə birlikdə işləyə və onlarla oynaya bilər və lazım olduqda kömək üçün müəllim köməkçisinə arxalana bilər. Orta məktəbdə oxşar əlilliyi olan şəxs, ilk növbədə, yavaş öyrənənlər üçün nəzərdə tutulmuş siniflərə təyin oluna bilər, lakin buna baxmayaraq, əlil olmayan tələbələrlə birlikdə bəzi məktəb miqyasında fəaliyyətlərdə iştirak edə bilər. Bu mühitdəki fərq müəllimlərin hər bir halda kurikulumun dəyişdirilməsinin nə qədər çətin olduğuna dair təsəvvürlərini əks etdirə bilər; düzgün və ya yanlış olaraq, müəllimlər uyğunlaşmanı "yuxarı" sinif səviyyələrində daha çətin hesab edirlər. Eyni şəkildə, ciddi fiziki qüsurlu bir şagird təhsil illəri boyunca praktiki olaraq vaxtını müntəzəm dərslərdə keçirə bilər; bu halda kurikulumun uyğunlaşdırılması problem olmayacaq.

Müəllimlər üçün, ən az məhdudlaşdırıcı mühitə üstünlük verən siyasət o deməkdir ki, əgər müəllim kifayət qədər uzun müddət dərs deməyə davam edirsə, çox güman ki, siniflərdə əlilliyi olan bir şagirdlərlə qarşılaşmış və bu kimi hallarda müəyyən cavabdehlik, məsuliyyət daşımışdır. Statistik olaraq, xüsusi ehtiyacların ən çox rast gəlinən formaları öyrənmə əlilliyidir ki, bu da öyrənmənin spesifik aspektlərində, xüsusən də oxumaqda qüsurlardır. Öyrənmə əlilləri bütün xüsusi təhsil ehtiyaclarının təxminən yarısını təşkil edir – bütün digər növlərindən dəfələrlə çoxdur. Bir az daha az rast gəlinənlər nitq və dil pozuntuları, koqnitiv problemlər və diqqət çatışmazlığı hiperaktivlik pozuntularıdır (ADHD).

Fərdi təhsil planı

IDEA qanunvericiliyinin və mövcud təhsil yanaşmalarının müəllimlərə təsir göstərməsinin üçüncü yolu müəllimlərdən və digər peşəkar işçilərdən əlilliyi olan hər bir şagird üçün illik fərdi təhsil planı hazırlamağı tələb etməkdir [13, s. 15]. Plan şagirdin güclü tərəflərini və ehtiyaclarını bilən şəxslərdən ibarət komanda tərəfindən yaradılır; buraya ən azı bir və ya bir neçə sinif müəllimi, "resurs" və ya xüsusi təhsil müəllimi və şagirdin valideynləri və ya qəyyumları daxildir. Bəzən komandanın tərkibinə uşağın əlilliyinin xarakterindən asılı olaraq məktəb administratoru (müdir müavini kimi) və ya məktəbdən kənardan olan digər mütəxəssislər (psixoloq və ya həkim kimi) daxil ola bilər. Fərdi plan bir çox formada ola bilər, lakin o, həmişə şagirdin cari sosial və akademik güclü tərəflərini, eləcə də şagirdin sosial və ya akademik ehtiyaclarını təsvir edir. O, həmçinin gələn il üçün təhsil məqsədlərini və ya vəzifələrini müəyyənləşdirir, təqdim ediləcək xüsusi xidmətlərin siyahısını verir və ilin sonunda hədəflərə doğru irəliləyişin necə qiymətləndiriləcəyini təsvir edir. Bu şagirdlər üçün planın məqsədləri tez-tez məktəbdən sonrakı dövr üçün də fəaliyyətləri ehtiva edir.

Əgər sinifdə sağlamlıq imkanları məhdud olan öyrənənlər varsa, tədris üçün iki nəticə gözləyə bilərsiniz. Birincisi, şagird üçün dəqiq, aydın planlar qurmağı və planları yazılı şəkildə yazmaq lazımdır [14, s.94] . Bu nəticə, əlbəttə ki, kurikulumu zənginləşdirmək üçün gözlənilməz və ya kortəbii sinif hadisələrindən istifadəyə də mane olmur. Ancaq bu o deməkdir ki, əlilliyi olan bir tələbə üçün gözlənilməz və ya kortəbii təhsil proqramı ola bilməz. İkinci nəticə odur ki, müntəzəm sinif proqramlarını planlaşdırarkən olduğu kimi, tək bir təhsil planı qurmağı gözləmək olmaz. Əlilliyi olan şagirdləri komandanın bir hissəsi kimi planlaşdırmaq lazımdır [14, s.120-122]. Bu zaman bir çox mənbələrdən ideyaları birləşdirərək fərdi inkişaf planı keyfiyyətini yaxşılaşdırmağa imkan verir - hətta peşəkarları şagirdlərə mümkün qədər yaxşı xidmət etmək üçün komanda üzvləri ilə aydın ün-

siyyət qurmağa və hörmətlə əməkdaşlıq etməyə çağırır.

Problemin aktuallığı. Sağlamlıq imkanları məhdud olan öyrənənlər, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təhsildən yayınmalarının qarşısını almaq, onların mövcud təhsil sisteminə qoşulması və dəstəkləmək aktuallıq edir və tədqiqatçılar və təhsil sistemi qarşısında vacib əhəmiyyətli məqsəd olaraq mövcuddur.

Problemin yeniliyi. Sağlamlıq imkanları məhdud olan öyrənənlərin psixi sağlamlıq problemləri, onların təhsilə cəlb olunması bir sıra ədəbiyyat nümunələrində əksini tapır. Lakin bu sahədə müəllimlərin məsuliyyətinin araşdırılması yenilik kəsb edir.

Problemin praktik əhəmiyyəti. hazırlanmış məqalə tədqiqatçılar, tələbələr və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər.

Ədəbiyyat:

1. Algozzine, R. & Ysseldyke, J. (2006). *Teaching students with emotional disturbance: A practical guide for every teacher.* Thousand Oaks, CA: Corwin Press.
2. American Association on Mental Retardation. (2002). *Definition, classification, and system of supports,10th edition.* Washington, D.C.: Author.
3. American Psychiatric Association. (2000). *Diagnostic and statistical manual of mental disorders, DSM-IVTR (text revision).* Arlington, VA: American Psychiatric Association.
4. Biklen, S. & Kliewer, C. (2006). Constructing competence: Autism, voice and the "disordered" body. *International Journal of Inclusive Education, 10*(2/3), 169-188.
5. Bradley, M. & Mandell, D. (2005). Oppositional defiant disorder: A systematic review of the evidence of intervention effectiveness. *Journal of Experimental Criminology, 34*(1), 343-365.
6. Carothers, D. & Taylor, R. (2003). Use of portfolios for students with autism. *Focus on Autism and Other Developmental Disorders, 18*(2), 121-124.
7. Chamberlain, S. (2005). Recognizing and responding to cultural differences in the education of culturally and linguistically diverse learners. *Intervention in School and Clinic, 40*(4), 195-211.
8. Green, S., Davis, C., Karshmer, E., March, P. & Straight, B. (2005). Living stigma: The impact of labeling, stereotyping, separation, status loss, and discrimination in the lives of individuals with disabilities and their families. *Sociological Inquiry, 75*(2), 197-215.
9. Hallahan, D. & Kauffman, J. (2006). *Exceptional learners: Introduction to special education, 10th edition.* Boston: Allyn & Bacon.
10. Kelly, S. (2004). Are teachers tracked? On what basis and with what consequences. *Social psychology in education, 7*(1), 55-72.
11. Koretz, D. & Barton, K. (2003/2004). Assessing students with disabilities: Issues and evidence. *Assessment and Evaluation, 9*(1 & 2), 29-60.
12. Luckner, J. L. & Carter, K. (2001). *Essential Competencies for Teaching Students with Hearing Loss and*
    Additional Disabilities. 146(1), 7-15
13. Snell, M., Janney, R., Elliott, J., Beck, M., Colley, K., & Burton, C. (2005). *Collaborative teaming: Teachers' guide to inclusive practices.* Baltimore, MD: Brookes Publishing Co.

https://courses.lumenlearning.com/suny-educationalpsychology/chapter/intellectual-disabilities/

14. Stowitschek, J., Lovitt, T., & Rodriguez, J. (2001). Patterns of collaboration in secondary education for youth with special needs: Profiles of three high schools. *Urban Education, 36*(1), 93-128
15. https://sites.ed.gov/idea/about-idea/

Redaksiyaya daxil olub: 31.01.2025

UOT 796.011.3(075.8)

Pərviz Nazir oğlu Quliyev
Azərbaycan İdman Akademiyasının dosenti
https://orcid.org/0000-0002-7559-2624
E-mail: pervizquliyev82@mail.ru
https://doi.org/10.69682/arti.2025.92(1).254-258

MÜTƏHƏRRİK OYUNLAR FİZİKİ TƏRBİYYƏ VASİTƏSİ KİMİ

Парвиз Назир оглу Гулиев
доцент Азербайджанской Академии Спорта

ПОДВИЖНЫЕ ИГРЫ КАК СРЕДСТВО ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

Parviz Nazir Guliyev
associate professor at the Azerbaijan Sport Academy

OUTDOOR GAMES AS A MEANS OF PHYSICAL EDUCATION

Xülasə. Pedaqoji təcrübədə oyun metodları ümumi fiziki hazırlıq vəzifələrinin həllində istifadə olunur, eyni zamanda idman məşğələlərində xüsusi olaraq köməkçi əhəmiyyəti vardır. Həmçinin məşğul olanlarda da müsbət mənəvi və iradi keyfiyyətlərin tərbiyələnməsinin həqiqi amilidir. Məktəb yaşlı uşaqların fiziki tərbiyəsinin nəzəriyyəsi və metodikasını öyrənən zaman mütəhərrik oyunların pedaqoji xarakteristikası ilə tanış olmaq zəruridir. Uşaqların özfəaliyyətindən və reqlamentləşdirilmiş tədris-tərbiyə işində oyunların yeri, rolu və əhəmiyyətinin düzgün meyarının qiymətləndirilməsində kömək göstərir.
Açar sözlər: *mütəhərrik oyunların, sosiallaşma, oyun texnikası, fiziki tərbiyə, fiziki inkişaf*

Аннотация. В педагогической практике игровые методы используются для решения задач общей физической подготовки, но вместе с тем они имеют особое вспомогательное значение на спортивных занятиях. Это также реальный фактор воспитания положительных морально-волевых качеств у учащихся. При изучении теории и методики физического воспитания детей школьного возраста необходимо ознакомиться с педагогическими особенностями подвижных игр. Все это помогает правильно оценить критерии места, роли и значения игр в спонтанной деятельности детей и регламентированной воспитательной работе.
Ключевые слова: *подвижные игры, социализация, игровые техники, физическое воспитание, физическое развитие*

Abstract. In pedagogical practice, game methods are used to solve problems of general physical training, but at the same time they have a special auxiliary value in sports classes. This is also a real factor in the education of positive moral and volitional qualities in students. When studying the theory and methods of physical education of school-age children, it is necessary to familiarize yourself with the pedagogical features of outdoor games. All this helps to correctly assess the criteria of the place, role and importance of games in the spontaneous activities of children and regulated educational work.
Keywords: *outdoor games, socialization, game techniques, physical education, physical development*

"Oyun" sözü vaxt keçirməyə yarayan özünəməxsus qaydaları olan əyləncə; təəccüb oyandıran hünər; musiqinin müşayiəti ilə edilən hərəkətlərin tamamı; təmsil, pyes; fiziki gücü və zəkanı inkişaf etdirmək məqsədi ilə aparılan yarışma; kimi mənaları ifadə edir. Oyun sözünü

“insanı məşğul edən, ona başqa işləri unutduran məşğuliyyət” əvəzində istifadə edilməklə yanaşı, daha geniş mənaları da vardır. Belə ifadə məlumdur: “dəyərli oyun”, “qüvvə oyunu”. “İdman oyunları”, “siyasi oyunlar”, “olimpiya oyunları”, “qədim oyunlar” “Oyun” sözü müxtəlif mənalarda başa düşülür.

Mədəniyyət elementi kimi oyunlar – qədim zamanlardan insanların yoldaşı olmaqla yanaşı, tərbiyə və fiziki inkişaf məqsədi üçün istifadə olunmuşdur. İbtidai cəmiyyətdə fiziki məşqlər ən çox əmək prosesləri, dini ayinlər, təhsil və hərbi işlərlə sıx bağlı idi. Daha təkmil alətlər, eləcə də qəbilə birliklərinin yaranması insanlara öz fəaliyyətlərini həyatın ən ibtidai tələbatlarının ödənilməsinə xidmət edən obyektlərin istehsalı ilə məhdudlaşdırmamaq imkanı verdi. İnsanların ov üçün tez qaçmağı, qorxaq ovda ehtiyatla qaçmağı, iri heyvanla mübarizədə güclü olmağı, sürətli heyvanla qarşılaşdıqda isə məharətlə qaçmağı bacarmalı olduğunu başa düşməsi həlledici əhəmiyyət kəsb edirdi.

Buna görə də ovçu daim məşq etməli, güc, çeviklik və dəqiqlik inkişaf etdirməli idi. Atmaq üçün mərmilər hazırlayarkən sınaq atışları etmək lazım idi. Bu cür məşq gənc nəslin qoşunda, qəbilədə və ya qəbilə həyatında onların qarşısına qoyduğu vəzifələri yerinə yetirməyə hazırlanmasının ayrılmaz hissəsinə çevrildi. İbtidai cəmiyyətdə uşaqlar və böyüklər daş və çubuqla açıq havada keçirilən oyunlarda iştirak edirdilər. Müsabiqədə qazanılan qələbə tayfaya şöhrət gətirdi, qaliblərə mükafatlar verildi. Cəmiyyətin inkişafı və təkamülü nəticəsində oyunlar insan həyatının ayrılmaz bir hissəsinə çevrilməklə yanaşı gənc nəslin inkişafı və formalaşmasında mühüm yerlərdən birini tutmuşdur. Oyunlar insanların müxtəlif tələbatını məmnuniyyətlə təmin edir (istirahətdə, əyləncələrdə, mənəvi və fiziki qüvvənin inkişafında).Oyun əmək və öyrənmə ilə yanaşı, insan fəaliyyətinin əsas növlərindən biridir, varlığımızın heyrətamiz hadisəsidir.

Tərifinə görə, oyun, davranışın özünüidarənin inkişaf etdiyi və təkmilləşdiyi sosial təcrübənin yenidən yaradılması və mənimsənilməsinə yönəlmiş vəziyyətlərdə fəaliyyət növüdür.

İnsan təcrübəsində oyun fəaliyyəti aşağıdakı funksiyaları yerinə yetirir: əyləndirmək, zövq vermək, ruhlandırmaq, maraq oyatmaq; kommunikativ: ünsiyyət dialektikasını mənimsəmək; insan təcrübəsi üçün sınaq meydançası kimi oyunda özünü həyata keçirmək; oyun terapiyası: həyatın digər növlərində yaranan müxtəlif çətinliklərin aradan qaldırılması; diaqnostik: oyun zamanı normativ davranışdan, özünü tanımanın sapmalarının müəyyən edilməsi; korreksiya funksiyası: şəxsi göstəricilərin strukturuna müsbət dəyişikliklərin daxil edilməsi; millətlərarası ünsiyyət: bütün insanlar üçün ümumi olan sosial-mədəni dəyərlərin mənimsənilməsi; sosiallaşma: sosial münasibətlər sisteminə daxil olmaq, insan cəmiyyətinin normalarını mənimsəmək;

Əksər oyunların dörd əsas xüsusiyyəti var.

1. Yalnız uşağın istəyi ilə həyata keçirilən sərbəst inkişaf fəaliyyəti, (yalnız nəticə deyil, fəaliyyət prosesinin özündən həzz almaq üçün)

2. Fəaliyyətin yaradıcı, əsasən də çox aktivliyi

3. Fəaliyyətin emosional yüksəlişi, rəqabət, rəqabət qabiliyyəti, rəqabət və s.

4. Oyunun məzmununu, onun inkişafının məntiqi və zaman ardıcıllığını əks etdirən birbaşa və ya dolayı qaydaların olması.

Bir proses olaraq oyunun strukturuna aşağıdakılar daxildir:

1. Oyunçuların götürdüyü rollar;

2. Rolların həyata keçirilməsi vasitəsi kimi oyun hərəkətləri

3. Əşyaların-inventarların istifadəsi və ya oyunlara uyğun dəyişdirilməsi

4. Oyunçular arasında real münasibətlər; süjet, şərti olaraq oyunda təkrarlanan reallıq sahəsidir.

Oyunların dəyəri tükənməz və onun əyləncə və istirahət imkanları ilə qiymətləndirilə bilməz. Bu fenomenin mahiyyəti budur: Oyunlar əyləncə və istirahət olmaqla, öyrənmə, yaradıcılıq, terapiya, insan münasibətləri və işdəki təzahür növlərinin bir modelinə çevrilə bilər.

İnsanlar qədim zamanlardan bəri oyunlardan yaşlı nəsillərin təcrübəsini öyrənmək və gənclərə ötürmək üsulu kimi istifadə etmişlər. Oyundan xalq pedaqogikasında, məktəbəqədər və məktəbdənkənar müəssisələrdə geniş istifadə olunur. Təhsil prosesinin aktivləşdirilməsinə və intensivləşdirilməsinə əsaslanan müasir məktəbdə oyun fəaliyyətləri aşağıdakı hallarda istifadə olunur:

1. Anlayışların, mövzuların və hətta bir akademik fənnin bir hissəsinin mənimsənilməsi üçün müstəqil texnologiyalar kimi,

2. Daha geniş texnologiyanın elementi kimi,

3. Dərs (dərs) və ya onun bir hissəsi kimi (giriş, izahat, möhkəmləndirmə, məşq, nəzarət)

4. Sinifdən kənar fəaliyyətlər üçün texnologiya kimi,

Dərs zamanı keçirilən oyunlar mühüm xüsusiyyətə malikdir. Bu oyunları təlimin məqsədi və müvafiq xüsusiyyətləri şəkildə ifadə edilmiş təlim məqsədi və müvafiq pedaqoji nəticə, onu əsaslandırmaq, açıq şəkildə müəyyən etmək və təhsil-idrak yönümlülüyü ilə xarakterizə etmək olar.

Dərslərin oyun formasında keçirilməsi, dərslərdə şagirdləri öyrənməyə sövq etmək və həvəsləndirmək vasitəsi kimi çıxış edən oyun texnikası və situasiyaların köməyi ilə yaradılır. Dərslərin dərs formasında oyun texnikası və situasiyalarının həyata keçirilməsi aşağıdakı əsas istiqamətlərdə baş verir:

1. Didaktik məqsəd – şagirdlərə oyun tapşırığı şəklində təqdim olunur

2. Təhsil fəaliyyəti-oyun qaydalarına tabedir. Onun vasitəsi kimi tədris materialından istifadə olunur

3. Rəqabət elementi-didaktik tapşırığı oyuna çevirən təhsil fəaliyyətinə daxil edilir

4. Oyunun nəticəsi- didaktik tapşırığın uğurla yerinə yetirilməsi ilə əlaqələndirilir.

Oyun fəaliyyətinin təzahürü emosional və könüllüdür. Məcburiyyət üzrə icra edilən ciddi reqlament tapşırığı istisnalıq təşkil edir (professionallıq halları mümkündür). Lakin müvafiq oyunlarda sərbəstlik fəaliyyəti bir sıra məcburi şərti tələbatlarla uyğunlaşır. Mütəhərrik oyunların fəaliyyəti prosesində heç bir maddi dəyər yaradılmır və həyat üçün lazım olan bilik və bacarıqların əldə olunmasında təbiətin heç bir rifahı pozulmur, neməti mənimsənilmir.

Şagirdlərin fiziki tərbiyəsinə ayrılmış vaxt uşaqların yaşından, oxuduğu sinifdən, il ərzində təlim qaydalarından asılıdır.

Təhsil və təlim dəyəri. Oyun tapşırıqlarının şüurlu şəkildə yerinə yetirməsi, tələbələrdə artan maraq və nizam-intizam keçirilən oyunlarda məşğul olanlarda oyunlara qarşı daha böyük maraq oyadacaqdır.

Oyunçuların təşkilatçılığına əsaslanan mütəhərrik oyunlarını nəzərə alsaq, aşağıdakıları vurğulaya bilərik:

a) komandanı komandalara bölmədən (iştirakçılar arasında ən sadə münasibətlərə əsaslanan oyunlar);

b) komandanın komandalara bölünməsi ilə (kollektiv fəaliyyətin təşviqinə yönəlmiş oyunlar).

Oyunlar müxtəlif kombinasiyalarda keçirilə bilər:

a) aktiv mübarizələrin getdiyi oyunlar;

b) rəqiblə təmasda olmayan oyunlar;

c) hər bir iştirakçının hərəkətlərinin bərabər istiqamətləndirildiyi və fərdi tapşırıqların yerinə yetirilməsi ilə əlaqəli olduğu estafet oyunlarına bölmək olar.

Tərkibində iştirakçıların sayı az olmaqla və ya bütün sinif, idman bölməsi, bir sıra hallarda iştirakçıların sayı həddindən artıq çox olması ilə əlaqədar eyni vaxtda keçirilən kollektiv mütəhərrik oyunlar pedaqoji təcrübədə mühüm yerlərdən birini tutur.

Fərdi (tək) mütəhərrik oyunlar adətən uşaqlar tərəfindən yaradılır və təşkil olunur. Belə oyunlarda hər bir iştirakçı öz planını tutur, özü üçün maraqlı şərait və qaydalar təyin edir, istədiyi vaxt bunu dəyişə də bilər. Şəxsi istəyi ilə fikirləşdiyi fəaliyyəti həyata keçirmək üçün yollar axtarır və seçir.

Belə oyunlardan müəllimlər, fəal iştirakçılar, uşaq və yeniyetmələr bədən tərbiyəsi və idman üzrə sinifdənxaric və məktəbdənxaric işlərini aparanlar istifadə edirlər.

İdman oyunları – bir sıra mütəhərrik oyunlarının daha yüksək inkişaf səviyyəsidir. Möhkəm qaydaya, az və ya çox dayanıqlı şəraitdə keçirilən mütəhərrik oyunlar idman oyunları xasdır. Belə oyunlarda ümumi və xüsusi fiziki, texniki və taktiki hazırlıqları eyni səviyyədə olan iştirakçıların sayı dəqiq olmalıdır. Seçilmiş oyunda daima təkmilləşmək üçün iştirakçılar təyin olunmuş məşq rejiminə riayət etməli, seçilmiş oyun məşğələlərini digər idman növlərinin məşğələləri ilə uyğunlaşdırmalıdır.

Fiziki tərbiyə vasitəsi kimi mütəhərrik oyunlarından da geniş istifadə olunur. Mütəhərrik oyunlar komponenti tarixən toplanmış (məzmunu, forması və metodiki xüsusiyyəti) effektli fiziki tərbiyə vasitələri vəzifəsində istifadə olunmasına imkan verir. Mütəhərrik oyunların məzmunu onun süjetini (mövzu, ideya), qayda və

hərəki fəaliyyətini təşkil edir. Nəsildən nəslə ötürülən insan təcrübəsindən oyunun məzmunu törənir.

Oyunun süjeti oyun münaqişəsinin inkişafını və xarakterini, oyunçuların fəaliyyətinin məqsədini müəyyənləşdirir. O, süjeti həqiqi ətraf mühiti fəaliyyətindən (məsələn, ovçuluq, əmək, hərbi, məişət) və ya oyunçuların müxtəlif qarşılıqlı fəaliyyət sxemi növündən, fiziki tərbiyə vəzifələrindən götürülür (məsələn, müasir idman növlərində "Xizəklərlə irəli" oyunu

"Xizəklərlə irəli"

Oyunun süjeti nəinki oyunçuların bütövlükdə fəaliyyətini canlandırır, hətta texnikanın ayrı-ayrı üsulların və taktiki elementlərin məqsədəuyğunluğuna üstünlük verir, oyunu daha maraqlı edir.

Qaydalar-oyunun iştirakçıları üçün ən vacib tələbatdır. Onlar oyunçuların yerləşməsinə və yerdəyişmələrinə səbəb olur, oyunçuların hüquq və vəzifələrini, davranış xarakterini dəqiqləşdirir, nəticələrin qəbulu şərtlərini müəyyənləşdirir. Bu zaman oyun qaydaları çərçivəsində oyunçuların yaradıcı fəaliyyətlərinin üzə çıxması istisna deyildir.

Mütəhərrik oyunlarda *hərəki fəaliyyət* həddindən artıq rəngarəngdir. Onlar, məsələn, təqlidi, obrazlı-yaradıcı, ritmik ola bilər; cəldlik, çeviklik, qüvvə və digər fiziki keyfiyyətlərin təzahürünü tələb edən hərəki vəzifə növündə icra olunur. Oyunda istiqamətin gözlənilmədən dəyişilməsi ilə qısa qaçışlara və hərəkətin saxlanmasına; müxtəlif hədəfə və uzağa atmalara; hoppanmaqla, müqavimət göstərməklə; xüsusi fiziki hazırlıq prosesində əldə olunmuş rəngarəng hərəkətlərin tətbiq etməni tələb edən fəaliyyətlərə və s. rast gəlmək olar. Bütün bu fəaliyyətlər müxtəlif kombinasiya və müqayisələrdə icra olunur.

Mütəhərrik oyunların forması onların məzmunu ilə müəyyənləşir (təşkilin xarakteri və iştirakçıların qarşılıqlı münasibəti). Oyun fəaliyyəti prosesindən məmnunluq və yaradıcı təşəbbüsün təqdimində iştirakçıların təşkili fəaliyyəti belə mütəhərrik oyunlar üçün xarakterikdir.

Oyun metodu oyun üçün xarakterik olan metodiki üsullardan istifadə edilərək turizm, idmanın digər növləri ilə, əsas gimnastika məşğələlərində tətbiq edilir (obrazlılığı, yarış elementləri, hərəkətin təbiiliyi və s.).

Bu zaman bu və ya digər hərəkətlərdən istifadə etmək məqsədi nəzərə alınmalıdır (istirahət, əyləncə və s.).

Müxtəlif idman növləri məşğələlərində mütəhərrik oyunlar texnikanın təkmilləşmə üsulu kimi istifadə olunur (xüsusi seçilmiş xalq oyunları).

Hər bir fiziki hərəkətdə metodiki xüsusiyyətlər müxtəlif üsullarla təzahür olunur: parlaq və ya zəif, çox və ya az – keçirilən şəraitdə və müxtəlif tələblərdən istifadə etməsindən asılılığı.

Mütəhərrik oyunların pedaqoji qruplaşması (təsnifatı) oyunun məzmununun mühüm xüsusiyyəti haqqında təsnifatı ilə təsəvvür yaratmasına, eyni zamanda bu və ya digər oyunun keçirilməsində qarşıya qoyulan pedaqoji vəzifəyə müvafiq konkret şərait üçün düzgün seçmənin asanlaşdırmasına kömək edir (oxşar əlamətlərinə görə oyunların qruplar üzrə bölünməsi).

Hərtərəfli fiziki hazırlıq üçün oyunların tətbiqi prinsipi: ideyalılığı – mənəvi və əxlaqi vəzifələrə, elmi əsaslandırma və oyun metodunun planlı istifadəsinə, sağlamlaşdırıcı, maarifləndirici və tərbiyələndirici nəticələrin əldə olunmasına müvafiqliyi; pedaqoqların, yaşlı şəxslərin rəhbər rolu; oyunun gimnastika ilə, idman və turizmlə müqayisədə fiziki tərbiyənin konkret vəzifələri və məşğul olanların müxtəlif yaş qruplarının xüsusiyyətini nəzərə alınmasına yönəldilməlidir.

